TEYYUB QURBAN

# DÜŞMƏNLƏRİNDƏN GÜCLÜ ŞƏXSİYYƏT

BİRİNCİ KİTAB

**Bakı**
**Şirvannəşr**
**2006**

**Beynəlxalq Qızıl Priz laureatı (Madrid, 2004)**
**Şirvannəşr, 142 (862) 2005**
**Naşir Qəşəm İsabəyli**

**Mir Cəfər Bağırovun anadan olmasının 110 illiyi miinasibətilə**

**Redaktoru Qorxmaz Quliyev**
**filologiya elmləri doktoru, professor**

**Teyyub Qurban. Düşmənlərindən güclü şəxsiyyət**
**Mir Cəfər Bağırov haqqında məqalələr toplusu.**
**Bakı, Şirvannəşr, 2006.**
**584 səh.**

Kitabda M.C.Bağırovun çoxcəhətli siyasi fəaliyyəti arxiv sənədləri əsasında şərh edilir, Kremlin daşnak-rus hakimlərinin göstərişi ilə 1956-cı ildə qurulmuş qondarma məhkəmənin bütün ittihamları ifşa olunur.

Müəllifin fikrincə, M.C.Bağırov Azərbaycan xalqının ən nəhəng və əyilməz tarixi şəxsiyyətlərindəndir.

T 833. Az (2)
054

**© Teyyub Qurban, 2006**

**Ünvan: Bakı-Az 1021, Badamdar şos. 77.**
**Tel: 492-92-27, 492-93-72, 434-70-94, (050)316-23-40**

# Ön söz əvəzi

2005-ci il sentyabr ayının 8-də «Ekspress» qəzetində şair-tədqiqatçı Teyyub Qurbanın «Dahi bəstəkar necə xilas edildi» adlı bir məqaləsi dərc edilmişdi. Müəllif uzun müddət dövlət arxivlərində axtarışları nəticəsində bu günlərdə 120 illiyini qeyd etdiyimiz dahi bəstəkar Üzeyirbəy Hacıbəyovun 1937-38-ci illər repressiyasından necə xilas olması faktına aydınlıq gətirir. T.Qurban arxiv sənədlərinin nöqtə və vergülünü belə dəyişmədən üzünü çıxarıb geniş oxucu kütləsinə təqdim etmişdir.

Məlum olduğu kimi, o dövrdə Üzeyir bəyin başı üzərində qara buludlar dolaşmaqda idi. Dahi bəstəkarın yaxın dostları həbs edilmişdi. Tərcümeyi-halında bir balaca qaranlıq və şübhəli məqamlar olan insanların hamısı həbs olunur, ya Təhlükəsizlik Komitəsinin rütubətli zindanlarında çürüyür, ya sürgünə göndərilir, yaxud da güllələnirdi. Ü.Hacıbəyovun ətrafında olan adamlardan da çoxu müxtəlif böhtanlarla zindanlara atılmışdı. Üzeyir bəyə isə dəyib-toxunan yox idi. Hamı məəttəl qalmışdı: görəsən Üzeyirbəyi qoruyan hansı fövqəl qüvvədir?

Tərcümeyi-halında olan bəzi məqamlarla dövrün repressiya burulğanından onun salamat qurtaracağı, doğrudan da möcüzə idi. Qardaşı Türkiyədə yaşayırdı. Özü Müsavat hökuməti dövründə «Azərbaycan» qəzetinin redaktoru və Müsavat partiyasının üzvü olmuşdu.. .Dahi bəstəkarın şəxsiyyətinə aid olan bu faktlardan hər hansı biri kiminsə tərcümeyi-halında aşkar edilsəydi, sorğu-sualsız güllələnməli idi. Üzeyirbəyə isə bir söz deyən yox idi. Bu, onun düşmənlərini bərk qəzəbləndirirdi. Onlar yuxarı hökumət orqanlarına bir-birinin ardınca ərizə və şikayətlər yazıb göndərirdilər. Bu sahədə ermənilər xüsusilə canfəşanlıq edirdilər. Azərbaycan xalqının belə bir dahi sənətkar yetişdirdiyini onların gözləri götürmürdü. 1937-ci il noyabrın 5-də Azərbaycan Dövlət Konservatoriyası və Musiqi Məktəbinin partiya komitəsindən milliyyətcə erməni olan katibi Kiranovun imzası ilə göndərilmiş məktubda yazılırdı: «Xarici ölkə səfirliyi ilə əlaqə saxladığına görə hazırda həbs edilmiş Firuzə İbrahimova Üzeyir Hacıbəyovun keçmiş tələbəsidir.»

Azərbaycan Dövlət Filarmoniyasının Həmkarlar İttifaqı Komitəsinin sədri Akopyanın məktubunda isə belə deyilirdi: «Ü.Hacıbəyovun rəhbərlik etdiyi Dövlət xor kollektivinə digər təhsil ocaqlarından qovulmuş yad ünsürlər cəlb edilir. Məsələn, Q.Əmiraslanova iri neft sənayeçisi olmuş sinfi düşmənin qızıdır. S.Məmmədbəylinin atası xalq düşməni kimi güllələnmiş polkovnik olmuşdur. Hacıbəyov Müsavat dövründə «Ordan-burdan» adlı qəzet çıxarmışdır. Əməkdar incəsənət xadimi İonesuanın söylədiyinə görə, həmin qəzetin bir nüsxəsi xalq artisti Sarabskidədir.»

Göründüyü kimi, Azərbaycan musiqi aləminə soxulmuş ermənilər Ü.Hacıbəyov və ümumiyyətiə, azərbaycanlılar əleyhinə əlbir işləyir və eyni zamanda xalq artisti Sarabskinin üstünə də kölgə salırlar. «Ordan-burdan»ın bir

nüsxəsinin Sarabskidə olması ilə onun da fəaliyyətini şübhə altına almaq istəyiblər. Orasını bilmirdilər ki, «Ordan-burdan» neytral mətbu orqanı idi və onu bütün kitabxanalarda tapmaq olardı. Əslinə baxsan, bu ermənilər - o zamankı Azərbaycanın musiqi müəssisələrinə yol tapmış daşnaklar çox məharətlə pərdələnmişdilər.

Akopyanın məktubu belə qurtarırdı: «Ü.Hacıbəyovun qardaşı Müsavat Partiyasının üzvü olmuşdur. Bolşeviklər Bakıya daxil olanda o, İrana qaçmışdır. Bütün bunları, eləcə də onun Naxçıvan MSSR-dən SSRİ Ali Sovetinin Millətlər Sovetinə deputatlığa namizədliyinin irəli sürülməsini nəzərə alaraq xahiş edirik ki, Ü.Hacıbəyovun tərcümeyi-halını diqqətlə yoxlayasınız və onun əsl simasını aşkar edəsiniz.» Daşnak tör-töküntülərinin ürəyi bununla da soyumurdu. Ardı-arası kəsilmədən Moskvaya yazırdılar. SSRİ Xalq Daxili İşlər Komissarlığına yazılmış bu məktublar yoxlanılıb, onların haqqında tədbir görülmək üçün Bakıya qaytarılırdı. Bakıda bu məktublar Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədri Sumbatov tərəfindən araşdırıldıqdan sonra Ü.Hacıbəyovun namizədliyinin geri götürülməsi təklifi ilə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırova göndərilirdi. M.C.Bağırov həmin məktubları bir qovluğa yığıb öz seyfində saxlayırdı. Beləliklə, tədbir görülməsi ləngidilirdi. O başa düşürdü ki, Ü.Hacıbəyovun barəsindəki bu məktubların sahibləri xalqın böyük bəstəkarını aradan götürməyə çalışırlar. Burada daşnakların barmağı olduğunu o, gözəl bilirdi. Buna görə də Üzeyirbəyi düşmən ünsürlərin əlindən xilas etməyə çalışırdı. Göndərilən məktubların qarşısını almaq üçün Üzeyirbəyin hörmətini artırmağa çalışırdı. Bu məqsədlə SSRİ Ali Sovetinə seçkilər zamanı onun Naxçıvandan deputatlığa namizəd göstərilməsinə nail oldu. O bilirdi ki, bəstəkar «Koroğlu» adlı yeni operası üzərində işi qurtarıb teatra təhvil vermişdir. Onun səhnədə tamaşaya qoyulmasını tələsdirirdi. Nəhayət, 1937-ci il dekabrın 1-də Azərbaycan K(b)P MK «Naxçıvan seçki dairəsindən Millətlər Sovetinə deputatlığa namizəd Ü. Hacıbəyov haqqında ifşaedici materiailara Sumbatov yoldaşın rəyi barədə» bir qərar qəbul etdi. Teyyub Qurban bu qərarı Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində tapmışdır. Qərarda deyilir: «Ü.Hacıbəyov haqqında ifşaedici materiallar əlavə tədqiqat tələb etdiyinə görə, Sumbatov yoldaş istintaqı başa çatdırmalı və nəticəsi barədə Azərbaycan K(b)P MK bürosuna məlumat verməlidir. Ü. Hacıbəyovun böyük bir bəstəkar kimi nüfuz qazandığını və «Koroğlu» kimi operanın müəllifi olduğunu nəzərə alaraq, onun deputatlığa namizədliyi geri götürülməsin.» Məlum olur ki, M.C.Bağırov məhz buna görə göndərilən məktublar barədə tədbir görməyi ləngidirmiş. Bir sözlə, o, dərindən düşünülmüş tədbirlərtə böyük bəstəkarı gözlənilən fəlakətdən xilas etmişdir.

Üzeyir Hacıbəyov 1937-ci il dekabr ayının 12-də SSRİ Ali Sovetinə deputat seçilmiş və 1938-ci ilin yanvarında Moskvada SSRİ Ali Sovetinin sessiyasında bir deputat kimi iştirak etmişdir.

Moskvada göstərilən «Koroğlu» operası Stalinin çox xoşuna gəlir. Bundan istifadə edən M.C.Bağırov Üzeyirbəy Hacıbəyovun fəaliyyəti barədə Stalinə ətraflı məlumat verir və onun Kommunist Partiyasına daxil olmaq istəyini bildirir. Stalin böyük məmnuniyyətlə razılıq verir. 1938-ci il may ayının 11-də Azərbaycan K(b)P Mərkəzi Komitəsi bürosunun belə bir qərarı çıxır: «ÜİK(b)P Mərkəzi Komitəsindən xahiş edilsin ki, SSRİ xalq artisti, SSRİ Ali Sovetinin deputatı, ordenli bəstəkar Hacıbəyov Üzeyirbəy Əbdülhüseyn oğlu müstəsna olaraq, namizədlik stajı keçmədən Kommunist Partiyası sıralarına qəbul edilsin.»

Sonrakı illərdə də M.C.Bağırovun Ü.Hacıbəyov barədə qayğıkeşliyini təsdiqləyən arxiv sənədlərinə rast gəlmək olur. Bəstəkar xəstələnərkən evinə gedib ona baş çəkməsini, həkimlərlə onun xəstəliyi barədə söhbətlərinə aid kiçicik qeydlərini də müəllif unutmamışdır. Bu baxımdan onun apardığı tədqiqat çox qiymətlidir.

P.S. Teyyub Qurbanın bu qeydləri 1941-45-ci illərdə Güney Azərbaycanda olduğum günləri yadıma saldı. Bir gün Təbrizin küçələrinə vurulmuş reklam vərəqələri ilə xəbər verildi ki, sabahdan ekranlarda «Arşın mal alan» filmi göstəriləcəkdir. Yoldaşlarımızla birlikdə çox sevindik. Bakıdan gedərkən «Azərbaycanfilm» tərəfindən «Arşın mal alan» filminin çəkilişinə başlandığını bilirdik. Deməli, film artıq hazırdır. Lakin ertəsi gün kinoteatra gəlib, ekrandakı titrləri oxuyanda gözlərimizə inanmadıq. Titrlərdə yazılmışdı ki, «Arşın mal alan» erməni rəvayətidir. Məlum oldu ki, Ü.Hacıbəyovdan oğurlanmış bu filmi Amerika erməniləri çəkmişlər. Deməli, hələ 1919-cu ildən başlayaraq ermənilər bu böyük sənətkarı təqib edir, onun nailiyyətlərini öz adlarına çıxırdılar. Bizim o zaman Təbrizdəki hərbi komandanlığımız vasitəsilə filmi ekrandan yığışdırıb, lenti də yandırdılar. Bütün həyatları boyu oğru kimi tanınmış ermənilərin bu dəfəki cəhdləri də puça çıxdı.

**Qılman İlkin**
xalq yazıçısı

# DÜŞMƏNLƏRİNDƏN GÜCLÜ ŞƏXSİYYƏT

**("Həftə" qəzeti, 19 iyun – 10 avqust 1998)**

Əsrin ortasında sədaqətlə xidmət etdiyi rejim tərəfindən ölümə məhkum edilmiş M.C.Bağırov əsrin sonunda yaşamaqdadır. Çünki şəxsiyyəti aradan qaldırmaqla tarixi dövrü məhv etmək mümkün deyildir. Tarixi araşdırmalar bir həqiqəti də meydana çıxarır: Leninin ölümündən sonra Nəriman Nərimanov, Stalinin vəfatından sonra isə Mir Cəfər Bağırov Kremlin şovinist-ermənipərəst hakimlərinin hədəfi olmuşdur. Düşmənlərimiz xalqımızın mənliyi keşiyində duran rəhbərlərimizi əlimizdən alandan sonra dədə-baba torpaqlarımızı asanlıqla mənimsəmişlər.

...1953-cü ilin martında Moskva matəm içərisində ikən, Kreml divarları arasında bu ölümə sevinənlər də var idi. Stalinin dəfnini təşkil edən komissiyanın sədri N.S.Xruşşov A.İ.Mikoyan ilə baş-başa vermişdi. Fürsəti fövtə vermək olmazdı. Onlardan birincisi partiyanın birinci katibi, ikincisi Ali Sovetin Rəyasət heyətinin sədri olmalı idi. Bunun üçün Stalinin şəxsiyyətinə pərəstiş məsələsi qaldırılmalı, o, Lenin işinin layiqsiz davamçısı kimi Mavzoleydən götürülməli idi. Bu, onlar üçün müşkül iş deyildi. Başlıca maneə Lavrenti Beriya idi. Onu oyundankənar vəziyyətə salıb, məhv etmək lazım idi. Mikoyan Beriyanın şəxsi mühafizə qrupunda olan erməni soydaşı ilə gündəlik əlaqə saxlayırdı, Sarkisov xəyanətə hazır idi. Xruşşov isə Beriyanın yanına, bağına gedirdi. Mikoyanın məsləhəti ilə şirin dilini işə salaraq, Stalinin vəfatından sonra ölkədə möhkəm qayda-qanun yaratmaq üçün Beriyadan xahiş edirdi ki, SSRİ Daxili İşlər Naziri olsun. Mikoyan-Xruşşov sövdələşməsindən bixəbər olan Beriya, nəhayət, buna razılıq verdi və ... cəmi üç ay bu vəzifədə çalışdı.

Stalinin ölümündən dörd ay sonra, 1953-cü il iyul ayının 2-də Sov. İKP MK-nın plenumu keçirildi. Xruşşovun sədrlik etdiyi bu plenumda Beriyanın partiyaya və dövlətə zidd hərəkətləri barədə məsələ müzakirə edilirdi. L.Beriya plenumda yox idi və ola da bilməzdi. Stalinin Mikoyan və Xruşşov kimi dönük silahdaşları «ikinci gürcünü» də kişi kimi, üzünə tənqid edə bilməzdilər. Bəs Beriya harada idi? Sonralar Nikita Xruşşov öz xatirələrində belə yazırdı: «SSRİ Müdafiə Nazirinin müavini G.Jukov ilə o vaxtlar münasibətimiz yaxşı idi. Beriyanı tutmaqda hərbçilərin qüvvəsindən istifadə etdik... Onu tutub SSRİ Nazirlər Soveti binasında Malenkovun kabineti ilə yanaşı olan otağa saldılar. Qərara aldıq ki, sabah, ya ertəsi günü MK-nın plenumunu çağıraq. Beriya ilə birlikdə SSRİ baş prokurorunu da azad edək, yerinə Rudenkonu təyin edək və Beriyanın istintaqını ona tapşıraq... Beləliklə, Beriyanı həbs etdik.

İyun ayının 26-sı Xruşşov və Mikoyan üçün Stalinin vəfatından sonra ən fərəhli bir gün idi. Beriya məhkəməsiz və istintaqsız öldürülmüşdü.

Serqo Beriya atasının və ailələrinin faciəsi barədə belə yazır: «Mən işdə idim. Evə qayıtdım, atamı görmədim. Öldürüblər? Həbs ediblər?

Bağımıza getdim. Gördüm ki, bağ hərbçilərlə əhatə olunmuşdur. Anam, arvadım, uşaqlarımız bir otaqda -hərbçilərin yanında idilər. Anam məndən soruşdu: Atanı görmüsən?

Sonra arvadımla məni bir maşında, 1947-ci və 1950-ci il təvəllüdlü iki qızımızı ayrı maşında apardılar.

...Yarım aydan sonra mənə bildirdilər ki, həbs olunmuşam. Lefortovoya salındım, sonra da Butırka türməsinə keçirdilər. Anam da bu türmədə idi. Saçlarım bir gündə dönüb ağ oldu.

...1953-cü ildə səksən dörd yaşında ikən nənəmi Tbilisidən yüz kiiornetriərə uzaqiarda yeriəşən tənha qocaiar evinə göndərdilər».

..1953-cü ilin iyun günlərində Moskva ətrafındakı başqa bir bağ evində Anastas Mikoyan Beriyadan sonra Mir Cəfər Bağırovu məhv etmək planlarını beynində cızırdı. Mikoyanın daşnaklarla fəaliyyətindən bəhs edən arxiv materiallarının Bakıda qalmasına, yəqin ki, son qoyulacaqdı. M.C.Bağırov da dostu Beriya kimi öldürüldükdən sonra Zaqafqaziyada ermənilər istədiklərini edəcəkdilər. XIX qurultaydan sonra keçirilən ilk plenumda Stalinin onu «qorxaq» adlandırması yadına düşürdü. Kiçik bir çıxışında Stalinin adını otuz dəfə çəkən Mikoyan indi rəhbərin zəhmli baxışları qarşısında ağappaq ağarmış, cansız meyitə dönmüşdü. Bağırov da o plenumda idi, Mikoyanın halına bəlkə də sevinirdi. «Mikoyan, Sarkis Mirzoyan kommunizm bayrağı altında daşnak əməlləri yeridir.» Bu sözlər N.Nərimanova məxsus idi və arxiv sənədlərində, Bakıda qalmışdı. Moskvaya gətirib arvadının müdir olduğu arxivə təhvil verməlidir... Sonra da... Sonra da...

İyul plenumu öz işini qabaqcadan hazırlanmış senari üzrə davam etdirirdi. Malenkov bəyan etdi ki, Beriya Almaniyada sosializm qurulmasının tərəfdarı olmamışdır. Xruşşov söyləyirdi ki, heç kommunist olmamışdır. O, xalqlar dostluğunun düşməni idi, burjua-millətçi ünsürlərini fəallaşdırırdı.

Silahdaşını və dostunu ölümündən sonra ifşa etməyə adət etmiş partiya və dövlət xadimləri Beriyanın qarasına o ki var döşəyirdilər.

Mir Cəfər Bağırovdan əvvəl çıxış edən Kaqanoviç bildirirdi ki, Beriya fəhlə sinfini tanımırdı və tanımaq da istəmirdi. Partiyamız qoyun dərisinə girmiş canavarı tərksilah edə bildi.

Mir Cəfər Bağırov çıxışının əvvəlində «qoyun dərisinə girmiş başqa bir canavarın» bostanına daş atdı. O, Nikita Sergeyeviç Xruşşovun çıxışında səslənən bir məsələyə aydınlıq gətirdi: «1937-ci ildə bu zalda keçirilən MK plenumunda deyildiyi kimi, Beriya Müsavat kəşfiyyatında, Müsavat polisində işləmişdir. Qeyd etməliyəm ki, Azərbaycanda Sovet hökumətinin müvəqqəti məğlubiyyətindən sonra mən Rusiyaya getdim və Azərbaycana 1920-ci ildə bizim Qızıl Ordu ilə birlikdə qayıtdım. Ancaq mən çox yaxşı bilirəm ki, əksinqilabi Müsavat rejimi şəraitində bütün gizli işlər, bütün kadrlar, Bakıda partiya təşkilatının gördüyü işlər, Leninin və Stalinin Həştərxan vasitəsilə, Kirov vasitəsilə Bakıya çatdırılan göstərişləri - bütün bunlar Anastas İvanoviç Mikoyanın birbaşa başçılığı ilə həyata keçirilirdi. Odur ki, əgər Beriya partiya təşkilatı tərəfindən hara isə, xüsusilə də

kəşfiyyata göndərilsəydi, bu barədə Anastas İvanoviç bilməliydi. Anastas İvanoviç bir dəfə də olsun bu barədə danışmayıb».

Azərbaycan KP MK-nın birinci katibinin mərdi-mərdanə söylədiyi bu sözlər iclas zalında bomba kimi partlayaraq, Mikoyanın havadarlarının qəzəbinə səbəb oldu. Natiqi iyirmi dəqiqəlik reqlamentə görə asudə danışmağa qoymadılar. Yerli-yersiz sözünü kəsərək suallar yağdırdılar. Sanki qarşılarındakı adi bir müqəssir idi. Plenumun stenoqrafik hesabatındakı aşağıdakı sorğu-suallara fikir verin:

«Suslov - MK-nın təlimatçıları Azərbaycana gəlməyə qorxurdular.

Bağırov - Azərbaycana?

Suslov - Bəli, Azərbaycana. Sizin arxanızda şef durduğu üçün qorxurdular.

Bağırov - Bilmirəm onlar kimdən qorxurdular və nə üçün şeflər barədə indiyədək susmuşlar.

Malenkov - Yoldaş Bağırov, sən özünü təmizə çıxarırsan. Sən Beriya ilə yaxın olmusan».

Mir Cəfər Bağırov Azərbaycan xalqının rəhbəri kimi və millətimizin əyilməzlik xislətini yaşadan bir dövlət xadimi kimi danışdı. Dünən Stalinçi, bu gün Xruşşovçu olan Malenkovların, Mikoyanların, Suslovların, Kaqanoviçlərin dərsini verdi. Kəlməbaşı onun sözünü kəsənlərin səviyyəsinə enmədi. Nitqini belə bitirdi: «Mən özümü təmizə çıxarmıram. Ancaq demək istəyirəm ki, bəzi yoldaşların atmacalarını eşitmək mənə ağırdır. Ola bilərki, mən işimdə bir çox nöqsanlara yol verirəm. Ancaq mən həmişə bir şeyə çalışmışam - partiyaya xidmət etməyə, partiya işinə xidmət etməyə, kommunizmə xidmət etməyə. Mən yalnız bunları demək istəyirdim».

Mikoyan iyul plenumunda da sudan quru çıxdı. Plenumun qərarında deyilirdi: «Müəyyən edildiyi kimi, Beriya 1919-cu ildə Bakının ingilis işğalı dövründə, Azərbaycanda ağqvardiyaçı müsavat kəşfiyyatında xidmət göstərmiş və bu xəyanətkar fəaliyyətini partiyadan gizlətmişdir».

1953-cü il dekabrın 24-də mətbuatda «SSRİ Ali Məhkəməsində» başlığı ilə verilən məlumatda da bu sözlər yazılmışdı. O zamanlar Azərbaycan qəzetləri də Beriya haqqında həqarətlə yazırdılar. «Kommunist» qəzetindəki sərlövhələrə diqqət yetirin: «Azərbaycan zəhmətkeşləri Vətən xainlərinə qəzəblə lənət yağdırırlar», «İmperializm nökərlərinin hiylələrinə yeni əmək müvəffəqiyyətlərilə cavab verəcəyik» və b.k.

Sov. İKP MK-nın iyul plenumunda N.S.Xruşşovun Ukraynadan tanıdığı Roman Andreyeviç Rudenko SSRİ baş prokuroru təsdiq olundu. Nümberq məhkəməsində faşizmə qarşı ittihamçı kimi çıxış etmiş məşhur hüquqşünasa Xruşşov və Mikoyan məxfi tapşırıq verdi: Azərbaycan xalqının rəhbərinə məhkəmə qursun. Həqiqi dövlət ədliyyə müşaviri, SSRİ baş prokuroru Mir Cəfər Bağırova qarşı hökmün layihəsini hazırladı: «Azərbaycan SSR, Quba şəhər sakini, 1896-cı

ildə anadan olmuş Bağırov Mir Cəfər Abbas oğlu - RSFSR Cinayət Məcəlləsinin 58-1 «b», 58-8, 58-11 maddələrilə müqəssir bilinir.

Tarixdə ilk dəfə idi ki, Quba şəhər sakini...SSRİ baş prokurorunun qərarı ilə məsuliyyətə alınırdı. Nə üçün? Məgər «dünya şöhrətli» baş prokuror bilmirdimi ki, yer üzündə kütləvi qırğınların mənbəyi bolşevizmdir?! Leninin «güllələmək», «həbs etmək» kimi dərkənarları bu qəddar rejimin rəhbərləri tərəfindən bütün ucsuz-bucaqsız SSRİ ərazisində həmişə müvəffəqiyyətlə yerinə yetirilmişdi. 1917-ci ildən başlayaraq milyonlarla günahsız adam həbs olunmuş, sürgün edilmiş və güllələnmişdir.

Bütün bunlar üçün Azərbaycan SSR-in rəhbəri niyə cavab verməlidir? Üstəlik başçılıq etdiyi respublikanın deyil, digər respublikanın Cinayət Məcəlləsinin maddələri ilə niyə mühakimə edilməlidir?

Məsələnin əsl mahiyyəti bundan ibarət idi ki, Mir Cəfər Bağırovun aradan götürülməsi Mikoyanların çoxdankı arzusu idi. Rudenkonun məhkəmədə M.C.Bağırova verdiyi suallar elə bil əvvəlcədən ermənilərin diqtəsi ilə hazırlanmışdı. Nəzər yetirin:

Rudenko - Müttəhim Bağırov, 1947-ci ildə Nizami təntənələrinə gələn Şaginyan Mariettanı siz qəbul etməyib, hələ üstəlik təhqir etmişdiniz, nə üçün?

Bağırov - Əsərlərində Qarabağ və Naxçıvan torpaqlarına göz dikdiyi üçün. Mənimlə görüşmək istəyirdi, rədd etdim. Dedim ki, nə qədər istəyir verin, yeyib-içsin və çıxıb getsin.

Rudenko - Müttəhim Bağırov, siz marşal Baqramyanı təhqiredib hədələmisiniz.

Bağırov - Özünü yox, qardaşı Baqramovu... Kür-Araz İnşaat İdarəsinin rəisini. Qudurmuşdu. Özünü elə aparırdı ki, guya qardaşı yox, özü marşaldır. Respublika ona tabedir.

Rudenko - Böyük Sovet Ensiklopediyasının baş redaktoru Suren Şaumyanı nə üstə təhqir etmisən?

Bağırov - Bakıdan qovmuşam. Bir dəstə adamla gəlib arxivlərimizi ələk-vələk etmək istəyirdi. Daha doğrusu, kommunist pərdəsi altında daşnakların törətdiyi cinayətləri, müsəlmanların izini yer üzündən silmək, banklardan və evlərdən talan edib oğurladıqları sərvətlərə aid sənədləri aradan qaldırmaq istəyirdi. Mən də əmr etdim ki, 24 saat ərzində Bakını öz dəstəsi ilə tərk etsin.

...Mir Cəfər Bağırovun respublikaya rəhbərliyi dövründə ermənilərin Azərbaycan arxivlərindən çıxara bilmədikləri həmin sənədləri 1965-ci ildə Mikoyan Bakıda dörd çamadana doldurub qatarla Moskvaya apardı.

* * *

Moskva həmişə Azərbaycana ermənilərin gözü ilə baxmışdır. Leninin də, Stalinin də, Xruşşovun da, Brejnevin də, Qorbaçovun da Azərbaycan SSR üzrə ən

yaxın məsləhətçiləri qatı düşmənlərimiz olmuşlar: Şaumyan, Mikoyan, Ter-Qabrielyan, Kamo, Spandaryan, Knunyans, Kasparov, Karaxanyan, Proşyan, Avanesov, Aqanbeqyan, Şahnazarov...Hətta Leninin şəxsi katibəsi də erməni olmuşdur.

Azərbaycanda Sovet hakimiyyətinin ilk illərində N.Nərimanov yazırdı: «A.Mikoyan Bakı komitəsinin şəxsində müxalifət yaradır». Həm Stalinlə və həm də Xruşşovla, sonra da Brejnevlə canbir silahdaş rolunda olan Kreml "Yaqo"su da «müxalifəti» iqtidar kürsüsünə qaldırmışdı. Fransada, Amerikada, Livanda və digər ölkələrdə fəaliyyət göstərən daşnaklar və erməni keşişləri Mikoyanın səsinə züy tutmuşlar. Sovet Azərbaycanının rəhbərləri isə, əfsuslar olsun ki, öz daxilimizdə sinfi düşmən axtarıb, adını da «müsavatçı» qoymuşlar.

Nəriman Nərimanovdan sonra Azərbaycan SSR tarixində Mir Cəfər Bağırov Kremlin Azərbaycana uzanan erməni əlini bir qədər tutub saxlaya bilmişdi. Məhz Stalinin ölümündən və Mir Cəfər Bağırovun aradan götürülməsinə nail olandan sonra ermənilər və ermənipərəst qüvvələr Dağlıq Qarabağın guya Stalin tərəfindən Azərbaycana bağışlanmasından dəm vurmağa başladılar.

Öz təbiətinə görə humanist və beynəlmiləlçi olan millətimizə qarşı Kremlin ermənipərəst rəhbərliyi Mir Cəfər Bağırovla bir yerdə çalışmış partiya və dövlət xadimlərimizə millətçilik damğası vurdular. 1959-cu ildə əslində erməni mövqeyində duran Sov. İKP MK Azərbaycan SSR-də millətçilik meyllərinin mövcud olması barəsində qərar qəbul etdi. Nəticədə Nəriman Nərimanovun abidəsi vaxtında ucaldılmadı, anadan olmasının 100 illiyi münasibətilə materiallar dərc etmiş mətbuat işçiləri cəzalandırıldı... Bakıda Şaumyana, Yerevanda «genosid qurbanlarına» heykəllər yapıldı... Azərbaycanın bir sıra rayon və kəndləri qazsız qaldıqları halda Bakıdan birbaşa Yerevana qaz kəməri çəkildi.

Bədxahlarımızın gözündə Nərimanovları, Mir Cəfərləri yetirən bir xalq millətçi, şaumyanları və andronikləri yaşadan xalq beynəlmiləlçi idi...

O zamanlar Xruşşov-Mikoyan dəstəsinin gizli tapşırıqlarını Kremlin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsindəki tam səlahiyyətli səfiri V.Semiçastnı yerinə yetirirdi. Nəriman Nərimanova millətçi damğası vurmaq istəyərkən Şaumyanın oğlunu xitabət kürsüsündən aşağı salan Şıxəli Qurbanov haqqında Moskvaya ilk məlumatı da MK-nın ikinci katibi dərhal çatdırmışdı.

...1953-cü ildə iyul plenumunun son iclasında sonuncu natiqlər arasında çıxış edən Ermənistan KP MK katibi Q.Arutyunov Mir Cəfər Bağırovdan sonra Zaqafqaziyada ermənilərin şahlıq taxtında bardaş quracaqlarına tam əmin idi və sevincini gizlətmirdi. Bundan əvvəllər keçirilən Moskva yığıncaqlarında yalnız və yalnız Ermənistanın adından danışan respublika rəhbəri indi bütün Zaqafqaziya zəhmətkeşləri adından dəm vururdu. Elə çıxırdı ki, Stalinə və Beriyaya görə gürcülər, Mir Cəfər Bağırova görə isə azərbaycanlılar bundan sonra Zaqafqaziyada gözükölgəli gəzməlidirlər. Onların sözünü ermənilər bəyan edəcəkdilər. Q.Arutyunov çıxışını belə bitirirdi: «Zaqafqaziya respublikalarının zəhmətkeşləri

Plenumun qərarlarını yekdilliklə bəyənir və bundan sonra da Leninçi-Stalinçi Mərkəzi Komitə və Sovet hökuməti ətrafında sıx cərgədə birləşəcəklər».

Əlbəttə, Kommunist Partiyası Mərkəzi Komitəsi və Sovet hökuməti ətrafında birləşmək ermənilərin millətçilik mənafeyinə daha uyğun idi. Çünki azərbaycanlılara qarşı düşmənçilik əməllərini həyata keçirmək üçün bundan əlverişli bir vasitə yox idi. Ən başlıcası isə, Dağlıq Qarabağı Azərbaycandan qoparmaqda ölkə rəhbərliyinin iştirakını təmin etmək idi. Bunun üçün ilk növbədə Azərbaycanda erməni kadrların işləməsinə nail olmaq lazım idi. Belə də oldu. Bu daşnak "rəhbər" işçilərin əli ilə xalqımızın başına yeni-yeni müsibətlər gətirildi. Onlara gözün üstə qaşın var deyən olmadı. Xankəndində günortaçağı hamının gözü qarşısında iki azərbaycanlı müəllimin üstünə benzin tökülüb yandırıldı. Dağlıq Qarabağın başçısı Melkumyan isə AHİŞ-in katibi vəzifəsinə irəli çəkildi.

İyul plenumundan sonra, Stalinin şəxsiyyətinə pərəstişin aradan qaldırılması pərdəsi altında bir tərəfdən Azərbaycanın keçmişdə «xalq düşməni» kimi damğalanmış görkəmli partiya, dövlət xadimləri bəraət alır, bir tərəfdən onların arasında ermənilərin xoşlamadığı şəxsiyyətlərimizə qarşı yeni böhtançı hücumlar başlayırdı. Beləliklə, buna səy göstərilirdi ki, Azərbaycanda heç bir zaman milli deyilən bir məfhum olmasın, erməni kommunistləri arasında daşnak xislətlilər, Azərbaycan kommunistləri arasında ermənisevərlər çoxluq təşkil etsin. Bu illərdə Nəriman Nərimanovun Sovet hakimiyyətinin ilk mərhələsində dediyi sözlər necə də aktual səslənirdi: «Hal-hazırda Azərbaycanda məhz Azərbaycanı təmsil edən partiya vardırmı? Belə bir partiya yoxdur və nə qədər ki, mirzoyanlar öz əclaf siyasətindən, Azərbaycanı simasızlaşdırmaq siyasətindən əl çəkməyəcəklər, həmin partiya olmayacaqdır».

...1953-cü ildə Sov. İKP MK-nın iyul Plenumundan dərhal sonra Azərbaycanda buna müvafiq plenumun hazırlanıb keçirilməsi Azərbaycanı simasızlaşdırmaq siyasətinin davamı idi, Xruşşov və Mikoyan yenicə Sov. İKP MK katibi seçilmiş Pyotr Pospelovu Azərbaycana göndərmişdilər. Pospelovun canfəşanlığına baxmayaraq, Sov. İKP Plenumundan fərqli olaraq, Azərbaycandakı plenumda «müqəssiri» müdafiə edən də üzə çıxdı. Kim idi o bir nəfər? Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Mehbalı Əmiraslanov!

Mir Cəfər Bağırovun plenumdakı son sözü on üç dəqiqə çəkdi. Bu, onun illər uzunu çiyin-çiyinə çalışdığı, soydaşları olan partiya və dövlət xadimləri qarşısındakı vida sözü idi. Bağırov çoxları üçün gözlənilməz görünən bir həqiqəti də aşkarladı: «Bir dəfə Stalin mənə zəng vurub bildirdi ki, Arutyunov yüz min azərbaycanlının Ermənistandan köçürülməsi barədə məsələ qoyur. Cavab verdim ki, bu mürəkkəb məsələdir. Stalin dedi: «Fikirləşmək gecdir, qərar qəbul olunub».

Mir Cəfər Bağırovun daha həmvətənlərinə deyiləsi sözü qalmamışdı. Plenumun qərarı ilə onu «Kuybışevneft» birliyinin rəis müavini vəzifəsində

işləməyə göndərdilər. Bu, əslində Mir Cəfər Bağırovun Azərbaycandan uzaqlaşdırılıb, daha doğrusu, sürgün edilib, sonra da «gözdən uzaq, könüldən iraq» prinsipi ilə həbs edilməsinə şərait yaratmaq idi.

* * *

... Mir Cəfər Bağırov ailəsi ilə indiki Niyazi küçəsindəki Rüstəm Mustafayev adına İncəsənət muzeyi kimi tanınan binada yaşayırdı. İşə piyada gedib-gələrdi. Adi adamlar belə hər gün bunun şahidi olardılar. Bəli, şahidi olardılar... Bir daha olmayacaqdılar...

Mir Cəfər Bağırov mənzilinin «Ölülər bağı»na baxan pəncərəsi qabağına gəldi: «Mənə deyirdilər ki, göz xəstəxanasının o yanında ev tikək, arvadının vəfatından sonra köçüb orada yaşa. Dedim ki, bura qəbiristanlıq yeri olub, ölənlərin ruhu inciyər. Elə mənzilim pis deyil, öyrəncəli olmuşam. Bir də o boyda Stalin yoldaş üçün ikimərtəbəli bina tikiblər, ancaq bir gözündə qalır, yeyir-içir, kitab oxuyur, dincəlir... Razı olmadım. Yaxşı da elədim».

Sonra otaqda var-gəl elədi. Bu dəfə dənizə açılan pəncərə qarşısında ayaq saxladı. Şəhər adi həyat tərzində idi. Hava sakit idi, külək əsmirdi. Sahil sularına qonan ağ qağayılar gözə görünürdü. Uzaqdan ağ kəpənəklər kimi qaynaşan qağayılar onun düşüncələrini qanadlarına alıb aparırdı. Xəyalında Zuğulbadakı bağında gəzib-dolandı. Oradan dəniz kənarı ilə Sumqayıta yol aldı, H.Z.Tağıyevin çəkdirdiyi Şollar suyu kəməri boyunca Dəvəçiyə, Xaçmaza tərəf irəlilədi, Qubaya baş çəkdi. Qohum-əqrəbasından sağ qalanları harayladı... Və birdən elə bil ayaq üstə yatırmış kimi yuxudan ayıldı. Qapıya sarı iti addımlarla getdi. Qapının o tərəfində onu gözləyirdilər. Adi vətəndaş qiyafəsində olan DTK işçisi üzünü ona tutdu:

Mir Cəfər Abbasoviç, vaxta az qalıb, yol tədarükü görmək lazımdır. Yır-yığış... Bağırov onun sözünü kəsdi:

Mən hazıram. Götürəcəyim şeylər bunlardır, pal-paltar, bir-iki kitab, bir də bəzi xırdavat...

Bəs mənziliniz, mebeliniz, başqa əşyalar, nə bilim nələr...

Polkovnik, sən məni yaxşı tanıyırsan. Mənim şəxsi sərvətim yoxdur. Bunlar partiyanın pulu ilə alınmışdır. Beləcə də qalmalıdır. Bir də ki, bu, mənim Kuybışevə birinci səfərim deyil. 1941-də bir neçə dəfə gedib-gəlmişəm. Ev şeylərini özümlə niyə aparmalıyam?

Məsləhət sizindir, Mir Cəfər Abbasoviç. Ancaq vaxta vur-tut yarım saat qalıb. Mən sizi müşayiət etməliyəm, özünüz bilirsiniz... Mir Cəfər Bağırov saatına baxdı:

Yarım saat az vaxt deyil. Polkovnik, mən bir qəbir üstə baş çəkib qayıdım.

Oğlunuzun qəbri üstünə? - Bəli.

Onda icazə verin mən də sizinlə gedim. Volodya ilə bir sinifdə oxumuşam.

* * *

1954-cü il fevral ayının 12-dən 16-dək Azərbaycan Kommunist Partiyasının XX qurultayı keçirildi. «Kommunist» qəzeti özünün 1954-cü il 19 fevral tarixli sayının «Azərbaycan Kommunist partiyası təşkilatının mübariz vəzifələri» sərlövhəli baş məqaləsində yazırdı: «Azərbaycan KP MK-nın keçmiş birinci katibi Bağırov tərəfindən uzun illər yaramaz və partiyaya zidd rəhbərlik üsulu tətbiq edilirdi. Bağırov partiya metodlarını inzibatçılıqla əvəz edir, partiya rəhbərliyinin ali prinsipi kimi kollektiv rəhbərlik prinsipini kobud surətdə pozur, aşağıdan tənqidi hər vasitə ilə boğur, çox mühüm məsələləri təkbaşına, həm də bir çox hallarda yanlış həll edir, təsərrüfat və mədəni quruculuğa rəhbərlikdə böyük siyasi səhvlərə yol verir, bir sıra çox mühüm məsələlərdə partiya siyasətini təhrif edir, respublika zəhmətkeşlərinin ən vacib maddi-məişət və mədəni ehtiyaclarına etinasızlıqla yanaşırdı. Bağırov kadrları düzgün tərbiyə etmir, onların içərisində partiyaya yabançı olan yaltaqlıq və qulluq göstərmək sifətlərini yayır, şəxsiyyəti qarşısında pərəstiş edilməsi əhval-ruhiyyəsini qüvvətləndirirdi».

Bu mürəkkəb həmcins üzvlü cümlə Moskvada Mikoyan tərəfindən yazılmış xasiyyətnamənin tərcüməsinə bənzəyirdi. Əgər Stalinin ölümündən əvvəl yazılsaydı, yəqin ki, «Bağırov yox, hörmətli Mir Cəfər Abbas oğlu Bağırov» yazılardı və bütün mənfi mənalı sözlər yüz səksən dərəcə hərlənib müsbət keyfiyyətlər kəsb edərdi.

Əlbəttə, Sovet diktaturasının hökm sürdüyü bir cəmiyyətdə yazılanlarla reallıq arasında yerlə göy qədər fərq vardı. Ancaq heç kəs cınqırını çıxara bilməzdi. Bu standart mənfi xasiyyətnamələrlə sonralar da Azərbaycan rəhbərləri Moskvanın əli ilə işdən götürüldülər. Yəqin ki, bu günün özündə də MDB-nin siyasi hakimiyyət cilovu Kremlin əlinə keçsə, müstəqil respublikaların prezidentlərini belə sənədlə vəzifədən uzaqlaşdırar. Bir şərtlə ki, əlli dörd il bundan əvvəl yazılmış bu qəzet yazısına «rüşvətxorluq və korrupsiya» sözləri də əlavə edilmiş olsun.

Rüşvət alıb rüşvətxorluqla mübarizədən danışanlar, haqsızlıq edib haqdan dəm vuranlar, millət deyib millətin zavallılarını ehtiyac içində saxlayanlar sözsüz ki, Mir Cəfər Bağırov şəxsiyyətinə ağız büzəcəklər. Mir Cəfər Bağırov əməlisaleh şəxsiyyət idi. Heç vaxt sərvət və şöhrət əsiri, haram pul düşkünü olmamışdı. Ailə üzvləri də həmçinin. Ona görə də Bağırov dövründəki kadrların heç biri rüşvət almırdı. Mir Cəfər Bağırov üçün rüşvətxorluq ən ağır cinayət idi.

Mir Cəfər Bağırov nə Kərbəlaya, nə də Həccə getmişdi. Ancaq Allah adamı idi. Haramı qəbul etmədiyi üçün haramzadələrə qarşı amansız idi.

* * *

Azərbaycan kommunistlərinin XX qurultayından bir neçə həftə keçmiş, Novruz bayramı ərəfəsində Mir Cəfər Bağırovu Kuybışev şəhərində həbs etdilər.

Həmin gün onun əzizləri üçün qara bayram idi, düşmənləri isə Moskvada, Yerevanda erməni konyakı içə-içə Mikoyanın şərəfinə badələr qaldırırdılar.

Azərbaycan mətbuatında isə keçmiş rəhbərə qarşı tənqidi materiallar dərc olunmaqda davam edirdi. Onu xalqın gözündən salmağa çalışsalar da, qəlbindən silə bilmirdilər.

* * *

Azərbaycanda Sovet hakimiyyəti qurulmasının ildönümü və 1 May bayramları həmişəki kimi təntənə ilə bayram edilirdi. Şəhər camaatının ən çox maraqlandığı məsələ isə Mir Cəfər Bağırovun məhkəməsi idi. Bu məhkəmə Azərbaycan xalqına göz dağı çəkdirmək üçün qurulmuş bir tamaşa idi. Yollar kəsilmiş, binanın damında süngülü adamlar durmuşdu, pulemyot da vardı. Xruşşovlar, Mikoyanlar, Rudenkolar təşviş hissi ilə elə zənn edirdilər ki, Azərbaycanın hər yerindən əhali tökülüb-gələcək, Dzerjinski klubunu dövrəyə alacaq, öz rəhbərini xilas etmək istəyəcəkdir...

İkinci dünya müharibəsi illərində bəşəriyyətə bu üç ad doğmalaşdı: Stalin, Ruzvelt və Çörçil. Bu üç ölkə başçısı bircəbhədə birləşərək Hitler faşizminin axırına çıxdı. 1959-cu ildə Stalinin anadan olmasının 80 illiyi SSRİ-də qeyd olunmadı. Adı, portretləri kitablardan, meydan və küçələrdən götürülmüşdü. Müharibənin tarixi də təzədən yazılmışdı. Stalinin adının üstündən xətt çəkilib... N.S.Xruşşov yazılmışdı. Stalinin anadan olmasının 80 illiyi münasibətilə 1959-cu il dekabrın 21-də Çörçil Londonda öz çıxışında deyirdi: «Rusiya üçün böyük xoşbəxtlik idi ki, ölkənin ağır dövründə dövlət başında Stalin kimi böyük və sarsılmaz bir sərkərdə durmuşdu.,.O ən yüksək dərəcəli bir insan idi. Elə bir dahi insan idi ki, düşməni öz əllərilə məhv etdi». .

Zaman göstərdi ki, Stalini tarixi şəxsiyyət kimi tənqid edib hörmətdən salmaq deyil, səhvlərindən ibrət götürmək lazım idi.

Mir Cəfər Bağırov da Azərbaycan xalqının öz «Stalini» idi. Onun adını bədnam etməmək də olardı. Onu bütün varlığı ilə bağlandığı Azərbaycandan Volqa sahilinə atmamaq da olardı.

...İki ilə yaxın idi ki, Bakı intizarla yolunu gözləyirdi. Xəbər gəzirdi ki, məhkəməsi respublikanın özündə aparılacaq.

* * *

...1956-cı il sentyabrın 17-də Mir Cəfər Bağırovun altmış yaşı tamam olacaqdı. Stalinin vəfatından sonra ölkə rəhbərliyinə gələnlər də Amerika Birləşmiş Ştatlarında Ruzvelti əvəz edənlər kimi olsaydılar...yox, yox, bu ola bilməzdi. Çünki onlar kapitalizm sistemində, biz sosializm cəmiyyətində yaşayırdıq. Hakimiyyət başında olanları ölən kimi cəhənnəmə vasil etməsəydik, irəliyə addımlaya bilməzdik. Mir Cəfər Bağırov 60 yaşına beş ay qalmış bunları düşünürdü. Yadına

əlli yaşında olduğu günlər düşürdü. O vaxt beşinci dəfə Lenin ordeni ilə təltif edilmişdi. Stalin də zəng vurub onu təbrik etmişdi. Ancaq yaxın partiya həmkarlarının xahişini yerə salmışdı: heç bir təntənəli tədbir keçirməyi özünə rəva bilməmişdi. Əgər razılıq versəydi, Azərbaycanın bütün vəzifədə olan və olmayan ədibləri ona əsərlər həsr edərdilər. Radio ilə geniş verilişlər təşkil olunardı. Ünvanına göndərilən təbrik məktubları «Kommunist» və «Bakinskiy raboçiy» qəzetlərinin bir neçə aylıq səhifələrində qalardı. Vərəqləyin, yalnız və yalnız bir material vardır - Şvernik və Qorkin tərəfindən imzalanmış Fərman. SSRİ Ali Soveti Rəyasət Heyətinin bu fərmanı ilə «anadan olmasının 50 illiyi münasibətilə, partiya və sovet xalqı qarşısında böyük xidmətləri nəzərə alınaraq» Lenin ordeni ilə təltif edilmişdi.

Mir Cəfər Bağırovun altmış yaşı ərəfəsində isə onun adı qarşısında «orden» sözünün yerində tutulması barədə «order» vardı. Yadına çox şeylər düşürdü. Xəyalından çox adamlar gəlib-keçirdi. Xatırlayırdı ki, Nərimanov vəfat edəndə Azərbaycanın bir neçə partiya xadimi onun dəfnində iştirak etməkdən imtina etmişdi. Çünki Stalinin Nərimanova mənfi münasibətini bilirdilər. O da Nərimanov əleyhinə çıxış etmişdi. Stalinin tapşırığı belə idi. Ancaq təskinliyi bunda idi ki, heç olmasa bircə dəfə Nərimanovun Kreml divarları yanındakı məzarı başına getmişdi və bunu indiyəcən Allahdan savayı heç kəs bilmirdi.

V.İ.Leninin sağlığında Siyasi Büroda fəaliyyət göstərənlərdən 1929-cu ildə vur-tut bircə nəfər - İ.V.Stalin qalmışdı. Sovet Azərbaycanında da köhnə və görkəmli siyasi-ictimai xadimlərin qara siyahısı Kremldə hazırlanırdı. Mir Cəfər Bağırov bunun qarşısının alınmasında aciz idi.

Mir Cəfər Bağırovun həyatı çoxlarına müəmmalı görünən təzadlarla doludur. Ancaq bir həqiqət hamıya aydındır ki, ömür yolunun ən keşməkeşli çağlarında belə o, əqidəsindən dönməmişdir. Stalinin göstərişlərinin Azərbaycanda yerinə yetirilməsindən hədsiz iftixar hissi keçirmişdir. Yalançı sosializm demokratiyası pərdəsinə bürünmüş bir cəmiyyətin zorakılıq metodlarına qanuni hal kimi baxmışdır. Çünki avtoritar hakimiyyət üsulunun bundan başqa çıxış yolu yox idi.

...M.Ə.Rəsulzadənin onun barəsində sözləri də yaddaşından silinməmişdi: «Vaxtilə məni Azərbaycan Fövqəladə Komissiyasında işdən çıxarıb Zaqafqaziya su təsərrüfatı idarəsinə işə göndərəndə Rəsulzadə mənim «qurbanlarımdan» söz açmışdı. O, fürsəti fövtə verməyib. özünün «Yeni Qafqasya» jurnalında yazırdı ki, Azərbaycan xalqının cəlladı Mir Cəfər Bağırovu su təsərrüfatına başçı qoymuşlar. Zənn edirəm ki, Zaqafqaziya çaylarının suları ona Azərbaycan oğullarının qanına bulaşmış əllərini yuyub təmizləməkdə kömək edəcəkdir». Mən, Mir Cəfər Bağırov, Müsavat liderinin haqqımda dediyi sözləri heç vaxt qəbul etməmişəm və indi də, həbsdə ikən də rədd edirəm. Nağıllardakı məktub aparan bir quş yuxuma girsəydi, ürəyimin dərinliyində saxladığım sözləri kağıza köçürərdim, nağıl quşunun qanadına bağlayıb, Türkiyəyə, Ankara şəhərinə göndərərdim. Rəsulzadəyə yazardım. Yazardım ki, Emin bəy, bil və agah ol. Mən də sənin kimi Azərbaycandan

uzaqdayam. Səni Bakıda Bayıl türməsindən Stalin çıxarıb aparmışdı. Məni isə «Stalinçi» olduğum üçün Bakıdan - iş başından Samaraya gətirmişdilər.

Emin bəy, əvvəla, mənim əllərim heç vaxt nahaq qana batmayıb. Zaqafqaziya su idarəsinə ona görə başçılıq etmişəm ki, düşmənlərimiz xalqımızın qanını su yerinə axıtmasın. Rica edirəm, gələcəkdə nəşr olunacaq kitablarında düzəliş edəsən. Əgər mən də sənin kimi mühacirətə üz tutsaydım, Azərbaycanda yenə birinci partiya rəhbəri erməni və ya rus olacaqdı. O zaman Azərbaycanda azərbaycanlı qalmayacaqdı. Azərbaycanda azərbaycanlıların kökünü kəsəndən sonra səni də orada asanca məhv edəcəkdilər.

Emin bəy, bil və agah ol ki, sonbeşik oğlun Azər 1946-cı ildə Qazaxıstandan Bakıya gələndə, buradan sovet qoşunları içərisində Təbrizə gedəndə, ermənilər onu məhv edəcəkdilər. Əgər sənin «cəllad» adlandırdığın Mir Cəfər olmasaydı...Emin bəy, bil və agah ol ki, Azər oğlun sağ və salamat Qazaxıstanda yaşayır, rəssamlıqla məşğuldur. Üzünü görmədiyin nəvələrindən birisi Naxçıvanda, o birisi Bakıdadır. Onlardan da xəbərim var.

Emin bəy, bil və agah ol, sənin kimi mənim üçün də Azərbaycan xalqı nəhəng bir ailə kimidir. Ziyalısı da, bisavadı da, kommunisti də, bitərəfi də, azadəlikdə olanı da, zindana salınanı da...mənə indi, Azərbaycandan uzaqda həmişəkindən daha əzizdir.

...Mir Cəfər Bağırov bir şeyi bilmirdi. Bilmirdi ki, iki həftə əvvəl, 1955-ci il martın 6-da M.Ə.Rəsulzadə dünyasını dəyişmişdir.

Nəriman Nərimanov vaxtilə yazmışdı: «Biz Azərbaycanda elə vəziyyət yaratmalıyıq ki, Sovet hakirniyyəti süngü ilə deyil, kütlələrin şüurluluğu ilə müdafiə olunsun». Təəssüflər olsun ki, bu sözlər elə müəllifin arzusu kimi arxivlərdə qaldı. Sovet reallığı yalnız və yalnız süngü gücünə özünü müdafiə etdi və bəşəriyyətə də meydan oxumaq xəyalına düşdü. Süngü ilə hakimiyyətini saxlayan dövlət isə mütləq nahaq qanlar tökəcəkdir. Buna görə də Azərbaycanda kütləvi qırğınları və repressiyaları bir rəhbərin - Mir Cəfər Bağırovun adına bağlamaq ən azı ədalətsizlikdir. Azərbaycanda repressiyaların ilk qurbanı elə Nəriman Nərimanovun özü olmuşdur.

1917-ci ildən başlayaraq ta SSRİ dağılanadək, bu repressiyalar davam etmişdir, xalqımızın, eləcə də digər türk xalqlarının ən yaxşı oğulları erməni və rus şovinistlərinin əli ilə aradan götürülmüşdür. Bağırovun dövründə Qriqoryan, Markaryan və Yemelyanovların qanlı əməllərini sonralar Qdlyan və İvanov Özbəkistanda təkrar etmişdir. Şıxəli Qurbanovun stomatoloq kreslosunda, Maqsud Əlizadənin ali məktəb prorektoru kabinetində, Ziya Bünyadovun yaşadığı mənzilin üç-dörd addımlığında...qətlə yetirilməsində məgər Mir Cəfər Bağırov günahkardır?

Süngü ilə qorunan sovet rejimi öz sərhədlərini aşaraq Kubaya, Şərqi Avropa ölkələrinə, Əfqanıstana da sirayət etmişdi. Əsrimizin sonlarında bu qəddar rejim süqut etsə də, keçmiş SSRİ ərazisindən çəkilib getməmişdir. Çünki bu

rejimin dünən də, bu gün də ancaq və ancaq gözəgörünməz idarə mərkəzi vardır - ermənipərəst Kreml!

* * *

Zaman ən vicdanlı hakimdir deyirlər. Əsrimizin sonlarında Azərbaycan xalqının nicatı barədə təkcə Məhəmməd Əmin Rəsulzadənin dedikləri həqiqətə çevrilməkdədir: «Gələcək - millətlərin süngü gücü ilə yapma rejimə boyun əydirmənin deyil, milli hakimiyyətə, haqqa və hürriyyətə dayanan istiqlalçılığındır». Əgər M.Ə.Rəsulzadənin banisi oldugu Azərbaycan Xalq Cümhuriyyəti «rus süngüsü» ilə devrilməsəydi, «milli hakimiyyətə, haqqa və hürriyyətə dayanan» bir cəmiyyətdə müxtəlif siyasi düşüncəli soydaşlarımız bir-biri ilə «süngü» davası aparmazdı. Yeni nəsil köhnə nəsillərə məzar qazıb, «Ölülər» bağlarında «Gülüstan» sarayları qaldırmazdı. Onda Cümhuriyyətdə Nərimanovlara da, Mir Cəfər Bağırovlara da iş şəraiti yaradılmış olardı...

* * *

1956-cı ilin aprelində respublika mətbuatı səhifələrində bayram əhval-ruhiyyəli materiallar dərc olunmaqda idi.

Daha düşünmürdülər ki, xalqımızı dilsiz-ağızsız kütlə halına salmışdılar. Mir Cəfər Bağırovu müdafiə edəcək adamlar ağızlarına su almışdılar. Haqsızlığın tüğyan qopardığı «süngü» cəmiyyətində başqa cür də ola bilməzdi. Təkcə Ordubad şəhərindəki 1 saylı orta məktəbin onuncu sinif şagirdi Əbülfəz Əliyev həyəcanını gizlətməyərək sözünü açıq demişdi. Xəbərçilər bunu məktəbin müdiriyyətinə çatdırmış və Əbülfəzi müəllimlər otağına çağırıb onu Mir Cəfər Bağırovu müdafiə etmək fikrindən daşındırmaq üçün xeyli zəhmət çəkmişdilər. Lakin nə orta məktəb müəllimləri, nə də ali məktəb professorları Əbülfəzi «Sovet adamı» edə bilməmişdilər. Universitetin şərqşünaslıq fakültəsinin tələbəsi ikən ona dərs deyən alimlərdən biri orta məktəbin müəllimlər otağındakı «təkmilləşdirməni» davam etdirmişdi: «DTK-da fikir yaranıb ki, sənin gizli təşkilatın var, bir proqram da hazırlamısan».

Bu dəfə müzakirə nəticəsiz qalmadı. 1971-ci ilin yanvarında onu həbs etdilər. Qaradağ dustaqxanasında «tərbiyə olundu». Ancaq yenə də əqidəsindən dönmədi, «Sovet adamı» olmadı. Misirdə mütərcim işlərkən, Xruşşovun Kipr məsələsində qeyri-obyektiv mövqeyinə öz münasibətini bildirmişdi. Hətta görüş zamanı onunla əl uzadıb görüşməmişdi də. Bakıya qayıdanda Xruşşovu təhqir etdiyinə görə onu DTK-da hədələmişdilər. Brejnev hakimiyyətə gələndən sonra çoxları Əbülfəzə haqq qazandırdılar. Gənclik illərində başına gələnləri xatırlayan Əbülfəz Elçibəy özünün «Deyirdim ki, bu quruluş dağılacaq» kitabında

yazır: «Bir düşmənim vardı -imperiya! Qalanları onun zavallı xidmətçiləri idi».

* * *

Mir Cəfər Bağırov o «zavallı xidmətçilərin» uzun illər rəhbəri olmuşdu. Ancaq Bakıdan uzaqlarda olduğu iki il müddətində bəziləri «xozeynin» əleyhinə böhtanlar deyir, əhali arasında cürbəcür şayiələr yayırdılar. Mir Cəfər Bağırov artıq beləlari üçün yox idi. İşə hər səhər piyada və mühafizəsiz getməyi xoşlayan, sadə geyimi ilə dənizkənarında digər gəzişənlərdən fərqlənməyən «Stalinçi» indi təkərli seyfə bənzəyən dustaq maşınında idi.

Bağırovun məhkəmə zalına ancaq xüsusi buraxılış vərəqəsi ilə düşmək olurdu. İlk məhkəmə iclası günü qəribə bir hadisə baş vermişdi. Rudenko belə bir mənzərəni Ukraynada görməmişdi. Bəlkə dünyanın heç bir ölkəsində buna bənzəri olmamışdı. Kürsüyə yaxın olan qapı açıldı və Mir Cəfər Bağırov görünən vaxt salondakılar qeyri-ixtiyari olaraq ayağa qalxdılar.

Dünən rəhbər, bu gün müttəhim olan Mir Cəfər Bağırov üçün bundan böyük ehtiram olmazdı.

* * *

On beş gün davam edən məhkəmədən onilliklər keçmişdir. Bu gün bu məhkəmənin materialları ilə tanış olarkən bir qənaətə gəlirsən: böhtan və yalanlar əsasında qurulmuş tamaşa!

Bu gün Mir Cəfər Bağırov öz məhkəməsinin müttəhimi yox, ittihamçısıdır.

* * *

Ermənilər məhz «SSRİ Xalq Düşməni» Bağırovu məhkəmənin hökmü ilə güllələdikdən sonra ..1960-cı ildə ilk dəfə «genosid» məsələsini qaldırdılar.

1956-cı ildə «Rudenko məhkəməsi»nin materiallarında Mir Cəfər Bağırov nədə günahlandırılırdı? İstintaq müəyyənləşdirib ki, «Bağırovun cinayətkar keçmişi» olmuşdur. O, 1917-ci il fevral inqilabından dərhal sonra əksinqilabi fəaliyyətə hələ Qubada yaşadığı illərdə başlamışdır və partiyanın üzvü olmamışdır. Partiya sıralarına keçmək üçün ona zəmanət verən Abramova, İnozemtseva və Narçemaşvili məhkəmədə bildiriblər ki, Bağırov 1917-ci ildən ÜİK (b) P-nın üzvü deyil və ona zəmanət verməmişlər.

Bu gün, əsrin sonunda, xalqımızın öz əqidəsinə sadiq rəhbərlərinin başına gətirilən müsibətlərdə abramovaları, inozemtsevaları, narçemaşvililəri kim danır ki? Lakin bu da danılmaz həqiqətdir ki, Mir Cəfər Bağırov üzvü olduğu partiyanın tutduğu yoldan dönməyən şəxsiyyətlərindəndi.

Bu cəhətdən onu ancaq Stalindən sonra olsa-olsa Molotova bənzətmək olar. Molotov 1986-cı il noyabrın 8-də 97 yaşında dünyadan köçəndə onun partiya bileti qalmışdı. Noyabrın üzvlük haqqını da vermişdi. Vəsiyyət yazıb zərfə qoymuşdu. Əmanət kitabçasında beş yüz manat saxlamışdı - dəfn xərci üçün.

...Mir Cəfər Bağırovu düşmənlərimizin idarə etdiyi qəddar rejim məhv etməsəydi, o da Molotov kimi öz əcəli ilə dünyasını dəyişərdi. Qubada, Bakıda evi olmasa da, qəbr evi qalardı.

* * *

...«Rudenko məhkəməsi»nin materiallarında iyirmi iki yaşlı Mir Cəfər Bağırovun Qubadakı xidmətləri təhrif edilir, fəaliyyətində cinayət tərkibinin olduğu göstərilir. Orada deyilir ki, «hələ 1918-ci ildə, ağlı başında, kamil bir şəxs ikən, Bağırov burjuaziyaya xidmət edib. O, Quba şəhərində erməni əhalisinə divan tutulmasında məşhur olan Əlibəy Zizikskinin birinci müavini olub. Bağırovun erməni qırğınında iştirakı Qubada hamıya məlumdur».

1956-cı ildə Azərbaycan rəhbərini məhşər ayağına çəkən mikoyanlar elə zənn edirdilər ki, Bakı kommunarlarının soydaşlarımızın başına gətirdikləri müsibətlərə dair sənədləri arxivlərimizdən çırpışdırıb aparmaqla, qanlı əməllərini tarixdən siləcəklər.

Zaman öz sözünü bu gün sənədlərin, o zamankı qəzet səhifələrinin dili ilə deyir, bütün dünya qarşısında misli görünməmiş soyqırımın dəhşətli mənzərəsini nümayiş etdirir.

«Azərbaycan» qəzetinin 1991-ci il 8 oktyabr tarixli sayında oxuyuruq: «Uşaqları oğurlamaqla məşğul olan soyğunçuların məşhur dəstəbaşçısı Tatevos Amirov «sosialist» ordusuna başçı təyin olunandan sonra Bakıda on altı minədək əlsiz-ayaqsız müsəlman yoxsulunu qılıncdan keçirdi. Martınovun içki yoldaşı, alçaq və rəzil Styopa Lalayev ilə daşnak quldur dəstələrinin başında duraraq bir sıra məhəllələri müsəlman ziyalılarının nümayəndələrindən təmizlədi; onları evlərindən dartıb çıxarır və küçədə güllələyirdi».

Bu vəhşiliklər Azərbaycanın rayonlarında da törədildi. Lalayevin və Amazaspın dəstəsi Şamaxının müsəlman əhalisini qılıncdan keçirdi, kəndləri dağıdıb oda qaladı. Anastas Mikoyanın göstərişlərini yerinə yetirərək, Hambapet Amazasp qadınların boyunbağısını çıxara bilməyəndə bıçaqla başlarını kəsirdi. Sırğalarını götürmək üçün qulaqlarını qoparır, qolbaqları ələ keçirmək üçün biləklərini kəsirdi.

...Nə qədər qəribə olsa da, «Rudenko məhkəməsi» materiallarında Mir Cəfər Bağırov bir tərəfdən «erməni əhalisinə divan tutulmasında» və bir tərəfdən də... «Daşnaksütyun» təşkilatının rəhbərlərindən olan, Quba şəhəri əhalisinin kütləvi şəkildə qırılmasını və orada soyğunçuluq və qarətləri təşkil edən Amazaspın daşnak dəstəsinin üzvü kimi təqdim olunur. Belə çıxır ki, «1918-ci ildə

ağlı başında, kamil bir şəxs ikən, Bağırov» Qubada həm erməniləri qırıb, həm də ermənilərə qoşulub azərbaycanlıları?! Başqa sözlə, azərbaycanlıların soyqırımını Bakıda və Azərbaycanın bir sıra rayonlarında şaumyanlar, mikoyanlar deyil, bağırovlar «təşkil etmişlər». Bağırova qarşı bu qondarma ittiham Rudenko tərəfindən nə üçün irəli sürülmüşdü? Görünür, ona görə ki, Azərbaycanın rəhbəri ən azı iki xalqın düşməni elan edilməliymiş ki, «SSRİ Xalq Düşməni» adlandırıla bilsin...

* * *

...Bir zamanlar, elə 1956-cı ildə, «26-lar»a şeirlər yazanda, nəğmələr qoşanda düşünə bilməzdik ki, xalqımızın daxili düşmənləri də məhz onlar, Bağırovlar deyil, məhz 26-lar olmuşlar. Bəs niyə bu qanlı cinayətkarlara məhkəmə qurulmamışdı? Yox, əslində məhkəmə qurulmuşdu, lakin «26-lar»a qarşı deyil, «26-lar»ın güllələnməsində ittiham edilənlərə qarşı. Bu məhkəmə 1921-ci ildə Krasnovodsk şəhərində başlamış, 1926-cı və 1927-ci illərdə Bakıda davam etmişdi və nəticəsi yenə də ermənilərin xeyrinə olmuşdu. Mikoyan sudan quru çıxarılmışdı. Məhkəmənin uzandığı yeddi ildə Azərbaycan rəhbərliyində mirzoyanlar at oynatmışlar. Xalqımızın görkəmli partiya və dövlət xadimləri bir-bir aradan çıxarılmışdır.

Mir Cəfər Bağırovun Azərbaycan partiya təşkilatının rəhbəri seçilməsindən hələ on dörd il əvvəl Mikoyan və onun daşnak dəstəsi Zaqafqaziyada və bütün Qafqazda «26-lar»ı hakimiyyət başında saxlamağa çalışmış, müsəlman kommunistləri, ilk növbədə azərbaycanlıları həlledici vəzifələrdən uzaqlaşdırmışlar.

1921-ci ilin sentyabr ayında Bakıda Zaqafqaziya Ölkə Nəzarət Komissiyası Partiya Kollegiyasının sədri İvan Sturuanın başçılığı ilə yoxlama komissiyası işə başladı. Bu, əslində azərbaycanlı kadrlara qarşı yönəldilmiş tədbir idi. «Təmizləmə» adı ilə Azərbaycan kommunistlərinin otuz beş faizi partiyadan çıxarılmışdı. Yoxlama komissiyasının üzvü İvan Vatsek deyirdi: «Azərbaycanda biz bütün millətçi alçaqları süpürüb atmışıq». Kimlər idi İvan Vatsek alçağın «daşnak» markalı süpürgəsinə düşən günahsız azərbaycanlılar? Azərbaycan SSR Xalq Torpaq Komissarı Soltanməcid Əfəndiyev, Xalq Sosial Təminat Komissarı Möhsün İsrafilbəyov, respublika Xalq Maarif Komissarı Dadaş Bünyadzadə, Xalq Xarici Ticarət Komissarı Teymur Əliyev, Xalq Poçt və Teleqraf Komissarı Cəmil Vəzirov, Xalq Hərbi-Dəniz Komissarı Çingiz İldırım, Azərbaycanın xaricdə yeganə səfiri İbrahim Əbifov...

Azərbaycan xalqına qarşı yönəlmiş bu çirkin siyasət dəllallarının və təşkilatçılarının adı təəssüflər olsun ki, uzun müddət «məxfi» saxlanılmışdır.

Azərbaycanın dostunu düşmənindən ayırmağı bacarmayan yüksək diplomlu tarixçilərdən fərqli olaraq, yalnız Məhəmməd Əmin Rəsulzadə millətimizin başına gətirilən bəlaları bir nəfərin adı ilə bağlamırdı. İyirminci illərdə

Azərbaycanda azərbaycanlılar arasında «təmizləmə» aparanlar millətimizin başını bədənindən ayırmaq üçün fürsət axtarırdılar.

Azərbaycan Xalq Cümhuriyyətinin banisi 1950-ci ildə yazırdı: «1937-ci ildə Moskvada qurulan inqilabi məhkəmədə Trotski tərəfdarlarını təmizləmək üzrə məşhur məhkəmələr başlamışdı. Bu məhkəmələr əsnasında Qafqaz kommunistlərindən Budu Midivani Qafqaz millətçiliyində, xüsusilə milli Azərbaycan partiyası «Müsavat»la münasibətdə olmaqda ittiham edilmişdi. Bu, Azərbaycanda da başlanacaq geniş miqyaslı «təmizləmə»yə işarə idi».

Azərbaycanın bütün partiya və dövlət xadimlərinin, ayrı-ayrı vəzifəli adamlarının, ziyalılarının tərcümeyi-halı və anket göstəricilərinə Moskvada nəzər yetirilirdi: azərbaycanlılar 1918-1920-ci ilin aprelinədək nə işlə məşğul olmuşlar. Baxış R.Axundovun anketindən başlamışdır. Aha... 1919-cu il, sentyabr - Müsavat hökumətinin Əmək Nazirliyində ümumi şöbənin müdiri olmuşdur. Həbsə alınmalıdır! Dərhal «Pravda» qəzetində dərc olunmaq üçün məqalə də hazırlanmışdı. 1937-ci il iyunun 8-də «Düşmənin hiylələri» sərlövhəli məqalədə deyilirdi: «Trotskiçi və müsavatçı Ruhulla Axundov mədəniyyət cəbhəsində uzun zaman nəzarətsiz olaraq istədiyini etmişdir, O, Elmlər Akademiyasının Azərbaycan filialının başçısı olmuş, incəsənət işləri komitəsinə rəhbərlik, Yazıçılar İttifaqına ağalıq etmişdir. O bütün bu təşkilat və idarələri öz adamları ilə, gizli və açıq düşmənlərlə zibilləmişdir».

1937-ci il iyunun 20-də «Kommunist» qəzeti «Pravda» qəzetindəki məqaləyə dərhal səs verərək, R.Axundovun «ağalıq etdiyi» Yazıçılar İttifaqında «kontrrevolyusion» şeir oxuyan Mikayıl Müşfiq barədə «qələm dostunun» məktubunu dərc etmişdir. «Ədəbiyyatda düşmən qalıqları axıradək ifşa edilməlidir» sərlövhəli yazıda oxuyuruq: «Müsavatçıların əl tulası olan Müşfiqin həyasızlığı o dərəcəyə çatmışdır ki, o, irəliləyən sovet ədəbiyyatına müqavimət göstərmiş və hətta Azərbaycan Sovet Yazıçıları İttifaqının üçüncü plenumunda son dərəcə əclaf çıxış edərək, kontrrevolyusion şeirini belə oxumağa nail olmuşdur».

«Kommunist» qəzetinin 1937-ci ildə çıxan yazılarından aydın görünür ki, Azərbaycanda elə bir şəhər və kənd, nazirlik və müəssisə, teatr və kitabxana, zavod və mədən, məktəb və ailə... yoxdur ki, orada «xalq düşməni» gizlənməsin.

Bütün nəsillər üçün comərd insan və əvəzsiz alim olan Ziya Bünyadov «Azərnəşr» tərəfindən 1993-cü ildə nəşr olunmuş «Qırmızı terror» kitabında yazdığı kimi, tək bircə xarici dil bilən şəxsləri də qırırdılar. Ölüm və cəza maşını dayanacaqsız və fasiləsiz işləyirdi. Hər bir «xalq düşməni»nə «məhkəmə» zamanı ancaq 15 dəqiqə vaxt ayrılırdı. Bakıda bütün bu quldur tribunal iclaslarını Vişinskinin müavini, bəşər övladının qatili Matulyeviç öz əlaltıları Zaryanov və Jiqurla birgə aparırdı... Kənd rayonlarında «fövqəladə üçlüklər» fəaliyyət göstərirdi ki, bunlar da əsasən ermənilərdən ibarət idi.

Xalq Daxili İşlər Komissarlığının erməni kadrları neçə-neçə günahsız azərbaycanlını «guya Mir Cəfər Bağırova qarşı terrorçuluqda» iştiraka görə

uydurma ittihamlarla cəzaya məhkum edirdilər. 1954-cü il dekabrın 15-də aparılmış istintaq protokolunda bu barədə Mir Cəfər Bağırovun dedikləri yazılmışdır: «1936-1937-ci illərdə yarınmaq və yaltaqlıq məqsədilə mənə qarşı terrorist niyyətlər barədə şişirdilmiş işlər düzəltdikləri haqqında mən ifadə vermişəm. Yemelyanovun təqdimatlarından belə çıxır ki, Azərbaycanda mənə qarşı hər addımda terror hərəkətləri hazırlanırdı. Əslində isə bu ola bilməzdi və belə deyildi. Hesab edirəm ki, bunlar hamısı Sumbatov-Topuridzenin və onun dəstəsinin düşmən fəaliyyətinin nəticəsi idi».

Mir Cəfər Bağırov məhkəməsində belə bir ifadə də vermişdi ki, Azərbaycanda onun əleyhinə heç vaxt sui-qəsd hazırlanmayıb və bu ola da bilməzdi. Bu haqda yalançı uydurmalar Mikoyan və Sumbatov-Topuridze tərəfindən yayılırdı.

* * *

«Molotovla yüz qırx söhbət» kitabında oxuyuruq: «Repressiyalar haqqında fikir yürüdərkən Molotov qeyd edirdi ki, 1937-ci il zəruri idi. Dövlət eyni zamanda fəhlə sinfinin, kəndlilərin və ziyalıların mənafeyini ifadə edə bilməz. Bundan başqa, ziyalılar arasında keçmiş sinfi düşmənlər az deyil, onlar fəhlə sinfinin diktaturası uğrunda mübarizə apara bilməzlər».

Millətimizin başına gətirilən müsibətlərə bədnam «qonşu» daha çox sevinirdi. Latından kiril əlifbasına keçildi. «Qonşu» düşündü ki, əcəb oldu, bizim qədim əlifbamız var, yəni millətimiz qədimdi. Azərbaycanlılar Sovet hakimiyyətinin yetirməsidir. Tarın ləğv edilməsi də «qonşunu» məst edirdi. Kamança ki qalırdı - Nevton Qriqoryan da bizimdir, lap elə muğamat da.

* * *

...1956-cı ildə Mir Cəfər Bağırovu güllələnməyə məhkum edən Rudenko, mərkəzin tapşırığını yerinə yetirərək, bir arayış da yazıb imzalamışdı: «Müttəhim Sumbatov-Topuridze Yuvelian Davidoviç xəstə olduğu üçün onun üzərində istintaq işi dayandırılmışdır».

Bütün bunlar o demək idi ki, sovet rejiminin bütün mərhələlərində ermənilər «xalq düşmənləri» adı altında xalqımıza qarşı «genosid» həyata keçirirdilər. Qanlı rejimin sonuncu «hökmdarı» Qorbaçov deyirdi: «Biz 37-38-ci illərdə olmuş hadisələri heç vaxt bağışlaya bilmərik, bunlara haqq qazandıra bilmərik və haqq qazandırmamalıyıq. Heç vaxt...»

...«Heç vaxt»ın deyilməsindən az vaxt keçmiş ermənilərin havadarı Bakıya qoşun göndərdi və Şəhidlər Xiyabanından Xəlil Rza Ulutürkü həbs etdirib, Moskvaya apartdırıb, Lefortovo zindanına saldırdı...

1956-cı ilin aprelində «Rudenko məhkəməsi»ndə Mir Cəfər Bağırova qarşı səlib yürüşünün «staxanovçuları» «plexanovçular» rolunda siyasi fəaliyyətə başladılar. Dövlət də, dövlət maşını da dəyişdi, dəyişilməyən bir şey qaldı: maşınlar karvanı yenə də «Bağırov körpüsü»nün altından şütüyüb keçirdi...

# BAĞIROV KÖRPÜSÜ

**(«İstiqlal» qəzeti, 7 oktyabr-11 noyabr 1998)**

Qırx iki ildir ki, millətimizin təşəkkülündə tarixi rol oynamış qüdrətli bir şəxsiyyəti gülləbarana tuturuq. Nə Azərbaycan Respublikasının Prezidenti, nə Milli Məclis, nə də hər hansı bir siyasi partiya və qurum onun üzərindən ölüm hökmünün götürülməsi təşəbbüsündə bulunmur.

Bu gün müstəqil Azərbaycan Respublikasının idarə olunmasında rəhbər mövqe tutan keçmiş partiya və sovet işçiləri özlərini Azərbaycan SSR-in deyil, Azərbaycan Xalq Cümhuriyyətinin varisləri sayır. Lakin SSRİ Baş prokuroru R.Rudenkonun 1956-cı il martın 2-də Moskva şəhərində imzaladığı bu ittihamnaməyə qarşı etiraz səsini qaldırmırlar: Azərbaycan SSR Quba şəhər sakini, 1896-cı ildə anadan olmuş Bağırov Mir Cəfər Abbas oğlu RSFSR Cinayət Məcəlləsinin 58-1 (b); 58-8; 58-11 maddələrilə müqəssir bilinsin.

Mir Cəfər Bağırovla eyni dövrdə müttəfiq respublikalarda birinci şəxs olmuş heç kəs məsuliyyətə alınmamışdır. SSRİ dağılmış, lakin nədənsə R.Rudenkonun ittihamnaməsi və SSRİ Ali Məhkəməsinin Hərbi kollegiyasının hökmü Azərbaycan üçün öz qüvvəsini itirməmişdir.

Təqdirəlayiq haldır ki, son vaxtlar M.C.Bağırov barədə yazanlar «Mirqəzəb», «Mircəllad» sözlərinə əl atmırlar. Ancaq onun nəhəng vücudunu qoz qabığına salırlar. Filologiya elmləri doktoru, professor Nizami Cəfərov «Azərbaycan» qəzetinin 1998-ci il 13 və 14 fevral tarixli saylarında dərc etdirdiyi «Türk dünyasının fəxri, yaxud böyük türklərdən biri» adlı məqaləsində yazır: «Türk dünyasının fəxri olan Heydər Əliyev zəmanəmizin yetirdiyi böyük türklərdən biri, bəlkə də birincisidir. Azərbaycanın müasir tarixində Heydər Əliyevə qədər üç görkəmli ictimai-siyasi xadimin (türkün) adı çəkilir: M.Ə.Rəsulzadə, N.Nərimanov, M.C.Bağırov. H. Əliyevi dövlət idarəçiliyi məharətinə görə sələfləri ilə müqayisə eləmək çətindir, çünki onların heç biri bu sahədə böyük istedada malik olmamış, bir sıra hallarda isə şəraitin birbaşa əsirinə çevrilmişdilər».

Professor nə demək istəyir? «Zəmanəmizin yetirdiyi böyük türklərdən birincisini M.Ə.Rəsulzadə və N.Nərimanov ilə müqayisə etmək Nizami Cəfərovu Nizami Gəncəvi və Məhəmməd Füzuli ilə tutuşdurmağa bərabərdir. O ki qaldı M.C.Bağırova, əgər onun yerində o zamanlar «böyük türklərdən birincisi» dursaydı, Kommunist Partiyasının sinfi düşmənlərə qarşı kütləvi qırğınlarının qarşısını ala bilərdimi? Bu gün başda oturanlar kimi düşünməyənləri «dağıdıcı», «aqressiv», «radikal», «mürtəce» adlandıranlar, neçə-neçə gənci məhkəməsiz təcridxanada saxlayanlar M.C.Bağırovun yerində daha qəddar olardılar, «mürtəce» qüvvələri elə yerindəcə yox edərdilər.

M.C.Bağırov «şəraitin əsiri» yox, xalqın ağası olmuşdur. Azərbaycanın mənafeyi onun üçün hər şeydən üstün idi. Yalnız və yalnız M.C.Bağırov aradan götürüldükdən sonra düşmənlərimizin ayağı yer tutdu, ermənilərə xüsusi qayğı göstərmək Azərbaycanın «böyük istedada malik» rəhbərlərinin ümdə qayğısına çevrildi. M.C.Bağırovdan sonra təslimçilik siyasətinin nəticəsidir ki, bu gün

Azərbaycan halalca torpaqlarını özünə qaytarmaq üçün bütün ölkələri, o cümlədən daşnakların havadarı Rusiyanı köməyə çağırır.

İyirminci yüzillikdə xalqımızın başına gətirilən müsibətlər göstərir ki, bolşevizm kimi elə bir qeyri-insanpərvər cərəyan olmamışdır ki, Azərbaycanda qardaşı qardaşdan, övladı atadan, nəvəni babadan ayıra bilsin, rəhbərliyə təzə gələni özündən əvvəlki həmin vəzifə sahibinə düşmən etsin. Bu səbəbdəndir ki, 1976-cı ildə nəşr edilən ASE-nin birinci cildinin «B» hərfinin səhifələrində 13 erməniyə yer verilmişdir. Ensiklopediyaya «ittifaq əhəmiyyətli pensiyaçı» Bağırov Ruben Xristoforoviç düşmüş, iyirmi il Azərbaycana rəhbərlik etmiş, xalqımızı «ittifaq əhəmiyyətli» səviyyədə saxlamış Bağırov Mir Cəfər Abbas oğlu kənarda qalmışdır.

M.C.Bağırov onunla bir yerdə çiyin-çiyinə çalışanların xatirələrində prinsipial və işgüzar, tələbkar və ədalətli, rüşvətxorluğun və tayfabazlığın qənimi, şəhid oğul atası kimi yaşamaqdadır. O, obyektiv qiymətini almalıdır.

Bu gün xalqımıza gün kimi aydındır ki, 1956-cı ilin aprelində M.C.Bağırovun on beş günlük məhkəməsi müttəhimə qarşı şər və böhtan nümayişi idi. SSRİ Baş prokuroru ermənilərin tapşırığını yerinə yetirirdi. Mikoyanlar, Baqramyanlar, Şaginyanlar və başqa yanlar həqiqi vətənpərvər-beynəlmiləlçidən və Azərbaycansevərdən qisas alırdılar. Buna görə də ona Nəriman Nərimanov kimi «millətçi damğası» vururdular. Bu düşmən ittihamının Azərbaycan şəraitində digər adı da vardı - müsavatçı.

## Mir Cəfər Bağırov və Müsavat

Qəribə səslənir, elə deyilmi? Sovet rejiminin bütün mərhələlərində onun Müsavat qədər güclü rəqibi olmamışdır. Həqiqi demokratiyadan çox uzaq olan bu totalitar hakimiyyət qurulandan ta dağılanadək bu «müxalifət» ilə mübarizə aparmışdır. Lenindən və Stalindən dərs almış inqilabçılar sabiq rəhbərlərini dar ağacına tərəf sürükləyəndə onlara «Müsavat» damğası vurmuşlar. Bu barədə Məhəmməd Əmin Rəsulzadə yazırdı: «Azərbaycanın sovetləşdirildiyi ilk gündən başlayaraq müsavatçılıq və panturanizmə qarşı amansız mübarizə aparan Ruhulla Axundov «panturanizmin zəhərli bir nümayəndəsi və Müsavat partiyasının zavallı bir agenti» kimi günahlandırıldı. Sovet dərsliklərinə panturanist və panislamist fikirlərini soxuşduran «Türkiyə agentlərini» cidd-cəhdlə üzə çıxarmağı özü üçün böyük bir hünər sayan Əliheydər Qarayev Müsavat partiyası ilə beynəlxalq faşizmin «soysuz bir uşağı» kimi ifşa edildi. Milli Azərbaycan hökumətinə qarşı konspirasiyası ilə məşhur olan Azərbaycanın inqilabi komitəsinin keçmiş üzvü, 1920-ci ildə Gəncə üsyanının yatırılması tapşırılmış baş komissar Həmid Sultanov inqilabi məhkəmənin qərarı ilə Azərbaycanı Sovetlər Birliyindən ayırmaq istəyən

silahlı üsyan qüvvələrinin başçısı olduğu üçün ölüm cəzasına məhkum edildi: eyni zamanda o, yabançı bir dövlətə casusluq etməkdə də günahlandırıldı».

...«Rudenko məhkəməsi»nin materiallarında Mir Cəfər Bağırov da «müsavatçı» kimi baş qaldırır.

O zaman, 1956-cı ildə indiki Şəhriyar adına klubun geniş zalında əyləşənlərin əksəriyyəti bilmirdi ki, 1918-1920-ci illərdə Azərbaycanda dünya ölkələrinin bir çoxunun rəsmən tanıdığı Xalq Cümhuriyyəti bərqərar olmuşdu. Quba qəzasında Xalq Cümhuriyyəti hökumətinin nümayəndəsi, parlament üzvü Əlibəy Zizikski idi.

Məhkəmə materiallarında deyilir: «...Qubada Sovet hakimiyyəti qurulmasında Bağırovun heç bir iştirakı olmayıb. Qubada Sovet hakimiyyəti 1918-ci ilin martında Sturuanın başçılıq etdiyi dəstənin Xaçmaz stansiyasına gəlişindən və onun Qubaya getməsindən sonra elan olunub».

Quba əhalisinin başına müsibətlər gətirib, mal-dövlətini məngirləyib Sovet hakimiyyəti elan edənlər bu gün xalqımıza yaxşı bəllidir. Nə yaxşı ki, Mir Cəfər Bağırovun 1918-1920-ci illərdə Qubada dostları sturualar deyil, əlibəylər olmuşdur. 1919-cu il iyunun 6-da Qusar, Quba, Xaçmaz və Dəvəçi əhalisinin keçirdikləri mitinqin iştirakçıları Bakıdan gələn ermənilərin xalqın başına gətirdikləri faciədən söhbət açır, Azərbaycan Xalq Cümuriyyətinin hərbi naziri Səmədbəy Mehmandarova minnətdarlıqlarını bildirirdilər. Mitinqin qəbul etdiyi qətamədə deyilirdi: «Şücaətli hərbi nazirimiz Mehmandarov bizim mahalda olduğu vaxt gözündə yaş damlaları süzüldüyü halda, Vətən, qadın və qızlarımızın, ana və bacılarımızın namusunun müdafiəsi yolunda canından belə keçməyə hazır olduğunu bildirmişdi».

1956-cı ildə Mir Cəfər Bağırovu «müsavatçı» qubalılara arxa olmaqda günahlandıranların ağlına gəlməzdi ki, onların tarixdən sildikləri Azərbaycan Xalq Cümhuriyyəti yenidən Azərbaycan torpağında, o cümlədən Əlibəy Zizikkilər, Mir Cəfər Bağırovlar Qubasında bərqərar olacaqdır.

«Rudenko məhkəməsi»nin müttəhimi Mir Cəfər Bağırovun qubalı müsavatçı dostları kimlər idi?

İlk növbədə Quba qəza komissarı Əlibəy Zizikski. Məhkəmədə şahid Orucov belə nəql edir: «1920-ci ildən sonra Bağırov Bakıda Azərbaycan FK-nın sədri idi, onun katibi isə mənim dayım oğlu Hacağa Şahverdiyev idi. Şahverdiyev Bağırovla ən yaxın dost olub. Biz üçümüz birlikdə Quba şəhərindəki şəhər məktəbində oxumuşduq.

1922-ci ildə mən Bakıya getdim və Şahverdiyevin evinə düşdüm.

Bir dəfə işdən qayıdandan sonra Şahverdiyev mənə dedi ki, Bağırov səni yanına çağırır. Ertəsi günü mən Hacağa Şahverdiyevlə birlikdə Azərbaycan FK-ya -Bağırovun yanına getdim. Bağırovla biz köhnə dostlar kimi görüşdük. O, məni çox yaxşı qarşıladı. Söhbət əsnasında Bağırov məndən soruşdu ki, Əlibəy Zizikskini

xatırlayırsanmı? Mən cavab verdim ki, çox yaxşı yadımdadır. Söhbətimizdə Hacağa Şahverdiyev də iştirak edirdi.

Bir qədərdən sonra Qəni adlı mühafizəçi bildirdi ki, «onlar gəliblər». Bağırov gələnləri içəri buraxmaq barədə ona göstəriş verdi. Bağırovun otağına bir-birinin ardınca keçmiş Quba bəylərindən Şıxlarskinin qohumu Bəybala bəy Alpanski, Bağırovun qubalı dostlarından Əlibəy Zizikskinin qohumu tacir Hacıbala Məmmədyarov, eləcə də Əlibəy Zizikski daxil oldular.

Onlar otağa daxil olanda Bağırov yerindən qalxıb, onları qarşıladı, hər biri ilə mehribanlıqla gorüşdü, Əlibəy Zizikski ilə hətta öpüşdü.

Söhbət zamanı Bağırov ərklə bildirdi ki, sən nə üçün gizlənirsən, özünü alçaldırsan. Bilirsən ki, mən burada işləyirəm. Əlibəy gözləri yaşarmış halda Bağırova bildirdi ki, onu həbs etməklə qorxudurmuşlar, ona görə də o gizlənib. Bağırov o dəqiqə Əlibəy Zizikskinin üzə çıxarılması üçün sənədlər hazırlamağı Hacağa Şahverdiyevə tapşırdı. Elə həmin otaqdaca Şahverdiyev sənədləri hazırladı, Bağırov həmin sənədi imzalayıb möhür vurdu. Həmin sənədi Zizikskiyə verib dedi: «Bu sənədə əsasən sən Azərbaycanın harasında istəsən yaşaya bilərsən. Nə qədər ki, mən burada - FK-da işləyirəm, sən heç bir şey üçün narahat olma».

Doğrudan da, bütün sonrakı illər ərzində Əlibəy Zizikski Bakıda yaşadı. Məhkəmə materiallarında bu da göstərilir ki, Əlibəy Zizikski şəxsi mülkündə yaşamış və həmin evin kirayə pulu ilə dolanmışdır.

Mir Cəfər Bağırovun himayədarlıq etdiyi dostları arasında Bəybala bəy Alpanski, Hacıbala Məmmədyarov və Qazı Əhməd bəy Məmmədbəyov da vardı.

* * *

Mir Cəfər Bağırov keçmiş Müsavat pristavı Qiyas bəy Cahandar bəy oğlu Şıxlinskinin Qazax qəzasına milis rəisi vəzifəsinə göndərilməsində də müqəssir hesab edilir. Şahid Z.Ə.Əliyevin ifadəsinə görə, Bağırov çox vaxt keçmiş Müsavat fəallarını öz tərəfinə çəkir və məsul vəzifələrə təyin edirmiş.

Belə çıxır ki, hələ iyirminci illərdə Azərbaycan Dövlət Siyasi İdarəsində Mir Cəfər Bağırov baş rəhbərlərə «Müsavat» adlandırılan müxalifətlə necə birgə işləmək nümunəsi göstərirmiş. Bu gün də ibrətamiz deyilmi?

Məhkəmə materiallarında qeyd olunduğu kimi, Mir Cəfər Bağırov Qubada Müsavat partiyasının qəza komitəsi sədrinin müavini Əlipənah bəy Şəfibəyovu da himayə etmişdir. Şəfibəyov 1930-cu ildə həbsə alınarkən, ondan türk nümunəli tüfəng və ona müvafiq 30 patron tapılmışdı. Lakin Azərbaycan Dövlət Siyasi İdarəsinin 1930-cu il martın 16-da Bağırovun sədrliyi ilə keçirilmiş kollegiyası Şəfibəyovun işinə xitam vermişdir.

Görünür Mir Cəfər Bağırov yəqin etmişdi ki, keçmiş müsavatçı bir ədəd türk nümunəli tüfənglə və 30 patronla dövlət çevrilişi etməyə qadir deyilmiş...

Mir Cəfər Bağırovun qanadı altına aldığı başqa bir qubalı - Müsavat partiyası şöbəsinin təşkilatçısı Əbilqasım Rüstəmov Onbirinci Ordunun qoşun hissələri Qubaya daxil olanda qaçıb gizlənmişdi. 1923-cü ildə Bağırov tərəfindən üzə çıxarılmış və ...Qubada 11 nömrəli sovxozda yanğından mühafizə idarəsinin rəisi vəzifəsində işləmişdir.

Nə qədər təəccüblü olsa da, müsavatçının çalışdığı sovxozda heç bir yanğın baş verməmişdir. Bununla belə, 1925-ci ildə Azərbaycan DSİ aparatında işləmiş A.M.Qasımov məhkəmədə şahid kimi bildirmişdir ki, «onun məsuliyyətə cəlb olunması barədə məsələ qaldırdım, Bağırov buna qol qoymadı və dedi ki, qoy o yaşasın».

Məhkəmə materiallarında Mir Cəfər Bağırovun Müsavat ordusu zabitlərinə də himayədarlığına dair məlumatlar vardır. Müsavat ordusunda zabit kimi xidmət etmiş, hərbi məktəb bitirmiş Məmməd Aslan oğlu Sarıcalinski Bağırovun köməyi ilə 1921-ci ildə Fövqəladə Komissiyanın əvvəlcə süvari diviziyasına, sonra isə sərhəd qoşunlarına işə götürülmüşdü. O, bir müddət Bağırovun özü ilə birgə xidmət etmişdir. Partiya sıralarına daxil olmuşdur. Onun ərizəsində Mir Cəfər Bağırovun dərkənarı qalmışdır: «İnsanı tamamilə məhv etməyə lüzum yoxdur».

Görünür, bir nəfər Müsavat zabitinin Sovet orqanlarında işləməsini Mir Cəfər Bağırov qəbahət hesab etməmişdir. O öz gözləri ilə görmüşdü ki, Mikoyanın, Amazaspın, Avetisovun ön cərgəsində durduğu Onbirinci Ordu vədinə xilaf çıxdı. Qısa bir müddətdə Səmədbəy Mehmandarovun və Əliağa Şıxlinskinin yaratdıqları Müsavat milli ordusu amansız təqiblərə məruz qaldı. **12 general, 27 polkovnik və podpolkovnik, 46 nəfər kapitan dərhal məhv edildi. 1200-dən çox Müsavat zabiti və əsgəri Arazı keçdi, mühacirətə üz tutdu.**

Vur-tut bircə Müsavat zabiti Sarıcalinski bu boyda Qızıl Ordunu dağıtmayacaqdı ki...

Məhkəmə materiallarında Mir Cəfər Bağırovun Müsavat partiyası ilə yanaşı «İttihad» partiyası üzvlərinə də himayədarlıq etməsi barədə ittihamlar irəli sürülür. Göstərilir ki, Bağırovun məsuliyyətdən xüsusilə qoruduğu şəxslər arasında 1919-cu ilin əvvəllərində «İttihad» partiyasının məsul katibi Əhməd Triniç xüsusi yer tutur.

İstintaqdan məlum olub ki, Əhməd Triniç əvvəllər türk ordusunun zabiti olub. Onun başçılığı ilə Qubada və Bakıda bolşeviklərə qarşı fəal mübarizə aparılıb.

Şahidlərin ifadələrinə görə, Əhməd Triniçlə Bağırov çox yaxın münasibətdə imişlər. Bağırov onu yüksək vəzifələrə irəli çəkirmiş, hətta respublika qəzetinin redaktoru kimi yüksək vəzifəyə təyin edibmiş. Triniçin əksinqilabi keçmişi barədə dəfələrlə siqnallar olmasına baxmayaraq, Bağırov 1933-cü ildə onu hökumət mükafatına - ordenlə təltif olunmağa təqdim etmişdir.

Mir Cəfər Bağırova yaxşı məlum idi ki, Onbirinci Ordunun Xüsusi şöbəsinin rəisi Pankratov 1920-1921-ci illərdə «İttihad» partiyasının işi ilə şəxsən məşğul olmuşdur. Ordunun ermənilərdən və ruslardan ibarət hərbi müstəntiqləri Azərbaycanda Sovet hakimiyyətini silahlı üsyan yolu ilə devirmək cəhdində ittiham olunan «İttihad» partiyasının yüzlərlə üzvünü və tərəfdarlarını cəzalandırmaq üçün «üçlüyə» təqdim etmişlər. Pankratovdan, Aşukindən və Qubindən ibarət «üçlük» Azərbaycanın ziyalı və millətsevər oğullarını Rusiyanın Xolmoqor, Ryazan, Nijni-Novqorod və digər həbs düşərgələrinə göndərmişdir.

Yalnız bir nəfər - Əhməd Triniç Mir Cəfər Bağırovun köməyi ilə Pankratovun caynağından xilas edilmişdir.

Məhkəmə iclasında nümayiş etdirilən bir ərizə də Mir Cəfər Bağırovu təəccübləndirməmişdi. Arxivdən çıxarılıb gətirilmiş ərizə Əhməd Triniçin dəstixəttilə yazılmışdı. Həmin ərizədə Əhməd Triniç Quba şəhərinin komendantı olduğunu, Xırdalandakı döyüşlərdə iştirakını, Qubada könüllülər dəstəsi yaradıb Azərbaycan-türk ordusunun hücumunadək bolşeviklərə qarşı fəal mübarizəsini əsas tutaraq, Müsavat parlamentinin mühafizəsi üçün dəstə yaradılmasını ona tapşırmağı xahiş edirdi. Məktub kimə ünvanlanmışdı? Azərbaycan Müsavat partiyasının sədri M.Ə.Rəsulzadəyə.

...Mir Cəfər Bağırov düşünürdü: Yaxşı, Müsavatın liderini Stalin Bayıl türməsindən çıxarıb özü ilə Moskvaya aparanda, mən beş-altı müsavatçı dostumu Pankratovun əlindən ala bilməzdim? Bir də ki, Əhməd Triniç ordu zabiti idi. Yaxşı, Nəriman Nərimanov Müsavat ordusunun iki generalını Leninə məktub yazıb xilas etməmişdi? Mən də bir zabitini Bakıda saxlamışam...

Məhkəmə materiallarında deyilir ki, Mir Cəfər Bağırov 1921-ci ilin dekabrın 9-da Beriya tərəfindən imzalanmış orderi yerinə yetirməyib. Həmin order Gürcüstanda həbs olunmuş Əli Əsədullayev haqqında idi. Bakı milyonçusu Əsədullayevin oğlu və H.Z.Tağıyevin kürəkəni Əli Əsədullayevin təqsiri nədən ibarət idi? O, çar ordusunun poruçiki olmuşdu. «Rudenko məhkəməsi»nin materialarına görə Əli Əsədullayev Müsavat hakimiyyəti dövründə «Vəhşi diviziya» tərkibində Sovet ordusuna qarşı mübarizə aparmışdır.

Mir Cəfər Bağırov Əli Əsədullayevin «işi» üzrə heç bir təhqiqat aparmayıb, demək, milyonçu oğluna himayədarlıq etmişdir. Əli Əsədullayev Bakı cıdır meydanında işləyirmiş, sonralar arvadı ilə birlikdə İrana keçib.

...Mir Cəfər Bağırov yəqin ki, öz-özlüyündə təhqiqat aparıb bu qərara gəlmişdi ki, Əli Əsədullayevin atasının və qaynatasının bütün var-yoxu əllərindən alınandan sonra... o qorxulu deyildir. Nərimanov Hacı Zeynalabdin Tağıyevə dəymədi, mən də onun kürəkəninə bir yaxşılıq edim.

Əli Əsədullayev bir gün cıdır meydanından köhlən atın belində yoxa çıxdı...

**1956-cı ildə, məhkəmə materiallarında adları «xalq düşmənləri» siyahısında çəkilənlər bu gün hamımız üçün Xalq Cümhuriyyətinin və milli**

**ordumuzun işıqlı adamları kimi daha doğma və əzizdir. Ən çətin məqamlarda onlara himayədarlıq etmiş Mir Cəfər Bağırovun günahı nədir? Məhkəmənin qırx iki il əvvəiki ittihamı indi müttəhim üçün bəraət hökmünə bərabərdir.**

## İki Mir Cəfər

İki Mir Cəfər, seyid nəslindən iki tarixi şəxsiyyət. Birisi Arazın bu tayında, digəri o tayında dünyaya göz açmışdır. Hər ikisi Kommunist partiyasına rəhbərlik etmişdir. Birisi bu tayda, o birisi o tayda. Aralarında üç il yaş fərqi vardır. Birisi əlli doqquz yaşında rusun «Rudenko məhkəməsi»nin müttəhimidir. O birisi bu məhkəmədən doqquz il əvvəl əlli dörd yaşında rusun KQB-nin əli ilə aradan götürülmüşdü. İndi isə yalançı şahidlər ifadə verirlər ki, Pişəvərinin ölümündə Bağırovun əli vardır.

**Bu Mir Cəfər o Mir Cəfərin qəsdinə dura bilərdimi?**

* * *

Müttəhim böhtançılara cavab vermirdi. Öz aləminə qapılmışdı. O bilirdi ki, bu məhkəmə əslində məzhəkədir. Ali partiya orqanı olan MK-nın üzvü kimi bilirdi ki, sovet qoşunları İrana nə üçün girmişdi və nə üçün çıxarıldılar. Bu illərdə də sovet siyasətinin İranda həyata keçirilməsində onun rolu böyük olmuşdu.

İranın şimalında milli muxtariyyəti gerçəkləşdirən hökumətin də nə üçün və necə qurulduğunu, sonra isə necə yıxıldığını o, gözəl anlayırdı. Cənubi Azərbaycandakı hərəkat əsrin əvvəllərində baş vermiş Məşrutə-Konstitusiya hərəkatı və Xiyabani hərəkatı kimi şah istibdadına qarşı İran xalqlarının demokratik hərəkatının bariz nümunəsi idi.

**M.C.Pişəvəri yazırdı: «Azərbaycan Tehrandan bir şey istəmir. Onu öz halına qoysalar kafidir. Ona imkan versələr, öz əlilə işlərini idarə etsin, bəsdir. Biz İranın istiqlal və tamamiyyətinə şədidən əlaqəməndik. Azərbaycan isə İran daxilində öz mədəni, milli haqqına malik olmalıdır».**

Azərbaycan milli hökuməti yarandığı gündən İranın bütün irticaçı qüvvələrinin əlbir təzyiqinə məruz qaldı. Milli hökumətə qarşı milliyyətindən asılı olmayaraq, İranın bütün qara qüvvələri birləşdilər. Ona qərəzlə «separatçı, rusपərəst» damğası vurdular. Dedilər ki, Pişəvəri Cənubi Azərbaycanı SSRİ-yə satıb. Məsələ BMT-nin Təhlükəsizlik Şurasına çıxarıldı. Moskvada İranın baş naziri Qəvam İranın şimalındakı neftin çıxarılmasını Stalinə vəd etdi. 1946-cı il aprelin 4-də imzalanan Sovet-İran sənədindən sonra BMT-də bir daha Azərbaycan məsələsinin müzakirəsinə lüzum qalmadı.

Bir ay sonra, 1946-cı il mayın 8-də İ.Stalinin Azərbaycan Demokratik Firqəsinin lideri M.C.Pişəvəriyə məxfi məktubunda deyilirdi: «Siz Sovet

qoşunlarının İranda qalmaqda davam edəcəyi təqdirdə Azərbaycan xalqının inqilabi işində uğur qazanacağına ümid edə bilərdiniz. Lakin biz onları daha İranda saxlaya bilmirik, başlıca olaraq ona görə ki, Sovet qoşunlarının İranda olması Avropa və Asiyada bizim xilaskarlıq siyasətimizin əsaslarını sarsıdır. Siz bir inqilabçı kimi əlbəttə, başa düşürsünüz ki, biz başqa cür hərəkət edə bilmərik».

Şərqi Avropa ölkələrində, Koreyada, Vyetnamda millətlərin taleyini kommunistlərə və Qızıl Ordunun himayəsinə tapşıran Stalin İranda azərbaycanlıların hüquqlarını... Qəvamüssəltənəyə həvalə edirdi. Kim idi bu «xilaskar?» Qəddarlıqda və amansızlıqda ad çıxarmışdı, Stalinin yaşıdı idi. Azərbaycanlıların qənimi idi. Başqa sözlə, Sovet Azərbaycanında kirovlar, mirzoyanlar kim idisə, İranda bu rolu Qəvam oynamışdı. Maraqlıdır ki, Stalin özü də Pişəvəriyə məktubunda Qəvamın irticaçı keçmişindən bəhs edirdi. Məktubda deyilirdi: «Keçmişdə Qəvamın necə bir irticaçı olmasına baxmayaraq, indi o özünü və hökumətini müdafiə etmək üçün bəzi demokratik islahatlara getməyə və İranın demokratik elementləri arasında dayaq axtarmağa məcburdur. Belə bir şəraitdə bizim taktıkamız necə olmalıdır? Mən fikirləşirəm ki, biz Qəvamdan guzəştlər qoparmaq üçün bu münaqişədən istifadə etməliyik, ona kömək göstərməliyik».

**Mir Cəfər Bağırov Stalinin Pişəvəriyə məktubundakı bu sözləri yaxşı xatırlayırdı: «Bizə məlum olduğuna görə, siz demişsiniz ki, biz əvvəlcə sizi göylərə qaldırmış, sonra isə uçuruma yuvarlatmışıq və sizi rüsvay etmişik. Əgər bu doğrudursa, onda bizdə təəccüb hissi doğurur».**

Burada təəccüblənəsi bir şey yoxdur. Hər iki Mir Cəfərə gün kimi aydın idi ki, Qızıl Ordu hissələrinin İrana yeridildiyi ilk mərhələlərdə Stalin Cənubi Azərbaycanda özünüidarəçiliyi müdafıə edirdi. Hər iki Mir Cəfərin Cənubi Azərbaycanda milli hökumətin atributlarının Azərbaycan Xalq Cümhuriyyəti atributları ilə eyni olmasına razılıq verməsinin səbəbi də bununla izah edilə bilərdi. Stalinin gələcəkdə Cənubi və Şimali Azərbaycanı birləşdirmək planını Mir Cəfər Bağırov ürəkdən alqışlayır və buna səy göstərirdi. Müharibə nəticəsində ikiyə bölünmüş Azərbaycanı müharibə nəticəsində də birləşdirmək üçün bundan əlverişli imkan ola bilməzdi. Bütövlük Azərbaycanın bütün dərdlərinə son qoyardı. Fəqət bu plan əslində SSRİ-nin genişlənməsinə, Cənubi Azərbaycanda da totalitar kommunist rejiminin qurulmasına gətirə bilərdi. Qərbin ultimatumu, ABŞ-ın atom şantajı Stalini geri çəkilməyə məcbur etdi.

Mir Cəfər Bağırovdan fərqli olaraq, Mir Cəfər Pişəvəri türk xalqlarının taleyinə tarix boyu düşmən münasibəti bəsləyən ermənipərəst rus və bolşevik rəhbərlərinin siyasi oyunbazlığını daha çox dərk edirdi. Stalinin şəxsi məktubu ilə tanış olandan sonra o demişdi: «Mən rusları yaxşı tanıyıram. Onlar, öz mənfəətləri başqa bir tərəfdə olsa, bizi meydanın ortasında tək qoyacaq və hətta çox ola bilər düşmənin əlinə verəcəklər».

Elə də oldu. İki Mir Cəfər meydanda köməksiz qaldı. Rusiya və Amerika İranda irtica qüvvələrinə rəvac verdilər. Milli hökumətə müəyyən maraq göstərən

ABŞ-ın üzü döndü, İran dairələrinin «Azərbaycanın fəthi» planına dəstək verdi. Gizli müqaviləyə əsasən bu məqsədlə İrana 40 tank, 150 bombardmançı təyyarə və başqa silah göndərildi.

1946-cı ilin noyabr ayında 50 minlik şah qoşunu 55 tank, 50 təyyarə, 174 top, 3 minə qədər ağır pulemyot və başqa silahlarla «Azərbaycanın fəthi» planını həyata keçirməyə başladı. Əməliyyatlara Amerikanın İrandakı hərbi missiyası və Məhəmməd Rza şahın özü şəxsən rəhbərlik edirdi. Onun qoşunlara olan əmrində deyilirdi: «Gedin Azərbaycanı atəşə tutun, oranı yerlə-yeksan edin». Şah qoşunları azəri türklərinin demokratik hərəkatına divan tutanda sovet mətbuatı günahın əsas hissəsini Amerika-İngiltərə imperializminin üzərinə yıxırdı. Cənubi Azərbaycanda tüğyan edən vəhşiliklərdən bəhs edən bir yazını «Kommunist» qəzeti özünün 1950-ci il 18 avqust tarixli sayında dərc etmişdi. Məqalədə oxuyuruq: «Gizli iş görməyə mahir olan şəxslər Amerika-İngiltərə hakim dairələrinin göstərişi ilə İranda elə qanlı və çirkin işlərlə məşğul olurdular ki, bunun misli hətta orta əsrlər dövründə belə görünməmişdir. İran irticaçıları və onların amerikan ağaları Arazın o tayında öz milli azadlığı və demokratik hüquqları uğrunda mübarizəyə qalxan milyonlarla xalq kütlələrinin hərəkatını qan dəryasında boğdular». Kim idi bu irticaçılar? Zəhmətkeş və azadlıqsevər vətəndaşların iradəsini qıranlar! Lakin xeyir-duanı onlara Kremlin ikiüzlü rəhbərləri və beynəlmiləlçi cildinə girmiş daşnaklar, arxi-yepiskop Tanginyan və icma başçısı Mkrtıçyanlar verirdi.

Mir Cəfər Pişəvəri Moskva üçün M.Ə.Rəsulzadə və N.Nərimanovdan sonra ən qatı «millətçi rəhbər» idi. Onu M.Ə.Rəsulzadə kimi ölkədən çıxarıb mühacirətə göndərmək olmazdı. Çünki SSRİ-nin sərhədləri seyf qapısı kimi kilidlənmişdi. M.C.Pişəvərini N.Nərimanov kimi Moskvaya aparıb rəhbər bir iş də vermək olmazdı. Ən başlıcası ona görə ki, İranla münasibətlər Kreml üçün Azərbaycanın taleyindən üstün idi. M.C.Pişəvəri elə Sovet Azərbaycanının hüdudları çərçivəsində yox edilməli idi. Həm də bu, Bakıda baş verməməliydi. Çünki Moskvanın iki Mir Cəfərin arasını vurmaq cəhdlərinə baxmayaraq, onları bir-birinə düşmən etmək qeyri-mümkündü. «Gizli iş görməyə mahir olan şəxslər» Mir Cəfər Pişəvəriyə qarşı «əməliyyatı» Mir Cəfər Bağırovun xəbəri olmadan həyata keçirməli idilər.

1947-ci ilin isti yay günlərində Mir Cəfər Pişəvəri Gəncədə idi. O vaxtlar Kirovabad neft kəşfiyyatı trestinin rəisi işləyən Nəzər Heydərovun qonağı idi. O, tək deyildi. Qonaqlar arasında respublika Dövlət Təhlükəsizliyi Nazirliyi katibliyinin rəisi, SSRİ-nin Təbrizdəki konsulunun müavini işlədiyi illərdən Pişəvərinin tanıdığı Nuru Quliyev, general Qulam Yəhya da vardı. Məclis ta gecədən keçənədək davam etdi. Əslən Şəkidən olan Nuru Quliyev birdən qonaqlara belə bir təklif etdi: gəlin buradan elə bu saat Şəkiyə yollanaq, səhəri orada açaq.

Bu təkliflə məclisdəkilərin hamısı razılaşdı. Pişəvəri də qonaq kimi etiraz etmədi.

Qonaqlar general Qulam Yəhyanın «Hudzon» markalı avtomaşınında yay gecəsinin sakitliyində Şəkiyə tərəf irəliləməkdə idilər. «Hudzon»un sürücüsü kim idi? Karnik Melixyan. Onun mənşəyi DTN rəhbərlərinə yaxşıca məlum idi. Atası İranda Daşnaksütyun partiyasının lideri imiş. Arvadı vaxtilə Britaniyanın İrandakı səfirliyində işləyirmiş. Karnik Melixyanın adına Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin şöbəsində şəxsi vərəqə açılıbmış.

1944-49-cu illərdə respublika Dövlət Təhlükəsizliyi Nazirliyi Yevlax rayon şöbəsinin müdiri vəzifəsində işləmiş Lətif Salayevin şahid ifadəsində deyildiyi kimi, Karnik Melixyanın xarici kəşfiyyatın agenti olması Dövlət Təhlükəsizliyi naziri Yemelyanova məlum idi. Buna baxmayaraq, erməni sürücü general Qulam Yəhyanın maşınını sürməkdə idi. Ona hətta Pişəvərini də gəzdirməyi tapşırmışdılar.

Azərbaycan xalqının qatillərinə nökərlik edən K.Melixyan Yevlaxın 14 kilometrliyində maşını qəzaya uğratmışdı. Axtarış zamanı ondan 10.000 manat pul və «Valter» tapançası tapılmışdı. Sürücü hiyləgərliyə əl atmış, qəzanın törədilməsində günahı olmadığını söyləmişdi. Guya maşını gecə vaxtı sürdüyündən sükan arxasında onu yuxu tutubmuş. Sürücüdən soruşan olmamışdı ki, sükanın ikiyə bölünməsinə baxmayaraq, sənə heç bir xətər dəymədiyi halda necə olub ki, sənin yanında əyləşən Pişəvərinin qabırğası əzilmiş, ayağı sınmış, başı yaralanmışdır?

* * *

**Əvvəlcədən qurulmuş maşın qəzasında Pişəvərinin sağ qalması «əməliyyatın» tam həyata keçirilməməsi demək idi. Ona görə də Pişəvərinin ölümü, necə deyərlər, təşkil olunmalı idi.**

1947-ci il iyul ayının 11-də Pişəvəri ölümcül halda Yevlax rayon xəstəxanasına gətiriləndə huşu özündə idi. Həkimlərdən xahiş etdi ki, Bakıdan doğma qardaşını gətirsinlər, o, həkim-cərrahdır. Əvəzində Stepanakertdən cərrah Əsriyan gəldi. Pişəvəri Gəncədəki iyirmi yaşlı oğlunu yanında görmək istədi. Ömrünün ən çətin məqamında ataya oğlundan daha yaxın kim ola bilərdi? Xəbər çatdırmadılar. Çatdırsaydılar, qaça-qaça gələrdi və ... cinayətdən agah olardı.

Yalnız ertəsi günü, iyulun 12-də Bakıdan həkimləri və şəfqət bacılarını gətirən təyyarə Yevlaxa endi. Artıq gec idi. Pişəvəri cərrahiyyə əməliyyatından ayağa qalxmadı.

Mir Cəfər Pişəvərinin bacısı, 93 yaşlı Suğra Cavadzadə o faciəli günlərdən ürək ağrısı ilə danışır:

- O zamanlar biz Buzovnada camaat arasında «Nobel bağı» deyilən yerdə ikimərtəbəli binada yaşayırdıq. Burada Cənubi Azərbaycandan gəlmiş digər ailələr də məskunlaşmışdı. Qardaşım Mir Cəfər tez-tez bizi tərk edərək, bir neçə günlüyə rayonlara gedir, əsgərlərə baş çəkirdi. Bunu da söyləyim ki, Cənubi Azərbaycanda milli hökumət devriləndən sonra da Bakı və respublikanın digər yerlərində

fədailərimizin hərbi hissələri qalırdı. Təkcə Bakının hərbi məktəbində 500-dək cavan təhsil alırdı. Pişəvəri onlara pənah idi. Son dəfə bizdən ayrılarkən, Gəncəyə gedəcəyini bildirmişdi. O zaman qardaşımın oğlu Daruş da Gəncə yaxınlığında əsgərlər arasında idi. Pişəvəridən kiçik qardaşım Mir Səlim həkim-cərrahdı. Pişəvərinin rayondan ağır vəziyyətdə Sabunçu xəstəxanasına gətirildiyini də Buzovnaya Mir Səlim çatdırdı.

Amma tapşırdı ki, Sabunçuya getməyək, onsuz da xəstəxanaya buraxmayacaqlar.

Ertəsi günü «Nobel bağı» yasa batdı. Qardaşımı ehtiramla burada dəfn etdilər. Mərasimdə nitq söyləyənlər çoxdu. Onların arasında ailəmizin yaxşı tanıdığı şair Mir Əli Mənafi də vardı. Onun qardaşımın qəbri üstündə oxuduğu şeir mərasimə gələnləri sarsıtdı, mən bacını daha çox.

...Suğra bacı qızı Fəxrinin, nəvə və nəticələrinin əhatəsindədir. Böyük Pişəvərinin sonbeşik bacısı onun yeganə oğlu Daruşla da fəxr edir. Qardaşoğlunun bibisi həm də onun qaynanasıdır. Hazırda Almaniyada yaşayan Cavadzadələr Bakıdakı ağbirçək anadan həmişə hal-əhval tuturlar. Vaxtilə Azərbaycan Neft Akademiyasını bitirmiş Daruş Berlində alim və mühəndis kimi nüfuz qazanmışdır. Xanımı Cəvahir həkim işləyir. İki oğul atasıdır.

...İllər keçmişdir. Mir Cəfərləri göyə qaldırıb sonra da yerə çırpan imperiya dağılmışdır. Xalqımızın nadir övladlarının müəmmalı ölümünün əsl səbəbləri üzə çıxmaqdadır. Tarix elmləri doktoru, professor Şövkət Tağıyeva «Azadlıq» qəzetinin 1996-cı il 13 iyul tarixli sayında dərc olunmuş «Əbədi dərs» məqaləsində inkaredilməz elmi nəticələrə gəlmişdir. Görkəmli alim yazır: **«İran müəlliflərindən Vəkilinin gəldiyi bu nəticə də düşündürücüdür: «Pişəvərinin dikbaşlığından incik və narazı olan ruslar... onu öldürməyi qərara aldılar, qəzadan sonra xəstəxanada iynə vurub öldürdülər».**

«Azadlıq» qəzetindəki yazının tam ziddinə olaraq, «Avrasiya» qəzetinin 1997-ci il 23 avqust tarixli sayında «Pişəvərini kim öldürdü?» adlı məqalədə oxuyuruq: «Üzvü olduğu üçün insanları güllələtdirdiyi Müsavat partiyasının qurduğu Azərbaycan Demokratik Cümhuriyyəti atributlarını Təbrizdə yaşadan Bağırov millət xilaskarı deyildi. İlk baxışdan çox oxucularımız düşünə bilər ki, Mir Cəfər Təbrizdə hökumət yaratmaqla azərbaycanlılara xeyir vermişdir. Fəqət, bu qətiyyən belə deyildir. Təbriz hökumətinin başçısı Seyid Cəfər Pişəvərinin məhvini təşkil edən Bağırov yaxşı bilirdi ki, azərbaycanlılar deportasiya edilərsə, o, hakimiyyətini itirə bilər. Əhalisi Qazaxıstan çöllərinə sürgün edilmiş respublikanın başçısı kimə və nəyə lazım idi?»

Azərbaycan dilində deyil, «Avrasiya» ləhcəsində yazılmış qəzet materialından yalnız bir şeyi anlamaq mümkündür: Pişəvərinin məhvini Bağırov təşkil etmişdir. Başqa sözlə, «Rudenko məhkəməsi»nin sübut edə bilmədiyi iyrənc məqsədə həmin məhkəmədən 42 il keçəndən sonra «Avrasiya» nail olmaq istəmişdir.

Sual olunur, Pişəvəriyə canıyananlıq edən qəzet bəs nə üçün bu böyük şəxsiyyətin anadan olmasının ildönümünü yada salmır? Yada sala da bilməz. Çünki başlıca məqsəd Pişəvəridən bəhs etmək deyil, oxucuya bu fikri aşılamaqdır: Mir Cəfər Bağırov millət xilaskarı deyildir. Bəs kimdir?

Ümumiyyətlə, bəzi mətbuat orqanları son vaxtlar tarixi şəxsiyyətlərin hərəsi haqqında bir yalan uydururlar. Nəriman Nərimanov Zəngəzuru ermənilərə hədiyyə etmişdir, M.Ə.Rəsulzadə isə lap kəlləçarxa çıxmışdır: Almaniyada Fətəlibəyli Əbdürrəhman Düdənginskini qətlə yetirmişdir. Bəs ətəyində namaz qılası olanımız hansıdır?

Üzdəniraq müəlliflərin arşınına görə, millətimizin taleyi uğrunda həyatlarını qurban vermiş şəxsiyyətlər dayaz düşüncə ilə yaşamışlar. Bir-birinə intiqam hissi bəsləmişlər. Bakıda şəhərin göbəyində, Azərbaycanda şose yollarında, gecənin qaranlığında Moskvada öz mənzilinin həndəvərində, Almaniyada kirayə evdə...öz soydaşlarını qəsdən məhv etmişlər.

Bu cəhətdən «Yeni Azərbaycan» qəzeti 1998-ci il «müsabiqəsi»nin qalibi sayıla bilər. Qəzetin bu il 29 və 30 sentyabr tarixli saylarında dərc olunmuş «Düdənginskinin ölümündə M.Ə.Rəsulzadənin əli varmı?» məqaləsi «Avrasiya» qəzetinə əl tutmuşdur.

M.Ə.Rəsulzadə irsini Araşdırma Fondunun sədri Nəsiman Yaqublu «Yeni Müsavat» qəzetinin səhifələrində «Yeni Azərbaycan»a tutarlı cavab verdiyindən bu haqda söhbət açmağa lüzum yoxdur. Ancaq bir başlıca amil vardır ki, mövzumuz çərçivəsində ondan danışmamaq mümkün deyildir. Məsələ bundadır ki, 1947-ci ildə Pişəvəri əməliyyatı ilə 1954-cü ildə Düdənginski əhvalatı eyni bir mərkəzin hazırlayıb həyata keçirdiyi qəsddir. Bu həqiqəti yəqin ki, elə «Yeni Azərbaycan» da bilməmiş deyildir. Məqsəd tamam başqadır: «Avrasiya» Pişəvəri deyərək, Mir Cəfər Bağırovu qatil hesab etdiyi kimi, «Yeni Azərbaycan» da Düdənginski hayqıraraq, M.Ə.Rəsulzadəni gözdən salmaq istəyir. Məqalədə oxuyuruq: «Bu cinayəti törətməklə M.Ə.Rəsulzadə yenidən reytinqinin qalxacağına, liderləşəcəyinə ümid bəsləyirdi. Lakin heç də hər şey onun düşündüyü kimi alınmadı...» Başqa sözlə, müəllif «reytinq», «lider» istilahlarından istifadə etməklə demək istəyir ki, XX əsrin sonlarında bütün «liderləşmək istəyənlər» nə qədər çalışsalar da, seçimdə qutudan Heydər Əliyev çıxacaqdı...

İndi də keçək 1947-ci ildə Yevlax yaxınlığında və 1954-cü ildə Almaniyada baş vermiş hadisələrin oxşarlığına.

Hər iki əməliyyat dövlət təhlükəsizlik orqanları tərəfindən hazırlanıb, həyata keçirilmişdir. Pişəvərinin başına gətirilənləri «Rudenko məhkəməsi»ndə keçmiş DTK əməkdaşları da etiraf etmişlər. Mayor Düdənginskinin faciəli ölümü barədə isə ilk dəfə «Ədəbiyyat qəzeti»nin 1995-ci il 31 mart tarixli sayında «Qürbətdəki əsirlər» yazısında geniş məlumat verilmişdir. Müharibədən qabaq «Yeni İsmayıllı» qəzetinin məsul katibi olmuş, hazırda Türkiyədə yaşayan Əhməd Ulusoy

Almaniyada əsirlikdə olmuşdur. M.Ə.Rəsulzadə və F.Ə.Düdənginski ilə yaxından tanış imiş.

O nəql edir ki, Əbdürrəhman bəy Fətəlibəyli əslən Naxçıvanın Düdəngə kəndindən olduğundan Düdənginski təxəllüsünü daşıyırdı. Müharibənin əvvəllərində əsir düşmüşdü. Mayor rütbəsilə alman ordusunda xidmət edirdi. Sərkərdəlik məharətinə görə Almaniyanın milli qəhrəmanı adına layiq görülmüşdü (müstəmləkə xalqlarının azadlıq istəyən oğullarının bir totalitar imperiyaya qarşı mübarizədə digər totalitar imperiyadan imdad diləməsi faciədir!). M.Ə.Rəsulzadə Almaniyadan Türkiyəyə mühacirət edəndə, Düdənginski orada azərbaycanlı əsirlərin yeganə pənahı idi. Bəstə boylu, girdə sifətli, qaynar baxışlı mayor bir neçə xarici dil bilirdi.

Düdənginskinin son günləri Münhendə keçmişdir. O, Amerikanın Sovetlər əleyhinə fəaliyyət göstərən institutunda dərs deyir, ictimai-siyasi xadim kimi tanınırdı. Lakin Sovet casuslarının gözündən yayınmırdı. Onun qətli azərbaycanlı casusa tapşırılmışdı. Casus dost cildinə girərək, Düdənginski ilə yaxınlıq edir. «Dost» casus bir gün Düdənginskini evinə dəvət edir, şəraba qonaq edir və ... çəkiclə başına vura-vura işgəncə ilə öldürür. Paltarını çıxarıb öz əyninə geyir, sənədlərini də götürür. Mayor Fətəlibəyli libasında aradan çıxır.

Amerika nümayəndələri ölənin kimliyinə varmadan torpağa basdırdılar. Cinayətin üstü açıldıqda isə qəbri açıb, F.Ə.Düdənginskini rəsmi dəbdəbə ilə dəfn edirlər.

Atasının faciəli ölüm xəbərini eşidən oğlu Əlinin başına hava gəlir. ABŞ hökumətinin razılığı ilə Əlini anası Leyla xanımla birlikdə təyyarə ilə Nyu-Yorka göndərirlər. Onlar şəhərin yaxınlığında azərbaycanlıların daha sıx yaşadıqları Novak qəsəbəsində məskunlaşırlar. ABŞ hökuməti onlara yüksək təqaüd kəsir.

Əhməd Ulusoy mayor Düdənginskinin ömür-gün yoldaşı Leyla xanım haqqında da ürəklə danışır. Leyla xanım davanın ilk günündən əri ilə birlikdə cəbhəyə yollanmışdı. Birlikdə də əsir düşmüşdü. Birlikdə də əsir kimi İtaliyaya göndərilmişdilər. Bundan xəbər tutan azərbaycanlılar, ilk növbədə əsirlikdə olan ruhanilərimiz yeddi min İsveçrə frankı toplayıb Romadakı həbsxanaya göndərmişdilər. Düdənginski həmin məbləği qəbul edib, digər zindanda dustaq olan arvadı Leyla xanıma göndərmişdi. Leyla xanım isə həbsxana müdirindən xahiş etmişdi ki, həmin pulu bütün azərbaycanlı məhbuslar arasında bölərək paylasın. Ən axırda ərinə və ona çatacaq payı saxlasınlar. Leyla xanımın bu nəcib hərəkəti hamını heyrətə gətirmişdi...

Bu gün 44 il əvvəl Düdənginskinin qətlə yetirilməsi bəhanəsilə M.Ə.Rəsulzadənin adına böhtan atanlar «Rudenko məhkəməsi»nin maddələrini dəstəkləyənlərdir. Əgər onlar Düdənginskinin xatirəsini əziz saxlayırlarsa, Almaniyada onun məzarını tapsınlar. Leyla xanımın taleyi necə olmuşdur? F.Ə.Düdənginskinin yeganə yadigarı Əli sağmıdır? Haradadır?

Mir Cəfər Pişəvərinin ölümündə Mir Cəfər Bağırovu, Fətəlibəyli Əbdürrəhman Düdənginskinin qətlində Məhəmməd Əmin Rəsulzadəni günahlandırsaq, onda Şıxəli Qurbanovun, Ziya Bünyadovun və başqa şəxsiyyətlərimizin ölümünə bais olanlar da aşkarlanmalıdır. O zaman Mir Cəfər Bağırovdan sonra hakimiyyətə gəlmiş rəhbərlərin günahı yüksələn xətt boyunca artacaqdır. Nəsillərimiz rəhbərlərinə bir-birinin ardınca rəhmət deməyəcək, lənət yağdıracaqlar.

## Məhəmməd Biriya

1944-cü ilin mayında Təbrizdən Həsən Şahgəldiyevin M.C.Bağırovun adına göndərdiyi məktubda oxuyuruq: «Məhəmməd Biriya mənimlə əlaqə saxlayır. Hər gün görüşürük, onun gələcək ədəbi fəaliyyəti barədə də müzakirələr aparırıq. O, məndən xahiş edib ki, göstərdiyiniz atalıq qayğısına görə atəşin salamlarını sizə çatdırım».

1944-cü ilin yazında və yayında Güney Azərbaycanda aparılan siyasət barədə Stalinə göndərdiyi geniş məlumatında M.C.Bağırov Məhəmməd Biriyanın adını xüsusi iftixar hissi ilə çəkirdi.

1945-ci ilin oktyabrında Parisdə açılan Ümumdünya Həmkarlar İttifaqları Konqresində Məhəmməd Biriya Azərbaycan fəhlə və zəhmətkeşlərinin nümayəndəsi kimi iştirak etmişdir

... **«Biz Azərbaycan xalqının azadlığını müdafiə etmək yolunda ölümə gedirik».** Bu sözlərin altında Mir Cəfər Pişəvərinin və Məhəmməd Biriyanın imzası vardı.

Azərbaycan Demokratik Firqəsi Mərkəzi Komitəsinin üzvü, Milli Məclisin deputatı, milli hökumət dövründə maarif naziri, Cənubi Azərbaycanda Həmkarlar İttifaqının sədri, Yazıçılar Cəmiyyəti İdarə Heyətinin sədri işləmiş Məhəmməd Hacı Qulam oğlu Biriya Pişəvərinin ölümündən sonra amansız məhrumiyyətlərə düçar edildi. Təqsiri nə idi? Guya 1942-ci ildə rəsmi icazə olmadan Təbrizə qayıtmışdı. Elə çıxır ki, Biriya öz doğma el-obasına baş çəkmək üçün Moskvadan icazə vərəqəsi almalı idi. Bunda ittiham olunurdu ki, milli hökumətin maarif naziri vəzifəsini daşıyarkən, Təbrizdə Amerikanın konsulu ilə görüşmüşdü. Elə çıxır ki, Təbrizdə əcnəbi ölkənin elçisi ilə görüşmək üçün əcnəbilərdən icazə almalı idi.

Mir Cəfər Pişəvərinin qətlinə fərman verən yemelyanovlar alovlu vətənpərvəri və azadlıq aşiqini Azərbaycandan sürgün etdilər. O, doqquz il Rusiya zindanlarında əzab çəkdi.

Məhəmməd Biriya cəzasını çəkib Bakıya qayıdanda qırx dörd yaşında idi. Əlində bəraət kağızı da vardı. Düşünürdü ki, bir daha ona yaxın düşməyəcəklər. Bakı da dəyişmişdi, şəhərin adamları da. Stalinin portretləri götürülmüş, mərkəzdəki

bağların, parkların dəmir çəpərləri sökülüb atılmışdı. Nikita Xruşşovun məhbus ilə fotoşəklini qəzetdə görəndən sonra ona elə gəlirdi ki, Bayıl həbsxanası da boşalacaqdır. Siyasi dustaqların hamısına bəraət veriləcəkdir.

Ancaq şirin xəyallar puç oldu. 1957-ci ilin iyun ayında Mir Cəfər Pişəvərinin vəfatının onuncu ildönümü münasibətilə xatirə günü keçirilməsinə hazırlıq görən silahdaşını qəfildən həbsə aldılar. Azərbaycanın xəfiyyə orqanlarının yeni rəhbərləri bu dəfə onu nədə günahlandırırdılar? Guya Rusiya həbsxanalarında başına gətirilən müsibətlər barədə Bakıya qayıtdıqdan sonra şairliyinə salaraq dost-tanışlarına danışmışdır. Buna görə də bəraəti ləğv edilməli və yenidən Rusiyaya sürgün edilməlidir, həm də bu dəfə doqquz yox, on il müddətinə.

Yalnız və yalnız əfsanələrdə rastlaşdığımız qeyri-adi qəhrəmana bənzər Məhəmməd Biriya on ili də qürbətdə dörd divar arasında keçirdi. 1967-ci ildə azadlığa buraxılaraq, Bakıya döndü. Bu dəfə on ildə başına gələnləri danışmaq üçün dost-tanış da qalmamışdı. Bircə yerin qulağı kar deyildi. Çünki bu qulağı KQB əvvəlkindən də möhkəm qorumaqda idi... Təzada bax, dünən Stalini söyənlər bu gün Xruşşovu bəyənmirdilər. Dünən Mir Cəfər Bağırova qılınc çəkənlər bu gün İmam Mustafayevi də bəyənmirdilər. Adamda neçə üz olar, aman Allah?! Hara getməli, necə yaşamalı?!

Məhəmməd Biriya otaqda özü-özüylə danışırdı. Sanki təzə yazdığı şeirini pıçıltı ilə əzbərdən deyirdi. Şair illər uzunu bağrının başında gəzdirdiyi fotoşəkli döş cibindən çıxarıb yazı masasının üstünə qoydu. Vəfalı ömür-gün yoldaşı və bir neçə aylıq ikən üzündən öpüb ayrıldığı oğlu bir anda fotonu canlandırmışdı: «Ata, Təbrizə qayıt. Anam lap əldən düşüb...»

Məhəmməd Biriyanın qərarı qəti oldu - Təbrizə dönməliyəm! Azərbaycanın əlaqədar təşkilatlarının rəhbərlərinə üz tutdu. Kabinetlərindən Leninlə yanaşı Brejnevin də portretini asmış rütbə sahibləri Biriyanın xahişinə məhəl qoymadılar. Dedilər ki, bu, respublikanın səlahiyyəti xaricində olan məsələdir. Axı sənin Təbrizdə nə işin var? Nə olsun arvad-uşağın ordadır? İran xarici ölkədir, Təbriz də onun bir şəhəri. Bu xam xəyaldan vaz keç. Başını sal aşağı, Vətəndən şeirlər yaz, yaşa.

Məhəmməd Biriya kor-peşmən qalaraq, pənah gətirdiyi ali vəzifə sahiblərinə bir söz deməmdi. Yadına Mir Cəfər Bağırovla elə bu binada görüşü düşdü. 1947-ci ilin mart ayında, Novruz bayramı ərəfəsində Mir Cəfər Bağırov onu qardaş mehribanlığı ilə qarşılamışdı, səmimi söhbət etmişdi, bütün xahişlərini yerinə yetirmişdi. Milli qeyrətin yoxdursa, millətə rəhbər olma. Bu binaya kişi gəldi, bu binadan kişi getdi Mir Cəfər. Sonra da Şəhriyarın misralarını dodaqaltı dedi:

O Mir Cəfər seyidlərin tacıydı,
Şahlar şikar etməsi qıyqacıydı.
Mərdə şirin, namərdə çox acıydı,

Məzlumların haqqı üstə əsərdi,
Zalımları qılınc kimi kəsərdi.

Əlbəttə, Məhəmməd Biriya yaxşı bilirdi ki, Şəhriyarın «Mir Cəfəri» nə Mir Cəfər Bağırov, nə Mir Cəfər Pişəvəri idi. Ancaq nə fərqi, hər ikisi həqiqətən «seyidlərin tacıydı»...

Min əziyyəti dəf etmiş cəfakeş min birinə də tablaşdı. Təbrizə getməyə rəsmi icazə almaq üçün bu dəfə dustaq kimi Rusiyaya yol aldı. Kursk vağzalında qatardan düşüb, tramvay dayanacağına yaxınlaşdı. Onun arxasınca gələnlərdən iki nəfər ayaq saxladı, birisi nabələd qonağın qolundan tutaraq, «Qrajdanin, v maşinu» - dedi. Əlbəttə, adi paltarda olan bu moskvalılar heç də qonağı mehmanxanaya aparmağa gəlməmişdilər...

Milis şöbəsində akt tərtib olundu. Yalançı şahidlərin ifadələri akta əlavə edildi. Məhəmməd Hacı Qulam oğlu Biriya milis işçilərini təhqir etdiyinə görə məhkəməyə verildi, ona iki il həbs cəzası kəsildi. Təbrizə getməyə tələsən vətənpərvərə Moskva göz dağı çəkdi. Onu Tambov vilayətinə həbsxanaya göndərdilər...

Məhəmməd Biriya Tambov vilayətində dustaqxana günlərini də başa çatdırdı. Moskvaya, oradan da Bakıya gəldi. Bakıda əqidədaşları ona xəbər verdilər ki, Pişəvərinin məzarı Buzovnadan Fəxri Xiyabana köçürülmüşdür. Biriya payi-piyada unudulmaz və müqəddəs insanın qəbri üstünə gəldi. Fatihə surəsi oxudu, heykələ döndü və sonra da öz heykəlini gözlərindən axan isti damlalar cana gətirdi.

Əzabkeş şair Sabir adına kitabxananın qiraət zalında boş masalardan birinin arxasında əyləşdi. Kağız və qələm götürüb məktub yazdı. Məktub Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Vəli Axundova ünvanlanmışdı. Ancaq bu nə şikayət ərizəsi, nə də xahişnamə idi. Minnətdarlıq idi. Məhəmməd Biriya Mir Cəfər Pişəvərinin məzarının Fəxri Xiyabana köçürülməsinə görə Vəli Axundova ürək sözlərini çatdırırdı. Bir də ümid edirdi ki, Pişəvərinin xatirəsini əziz tutan rəhbər ona da kömək əlini uzadar, Bakıda işləməsinə şərait yaradar. SSRİ Daxili İşlər Nazirliyi Azərbaycanda həmişəlik qalmağı ona yasaq etmişdi.

1969-cu ilin qızmar yay günlərində Məhəmməd Biriya radiodan xəbər tutdu ki, Azərbaycan KP MK-nın iyul plenumunun qərarı ilə Vəli Axundov işdən azad edilmiş, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri Heydər Əliyev respublikanın birinci rəhbəri olmuşdur. Sevindi, sevindi ki, artıq arzusuna çatacaqdır, Bakıdan Təbrizə dönəcəkdir. Avqust plenumundan sonra Azərbaycan KP MK-ya bu məzmunda məktub yazıb göndərdi: «Daxili İşlər Nazirliyi mənə yaşamaq üçün Tambov vilayətinin Yaroslav kəndini təyin etmişdir. Orası Rusiyadır, mən iranlı, orada yaşamaq mənim üçün heç cür münasib deyil. Xahiş edirəm, Təbrizə qayıtmağa viza verilənə qədər Bakıda yaşamağa icazə verəsiniz.

13 sentyabr 1969-cu il. Biriya».

Məktubuna rədd cavabı verildi. Rusiyanın müxtəlif yerlərindən gələnləri Bakıda mənzillə təmin edənlər soydaşımızı müvəqqəti qeydiyyata götürmədilər. Mir Cəfər Pişəvərinin Buzovnadan Fəxri Xiyabana gətirilmiş sümükləri torpaq altında bir daha sızıldadı. Əlacsız qalan şair yenə də qürbətə - sürgün yerinə yollandı, Tambov vilayətinin Piçayev rayonuna.

1970-ci ilin Novruz bayramı ərəfəsində Bakıda vəzifədə olan sədaqətli dostlarından biri Rusiyanın Tambov vilayətindəki Piçayev rayonunun Yaroslav kəndinin sakini Məhəmməd Biriyaya şad xəbər çatdırdı: dərhal Bakıya gəl, qeyri-rəsmi olsa da, sənə Azərbaycanda yaşamağa razılıq verilmişdir.

Hər şeydən küskün könlünü qəlbinin atəşi ilə yaşadan şairin «qeyri-rəsmi olaraq Bakı qeydiyyatı» Semaşko adına xəstəxanadan başlandı. Uzun illərin müsibətli yolları onu heydən salmışdı. Diz qapağında cərrahiyyə əməliyyatı aparıldı. Şəfa tapıb ayağa qalxdı. Fəqət... yenə də ona yaşamaq üçün Bakıda sığınacaq tapılmadı. Xəstəliyinə görə təqaüd kəsilmədi. Aldanıldı, alçaldıldı. Gah bu həmvətəninin, gah da o həmvətəninin qonağı oldu. Şəhərdən rayonlara, kəndlərə dərviş kimi baş alıb getdi. Bir müddət Şuşada, bir az Şamaxıda güzəran keçirdi. Hər dəfə Bakıya qayıdanda Fəxri Xiyabanda Mir Cəfər Pişəvərinin qəbrüstü abidəsi qarşısında nələr keçirdiyini bir Allah bildi.

Təbriz eşqi ilə alovlanan şairə Azərbaycanın sərhəd frayonlarına güzar etmək, Arazı görmək də qadağan edildi. Sabirabada - Suqovuşana da buraxmadılar ki, Arazın səsinə qulaq versin, Arazın sularını yanan bağrı başına səpsin.

Rayonlara ancaq Şamaxıdan keçib gedirdi. Yollarda didərgin şairi L.İ.Brejnevin nəhəng portretləri və «Azərbaycan iri addımlarla irəliləyir!» sözləri yazılmış plakatlar qarşılayırdı. Onun isə xırda addımlarla da irəliləyəcəyi yeri yox idi. Bir mənzil qalmışdı - son mənzil. Bəs o harada məqam tutacaqdı? Tambov vilayətinin Yaroslav kəndindəmi? Yox, yox! Allah eləməsin. Bundansa Arazda boğulmaq yaxşıdır. Apardı sellər Biriyanı -deyərlər. Ancaq bu da qeyri-mümkündür. Araza yaxın düşə bilmir.

Respublikanın rəsmi dairələri Mir Cəfər Pişəvərinin ən yaxın silahdaşlarından birini sağ ikən unutmuşdular. Şairin «Ürək sözü» kitabı yoxa çıxmışdı. Nə Yazıçılar İttifaqının ədəbi məcmuələrində, nə də dövri mətbuat səhifələrində adı çəkilmirdi. Azərbaycan Sovet Ensiklopediyasında «B» hərfi ilə başlayan şəxslər arasında Bağırov kimi Biriya da yox idi. Azərbaycan SSR Elmlər Akademiyasının 1988-ci ildə nəşr etdirdiyi Cənubi Azərbaycan antologiyasında da Məhəmməd Biriyanın adına rast gəlinmir. Biriyaya haqsızlıq edənlərin o zamanlar Hüseyn Caviddən, Əhməd Cavaddan, Mikayıl Müşfiqdən danışmağa haqqı yox idi. Elə indi də haqqı yoxdur. Nəhayət, Mir Cəfər Bağırovu güllələyən, Mir Cəfər Pişəvərini qətlə yetirən, Məhəmməd Biriyanın başına olmazın işgəncələr gətirən allahsız quruluşun son illəri gəldi. Durğunluq dahisi «canlı Lenini» yenidənqurma yolçusu M.Qorbaçov əvəz etdi. Azərbaycanın şəhər və rayonlarından L.İ.Brejnevin

büstləri və nəhəng portretləri bir gecədə yoxa çıxdı. Başları üzərində M.Qorbaçovun köhnə çərçivəyə salınmış şəkilləri asılmış təzə rəhbərlər imana gəldilər. Məhəmməd Biriyaya Təbrizə qayıtmağa rəsmi icazə verildi.

Ana Təbrizdə qatar qabağına gələnlər həsrətini çəkdikləri şairin qədəmlərinə su səpdilər, sevincdən göz yaşları axıtdılar. Onların arasında tanınmış Azərbaycan şairi Yəhya Şeyda da vardı.

İranda şahlıq taxt-tacı dağılmışdı. Bu xalq inqilabının qələbə çalmasında azərbaycanlılar - Mir Cəfər Pişəvərinin və Məhəmməd Biriyanın soydaşları mühüm rol oynamışdılar. İndi artıq hicran günləri arxada qalmışdı. Şair Təbrizə qovuşmuşdu. Öz əzizlərinin, doğmalarının yanında idi.

Lakin qara irticanın əzrayıl əli Məhəmməd Biriyanın son istəklərinə nöqtə qoydu. 1985-ci ilin sentyabrında onu hökumət əleyhinə fəaliyyətdə ittihamlandıraraq həbs etdilər. Bu dəfə dörd divar arasından qurtara bilmədi. Yetmiş bir yaşlı, Nəsimi xislətli vətənpərvərin son nəfəsdə bu pıçıltısı qaldı:

Arama qəbrimi,
Axtarma mənim başdaşımı.
Rəsmdə Həzrəti Nuh,
İsmdə Xatəm də mənəm.
Vurma əl türbətimə,
Türbəti-adəm də mənəm.
Nə o dünya, nə bu dünya,
İki aləm də mənəm.

# MİR CƏFƏR BAĞIROV FENOMENİNİN SAXTALAŞDIRILMASI DAVAM EDİR

**(“Həftə” qəzeti, 1 oktyabr 1999 – 18 fevral 2000)**

1999 -cu ilin mayında əsrin «Bağırov məhkəməsi»ndən qırx üç il keçdi. İlk dəfə olaraq, müttəfiq respublikanın Kommunist Partiyasının katibi inzibati orqan başçıları ilə birlikdə müttəhimlər kürsüsündə göründü. 1956-cı il martın 2-də Moskva şəhərində tərtib olunmuş ittihamnamə əsasında SSRİ baş prokuroru Roman Rudenko RSFSR Cinayət Məcəlləsinin maddələrilə Azərbaycan SSR Quba şəhər sakini, 1896-cı ildə anadan olmuş Bağırov Mir Cəfər Abbas oğlunu ən yüksək cinayət cəzasına - güllələnməyə məhkum etdi. Xruşşov və Mikoyanın tapşırığını dürüst yerinə yetirdiyinə görə, himayədarları Rudenkoya verilmiş Lenin ordeninin sayını beşə çatdırdılar, başqa sözlə, Mir Cəfər Bağırovun beş Lenin ordenini hakiminin döşünə taxdılar. Üstəlik, onu Sov.İKP MK-ya üzv seçdilər, Sosialist Əməyi Qəhrəmanı etdilər.

## Mir Cəfərin düşmənləri

Azərbaycan tarixində ilk dəfə olaraq, xalqın rəhbəri məhkəmə iclasında xalqın düşməninə çevrilirdi. Yalançı şahidlər meydan sulayırdı. Onlar robot kimi görünən canlı anonim məktublara bənzəyirdilər. Milli mənliyi və kişiliyi olmayan simasızlar dünən kölgəsinə səcdə etdikləri əyilməz insana ağına-bozuna baxmadan böhtanlar yağdırırdılar. Azərbaycanın inzibati orqanlarına soxulmuş bu oyunbazlar ərz edirdilər ki, «çoxları axşamlar teatrlara gedirdi, M.C.Bağırov isə həbsxanaya adam döyməyə».

Kimlər idi Bağırov məhkəməsinin yalançı şahidləri? Hansı yuvanın quşları idilər? Dil-dil ötənlərin nitqi məhkəmə iclasından sonra niyə tutulurdu? İstintaq materiallarında şahid kimi adları çəkilən Manuçarov, Baqdasarov, Sevoyan, Saakyan, Qasparyan, Yegizarov, Lazarev, Dudiyev, Xaldıbanov, Milov, Ziyalov, Xentov, Aksyonov-Şerbitski və başqalarının ünvanı kimə bəllidir?

...Kremlin ermənipərəst rəhbərləri Mir Cəfər Bağırovu aradan götürdükdən sonra öz təbiətinə görə humanist və beynəlmiləlçi olan millətimizə qarşı səlib yürüşünə başladılar. Mir Cəfər Bağırovla çiyin-çiyinə çalışmış görkəmli şəxsiyyətlərimizə millətçilik damğası vurdular...

## Dostlara qarşı təqiblər

Mir Cəfər Bağırovun yaxın silahdaşlarının respublika rəhbərliyindən uzaqlaşdırılması və Moskva qarşısında təslimçilik siyasəti yalançı şahidlərin bayram təntənəsini yenidən bərpa etdi. Mir Cəfər Bağırovun rəhbər olduğu illərdə Azərbaycanın misilsiz nailiyyətlərindən söhbət açılsa da, adı çəkilmədi, yasaq edildi. Sən demə, Mir Cəfər Bağırovun məhkəməsinin qadağa möhürünün qarası çox tünd imiş...

Azərbaycan Sovet Ensiklopediyasının 1976-cı ildə nəşr olunmuş birinci cildində oxuyuruq: «Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının rəhbərliyi ilə respublika əməkçiləri Vətənin müdafiə qabiliyyətini möhkəmlətməkdə fəal iştirak etdilər. Faşist Almaniyasının ölkəmizə xaincəsinə hücumu, Böyük Vətən müharibəsinin (1941-45) başlanması xalqımızın dinc quruculuq işini ləngitdi. Bütün Sovet adamları kimi, Azərbaycan zəhmətkeşləri də Vətənin azadlıq və istiqlaliyyətini qoruyub saxlamaq, sosializmin nailiyyətlərini müdafiə etmək əzmində olduqlarını bildirdilər. Müharibənin ilk günlərində ordu sıralarına könüllü getmək üçün 40 min ərizə verildi, 150 mindən çox adam xalq qoşununa daxil oldu. Azərbaycan kommunistləri həmişə olduğu kimi, Vətəni öz sinəsi ilə müdafiə edənlərin ön sıralarında idilər. AK (b)P xalq təsərrüfatını hərbi qaydada yenidən qurmaq və düşməni dəf etmək üçün xalqın qüvvələrini, respublikanın ehtiyatlarını səfərbərliyə aldı. Azərbaycan Qızıl Ordunun cəbbəxanalarından birinə çevrildi. Bakı əməkçilərinin fədakarlığı nəticəsində 1941-ci ildə ölkəyə 23 milyon tondan çox neft verildi. Müharibənin birinci ilində AK(b)P üzvlərinin və üzvlüyə namizədlərin təqribən yarısı orduya getdi. Cəbhə ilə arxanın birliyi möhkəmləndirildi. Azərbaycan partiya təşkilatının bütün fəaliyyəti düşməni darmadağın etmək vəzifəsinə yönəldildi».

Bəs kim idi o dövrdə Azərbaycana rəhbərlik edən? Durğunluq illərində Mir Cəfər Bağırovun adını və fotoşəklini ancaq Böyük Sovet Ensiklopediyasında görmək mümkün idi. Ensiklopediyada Bağırov haqqında məqalədən sonra Baqramyandan yazılmışdır.

ASE-nin birinci cildində əlifbamıza uyğun olaraq «Baqramyan» «Bağırov»dan əvvələ keçirilmişdir. Baqramyan İvan Xristoforoviç. Bağırov... Ancaq bu «Bağırov» o «Bağırov» deyildir. Azərbaycan türklərinin soyadını mənimsəmiş ermənidir - Bağırov Ruben Xristoforoviç.

... İllər keçdi. Arxivlərin seyf qapıları açılmağa başladı. Mir Cəfər Bağırovun həyat və fəaliyyətinə dair sənədlər aksioma kimi danılmaz oldu, yalançı şahidlərin ifadələrini alt-üst etdi.

Mir Cəfər Bağırovun müasirləri olmuş doğruçu şahidlərin yürüşü başlandı. Azərbaycan xalqının əyilməz oğlu, bütün cəbhə səngərlərində milli qəhrəmanımız, unudulmaz Ziya Bünyadov bu yürüşün bayraqdarına çevrildi. Onun ayrı-ayrı qəzet səhifələrində dərc edilmiş oçerkləri sübut etdi ki, Azərbaycanda 37-ci il hadisələrinin baiskarı bir nəfər rəhbər şəxs deyil, diktatura rejimi idi. İlk dəfə olaraq Ziya Bünyadov amansız repressiya qurbanlarının saxta dəlillər və uydurma ifadələr əsasında məhkum edildiyini inandırıcılıqla açıb göstərdi. 1956-cı ildə Mir Cəfər Bağırovun məhkəmə materialları da bunlardan fərqlənmirdi.

1993-cü ilin əvvəlində «Azərnəşr» Ziya Bünyadovun «Qırmızı terror» kitabını on min iki yüz tirajla oxuculara çatdırdı. Gərgin alim əməyinin nəticəsi olan bu qiymətli əsər M.C. Bağırovun məhkəməsinin materiallarına real baxışın nümunəsinə çevrildi. Ayrı-ayrı istintaq materiallarında Mir Cəfər Bağırova qarşı sui-

qəsd hazırlanması məsələsinə Ziya Bünyadov aydınlıq gətirdi: «M.C.Bağırov məhkəməsində ifadə verib ki, Azərbaycanda onun əleyhinə heç vaxt sui-qəsd hazırlanmayıb və bu ola da bilməzdi».

...Mir Cəfər Bağırovun fəaliyyətilə əlaqədar tarixi həqiqətlərin arxiv materiallarına istinad edilən elmi təhlili çox şey vəd edir! Ziya Bünyadov timsallı cəsarətli qələm sahibi, tarix elmləri doktoru, professor Cəmil Həsənli də bu yol ilə getmişdir. Onun 1998-ci ildə «Diplomat» nəşriyyatı tərəfindən buraxılmış kitabı belə adlanır: «Güney Azərbaycan: Tehran - Bakı - Moskva arasında (1939-1945)». Əsərin ən mühüm məziyyətlərindən biri budur ki, həmin mövzuda yazılmış digər monoqrafiya və kitablardan fərqli olaraq, Mir Cəfər Bağırovun həmin dövrdəki siyasi fəaliyyəti obyektiv qiymətini almışdır. Kitabın redaktoru, tarix elmləri doktoru, professor Şövkət xanım Tağıyeva bu barədə belə yazır: «Moskva ilə Təbriz arasındakı münasibətlərdə öyrənilən hadisələr dövründə Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin birinci katibi olmuş Mir Cəfər Bağırovun rolu böyük idi. İran tarixşünaslığında öz təsdiqini tapmış bu məsələnin əsərdə xüsusi dəqiqliklə aşkarlanması təqdirəlayiqdir. Sənədlərin açıqladığı bir çox məsələlər kimi, bu da çox cəlbedicidir ki, Bağırovun İrandakı komandası (Əziz Əliyev, Meybulla Əmiraslanov, Həsən Həsənov və başqaları) Stalinin Azərbaycanla bağlı planlarına daha çox uyğun və daha etibarlı iş aparırdı, nəinki Moskvanın İrandakı diplomatları». Mir Cəfər Bağırov müharibə illərində Təbrizlə Moskva arasında aparıcı rol oynamışdır. Bu, Mir Cəfər Bağırovun heç də «yerli miqyasda Allaha çevrilmək istəyindən» deyil, Azərbaycan torpağını bütöv bir Vətən kimi görmək arzusundan irəli gəlirdi. Lakin Stalinin Mir Cəfər Bağırova şəxsi münasibətindən və inamından lərzəyə düşən Mikoyan və onun İrandakı daşnak havadarları məkrli planlar hazırlayırdılar. Bu planlara görə, Moskvanın Qafqazda və İrandakı siyasətinin başlıca məqsədi nəticə etibarilə «Böyük Ermənistan» yaradılmasına xidmət etməli idi. Buna görə də Cənubi Azərbaycanda milli-azadlıq hərəkatı boğulmalı və beləliklə, iki Azərbaycanın birləşdirilməsinin qarşısı vaxtında alınmalı idi.

**Mikoyanın və onun daşnak dəstəsinin xülyaları Mir Cəfər Bağırova yaxşı məlum idi. Respublikanın rəhbəri belə hesab edirdi ki, iki Azərbaycanın birləşdirilməsi Stalinin imkanları xaricində deyildir. Bu baş versə, Ermənistan böyük dövlət yaratmaq iddialarından həmişəlik əl çəkməyə məcbur olacaqdır.**

Böyük Vətən müharibəsinin başlanmasından üç ay qabaq - 1941-ci ilin martında Mir Cəfər Bağırov Stalinə göndərdiyi məktubunda belə yazırdı: «İranın şah hökuməti Azərbaycan xalqının Sovet Azərbaycanına qovuşmaq istədiyini bildiyindən hər gün polis rejimini və cəza tədbirlərini gücləndirir».

# Mir Cəfər Bağırov və Cənubi Azərbaycan

Mir Cəfər Bağırov Cənubi Azərbaycana bütov Azərbaycanın böyük hissəsi kimi baxırdı. Xəyalən Xudafərin körpüsündən keçərək qardaş elləri qarış-qarış gəzirdi. Cəmil Həsənlinin kitabında respublika rəhbərinin qeyri-rəsmi olaraq Təbrizə gedib-qayıtmasına dair maraqlı bir məlumat vardır. Arxiv sənədlərindən birində bu məxfi səfər barədə Mir Cəfər Bağırovun özü belə yazır: «Mən Naxçıvanda olarkən, oradan üç-dörd saatlığa Təbrizə getdim... Təbrizdə bir neçə yerdə yeddi-səkkiz qız və oğlan uşağına rast gəldim və onlarla danışmaq istədim. Ancaq mən maşını saxlayan kimi onlar qaçdılar. Mən uzaqdan Azərbaycan dilində onlara dedim: «Bura gəlin». Mənim Azərbaycan dilində danışdığımı eşidən kimi hamısı qayıdıb yanıma gəldi. Cənubi Azərbaycan torpağı bizim xalqımızın əsl ana torpağıdır».

Cənubi Azərbaycana göndərilən işçilərə xeyir-dua verən Mir Cəfər Bağırov belə görüşlərdən birində demişdi: «Sizin vəzifəniz olduqca məsul və olduqca şərəflidir. Siz bu şərəfli vəzifəni yerinə yetirməklə yüz illərlə ikiyə bölünmüş qardaşların arzusunu yerinə yetirmiş olacaqsınız. Siz uzun müddətdən bəri bir-birindən ayrılan qəlbi, məhəbbəti, duyğunu birləşdirmiş olacaqsınız. Bu, namus, qeyrət, sədaqət və məhəbbət məsələsidir».

...Mir Cəfər Bağırov «uzun müddətdən bəri bir-birindən ayrılan qəlbi, məhəbbəti, duyğunu birləşdirmək» işində həmişə Mir Cəfər Pişəvərinin fəaliyyətini yüksək qiymətləndirmişdir. Tudə Partiyası Azərbaycan Demokratik Partiyasına çevriləndən sonra bu partiyaya rəhbərliyin Pişəvəriyə tapşırılması ilə əlaqədar o, Stalinə məktubunda yazırdı: «Azərbaycan Demokratik Partiyasına rəhbərlik etmək demokratik dairələrdə böyük nüfuzu və hörməti olan, Tehrandakı «Ajir» qəzetinin redaktoru Mir Cəfər Pişəvəriyə tapşırıldı».

Mir Cəfər Bağırovun Moskvaya ünvanlanan digər məktubunda deyilirdi: «Pişəvəri İran Azərbaycanında doğulub. Kommunist Partiyasının keçmiş üzvüdür. Sovet Azərbaycanında uzun müddət məsul partiya-sovet vəzifələrində çalışıb. 1927-ci ildə Komintern tərəfindən İrana göndərilib. Rza şah hökuməti tərəfindən həbs edilən Pişəvəri 10 il həbsdə yatmış və Sovet qoşunları 1941-ci ildə İrana daxil olduqdan sonra azad edilmişdir.

Onun iki doğma qardaşı Sovet İttifaqında yaşayır. Onlardan biri Qızıl Ordudadır, tibbi xidmət kapitanıdır».

## Şahidlər və faktlar

...Təəssüflər olsun ki, son vaxtlar millətimizi YAP-çılara, müsavatçılara, cəbhəçilərə bölənlər iki Mir Cəfəri də -Bağırovu və Pişəvərini də qarşı-qarşıya qoymaq istəyirlər. Məsələn, keçən il «Göytürk» nəşriyyatı «Ulu tariximiz» seriyasından Vüqar Əhmədin «Mir Cəfər Pişəvəri. Həyatı, mühiti və yaradıcılığı» adlı monoqrafiyasını nəşr etmişdir.

Kitabın 61-ci səhifəsində oxuyuruq: «Şahidlərin dediklərinə görə, Mir Cəfər Bağırov öz məhkəməsində Pişəvərinin ölümündə günahı olduğunu boynundan atsa da, bu qətli Moskvanın göstərişi ilə bağlamağa çalışsa da, burada bilavasitə onun (M.C.Bağırovun - V.Ə.) əli olduğu şəksizdir. Bunu deməyə faktlar əsas verir».

Maraqlıdır ki, 1956-cı ildə yalançı şahidlərin ifadələrindən başqa daha hansı faktlar mövcuddur?

Müəllif yeganə dəlil kimi Əli Tudənin «Ədəbiyyat və incəsənət» qəzetinin 1988-ci il iyun tarixli sayında dərc olunmuş «Pişəvəri» məqaləsindən bu parçanı misal gətirir: «Təəssüflər olsun ki, milli hökumət yaşaya bilmədi. Yox! Yaşamağa qoymadılar. Yoxsa milli hökumətin yaşamağa iqtidarı da, bacarığı da, ləyaqəti də vardı. Deyirlər, milli hökumətin taleyinin həll olunduğu günlərdə Pişəvəri tez-tez bu taya keçib müəyyən adamlarla görüşürmüş, fikir mübadiləsi edirmiş. Axı hər gün Tehrandan Cənubi Azərbaycana hücum gözlənirdi. Tehranın arxasında isə Vaşinqton, London, Paris, Roma dayanmışdı. M.C.Pişəvərinin görüşdüyü adamlardan biri - M.C.Bağırov M.C.Pişəvəriyə, guya, sülh naminə şah qoşunlarına müqavimət göstərməməyi, silahı yerə qoymağı, lazım gələrsə bu taya keçməyi məsləhət görür. Pişəvəri isə M.C.Bağırovla razılaşmır. Bağırov əsəbiləşir, Pişəvəriyə: “Axı siz kimə arxalanırsınız?” - deyir. M.C.Pişəvəri: «Biz İran xalqlarına arxalanırıq! Bu xalqların içərisində şah səltənətinin barışmaz düşməni olan farslar da, kürdlər də, türkmənlər də, giləklər də, talışlar da, ərəblər də, aysorilər də vardır. Biz İran Xalq Partiyasına inanırıq. O partiyanın sıralarında şah qoşunlarının yüksək rütbəli zabitləri də vardır. Biz sizdən heç bir kömək gözləmirik. Siz də bizim işimizə qarışmayın», - deyir.

Əli Tudənin məqaləsindəki mükalimədən gənc alim bu nəticəyə gəlir: «Şübhəsiz, xalqının qanına susamış, 30-cu illərdə Azərbaycan ziyalılarına qarşı qırğın siyasəti yürütmüş M.C.Bağırovun - «Mirqəzəb»in (İsa Hüseynov) qəzəbi soyuya bilməzdi. Ruhən, mənəviyyat və əməlcə Azərbaycan xalqına yad olan Bağırov Pişəvərinin milli təəssüblə deyilmiş sözlərinin heyfini yerdə qoymazdı, intiqam ağlına qalib gəldi».

## Düşüncələr

Görəsən hansı elmi-tədqiqat axtarışları M.C.Bağırovu İsa Hüseynova «Mirqəzəb» kimi xatırladır? Bəs niyə Pişəvəridən monoqrafiya yazan Vüqar Əhməd bu görkəmli şəxsiyyət barədə ilk böyük həcmli əsər-roman yazıb çap etdirmiş Söhrab Tahirin adını çəkmir? Axı Söhrab Tahir Mir Cəfər Pişəvərinin yaxın silahdaşlarından biri olmuşdur. «İnqilab qartalı» romanının müəllifi, o taylı-bu taylı xalq şairimiz Söhrab Tahir iki Mir Cəfəri bir-birinə düşmən edən yalançı şahidlərin cavabını «Hər gün» qəzetinin 11 dekabr tarixli sayında çox sərrast vermişdir: **«Bağırovun Pişəvəriyə münasibəti pis olmayıb. Düşmən deyildilər. Bağırovun Cənubi Azərbaycan hadisələrində çox böyük xidmətləri olub. Buna görə Bağırova hörmətim var».**

## İttiham

Vaxtilə bədii əsərində Mir Cəfər Bağırova «Mirqəzəb» deyən İsa Hüseynov da, «Bağırova hörmətim var» yazan Söhrab Tahir də oxuculara yaxşı tanışdır. «Xalqının qanına susamış», «ziyalılarına qarşı qırğın siyasəti yürütmüş», «ruhən, mənəviyyat və əməlcə Azərbaycan xalqına yad olan Bağırov» ifadələrinin sahibi Vüqar Əhməd haqqında öz kitabının cild səhifəsində oxuyuruq: «1963-cü ildə anadan olub. M.Müşfiq adına 18 saylı məktəbdə oxuyub. 1984-cü ildə indiki N.Tusi adına Pedaqoji Universitetin filologiya fakültəsini fərqlənmə diplomu ilə, 1990-cı ildə universitetin aspiranturasını bitirib. Filologiya elmləri namizədi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1987-ci ildən mətbuatda çap olunan Vüqar Əhməd 500-dən çox elmi-publisistik, tənqidi, ədəbiyyatşünaslıq və musiqiyə dair məqalə müəllifidir. 400-ə yaxın nəğmə mətninin və bir neçə mahnının musiqisinin müəllifidir. Mahnılarından ibarət audiokasset kütləvi tirajla «Səbuhi» səsyazma studiyası tərəfindən buraxılıb. Güney-Quzey ədəbi əlaqələrində xidmətlərinə görə «Araz» ali ədəbi, Füzuliyə dair elmi məqalə və şeirlərinə görə «Füzuli-500» mükafatları laureatıdır. Əsərləri İranda, Türkiyədə və Yunanıstanda çap olunub. On kitab müəllifidir. Müxtəlif illərdə Azərbaycan radiosunda böyük redaktor, «Azərbaycan dünyası» nəşriyyatı və «Novruz» qəzetində baş redaktor vəzifələrində çalışıb. Hazırda Azərbaycan Teleşirkətində baş redaktor müavinidir.

Bu qədər çoxsaylı biliyə və elmi-yaradıcılıq imkanlarına malik olan cavan soydaşımız nədənsə Mir Cəfər Bağırova və Mir Cəfər Pişəvəriyə zülmət və işıq rəmzi kimi baxır. Kitabın 66-cı səhifəsində deyilir: «M.C.Pişəvərinin və xalqımızın digər görkəmli oğullarının qanına əlini bulamış M.C.Bağırov tarixin və uca Allahın hökmü ilə öz layiqli cəzasını aldı. Əqidə, dünyagörüşü və xalq qarşısındakı əməllərinə görə hər iki şəxs tarixdə qaldı, biri - Pişəvəri uca kürsüdə, qeyrəti,

namusu, milli qüruru ilə, o biri -Bağırov alçaq və milli xain, rus və erməni nökəri kimi».

Mir Cəfər Bağırov haqqında indiyədək heç yerdə və heç zaman belə mənfi «xasiyyətnamə» tərtib edilməmişdir. Bu «xasiyyətnaməni» təsdiq edənlər arasında, əfsus ki, köhnə qələm dostum, kitabın elmi redaktoru, filologiya elmləri doktoru, «Respublika» qəzetinin baş redaktoru Teymur Əhmədov da vardır.

«Respublika» qəzetinin baş redaktorundan və respublika teleşirkətinin baş redaktor müavinindən soruşmaq lazımdır ki, axı siz Mir Cəfər Bağırova lənət yağdırmaqla nəyi nümayiş etdirirsiniz? Mir Cəfər Pişəvərini hamıdan çox istədiyinizimi? İnanan daşa dönsün! Əgər belə olsaydı, son dəfə 1983-cü ildə anadan olmasının 90 illiyi respublikada geniş qeyd edilmiş Pişəvərinin 1993-cü ildə 100 illiyi və 1998-ci ildə 105 illiyi unudulmazdı. Bəs bunun günahkarı kimdir? «Alçaq və milli xain, rus və erməni nökəri» Bağırovmu?

Kitabda daha sonra oxuyuruq: «M.C.Pişəvərinin ölümü Güney və Quzey Azərbaycana dəyən zərbə idi. Bu əvəzsiz itki Güneydəki istiqlal mübarizəsini, müstəqillik yolunu yarımçıq qoydu. Müstəqilliyini itirən cənublular sanki eyforiyaya uğradılar, şimallı qardaşları tək özləriniköməksiz sayıb, nostalgiya ilə yaşayaraq ümidə qapıldılar. Quzeyə qismət olan bugünkü müstəqillik yəqin ki, Güneyə də sirayət edəcək, gün gələcək, hər iki sahildə Vahid Azərbaycan bayrağı dalğalanacaq, onda Pişəvərinin ruhu şad olacaq. Allah ulu öndərə rəhmət eləsin!»

Sual olunur ki, «eyforiyaya uğramışlar» və «nostalgiya ilə yaşayaraq ümidə qapılmışlar» başları üzərində hansı Vahid Azərbaycan bayrağını qaldıracaqlar? «Quzeyə qismət olan bugünkü müstəqilliyin» beşiyi başında kimlər durmuşlar? Kimə bəlli deyildir ki, «ulu öndərin» taleyində həm Nəriman Nərimanov və həm də Məhəmməd Əmin Rəsulzadə varlığının şöləsi nur saçmışdır. Özündən iyirmi üç yaş böyük olan doktor Nəriman Nərimanov barədə Pişəvəri yazırdı: «Nəriman Nərimanov yetkin siyasi şəxsiyyət və təcrübəli bir natiq hesab edilirdi. İranın məşrutə hərəkatı dövründə mücahidlərə hərtərəfli kömək etməkdə böyük rol oynamışdır».

Özündən doqquz yaş böyük olan, Şərqdə ilk demokratik cümhuriyyətin banisi böyük öndər haqqında «ulu öndər» 1944-cü ilin noyabrında belə yazırdı: «Məhəmməd Əmin Rəsulzadə vaxtilə sosial-demokrat olmuş, fəhlələrin 1905-ci il hərəkatında iştirak etmişdi. Bunu da eşitmişəm ki, o, İran məşrutə hərəkatına qoşulmuş, Demokrat Partiyasının mərkəzi orqanı «İrane nou» («Yeni İran») qəzetinin baş mühərriri olmuşdur».

O zamanlar «ulu öndər» Pişəvəri nə biləydi ki, əsrimizin sonlarında böyük öndərin üçrəngli bayrağı yenidən başımız üzərində dalğalananda, Bakıda «Yeni Azərbaycan» qəzeti çıxacaq və «Yeni İran» qəzetinin iyirmi beş yaşlı redaktoru M.Ə.Rəsulzadəni məsxərəyə qoyacaqdır: «Orta təhsilini birtəhər başa vuran axund oğlu»...

Pişəvəri bununla fəxr edirdi ki, «orta təhsili birtəhər başa vuran axund oğlu» 1909-cu ildə Təbrizdə Səttarxan və onun yaxın silahdaşları ilə görüşmüşdür. Cənubi Azərbaycanı oba-oba gəzib-dolaşmışdır. «Orta təhsili birtəhər başa vuran» bu oyaq vicdanlı gənc iyirmi altı yaşında ikən, 1910-cu ildə Tehranda fars dilində kitab çap etdirmişdir. Maksim Qorkinin «Ana» romanının bir hissəsini ruscadan türkcəyə tərcümə etmişdir. Məşhur islam mütəfəkkiri Şeyx Cəmaləddin Əfqaninin «Milli birlik fəlsəfəsi» əsərini farscadan Azərbaycan türkcəsinə çevirmişdir. 1917-ci ildə Pişəvəri Bakıdan Təbrizə böyük öndərlə birlikdə gəlmişdi. Bu, böyük öndərlə «ulu öndərin» son görüşü idi...

Mir Cəfər Pişəvərini siyasət aləmində öz müəllimlərindən - Məhəmməd Əmin Rəsulzadədən və Nəriman Nərimanovdan ayırmaq, onu Mir Cəfər Bağırova düşmən etmək XXI əsrin astanasında hansı elmə əsaslanır və hansı xalqın mənafeyinə xidmət edir?

Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Mir Cəfər Pişəvəri, Mir Cəfər Bağırov! Millətimizin taleyində bu dörd nəhəng simanın hərəsinin öz yeri vardır. Ayrı-ayrı məqsədlər mövqeyindən çıxış edənlər bu şəxsiyyətləri bir-birindən ayırsalar da, xalqın hafizəsində onlar baş-başadır. Mir Cəfər Bağırovu «rus və erməni nökəri» kimi qələmə verənlərə yazıçı Təvəkkül Mehdi «Həftə» qəzetinin 1998-ci il 14 avqust tarixli sayında «Azərbaycan türklərinə qarşı genosid siyasətinin görünməyən tərəfi» sərlövhəli məqaləsində arxiv materialına əsaslanaraq aşağıdakı tutarlı cavabı vermişdir: **«1945-ci ilin noyabrında Ermənistan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi Q.Arutyunov İ.Stalinə göndərdiyi məktubunda Qarabağın Ermənistan SSR-ə verilməsi məsələsini qaldırdı. Stalin məktubu G.M.Malenkovun üstünə, o da öz növbəsində cavab üçün Azərbaycan rəhbərliyinə göndərdi.**

**M.C.Bağırov məktuba cavabında bildirdi ki, Azərbaycan həmin təklifə etiraz etmir, bu şərtlə ki, Ermənistan, Gürcüstan və Dağıstanda əsasən azərbaycanlılar yaşayan, Azərbaycanla həmsərhəd olan və tarixən Azərbaycanın ayrılmaz hissəsi olmuş ərazilər də bizə qaytarılsın.**

**Belə bir şəraitdə məsələnin arzuolunmaz istiqamət ala biləcəyini başa düşən Stalin təklifin gələcək inkişafına nöqtə qoyur».**

## Müdafiə

Mir Cəfər Bağırovu «lənət damğası» ilə xatırlayanlar, onu «alçaq və milli xain, rus və erməni nökəri kimi» qiymətləndirənlər zəhmət çəkib arxivlərə baş vursunlar. Mir Cəfər Bağırovdan sonra Azərbaycana rəhbərlik etmiş birinci katiblərin bütün məruzə və çıxışlarını ələk-vələk eləsinlər. SSRİ dağılandan sonra Azərbaycan prezidentinin dediklərini nəzərdən keçirsinlər. İki həqiqət aşkar olunacaqdır: Mir Cəfər Bağırovun nə çıxışlarında, nə də keçirdiyi müşavirələrin

protokollarında «rüşvət» sözü yoxdur. Sonrakıların hətta əcnəbi müxbirlərə verdikləri müsahibələrində «rüşvət», «korrupsiya», «rüşvətxorluq» dalbadal gəlir. Nəticə çıxarsınlar - «ruhən, mənəviyyat və əməlcə Azərbaycan xalqına yad olan» Mir Cəfər Bağırovdur, yoxsa...

Mir Cəfər Bağırovun dövründə nə respublika rəhbərinin özünün, ailəsinin və qohumlarının, nə də vəzifə sahiblərinin süfrəsində haram tikə olmamışdır. Rəhbər işçinin şəxsi qazanc mənbəyi göz qabağında olmuşdur. Firavanlıq halallıqdan doğmuşdur, fironluqdan yox.

İkinci danılmaz həqiqət budur ki, Məhəmməd Əmin Rəsulzadədən sonra heç kəs Mir Cəfər Bağırov kimi, azərbaycanlıların yaşadıqları ərazilərin «tarixən Azərbaycanın ayrılmaz hissəsi» olduğunu rəsmi sənədlərdə təsdiqləməmişdir.

Mir Cəfər Bağırov kimi vətənpərvər rəhbərə «rus və erməni nökəri» yarlığı vuranlar onun göz bəbəyi kimi qoruyub saxladığı cənnət guşələri işğalçıların ixtiyarına vermişlər. Ermənistana havadarlıq edən Rusiya qarşısında acizlik Mir Cəfər Bağırova xas olan sifət deyildi.

Mir Cəfər Bağırovun 1946-cı ildə Stalinə yazdığı məktubdakı şərtlər bu gün də qüvvədədir: Ermənistanda, Gürcüstanda, Dağıstanda yaşayan azərbaycanlılara hansı status verilərsə, Azərbaycandakı ermənilərə də ona münasib hüquqlar veriləcəkdir. Bu məsələdə heç bir güzəşt ola bilməz!

## Reklam, yoxsa Mir Cəfər xofu

...Nə edəsən ki, Azərbaycan xalqının düşmənlərinə qarşı həmişə barışmaz və amansız mövqe tutmuş Mir Cəfər Bağırovu bir ziyalımız «alçaq» və «nökər», digəri isə «cəlladbaşı» və «iblis» adlandırır. Belə qələm sahiblərindən biri ədəbi ictimaiyyətə bir sıra qiymətli məqalə və kitabların müəllifi kimi yaxşı tanışdır - Rəfael Hüseynov. «Azadlıq» qəzetinin 1998-ci il 10 dekabr tarixli sayında oxuyuruq: «O cəlladbaşını ağzının suyu axa-axa vəsf edənlər dəngül-düngül də olsa, baş qaldırırlar». Onun qəzəbini coşduran səbəb barədə özü belə yazır: «Bir neçə ay öncə maşınla Qubadan keçərkən yol qırağında «Mir Cəfər» adlı mağaza sataşdı gözümə».

Görünür, yol qırağındakı mağazanın adı professora «cəlladbaşı»nı xatırlatmışdır. Ona görə də maşınla şütüyüb keçmişdir. Nə yaxşı ki, Rəfael Hüseynov Prezident Aparatının məsul işçisi, Quba rayonunun İcra Hakimiyyəti başçısı və ya polis rəisi olmamışdır. O zaman bu sonsuz nifrət hissi ilə yəqin ki, «Mir Cəfər» dükanını yerlə-yeksan edərdi, dükandarı da dama basdırardı. Yox, əgər maşında «dəngül-düngül» olsaydı, sözsüz ki, «Mir Cəfər» reklamından xoflanmazdı. Əyləci basardı, yerə düşüb, mağazaya yaxınlaşardı, müdiri ilə görüşərdi. Bəlkə heç o «Mir Cəfər» «cəlladbaşı Mir Cəfər» deyildir. Məgər indi Bakıda, digər şəhər və rayonlarda öz oğul və nəvəsinin, kürəkən və qaynatasının,

xoşladığı kino-filmlərin qəhrəmanlarının adını daşıyan restoran və kafelər, özəl dükanlar azdırmı? Bir də, axı nəyə görə üzərində «Kirov posyolkası» yazılmış mikroavtobusla Marks prospektından keçənlər... «Mir Cəfər» sözünü görəndə yan qaçırlar?

O ki qaldı Mir Cəfər Bağırovu vəsf etmək məsələsinə... Bəlkə ədəbiyyatşünas kimi R.Hüseynova belə əsərlər bəllidir. Mətbuat səhifələrində isə təsadüf edilmir. Hətta M.C.Bağırovun anadan olmasının əlli illiyində, 1946-cı il sentyabrın 17-də «Kommunist» qəzetində ancaq və ancaq SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı dərc olunmuşdu: «Bağırov yoldaşın anadan olmasının əlli illiyi münasibətilə, partiya və Sovet xalqı qarşısında onun xidmətlərini nəzərə alaraq, Mir Cəfər Abbas oğlu Bağırov Lenin ordeni ilə təltif edilsin».

Müəllifin yazdıqlarından hasil olan budur ki, o vaxtlar SSRİ Ali Sovetinin sədri Şvernik və katibi Qorkin əslində 50 yaşlı «cəlladbaşını» və «iblisi» təltif etmişlər.

«Azadlıq» qəzetinin 1998-ci il 11 dekabr tarixli sayında «100-cü otaqda iblislə duel» yazısındakı bu cümlələrə diqqət yetirin: «Hərdən bəzi məhbusları Azərbaycan NKVD-dəki 100-cü otağa aparırmışlar. Və ora iblis -Bağırov özü təşrif gətirirmiş. Bu, adətən dustaqlardan çoxunun son gəlişi olurmuş.

Ədavət hissi ilə alışıb-yanan hakimi-mütləq altı hündürləşdirilmiş kresloda əyləşər, işarə edərmiş ki, məhbusu gətirsinlər. Yeganə üstünlüyü hüdudsuz hakimiyyəti olan cılız Bağırov özündən qat-qat üstünlərin qarşısında diz çökdürülməsindən, alçaldılmasından xumarlana-xumarlana, istehzası əskik olmayan sifətini turşudub başlayarmış dindirməni. Qarşısındakı yalvardıqca, əzildikcə həzz alar, kefinə soğan doğrayıb burada da ona cavab qaytaran, sözünü iki edən, sınmayanı yerindəcə güllələrmiş».

Nə yaxşı ki, bu sözlərin müəllifi 1956-cı ildə bir yaşındaymış, indiki Şəhriyar klubunda, Mir Cəfər Bağırovun məhkəməsində iştirak edə bilməmişdir. Yoxsa yalançı şahidlər arasında səhnəyə qalxardı və ona qulaq asdıqdan sonra SSRİ baş prokuroru Rudenko istintaq və məhkəmə zamanı «sınmayan» «cılız»ı - Bağırovu dərhal güllələyərdi. Və zalda əyləşənlərə bəlli olardı ki, «dəngül-düngül» kimlərdir, gülməşəkər kim...

## Doğruçu şahidlər

...Mir Cəfər Bağırovun «rus və erməni nökəri», «cəlladbaşı» və «iblis» olması nə doğruçu şahidlərin dedikləri ilə, nə arxiv sənədlərilə sübuta yetmir. Doğruçu şahidlərdən bir neçəsinin dəst-xətti ilə yazıb mətbuatda çap etdirdikləri yazılarla tanış olun.

Azərbaycanın əməkdar jurnalisti Əşrəf Hacıyev «Xalq qəzeti»nin 14 avqust 1993-cü il tarixli sayında Mir Cəfər Bağırov haqqında şəxsi xatirələrini

oxuculara çatdırır: **«...M.C.Bağırov özünü o dərəcədə xırdalamazdı. Lakin müəyyən məsələlərdə sərt və prinsipial olurdu. «Bakinskiy raboçiy» qəzeti redaktorunun başına gələnlər buna misal ola bilər. M.C.Bağırov qəzetin növbəti nömrəsini nəzərdən keçirir, baxır ki, qəzet başdan-ayağa rus, yəhudi, erməni müəlliflərinin məqalələrilə doldurulub, bir azərbaycanlı müəllif gözə dəymir. Redaktora zəng vurub soruşur:**

**-Sən harda yaşayırsan, qəzet harda çıxır?**

**-Azərbaycanda yaşayıram, qəzet də Azərbaycanda nəşr olunur, yoldaş Bağırov,- deyə hələ məsələnin nə yerdə olduğunu duymayan redaktor cəld cavab verir.**

**M.C.Bagırov qəzet barədə qeydlərini deyib, onun sutka ərzində Bakını tərk etməsini bildirir».**

Mir Cəfər Bağırovdan sonra «Bakinskiy raboçiy» qəzetinin «bir azərbaycanlı müəllif gözə dəyməyən» səhifələrinin sayı azalmamışdır. Ancaq respublikada buna «rus və erməni nökəri»nin əksinə olaraq, göz yummuşlar. Çünki həmin qəzetin redaktoru qeyri-azərbaycanlı olmuşdur. Özümüzünkülər üzərində «ağa»lığı həyata keçirənlər əcnəbilər qarşısında «qulluq etmişlər. Bu yol ilə adlarını «Pravda» və «İzvestiya»nın «Şərəf lövhəsi»nə yazdırmışlar...

## Əsl iblislər

Mir Cəfər Bağırov kimlər tərəfindən yazılmasından asılı olmayaraq, Moskva mətbuatında Azərbaycanın tarixinə və milli dəyərlərinə qarşı yönəldilmiş məqalələrə kəskin etirazını bildirmişdir. «Kommunist» qəzetinin 1949-cu il 26 yanvar tarixli sayında Azərbaycan K(b)P-nin XVII qurultayında M.C.Bağırovun hesabat məruzəsinin mətni dərc olunmuşdu. M.C.Bağırov öz məruzəsində Stepan Şaumyanın oğlunun «Literaturnaya qazeta»da və «Oqonyok» jurnalında dərc etdirdiyi yazıları geniş ictimaiyyət qarşısında ifşa edir: «Obyektiv olmayan adamlar... tarixi həqiqəti hər cür uydurmalarla əvəz etməyə çalışırlar. Bunlardan biri Levon Şaumyandır ki, «Literaturnaya qazeta»da və «Oqonyok» jurnalında dərc etdirdiyi məqalələrdə 1918-ci il hadisələri haqqında ağlına gələni yazır».

Qurultaydan sonra, 1949-cu il fevralın 2-də M.C.Bağırov Stalinə göndərdiyi rəsmi məktubda yazırdı: «Qurultayın gedişatında bizə məlum oldu ki, Sergey Şaumyan 1947-ci ildə Bakıda olmuş, hazırda Dövlət Təhlükəsizliyi orqanları tərəfindən həbs edilmiş Avakyan adlı bir nəfərlə əlaqəyə girmişdi».

1949-cu ildə Stepan Şaumyanın bir oğlunu «obyektiv olmayan adamlar» siyahısına salan, digərini də «həbs edilmiş Avakyanla əlaqəyə girdiyinə» görə günahlandıran və bütün bunlar barədə Mikoyanla qədəh-qədəhə rus xalqının

şərəfinə badə qaldırmış Stalinə mərdi-mərdanə yazan Azərbaycan rəhbəri «rus və erməni nökəri» ola bilərdimi?

...Azərbaycan xalqının başqa bir düşməni - Marietta Şaginyan 1946-cı ildə filologiya elmləri doktoru alimlik dərəcəsi diplomu almışdı, daha sonra Ermənistan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdi. 1946-cı ildə Ermənistan Dövlət Nəşriyyatı tərəfindən M.Şaginyanın «Sovet Zaqafqaziyası» kitabı nəşr edilmişdi. Moskvada və Yerevanda ən məşhur yazıçı və alimlər 58 yaşlı müəllifin müxtəlif vaxtlarda yazdığı oçerk və məqalələr toplusunu rəğbətlə qarşılamışdılar. Ancaq kitabın səhifələrindən Qarabağa uzanan «daşnak əli»ni Mir Cəfər Bağırov görmüşdü. O zaman havadarları tərəfindən layiq olmadığı zirvəyə qaldırılan əlli səkkiz yaşlı M.Şaginyanın dərsini SSRİ miqyasında yalnız bir nəfər - əlli yaşlı M.C.Bağırov vermişdi.

Azərbaycan rəhbərinin ÜİK(b)P Mərkəzi Komitəsinin katibi A.Jdanova ünvanladığı məktubdan bəzi parçalara diqqət yetirək: «Şaginyana görə, 1926-cı ildə Dağlıq Qarabağ unudulmuş, geridə qalmış, qeyri-rentabelli, kənd təsərrüfatının dağıldığı yerdir. Kəndlilər dilənçi kökünə düşdüyündən acından ölməkdən qorxaraq şəhərlərə qaçırlar».

M.Şaginyanın dediklərini səksəninci illərdə akademik A.Aqanbeqyan «yenidənqurma tezisləri» şəklinə saldı və Fransada, Moskvada elan etdi ki, Dağlıq Qarabağ iqtisadi cəhətdən Ermənistanla bağlıdır.

1982-ci ildə, doxsan dörd yaşında Moskvada dünyadan getmiş Marietta Şaginyanın bədnam niyyətlərini Silva Kaputikyanlar həyata keçirdilər. Azərbaycanda isə «Mircəllad»ın acığına M.Şaginyan «can-ciyər» oldu. Ermənipərəst Kreml onu Sosialist Əməyi Qəhrəmanı etdi. Azərbaycan rəhbəri isə... 1981-ci ildə ona Azərbaycan SSR əməkdar elm xadimi adını verdi. Beləliklə, Mir Cəfər Bağırovun məşhur məktubunun üstündən xətt çəkdilər, Dağlıq Qarabağı «erməni ölkəsi» kimi təsvir edən M.Şaginyanla şəxsən məktublaşanlarda tapıldı...

***

Mir Cəfər Bağırovun bu yazının mətbuatda çıxdığı vaxtdan əlli iki il əvvəl imzaladığı məktub bu gün azərbaycanlıları erməni işğalçıları ilə atəşkəsə deyil, səngərə səsləyir «qisas yerdə qalmamalıdır!» deyir.

1987-ci ildə Azərbaycan Sovet Ensiklopediyasının onuncu cildində M.Şaginyan barəsində geniş məqalə ilə tanış olanlar və onun şəklini görənlər qoy «rus və erməni nökərinin» də yazdıqlarını oxuyub portret cizgilərini göz önündə canlandırsınlar: «Dağlıq Qarabağda ermənilərlə azərbaycanlıların münasibətlərini təsvir edən Şaginyan tarixi həqiqətləri təhrif edərək onları qarşı-qarşıya qoyur və şahidlik edir ki, «ermənilər ölkə iqtisadiyyatını dirçəltmək üçün canlarını qoyur, azərbaycanlıların mədəni inkişafına kömək edirlər. Azərbaycanlıları bu cür təhqir etməklə kifayətlənməyən müəllif Dağlıq Qarabağda maldarlığın süqutunu onda

görür ki, «müsəlmanlar» köçəri tayfadır, onlar iranlılarla ticarət əlaqələrinə girərək tamahkarlıq üzündan ucuz qiymətə xəstə mal-qara alıb gətirmiş, bu isə Dağlıq Qarabağda vəba xəstəliyinin yayılmasına səbəb olmuşdur.

Şaginyan Azərbaycan xalqına böhtan atır, azərbaycanlıları kobudluğun mücəssəməsi kimi göstərir. Şaginyanın rəyinə görə, XVI yüzillikdə yaşayıb-yaratmış Azərbaycan şairı Füzuli öz əsərlərini yalnız ərəb dilində yazmışdır. Halbuki Azərbaycan və Şərq ədəbiyyatının inkişafında misilsiz xidmətləri olmuş böyük sənətkar yalnız bəzi ədəbi və elmi əsərlərində ərəb dilindən istifadə etmişdir...

Müəllifin Azərbaycan aşıqlarının ana dilində deyil, fars dilində yazıb-oxumasına dair sərsəm fikirləri kimi Azərbaycan qadınlarına və çadraya münasibəti də təhqiramizdir.

«Çadra qıcıqlandırıcı vasitədir... İnsan evdə ən qiymətli şeydir, buna görə də müsəlman çalışır ki, daha çox uşağı olsun. Ailədə çoxarvadlılıq da çox uşaq dünyaya gətirmək məqsədini güdür. Bu prinsip müsəlmanlar arasında heyvandarlığın inkişaf etdirilməsində də həyata keçirilir».

**M.CBağırovun A.Jdanova göndərdiyi məktub bu sözlərlə bitir: «Bu kitab aradan qaldırılmalıdır!»**

...1947-ci ildə Nizami yubileyi təntənələrində iştirak etmək üçün daşnakların Moskvadakı havadarları M.Şaginyanı Bakıya göndərdilər. Bu çağrılmamış «qonaq» M.C.Bağırovdan xahiş etdi ki, onu qəbul etsin. «Rus və erməni nökəri» bunu etmədi, «yedirib-içirin və yola salın getsin» dedi.

## Mir Cəfərsiz Azərbaycan

Mir Cəfər Bağırovdan sonra Bakıya gələn daşnak xislətli «mötəbər qonaqların» ünvanına bu sözləri deyənlər tapılmadı. Mikoyanların, Şaumyanların, Şaginyanların Azərbaycana səfərləri adi hal aldı. Onları nəvazişlə, gül-çiçəklə qarşıladılar, süfrənin baş tərəfində əyləşdirdilər. Hər şeydən əvvəl Mir Cəfər Bağırovun ruhunu incitdilər.

Nəticəsi nə oldu? Azərbaycanın əzəli torpaqları qarış-qarış, oba-oba, rayon-rayon bədnam qonşuların ixtiyarına keçdi.

1955-ci ildə M.C.Bağırov Kuybışev şəhərində həbs olunanda Moskvanın yüksək dairələrində «dövlət sərhəd xəttinin dəyişdirilməsi» bəhanəsiylə Azərbaycanın ərazi bütövlüyünə qayçı uzadıldı. «Kommunist» qəzetinin 1955-ci il 26 aprel sayındakı «SSRİ Ali Soveti İttifaq Sovetinin və Millətlər Sovetinin xarici işlər komissiyalarında» sərlövhəli xəbərində oxuyuruq: «Azərbaycan SSR xarici işlər naziri M.Ə.Əliyev demişdir ki, dövlət sərhəd xəttinin dəyişdirilməsi onlarla kvadrat kilometr torpağın Azərbaycan SSR-dən Ermənistana keçməsi olsa da Azərbaycan SSR təklifə tərəfdardır».

Sonrakı illərdə Azərbaycan torpaqlarının «qardaş Ermənistana» pay verilməsinə dair Moskvanın təkliflərinə də Azərbaycan SSR tərəfi 1955-ci ildəki cavabı təkrar etmişdir: «Bu, onlarla kvadrat kilometr torpağın Azərbaycan SSR-dən Ermənistana keçməsi olsa da, Azərbaycan SSR təklifə tərəfdardır». Mir Cəfər Bağırov 1955-ci ildə həbsdə olmasaydı, bu razılığı ilk dəfə Moskvada rus və erməni deputatlar qarşısında bəyan edən xarici işlər nazirinin dilini kəsərdi, ona «cəlladbaşı» damğası vursalar da, bunu edərdi. Çünki torpaq məsələsi M.C.Bağırov üçün qeyrət məsələsi idi.

XX əsrin sonlarında «ruhən, mənəviyyatca və əməlcə Azərbaycan xalqına yad olan Bağırov» deyib hayqıran qaragüruhçuların nə dilini kəsən var, nə də onlara gözün üstə qaşın var deyən.

Doğruçu şahidlər isə bunun tamam əksini deyir: «Ruhən, mənəviyyatca və əməlcə Azərbaycan xalqına doğma olan Bağırov».

## Nadir Quliyevin xatirələrindən

Keçmiş Muxtarov mədənlərində buruq başında Mir Cəfər Bağırovla dəfələrlə görüşmüş, Lenin ordenli atam usta Yarməmməddən, M.C.Bağırovun vaxtında nazir olmuş əmim Nurulladan sonra mənə onun barəsində həqiqətləri danışan Nadir İmamnəzər oğlu Quliyev olmuşdur. O, Buzovnada doğulub boya-başa çatmışdı. «Əli ayağı» tərəfdə dənizin köksündən boylanan qaya kimi idi. Amansız dalğalar sinəsini dəlik-dəlik etsə də, yerindən tərpədə bilməmişdi. Qəfil ölüm onu əlimizdən aldı. 1993-cü il iyulun 16-da respublika qəzetlərindəki nekroloqda deyilirdi: «Azərbaycan Respublikası Ali Soveti dərin hüznlə bildirir ki, respublikanın xalq deputatı, 2 №-li taxıl məhsulları kombinatının direktoru Nadir İmamnəzər oğlu Quliyev uzun sürən xəstəlikdən sonra altmış altı yaşında vəfat etmişdir».

Mərhumu yaxından tanıyanlar üçün «uzun sürən xəstəlikdən» sözləri «uzun sürən əzablardan» mənasını daşıyırdı. Dəfn mərasimində Dərnəgülə bütün şəhər yığışmışdı.

Nadir Quliyevdən yadigar qalan Hacı Zeynalabdin Tağıyevin adını daşıyan, həyətində millət atasının heykəli yüksələn və binanın içərisində muzeyi olan Dərnəgül Taxıl Məhsulları kombinatı oldu, bir də «Çörəyi itirməzlər» kitabı. Bu kitabın səhifələrində müəllifin M.C.Bağırovla bağlı xatirəsi bugün yalançı şahidləri rüsvay edir.

Müəllif yeniyetməlik illərini belə xatırlayır: «Mədəndə boruçəkənlər briqadasının üzvü idim, eyni zamanda şoferlik məktəbində oxuyurdum. Tezliklə sürücülük şəhadətnaməsi aldım, mənə «ZİS» markalı yük maşınını sürməyi etibar etdilər. Fikirləşdim ki, bir neçə il şofer işləyəcəyəm. Lakin mütəxəssis

çatışmadığındanmı, mənim təşkilatçılıq qabiliyyətimi gördüklərindənmi, az keçmədi, qaraj müdiri təyin olundum.

Kiçik otağımda çay içirdim ki, dispetçer özünü içəri atdı: «Nadir, Zuğulbada buruq fontan vurub. Təcili surətdə ora iki balon oksigen, iki balon asetilen aparılmalıdır, amma heç kəs yoxdur, bilmirəm neyləyim...».

Həyətə çıxdım. Maşınlardan birini işə salıb anbarın qabağına sürdüm. Tərslikdən anbardar orada yox idi. Ləngimədən qıfılı sındırdım, dörd balon əvəzinə altı balon götürdüm. Başqa cür hərəkət edə bilməzdim - xətrini dünyalar qədər istədiyim usta Bezrukovun briqadasının ərazisində quyu neft verməyə başlamışdı, ona kömək göstərməyi özümə az qala müqəddəs borc sayırdım.

Zuğulba stansiyasına çatanda neft buruğunun necə fontan vurduğunu gördüm və sürəti daha da artırdım.

Bir gözüm buruqda qalmışdı, buna görə də dövlət bağına çatdığımı hiss eləməmişdim. Qəflətən darvazadan maşın çıxdığını görəndə Allah üzümə baxdı ki, çaşmadan sükanı sağa döndərib əyləci basdım. Mənim maşınım divara dəyib azacıq əzilsə də dayandı. Qabaqdakı maşından iki nəfər dərhal yerə atılıb sürətlə mənə yaxınlaşdı. Bağrım yarıldı. Başa düşdüm ki, Mir Cəfər Bağırovun maşınıdır. Məni bir göz qırpımında yerə endirdilər. Yəqin elə güman eləmişdilər ki, sui-qəsd hazırlanıb, mən də onun iştirakçısıyam.

Nələr keçirdiyimi təsəvvür etmək çətin deyil. «Damarlarımda qanım dondu» sözfərinin mənasını məhz həmin an tamam-kamal anladım. Addım ata bilmirdim. Yerimdə mıxlanıb qalmışdım.

Bu zaman minik maşınının qapısı açıldı. Mir Cəfər Bağırov düşdü. Şəklini hər yerdə görmüşdüm, dərhal tanıdım. Soruşdu:

Ay bala, hara tələsirsən? Az qala bizi vurub öldürmüşdün. Dilim topuq çala-çala cavab verdim:

Allah eləməsin, yoldaş Bağırov. Zəhmət çəkib sağa baxın. Fontan vuran yerə oksigen balonları aparıram. Vaxtında çatdırmasam, Bezrukov özündən çıxacaq. Yəqin ki, xəbəriniz var, neft hədər yerə axanda elə bil Bezrukovun öz qanı axır.

Bağırov gülümsündü - mənim danışığımdan elə çıxırdı ki, o da usta Bezrukovu tanıyır, yaxud hökmən tanımalıdır. Onun təbəssümünü görüb bir az ürəkləndim:

Qoy məni hara istəyirlər aparsınlar, amma icazə verin, əvvəlcə balonları ustaya çatdırım. Mir Cəfər Bağırov səsləndi:

Kaş hamı Bezrukov kimi, sənin kimi işləyəydi. Dərdimiz olmazdı. Sür get. Amma ehtiyatlı ol. Maşına mindi, yola düşdülər.»

***

...Bakıda isə ictimaiyyət arasında böyük hörmət qazanmış istehsalat başçısını və xeyriyyəçini hörmətdən salmaq üçün dəridən-qabıqdan çıxırdılar. 1990-

cı il iyulun 4-də «Bakinskiy raboçiy» qəzetində L.Polonskinin «Müfəttişlər də şeir qoşurlar... və ya 2 nömrəli Bakı taxıl məhsulları kombinatının şöhrəti nəyə əsaslanırdı» sərlövhəli, başdan-ayağa yalançı şahid ifadələrindən ibarət olan məqaləsi dərc olundu. Nəinki məhkəmə, heç istintaq da qurtarmamışdan sifarişlə yazılmış bu yazı kombinatın bütün kollektivini ayağa qaldırdı. Azərbaycan partiya təşkilatı tarixində görünməmiş hadisə baş verdi: direktoru partiya sıralarından xaric etmək barədə raykom bürosunun qərarı ilk partiya təşkilatı tərəfindən rədd edildi. El gücü sel gücünə çevrildi. Azərbaycanın seçkilər tarixində ilk dəfə olaraq əmək kollektivi istintaq altında olan direktoru xalq deputatlığına namizəd göstərdi. Yuxarıların bütün həngamələrinə baxmayaraq, 1990-cı il noyabrın 30-da Nadir İmamnəzər oğlu Quliyev Azərbaycan SSR xalq deputatı seçildi. Dekabrın 7-də əməllərində cinayət tərkibi olmadığına görə xitam verildi. 1991-ci il yanvarın 21-də Nadir Quliyev işləmədiyi ayların haqqı tam məbləğdə ödənilməklə direktor vəzifəsinə bərpa olundu.

Alicənab və əliaçıq insan, Mir Cəfər Bağırovun çörəyini itirməyən xalq deputatı «işləmədiyi ayların əmək haqqını» aldı və 20 yanvar şəhidlərinin ailələrinə çatdırdı.

İstirahət günləri kitabxanalara üz tutdu. Ömür salnaməsinin aynası olacaq kitabı üçün materiallar topladı, keçmiş illərin mətbuat səhifələrinə göz qoydu.

Ensiklopedik biliyə və geniş məlumata malik olan Nadir Quliyev üçün xalqının tarixi onun canlı orqanizmi idi. Onun gah bu qolunu, gah o qolunu kəsənlərin, gah bu gözünü, gah o gözünü çıxaranların Allahı yoxdur. 1953-cü ilə qədər qəzet səhifələrində Mir Cəfər Bağırovun adının üstündən qara xətt çəkildiyini görəndə «allahsızlara» qəzəbi tuturdu. «Vışka» qəzetinin 1946-cı il 17 sentyabr tarixdə çıxan sayında 50 yaşlı, beşinci dəfə Lenin ordeni ilə təltif olunmuş M.C.Bağırovun şəkli eybəcər hala salınmışdı. 1950-ci il 30 iyul tarixli sayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin tərkibinin siyahısında yenə də həmən «allahsız» M.C.Bağırovun adını qaralamışdı. İndi gün kimi aydın olur ki, qara əllər qara əməllər sahibidir.

...Nadir Quliyev M.F.Axundov adına kitabxananı tərk edəndə hava qaralırdı. Sürücüsünə dedi ki, maşını dəniz vağzalı qabağında saxlasın. Özü bulvara tərəf addımladı. Qağayılara tamaşa etdi, sahildən uzaqlaşan gəmilərə baxdı.

Buzovnaya çatar-çatmaz direktor sürücüsünə işarə etdi: «Düz sür». Zuğulbadakı «Bağırov bağı»nın yaxınlığında yerə düşdü. Yeniyetməlik çağlarında şofer işlədiyi zaman fontan vuran buruğa oksigen balonları aparanda Mir Cəfər Bağırova «sui-qəsd» etdiyi yeri tapdı. İndi bu yerdə gülləkeçməz jilet geymiş silahlı polislər farağat durmuşdu.

Maşınına əyləşib Buzovnadakı bağ evinə gəldi. Ulduzlar Buzovna səmasını işıqlandıranda Nadir Quliyev yazı masası arxasında idi. «Çörəyi itirməzlər» kitabının son səhifələrini tamamlayırdı. Gözlərinin önündə yenə nəhəng insan - Mir

Cəfər Bağırov dururdu. Nadir Quliyevin yazdıqlarına heç nə əlavə etməyə lüzum yoxdur. «Çörəyi itirməzlər» kitabında oxuyuruq:

«...Sovet İttifaqının hər yerində olduğu kimi, bizim Azərbaycanda da «xalq düşməni» adı ilə tutulan, güllələnən, sürgünə göndərilən adamların həm özlərinin, həm də ailələrinin müsibətini tam şəkildə təsəvvür etmək mümkün deyil.

Amma təkrar edirəm, atamın da günahsız həbs olunduğuna, heç qəbrini də tapa bilmədiyimə baxmayaraq sidq ürəkdən bildirirəm ki, Mir Cəfər Bağırov xalqımızın düşməni olmayıb.

Dövr başqa dövr idi. Sovet dövlətinin banisi Vladimir İliç Lenindən başlanıb gələn qətllər, amansızlıq artırdı, genişlənirdi, dərinləşirdi...Belə bir zamanda mircəfərlər cəza mexanizmini saxlaya bilməzdilər. Üstəlik onun ətrafına toplaşmış erməni yırtıcılarının Azərbaycan xalqını nə günə saldıqları, necə fitnəkarlıqlar törətdikləri indi-indi hərtərəfli öyrənilir. Həm də nə gizlədək, öz manqurtlarımız azmı qan axıdıblar?

Atamdan donos verəni, deməli, atamın əsl qatilini sonradan tanımışam. Övladları, nəvələri var deyə üzə vurmamışam. Söhbətimin canı başqadır: məgər alçaq niyyətinə nail olmaq üçün zavallı kişiyə qara yaxmağı ona Mir Cəfər buyurmuşdu?

Sosializm öz dəyirman daşlarını hərləyirdi, bu daşların arasında üyüdülən insan bədənləri toza-torpağa dönür, «kommunizmin möhtəşəm binasının» özülünə tökülürdü.

Rəhbəri qaldırmaq, bütləşdirmək, öləndən sonra isə bütün bəlaları, cinayətləri yığıb-yumurlayıb onun adına yazmaq çoxdankı şakərimizdir.

...Hər birini tərifləmişik, göylərə qaldırmışıq, az qala ətəklərində namaz qılmışıq, vaxt gələndə isə öz sözlərimizi unudaraq yerə çırpmışıq, zibilə döndərmişik...

Və bir şəxsiyyət kimi unutmuşuq. Mir Cəfər isə nə qədər pislənsə də yaddan çıxmayacaq. Bu yaxınlarda qəzetlərdən birində oxudum ki, o, Levon Şaumyan kimi qatı millətçinin azğın əməlləri barədə Stalinə məktub yazıbmış.

İşə baxın, repressiya dövründə Mikoyandan, Şaumyandan, onların yan-yörələrindəki fitnəkarlardan qorxmayan Mir Cəfərdən sonra kiçik və böyük kreslolarda əyləşənlərimiz Azərbaycanda sağa-sola at çapan ermənilərdən, hətta bədəncə nahamvar, mənəviyyatca cılız Gevorkovdan da çəkinmişlər, ehtiyat eləmişlər.

Vallah, bütün bunları götür-qoy eləyəndən sonra az qalıram Bağırova sitayiş edəm.

Bəs erməni qurdların fitvası ilə azərbaycanlıların da tatarlar, qaraçaylar, çeçenlər, inquşlar, Mesxeti türkləri və digər millətlər kimi öz yurdlarından köçürülməsi haqqında Stalinin qərarını kim ləğv elətdirdi?

Fikirləşirəm: Bağırov olmasaydı, indi hamımızın sümükləri Qazaxıstanın çöllərində, Sibirin meşəliklərində çürüyürdü. Bəlkə də bir millət kimi məhv olub getmişdik.

Gəlin hər şeyi bir-birinə qatıb qarışdırmayaq - yaxşıya yaxşı deyək, pisə pis.

Bu sözlərdən sonra seyidin ünvanına «Allah rəhmət eiəsin!» deyib ona yasin oxutdurmağa gedirəm».

***

...Bu gün qədirbilən insanlar Mir Cəfər Bağırova yasin oxutdurana da rəhmət deyirlər. Vaxtsız əcəl Nadir Quliyevi 1993-cü ildə altmış altı yaşında əlimizdən aldı. Bəlkə bu da taleyin işidir. Yaşasaydı, 1993-cü ildən sonra vaxtilə ona əzablar vermiş kommunistlərin başqa bir partiya cildində hakimiyyətə gəldiklərini görüb dözə bilməzdi. Quliyevlər ailəsinin Buzovnadakı bağ evinə qoyulmuş naqanın 1993-cü ildən sonra içərişəhərli Arif Mənsurovun, balaxanılı Hacı Hüseynağanın mənzilindən çıxdığını eşidəndə...ürəyi tablamazdı...

...Mir Cəfər Bağırovdan sonra Zuğulbanın dövlət bağında qalan rəhbərlərdən birisi buna oxşar hadisə ilə üzləşsəydi, sürücünün aqibəti tamamilə başqa cür olardı. Sözsüz ki, oksigen balonları buruğa çatdırılacaqdı. Ancaq sürücü barəsində ibtidai istintaq başlanacaqdı. Nadir Quliyev bu suallara cavab verməli olacaqdı:

Sən niyə qaraj müdiri vəzifəsində işləyə-işləyə maşın sürürsən? Niyə anbarın qıfılını sındırmısan? Bəlkə anbardan altı deyil, daha çox oksigen balonu götürmüsən? Kimə və neçəyə satmısan? Gözün kordur, işarədən qanmırsan ki, burada sürəti azaltmaq lazımdır?

Sonralar, əli çörəyə çatanda Nadir Quliyevin əzablı günləri yenə də «maşın qəzası» ilə başladı. Bu dəfə ona kömək edən olmadı: Mir Cəfər Bağırov yox idi.

Nadir Quliyevin «Çörəyi itirməzlər» kitabında oxuyuruq: «Gecə Buzovnadan şəhərə gəlirdim. Dəqiq yadımda qalmayıb, deyəsən, aprelin axırları idi. Maşını ehtiyatla sürürdüm. Böyükşoru yenicə keçmişdim ki, bir «samosval» maşını məni ötdü və azacıq sonra saxladı. Baxdım ki, mərdəkanlı Qəhrəmandır. Maşına göyərti kisələri doldurub, üstəlik dörd-beş adam mindirib. Qəhrəman maşından düşdü, qabaqdan gələn tanış şoferdən yolda avtomobil müfəttişi olub-olmadığını soruşdu.

Həmin şofer Qəhrəmana məsləhət gördü ki, sağa dönsün, Dərnəgüldən keçib şəhərə girsin...

Xülasə, Qəhrəmanın ardınca gedirdim. Qəflətən onun maşını xəndəyə düşdü. Maşının kuzovu yerindən oynadı, oradakı qız bircə göz qırpımında havaya qalxdı və mənim maşınımın altına yuvarlandı.

Hədsiz dərəcədə gözlənilməz hadisədən özümü itirmədim. Tələsik əyləci basdım, amma gec idi - qız həlak oldu».

...Avtomobil müfəttişləri Nadir Quliyevi Bakı şəhər milis idarəsinə aparırlar, zirzəmiyə salırlar. Üç gün orada saxladıqdan sonra Bayıl dustaqxanasına keçirirlər.

Məhkəmə Nadir Quliyevə iki il iş kəsir.

Nadir Quliyev Bayıl dustaqxanasında Mir Cəfər Bağırovun məhkəməsini xatırlayırdı. Respublika rəhbərinin qəsdən heç kəsi öldürmədiyinə baxmayaraq, onu güllələnməyə məhkum etdilər. Kombinat direktoru qəsdən adam öldürməsə də, ölüm hadisəsinə görə cəzasını çəkməli idi.

Nadir Quliyev həbsxananı tərk edərək yenə də doğma iş yerinə - Dərnəgülə gəldi. Kombinat direktoru o illər barədə belə yazır: «Həmin dövrdə rüşvətxorluğa qarşı mübarizəni gücləndirmək haqqında növbəti qərar dəbdəbə ilə, təmtəraqla, böyük hay-küylə «yerinə yetirilirdi». Bir fakt üzrə nə qədər çox adam barəsində cinayət işi qaldırılırdısa, hüquq-mühafizə orqanları o qədər təriflənirdi».

## İki tale

Həmin illəri mən də yaxşı xatırlayıram. O vaxtlar respublika Xalq Nəzarəti Komitəsində mütərcim işləyirdim, rusca yazılmış qərar və digər materialları azərbaycancaya çevirirdim. Hər dəfə adlı-sanlı, pak və vicdanlı həkimlərimizin, ziyalılarımızın ermənilərin şahidliyi ilə qurulmuş məhkəmələrin hökmü ilə rüşvət üstündə tutulduqlarına aid sənədləri tərcümə edəndə nələr çəkərdim...

Kombinatın tabeliyində olduğu baş idarə rəisi zorla rüşvət almaqda təqsirləndirilirdi. İstintaqı müstəntiq Ağavelyan aparırdı. Bakı ziyalılarının namuslu bir insan kimi tanıdıqları Nadir Quliyevə şər atmaq üçün erməni müstəntiq gizlicə tələ qurmuşdu. Kombinatın mühasibi Asiyadan xəlvəti belə bir yazılı ifadə almışdı: «Mənim əlimlə Nadir Quliyev baş idarə rəisinə pul göndərib».

Bir həftədən sonra kombinat direktoru Respublika Prokurorluğuna çağırıldı. Baş prokuror ona dedi ki, mühasibin öz ifadəsinə imza atıb. Müstəntiq Ağavelyan istintaq materiallarını bizə təqdim edib. Sən gəl pul göndərdiyini boynuna al, yaz, qol çək. Bunun əsasında baş idarə rəisini dama basaq, sən də azad ol, işində qal.

Nadir Quliyevin gözləri önündən yenə 1956-cı il keçdi: Mir Cəfər Bağırovun məhkəməsi. Məhkəmədəki Bağırov ona Zuğulbadakı Bağırovdan daha əziz və doğma idi. Yalanları və iftiraları vecinə almırdı. Mərdanə və şahanə idi.

Nadir Quliyevin baş prokurora son sözü qəti səsləndi:

-Mənim əlimlə ev yıxa bilməyəcəksiniz. Heç nə yazmayacağam!

...Bir neçə gündən sonra kombinat direktorunu iş başından Respublika Dövlət Təhlükəsizliyi Komitəsinə apardılar. Nadir Quliyev keçmiş baş idarə rəisini də otaqda görəndə təəccübləndi. O, tamamilə dəyişmişdi.

Sən demə, onları bilə-bilə görüşdürmüşdülər. Ağavelyan nə deyirdisə, keçmiş rəis təkrar edirdi:

-Sənə pulu Nadirmi göndərib?

-Bəli.

Nadir Quliyev onun gözlərinin içinə baxdı:

-And içə bilərsənmi mən göndərmişəm?

Keçmiş baş idarə rəisinin dili dolaşdı:

-Yox, sən göndərməmisən...

Müstəntiq Ağavelyan və otaqdakı zabitlər ona tərs-tərs baxdılar.

Üzləşdirmədən bir şey hasil olmadı. Atası İmamnəzərin 1937-ci ildə yalançı şahidlərin ifadələri əsasında həbs edilməsi barədə eşitdikləri Nadir Quliyevin yadına düşdü. O zaman Nadir Quliyev on yaşında idi. İndi isə haqsızlığa özü düçar olmuşdu...

Çıxılmaz vəziyyətdə qalan Nadir Quliyevə xəbər çatdırdılar ki, artıq onun həbs olunmasına sanksiya verilmişdir.

...Kombinat direktoru bütün işlərini müavininə həvalə etdi. Axşam Tbilisiyə, oradan da Moskvaya yollandı.

Bakıda milis şöbələrinin qarşısındakı lövhələrdə Nadir Quliyevin şəklini görənlər gözlərinə inanmadılar: «Bu nədir? Axtarışdadır?»

Moskvada Nadir Quliyevə otuz illik dostu Vasili İvanov kömək əlini uzatdı.

Sov. İKP MK aparatı işçiləri arasında qayğıkeş və prinsipial insan kimi dərin hörmət qazanmış Vasili Petroviç İvanov Nadir Quliyevi Mərkəzi Komitəyə, oradan da SSRİ Prokurorluğuna apardı. Nəhayət, ona bildirdilər ki, Bakı ilə danışılmışdır, o həbs olunmayacaqdır.

...Nadir Quliyev Moskvada keçirdiyi həyəcanlı günləri xatırlayaraq belə yazırdı: «Açığını deyim ki, utanırdım. Azərbaycanda qanunların bu cür kobudcasına tapdalanması haqqında, insanların təhqir olunması, alçaldılması haqqında başqa millətin nümayəndəsinə söhbət açmağa xəcalət çəkirdim. Özgə çıxış yolu isə tapa bilmirdim».

Bakıya qayıtdıqdan sonra Nadir Quliyev öz işini davam etdirdi. Fəqət asudəliyi uzun çəkmədi. Kombinat direktorunun əyilməzliyi başda oturanların qəzəbinə gəlmişdi. Bu dəfə yalançı şahidlərin böhtan daşı kombinat direktorunun ticarət sahəsində işləyən oğlu İmamnəzərin bostanına atıldı. Guya xalq malını mənimsəmişdir...

Bir gün ərzində Buzovnadakı mənzildə, bağ evində yoxlama aparıldı. Axtarışda Respublika Prokurorluğunun işçiləri, milis əməkdaşları, hətta Daxili Qoşunların əsgərləri iştirak edirdilər. Ahıl buzovnalılar deyirdilər ki, heç 1937-ci ildə kənddən İmamnəzər kişini tutub aparanda bu yekəlikdə axtarış olmamışdı. Nəvə İmamnəzərin də baba İmamnəzər kimi bir günahı yoxdu. Əsas yalançı

şahidlərin ifadələri idi. Başlıca hədəf isə Nadir Quliyevdi - İmamnəzər oğlu və İmamnəzər atası!

Quliyevlər ailəsinin mənzilini ələk-vələk elədilər. Guya «sənəd» axtarırdılar. Bağ evindən bir ov tüfəngi müsadirə olundu. Sonra Dərnəgülə tələsdilər. Əsgərlər «döyüş vəziyyəti» alaraq, dərhal kombinatın giriş və çıxış yollarını tutdular. İşçilər arasına vahimə düşdü. Direktoru masa dalından ayağa durmağa qoymadılar. Və cinayət işi qaldırmaq üçün əsas tapıldı. Nadir Quliyevin stolundan tiryək, seyfindən tapança tapılmışdır!

Nadir Quliyev iş başından Respublika Prokurorluğuna gətirildi. Gecə yarısı isə Şüvəlan həbsxanasına aparıldı. Sonra da Moskvaya, «Matrosskaya tişina» dustaqxanasına göndərildi.

Nadir Quliyev məhkəməsinə qədər qanunsuz olaraq Moskva həbsxanasında saxlandığı ayları sonralar belə xatırlayırdı: «Həyatımın necə keçdiyini təsəvvür etmək çətin deyil. Üstəlik səhhətim pisləşir, halım ağırlaşırdı. Gözlərim nurunu itirirdi. Psixoloji cəhətdən də sarsılmışdım: mənə elə gəlirdi ki, yaşamağın mənası yoxdur. Xülasə, qəti qərara gəlmişdim ki, intihar edim».

Nadir Quliyev «Matrosskaya tişina»nın ümumi kamerasında idi. İntihar edəcəyi günü bir məktub da yazmışdı, balışının altındaydı: «Əziz oğlum Bəsirət! Elə zənn etmə ki, atan acizlikdən özünü asdı.,. Uşaqlardan muğayat ol. Əlvida».

Dustaq yoldaşlarının yatdığını yəqin edəndən sonra gündüz yataq adyallarından qayış şəklində kəsib sabunladığı parçaları bir-birinə möhkəm düyün vurub uzatdı. Halqanı boynuna keçirdi və ayağa duraraq... Elə bu anda beşinci çarpayıda yatan məhbus hövlnak qalxdı, onun qarşısını kəsdi. Nadir Quliyevə elə gəldi ki, gözlərinin önündəki yenə Bezrukovdur, pıçıltısını eşitdi:

-Sən özünü asmaqla Azərbaycandakı düşmənlərini sevindirəcəksən. Yalançı şahidlər ifədə verəcəklər ki, cinayətin sübuta yetirilib, vəziyyətin çıxılmaz olduğundan özünü öldürmüsən».

...Nadir Quliyevin «Çörəyi itirməzlər» kitabında Mircəfər Bağırov haqqında yazdıqlarından bu nəticəyə gəlirsən:

Azərbaycanı Rusiya zəncirləri halqasına salan bolşeviklərlə Mir Cəfər Bağırovun əqidə birliyi olmamışdır.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində 1923-cü ildə Bakı partiya təşkilatı tərəfindən M.C. Bağırovun adına yazılmış xasiyyətnamə vərəqəsində deyilir: «Mir Cəfər Bağırovun marksist hazırlığı yoxdur. Təşəbbüskar adamdır, ancaq partizanlığı da var. Öz səhvlərini dərk edir və nəticə çıxarır».

Mir Cəfər Bağırov bütün fəaliyyəti boyu Azərbaycan xalqının düşmənlərinə qarşı əyilməzliyi ilə... partizanlıq edərək marksistlikdən uzaq oldu.

M.C. Bağırov öz məhkəməsində marksist-daşnak rejimi nin bütün ittihamlarını mərdi-mərdanə rədd etdi, düzgün nəticə çıxararaq siyasət meydanını kişi kimi tərk etdi.

Bu gün, yeni əsrin astanasında, Azərbaycan Respublikasının milli mənafeyi M.C. Bağırova qarşı mübarizə aparmağı deyil, M.C. Bağırovu məhv edən siyasi quruluşu ifşa etməyi tələb edir. Təəssüflər olsun ki, Azərbaycandakı bir neçə kommunist partiyası yenə də başları üzərində oraq-çəkicli al bayrağı görmək arzusu ilə fəaliyyət göstərirlər.

1999-cu ildə «Asiman» nəşriyyatı Azərbaycan Kommunist Partiyasının sədri Ramiz Əhmədovun «İkinci həyat» adlı kitabını nəşr etmişdir. Müəllif, Mir Cəfər Bağırovu «XX əsr tarixində ziddiyyətli şəxsiyyət» adlandırır. Bu ziddiyyət nədən ibarətdir? Bu suala Ramiz Əhmədov belə cavab verir: «Mən ona (Mir Cəfər Bağırova - T.Q.) heç zaman «Vətən xaini», «xalq düşməni» kimi baxmamışam... Lakin məlum repressiyaların iştirakçısı və əsas təşkilatçılarından biri kimi ona haqq qazandırmaq da düzgün olmaz».

Bu gün kimə bəlli deyildir ki, keçmiş SSRİ-də kütləvi qırğınların bir təşkilatçısı vardı - Sovet İttifaqı Kommunist (bolşeviklər) Partiyası. Bu partiya bütün dünyada üzdəniraq kollektiv təsərrüfatçılığın əsasını qoyduğu kimi, kütləvi qırğın mexanizmini də yaratmışdır. Bu mexanizm bu gün də müsəlman-türk xalqlarının qəsdinə durmuşdur.

Mir Cəfər Bağırov Kommunist Partiyasının deyil, öz xalqının oğlu olmuşdur. Bu mənada onun indiki Azərbaycan kommunistləri ilə heç bir yaxınlığı yoxdur. Azərbaycanın xalq rəhbərinin içərisində çalışdığı binanın üzərində oraq-çəkicli al bayraq yellənsə də, ürəyinin başından üçrəngli istiqlal bayrağı yüksəlmişdir. Bu gün bir əli ilə Azərbaycanın rəsmi dövlət bayrağından, o biri ilə oraq-çəkicli al bayraqdan yapışanların şəhadət barmağında «Rusiya» yazılmışdır. İyirminci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin sabiq üzvü və Quba qubernatoru Əlibəy Zizikskini müdafiə etmiş Mir Cəfər Bağırov sağ olsaydı... «məlum repressiyaların təşkilatçılarından biri» kimi bu barmaqları kəsərdi, Azərbaycanın müstəqilliyi keşiyində durardı!

Azərbaycan Siyasi Repressiya Qurbanları Assosiasiyasının «Hürriyyət» qəzetinin 1999-cu il 21-22-ci sayında dərc olunmuş bəyanatında oxuyuruq: «Bəyanat müəllifləri təəssüflə bildirirlər ki, postsovet məkanındakı respublikaların hamısında siyasi repressiya qurbanlarına və onların ailə üzvlərinə güzəşt və imtiyazlar verildiyi halda, Azərbaycanda bu imtiyazlar ləğv edilib».

Kim və nə səbəbə ləğv edib? M.C. Bağırov iş başında olsaydı, siyasi repressiya qurbanlarının ailə üzvlərinə, əmək və müharibə veteranlarına, ailələrinə, kimsəsiz ahıllara və ağbirçək dul qadınlara «postsovet məkanındakı respublikaların hamısındakılardan» çox dövlət qayğısı göstərilərdi. Qırx-əlli il namusla işləyənlər qocalıq vaxtında təqaüd almaq üçün növbəyə dayanmazdılar, gediş haqqı vermədiklərinə görə ərköyün sürücülərin danlağına məruz qalmazdılar...

## Yazıçı İbrahim Novruzovun dediklərindən

Doğruçu şahid, Mir Cəfər Bağırovla dəfələrlə təmasda olmuş yazıçı-jurnalist İbrahim Novruzov «Azərbaycan» jurnalının 1999-cu il 1-ci sayında Mir Cəfər Bağırovun müharibə iştirakçılarının ailələrinə qayğıkeşliyindən söhbət açır: «... Respublikanın hərbi komissarı polkovnik Xavər Vəliyev gəldi. Onu Xədicə Axundovanın şikayətlərini araşdırmaq üçün Mir Cəfər Bağırov çağırtdırmışdı. Polkovnik içəri girən kimi Bağırov mənimlə söhbətinə ara verib Xavərdən soruşdu:

-Axundova Xədicəni attestatla aldığı müavinətdən niyə məhrum etmisiniz, mənzilindən niyə çıxarırsınız?

Polkovnik:

-Yoldaş Bağırov, - dedi - Xədicənin əri, 396-cı diviziya qəzetinin redaktoru olmuş, baş siyasi rəhbər Tağı Axundov qoşunlarımız Kerçdən geri çəkiləndə qorxaqlıq göstərib özünü öldürmüşdür.

-Tağı Axundov özünü öldürəndə sən yanında idinmi?

-Yox, yoldaş Bağırov, mənə belə məlumat veriblər.

-Bəs niyə məlumatı yoxlamamısan?

Polkovnik dinmədi. Bağırov sözünə davam etdi:

-Əvvəlan, qorxaq adam heç vaxt özünü öldürməz. İkincisi, müharibə şəraitində axırıncı patronunadək vuruşan, axırıncısını isə özünə saxlayıb düşmənə təslim olmayan adama qorxaq deməyə diliniz necə gəlir?.. Uşaqları necə, varmı?

-Xeyr, yoxdur.

-Bəs dul arvadı kim saxlamalıdır? Nə ilə dolansın, pulunu da kəsmisiniz.

Polkovnik başını aşağı saldı. Doğrusu, mən bu mükalimədən ürəklənib «Kommunist» qəzetində «Əsgər, kommunist, jurnalist» adında böyük bir yazı ilə çıxış etdim. Xədicə xanım redaksiyaya gəldi. Məni qucaqladı, ağladı, təşəkkür etdi. Əri üçün aldığı müavinət bərpa olunmuş, mənzili də saxlanmış, üstəlik Tağı Axundov ölümündən sonra Qırmızı Ulduz ordeni ilə təltif edilmişdi».

## Mir Cəfər Bağırovun xilas edə bildiyi adamlardan

...1917-ci ildə Qori seminariyasını bitirmiş, Zaqafqaziyada ilk pedaqoji elmlər doktoru, Azərbaycanın əməkdar elm xadimi, uzun illər APİ-də kafedra müdiri, dekan və rektor vəzifəsində işləmiş Əhməd Seyidov «Təhsil» qəzetinin 1993-cü il 16 oktyabr tarixli sayında Mir Cəfər Bağırovun onu ermənilərin qurduğu «repressiyadan» necə xilas etdiyindən söhbət açır. Doğruçu şahid öz xatirəsində yazır: «Mən APİ-də rektor işlədiyim dövrdə bir tədris ili üçün nazirlikdən instituta qəbul planı göndərilmişdi. Qəbul planına baxdıqda təəccüb hissi məni bürüdü. Qəbul planında Azərbaycan dili və ədəbiyyatı fakültəsinə 25 nəfər, erməni dili və

ədəbiyyatı fakültəsinə isə 75 nəfər nəzərdə tutulmuşdu. Mən düşündüm ki, yəqin makina səhvidir. Rəqəmlərin yerini dəyişdim.

...Bir-iki gün sonra mənə MK-dan zəng etdilər ki, filan günü filan saatda kişinin (o vaxtlar M.C.Bağırova belə deyirdilər) qəbulunda olmalısan.

Mən bu xəbərdən çox qorxdum, həyəcanlandım. Evdə heç kimə heç nə demədim.

...Mən qəbula hansı hisslərlə daxil olduğumu deyə bilmərəm, ancaq bərk qorxurdum.

Mən Mir Cəfər Bağırovun kabinetinə daxil olarkən, o ayağa qalxdı, mənimlə çox səmimi görüşdü, əlavə etdi ki, Əhməd müəllim, mən sizi yaxşı tanıyıram, əsərlərinizlə tanışam, siz məşhur Qori seminariyasının yetişdirmə-sisiniz.

O, mənə nə sual verirdisə istər-istəməz ayağa qalxırdım. O, tez-tez deyirdi ki, Əhməd müəllim, ayağa qalxmayın, oturun. Lakin hər nə soruşurdusa, mən özümdən asılı olmayaraq, qorxaq bir şagird kimi ayağa qalxırdım. Bir xeyli söhbətdən sonra: -Əhməd müəllim, sizdən bir şey öyrənmək istəyirəm. Mən yenə ayağa qalxdım. O güldü və: - Oturun, - dedi. Yuxarıdakı qəbulla bağlı əhvalatı soruşdu. Mən də olduğu kimi məlumat verdim.

Bu söhbətdən sonra mənə dedi ki, Əhməd müəllim, gedin, bufetdə çay için, mən özüm sizi çağıraram.

Bir qədər keçəndən sonra məni çağırtdırdı. Kabinetə daxil olanda Dövlət Plan Komitəsində şöbə müdiri işləyən ermənini orada gördüm.

Mir Cəfər Bağırov bir mənə baxdı, bir də çox hirslə erməniyə».

Görkəmli alim Mir Cəfər Bağırovla bağlı xatirəsinin sonunda yazır:

«Mir Cəfər Bağırov mənə bir telefon nömrəsi verdi və dedi ki, filan günü, filan saatda mənə zəng edərsiniz. Başqa heç bir söz demədi. Mən sağollaşıb dal-dala qapıdan çıxdım. Telefon nömrəsini ehtiyatlı yerdə saxladım. Kişinin dediyi vaxtda zəng etdim, özümdən asılı olmayaraq ayağa qalxıb danışdım. Mir Cəfər Bağırov dedi ki, o gün yanımda oturan ermənini bu gün göndərirəm, qoy gedib «istirahət etsin».

Mir Cəfər Bağırovla görüşdən sonra Dövlət Plan Komitəsinin şöbə müdirinin həbs olunması Əhməd Seyidovun qorxu hissinə son qoydu.

Ancaq çox çəkmədi ki, institut rektoru «erməni» məsələsindən sonra «gürcü» məsələsinə görə işə düşdü.

Alimin bu xatirəsi məzəli olduğu qədər də maraqlıdır: «APİ-də rektor işlədiyim dövrdə bir vəzifəli şəxs məndən xahiş etdi ki, Caparidzenin nəvəsi mənim yanımdadır, onu göndərirəm sizin yanınıza, orada ona müvafiq iş düzəldin. Mən dedim ki, göndərin gəlsin.

...Bir neçə dəqiqədən sonra... Bir də gördüm ki, şalvarlı bir qız, yanında da yekə bir it (ovçarka). Mən bu hadisədən bərk əsəbiləşdim, Qıza dedim ki, «von otsyuda».

Bir qədər keçəndən sonra qızı göndərən vəzifəli şəxs mənə zəng vurdu. Mən onu qabaqladım, dedim ki, bəs qız gəlmədi. O dedi ki, siz onu qovmusunuz.

Sən demə, bu əhvalatı Mir Cəfər Bağırov eşidibmiş. O, mənə zəng etdi və gülə-gülə dedi ki: «Əla iş görmüsən, Əhməd müəllim».

## Bəy balaları

...İndi də başqa bir doğruçu şahidin - əlli beş il hüquq-mühafizə orqanlarında çalışmış Əhməd Adıgözəlovun «Şərq» qəzetinin 1997-ci il 10 dekabr tarixli sayında dərc olunmuş «ifadə»sinə diqqət yetirin:

«- Mir Cəfər Bağırovu necə xatırlayırsınız? -Onunla şəxsi tanışlığım olmayıb. İş yoldaşı idik. Bağırov QPU-nun (Dövlət Siyasi İdarəsi) sədri olanda mən orada müvəkkil işləyirdim. Amma məni partiyaya o qəbul etdirdi. Üzvlük haqqında ərizəm iki dəfə rədd edilmişdi. 1939-cu ildə Caparidze rayon Partiya Komitəsinin iclasında üzümə durub dedilər ki, atan bəy olub, səni partiyada saxlamaq olmaz. Mən də Mərkəzi Komitəyə ərizə yazdım. 1940-cı ilin avqust ayında MK-dan göstəriş gəldi ki, məni partiyaya qəbul etsinlər».

«Bəy balası»nın partiyada saxlanılması Mir Cəfər Bağırovun göstərişi ilə olmuşdu.

Mir Cəfər Bağırov dövründə Azərbaycan KP MK-da ikinci katib vəzifəsində işləmiş, doxsan iki yaşlı Həsən Seyidov ayrı-ayrı ziyalılara, əmək adamlarına, haqlarında imzasız məktublar yazılmış namuslu soydaşlarımıza Mir Cəfər Bağırovun etdiyi yaxşılıqlar barədə «Press fakt» qəzetinin 1997-ci il 14-20 mart tarixli sayında geniş yazmışdır.

Müxbirin «Mir Cəfər Bağırov dövründə 2-ci katib işləmiş Həsən müəllim bugünkü rəhbərlərə nə tövsiyə edir?» sualına qocaman bağırovçu belə cavab verir:

-Üzərlərinə düşən məsuliyyəti hiss etsinlər. Xalqın, o dövlətin yolunda bütün güclərilə, vicdanla çalışsınlar... Yeri gəlmişkən, bu gün adı ləkəli olan Mir Cəfər Bağırov bəzi səhvlərinə baxmayaraq, xalqını, Vətənini sevən, onun rifahına çalışan zəhmətkeş insan idi. Zaman gələcək, bu həqiqətlər öz yerini alacaq».

Bəli, zaman gələcək, bu gün «adı ləkəli olan» Mir Cəfər Bağırovun müəllimlik etdiyi məktəblərdən biri onun adını daşıyacaqdır. O zaman da gələcəkdir ki, Azərbaycan rəhbərinin üzərindən «ləkəli örtük» qaldırılacaq və xalq öz xilaskarından birisinin abidəsi önünə çiçəklər düzəcəkdir.

Mir Cəfər Bağırov Azərbaycanın elm, mədəniyyət və incəsənət xadimlərinin qayğıkeş dostu olmuşdur. Musiqimizin, ədəbiyyatımızın nəhəngləri onun dövründə sənət zirvələrini fəth etmişlər. Mir Cəfər Bağırovdan sonra isə bu nəhənglərin abidəsi ucaldılmışdır...

Böyük bəstəkar, səksən yaşlı Tofiq Quliyev «Press fakt» qəzetinin 1997-ci il 13-19 iyun tarixli sayında müasir Azərbaycan musiqisinin inkişafına Mir Cəfər Bağırovun göstərdiyi qayğıdan danışır:

«- Geniş yaradıcılığınız var. Filmlərə, tamaşalara musiqilər, gözəl mahnılar yazmısınız. Ən maraqlısı, cazın yaradıcılarından olmusunuz.

-Onun da tarixçəsi var. Bizim konservatoriyadan sonra mən Moskvaya oxumağa getmişdim. Ailəmizin vəziyyəti ağır idi. Mənim dayım Qəzənfər Musabəyov olub... Orada oxuya-oxuya restoranda işləyirdim, piano çalırdım, evə pul göndərmək üçün. Günlərin birində təsadüfən Mirzə İbrahimovla orada görüşdüm. Rəhmətlik, deputat idi və MK-da incəsənət idarəsinin rəisi idi. Yay tətilində Bakıya gələndə təzədən görüşdük və o dedi ki, Bağırovun göstərişiylə caz kollektivi yaratmaq lazımdı... Və kollektiv yarandı. Adı da beləydi - I Dövlət Azərbaycan Cazı (rəsmi adı Azərbaycan Dövlət orkestri). Cazın bədii rəhbəri rəhmətlik Niyazi, musiqi rəhbəri məniydim».

Bəli, sonralar bütün dünyada tanınmış məşhur caz ustası Vaqif Mustafazadənin sənət dünyası o illərə bağlıdır.

Azərbaycan caz musiqisinin yaranmasına diqqət yetirən Mir Cəfər Bağırov Azərbaycan milli xalq rəqslərinin, muğamatın da qayğısına qalmışdır. Bəlkə də çoxları bilmirlər ki, xalqımızın əvəzsiz rəqqasəsi, xalq artisti Əminə Dilbazinin də xilaskarı Mir Cəfər Bağırovdur.

Əminə xanım «525-ci qəzet»in 1997-ci il 29 oktyabr tarixli sayında doğruçu şahid kimi suallara cavab verir: «- Əminə xanım, necə oldu ki, 37-ci ildə sənət adamlarına qarşı olan təzyiqlər sizdən yan keçdi? Deyilənə görə, Mir Cəfər Bağırov sizin sənətinizə pərəstiş edirmiş.

-Bəy nəslindən olduğuma görə mənə və sənətimə hər vəchlə mane olmağa çalışırdılar. Məni komsomola keçirmədilər, ərizəmi alıb cırdılar. Başa düşdüm ki, məni komsomola qəbul etməyiblərsə, partiyaya da keçirməyəcəklər (bəhanələri də o olurdu ki, bəy nəslindənəm, guya bacım İrana ərə gedib, casusdur və s.).

Bütün bunlarsız isə mənim sənətdə uğurlarım əbəs olacaqdı. Bir sözlə, məni yox etmək istəyirdilər.

O vaxtlar rəqs qrupu fəaliyyət göstərirdi. Mir Cəfər Bağırov bizə xüsusi diqqət yetirirdi. Gəlirdi, çıxışlarımıza tamaşa edirdi.

Bütün bu təzyiqləri görüb qət etdim ki, Mir Cəfər Bağırova bir məktub yazım: «Mən Sizə ata kimi müraciət edirəm. Bəy nəslindən olduğumu bəhanə gətirib məni komsomola qəbul etmirlər. Belə getsə, sənətimi atmağa məcbur olacağam. Komsomola, partiyaya qəbul olunmayacağamsa, incəsənətdə qalmağımın nə faydası? Mən gəncəm, gərək taleyimi indidən həll edəm. Ümidim bircə Sizsiz. Əgər məsləhət görsəniz, mən heç kimə maneəçilik olmasın deyə, sənətimi ataram».

Üç gündən sonra gənc rəqqasənin sevinci dünyaya sığışmırdı. Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırov «bəy

nəslindən olan» Əminə Dilbaziyə rəsmi məktub göndərmişdi: «Siz bu sənətdən uzaqlaşmamalısınız, heç nədən ehtiyat etməyin».

Misilsiz və bənzərsiz səs ustadına qarşı göstərilən ədalətsizliyin sübutu üçün təkcə bu fakt kifayətdir: 1999-cu ildə «Zaman» nəşriyyatı ensiklopedik toplu buraxmışdır. Toplunun redaksiya heyətində «Azərbiznes» İstehsalat-kommersiya xeyriyyə firmasının prezidenti Hacı Fərhad Mirzəyev, yazıçı Oqtay Salamzadə, millət vəkilləri - Zeynəb Xanlarova, Cabir Novruz da vardır.

Topluya hətta tərtibçinin, redaktorların özləri də, respublika ictimaiyyətinin tanımadığı şəxslər də düşmüşdür.

Hər birinin hansı ilin hansı ayında, hansı günündə dünyaya göz açdığı göstərilmiş, səhifə boyu şəkilləri də verilmişdir. «Varlıq»da müğənni qadınlarımızdan yalnız Flora xanım yoxdur.

Dünən Əminə Dilbaziyə atalıq qayğısı göstərmiş Mir Cəfər Bağırov bu gün iş başında olsaydı... ensiklopedik toplu əvəzinə ailə albomu tərtib edənlərin dərsini verərdi.

## Xan Şuşinski

...Zəmanəmizdə yüksək vəzifə başında elə bir şəxsiyyət olmamışdır ki, nadir istedad sahiblərinə Mir Cəfər Bağırov qədər diqqət yetirmiş olsun. Onlardan biri də Xan Şuşinskidir.

«Kommunist» qəzetinin 1932-ci il 9 oktyabr tarixli sayında oxuyuruq: «Son dərəcə müvəffəqiyyətli çıxışları ilə Bakı tamaşaçılarını heyrətə gətirən Xan heç bir musiqi təhsili görmədən Qarabağda özbaşına əmələ gəlib yetişən qüvvələrdəndir... Qardaşı Allahyarın müşayiəti ilə insanı həyəcana gətirən və tarda çalınan havalara uyğun, sərbəst halda, hər bir muğamı bəmdən başlayıb sonradan orta səsə keçir və nəhayət, çıxışı zildə oxumaqla bitirir. Xanın zildəki zəngulələri misilsiz və unudulmazdır».

Mir Cəfər Bağırovla Xan Şuşinskinin qiyabi tanışlığı 1923-cü ilə təsadüf edir. O zaman Şuşadan Bakıya gəlmiş iyirmi iki yaşlı xanəndənin «Müdafiə evi»ndə təşkil olunmuş konsertinə gələnlər arasında iyirmi yeddi yaşlı Mir Cəfər Bağırov da vardı.

Xan Şuşinski Bakıya gələrək, Dövlət Filarmoniyasında müvəffəqiyyətli çıxışlarından sonra yenə də Ağdama qayıdırdı.

Otuzuncu illərdə Moskvanın ermənipərəst rəhbərləri Azərbaycanın inzibati orqanlarında öz adamlarını yerləşdirdikdən sonra milli-mədəni sərvətlərimizə də qəsd etmək istəyirdilər. «Proletar»ın sevmədiyi tar, muğamat, qədim xalq mahnıları Mir Cəfər Bağırov üçün anası Yaxşıxanımın laylası kimi əvəzolunmaz idi. 1938-ci ildə çoxlarının «bəy» və «xan» sözlərini dillərinə

gətirməkdən belə çəkindikləri bir zamanda Azərbaycan rəhbəri əsl adı İsfəndiyar olan Xan üçün Bakının mərkəzində mənzil ayrılmasına göstəriş verdi.

Xan Şuşinskiyə 1943-cü ildə Azərbaycanın xalq artisti adı verildi. 1944-cü ildə Mir Cəfər Bağırovun xeyir-duası ilə Cənubi Azərbaycana getdi, Təbriz, Ərdəbil, Qəzvin, Rəşt və başqa yerlərdə «Qarabağ şikəstəsi»nin sədalarını ürəklərə hopdurdu.

Böyük sənətkar 1979-cu ildə, Novruz bayramına iki gün qalmış dünyasını dəyişdi. Əsrlərdən əsrlərə səs dünyasını əmanət qoyub getdi. Bir də Mir Cəfər Bağırovun göstərişilə Ağdamdan iyirmi dörd saat içərisində Bakıya gətirilməsindən söhbət açan xatirələrini. Yaxşılığı itirməyən Xan Şuşinskinin doğruçu şahid sözləri: «Elə bildim Sibirə sürgün edirlər bizi. Bakıya çatana qədər bilmədik hara getdiyimizi.

Hansısa ispalkomu evindən çıxarıb bizi yerləşdirdilər. Sonra da tez Mir Cəfər Bağırova xəbər verdilər ki, əmr yerinə yetirildi».

«Xalqını, Vətənini sevən» rəhbər barədə başqa bir doğruçu şahid - Mir Cəfər Bağırovun cangüdəni olmuş səksən iki yaşlı Ağadadaş Kazımov «Müstəqil qəzet»in ( 1993-cü il 3 fevrai tarixli sayında belə yazır: «Əllinci illər idi. Qatarla Moskvadan Bakıya gəlirdik. Mir Cəfər Bağırov, Yemelyanov, Sərkisov və Əzizağa Əzizbəyov bir kupedə oturub radioya qulaq asırdılar. Bu zaman radioda ermənicə nə isə danışıb konsertə keçdilər və «Tərəkəmə» çalındı. Bağırov mənə əmr elədi:

- Söndür onu! Ermənilər bizim musiqimizi də əlimizdən alırlar».

Mir Cəfər Bağırovun doğruçu şahidlərinin ağsaqqalı, xalq yazıçımız Manaf Süleymanov 1996-cı ildə Xəzər Universiteti nəşriyyatı tərəfindən buraxılmış «Son bahara çatdıq...» kitabında yazır:

«Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra Mir Cəfər Bağırov Qarabağa Vilayət İnqilab Komitəsi sədrinin müavini və Hərbi İnqilab Şurasının müvəkkili göndərilir, qısa bir zamanda bütün əksinqilabi qüvvələr onun bilavasitə iştirakı ilə darmadağın edilir. 1920-ci ilin payızında Bağırov Bakıya qayıdır və Azərbaycan diviziyasının komissarı təyin olunur. Sonra isə daha bir sıra yüksək hərbi-siyasi vəzifələrə irəli çəkilir. Ən böyük xidməti isə bundan ibarət olur ki, Azərbaycanda milli qoşun hissələri yaratmaq kimi mühüm iş üzərində çalışır. Nəhayət, 1921-ci ilin fevralında o, Xalq Daxili İşlər Komissarlığının Baş Siyasi İdarəsinə təyin olunur və təxminən on ilə qədər bu sahədə fəafiyyət göstərir. Mir Cəfər Bağırov ÇK-nın sədri təyin olunanda onun cəmi 25 yaşı vardı və həmin vəzifə ilə yanaşı, xalq daxili işlər komissarı, Xalq Yollar Komissarlığının müvəkkili, Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin müavini vəzifələrini də tutmuşdu.

1922-ci ildə Cəfər Cabbarlını pantürkist, müsavatçı kimi həbs edirlər. Mir Cəfər Bağırov xəbər tutanda şəxsən kameraya gedib onu azad edir, eynilə Əziz Şərifi də».

Yalançı şahidlərin «çoxları axşamlar teatrlara gedirdi, Mir Cəfər Bağırov isə həbsxanaya adam döyməyə» ifadələrini rədd edən dünyagörmüş yazıçı kitabının başqa bir yerində vaxtilə MK-nın ikinci katibi vəzifəsində işləmiş akademik Əliəşrəf Əlizadənin bu sözlərini oxuculara çatdırır: «Mir Cəfər Bağırov yorulmaq bilmirdi. Bilmək olmurdu ki, nə vaxt yatır, nə vaxt dincəlir; ən gözlənilməz zamanda görürdün ki, hadisə yerindədir. Çox oxuyardı. Geniş kabineti əsl kitabxana idi. Səhər tezdən zəng çalır, adamlara səsini çatdırır, oturub oxuyurdu. Adamı yeddi köynək tər tökənə qədər işlədirdi. Bacarıqlıları, işbilənləri müdafiə edirdi, imkan daxilində təltif etdirirdi».

Doğruçu şahidlərin dediklərinə görə, Mir Cəfər Bağırovun çox zəngin kitabxanası olmuşdur. Əfsuslar olsun ki, onun şəxsi kitabları da ona «Mirqəzəb» deyənlərin qəzəbinə gəlmişdir.

...Qəzəlləri dillər əzbəri olan böyük söz ustası Əliağa Vahidin də kitabları Azərbaycan rəhbərinin mütaliə etdiyi əsərlərdən olmuşdur. 1922-ci ildə Cəfər Cabbarlını dörd divar arasından xilas edən Mir Cəfər Bağırov C.Cabbarlı ilə bir mollaxanada oxumuş Vahidə də 1937-ci ildə kömək əlini uzatmışdır.

Dövlət arxivində Azərbaycan Yazıçılar İttifaqına aid sənədlərdə öz qələm dostlarının Əliağa Vahidə ögey münasibəti aşkar görünməkdədir. 1937-ci ildə Azərbaycan Yazıçılar İttifaqı katibliyinin iyun ayının 9-da imzaladığı yaradıcılıq ezamiyyəti siyahısına diqqət yetirin. Siyahı M.S.Ordubadi ilə başlayır, Əliağa Vahid ilə bitir. Siyahının başındakılara bu məbləğdə pul verilmişdir: M.S.Ordubadi -8.000 manat, Səməd Vurğun - 6.000; siyahının ayağındakılara: Hüseyn Cavidə - 2.000 manat, Əliağa Vahidə -1.000 manat verilmişdir.

Hüseyn Cavidin nə üçün «cərimələndiyi»nin səbəbi aydın idi. Azərbaycan Yazıçılar İttifaqı katibliyinin göstərilən qərarından iki ay əvvəl, «Ədəbiyyat qəzeti»nin 6 aprel tarixli sayında oxuyuruq: «Hüseyn Cavid Azərbaycan xalqının həyatından yazmayır... O, ədəbiyyatımıza panislamizm, pantürkizm gətirmişdir».

Vahidi «məzəmmət edənlər» şəhərin mərkəzində yeni mənzillərə köçürlər, Soçiyə, Kislovodskiyə istirahətə yollanırlar... Nəşriyyatda korrektor işləməyə məcbur olan böyük qəzəlxan isə maddi ehtiyac içində zirzəmidə yaşayır.

Bir gün onun da bəxtinə gün doğur. Şairi «məzəmmət etməyən» bir nəfər tapılır - Mir Cəfər Bağırov.

Əliağa Vahid də qələm dostları kimi yeni mənzilə köçür. Üstəlik, Mir Cəfər Bağırovun göstərişi ilə ona M.S.Ordubadiyə verilən məbləğdən də çox - 10.000 manat pul mükafatı verilir.

Ramiz Vahidoğlu Mir Cəfər Bağırovun onun atasına etdiyi yaxşılıqdan minnətdarlıqla söhbət açır: «...Atam evdə oturubmuş. İki nəfər gəlib ona deyir ki, Ağa səni gözləyir, O da onlarla Mir Cəfər Bağırovun yanına gedir. Mir Cəfər düyməni basır, Bakı Soveti sədrini çağırıb deyir ki, «xalq düşmənləri»nin birisinin evini ver şairə».

Əliağa Vahid sonrakı illərdə də Mir Cəfər Bağırovun şəxsi qayğısını hiss etmişdir. Mir Cəfər Bağırovun vaxtında şairin səkkiz kitabı nəşr olunmuşdur. Mir Cəfər Bağırovdan sonra isə şairin vur-tut beş kitabı buraxılmışdır. Şairin iki yüzdən çox çap olunmamış əsərləri arxivdə naşirlərin həsrətindədir.

Mir Cəfər Bağırov sağ olsaydı, ildə bir neçə mədhiyyə kitablarının əvəzinə, Əliağa Vahidin işıq üzü görməyən sənət incilərinin xalqa çatdırılmasını təmin edərdi. Şairin ailəsinə dövlət qayğısı göstərilərdi. Ramiz Vahidoğluna və Firəngiz Vahidqızına fərdi təqaüd kəsilərdi.

1949-cu ildə Mir Cəfər Bağırovun göstərişi ilə Əliağa Vahidə Azərbaycanın əməkdar incəsənət xadimi adı verilmişdi. Azərbaycan rəhbərinin bir arzusu da vardı: Vahidin qəzəlləri və satirik şeirləri rus dilinə tərcümə olunsun və o, Stalin mükafatına təqdim edilsin.

***

Bu yaxınlarda «Elm və həyat» nəşriyyatı rus dilində nəfis şəkildə bir kitab buraxmışdır. Burada nə Vahiddən, nə də onun əsərlərindən söhbət gedir. Nəşriyyat Azərbaycanın rusdilli oxucularına Mir Cəfər Bağırov haqqında yalançı şahidlərin azərbaycanca olan ifadəsini rusca çatdırır: «Zleyşiy vraq azerbaydjanskoy intelligensii».

Kitabın müəllifi Azad Şərif, redaktoru Elmira Əliyevadır. Mədəniyyət Nazirliyinin hesabına buraxılmışdır. Çünki «Lyudi moyey jizni» kitabında Xudadat bəy Rəfibəyov, Abbasmirzə Şərifzadə, Əhməd Cavad, Niyazi, Rəşid Behbudov, general Arif Heydərov, Sara xanım Aşurbəyli, Əliş Ləmbəranski, Tokay Məmmədov, Elbəy Rzaquliyev, Qara Qarayev, Xəyyam Mirzəzadə, Müslüm Maqomayev, Fərhad Bədəlbəyli, Çingiz Abdullayev, Toğrul Nərimanbəyov, Polad Bülbüloğlu kimi soydaşlarımızın haqqında oçerklər toplanmışdır.

Kitabın müəllifi azərbaycandilli və rusdilli oxuculara yaxşı tanışdır. Azad Şərif «Azərbaycan ziyalılarının ən qəddar düşməni» adlandırdığı Mir Cəfər Bağırovun vaxtında «Pionerskaya pravda»nın Azərbaycan üzrə müxbiri işləmişdir. Daha sonralar «Molodyoj Azerbaydjana» qəzetinin redaktoru, «İzvestiya» qəzetinin Orta Şərq ölkələri üzrə müxbiri, Azərbaycan KP MK-nın mədəniyyət şöbəsinin müdiri, Dövlət Kino Komitəsinin sədri, «Azərinform»un baş direktoru vəzifəsində çalışmışdır. «Azərinform»dan uzaqlaşdırılandan sonra... iki il «Qaradağ-neft»də fəhlə işləmişdir.

Bu qədər yüksək vəzifələrdə çalışmış, Azərbaycanın əməkdar jurnalisti, Zərdabi adına mükafatın laureatı, adı Londonda Beynəlxalq Kembric Mərkəzinin Biblioqrafiyasına və Nyu-Yorkda «Kto yest kto» beynəlxalq məlumat kitabına düşən ziyalının iki il fəhlə işləməsində M.C.Bağırov günahkardır?

1969-cu ildən başlayaraq on il müddətində Azərbaycan KP MK-da şöbə müdiri vəzifəsini tutmuş Azad Şərifovu hazırda Prezident Aparatında rəhbər mövqedə olanlar niyə unutmuşlar? Elə çıxır ki, ya indiki rəhbərlər də Azərbaycan ziyalılarının dostu deyil, ya da Azad Şərifov Azərbaycan ziyalısı deyildir.

«Ömrümdə iz salan insanlar» kitabının ən yaşlı qəhrəmanları Sara xanım Aşurbəyli və Əliş Ləmbəranskidir. Ancaq kitab Qara Qarayevə həsr olunmuş oçerklə başlayır. Niyə? Kitabın ilk oçerkinin ilk səhifəsindəki fotoşəklə baxanda səbəbi aydın olur. Şəklin altında yazılmışdır: «Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyev Sosialist Əməyi Qəhrəmanının Qızıl Ulduz medalını Qara Qarayevə təqdim edir». Bu hadisə 1978-ci ildə baş vermişdir.

***

Bəs «Azərbaycan ziyalılarının ən qəddar düşməni»nin rəhbərliyi dövründə Qara Qarayevin həyat və yaradıcılığı necə olmuşdur? 1946-cı və 1948-ci illərdə SSRİ Dövlət mükafatı laureatı olmuşdur. «Leyli və Məcnun» simfonik poemasını, «Yeddi gözəl» baletini və digər əsərlərini həmin dövrlərdə yazmışdır.

Müəllif Qara Qarayevin ömrünün son illərində Bakıdan Moskvaya köçüb getməsinin səbəblərini araşdırmaqda çətinlik çəkir. Kitabda oxuyuruq: «Qara Qarayevin canından artıq istədiyi Bakıdan Moskvaya köçməsinin səbəbi mənim üçün bu gün də bir müəmma olaraq qalmaqdadır. Hər dəfə onu xatırlayanda hey fikirləşir və bu müəmmaya cavab tapa bilmirəm. Doğrudanmı o özünü Abşeron bağında rahat hiss etmirdi? Pirşağının üzümündən və əncirindən doymuşdu? İnanmağım gəlmir. İlin altı ayı Moskvada soyuq və yağmurlu keçir. Orada dostları da çox deyildi. Biz onunla Moskvada söhbət edəndə məni sorğu-suala tutar, Bakının həyatında baş verən yeniliklərlə maraqlanardı. Ağıl-zəka mücəssəməsi olan gözlərində isə dərin kədərin izlərini görərdim...». «Azərbaycan ziyalılarının ən qəddar düşməni» Mir Cəfər Bağırov o zamanlar sağ olsaydı, Qara Qarayev doğma Bakısından didərgin düşməzdi.

Kitabdakı oçerk qəhrəmanlarının yaşlıları Mir Cəfər Bağırov dövrünün ziyalıları, cavanları isə həmin ziyalıların övladlarıdır. Müəllif ümumi sözlərlə Mir Cəfər Bağırovu pisləsə də, gətirdiyi faktlar bunun əksini sübut edir. Məsələn, Azərbaycan Xalq Cümhuriyyəti hökumətində səhiyyə naziri vəzifəsini tutmuş, Gəncə şəhərinin qubernatoru Hacı Xudadat bəy Rəfibəyov haqqındakı oçerkdə bu parçaya diqqət yetirin:

«Gözlərini əbədilik yumanda 43 yaşı vardı. Üç uşaq – 11 yaşlı Kamal, 9 yaşlı Rəşid, sonbeşik - atasının istəklisi 7 yaşlı Nigar Cəvahir xanımın öhdəsində qaldı. Tale onları pərən-pərən saldı. Böyük oğlu Kamil anasının yalvarışlarına məhəl qoymayıb, 1929-cu ildə İrana, oradan da Türkiyəyə getdi. Rəşid Rusiyaya üz tutdu. Cəvahir xanım qızı - gələcəyin məşhur şairəsi Nigar ilə Bakıya köçdü».

...Cəvahir xanımın və Nigarın sürgün edilməsi barədə təqdimatda «Rəfibəylilər» familiyasının qarşısında «Kişi» (Mir Cəfər Bağırov - T.Q.) öz dəst-xətti ilə yazmışdı: «Saxlanılsınlar!». Mir Cəfər Bağırov «Azərbaycan ziyalılarının ən qəddar düşməni» olsaydı, Müsavat hökumətinin üzvü, Gəncə qubernatoru Xudadat bəyin ailəsini «dərkənarıyla» sürgündən xilas edərdimi?

Bu gün Mir Cəfər Bağırova qara yaxanlar vaxtilə Xudadat bəyin mənfi obrazını yaradanların yolu ilə gedirlər.

1940-cı ildə «Azərnəşr» tərəfindən buraxılmış və sonralar dəfələrlə təkrar çap olunmuş «Bir gəncin manifesti» romanında Xudadat bəy və müsavatçılar haqqında yazılanlara nəzər yetirin:

«Topa tutulan kəndlər, Tatılının xarabalıqları, dağıdılan erməni kəndləri, mələr qalan arvad-uşaq, xalqa edilən zülm-sitəm...

Qərargah başçılarının məşvərətini təşkil edənlərdən biri Xudadat bəyin müavini Vəznəli kişi idi. O, gecə qəflətən qırğın təşkil edib qızıl əsgərləri şəhərdən qovmaq üçün bütün qaçaq-quldur dəstələrini işə salan Cahangir bəyi qucaqlayıb təbrik etmişdi».

«Atanı oğuldan, oğulu atadan, qardaşı qardaşdan, dostu dostdan eləyənin evi yıxılsın... Müsavatçıların, iş başına keçən bəy-xanın aralığa saldığı, qızışdırdığı bu ədavət bizim camaata - kəndliyə, muzdura, rəncbərə ağır bir müsibət oldu. Bu allahsız əliqanlılar xalqa bəla-müsibət olublar».

«Müsavatın gədələri cilov gəmirirlər».

«Camaat Nikolayın boyunduruğundan qurtarmamış bağlandılar Müsavat boyunduruğuna».

«Müsavat nazirləri xalqın fəlakətindən ləzzət alır...».

«Müsavatın kəsakəs vaxtıdır... Hökumət adamları illərdən bəri acıxmış, quduzlaşmış canavarlar kimi əhalinin qanına susamışlar».

«Yəqin ki, müsavatçılar öz ağalarından, osmanlı sultan paşalarından yeni cəza üsulları öyrənmişlər, onlardan ancaq bunu gözləmək olardı. Gözəl kəndləri quldur, cəza dəstələri ilə dolduran bəy-xan hökuməti şəhərləri zindan və təqib məkanına çevirmişdir. Küçələrindən dumduru kəhriz suyu axan bu gözəl, qədim şəhəri müsavatçılar qana boyamaq, haqq deyən dilləri kəsmək istəyirdilər».

«Bizi ayaqaltı eləyən, qul eləyən kim idi? Bəy, xan, ağa, osmanlı, Müsavat, nə bilim it, qurd!»

Nə yaxşı ki, Mir Cəlal müəllim Məhəmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetində tələbələrinə «Bir gəncin manifestindən» deyil, Füzulidən, Sabirdən, Mirzə Cəlildən, S.Vurğundan...ürək dolusu danışmışdır.

...Mir Cəfər Bağırovun «dərkənarı» ilə xilas edilmiş, böyüyüb boya-başa çatmış Nigar xanım Xudadat qızı Rəfibəylinin 1937-ci ilin fevralın 11-də Bakıda, Birinci Paralel küçəsindəki mənzillərdən birində toy məclisi quruldu. Gəlinin yanındakı bəy də toy adamlarına yaxşı tanışdı - Rəsul Rza.

Rəsul Rza üç ildən sonra qaynatası haqqında qələm dostunun yazdıqlarından incisə də, üzə vurmadı.

...Bəy qızının və maarifpərvər balası olan «bəyin» ən xoşbəxt illəri Mir Cəfər Bağırovun vaxtına düşür. Nigar Rəfibəyli Bakı Pedaqoji Məktəbini bitirdikdən sonra əmək fəaliyyətinə müəllimliklə başlamışdır. Sonra Bakı kinostudiyasında çalışmışdır. «Azərnəşr»də bədii ədəbiyyat şöbəsində redaktor olmuşdur. Sonra Moskvaya ali təhsil almağa göndərilmişdir.

Müsavat hökumətinin üzvü olan N.Rəfibəylinin Mir Cəfər Bağırovun vaxtında doqquz şeir kitabı nəşr olunmuşdur.

Rəsul Rza 1930-cu ildə Bakıya köçdükdən sonra «Gənc işçi» qəzeti redaksiyasında işə düzəlmişdir. Çox keçmir ki, istedad sahibi olan gənc ziyalı Moskvaya Kinematoqrafiya İnstitutuna ali təhsil almağa göndərilir. Rəsul Rza 1938-ci ildə Azərbaycan Dövlət Filarmoniyasının müdiri, Azərbaycan Yazıçılar İttifaqının sədri vəzifələrində çalışmışdır. 1946-cı ildən 1950-ci ilədək Mir Cəfər Bağırovun yanında keçirilən müşavirələrə o, Azərbaycan SSR kinematoqrafiya naziri kimi dəvət olunurdu. 1945-ci ildən əməkdar incəsənət xadimi adını daşıyan Rəsul Rza 1951-ci ildə Döviət mükafatına layiq görülmüşdü.

...Rəsul Rzanın kəşməkeşli ömür yolundan bəhs edən Anar özünün «Dünya bir pəncərədir» kitabında yazır: «Müxtəlif dövrlərdə -30-cu illərdə, 50-ci illərin ikinci yarısında, 60-cı illərin əvvəllərində, atama qarşı güclü tənqid kampaniyaları təşkil olunurdu... Atamın xəstəliyinin ən ağır günlərində isə ensiklopediyada müşavirə keçirirdilər və vicdan çəkisini özünə artıq yük bilən birisi atamın kölgəsini qılınclayırdı. Deyirmiş ki, ali təhsil diplomu olmayan bir adam (atamın, doğrudan da, ali təhsil diplomu yox idi və bu barədə özü dəfələrlə demiş, yazmışdı) ensiklopediyaya necə rəhbərlik edə bilər?»

...Mir Cəfər Bağırov iş başında olsaydı...Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin üzvü, Gəncə qubernatoru Hacı Xudadat bəyin kürəkəninə «diplomsuz» deyənlərin attestasiyasını keçirərdi.

Bəli, Mir Cəfər Bağırov vaxtında dövlət naziri olmuş, ensiklopedik biliyə və geniş dünyagörüşünə malik bu fitri istedad sahibini Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun qərarı ilə vəzifəsindən kənarlaşdırdılar.

...Rəsul Rza 1981-ci il aprelin 1-də, Nigar Rəfibəyli iyulun 10-da dünyasını dəyişdi. Üç ay içərisində Məcnun -Rəsul, sonra da onun ölümündən xəbərsiz Leyli - Nigar əbədiyyətə qovuşdu.

Anar «Sizsiz»ində valideynlərinin faciəli günlərini belə təsvir edir:

«...Martın 27-də atamı Mərdəkan xəstəxanasına aparmalıydıq. Atamın maşınını sürən qohumumuz Fikrət Ağazadə, Ənvər Məmmədxanlı, atam və mən Mərdəkana yola düşdük.

Atam dedi ki, xəstəxanaya, Nigara dəyək, sonra gedək. Bir neçə dəqiqə söhbət elədilər, ikisi də bir-birini arxayınlaşdırdılar ki, özlərini çox yaxşı, lap əla hiss edirlər, nigarançılığa heç bir əsas yoxdur, tezliklə sağalıb yenə bir yerdə olacaqlar.

Görüşüb ayrıldılar.

Bax, bu gün, bu cür əbədi ayrıldılar - nə biləydilər ki, son dəfə görürlər bir-birlərini, nə biləydilər ki, daha heç zaman görüşməyəcəklər.

Bu mart günündən əlli il qabaq tanış olmuş, 47 il qabaq nişanlanmış, 44 il qabaq evlənmişdilər, alınlarına yazılmış ömrün üçdə ikisini bir yerdə, bərabər yaşamışdılar, şadlıqları da bir olmuşdu, dərdləri-qəmləri də...»

...İki xalq şairi - iki inci insan. İki vəfadarın kölgəsini qılınclayanlar onları vaxtsız əcəldən sonra ayrı saldılar. Bir xalq şairi Fəxri Xiyabana, bir xalq şairi köhnə qəbiristanlığa aparıldı.

Mir Cəfər Bağırov iş başında olsaydı, bir bədəndə iki can kimi yaşayanların qəbir evinin sinə daşında adları da qoşa yazılardı.

***

«Rəfi» ərəb sözüdür, mənası «yüksək, ali» deməkdir. İyirminci illərdə Nigar Rəfibəyli kimi Gəncədən Bakıya gələn və adının məna ucalığını ləyaqətiylə doğruldan bir bəy balası da vardı - Rəfili Mikayıl Hacı Həsən oğlu.

Akademik Məmməd Arifin «Seçilmiş əsərləri»nin 1-ci cildində «Keçmiş səhifələrdən» adlı məqalədə oxuyuruq: «Mikayıl Rəfili Bakıda Tolstoy küçəsi ilə Verxni Naqornı küçəsinin tinindəki evdə yaşayırdı. Bu evdə, bu koridorda bir neçə yanaşı mənzil vardı, onları gəncəli tələbələr kirayə tutmuşdular. Mikayıl Rəfili də bu tələbələrdən biri idi».

Mikayıl Rəfili «yanaşı mənzillərdə» yaşayan «proletar» tələbələrin «professor»u idi. Sonralar qələm dostları da sifətindən zadəganlıq yağan gənc şair və ədəbiyyatşünasa «dvoryan balası» deyirdilər. Bəli, Mikayıl Rəfili zadəgan ailəsində böyümüşdü. Atası Hacı Həsənin Gəncəbasarın neçə-neçə yerində mülkü vardı. Fəqət Hacı Həsən maarifpərvər bir varlı idi. Bütün ailəsi təhsil görmüşdü. Balaca Mikayıl da erkən yaşlarından bu mühitdə böyümüşdü. Beş-altı yaşlarında şəkil çəkir, kitab oxuyur, piano çalırdı. O, Yelizavetpol klassik gimnaziyasını müvəffəqiyyətlə bitirmişdi. Doğulduğu Borsunlu kəndində müəllim və məktəb müdiri olmuşdu.

Gənc Mikayılın tələbə dostlarından bir üstünlüyü də vardı. O, iki ali məktəbdə eyni zamanda təhsil alırdı: Azərbaycan Politexnik İnstitutunun tələbəsi, həm də Azərbaycan Dövlət Universitetinin Şərq dilləri fakültəsinin dinləyicisi idi.

Qeyri-adi istedad sahibi, iyirmi yaşlı Mikayıl müasirlərinin diqqətini özünə cəlb etməyə başlamışdı. Onların arasında 1956-cı ildə öz məhkəməsində Mir Cəfər Bağırovun «vicdanlı kommunist» adlandırdığı Ruhulla Axundov da vardı.

Ruhulla Axundovun köməyi ilə «dvoryan balası» 1927-ci ildə Moskva Dövlət Universitetinin ədəbiyyat və incəsənət fakültəsinə qəbul olunmuşdu. Moskvada təhsil ala-ala eyni zamanda Kremldə Ali Sovetin qanunlarının azərbaycanca mətnlərinin redaktoru vəzifəsində çalışırdı.

Mikayıl Rəfili 1929-cu ildə Moskvada Birinci Ümumittifaq proletar yazıçılarının qurultayının nümayəndəsi idi. Bakıya qayıtdıqdan sonra, 1930-1935-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstitutunda rus ədəbiyyatı kafedrasında müəllim, dosent olmuş, eyni zamanda «Bakinskiy raboçiy» qəzetində şöbə müdirinin müavini vəzifəsində işləmişdir.

1935-1936-cı illərdə «dvoryan balası» SSRİ Elmlər Akademiyasının doktoranturasında təhsil almış, namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

Mikayıl Rəfili nədən yazırsa-yazsın, azərbaycançılıq onun qayəsi idi. Alimin Nizami, Mirzə Fətəli Axundov, Mirzə Şəfi Vazeh, Abbasqulu Ağa Bakıxanov və başqa klassiklərimiz haqqındakı elmi məqalələrinin ana xətti bundan ibarət idi. O, hələ 1925-ci ildə yazırdı: «Şərq sənətini Qərbə tanıdan və onu təmsil edən, şübhəsiz, Azərbaycandır. Bu gün azərbaycanlılar olmasaydı, qərblilər Şərq musiqisini öyrənmək üçün çox çətinlik çəkəcəkdi».

...1937-ci il Mikayıl Rəfili üçün uğurla başlamışdı. Yanvar ayının 9-da «Bakinskiy raboçiy» qəzetində «Puşkin və Abbasqulu Ağa Bakıxanov», fevralın 6-da «Kommunist» qəzetində «Puşkinin realizmi» məqalələri dərc olunmuşdu. 1937-ci il aprelin 19-da isə... Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin iclasına çağrıldı. İçəri keçdi. İdarə Heyətinin üzvləri - S.Şamilov, S.Vurğun, S.Rüstəm, M.Kamski, S.Qriqoryan, M.S.Ordubadi başlarını qaldırıb onun üzünə baxmadılar. Seyfulla Şamilov iclasın gündəliyini elan etdi: «Azərbaycan Yazıçılar İttifaqının üzvü Mikayıl Həsən oğlu Rəfilinin xuliqanlıq hərəkətləri barədə».

İdarə Heyətinin bütün üzvləri əl qaldırıb gündəliyi təsdiq etdilər. Sədr sözü əvvəlcə iclasa dəvət olunanlara verdi.

Əvvəlcə köhnə bolşevik Levon Arustamov çıxış etdi. Mikayıl Rəfili onu Gəncədən tanıyırdı, bolşevik cildinə girmiş daşnak idi. Məlumat verdi ki, Mikayıl Rəfili aprelin 17-də qonşusu, staxanovçu fəhlə Medvedevin mənzilini zor gücü ilə zəbt etmək cəhdində bulunmuşdu.

Sonra canlı şahidlər - ər-arvad Medvedevlər, yalançı şahid qonşular Ovanesov, Stroqonov, Karapetyan həyasızlıq etdilər. Mənzil sahibəsi Tatyana Medvedeva lap ağ elədi: «Bu musavatist qoçu mənə əl atdı. Arustamov yoldaş gəlməsəydi, məni zorlayacaqdı».

Axırda M.Rəfiliyə söz verdilər. O, qələm «dostlarına» sərt nəzərlə baxdı:

Niyə bu yalançıları yanınıza dəvət etmisiniz? Utanın! Bir gözdən ibarət bu mənzilin orderinin ispolkom tərəfindən mənə verildiyini məgər bilmirsiniz? Bunu da yaxşı bilirsiniz ki, Medvedevlərə bir aydır ki, təzə mənzil verilmişdir. Arustamovun fitvası ilə evdən çıxmırlar.

Köhnə bolşevik iclasın sədrindən icazəsiz, yerindən qalxmadan çığırdı:

- Orderi sənə xalq düşməni Axundovun tapşırığı ilə veribiər. O haradadır, sənin də yerin oradadır.

Seyfulla Şamilov qərar layihəsini səsə qoydu. Yekdilliklə qəbul edildi.

Ertəsi günü İdarə Heyətinin rəsmi qərarını Mikayıl Rəfiliyə çatdırdılar Qərarda deyilirdi: «Azərbaycan Yazıçılar İttifaqının Prezidiumu qeyd edir ki, yazıçı Mikayıl Rəfilinin qanunsuz, xalq düşmənləri - xain kontrrevolyusioner trotskiçilərin (Ruhulla Axundov) göstərişi ilə staxanovçu işçinin mənzilinə girməsi, ev şeylərini küçəyə tökdürməsi, Medvedevin qadınını hədələməsi və onu döyməsi nəinki Sovet yazıçısına, hətta namuslu Sovet vətəndaşına yaraşmayan bir hərəkətdir.

Bu fakt göstərir ki, M.Rəfilinin şüurunda hələ də mənsub olduğu mülkədar və kapitalist siniflərinin əzici psixologiyası qalmaqdadır.

...Mikayıl Həsən oğlu Rəfili Azərbaycan Sovet yazıçıları sırasından xaric edilsin».

Həmin axşam otuz iki yaşlı şair və alim ilk dəfə ürəyinin şiddətlə döyündüyünü hiss etdi. Qələm «dostları»na «dönüklər», yalançı şahidlərə «dəyyuslar» deyərək, dəftərçəsinə bu sözləri yazdı:

«Yalan və iftira, məkr, şeytanət
...Birtəmiz qəlbi
Yenməz!».

...Aprelin sonunda «yenilməyən birtəmiz qəlb» sahibinə daha bir sənəd çatdırdılar - Azərbaycan Sovet Yazıçılar İttifaqı İdarə Heyətinin 25 aprel tarixli 7 nömrəli protokolundan çıxarış: «M.Rəfili haqqında».

Qərarda oxuyuruq: «Mikayıl Rəfili bütün ədəbi və elmi yaradıcılığı boyu ədəbiyyatşünaslığımızda pantürkizm propaqandası gətirmişdir. Firudin bəy Köçərlinskinin əsərlərindəki zərərli və təhlükəli cəhətlərin üstünü basdırmış və onu əsl bir ədəbiyyat tarixçisi kimi tanıtmağa çalışmışdır.

M.Rəfili kontrrevolyusioner xain və alçaq Ruhulla Axundovun ideoloji cəhətdən ən yaxın dostu olmuş, onunla sıx əlaqə saxlamış və öz elmi əsərlərini Ruhulla Axundova ithaf etmişdir. Bundan başqa Mikayıl Rəfili Azərbaycan Sovet şeirinə formalizm kimi ən təhlükəli bir xəstə cərəyanı gətirmiş və Azərbaycan xalq şeirinə qarşı çıxmışdır.

İkiüzlülük, xəbərçilik, ara vuruşdurmaq, yaltaqlıq kimi ən iyrənc və murdar hərəkətlər Mikayıl Rəfilinin peşəsi olmuşdur.

...M.Rəfilinin atası, məşhur mülkədar Hacı Həsən Gəncə üsyanında Sovet hökuməti əleyhinə çıxmış, inqilabçı fəhlələri qətl etmək kimi alçaq cinayətdə bulunmuşdur».

Qərardan çıxarışa Seyfulla Şamilov, Səməd Vurğun və başqaları imza atmışlar.

Namuslu qələm dostlarını göz görə-görə ölümə sürükləyənlər onu ümumittifaq miqyasında rüsvay etməyi də unutmamışlar.

1937-ci il mayın 9-da Azərbaycan Sovet Yazıçılar İttifaqından Moskvaya eyni məzmunda iki ünvana xahişnamə yola salınmışdır. SSRİ Yazıçılar İttifaqına - Stavski yoldaşa və «Literaturnaya qazeta»nın məsul redaktoru Subbotin yoldaşa.

Məktublara Mikayıl Rəfili ilə əlaqədar bütün materiallar əlavə edilmiş və onlardan rəsmi şəkildə xahiş olunmuşdur ki, Mikayıl Rəfili «Literaturnaya qazeta»da və başqa mətbuat səhifələrində ifşa edilsin.

Azərbaycan Yazıçılar İttifaqının rəhbərlərini iyunun əvvəllərində Əli Nəzminin istintaqından çatan bu xəbər də sevindirmişdir ki, «SSRİ EA Azərbaycan filialında Ruhulla Axundovun rəhbərlik etdiyi əksinqilabi millətçi qrupa Vəli Xuluflu, Hənəfi Zeynallı, Salman Mümtaz, Mikayıl Rəfili daxil idilər».

«Mən nə Sanılıyam, nə də Cavadam, onlara düşmənəm, onlara yadam» düşünənlər qəti əmin oldular ki, Mikayıl Rəfili də pantürkist kimi həbs ediləcəkdir. Üstəlik, onun cəzası daha ağır olacaqdır. Çünki atası Gəncə üsyanının təşkilatçılarındandır.

1937-ci il iyun ayının 9-da Mikayıl Rəfilinin ölümünə fərman verən qələm «dostları» bir qərar da çıxardılar. Bu qərar onların özləri barədə idi. Belə adlanırdı: «1937-ci ildə Ədəbiyyat Fondunun hesabına yazıçıların bağ evlərinə göndərilməsi barədə». İdarə Heyətinin üzvləri olan Səməd Vurğun, Məmməd Səid Ordubadi və Seyfulla Şamilov üçün Kislovodsk və Jeleznovodsk şəhərlərində 2-3 aylığa 2-3 otaqlı istirahət mənzilləri alınmışdı. Qərarı «partorq» Kamski imzalamışdı.

...Qələm «dostları» Kislovodsk və Jeleznovodskda dincələrkən Mikayıl Rəfili Bakıda özünə yer tapmırdı. Yenə ürəyindəkiləri şeir misralarına çevirirdi, cib dəftərçəsinə yazırdı:

Toxta, varsa qəlbində yeni günə inam,
Ümid sonsuz və iftira qısırdır, inan!

...Bir gecə də fikrindən nə keçdisə, şeir əvəzinə məktub yazdı. 1937-ci il noyabrın 11-də Mikayıl Rəfilinin öz dəst-xətti ilə yazdığı bu məktub Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivinin 1 saylı fondunda saxlanılmaqdadır.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Mir Cəfər Bağırova ünvanlanmış bu məktubda deyilir:

«Yoldaş Bağırov, özümdə cəsarət tapıb Sizi bir daha narahat edirəm. Mən ölkəmizin sədaqətli, əməksevər adamlara ehtiyacı olduğunu bilirəm. Mən gördüyüm işi, yaradıcılıq fəaliyyətini hədsiz dərəcədə sevirəm. Azərbaycan ədəbiyyatının tarixini, Azərbaycan tarixini yaza bilərəm. Dərs deməyi, öyrətməyi, düşünməyi bacarıram, bütün varlığımla Sovet ölkəsinə və partiyaya xidmət etməyə hazıram. Ancaq gündəlik həyatımızdan kənarda qalmışam. Yalnız o səbəbə ki, bir il bundan əvvəl kitab «ithaf» etməklə günaha yol vermişəm. Yalnız o səbəbə ki, Levon Arustamov mənə riyakarcasına böhtan atmış, S.Şamilov və Səməd Vurğun da bundan istifadə etmişlər. Mənim bu çirkaba düşməyimdə Zifeld, Zakirov, Vəlibəyov, Maqsud Məmmədov da az «zəhmət» çəkməmişlər.

Mən onların adlarını çəkmək istəməzdim. Əlbəttə, məsələ bunda deyildir. Mənim müəyyən biliyim, qabiliyyətim var. Mənim bir sıra əsərlərim Leninqradda və Moskvada müsbət qiymətləndirilmişdir. Mən filologiya elmləri namizədiyəm. Əgər bu bədbəxt hadisə baş verməsəydi, 1938-ci ildə elmlər doktoru alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə edə bilərdim. Məgər bu təkcə mənim iftixarım olacaqdı? Axı, məni Sovet ölkəsi boya-başa çatdırmış və mənə tərbiyə vermişdir. Mən təhsilim üçün, yüksəlişim üçün, həyatım üçün ona minnətdaram.

Başa düşürəm ki, mənim məsələmin tezliklə həll edilməsi o qədər də asan deyildir. Mənə qayğıkeş münasibəti anlayır və qiymətləndirirəm. Mənə tərcümə vermişlər, ədəbiyyat dərslikləri yazmağa cəlb etmişlər. Lakin mən yazıçıyam, elmi

işçiyəm. Qabiliyyətim daxilində ölkəmin xeyrinə yorulmadan fədakarlıqla işləmək, yazmaq, zəhmət çəkmək istəyirəm. Lakin məni bu daimi, faydalı işdən neçə aydır ki, məhrum etmişlər.

Mən bir daha Sizə, MK-ya müraciət edirəm. Xahişim budur ki, mənim biliyimdən və qabiliyyətimdən istifadə edəsiniz. Mən susa bilmərəm, əminəm ki, elm üçün faydalı ola bilərəm.

Sizə hörmət bəsləyən M.Rəfili.

11.XI.37. Bakı».

İki gündən sonra - 1937-ci il noyabrın 13-də Azərbaycan Sovet Yazıçılar İttifaqının yeni seçilmiş sədri Əli Məmmədovun adına Mir Cəfər Bağırovun imzası ilə bu məzmunda məktub daxil olur: «Sizdən xahiş edirəm ki, M.Rəfilinin ərizəsinə baxasınız və beş gün müddətində cavab verəsiniz».

Yazıçılar İttifaqı İdarə Heyətinin sədri Əli Məmmədovun «beş gün» əvəzinə on gündən sonra, 1937-ci il noyabrın 23-də cavab məktubu göndərilir. Məktubda oxuyuruq: «Azərbaycan K(b)P MK katibi M.C.Bağırov yoldaşa

Sizin bu il 13 noyabr tarixli 1355 nömrəli tapşırığınıza cavab olaraq bunları bildirirəm:

1937-ci ilin aprelində Azərbaycan Sovet Yazıçılarının ümumi yığıncağının qərarı ilə Mikayıl Rəfili Yazıçılar İttifaqı sıralarından xaric edilmişdir, bundan sonra onun ittifaqla əlaqəsi faktiki olaraq kəsilmişdir.

M.Rəfili ittifaq üzvlüyündən aşağıdakı səbəblərə görə xaric edilmişdir:

Rəfili qeyri-qanuni yol ilə fəhlə Medvedevə məxsus olan mənzilə order almış, Medvedev mənzilini boşaltmadığı halda, Rəfili qalmaqal salmış, zorla oraya köçmək istəmişdir. Ədəbi ictimaiyyət M.Rəfilinin davranışını anti-sovet hərəkət kimi qiymətləndirmişdir. Onun məsələsi müzakirə olunarkən, bu da müəyyən edilmişdir ki, Mikayıl Rəfili hələ 1928-ci ildə «Azərnəşr» işçisi Məcnunbəyovu döymüşdür.

Bunları nəzərə alaraq, ümumi yığıncağın qərarı ilə ictimaiyyətə zidd və antisovet hərəkətlərinə görə M.Rəfili Yazıçılar İttifaqı sıralarından xaric olunmuşdur.

Məktuba əlavə olaraq Azərbaycan K(b)P MK katibi M.C.Bağırovun adına Mikayıl Rəfilini «ifşa edən» geniş arayış da göndərilmişdir. Arayış bu cümlələrlə başlayır: «Mikayıl Rəfili yoldaş məşhur mülkədar, 1920-ci ildə müsavatçıların əksinqilabi Gəncə üsyanının başçılarından biri Hacı Həsən Rəfiyevin oğludur».

...Mir Cəfər Bağırov Yazıçılar İttifaqından göndərilmiş bütün məlumatlarla tanış oldu, təkcə atası barəsində olan faktdan başqa yazılanların cəfəngiyyat olduğunu yəqin etdi. Mikayıl Rəfili haqqında SSRİ Yazıçılar İttifaqına və «Literaturnaya qazeta»ya material göndərilməsi onu hövsələdən çıxardı. Yazıçılar İttifaqının sədri Əli Məmmədovu axşamdan xeyli keçmiş yanına çağırdı və ondan tələb etdi ki, üç gün ərzində mərkəzə göndərilən materiallar geri alınsın. Mikayıl Rəfili Yazıçılar İttifaqının üzvlüyünə bərpa edilsin və əvvəlki iş yerlərinə qaytarılsın.

...Ertəsi günü Mir Cəfər Bağırov iş otağında «1920-ci ildə müsavatçıların əksinqilabi Gəncə üsyanının başçılarından biri Hacı Həsən Rəfiyevin oğlu» Mikayıl Rəfilini qəbul etdi.

Respublika rəhbərindən səmimiyyət görən Mikayıl Rəfili ürəkləndi, masanın üstünə göz qoydu və sol tərəfdə qovluğun yanında dəst-xətti ilə yazdığı ərizəni gördü. Ancaq söhbət başqa yerdən başladı. Mir Cəfər Bağırov soruşdu:

Köçərlinski, yoxsa Köçərli? Hansı düzdür? Köçərli, yoldaş Bağırov!

Yaxşı, bu Köçərlinin zərərli cəhətləri nədən ibarətdir?

Bunları Yazıçılar İttifaqının katibi deyir, yoldaş Bağırov, məncə, Firudin bəy Köçərli Azərbaycan ədəbiyyatında nəhəng şəxsiyyətdir.

İyirminci ildə mən Qarabağda daşnaklarla vuruşurdum, Gəncədə isə ermənilər Köçərlini öldürdülər, -deyə nəzərlərini düz M.Rəfilinin gözlərinə dikdi,- sənin atanı da yaxşı tanıyırdım. Onun siyasətlə əlaqəsi olmamışdır. Azərbaycanda, sözün müsbət mənasında deyirəm, pambıq bəylərindəndir. Onun pambıqçılıqdan götürdüyü gəlir, indi Qasım İsmayılov rayonunun bütün kolxozlarının əldə etdiyindən çox olmuşdur. Camaata çörək vermişdir. Bir də biz bütün ziyalılarımızı «babası, atası müsavatçıdır», - deyə aradan götürsək, Azərbaycanda azərbaycanlı qalmaz. Şəxsən sənin ərizənə gəlincə, başını aşağı sal, elminlə məşğul ol. Bir də Kommunist Partiyası sıralarına keçmək barədə düşün. Mənə bir sözün yoxdur ki?

Mikayıl Rəfilinin gözlərinə işıq gəlmişdi, par-par alışıb-yanırdı.

Çox sağ olun, yoldaş Bağırov. Söz verirəm ki, etimadınızı ləyaqətlə doğruldacağam!

Mir Cəfər Bağırov ayağa qalxdı, masanın arxasından əlini Rəfiliyə uzatdı:

İşində möhkəm ol! Hə, bir də Medvedevlə daha işin olmasın, alim adına layiq sənə başqa mənzilin orderi veriləcəkdir.

...O gün Mikayıl Rəfili ürəyindəkiləri yenə misralara çevirib cib dəftərinə yazdı:

«Mənim də qəlbimin axmamış qanı var,
Yaşamaq istəyən bir həyəcanı var».

***

...Bəli, tam qətiyyətlə demək olar ki, özünün özünə «bədbəxt adam», bəzi qələm dostlarının isə «dvoryan balası» dediyi parlaq zəka sahibini Mir Cəfər Bağırov 1937-ci ilin girdabından qoruyub saxlamışdır.

Fitri istedada malik Mikayıl Rəfili səmərəli əməyi ilə respublika rəhbərinin bu xilaskarlığına cavab vermişdir. O, uzun illər Azərbaycan Pedaqoji İnstitutu Azərbaycan ədəbiyyatı kafedrasının müdiri olmuşdur. «Dvoryan balası» «Şərəf Nişanı» ordeni ilə təltif olunmuşdur.

Təəssüflər olsun ki, əllinci illərdə, Mirzə İbrahimovun təbirincə desək, «sözü açıq, çox vaxt kəskin deyən» alimə qarşı haqsız hücumlara yenidən rəvac verilmişdir. Qələm dostu Əvəz Sadığın baş redaktor olduğu «Kirpi» jurnalında eybəcər karikaturasını görəndə çox sarsılmışdır.

Bütün bu olmazın əzab və əziyyətlər mərdanə və şahanə elm fədaisini erkən, əlli üç yaşında aramızdan apardı. 1958-ci ilin aprel ayının 25-i Mikayıl Rəfilinin doğmalarının matəmi, düşmənlərinin «1 May nümayişi» oldu...

Görkəmli tənqidçi və ədəbiyyatşünas N.Ələkbərlinin 1998-ci ildə «Qartal» nəşriyyatı tərəfindən buraxılmış «Mikayıl Rəfili» kitabında oxuyuruq: «Professor Rəfilinin dəfni 50-ci illərdə ən izdihamlı dəfnlərdən biri idi. Onun cənazəsi uzun müddət dərs dediyi institutun akt zalından çıxarılaraq qəbristana tərəf yönəldi. Onun çoxlu həmkarları, dostları və tanışları, çoxsaylı tələbələri bu mərasimdə iştirak edirdilər.

Mərasim olduqca təbii olaraq Fəxri Xiyabanın önündə dayandı. Hamı elə bilirdi ki, onu burada dəfn edəcəklər. Lakin belə olmadı. Yuxarıdan gələn göstəriş öz işini gördü. Böyük izdiham Botanika bağının qarşısında yerləşən qəbristanlığa tərəf yönəldi...»

Mir Cəfər Bağırov iş başında olsaydı, Azərbaycanda filologiya sahəsində ilk elmlər doktorunun tabutu başında durardı, qəm karvanına sarbanlıq edərdi və bu karvan Fəxri Xiyaban qarşısından yan ötüb keçməzdi.

Mir Cəfər Bağırovdan sonra Azərbaycanın «leninçi-xruşşovçu-brejnevçi» rəhbərlərinin gözündə Şərq və Qərb ədəbiyyatının nadir bilicilərindən biri olan Mikayıl Rəfili və onun yaxın qohumları «mülkədar Hacı Həsən Rəfibəyovun dvoryan balasına» çevrildi. Mikayıl Rəfilinin əmisi qızı, əməkdar elm xadimi, Azərbaycanın ilk energetika üzrə qadın alimi Səmayə Rəfili haqqında bioqrafik məlumat Azərbaycan Sovet Ensiklopediyasına salınmadı.

1984-cü ildə ASE-də işləyənlərin bir çoxunun narazılığına baxmayaraq, Mikayıl Rəfili haqqındakı məqalədən şəkli çıxarıldı. 1937-ci ilin əvvəllərində Yazıçılar İttifaqında Mikayıl Rəfilinin məhkəməsini qurmuş, həmin ilin sonlarında «müttəhim»in Mir Cəfər Bağırov tərəfindən müdafiə edildiyini gördükdə... o dünyalıq olmuş böhtançı Levon Arustamovun sifəti ensiklopediya səhifəsində canlandırıldı. Xalqımızın seçmə ziyalılarının qəsdinə durmuş bu daşnak barəsindəki ensiklopediya məqaləsində deyilir ki, Levon Ağasiyeviç Arustamov Ermənistandan Bakıya köçmüş, 1902-ci ildən inqilabi hərəkata qoşulmuş, 1917-ci ildə Bakı Sovetinə üzv seçilmiş, Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi uğrunda mübarizə aparmışdır. Başqa sözlə, Mikayıl Rəfilinin atası Hacı Həsən kimi «Müsavat mülkədarları»na qarşı olduğuna görə... ASE-yə düşmüşdür.

Mir Cəfər Bağırov iş başında olsaydı, Arustamovları Rəfililərdən üstün tutanlara elə dərs verərdi ki...

1995-ci ilin aprelində Mikayıl Rəfilinin anadan olmasının 90 illiyi tamam oldu. Geniş qeyd olunmadı. Yubiley ilində alimin yaşayıb-yaratdığı binanın (Ə.Əlizadə, keçmiş Fioletov küçəsi, 6) girəcəyində xatirə lövhəsi görünmədi. Başçılarımızın başı öz yubileylərinə qarışmışdı. Əsrimizin yalnız yetmişinci illəri ilə qürrələnənlər Respublika Sarayına toplaşaraq, özləri özlərinə əl çaldılar...

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində (Fond 1, siyahi 86, iş 107) Sovet üsul-idarəsinin mahiyyətindən doğan şəxsiyyətə mədhiyyəçiliyin canlı səhifələri saxlanılır. Burada Mir Cəfər Bağırov istisna olmaqla, partiya və Sovet rəhbərləri barədə nağıl və dastanlar toplanmışdır. Lenin, Kirov, Stalin haqqında nağılları Azərbaycanın ağsaqqal və ağbirçəkləri danışmış və bunları Sürəyya Bəylərbəyova rus dilinə tərcümə etmişdir. Bakı şəhərində yaşamış altmış yaşlı savadsız qadın Nisə Rza qızının söylədiyi «Stalin haqqında nağılın qısa məzmununa diqqət yetirin: «Biri vardı, biri yoxdu. Tbilisi şəhərində İosif adında bir yetim uşaq vardı. Onun anasından başqa heç kəsi yox idi. Uşağın elmə böyük həvəsi vardı. İosif bütün yoxsulları sevirdi. Günlərin bir günü İosif Bakıya gəlir. Kinli-qəzəbli, qaniçən Bakı qubernatoru ilə görüşür. İosifə məlum olur ki, qubernator Xanları öldürmək istəyir. İosif dərhal Xanlargilə gedir. Onu götürüb birlikdə Peterburqa gedirlər... Nikolay padşahı öldürmək istəyirlər. İosif Xanlara deyir ki, Nikolay padşahı mən özüm öldürəcəyəm, sən qayıt Bakıya, «kinli-qəzəbli, qaniçən» Bakı qubernatorunu öldür... Belə də olur».

Əfsuslar olsun ki, 1937-ci ildə altmış yaşlı savadsız Nisə Rza qızının nağılına bənzər birisini də «Hürriyyət» qəzetinin 1999-cu il 18-20 sentyabr tarixli sayında Marina Səttarbəyli müasirlərinə çatdırmışdır. Dahi bəstəkarımız Üzeyirbəy Hacıbəyovun anadan olduğu gün - 18 sentyabr münasibətilə uydurulmuş nağılda... Mir Cəfər Bağırovun «cəllad» obrazı boylanır. Marina xanım yazır: «O vaxt Bağırov Üzeyirbəyi və Səməd Vurğunu həbs etmək istəyirdi. Lakin Stalin xəbər göndərmişdi ki, Üzeyirbəy öz əsərləri ilə Moskvada keçirilən dekadada iştirak etsin. Stalin Bakıda olduğu vaxtda «Bəri bax» mahnısını eşidib çox bəyənmişdi. Üzeyirbəy «Koroğlu», «Arşın mal alan» əsərləri, bir də «Bəri bax» mahnısı ilə Moskvaya yola düşür».

Göründüyü kimi, Mir Cəfər Bağırovun yalançı şahidlərinin «nağıl yaradıcılığı» da varmış... Bəs əsrimizin sonlarında «37-ci il» nağıllarının mətbuat səhifələrinə gətirilməsinin səbəbkarı kimdir? Ramazan Həmzət oğlu Xəlilov. O, 1975-ci ildən ömrünün sonunadək Üzeyirbəy Hacıbəyovun Dövlət xatirə ev-muzeyinin müdiri işləmişdir. «Xalq qəzeti»nin 1999-cu il 18 fevral tarixli sayında oxuyuruq: «1995-ci ildə Ramazan Xəlilov Azərbaycan mədəniyyətinin, xüsusən Üzeyirbəy Hacıbəyovun irsinin qorunmasında və təbliğində göstərdiyi yorulmaz fəaliyyətə görə, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin fərmanı ilə «Şöhrət» ordeninə layiq görülmüşdü. Həmin mükafat təntənəli surətdə prezident tərəfindən Ramazan bəyə təqdim olunmuşdu».

Təəccüblüdür ki, Ramazan Xəlilov bu təntənəli təqdimatdan doğru nəticə çıxartmaq əvəzinə 1995-ci ilədək yazdıqlarına daban-dabana zidd olan müsahibələrini çap etdirdi. Əvvəllər Mir Cəfər Bağırov haqqında yalnız müsbət mənada danışan ağsaqqal birdən-birə yüz səksən dərəcə dəyişərək yalançı şahidlərə nağıl mövzusu verdi. «Hürriyyət» qəzetinin 1998-ci il 26 noyabr tarixli sayında «Üzeyir Hacıbəyovu Osipyan öldürdü» sərlövhəli yazıda Ramazan Xəlilovun dedikləri

oxuculara çatdırıldı: «Onu (Ü.Hacıbəyovu - T.Q.) «leçkomissiya»da yerləşdirdilər və terapiya şöbəsinin müdiri Osipyanı həkim təyin etdilər. Osipyan ona insulin preparatı və çox ciddi pəhriz müəyyənləşdirdi: çörək, düyü, kartof, ümumiyyətlə, heç nə yemək olmaz. Üzeyirbəy bir ayda 18 kiloqram arıqladı... Mənim tibbdən bir az başım çıxırdı və Osipyana dedim ki, əgər şəkər xəstəliyinə tutulanlara insulin vurulursa, o, pəhriz saxlamaya da bilər. O isə cavab verdi ki, biz eksperiment aparırıq. Nəticədə bu qədər çəkisini itirən Üzeyirbəyin ürək əzələləri zəiflədi. Həmin səbəbdən onun kəskin ürək tutmaları olurdu.

Onu Yessentukiyə apardıq. Orada hökumət sanatoriyalarının həkimləri Üzeyirbəyin səhv müalicə edildiyini bildirdilər. Onun xəstəliyindən xəbər tutan Stalin Bağırova xəbər göndərdi ki, bəstəkarı bura gətirin, Kreml xəstəxanasında müalicə etdirərik».

1998 və 1999-cu illərin yalançı şahidləri Ramazan Xəlilovun açıqlamasını belə yozdular: Üzeyirbəy Hacıbəyovun dostu Stalin, düşməni Bağırovdur. 1937-ci ildə bəstəkarı həbs edə bilməyən Bağırov 1948-ci ildə onu Osipyanın əli ilə öldürtmək istəyirmiş... Sonra da Marina xanımlar qələmə sarıldılar, Mir Cəfər Bağırovun 1956-cı il məhkəmə materiallarına nağıllar əlavə etdilər...

Nə yaxşı ki, yaşa dolduqca sözünün sahibi olan doğruçu şahidlər varmış!

Doğruçu şahid, əsrimizin canlı tarixi, «Şöhrət» ordensiz, prezident fərmanı ilə «xalq yazıçısı» adı almamış Manaf Süleymanov «Son bahara çatdıq» kitabında Mir Cəfər Bağırov və Üzeyirbəy Hacıbəyov arasındakı münasibətlər barədə yazır: «Mir Cəfər Bağırov Üzeyirbəyin sənətinə və şəxsiyyətinə böyük ehtiramla yanaşırdı. 60 illiyi münasibətilə təltif edildi, təntənəli yubiley keçirildi. «Arşın mal alan» operettası əsasında film çəkildi.

Ermənilər iki dəfə «Arşın mal alan»ı oğurlayıb yiyələnməyə cəhd ediblər. Birinci dəfə Oktyabr inqilabından əvvəl, ikinci dəfə 1940-cı illərdə. İlk dəfə əsəri Tiflisdə erməni dilinə tərcümə edib qəhrəmanların adlarını erməniləşdiriblər. Əsgər olub Karapet, Gülçöhrə Knarik və s. Azərbaycanlılar əhvalatı məktubla Üzeyirbəyə xəbər veriblər. O da Tiflisə gedərək müəllif hüququnu bərpa edib. İkinci dəfə, Sovet Ordusu İrana daxil olanda bizim adamlar görürlər ki, bir nəfər erməni «Arşın mal alan» filmini çəkib, ekranlarda nümayiş etdirir. Özünü də müllif elan edib. Məsələni Üzeyirbəyə xəbər verirlər. O da xarici işlər naziri Molotova müraciət edir.

Molotov cavab verir ki, Sovet İttifaqı Dünya Kino Konvensiyasının üzvü deyil, ona görə biz bir kömək edə bilmərik.

Üzeyirbəy bərk dilxor olur. Mir Cəfər Bəğırov Stalinin yanında olanda əhvalatı ona danışır və xahiş edir ki, kömək eləsin. Stalin deyir: «Yeganə kömək o olar ki, özünüz «Arşın mal alan» filmini yüksək səviyyədə çəkib dünyaya nümayiş etdirəsiniz».

Bu məsləhət əsasında film çəkildi».

Stalin ilə Üzeyirbəy arasında səmimiyyət körpüsünü yaradan kim idi? Mir Cəfər Bağırov. Öz ad gününü bayram etməyən Azərbaycan rəhbəri sevimli

bəstəkarın təvəllüdünü unutmurdu. Doğruçu şahid, akademik İmam Mustafayev öz xatirələrində bu barədə belə yazır: «1945-ci il sentyabrın 18-də bir dəstə məsul işçi Bağırovun yanında, Zuğulbadakı dövlət bağında idik. Saat 4-5 olardı. Birdən Bağırov dedi ki, bu gün Üzeyirbəyin anadan olan günüdür, özü də xəstədir, bağındadır. Gedək, onu təbrik eləyək. Tez yaxşı bir gül dəstəsi düzəltdik. Bağdakı cürbəcür meyvələrdən bir səbətə doldurduq, iki maşında Mərdəkana yola düşdük. Darvazanın qabağında maşını saxlayıb həyətə girdik. Üzeyirbəyin arvadı Məleykə xanım verandada idi. Bizi görəndə ərini səslədi: «Üzeyir, qonaqlar gəlib».

Üzeyirbəy həyətə çıxdı, əynində xalat vardı; kişini görəndə istədi geri qayıdıb paltarını dəyişsin. Bağırov qoymadı, cəld yaxınlaşdı. Dedi ki, səni ad günün münasibətilə təbrik etməyə gəlmişik.

...Bir qədər söhbət etdik, adama bir stəkan çay içib salamatlaşdıq».

Sonralar Üzeyirbəy Hacıbəyov Mir Cəfər Bağırova yazdığı məktubunda Mərdəkan görüşünü yada salırdı. Məktubda deyilirdi: «Əziz, çox möhtərəm Mir Cəfər!

Sizinlə Mərdəkanda məni son dərəcə həyəcanlandıran görüşün unudulmaz təəssüratı altında mənə daimi, ürəkdən gələn diqqətiniz üçün Sizə hədsiz təşəkkürümü ifadə etməyə söz tapmıram. Moskva ətrafında və burada müalicəm zamanı Sizin mənə göstərdiyiniz səmimi qayğını hiss edirdim.

...Sizə sadiq olan Üzeyir Hacıbəyov».

Bir-birinə sadiq olan iki böyük şəxsiyyət üçün 1937-ci il sınaq məqamı oldu. Xalqımızın düşmənləri elə təsəvvür edirdilər ki, Azərbaycan Xalq Cümhuriyyətinin himnini yazan, doğma qardaşı Fransada yaşayan bəstəkarı qoruyub-saxlamaq Mir Cəfər Bağırova müyəssər olmayacaqdır. Mir Cəfər Bağırova Üzeyirbəydən altı yaş kiçik olan Ceyhunbəy Hacıbəylinin də həyatı və ictimai fəaliyyəti yaxşı tanış idi. Bilirdi ki, Ceyhunbəy böyük qardaşı ilə birlikdə 1908-ci ildə Əlibəy Hüseynzadənin müdir olduğu «Səadət» məktəbində müəllim işləmişdi. O, Bakı milyonçusu Murtuza Muxtarovun vasitəsi ilə Peterburq Universitetinin hüquq fakültəsinə daxil olmuşdu. Sonra Fransaya getmiş, Sarbonna Universitetində təhsilini başa vurmuşdu. 1916-cı ildə Ceyhunbəy Bakıya qayıtmış və «Kaspi» qəzetində məqalələri ilə tez-tez çıxış etmişdir. 1917-ci ildə «İttihad» və «Müsəlmanlıq» qəzetlərinin redaktoru olmuşdur. 1918-ci ildə «Azərbaycan» qəzetinin redaktorlarından biri olmuşdur. 1919-cu ilin dekabrında Versal sülh konfransında iştirak etmək üçün Parisə getmişdir. Həmin il Parisdə onun fransız dilində «İlk müsəlman respublikası Azərbaycan» kitabı çapdan çıxmışdır. Azərbaycan sovetləşəndən sonra Ceyhunbəy Vətənə qayıtmamışdır. Kiçik qardaşın 1919-cu ildə Parisdə «İlk müsəlman respublikası Azərbaycan» kitabı nəşr olunanda böyük qardaşın musiqi dünyasından bu cümhuriyyətin «Koroğlu» uvertürası boylanırdı. 1921-ci ildə Bakıda Üzeyirbəy Hacıbəyovun «Arşın mal alan» operettası müvəffəqiyyətlə göstəriləndə Parisdə Ceyhunbəy Hacıbəylinin tərcüməsində bu əsər fransız dilində səhnədə nümayiş

etdirilirdi. Fransada Ceyhunbəy Cəfər Cabbarlıdan, Hüseyn Caviddən yazırdı, Azərbaycanda Üzeyirbəy Cəfər Cabbarlı, Hüseyn Cavid ilə əqidədaş və həmfikir idi.

Mir Cəfər Bağırov yaxşı dərk edirdi ki, iki doğma qardaşı bir-birindən ayırmaq mümkün olmadığı kimi, Üzeyirbəyi də Azərbaycandan və onun rəhbərlərindən uzaqlaşdırmaq qeyri-mümkündür. Üzeyirbəyi Kremlin daşnak pəncəsindən necə almağı isə M.C.Bağırov əvvəlcədən planlaşdırmışdı.

1934-cü ildə Üzeyirbəy Hacıbəyov Azərbaycan Dövlət Konservatoriyasının Azərbaycan musiqisi kafedrasının müdiri vəzifəsində çalışırdı. «Koroğlu» operası üzərində işləyirdi. Həmin ildən başlayaraq ta 1948-ci ilədək Mir Cəfər Bağırovun iştirakı ilə keçirilmiş büro iclaslarında respublikada keçiriləcək mühüm tədbirlərin təşkilinə kömək məqsədilə yaradılan elə bir komissiya olmamışdır ki, tərkibində Üzeyirbəy Hacıbəyovun adı olmasın. 1936-cı ildə Üzeyirbəy Hacıbəyova «Əməkdar incəsənət xadimi» adı verilmişdi. 1937-ci ildə Üzeyirbəy Hacıbəyov Mir Cəfər Bağırovun yanında keçirilən müşavirələrdə Azərbaycan Bəstəkarlar İttifaqının sədri kimi iştirak edirdi.

1937-ci ilin sentyabrında böyük bəstəkara «Azərbaycanın xalq artisti» adı verilmişdi. Həmin ilin noyabrında Ü.Hacıbəyov SSRİ Ali Sovetinə deputatlığa namizəd göstərilmiş və dekabrda deputat seçilmişdi.

«Hürriyyət» qəzetində Marina Səttarbəylinin «nağılı»nda göstərilir ki, Üzeyirbəy «Moskvada keçirilən dekadadan» sonra Ali Sovetin deputatı seçilmişdi. Nağılçı bilmir ki, SSRİ Ali Sovetinə seçkilər 1937-ci ildə, dekada isə 1938-ci ildə keçirilmişdi. Mir Cəfər Bağırov sevimli bəstəkarı SSRİ Ali Sovetinin deputatı «etdikdən» sonra Moskvaya göndərmişdi.

Dekadaya hazırlıq da «nağıl»dakı kimi olmamışdır. Azərbaycan ziyalılarının, ilk növbədə Üzeyirbəy Hacıbəyovun taleyində tarixi rol oynamış bu böyük hadisə Mir Cəfər Bağırovun bilavasitə rəhbərliyi ilə həyata keçmişdir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Azərbaycan K(b)P Mərkəzi Komitəsinin qərarı ilə dekadaya hazırlıq üzrə hökumət komissiyasının təsdiq edilmiş sənədləri saxlanılır. 7 nəfərdən ibarət, yüksək vəzifəli məsul işçilərdən təşkil olunmuş komissiyanın tərkibində Üzeyirbəy Hacıbəyov da vardı.

1938-ci il aprelin 5-də Moskvada Azərbaycan incəsənəti dekadası «Koroğlu» operası ilə başlandı...

***

1937-ci ilin Azərbaycan mətbuatının baş qəhrəmanı Üzeyirbəy Hacıbəyov və onun «Koroğlu»su idi. «Kommunist» qəzetinin 1937-ci il 12 fevral tarixli sayında Üzeyirbəy Hacıbəyov yazırdı: «Bu yaxınlarda «Koroğlu» operasına baxış mənə çox fayda verdi. Azərbaycanın musiqi xadimləri, xüsusilə Azərbaycan bolşeviklərinin rəhbəri M.C.Bağırov yoldaş və Azərbaycan hökumətinin başçısı Hüseyn Rəhmanov yoldaş mənə çox qiymətli və konkret göstərişlər verdilər».

1937-ci il aprelin 30-da M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında «Koroğlu» operasının ilk tamaşası əlamətdar bir hadisə oldu. Tamaşaçılar arasında Üzeyirbəyin yaxın dostu Hüseyn Cavid də vardı. O öz təəssüratını belə ifadə edirdi: ««Koroğlu» operasında Azərbaycanın valehedici musiqi folkloru tamamlandırılmış Avropa musiqi texnikası ilə uzlaşdırılmışdır. İlk dəfə orkestroya daxil edilən tar gözəl səs yaratmışdır». 1937-ci ildə orkestrə tarın daxil edilməsi qeyri-adi hünər idi. Tamaşa zalında Mikayıl Müşfiqin «Oxu, tar, səni kim unudar?» misrası pıçıltı ilə gəzirdi. «Koroğlu»nun göz yaşları gizlicə axırdı - ilk tamaşa Hüseyn Cavidin, Əhməd Cavadın, Seyid Hüseynin, Ümmügülsümün, Salman Mümtazın, Hənəfi Zeynallının və başqalarının son görüş yeri oldu. «Koroğlu» həm də 37-ci il qurbanlarının haray səsi idi.

Bir ildən sonra Moskva səhnəsində «Koroğlu»ya tamaşa edən Stalinə və onun silahdaşlarına elə gəlirdi ki, əsərin baş qəhrəmanı trotskiçilər və müsavatçılar üzərində qələbə çalır. Əslində isə Koroğlu - Azərbaycan xalqının istiqlaliyyəti uğrunda mübarizədən dönməyənlərin obrazı idi.

Moskva səhnəsindəki Keçəl Həmzə də «37»-nin mikoyanları idi. Operanın uvertürasının ürəkləri yerindən tərpədən sədaları Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından doğan coşğunluğun ifadəsi idi, Məhəmməd Əmin Rəsulzadənin «Bir kərə yüksələn bayraq bir daha enməz!» kəlamının musiqi mətni idi. Bunu ancaq və ancaq müəllifin özü - Üzeyirbəy bilirdi. Lakin nə etməli, Kommunist Partiyası sıralarına keçmək üçün ərizə yazmalı idi, Mir Cəfər Bağırovun təkid ilə etdiyi xahişi rədd edə bilməzdi...

Mir Cəfər Bağırov Üzeyirbəy üçün «Koroğlu» operasının baxışı zamanı daha əziz olmuşdu. Orkestrdə tar səslənəndə Üzeyirbəy nəzərlərini «Azərbaycan bolşeviklərinin rəhbəri»nə yönəltmiş, onun üzündə məmnunluq duymuşdu. Baxışdan sonra Mir Cəfər Bağırovun bəstəkara tövsiyələrindən biri də bu olmuşdu ki, gələcəkdə də simfonik əsərlər yazanda tar və kamançanı orkestrə daxil etsin.

1938-ci ildə Moskvada Azərbaycan incəsənəti dekadası zamanı Stalin-Bağırov-Hacıbəyov münasibətləri də yalançı şahidlərin uydurduğu kimi olmamışdır. «Mədəniyyət» qəzetinin 1995-ci il 11 avqust tarixli sayında dekadanın iştirakçısı, bəstəkar Hökumə Nəcəfova «Üzeyirbəy haqqında xatirələrim» məqaləsində həqiqəti yazır: «Dekada Kremldə yekunlaşdı. Stalin, Molotov, Voroşilov, Budyonnı qəbulda iştirak edirdilər. Həmin konsertin hökumət rəhbərlərini Bülbülün ölməz sənətilə heyrətə gətirdiyi bugünkü kimi yadımdadır.

Üzeyirbəyin göstərişi ilə Kreml konsertində tarda «Bayatı-Şiraz» muğamını ifa etdim. Buna görə «Şərəf Nişanı» ordeni ilə təltif olundum.

Stalin qəlbə girməyi, rəğbət qazanmağı bacaran idi. O, Mir Cəfər Bağırovu, Üzeyirbəyi, İncəsənət İşləri İdarəsinin rəisi Mirzə İbrahimovu, Opera və Balet Teatrının direktoru İsmayıl Hidayətzadəni, Bülbülü stolun baş tərəfində əyləşdirmişdi. Özü ayaq cərgədə qıraqda oturmuşdu. Ara-sıra gülümsünür, şadlığını bildirir, yerindən qalxıb Bağırovun yanına gedir, onun qulağına nəsə

pıçıldayırdı. Üzeyirbəylə Bülbülün əlini sıxdığına, sənətə səcdə etdiyinə görə, hamımız əfsunlanmışdıq».

1938-ci ildə Üzeyirbəyə SSRİ xalq artisti fəxri adı verildi, Lenin ordeni ilə təltif olundu. O, «M-1» markalı avtomaşın ilə mükafatlandırıldı.

***

Sovet hakimiyyəti illərində də xalqımızın qədim musiqi alətlərini, xalq mahnılarını, xalça növlərini öz adlarına çıxan ermənilər Azərbaycan bəstəkarı Üzeyirbəy Hacıbəyovun «Arşın mal alan» musiqili komediyasını da mənimsəmək iddiasına düşmüşdülər. 1936-cı ildə Amerikada yaşayan erməni kinorejissoru R.Mamulyan Azərbaycan bəstəkarının əsərini ekranlaşdırıb orijinal sənət nümunəsi kimi təqdim etmiş, «Arşın mal alan»ı «erməni operasının kraliçası» adlandırmışdı. Yəqin amerikalı daşnak elə zənn edirdi ki, «Müsavatın himnini yazmış» Ü.Hacıbəyov 1937-ci ildən adlaya bilməyəcəkdir.

Amerikalı R.Mamulyanın Bakıdakı havadarları da Üzeyirbəy Hacıbəyovu aradan götürmək üçün dəridən-qabıqdan çıxırdılar. Onlar böyük bəstəkarı Mir Cəfər Bağırovun müdafiə etdiyini yaxşı bilirdilər. Ona görə də Ü.Hacıbəyov barədə yazdıqları böhtan dolu məktubları Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinə deyil, «NKVD» orqanlarına ünvanlayırdılar. 1937-ci il noyabr ayının 5-də Azərbaycan Dövlət Konservatoriyası və Musiqi Məktəbinin partiya təşkilatçısı Kiranov Azərbaycan «NKVD»sinin rəhbəri Yuvelian Davidoviç Topuridze-Sumbatova göndərdiyi «məxfi» məktubunda yazırdı: «Bəstəkar Ü.Hacıbəyov əvvəllər Müsavat partiyasında olmuşdur və xarici ölkə səfirliyi ilə əlaqə saxladığına görə hazırda həbsdə olan, konservatoriyanın keçmiş tələbəsi Füruzə İbrahimova ilə yaxınlıq etmişdir...

Hacıbəyov «Müsavat» qəzetinin redaktoru olmuşdur, qardaşı Parisdədir...»

1937-ci il noyabr ayının 21-də M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının həmkarlar komitəsinin sədri Akopyan «NKVD»yə göndərdiyi məktubunun bir surətini də Bakı şəhər Soveti nəzdindəki Mərkəzi Seçki Komissiyasına çatdırmışdı.

Qarayaxan Akopyanın rəsmi məktubunda deyilir: «Məlumat üçün Sizə bildirirəm ki, Azərbaycan Dövlət Filarmoniyasında işləyən bəstəkar Üzeyir Hacıbəyov dövlət xorunun rəhbəri olduğu halda, eyni zamanda Azərbaycan Sovet Bəstəkarlar İttifaqına sədrlik edir.

Dövlət Filarmoniyasında bu xor iki ildir ki, fəaliyyət göstərir. Burada 20-dən çox adam vardır. Xor Moskvada keçiriləcək Azərbaycanın incəsənəti ongünlüyünə hazırlaşır. Ancaq kollektivin rəhbəri Hacıbəyov sovetcəsinə işləmir, digər təhsil ocaqlarından qovulmuş yad ünsürləri xora cəlb edir. Məsələn:

1. Əmiraslanova Qüdrət - iri neft sənayeçisinin qızıdır və onun qardaşı həbs edilmişdir.

2. Məmmədbəyli Sima - Sovet hakimiyyəti qurularkən xalq düşməni kimi güllələnmiş polkovnikin qızıdır.

Üzeyir Hacıbəyovun şəxsiyyəti mənim üçün müəmmalıdır. Çünki eşitmişəm ki, o, «Müsavat» qəzetinin redaktoru olmuşdur. Əməkdar incəsənət xadimi, dirijor İoanesyanın dediyinə görə, həmin qəzetin bir nüsxəsi xalq artisti Sarabskidədir.

Hacıbəyovun qardaşı Müsavat parlamentinin üzvü olmuşdur. Bolşeviklər Bakıya varid olanda Üzeyir Hacıbəyov İrana qaçmış və bir müddətdən sonra Bakıya qayıtmışdır. Onun qardaşı, hansı ki, Müsavat parlamentinin üzvü idi, Parisə qaçmış və Üzeyir Hacıbəyov yeddi il müddətində Parisə qardaşının adına pul göndərmişdir.

Bütün bunları, eləcə də onun Naxçıvan MSSR-dən Ali Sovetin Millətlər Sovetinə deputatlığa namizəd göstərildiyini, 1938-ci il fevral ayında Moskvada keçiriləcək Azərbaycan incəsənəti ongünlüyünə gedəcəyini, özüylə birlikdə sinfi həmfikirlərini aparacağını (o, partiya və komsomol təşkilatının mövqeyini nəzərə almadan onların çirkin əməllərini ört-basdır edir, onları irəli çəkir və sayını çoxaldır) nəzərə alaraq Sizdən xahiş edirəm ki, Üzeyir Hacıbəyovun tərcümeyi-halını hərtərəfli öyrənəsiniz və onun əsl simasını aşkara çıxarasınız».

Beş ay bundan qabaq, 1937-ci il may ayının 19-da əsl simasını gizlədən erməni «partorqlar»ı və yerli komitə sədrləri Bakıdan Moskvaya, SSRİ Xalq Daxili İşlər Komissarlığına imzasız məktub çatdırmışdılar. Məktubda deyilirdi: «1918-ci ildə Mir Cəfər Bağırov Əlibəy Zizikski ilə birlikdə Qubada erməni qırğını törətmişdir».

Göründüyü kimi, iki böyük dostun - Mir Cəfər Bağırovla Üzeyirbəy Hacıbəyovun yeganə düşməni ermənilər olmuşdur - Bakıda, Yerevanda, Tehranda, Moskvada, Parisdə, Nyu-Yorkda... daşnaklar bu iki əqidə dostuna qarşı mübarizə aparmışlar. Öz sədaqətli bəstəkar və mütəfəkkir dostu Üzeyirbəy Hacıbəyov uğrunda mübarizədə Mir Cəfər Bağırov 1937-ci ildə əslində təkcə Bakı ermənilərinə yox, «dünya ermənilərinə» və havadarlarına qalib gəlmişdir. «NKVD» məmurlarına məhəl qoymadan müzəffər yürüşünü davam etdirmişdir.

Mir Cəfər Bağırov Üzeyirbəy Hacıbəyovdan qərəzli məktub yazanların hamısının acığına 1938-ci il may ayının 11-də tarixi bir qərara qol çəkmişdir. Tanış olun:

«Azərbaycan K(b)P Mərkəzi Komitəsinin büro iclası, 11 may 1938-ci il. Hacıbəyov Üzeyir Əbdülhüseyn oğlu müstəsna olaraq namizədlik stajı keçmədən Kommunist Partiyası sıralarına qəbul edilsin.

Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi M.C.Bağırov».

...Böyük Vətən müharibəsi illərində Azərbaycanın oğul və qızlarını amansız düşmənlə döyüşə səsləyən Mir Cəfər Bağırov, döyüş marşını yazan Üzeyirbəy Hacıbəyov idi. İki vətənpərvər şəxsiyyət üçün Böyük Vətən müharibəsi həm də bütöv Azərbaycan müharibəsi idi. Sərkərdəsi general Mir Cəfər Bağırov olan azərbaycanlılardan ibarət qoşun hissələrində əsgər nəğməsinin müəllifi Üzeyirbəy idi.

İlk sayı 1941-ci il oktyabr ayının 11-də Təbrizdə çıxmış «Vətən yolunda» qəzetinin səhifələrində Ü.Hacıbəyovun «Koroğlu», «Leyli və Məcnun», «Arşın mal alan» tamaşaları barədə çoxlu yazılar vardır. Səhifələri o taylı-bu taylı Azərbaycanın böyük bəstəkarının fotoşəkli bəzəyir.

Arxiv materialları arasında oxucuların marağına səbəb olacaq digər sənədlər də vardır. 1944-cü ilə aid bir sənəddən bəlli olur ki, Üzeyirbəy Hacıbəyov «Dədə Qorqud» operası üzərində işləyirmiş. Librettosunu yazıçı Əli Cənnət oğlu Əsgərov yazmışdır. Azərbaycanın musiqi və ədəbiyyatında «Kitabi-Dədə Qorqud» motivləri əsasında ilk libretto müəllifi ilə Üzeyirbəy Hacıbəyov arasındakı əməkdaşlığın öz tarixçəsi vardır.

Oxuculara «Pozulmaz naxışlar» povestinin müəllifi kimi tanış olan Əli Əsgərov 1944-45-ci illərdə respublika xalq yaradıcılığı evində folklor şöbəsinin müdiri işləmişdir. Azərbaycan folklorunun incəliklərinə bələd olan gənc nasiri Üzeyirbəy hələ müharibədən qabaq tanıyırdı. O zamanlar Əli Əsgərov Azərbaycan Dövlət Kukla Teatrında bədii şöbənin müdiri idi. Arxivdəki sənəddən bu da məlum olur ki, Əli Əsgərov 1944-cü ildə həm də Azərbaycan Dövlət Konservatoriyasının əməkdaşı olmuşdur.

Əfsuslar olsun ki, çox az - qırx il ömür sürmüş Əli Əsgərovun həyatı və ədəbi fəaliyyəti öyrənilməmişdir, 1999-cu il sentyabrın 3-də anadan olmasının 85 illiyi tamam oldu. Xatırlanmadı, yada düşmədi.

1945-ci il may ayının 19-da Üzeyirbəy Hacıbəyov yenicə nəşr olunmuş «Azərbaycan xalq musiqisinin əsasları» kitabının ilk nüsxəsini əlinə aldı. Qələmi mürəkkəbə batırıb, kitabın birinci səhifəsinin yuxarısında bu sözləri yazdı: «Azərbaycan musiqi sənətini yüksək qiymətləndirən və onun tərəqqisi naminə bizə ilham verən əziz Mir Cəfər Bağırov yoldaşa uzun illər elmi-tədqiqat işimin bəhrəsi olan bu kiçik hədiyyəni təqdim edirəm».

Üzeyirbəy Mərkəzi Komitəyə zəng vurdu. Mir Cəfər Bağırov ilə telefon danışığı müxtəsər oldu:

Yoldaş Bağırov, yanınıza gəlmək istəyirəm. Xeyir ola, təcili bir məsələ var? Yoldaş Bağırov, «Azərbaycan xalq musiqisinin əsasları» kitabım çapdan çıxıb, Sizə təqdim etmək istəyirəm.

Təbrik edirəm, Üzeyirbəy... Gəlsənə axşam Zuğulbada görüşək. Sənə başqa sözüm də var. Oldu, yoldaş Bağırov, hələlik.

- Axşam görüşənədək, Üzeyirbəy. Üzeyirbəy müharibə qurtarandan ilk dəfə idi ki, Zuğulbadakı dövlət bağında Mir Cəfər Bağırovla eyvanda əyləşib söhbət edirdi.

Böyük Vətən müharibəsi mayın 9-da qələbə ilə başa çatsa da, Mir Cəfər Bağırov üçün bütöv Azərbaycan davası davam edirdi. O inanırdı ki, Güney və Quzey Azərbaycan torpaqları 1945-ci ilin payızında birləşəcək və gələcəkdə vahid Azərbaycanı ikiyə bölmək heç kəsə müyəssər olmayacaqdır.

Üzeyirbəy, sənin «Azərbaycan» himnin Təbrizdə də səslənəcəkdir!

**Üzeyirbəy çoxdandı ki, Mir Cəfər Bağırovu belə xoş ovqatda görməmişdi. Bu sevincin sirrini Mir Cəfər Bağırov özü açdı:**

**Üzeyirbəy, sən mənə zəng vurmamışdan beş dəqiqə qabaq Stalinin məxfi məktubunu mənə çatdırdılar. Bu məktub ancaq sənin üçün məxfi deyildir. Budur, bax, oxu, Stalin yoldaş mənim bütün təkliflərimlə razılaşıb, qərar layihəsi hazırlanmasına göstəriş vermişdir.**

**Üzeyirbəy Xalq Komissarları Sovetinin sədri İ.Stalin tərəfindən təsdiq olunmuş təklifləri gözdən keçirdi və gözlərinin işığı artdı. Məktubda Mir Cəfər Bağırovun yazdığı cümlələr eynən saxlanılmışdı: «Hər iki Azərbaycanda eyni xalq yaşayır - azərbaycanlılar. Onlar eyni tarixin və mədəniyyətin varisidir. Onların əxlaqı, məişəti, mənəviyyatı, dili, musiqisi və ədəbiyyatı eynidir».**

Məxfi məktubda 1945-ci il avqust ayının 1-dən gec olmayaraq Cənubi Azərbaycanda tikiləcək müəssisələrin smetasının tutulub SSRİ Maliyyə Komissarlığının təsdiqinə verilməsinə dair tapşırıq vardı. Bu müəssisələr arasında Mir Cəfər Bağırovun təklif etdiyi bütün obyektlər sadalanırdı: Bakı qənnadı fabrikinin filialı kimi Güney Azərbaycanda qənd zavodu, Bakı toxuculuq kombinatının filialı olaraq Təbrizdə toxuculuq-iplik fabriki, Şəki ipək kombinatının filialı olaraq Rəştdə ipək fabriki, Bakı ayaqqabı fabrikinin filialı olaraq Təbrizdə ayaqqabı fabriki...

Mir Cəfər Bağırov aprel ayının sonunda Kremldə Stalin ilə onun arasındakı söhbəti də Üzeyirbəyə çatdırdı:

«Stalin - Cənubi Azərbaycanda neft varmı?

M.C.Bağırov - Azərbaycan geoloqlarının kəşfiyyat işləri göstərir ki, İrandakından da çoxdur.

Stalin - Cənubi Azərbaycanın xalq təsərrüfatının idarə olunmasında nə kimi çətinlik yarana bilər?

M.C.Bağırov - Heç bir çətinlik olmayacaqdır. Ona görə ki, əvvələ, Pişəvəri hökumətinin güclü kadrları olacaqdır, ikincisi də, bizim peşəkar mütəxəssislərimiz onların köməyinə çatacaqlar.

Stalin - Bəs dini məsələlərdə?

M.C.Bağırov - Yoldaş Stalin, Zaqafqaziya Ruhani İdarəsinin rəisi Şeyxülislam Axund Ağa Əlizadə bütün İranın din xadimlərinə dərs deyə bilər».

Stalin - Yaxşı, əlifba problemi?

M.C.Bağırov - Yoldaş Stalin, əski əlifbanı Sovet Azərbaycanında ancaq məktəblilər bilmirlər. Hazırda Cənubi Azərbaycanda çalışan mütəxəssislərimiz yazışmaları ərəb əlifbasında aparırlar. Güney Azərbaycanda «Oqonyok» jurnalı qalınlığında əski əlifba ilə ana dilimizdə «Azərbaycan» jurnalı nəşr olunur. Hətta «Qızıl əsgər» qəzetini də əski əlifba ilə çıxarırıq.

Stalin - Yoldaş Bağırov, kifayətdir, deməli, Azərbaycanı birləşdirmək qərarına gəlirik. Ancaq Azərbaycanı məndən və səndən əvvəl biriəşdirən bir nəfər var, de görək, o necədir?

M.C.Bağırov-Yoldaş Stalin, bağışlayın...

Stalin - Kompozitor Hacıbəyovu soruşuram, öz musiqisi ilə Hacıbəyov nəinki Azərbaycanı, bütün Qafqazı birləşdirmişdir, ondan muğayat ol».

...Şam yeməyindən sonra Mir Cəfər Bağırovla Üzeyirbəy Hacıbəyov sahilə endilər, dəniz qırağında gəzinə-gəzinə söhbəti davam etdirdilər. Üzeyirbəy Azərbaycan rəhbərinin söhbətindən həyəcana gəldi. Şirin xəyallar içində bu sözləri dilinə gətirdi:

Yoldaş Bağırov, gün o gün olsun ki, Zuğulbadan gəmiyə əyləşib Ənzəliyə yan alaq.

Üzeyirbəy, əgər tale millətimizin üzünə tezliklə gülsə, sentyabrın 18-də gəmiyə oturub Ənzəli limanına, oradan da Təbrizə gedərik, sənin 60 yaşını bayram edərik. Yoldaş Bağırov, sentyabrın 18-i sentyabrın 17-dən sonra gəlir. Əvvəl Sizin ad gününüzdür. Sizdən bir gün sonra və on bir il qabaq dünyaya gəlmişəm.

Hər ikisi gülümsədi. Dalğalar şahə qalxdı...

...1945-ci il avqust ayının 16-da «sentyabrın 17-də doğulmuş» rəhbər «sentyabrın 18-də dünyaya gəlmiş» bəstəkar barəsində tarixi bir qərara imza atdı. Qərar Moskvaya, Kremlə, respublikanın bütün mərkəzi təşkilatlarına, mətbuat orqanlarına, şəhər və rayonlarına göndərildi. Arxivdə saxlanılan «Mir Cəfər Bağırov» imzalı bu sənəd «Üzeyirbəy Hacıbəyovu Bağırov həbsə almaq istəyirdi» bağıran yalançı şahidlərə, sözsüz ki, qənim kəsiləcəkdir.

«Üzeyir Hacıbəyovun anadan olmasının 60 və musiqi fəaliyyətinin 40 illiyinə hazırlıq görülməsi və onun keçirilməsi ilə əlaqədar tədbirlər barədə Xalq Komissarları Sovetinin və Azərbaycan K(b)P MK-nın qərarı:

1. Azərbaycan operasının banisi, SSRİ xalq artisti, bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 60 və musiqi fəaliyyətinin 40 illiyinə hazırlıq görülməsi və yubileyinin keçirilməsi üçün aşağıdakı tərkibdə komissiya təşkil edilsin:

M.İbrahimov (sədr)
H.Həsənov
N.Allahverdiyev
H.Həsənov
S.Rəhimov
Səməd Vurğun (Vəkilov)
Musa Əliyev
H.Rəhimov
Əli Vəliyev
Şövkət Məmmədova
Bülbül Məmmədov

Zeydman
Rəsul Rza

2. Azərbaycan SSR Elmlər Akademiyasına (Mirqasımov, Hüseynov yoldaşlar) tapşırılsın ki, Üzeyir Hacıbəyovun həyatı, yaradıcılığı və ictimai fəaliyyətindən bəhs edən kitabça hazırlayıb nəşr etsin.

3. Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət jşləri İdarəsinə (H.Rəhimov yoldaş) bir vəzifə olaraq tapşırılsın:

a) «Koroğlu» operasının və Stalinin 60 illiyinə həsr olunmuş kantatanın Azərbaycan və rus dillərində mətnlərlə klavirini nəşr olunmaq üçün hazırlasın;

b) «Arşın mal alan» musiqili komediyasının klavirini nəşr etsin;

v) Teatr muzeyində Üzeyir Hacıbəyov yaradıcılığına həsr olunmuş sərgi təşkil etsin;

q) Hacıbəyovun həyatına, ictimai fəaliyyətinə və yaradıcılığına həsr olunmuş məruzə və mühazirələr, həmçinin xüsusi radio verilişləri təşkil etsin;

d) Üzeyir Hacıbəyovun 60 illik yubileyinin keçirilməsində yerli təşkilatlara köməklik göstərmək məqsədilə Naxçıvana, Kirovabad, Ağdam, Stepanakert, Şuşa, Nuxa və Ağcabədiyə yaradıcı işçilərdən və bəstəkarlardan ibarət briqadalar ezam edilsin.

4.Azərbaycan Bəstəkarlar İttifaqına tapşırılsın ki, Üzeyir Hacıbəyovun yaradıcılığına və ictimai fəaliyyətinə aid məqalələr hazırlasın və dərc olunmaq üçün mərkəzi qəzetlərə - «Pravda», «İzvestiya», «Komsomolskaya pravda», «Sovetskoe iskusstvo» və digər qəzetlərə göndərsin.

5.Azərbaycan Dövlət Radio Komitəsinə (Abbasov yoldaş) təklif edilsin ki, Üzeyir Hacıbəyovun musiqi əsərlərindən ibarət xüsusi proqramlar hazırlansın və Ümumittifaq Radio Komitəsinə göndərilsin.

6.Kinematoqrafiya İşləri İdarəsi (Rəsul Rza yoldaş) Üzeyir Hacıbəyovun yubileyinə həsr olunmuş material hazırlasın və xüsusi kino-xronika nümayiş etdirsin.

7.Azərbaycan Dövlət Konservatoriyasının müdavimləri üçün hər biri 400 manat olmaqla, Üzeyir Hacıbəyov adına iki təqaüd təsis edilsin.

8.Azərbaycan SSR Elmlər Akademiyasının İncəsənət İnstitutuna Üzeyir Hacıbəyovun adı verilsin.

9.Respublika qəzetləri redaktorlarına tapşırılsın ki, Üzeyir Hacıbəyovun həyat və yaradıcılığı barədə materiallar dərc etsinlər, yubiley günü - sentyabrın 18-də isə qəzetin bütöv bir səhifəsini ona həsr etsinlər.

10.1945-ci il sentyabrın 18-də, Üzeyir Hacıbəyovun anadan olmasının 60 illiyi günü bəstəkarların, yazıçıların, artistlərin və Bakı şəhəri ziyalılarının digər nümayəndələrinin iştirakı ilə təntənəli yubiley gecəsi keçirilsin.

11.ÜİK(b)P Mərkəzi Komitəsindən xahiş edilsin ki, SSRİ Xalq artisti Üzeyir Hacıbəyov yoldaşın yubileyinin keçirilməsinə icazə verilsin.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri T.Quliyev.
Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

Bu qərardan bir həftə keçmiş, 1945-ci il avqustun 24-də «Kommunist» qəzetində əməkdar incəsənət xadimi Xurşud xanım Ağayevanın «Böyük bəstəkar» sərlövhəli geniş məqaləsi dərc olundu. Bundan sonra bütün qəzetlər Üzeyirbəyin anadan olmasının 60 illiyi münasibətilə rəngarəng materiallar dərc etdilər. Böyük bəstəkar haqqında film çəkildi. Yubilyar SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olundu.

Həmin il sentyabrın 18-də M.F.Axundov adına Opera və Balet teatrında Üzeyir Hacıbəyovun 60 illik yubileyinə həsr edilmiş təntənəli gecə keçirildi. Gecədə yubilyarın ən yaxın əqidə dostu Mir Cəfər Bağırov da iştirak edirdi.

...Bir il sonra, 1946-cı il sentyabrın 17-də Mir Cəfər Bağırovun anadan olmasının 50 illiyi idi. SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə Azərbaycan rəhbəri beşinci dəfə Lenin ordeni ilə təltif olunmuşdu. Yalnız bu fərmanı qəzetlərdə oxuyanlar xəbər tutdular ki, Mir Cəfər Bağırov yubiley yaşına çatmışdır. Mir Cəfər Bağırovdan «bir gün sonra və on bir il əvvəl» dünyaya gəlmiş və 61 yaşı sabah tamam olacaq Üzeyirbəy həmin gün axşam Zuğulba bağında, 50 yaşlı yubilyarın yanında idi...

Azərbaycan rəhbəri ilə ölkə bəstəkarı arasındakı dostluq münasibətlərinin təməlini yüksək amallar təşkil edirdi. Mərkəzi Komitə bürosunun iclaslarında Üzeyirbəy Hacıbəyov tərəfindən irəli sürülən məsələlərə yüksək səviyyədə baxılmasının da səbəbini bunda axtarmaq lazımdır. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan bir sənəd tanınmış bəstəkarın irəli sürdüyü təkliflərə tanınmış siyasi xadimin necə həssaslıqla yanaşmasından xəbər verir.

1946-cı ilin əvvəlində Üzeyirbəy Hacıbəyov Moskvada ezamiyyətdə idi. O, Azərbaycan Bəstəkarlar İttifaqının sədri kimi, musiqiçi-ifaçıların ümumittifaq müsabiqəsində münsiflər heyətinin tərkibində idi. Bakıya qayıtdıqdan sonra Üzeyirbəy Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırovun adına yazılı hesabat göndərmişdi. Hesabat arayışında respublikamızda musiqi təhsilini yaxşılaşdırmaq məqsədilə bir sıra mühüm təkliflər irəli sürülmüşdü.

Yaradıcılıq təşkilatlarının rəhbərlərinin Moskvaya ezamiyyətdən qayıtdıqdan sonra Mir Cəfər Bağırova yazılı arayış təqdim etmələri bir qayda idi. Mərkəzi Komitə katibi belə arayışları dərkənarıyla ideoloji iş üzrə MK katibinə ünvanlayırdı. Bu dəfə isə... Yaxşı olar arxiv sənədi ilə özünüz tanış olasınız:

«Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının Mərkəzi Komitəsi

№ 33, 18 yanvar 1946-cı il.

Kirsanov, Mehdi Hüseyn, Ş.Əliyev, Rəhimov, Rəsul Rza yoldaşlara.

Surəti məlumat üçün: T.Quliyev, Əlizadə, Seyidov, Qafarzadə yoldaşlara.

Xahiş edirəm ki, Üzeyir Hacıbəyov yoldaşın Moskva səfərinin yekunlarına dair arayışında qaldırılan bütün məsələləri araşdırasınız və bir həftə müddətində Hacıbəyov yoldaşın iştirakı ilə (hər bir məsələ üzrə ayrıca) qısaca və müfəssəl

təkliflər hazırlayıb T.Quliyev yoldaşa məlumat verəsiniz, razılaşdırıldıqdan sonra təsdiq olunmaq üçün Azərbaycan K(b)P MK bürosuna təqdim edəsiniz.

Əlavə: Ü.Hacıbəyov yoldaşın arayışı. Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

Mir Cəfər Bağırovun təşəbbüsü ilə Üzeyirbəy Hacıbəyovun Moskva səfərinin yekunları ilə əlaqədar məsələyə Mərkəzi Komitə bürosunda baxılmışdır. Büronun qərarında deyilir:

«1. Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsinə (Rəhimov yoldaş) və A.Zeynallı adına Azərbaycan Dövlət Konservatoriyasına (Ü.Hacıbəyov yoldaş) bir vəzifə olaraq tapşırılsın:

a) 1946-cı ildən başlayaraq və sonralar ardıcıl olaraq Moskva konservatoriyası professorları yanında öz sənətini təkmilləşdirmək məqsədilə ən istedadlı musiqiçi-ifaçılar Moskvaya göndərilsin.

b) Öz peşəkarlığını yüksəltmək, Moskva və Leninqrad təhsil müəssisələrinin musiqiçilərinin ən yaxşı iş təcrübəsilə tanış olmaq məqsədilə Azərbaycan Dövlət Konservatoriyasının müəllimləri və digər təhsil ocaqlarının musiqiçiləri müntəzəm surətdə Moskva və Leninqrad şəhərlərinə yaradıcılıq ezamiyyətinə göndərilsin.

v) Azərbaycan Dövlət Konservatoriyasının təhsil proqramı nəzərdən keçirilsin və bu proqram Moskva konservatoriyasının proqramı səviyyəsinə tam uyğunlaşdırılsın və həyata keçirilsin.

3. Tam və orta təhsili olmayan istedadlı şəxslərin Azərbaycan Dövlət Konservatoriyasına qəbul olunmasına lazımi şərait yaratmaq məqsədilə Azərbaycan SSR Maliyyə Nazirliyinə (Səmədov yoldaş) bir vəzifə olaraq tapşırılsın ki, Azərbaycan Dövlət Konservatoriyası nəzdində təşkil olunan 50 nəfərlik dinləyicidən ibarət hazırlıq şöbəsinin maliyyələşdirilməsi üçün respublika büdcəsindən vəsait ayrılsın».

...Bu sənəd 1946-cı ildə Azərbaycan musiqisinin gələcək inkişafına yönəldilmiş tarixi qərar idi. Həm Üzeyirbəyin, həm də Mir Cəfər Bağırovun ürəyindən idi.

1948-ci ilə aid arxiv materiallarından isə Mir Cəfər Bağırov uzun sürən xəstəliklə üzləşən Üzeyirbəy Hacıbəyovun xilaskarı kimi boylanır.

1946-50-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini vəzifəsində işləmiş Mirzə İbrahimovun yazdığı bu rəsmi arayışa diqqət yetirin:

«Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi M.C.Bağırov yoldaşa.

Sizin tapşırığınıza əsasən bu il sentyabrın 14-də SSRİ xalq artisti, bəstəkar Üzeyir Hacıbəyovun səhhətinin vəziyyətini müəyyənləşdirmək məqsədilə professorlardan Yeqorov, Afonski, Abdullayev, Əfəndiyev, həkimlərdən Argentov, İdelson, Osipyan, Veysov və Əhmədovdan ibarət tərkibdə konsilium keçirilmişdir.

Konsilium müəyyən etmişdir ki, Ü.Hacıbəyov yoldaş hipertoniya, ürək astması, ateroskleroz, nefroskleroz, miskardoskleroz, diabet xəstəliklərindən əziyyət çəkir.

Üzeyir Hacıbəyov yoldaşın səhhətini daimi nəzarət altında saxlamaq məqsədilə professor Yeqorov və həkim Veysov ona təhkim edilmişdir.

İmza: Mirzə İbrahimov.

16 sentyabr 1948-ci il».

Bu sənəddən aydın olur ki, Üzeyirbəy Hacıbəyovun şəxsi həkimi, Ramazan Xəlilovun yazdığı kimi, Osipyan deyil, professor Yeqorov və həkim Veysov olmuşlar.

Bundan əlavə, Azərbaycan SSR səhiyyə naziri Kübra xanım Fərəcova vaxtaşırı olaraq Mir Cəfər Bağırov yoldaşa Ü.Hacıbəyovun səhhəti barədə məlumat vermişdir.

...Amansız əcəl 1948-ci il noyabrın 23-də gecə saat 2-də dahi bəstəkarı xalqımızın əlindən aldı.

Ceyhunbəy Fransadan gələ bilmədi. Bu sözləri yazdı: «Mərhum qardaşım musiqi dünyasında Azərbaycanı Şərqin İtaliyası etmişdir».

Üzeyirbəy Hacıbəyovun vəfatından beş il qabaq, 1943-cü ildə oğlu Cahangirin ölümündən sonra Mir Cəfər Bağırov ilk dəfə idi ki, göz yaşını gizlədə bilmirdi

...1951-ci il sentyabrın 17-də Mir Cəfər Bağırovun 55 yaşı tamam oldu. Zuğulbanın dövlət bağında Üzeyirbəyin yeri görünürdü. Ertəsi gün, sentyabrın 18-də unudulmaz bəstəkarın Fəxri Xiyabandakı məzarı üstünə ilk çiçək dəstəsini Mir Cəfər Bağırov qoymuşdu.

1951-ci ildə əlli beş yaşlı Mir Cəfər Bağırov 1955-ci ildə Üzeyirbəy Hacıbəyovun anadan olmasının 70 illiyi barədə düşünürdü.

1951-ci ilin aprelində onun tapşırığı ilə böyük bəstəkarın şəxsi arxivi haqqında məsələyə Mərkəzi Komitənin büro iclasında baxılmışdı. Qara Qarayev, Niyazi, Səid Rüstəmov, Mikayıl Hüseynov və başqa sənət korifeylərinin imzaladığı geniş arayış arxiv materialları arasındadır.

...1955-ci il sentyabrın 18-də böyük Üzeyirbəyin 70 illiyində onun xilaskarı iştirak edə bilmədi. Kremlin şovinist-daşnak güruhu Mir Cəfər Bağırovu «Kuybışevneft»dən Moskvaya gətirərək həbsə almışdı. Bakıda ana torpaq altında Üzeyirbəy Hacıbəyovun sümükləri sızıldayırdı.

***

Azərbaycanda sovet dövrünün ən böyük siyasi xadimi Mir Cəfər Bağırovdursa, ən məşhur şairi Səməd Vurğundur. Onlar tarixin əsrdən-əsrlərə uzanacaq yollarında bir-birinə düşmən kimi deyil, dost kimi çiyin-çiyinə addımlayacaqlar.

Anlamaq olmur ki, Azərbaycan mətbuatında öz mütərəqqi ənənələrinə malik, Mir Cəfər Bağırov haqqında müxtəlif vaxtlarda bir sıra obyektiv materiallar dərc etmiş «Xalq qəzeti» birdən-birə 1999-cu ildə bu iki şəxsiyyət arasındakı münasibətləri şübhə altına alır. Qəzet özünün 1999-cu il 18 avqust tarixli sayında yazır: «M.C.Bağırov və onun dəstəsinin mühakiməsində S.Vurğunu «aradan

götürmək» üçün toplanan böhtanla dolu iki qovluq material, həbsi üçün order əşyayi-dəlil gətirilmişdi. Demə, M.C.Bağırov S.Vurğunu 1937-ci ildən «kontrol»a götürüb, müxtəlif adamlar vasitəsilə yoxlatdırıb.

1952-ci ildə S.Vurğun bütün ali mükafatlara - Lenin, Şərəf Nişanı, Qırmızı Əmək Bayrağı ordenlərinə, Dövlət mükafatına layiq görülmüşdü. Bütün bunlardan sonra yenə həbsinə order yazıldı. Bu o demək idi ki, ONUN ölümünə fitva verilmişdi».

1999-cu ildə 93 yaşlı ölməz şairin tərcümeyi-halını «redaktə» etməklə, saxtalaşdırmaqla «Xalq qəzeti» xalqımıza nə demək istəyir? Axı Azərbaycanın adi məktəblisinə belə yaxşı məlumdur ki, Səməd Vurğun bütün ali mükafatlara 1952-ci ildə deyil, Mir Cəfər Bağırovun «kontrol»luq etdiyi bütün dövrlərdə layiq görülmüşdür. Bu da maraqlıdır ki, həm Mir Cəfər Bağırovun və həm də Səməd Vurğunun ümumittifaq orqanlarında təmsil olunduqları il eynidir - 1934-cü il. Həmin ildə Azərbaycan K(b)P MK və Bakı Komitəsinin birinci katibi M.C.Bağırov ÜİK(b)P Mərkəzi Komitəsi üzvlüyünə namizəd, Azərbaycan Yazıçılar İttifaqının məsul katibi Səməd Vurğun SSRİ Yazıçılar ittifaqının Rəyasət Heyətinin üzvü seçilmişdir.

Yüksək poetik istedada və geniş dünyagörüşünə malik iyirmi doqquz yaşlı Səməd Vurğun Mir Cəfər Bağırovun təklifilə 1935-ci ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

1936-cı il yanvar ayının 21-də Mir Cəfər Bağırovun başçılıq etdiyi Azərbaycan nümayəndə heyəti Kremldə partiya və hökumət rəhbərləri tərəfindən qəbul edildi. Görüşdə Səməd Vurğun məşhur «Rəhbərə salam» şeirini coşğunluqla oxudu. Səməd Vurğunun ilk dəfə Lenin ordeni ilə təltif edilməsi də o günlərə təsadüf edir. Şairin qardaşı Mehdixan Vəkilov 1986-cı ildə «Yazıçı» nəşriyyatı tərəfindən buraxılmış «ömür dedikləri bir karvan yolu» kitabında yazır; «1936-cı ilin yaz ayları idi. Səməd Vurğun Lenin ordeni alması və oğlu Yusifin anadan olması münasibətilə evində bir qonaqlıq düzəltmişdi (Lermontov küçəsindəki mənzilində). Orada köhnə inqilabçılardan Həmid Sultanov, İsrafil İbrahimov, Abbas Sultanov, şair və yazıçılardan A.Şaiq, H.Cavid, B.A.Talıblı, T.Şahbazi (Simurq), H.Mehdi, Ə.Cavad, M.Müşfiq, S.Şamilov, S.Hüseyn, M.K.Ələkbərli, O.Sarıvəlli, H.Əlizadə və başqaları iştirak edirdilər».

Əfsuslar ki, qonaqlıqda iştirak edənlərin bəziləri 1936-cı il sevincini bir daha yaşaya bilmədilər. Öz evlərinə, öz doğmalarına həsrət qaldılar, dünyadan nakam getdilər...

Mir Cəfər Bağırov 1937-ci ildən Səməd Vurğunu «kontrol»a götürməsəydi, kim bilir, onun da taleyi necə olacaqdı... 1937-ci ildə Səməd Vurğunla bağlı yazılmışları birlikdə araşdıraraq, «Xalq qəzeti»nin uydurmalarının nə qədər gülünc olduğunu yəqin edək.

Azərbaycan Sovet Yazıçılar İttifaqı İdarə Heyətinin 1937-ci il iyunun 8-də keçirilmiş iclasının 9 saylı protokolu.

İştirak edirdilər: S.Şamilov, S.Vurğun, A.Rəsulzadə, M.S.Ordubadi, M.K.Ələkbərli, H.B.Nəzərli, M.C.Paşayev, Ə.Hidayət, M.Kamski.

EŞİDİLDİ: «Kommunist» qəzetində dərc olunan «Averbaxçılığın kökünü kəsməli» sərlövhəli məqalə və Azərbaycan Sovet Yİ-nin siyasi siması haqqında.

İclasın qəbul etdiyi qərarda deyilir ki, «Yİ-nin Nizamnaməsini kobud surətdə pozduqları və kontrrevolyusion ünsürlərin Yazıçılar İttifaqı sıralarına qəbul edilməsinə liberal münasibət göstərdikləri Ələkbərli, Nəzərli, S.Rüstəm və S.Vurğunun nəzərinə çatdırılsın».

1937-ci il iyulun 13-də Tağı Şahbazi istintaq zamanı «Əksinqilabi millətçilərdən sizə kimlər məlumdur?» sualına belə cavab vermişdi: «Şairlərdən Hüseyn Cavid, Əhməd Cavad, Müşfiq və yazıçı Sanılı. Şair Səməd Vurğunda mən bəzi əksinqilabi təzahürlər müşahidə etmişdim».

Mehdixan Vəkilov «Ömür dedikləri bir karvan yolu» kitabında 1937-ci il hadisələri barədə belə yazır: «Səməd Vurğunun yüksələn sənət qüdrəti, nüfuzu və ona qarşı olan xalq məhəbbətinə qısqanan «şeytan balaları» şairi yalançı millətçilik böhtanları ilə ləkələmək və cərgədən çıxarmaq istəyirdilər. Mənəvi iztirab keçirən Səməd Vurğun əyilmək bilməyən iradə və xariqüladə bir cürətlə, məntiqi və təsirli danışıqları ilə əleyhdarlarının planlarını pozurdu. Bir dəfə onu hansı idarəyəsə çağırmışdılar.

Deyəsən, 1937-ci ilin payızı idi. Biz vəziyyəti götür-qoy etdikdən sonra indiki Nizami muzeyinin qarşısında ayrıldıq. Ayrılarkən Səməd məndən soruşdu: «A Qara, papiros pulum yoxdur, səndə pul varmı?» Mən əlimi cibimə saldım və axırıncı üç manatı ona uzatdım. Səməd pula baxaraq:

Əyə, bu pul elə bil atamın üçlüyüdür, onun da cibində üç manatdan artıq pulu olmazdı, bu üçlük mənə düşəcəkdir, darıxma, - dedi. Səməd Vurğun bir növ fatalizmə uydu, o üç manatlığa (guya atasının üçlüyü kimi) özünün taleyi kimi etiqad bağladı. İnsan dara düşdüyü zaman bəzən belə də olur.

Mən yatmayıb səhərə qədər Səmədi gözlədim. Nəhayət, səhər çay vaxtı Səməd gəlib çıxdı, işin gedişini müfəssəl surətdə danışdı və əlavə etdi ki, «onlar» mənim «Azərbaycan» şeirimdən bərk yapışıblar. Başa düşə bilmirlər ki, bu şeir həyatımın və bütün yaradıcılığımın mənasıdır, rəmzidir. Yadında saxla! Mən kommunistəm, ona görə də özümü ən böyük internasionalist hesab edirəm. Mən bütün insanlara, bütün xalqlara və millətlərə səadət arzulayıram və bu yolda çalışıram.

Lakin bununla bərabər, məndən ötrü ən müqəddəs torpaq Azərbaycandır, ən doğma xalq isə Azərbaycan xalqıdır, onun dili və şeiri mənim vicdan səsimdir, o, mənim doğma anamdır. Əgər buna görə məni millətçi etmək istəyirlərsə, qoy etsinlər. Bir gün gələr, tarix həqiqəti açar!» Sonralar Səmədi heç bir yerə sorğu-suala çağırmadılar».

Bəs sonralar Səməd Vurğunun «Heç bir yerə sorğu-suala çağrılmamasının» səbəbkarı kim olmuşdur? Mir Cəfər Bağırov!

Akademik İmam Mustafayev «Ədəbiyyat qəzeti»nin 1991-ci il 5 aprel tarixli sayında bu barədə yazır: «1937-1938-ci illərdə öz qələm yoldaşları və bir neçə mədəniyyət xadimi Səmədi «millətçi», «əksinqilabçı», «pantürkist» kimi adlarla ittiham edirdilər. Hətta bir nəfər M.C.Bağırova yazdığı məktubda göstərirdi ki, Sovet hökumətinin qəddar düşməni, qatı millətçi Səməd Vurğun guya partiya və dövlət əleyhinə çıxışlar edir. Belə «xalq düşməni» nə üçün sərbəst gəzir və Yazıçılar İttifaqına rəhbərlik edir? Bəli, belə materiallar bədxahlar tərəfindən az yazılmırdı. Ona görə də Səmədi «Dənizkənarı» idarəyə tez-tez çağırırdılar və bəzən gecə səhərə qədər orada saxlayırdılar da. Belə vaxt ailəsi və dostları intizar içində səhərə qədər yatmaz, xəbər gözləyərdilər...

Burada bir həqiqəti danmaq olmaz: orqan işçiləri Səmədi qəti surətdə tutmaq istədiklərinə baxmayaraq, Bağırov onun tutulmasına icazə verməmişdi».

Qocaman xalq və haqq yazıçımız Manaf Süleymanov 1937-40-cı illərdə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin xüsusi şöbəsində işləmiş bir təlimatçının şahidi olduğu hadisə barədə «Son bahara çatdıq» kitabında belə yazmışdır: «Təhlükəsizlik Komissarlığından xüsusi bir qovluq gətirdilər ki, bunu verərsiz kişiyə. Banderol bir neçə yerdən surquclanıb möhürlənmişdi.

Neçə gün sonra mən Bağırovun kabinetində mühüm bir işi yoxlaya-yoxlaya sənədləşdirirdim. Mir Cəfər Bağırov arabir yaxınlaşıb sənədlərə, akt və kağızlardakı imzalara nəzər yetirirdi.

Xəbər verdilər ki, Səməd Vurğun gəlib. Mir Cəfər Bağırov dedi: «Buraxın içəri». Səməd Vurğun içəri girdi. Mir Cəfər Bağırov onunla görüşdü və soruşdu: «Niyə yeni bir şey yazmırsan?»

Səməd Vurğun qollarını açdı: «Vallah, ilham gəlmir, adamın əlləri...» «Əlləri işlətmək lazımdır», - Bağırov onun sözünü kəsdi, xəbər aldı. «Niyə sən özünə Vurğun təxəllüsünü götürmüsən, başqa ad qəhət idi?»

Səməd Vurğun eşq macərasını nəql etməyə başladı.

Mir Cəfər Bağırov birdən səsini ucaltdı: «Bəs deyirlər, sən Vurğun təxəllüsünü simvolik götürmüsən. Əslində, türklərə, Türkiyəyə vurğunsan».

Səməd Vurğun cavab verdi: «Yalan deyirlər. İftiradır».

Xeyli söhbətdən və izahatdan sonra Bağırov dedi: «Get, ağlını yığ başına, yaz, - əli ilə stolun üstündəki qovluğa işarə etdi, - bu, sənin haqqında yığılan materialdır. Hər şey hazır idi. Bircə mənim imzalamağım qalmışdı. Qol çəkmədim. Qərara gəldim ki, əvvəl səninlə danışım. Get, yaz-yarat».

Səməd Vurğun ayağa durub dedi: «Yoldaş Bağırov, siz Səmədə bir köhlən at verdiniz, qol-qanadını açdınız. Gedirəm yazmağa. Özünüz görərsiniz».

Göründüyü kimi, Mir Cəfər Bağırov, «Xalq qəzeti»nin yazdığı kimi, «S.Vurğunu 1937-ci ildən «kontrol»a götürüb müxtəlif adamlar vasitəsilə» yoxlatdırmamışdır. Əksinə, müxtəlif adamlar vasitəsilə təşkil olunmuş ittihamlara xitam vermişdir. Mir Cəfər Bağırovun bu qətiyyətli addımı Səməd Vurğuna 1937-38-ci illərdə həqiqətən qol-qanad vermişdi.

1939-cu ildə Azərbaycan rəhbərinin təqdimatı ilə «1937-ci ilin «millətçi» və «pantürkist» şairi «Şərəf Nişanı» ordeni ilə təltif olundu. 1940-cı ildə Kommunist Partiyası sıralarına qəbul edildi.

Böyük Vətən müharibəsi illərində Bakı zəhmətkeşlərinin düşmənə qarşı qəzəb və nifrətini nümayiş etdirən mitinqlərdə Mir Cəfər Bağırovla Səməd Vurğun tribunada yanaşı idilər... Xalqımız və ədəbiyyatımız üçün sınaq dövrü olan həmin illərdə onların hər ikisi iş başında idi - birisi Mərkəzi Komitədə, birisi də Azərbaycan Yazıçılar İttifaqında. Müharibə illərində Yazıçılar İttifaqının rəhbəri ilə Azərbaycan rəhbəri daha tez-tez görüşürdü. Mir Cəfər Bağırovun təklifi ilə Səməd Vurğun ümumittifaq tədbirlərində yaxından iştirak edirdi. 1942-ci il mart ayının 18-də Azərbaycan K(b)P MK-nın qərarı ilə Dövlət İstiqrazının yayılması ilə əlaqədar yaradılmış komissiyada Səməd Vurğun da vardı.

Səməd Vurğun yüksək dövlət mükafatlarını da «Xalq qəzeti»nin yazdığı kimi, 1952-ci ildə deyil, 1941-ci və 1942-ci illərdə almışdır.

Mir Cəfər Bağırov 1937-ci ildən «kontrol»a götürdüyü iki ordenli, iki dəfə Stalin mükafatı laureatı Səməd Vurğunu təkcə o taylı-bu taylı Azərbaycanın deyil, bütün SSRİ-nin, təkcə Sovetlər İttifaqının deyil, bütün dünyanın ən tanınmış söz ustadı görmək arzusunda idi.

1942-ci ildə Sovet İttifaqı himni mətninin yaradılmasında M.C. Bağırovun məsləhəti ilə S.Vurğunun iştirak etməsi də bu istəkdən irəli gəlirdi. S. Vurğunun yazdığı mətn yüksək qiymət almış və bəstəkar Aleksandrova verilmişdi. Lakin azərbaycanlı şairin A.Adalis tərəfindən ruscaya tərcümə olunmuş şeiri şovinist xislətli məmurların təqsiri üzündən Dövlət Komissiyasına təqdim olunmamış, nəticədə Mixalkov və Registanın yazdıqları mətn qəbul edilmişdi.

1944-cü ildə Səməd Vurğunun Azərbaycan Yazıçılar İttifaqı sədrliyindən azad edilməsi də Mir Cəfər Bağırovun «kontrol»u altında olmuşdu. Böyük şair Azərbaycan rəhbərinin təklifi ilə Güney və Quzey Azərbaycanın mənəvi dəyərlərini birləşdirən bir cəmiyyətin başçısı oldu. 1944-cü il noyabrın 17-də Mir Cəfər Bağırovun Moskvaya - Malenkovun adına vurduğu teleqrama müsbət cavab verildi: Güney Azərbaycanda mədəni, ədəbi, elmi təsiri gücləndirmək üçün Azərbaycan-İran Mədəni Əlaqə Cəmiyyəti yaradıldı və Səməd Vurğun cəmiyyətin sədri təsdiq edildi.

1945-ci ildə S. Vurğun Azərbaycan SSR əməkdar incəsənət xadimi adını aldı. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edildi. Azərbaycan Elmlər Akademiyasının ilk akademiklərindən biri oldu. 1945-ci ildə S. Vurğun onu «kontrol»a alan M.C. Bağırova hörmət və məhəbbətini şeirlə ifadə etdi. Azərbaycan oxucuları «Vətən uğrunda» ədəbi jurnalın həmin il 1-ci sayında Səməd Vurğunun «Bakının dastanı» poemasından sətirləri həvəslə oxuyurdular.

... Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivinin fondunda Mir Cəfər Bağırova həsr olunmuş poema və şeirlərdən ibarət bir qovluq vardır. Ona mədhiyyələr yazmağı xoşlamayan rəhbər

qalaq-qalaq nəzm nümunələrinin heç birisinin çapa verilməsinə icazə verməmişdir, əlyazması şəklində indiyəcən qalmışdır. Görünür, Səməd Vurğun müstəsnalıq təşkil edir. Əfsuslar olsun ki, böyük şairin səmimi misraları 1976-cı ildə «Azərnəşr» tərəfindən buraxılmış «Seçilmiş əsərləri»nin ikinci cildində «Bakının dastanı» poemasından çıxarılmışdır.

1946-cı ildə isə Mir Cəfər Bağırov «kontrol»a götürdüyü Səməd Vurğunu ikinci çağırış SSRİ Ali Sovetinin deputatı və Azərbaycan yazıçılarının rəhbəri kimi tez-tez qəbul edir, müharibədən sonra Azərbaycan ədəbiyyatının tərəqqisi və yeni vüsət alması üçün tədbirlər görürdü.

Səməd Vurğunun Mərkəzi Komitəyə Mir Cəfər Bağırovun adına göndərdiyi məktublara vaxtında baxılır və müvafiq işlər aparılırdı. 1946-cı il aprel ayının 10-da Azərbaycan Sovet Yazıçılar İttifaqı İdarə Heyətinin sədri Səməd Vurğunun M.C.Bağırova ünvanlanan məktubunda 12 yazıçının uzunmüddətli yaradıcılıq ezamiyyətinə göndərilməsi məqsədilə 276 min manat pul vəsaiti lazım olduğu xahiş edilirdi. Məsələnin müsbət həlli nəticəsində Süleyman Rüstəm, Əhməd Cəmil, Məmməd Səid Ordubadi, Mir Cəlal, Əbülhəsən, Abdulla Şaiq, Mirvarid Dilbazi, Nigar Rəfibəyli, Osman Sarıvəlli, Məmməd Rahim, Zeynal Xəlil və Mehdi Hüseyn hərəsi 18-30 min manat məbləğində ezamiyyət xərci ilə təmin olunmuşdu.

Arxivdəki aşağıdakı məktub da 1946-cı ildə yazılmışdır:

«Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi Mir Cəfər Bağırov yoldaşa.

Hörmətli Bağırov yoldaş! Məlumat üçün Sizin nəzərinizə çatdırıram ki, Azərbaycan Yazıçılar İttifaqının 1946-cı il oktyabrın 8-də keçirilmiş plenumunun qərarı ilə Yİ-nin Rəyasət Heyətinə tapşırılmışdır ki, Azərbaycan ədəbiyyatı qarşısında ideya-yaradıcılıq və təşkilati vəzifələrlə əlaqədar olaraq İttifaqın rəhbərliyi yenidən qurulsun.

Yazıçılar İttifaqının rəhbərliyinin aşağıdakı şəkildə qurulmasını qərara almışam:

1. Rəyasət Heyətinin sədri, onun üç müavini və məsul katib. Plenumun qərarına müvafiq olaraq rəhbərliyin tərkibinə bu yoldaşların daxil edilməsi məqsədəuyğundur:

1. Süleyman Rüstəm - Sədrin dramaturgiya və teatr məsələləri üzrə müavini.
2. Əbülhəsən Ələkbərzadə - Sədrin nəsr və gənc yazıçılarla iş məsələləri üzrə müavini.
3. Cəfərov Cəfər - Sədrin tənqid və ədəbiyyat nəzəriyyəsi məsələləri üzrə müavini.

Plenum qərara almışdır ki, Məmməd Arif Dadaşzadə «İnqilab və mədəniyyət» jurnalının redaktoru vəzifəsindən azad olunsun və redaksiya heyəti aşağıdakı tərkibdə yaradılsın:

1. Mehdi Hüseyn - məsul redaktor

2. Məmmədxanlı Ənvər - redaktor müavini
3. Həsənov Orucəli - məsul katib
4. Məmməd Arif Dadaşzadə,
5. Səməd Vurğun - redaksiya heyətinin üzvləri.

Yazıçılar İttifaqı rəhbərliyinin və «İnqilab və mədəniyyət» jurnalının redaksiya heyətinin tərkibinə daxil edilən yoldaşlar barədə qısaca xasiyyətnamələri məktuba əlavə edirəm.

Azərbaycan Sovet Yazıçılar İttifaqının sədri Səməd Vurğun».

Azərbaycan Yazıçılar İttifaqında işləri günün səviyyəsində qurduqdan sonra Səməd Vurğunun xarici ölkələrə səfərləri başladı. 1937-ci ildən şairi «kontrol»a götürmüş Mir Cəfər Bağırovun xeyir-duası ilə Səməd Vurğun Almaniya, Polşa, Bolqarıstan, Fransa və İngiltərədə oldu. Azərbaycanı qürbətdə ləyaqətlə təmsil etdi.

1950-ci ildə böyük şair və ictimai xadim vaxtilə müəllimlik etdiyi bir rayonun qonşuluğundan - Qusardan üçüncü çağırış SSRİ Ali Sovetinə deputat seçildi. 1952-ci ildə isə Sovet Müdafiə Komitəsinin üzvü kimi də fəaliyyətini genişləndirdi. 1953-cü il M.C. Bağırovla Səməd Vurğunun əbədi ayrılıq ili oldu. Həmin il Mir Cəfər Bağırov vəzifəsindən çıxarıldı, Teymur Yaqubov onun yerini tutdu. Bir il sonra da Səməd Vurğun Yazıçılar İttifaqının rəhbərliyindən kənar düşdü, «kontrol»luğa son qoyuldu.

Görkəmli dövlət xadimi Kamran Hüseynov «Günəş» nəşriyyatı tərəfindən 1998-ci ildə buraxılmış «Bir ömrün salnaməsi kitabında yazır: «1953-cü ildə Mir Cəfər Bağırov vəzifədən götürüləndən sonra mən Kislovodskda idim. Gördüm ki, Səməd Kislovodskın parkında bir skamyada oturub. Xavər xanım da yanında. Bir hala düşmüşdü ki, qanlı görsə, qan ağlardı! Yaxınlaşıb hal-əhval tutanda tələsik məndən soruşdu:

-Bakıda nə var, nə olub?

Dedim:

-Plenum olub, Bağırovu çıxarıblar.

Səməd qayıdıb nə desə yaxşıdır:

-Nahaq yerə, çox heyif!

...Kamran Hüseynovun yazdıqları həqiqətdir. «Xalq qəzeti» isə Kamran Hüseynovun kitabının nəşrindən bir il sonra, 1999-cu il avqustun 18-də Mir Cəfər Bağırov-Səməd Vurğun münasibətləri barədə görün nələr yazır:

«Səməd Vurğun ev-muzeyinin fond müdiri, şairin qızı Aybəniz xanım səmimiyyətlə gah gülür, gah da kövrəlir, gözləri dolurdu: 1954-cü ildə bu evə köçəndə vəziyyət yaxşı deyildi. Atam təqib olunurdu. Bizə iki cavan oğlan gəlmişdi, Dedilər, eşitmişik, sizi Mir Cəfər Bağırov çox incidir. Bizdə silah var, onu öldürə bilərik. Xahiş edirik, bizə düzünü deyəsiniz. Atam demişdi: «Ehtiyac yoxdu,

lazım olsa, özüm cavab verə bilərəm. İki gəncin öz həyatını təhlükəyə atmasına mən razı ola bilmərəm».

1954-cü ildə Mir Cəfər Bağırov harada idi? Kuybışev şəhərində, sonra da Moskvada. 1953-cü ilin iyul ayında o, vəzifədən çıxarılandan sonra «Kuybışevneft»də işləmiş, 1954-cü il martın 13-də Moskvaya aparılaraq həbsə alınmışdı. Elə çıxır ki, M.C. Bağırov həbs altında olarkən S.Vurğundan intiqam almaq fikri ilə yaşayırmış... və S.Vurğun etiraz etməsəydi, «iki silahlı cavan» Kuybışevə, oradan da Moskvaya yola düşüb M.C. Bağırovu qanına qəltan edəcəkdi. Həm M.C. Bağırovun və həm də S. Vurğunun ruhunu bu qədər incitmək kimə və nəyə lazımdır?

Məqalədə daha sonra oxuyuruq: «53-cü ilin martında Stalin öldü. 1954-cü ilin iyulunda Beriya tutuldu. M.C.Bağırovu işdən çıxartdılar.

Moskvaya gedirmişlər. Bağırov yol yoldaşından soruşub: «Bakıda işdən çıxarılmağımı necə qarşıladılar, sevindilər?» Deyiblər: «Yoldaş Bağırov, sevinənlər də vardı, amma məsələn, Səməd Vurğun çox məyus oldu, dedi ki, kaş 20 il də onun zülmünə dözəydik, ancaq respublika üçün bu biabırçılıq olmayaydı». Onda Bağırov hər iki əlini vurub başına: «Eləmişəm, eləmişəm, çox pisliklər eləmişəm», deyir. S. Vurğunun sözü elə bil onu ayıltmışdı. Məhkəməsi 1955-ci ilin yanvarında başladı. Məhkəmənin bütün gedişini xəstə yatan şairə danışırdılar. Proseslərin birində Aybəniz xanım iştirak edir. Orada baş prokuror Rudenko S.Vurğunun 1954-cü ilin sentyabrında tutulması barədə orderi üzə çıxarıb M.C.Bağırova sual verir: «Niyə siz indi xalq şairi olan Səməd Vurğunu tutmaq istəyirsiniz?»

Səməd bunu eşidəndə təəccüblənir. Fikrə gedib deyir: «Bilirsən nə var, qızım, görünür, belə olmalıydı, bu, Allahın işidir. Ziyalıların yarısını 37-də qırdı, yarısı da bax belə, mənim kimi şil-küt qalıb».

Əvvəla, Beriya 1954-cü ildə deyil, Stalinin ölümündən dörd ay sonra, həmin ilin iyulunda həbs edilmişdir. İkincisi, Mir Cəfər Bağırovun məhkəməsi 1955-ci ilin yanvarında deyil, 1956-cı ilin aprelində olmuşdur və aprelın 12-dən 26-dək - 15 gün davam etmişdir.

Məqaləni hazırlayanlar unudur ki, 1956-cı ildə Azərbaycan Kommunist Partiyası MK-nin katibi İmam Mustafayev idi. M.C. Bağırovun silahdaşı və S. Vurğunun yaxın dostu İ.D.Mustafayev 1956-cı ildə Bağırovun məhkəməsində digər ittiham sənədləri kimi S.Vurğunun M.C.Bağırov tərəfindən həbsə alınmasına dair orderin də saxta olduğunu yaxşı bilirdi. Doğruçu şahid Kamran Hüseynov öz kitabında bu məsələlərə də aydınlıq gətirir. «Bir ömrün salnaməsi»ndə oxuyuruq: «N.S.Xruşşovun M.C.Bağırovla kəskin münasibətləri o zaman hamımıza məlum idi. Xruşşov onu təqsirləndirirdi ki, sən Azərbaycanda repressiyaya yol vermisən, Bağırov da ona birbaşa cavab verirdi ki, sənin Ukraynada törətdiyin repressiya Azərbaycandakından daha çox olmuşdur. Bu da məlum idi ki, İkinci dünya müharibəsi başlayarkən Ukraynaya Xruşşov rəhbərlik edirdi. Kiyev də, bütünlükdə Ukrayna da zəbt olundu. Bakı isə ölkəyə yanacaq və sürtkü materiallarının 80%-ə

qədərini verir, Fars körfəzi vasitəsilə gələn yardımı qəbul edib cəbhəyə çatdırır, çoxlu yaralıları müalicə edib orduya qaytarırdı. Bir psixoloji faktor da var idi ki, Xruşşovun oğlu müharibədə dezertirlik etmiş, öldürülmüşdü. Bağırovun oğlu isə Kursk qövsü döyüşlərində qəhrəmancasına, göydə düşmən təyyarəsini vuraraq həlak olmuşdu. Deməli, M.C.Bağırovun mənəvi üstünlükləri Xruşşovdan xeyli çox və bu əsasda onun Stalin qarşısında nüfuzu da böyük idi. Xruşşov ixtiyar sahibi olduqdan sonra qarşısına qoyduğu ilk vəzifələrdən birisi də Bağırovdan qisas almaq oldu».

Bəs Bağırov məhkəməsinin ittihamçısı Rudenko kim idi? Ukraynada on il müddətində Xruşşovla birgə işləmiş hüquqşünas. Ukrayna SSR-in baş prokurorunu SSRİ baş prokuroru etdikdən sonra onun ilk vəzifəsi «Bağırovun axırına çıxmaq» idi. Bu işi məharətlə başa çatdırdıqdan sonra Xruşşov köhnə dostu Roman Andreyeviçi Sov. İKP MK üzvlüyünə əvvəlcə namizəd, sonra da üzv seçdirdi.

Kəşməkeşli və şərəfli ömür sürmüş Səməd Vurğunun «Mir Cəfər Bağırov ziyalıların yarısını 37-də qırdı, yarısı da bax belə, mənim kimi şil-küt qalıb» deməsinə inanmaq olmur.

# AZƏRBAYCANDA ERMƏNİLƏR MİR CƏFƏR BAĞIROV DÖVRÜNDƏ VƏ SONRALAR

**(«Ulus» qəzeti, 6 -24 aprel 2002)**

Ermənilərin Azərbaycanda hər zaman məkrli siyasət yeritdikləri sirr deyil. Bəs ermənilərə Azərbaycanda necə meydan verilib? Respublika Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində bu barədə çoxlu sənədlər saxlanılır. Biz də həmin suala sənədlərin dili ilə cavab verməyə çalışacağıq.

Əvvəlcə Mir Cəfər Bağırovun imzalayıb Moskvaya göndərdiyi iki məktubla oxucuları tanış edirəm:

«Moskva, ÜİK(b)P MK-nın kadrlar idarəsinə, Andreyev yoldaşa.

Azərbaycan K(b)P MK-nın 1946-cı il 6 avqust tarixli qərarı barədə Sizə məlumat veririk:

Axundov Vəli Yusif oğlu - 1939-cu ilin oktyabrından ÜİK(b)P üzvü, partiya bileti № 3326634, Azərbaycan SSR Tibb işçiləri Həmkarlar İttifaqları Komitəsinin sədri vəzifəsinə təsdiq olunsun.

Martirosyan Arşak Mkrtçeviç Şaumyan adına xəstəxanada işlədiyinə görə həmin vəzifədən azad edilsin.

ÜİK(b)P MK-dan xahiş olunsun ki, həmin qərarı təsdiq etsin.

**Azərbaycan K(b)P MK katibi**
**M.C.Bağırov**
**12 sentyabr 1946-cı il»**

Qeyrətli dövlət xadimi Kamran Hüseynov da Mir Cəfər Bağırovun irəli çəkdiyi milli kadrlardan biridir. Kamran Əsəd oğlu Hüseynov haqqında Moskvaya göndərilmiş məktubda deyilir:

«ÜİK(b)P MK-nın Mingəçevir Su Elektrik Stansiyası tikintisindəki partiya təşkilatçısı barədə:

Azərbaycan K(b)P MK-nın bürosu qeyd edir ki, ÜİK(b)P MK-nın Mingəçevir Su Elektrik Stansiyasındakı partiya təşkilatçısı Arustamov Arustam Berseqoviç ona göstərilən köməyə, tikintidə partiya işinin gücləndirilməsi üçün göstərişlərimizə baxmayaraq, vəzifəsinin öhdəsindən gəlmir, tikintinin rəhbər işçiləri arasında intriqa yaratmışdır. Arustamov antisovet fəaliyyəti göstərmiş yad ünsürlərlə əlaqə saxlayır. Azərbaycan K(b)P MK bürosu qərara alır:

I. Tikintidə partiya-siyasi işi başlı-başına buraxdığına, rəhbər işçilər arasında intriqa saldığına və antisovet yabançı ünsürlərlə əlaqə saxladığına görə ÜİK(b)P MK-nın Mingəçevir SES tikintisindəki partiya təşkilatçısı Arustamov A.B. vəzifəsindən kənar edilsin.

II. Hüseynov Kamran Əsəd oğlu - 1939-cu ilin sentyabrından partiya üzvü, partiya bileti № 2906035, ÜİK(b)P MK-nın Mingəçevir Su Elektrik Stansiyası tikintisində partiya təşkilatçısı təsdiq edilsin.

ÜİK(b)P MK-dan xahiş olunsun ki, həmin qərarı təsdiq etsin.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov.

23 may 1949-cu il»

Kamran Hüseynov qırx doqquz ildən sonra, 1998-ci ildə Bakıda nəşr etdirdiyi «Bir ömrün salnaməsi» kitabında yazır: ««DTK»nın əməkdaşı Mityukov adlı kiçik leytenant «xüsusilə mühüm obyekt» sayılan Mingəçevirə təhkim edilmişdi. İşin qızğın vaxtı bir də gördüm ki, bacarıqlı mütəxəssislər bir-bir yoxa çıxır. Onlar «xalq düşməni» adı ilə 15-20 il türmədə yatıb çıxmış sənətkarlar idilər... maraqlandım ki, bu adamlar hanı? Dedilər ki, Mityukovun sözü ilə onları tutub Azərbaycan SSR DTK sədri Yemelyanovun zirzəmisinə saldılar.

Mir Cəfər Bağırov mənə tapşırmışdı ki, Mingəçevirdə nə çətinliyin olsa, mənə de.

...Yayın isti günləri idi. Bağırov əynində tor köynək, ayaq üstə dayanmışdı. Sumbatov-Topuridze, Teymur Quliyev, Teymur Yaqubov, Mərkəzi Komitənin katibi, inşaata baxan Qafarzadə, Padarov, daxili işlər naziri Atakişiyev, DTK-nın sədri Yemelyanov da içəridə idilər.

-Eşidirəm səni.

Dedim:

-Yoldaş Bağırov, Mingəçeviri nə mən tikirəm, nə də İslamzadə. Mingəçevir Azərbaycan xalqının, ölkənin köməyilə buraya gələn mütəxəssislərin sayəsində tikilir. Mingəçevir tikintiləri Azərbaycan xalqına nə qədər mənfəət verəcəksə, indi o qədər də ziddiyyətli, çətin işlərlə qarşılaşırıq. Biz belə hallara yol verə bilmərik. Çünki elə bir fəlakət baş verər ki, gördüyümüz işlər məhv olar.

-Nə deyirsən?!

Yuxarıda adını çəkdiyim adamların adlarını, onların başına gətiriləni dedim. Dedim ki, bir aydan çoxdur ki, onlar Bakıda həbsxanada yatırlar.

Üzünün ifadəsindən anladım ki, bütün bunlardan xəbərsizmiş. Bağırov döndü Yemelyanova baxdı:

-İndi həmin adamlar orada yatırlar?

Yemelyanovu tər basdı, rəngi sapsarı saraldı.

-Yoldaş Bağırov, siz bilirsiz ki...-deyə kəkələdi. Bağırov onun üstünə qışqırdı, ən pis sözlərlə onu söyə-söyə dedi:

-Bu gecə bütün o adamları yığırsan bir yük vaqonuna, paravozu qoşub göndərirsən inşaat meydanına. Onların əvəzinəsə bunu basırsan dama!-deyib əlilə məni göstərdi.

Mən də dodaqucu gülümsəyib dedim:

-Nə olar. Böyük mühəndislər getsin tikintiyə. Eybi yox, məni basın türməyə. Onların yerinə.

Bağırov qayıdıb kinayə ilə mənə belə dedi:

-Sultan bəy! Sən məni pis tanıyırsan!

Əvvəlcə başa düşmədim ki, bu «Sultan bəy» kimdir, bu kimi nəzərdə tutur. Sonralar bilmişəm ki, məni əsrin əvvəllərində Azərbaycana basqın edən ermənilərin yolunu kəsmiş məşhur laçınlı bəyə bənzədirmiş».

Bəli, Mir Cəfər Bağırov üçün Kamran Hüseynovlar «Azərbaycana basqın edən ermənilərin yolunu kəsmiş» qəhrəman Sultan bəylər idilər. İyirminci əsrin son onilliyində isə Sultan bəylər - Məhəmməd Əsədov, İsmət Qayıbov, Osman Mirzəyev, Vəli Məmmədov, Tofiq İsmayılov və başqaları vertolyot qəzasına uğradıldı, Rövşən Cavadovlar yox edildi. Böyük Mirzə Fətəlinin Hacı Qarasının erməniyə dediyi sözlər yada düşür: «Sizin qanınız çoxdan halaldır, amma bu zamanadək tökən olmuyub».

1947-ci il oktyabr ayının əvvəllərində respublika prokuroru Xəlil Sədrəddin oğlu Əfəndiyev M.C.Bağırovun qəbulunda olarkən, belə bir məlumat vermişdir: Azərbaycan SSR Elmlər Akademiyasının sabiq elmi işçisi Köçəryan gizli yollarla Azərbaycan Respublikasının 163 ədəd atlasını mənimsəyərək Yerevana aparmışdır. Həmin xəritələr Ermənistan SSR-də «Tarixi Ermənistan» şəklinə salınmışdır.

M.C.Bağırov dərhal Azərbaycan SSR Elmlər Akademiyasının yeni təyin olunmuş prezidenti Yusif Məmmədəliyevi yanına çağırmış və ona tapşırmışdır ki, bu məsələni araşdırsın və Mərkəzi Komitəyə məlumat versin.

Beləliklə, respublika prokurorunun qaldırdığı cinayət işi M.C.Bağırovun dərkənarıyla Azərbaycan K(b)P MK-nın büro iclasının gündəliyinə düşmüşdür.

Azərbaycan K(b)P Mərkəzi Komitəsinin 1947-ci il 14 oktyabr tarixli büro iclasının qərarında oxuyuruq:

I. «Məmmədəliyev və Yaqubov yoldaşlara tapşırılsın ki, üç gün müddətində Dövlət Plan Komitəsinin və Elmlər Akademiyasının birlikdə hazırladıqları 163 ədəd coğrafi atlasın Azərbaycan SSR EA-nın keçmiş əməkdaşı Köçəryan tərəfindən mənimsənilməsinə aid materialları tərtib edərək, respublika prokuroru X.Əfəndiyev yoldaşa təqdim etsinlər.

II. X.Əfəndiyev yoldaşa tapşırılsın ki, Azərbaycan SSR-in 970 min manat dəyərində coğrafi atlaslarını oğurlamış Köçəryan barədə cinayət işi qaldırsın, Köçəryanı Ermənistan SSR-dən tələb edərək, istintaqa başlasın.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov». ...Mir Cəfər Bağırov iş başında olsaydı, 1947-ci ildə Azərbaycanın coğrafi atlaslarını oğurlamış Köçəryan kimi, Azərbaycanın əzəli torpaqlarını Ermənistana birləşdirmiş Köçəryanı «üç gün müddətində» Bakıya gətirib məhkəməsini qurardı!

Bəs, M.C.Bağırov vaxtında köçəryanları dustaq vaqonunda Ermənistandan Azərbaycana gətirib cəzalandıran Xəlil Əfəndiyevin sonrakı taleyi necə olmuşdur? 1957-ci ilin may ayında o, Mərkəzi Komitənin qərarı ilə aşağı vəzifəyə keçirilmiş - «Qlavlit»in rəisi olmuşdur. 1962-ci il iyun ayının 1-də isə bu vəzifədən «işin öhdəsindən gəlmədiyinə görə» kənar edilmişdir... Görəsən, həmişə işinin öhdəsindən layiqincə gələn Xəlil Sədrəddin oğlu Xəlilovu həmyerliləri - İsmayıllı rayonunun Sulut kənd sakinləri yada salırmı?

***

«Azərbaycan» qəzetinin 1999-cu il 12 noyabr sayında Azərbaycan prezidenti Heydər Əliyevin bir qrup yazıçı və şairi qəbul etməsi barədə geniş hesabat dərc olunmuşdur. Hesabatın bir yerində oxuyuruq:

**«Heydər Əliyev:** - Məni yenicə birinci katib seçmişdilər - bir, yaxud iki ay idi. Ermənilər Daşkəsəndə, Bayan kəndində bir daşnak abidəsi qoymuşdular.

**Bəxtiyar Vahabzadə:** - Yadımdadır, katibi də çıxardılar.

**Heydər Əliyev:** - Oranın da birinci katibi gecə gəlib onu uçurub dağıtmışdı. Mən də cəmisi iki ay idi işləyirdim... Mən o katibi işdən çıxardım, qərar qəbul elədik».

Bəli, daşnak abidəsini uçurub dağıtmış azərbaycanlı katib vəzifəsindən kənar edilmişdir. Bəs, daşnak abidəsini ucaldanlara niyə cəza verilməmişdir? Bu suala arxivdəki materiallar aydın cavab verir.

1969-cu il iyul ayının 27-də Daşkəsən rayonu Bayan kənd Zəhmətkeş Deputatları Sovetinin İcraiyyə Komitəsi tərəfindən kənd sakinlərindən birisinə aşağıdakı arayış verilmişdir:

«Verilir Mkrtıçyan Arşavir Makiçeviçə, ondan ötəri ki, o həqiqətən Azərbaycan SSR Daşkəsən rayonunun Bayan kənd sakinidir və kəndin ictimaiyyətinin tapşırığı ilə Moskva şəhərinə ezam olunmuşdur.

Arayış tələb edildikdə təqdim olunur.

**Kənd sovetinin sədri Mkrtıçyan,**

**Katibi Balayan».**

Mkrtıçyandan verilən arayışı tələb edən olmamışdır. Çünki o, Moskvaya «şanlı məktub» aparmışdır. Tanış olun:

**«Sovet İttifaqı Kommunist Partiyası MK-nin baş katibi Leonid İliç Brejnev yoldaşa**

Biz, Azərbaycan SSR-in Daşkəsən rayonu Bayan kəndinin sakinləri Böyük Vətən müharibəsində 600 qartal balamızı itirmişik. Onların xatirəsini əbədiləşdirmək üçün kəndimizin hazırda Ermənistanda yaşayan keçmiş sakinlərinin təklifi ilə abidə ucaltmaq qərara alınmışdır. Bu qərara Sovet İttifaqının başqa-başqa yerlərində hazırda yaşayan keçmiş bayanlılar da səs vermişlər. Üç il ərzində fasiləsiz inşaat aparılmışdır. Nəhayət, 1969-cu ildə tikinti başa çatdırılmış və abidənin açılışı sentyabr ayına təyin olunmuşdur.

Abidənin müəllifləri Ermənistan SSR əməkdar arxitektoru Rafael İsrailyan, Ermənistan SSR əməkdar memarı Aremik Arturyan dəfələrlə Bayanda olmuş, heykəlin layihəsini xalq ilə və yerli rəhbərlərlə razılaşdırmışlar. Abidənin yaxınlığında tarixi muzeyin də yaradılması nəzərdə tutulmuşdur.

Bizim dağ kəndimiz dağ qartallarını - əvəzsiz oğullarını itirmişdir. Bunu nəzərə alaraq, arxitektor və memar qanadlarını «oğul» deyə açmış ana qartalı 12 metr yüksəklikdə ucaltmışlar. Ana qartalın üç metr uzunluğundakı qanadlarında ölməzlik rəmzləri həkk olunmuşdur.

1969-cu il iyul ayının 26-da rayonun mərkəzi şose yolunun qırağındakı bu əzəmətli abidəni Daşkəsən rayon Partiya Komitəsinin birinci katibi Süleymanov yoldaş gecə saat iki tamamda darmadağın etmişdir. Əvvəlcə kəndin işıqları söndürülmüşdür, sonra da qaldırıcı kranla «Qartal» yerə endirilib parça-parça edilmiş, ayaq altına atılmışdır. Halbuki həmin qaldırıcı kranla «Qartal» 12 metr yüksəkliyə qaldırılmışdı.

Əziz Brejnev yoldaş! İyulun 26-sı gecə saat 3-dən bu günədək bu dəhşətli hadisədən bütün Bayan xalqı yas içindədir. Etiraz əlaməti olaraq heç kəs işə çıxmır.

Bayan kəndinin ictimaiyyəti Sizdən xahiş edir ki, Süleymanov xalqın məhkəməsi qarşısında cavab versin, xalq abidəsinin sökülməsinin baiskarı Sizin tərəfinizdən cəzalandırılsın və abidəmiz yenidən yüksəldilsin.

Vətən uğrunda həlak olmuş döyüşçülərin anaları, bacıları, arvadları və qızları adından: Şuşanik Danilyan, Vartanuş Kosetyan, Armenik Babayan, Aşxen Aqanesyan, Karapet Babayan, Anuş Ayrapetyan, Telli Marqarityan və başqaları».

**Daşkəsənin Bayan ermənilərinin bəyanatını 1969-cu il avqust ayının 6-da almış Azərbaycan KP Mərkəzi Komitəsi avqustun 15-də aşağıdakı cavabı Kremlə göndərmişdir:**

«Sizin 1969-cu il 6 avqust tarixli 118731 №-li məktubunuza cavab olaraq bildiririk ki, Böyük Vətən müharibəsində həlak olmuş döyüşçülərin şərəfinə ucaldılmış abidənin dağıdılması barədə Azərbaycan SSR Daşkəsən rayonu Bayan kəndinin sakinləri tərəfindən yazılmış ərizələr yoxlanılmış və nəticələri Azərbaycan KP MK Bürosunda müzakirə olunmuşdur.

Abidə boz rəngli bazaltdan hazırlanmışdır, hündürlüyü 14 metrdir. Sütun şəklindəki abidənin baş fasadında qanadları aşağı sallanmış qartal əks edilmişdir, ölçüsü 3 metrdir.

Abidənin layihələşdirilməsi və qurulması ilə əlaqədar bütün işlər Sov. İKP-nın, SSRİ Nazirlər Sovetinin «Heykəllərin və abidələrin layihələşdirilməsi və qurulması qaydası barədə» 1966-cı il 26 iyun tarixli qərarının və Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 1966-cı il iyul tarixli müvafiq qərarının tələblərini pozmaqla həyata keçirilmişdir.

Daşkəsən rayon Partiya Komitəsi və rayon İcraiyyə Komitəsi abidənin layihələşdirilməsinə və qoyulmasına nəzarət etməmişdir. Məsələyə Azərbaycan KP MK-nın Büro iclasında baxılmış, Büronun qərarı ilə Daşkəsən rayon Partiya Komitəsinin birinci katibi Süleymanova və rayon İcraiyyə Komitəsinin sədri Xocayana şəxsi uçot vərəqəsinə yazılmaqla töhmət elan edilmişdir. MK Bürosu Daşkəsən rayon Partiya Komitəsindən tələb etmişdir ki, Bayan kəndinin əhalisi arasında siyasi izahat işləri aparsın, abidədəki fiqurun dəyişdirilməsi zərurətini onlara çatdırsın və bildirsin ki, bununla əlaqədar abidənin bütün bərpa xərcləri dövlət hesabına ödəniləcəkdir.

Daşkəsən rayon Partiya Komitəsinin plenumunda və rayon Zəhmətkeş Deputatları Sovetinin sessiyasında Süleymanov və Xocayan tutduqları vəzifədən kənar edilmişlər.

**Azərbaycan KP MK katibi S.KozIov».**

Bakı-Daşkəsən arasında 1969-cu ilin may-avqust aylarında olan yazışmalar bunu da göstərir ki, daşnakların nazı ilə oynamayan rayon rəhbəri mərkəzdəkilərin qəzəbinə gəlmişdir. Belə ki, Daşkəsəndə ayağı yer tutmuş hər bir erməninin şifahi şikayətinə görə də şəxsən birinci katibdən yazılı izahat tələb olunmuşdur. Bunlardan birisi ilə tanış olun:

**«Azərbaycan KP Mərkəzi Komitəsinə**

Sizin şifahi sorğunuza əsasən, Daşkəsən rayon partiya komitəsi bildirir ki, 1913-cü ildə təvəllüd tapmış, orta təhsilli, 1943-cü ildən Sov. İKP üzvü Mkrtıçyan Baqrat Arutyunoviç 1964-cü il iyul ayına kimi rayonumuzda yeni təşkil olunmuş Abovyan adına sovxozun direktoru vəzifəsində çalışmışdır. İşin öhdəsindən gəlmədiyinə görə Azərbaycan SSR Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tutduğu vəzifədən azad edilmişdir.

Rayon Partiya Komitəsinin təklifilə Mkrtıçyan B.A. 1968-ci ilin iyul ayında rayonun kommunal təsərrüfatının direktoru vəzifəsinə təyin edilmişdir. Həmin vəzifədə 1969-cu ilin aprelinədək işləmişdir.

Rayon kommunal təsərrüfatının direktoru vəzifəsində işlədiyi müddətdə Mkrtıçyan yoldaş dəfələrlə raykoma müraciət edərək, xəstəliyi ilə əlaqədar işdən azad olunmasını xahiş etmişdir.

Hal-hazırda Mkrtıçyan yoldaş «Azərbaycan Kənd Təsərrüfatı Texnikası Birliyi»nin Daşkəsən rayon şöbəsində istehsalat xidməti stansiyasının rəisi vəzifəsində işləyir. Aylıq məvacibi 110 manatdır.

Mkrtıçyan yoldaş rayon partiya komitəsindən xahiş edir ki, onun rayonda yüksək rəhbər vəzifəyə keçirilməsi təmin olunsun. Biz Mkrtıçyan yoldaşı rayon partiya komitəsinə dəvət edərək ona izah etmişik ki, hazırda rayonumuzda ona layiq olan vakansiya yoxdur, boş yer olan kimi xahişinə əməl olunacaqdır.

**Azərbaycan KP**
**Daşkəsən**
**Rayon Komitəsinin**
**katibi**
**H.Süleymanov.**
**22 may 1969-cu il»**

***

İyirminci əsrin salnaməçilərindən biri, doğruçu şahid Əli Əliyev «Əlincə yaddaşı: Naxçıvan -1914-1992» kitabında yazır: «Xatirimə 1967-ci ildə Stepanakertin mərkəzi parkında üç nəfər azərbaycanlı gəncin yandırılması düşdü. Azərbaycanın o zamankı «millət ataları» hadisə yerində dərhal fəallar yığıncağı keçirdilər. Günahkarlar isə Azərbaycan məhkəməsi qarşısında durmadılar. Vilayət Partiya Komitəsinin birinci katibi Q.Meikumyan, İcraiyyə Komitəsinin sədri M.Ohancanyan Bakıya rəhbər vəzifələrə irəli çəkildilər».

Müəllifin yazdıqlarını arxiv sənədləri də təsdiq edir: 1967-ci il iyul ayının 11-də Azərbaycan KP MK Bürosunun qərarı ilə töhmət almış Melkumyan Qurgen Allahverdoviç ... 1971-ci ildə Oktyabr İnqilabı ordeni ilə təltif olunmuşdur!

Azərbaycan KP MK Bürosunun 1967-ci il 11 iyul tarixli qərarında oxuyuruq:

«...Azərbaycan KP MK Bürosu belə hesab edir ki, Stepanakert şəhərində baş vermiş hadisələrə görə vilayət milis idarəsinin başçıları Poqosyan və Abramyan, vilayət şəhər Partiya Komitəsi katibləri Qalstyan və Movsesyan, Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibləri Melkumyan və Arutunyan, Dağlıq Qarabağ vilayət İcraiyyə Komitəsinin sədri Ohancanyan və onun müavini Baqdasaryan bilavasitə məsuliyyət daşıyırlar.

Azərbaycan KP MK Bürosu qərara alır:

Kadrların seçilməsində və yerləşdirilməsində yol verilmiş nöqsanlara görə ayrı-ayrı kommunistlərə, o cümlədən zəhmətkeşlərin beynəlmiləlçilik ruhunda tərbiyə işinə zərər vuran rəhbər kadrlara liberal münasibət göstərilməsində, ictimai asayişin təmin olunmasında, öz işlərinə səhlənkar münasibət bəsləyən prokurorluq və məhkəmə orqanlarına tələbkarlıqla yanaşmadıqlarına görə Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi Melkumyan Q.A. yoldaşa və vilayət İcraiyyə Komitəsinin sədri Ohancanyan M.Q. yoldaşa töhmət elan olunsun.

**Azərbaycan KP MK katibi V.Axundov».**

***

Vəli Axundov 1969-1972-ci illərdə Azərbaycan Elmlər Akademiyası prezidentinin müavini vəzifəsində çalışarkən, onun haqqında Moskvaya böhtan dolu şikayət getdiyi vaxtlarda Melkumyan barəsində «şanlı məktub» göndərilirdi Sən demə, Vəli Axundovun cəzalandırdığı Qurgen Melkumyan... mələk imiş! Azərbaycan KP MK tərəfindən Kremlə göndərilmiş xasiyyətnamə ilə tanış olun:

**«Melkumyan Qurgen Allahverdoviçin xasiyyətnaməsi**

Q.A.Melkumyan yoldaş 1915-ci ildə Azərbaycan SSR DQMV Hadrut rayonunun Daşbaşı kəndində anadan olmuşdur, Ali təhsillidir.

1937-ci ildən 1939-cuilədək Hadrut rayon qəzetinin məsul katibi və məsul redaktoru olmuşdur. 1939-1945-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir.

1945-ci ildən 1962-ci ilədək vilayət partiya orqanlarında müxtəlif vəzifələrdə çalışmışdır. 1962-ci ilin sentyabr ayında Azərbaycan KP Dağlıq Qarabağ Vilayət Komitəsinin birinci katibi seçilmis və hal-hazıra kimi bu vəzifədə işləyir.

Vilayət Partiya Komitəsinin birinci katibi işlədiyi müddətdə Q.Melkumyan yoldaş özünü prinsipial, tələbkar və siyasi cəhətdən yetkin bir rəhbər kimi göstərmişdir. Partiya təşkilatlarının, sovet və təsərrüfat orqanlarının fəaliyyətini vilayət qarşısında duran vəzifələrin yerinə yetirilməsinə məharətlə yönəldir. Bunun nəticəsidir ki, vilayətdə təsərrüfatda və mədəni quruculuq sahəsində gözə çarpan nailiyyətlər əldə olunmuşdur. Vilayət sənaye məhsulları üzrə beşillik planı 4 il 10 ayda yerinə yetirmişdir. Beşillik ərzində sənaye məhsullarının həcmi 2,3 dəfə artmış, əmək məhsuldarlığının artım sürəti isə 13,1 faizə çatmışdır. Beşillik plan tapşırıqları artıqlaması ilə yerinə yetirilmiş, dövlətə ət satışı 114,9, süd-100,9, yumurta -100, taxıl-135,3, üzüm-125,5, tərəvəz-112,2 faiz olmuşdur.

Q.A.Melkumyan yoldaş Azərbaycan KP MK Bürosu üzvlüyünə namizəddir, SSRİ Ali Sovetinin deputatıdır. Respublika fəalları və vilayətin zəhmətkeşləri arasında böyük nüfuz və hörmət qazanmışdır.

**Azərbaycan KP MK katibi H.Əliyev».**

1967-ci ildə cəzalandırılmış Q.A.Melkumyan 1971-ci ildə «böyük nüfuz və hörmət qazanmış» və onun şərəfinə Azərbaycan KP MK Bürosu da öz tərkibini sayca artırmışdır. Sənədlərə diqqət yetirin:

**«Azərbaycan KP MK-nın 1971-ci il 12 mart tarixli plenumunun qərarından çıxarış. Protokol №1.**

Azərbaycan KP MK Bürosu barədə

1. Azərbaycan KP MK Bürosunun tərkibi 10 nəfər üzvdən, 3 nəfər namizəddən müəyyən edilsin.
2. Melkumyan Qurgen Allahverdoviç yoldaş Azərbaycan KP MK Bürosu üzvlüyünə namizəd seçilsin.

**Azərbaycan KP MK katibi H.Əliyev.**

1971-ci il mart ayının 24-də isə Azərbaycan KP MK-nın digər bir qərarı olmuşdur:

«Q.Melkumyan yoldaşın partiya cəzasının götürülməsi barədə

Azərbaycan KP MK bürosunun qərarı ilə 1967-ci il iyulun 11-də Q.A.Melkumyan yoldaşa verilmiş partiya cəzası -töhmət götürülsün.

**Azərbaycan KP MK katibi H.Əliyev».**

1967-ci ildə Stepanakertdə ermənilər tərəfindən yandırılmış üç azərbaycanlının məzarı beləcə alışıb yanmışdır...

Azərbaycan torpağında azərbaycanlıların ölümünə bais olanların ilhamvericisinə isə Azərbaycan rəhbərlərinin qayğısı ildən-ilə artmaqda davam

etmişdir. Bu qayğının təzahürlərindən biri də bundan ibarət olmuşdur ki, Melkumyan bir daha Azərbaycan KP MK Bürosuna -Bakıya Stepanakertdən zəhmət çəkib gəlməmişdir. O, paytaxtda rəhbər işə irəli çəkilmişdir.

Bu barədə Azərbaycan KP MK Bürosunun iki qərarı vardır:

1973-cü il 9 oktyabr və 1973-cü il 2 noyabr tarixli qərarlarda oxuyuruq:

«Q.Melkumyan yoldaş haqqında

Qurgen Allahverdoviç Melkumyan yoldaş Azərbaycan Həmkarlar İttifaqları Şurasının katibi vəzifəsinə tövsiyə edilsin».

**Azərbaycan KP MK katibi H.Əliyev».**

**«Q.A.Melkumyan və S.Ş.Beqlyarov yoldaşlar haqqında**

Melkumyan Qurgen Allahverdoviç yoldaşın Azərbaycan Həmkarlar İttifaqları Şurasının katibi vəzifəsinə təsdiq olunmasını və bu vəzifədən başqa işə keçirilməsinə görə S.Ş.Beqlyarovun azad edilməsi barədə AHİŞ-in təklifi qəbul edilsin.

**Azərbaycan KP MK katibi H.ƏIiyev».**

Yetmişinci illərdə bir sıra azərbaycanlı ziyalıların altmış yaşına çatmamış rəhbər vəzifələrindən pensiyaya göndərilməsinə baxmayaraq, Melkumyan yetmiş yaşınadək vəzifəsində qalmışdır. Hətta AHİŞ sədri Lidiya Rəsulova onu pensiyaya yola salmağı təkbaşına həll etməmişdir. 1985-ci il oktyabrın 31-də AHİŞ sədri L.Rəsulovadan Azərbaycan KP MK-ya aşağıdakı məktub daxil olmuşdur:

«Azərbaycan Həmkarlar İttifaqları Respublika Şurası pensiyaya çıxması ilə əlaqədar olaraq Qurgen Allahverdoviç Melkumyan yoldaşın AHİŞ katibi vəzifəsindən azad olunması təklifilə Sizə müraciət edir.

**AHİŞ sədri L.Rəsulova».**

***

Yetmişinci illərdə Azərbaycan SSR Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləmiş İsmayıl İbrahimov 1995-ci ildə «Səda» nəşriyyatı tərəfindən buraxılmış «Dövrüm haqqında» kitabında institut illərindən geniş söhbət açır. Müəllif yazır: «Qırx altıncı ildə institut partiya təşkilatı katibinin müavini seçildim. Həmin il keçirilən hesabat-partiya iclasında institut partiya təşkilat katibi Ə.Məmmədovun əvəzinə Q.Sergeyev seçildi. Bu iclasda partkom tərkibinə irəli sürülən namizədlərdən institutun rektoru S.B.Qocayevin namizədliyi keçmədi. Ayrı-ayrı kommunistlərin çıxışları bir qənaətə şübhə yeri qoymurdu ki, kollektivdə bəzi işçilərin, ilk növbədə bir tərəfdən institut rektoru S.Qocayev və partkom Ə.Məmmədovun, digər tərəfdən P.Mosesovun başçılıq etdiyi marksizm-leninizm kafedrasının əməkdaşları arasında münasibətlər qaydasında deyil. Nəticədə nə Qocayev, nə də Məmmədov partiya komitəsi tərkibinə seçilmədilər.»

P.Mosesov institutun rektoru, respublika ictimaiyyəti arasında pak və prinsipial insan kimi hörmət qazanmış Saleh Qocayev haqqında mənfi rəy oyatmaq üçün dəridən-qabıqdan çıxırdı. Mosesovun Qocayevə qarşı irəli sürdüyü

ittihamlardan biri də bundan ibarət idi ki, «Azərbaycan Sənaye İnstitutunda «xalq düşməni» uşaqları təhsil alır». Bu «xalq düşməni» balasından biri də Əkrəm Şəkinski idi. Onun atası Məmmədəmin Əhməd oğlu Şəkinski həqiqətən 1918-ci ildə «Hümmət» təşkilatının Aşqabad komitəsinin məsul katibi olmuş, Gəncədə Müsavat ordusunda gizli partiya işi aparmışdı.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində M.Ə.Şəkinskinin 1937-ci il fevralın 13-də öz dəst-xətti ilə yazdığı tərcümeyi-halını nəzərinizə çatdırıram:

«Mən, Məmmədəmin Əhməd oğlu Şəkinski, 1890-cı ildə Zakaspiyski vilayətinin Aşqabad şəhərində anadan olmuşam, əslən Nuxa şəhərindənəm. Anam saatsaz qızı olmuşdur. Atam kollecdə qeydiyyatçı işləmişdir. Səkkiz yaşınadək valideynlərimin yanında tərbiyə almışam. Sonra isə atam Nuxa şəhərinin başçısı vəzifəsində işləyərkən, mən 1909-cu ildə 1 №-li Tiflis gimnaziyası pansionuna göndərilmişəm. Burada 1917-ci ilədək təhsil almışam. Gimnaziyada oxuyarkən RSDF(b)P-nin «Hümmət» təşkilatı sıralarına daxil olmuşam. 1917-ci ildə «Hümmət» təşkilatı məni (5 №-li siyahı üzrə) Qars vilayətinə, Nuxa və Ağdaş şəhərlərinə təsis yığıncaqlarını keçirmək üçün ezam etmişdi. Ezamiyyət müddəti ay yarım çəkmişdi.

Tiflisə qayıtdıqdan sonra, pansionat bağlandığı üçün «Hümmət» təşkilatının razılığı ilə Aşqabada, atamın yanına getmişəm. Orada 1918-ci ildə İbrahim Əliyev (hazırda Dağıstanda işləyir), Cəlal Hacıyev ilə birlikdə «Hümmət» təşkilatının Aşqabəd komitəsində çalışmışam. Komitənin məsul katibi və Aşqabad Sovetinin üzvü kimi türk yoxsullarının partiyamıza qəbul olunması sahəsində və Sovet hakimiyyəti qurulması uğrunda fəal iştirak etmişəm.

1918-ci ilin yayında Aşqabadda Sovet hakimiyyəti süqut etdikdən sonra «Hümmət» sədrinin müavini Cəlal Hacıyevin köməyi ilə Azərbaycana gəlmişəm...».

Şəkinski izahatında Müsavat ordusunun əsgəri olmasından da geniş söhbət açır.

«Qızıl Ordunun tərxisindən sonra bu işlərdə olmuşam: Bakı şəhər Maarif Şöbəsi müdirinin müavini, Bakı şəhəri milis şöbəsi inzibati idarəsinin rəisi, Bakı Şəhər soveti təşkilat şöbəsinin müdiri (bir ay), Azərbaycan SSR prokurorunun köməkçisi, Qala-Maştağa rayon sovetinin sədri, Quba qəza icraiyyə komitəsinin sədri, Azərbaycan Siyasi İdarəsi yanında baş milis rəisi müavini, Yevlax pambıq kombinatının direktoru, Yevlax qəsəbə sovetinin, Yevlax rayon icraiyyə komitəsinin sədri.

1920-ci ildə Bakı ikinci gimnaziyasını bitirmişəm. Qayınatam ruhani olduğundan səs hüququndan məhrum idi və mənim onunla heç bir əlaqəm olmamışdır.

Diviziya komissarı kimi rayon hərbi komissarlığının qeydiyyatındayam, 1931-ci ildə Novoçerkasski yaxınlığında hərbi hazırlıq təlimində olmuşam».

...Mir Cəfər Bağırov keçmiş «Müsavat əsgəri»ni yaxşı tanıyırdı. Onun geoloq olmaq istəyən oğlunun adını Bakı metrosunun tunel tikintisində işləyən gənclərin siyahısında görəndə sevinmişdi. P.Mosesovun isə bunlardan xəbəri yoxdu.

1951-ci ilin mart ayı. Mosesovun gözləri mühazirə zamanı orta cərgədə əyləşmiş Əkrəmin əlindəki kağıza sataşır. Danışa-danışa ona yaxınlaşır:

-Nə oxuyursan, ver bura!

-Müəllim, bunun sizin fənninizə dəxli yoxdur.

-Necə? Dəxli yoxdur deyirsən?!

Əkrəm əlindəki kağızı şalvarının cibinə qoyur. Bütün tələbələr bu qeyri-adi səhnəni izləyir. Qəfil sillə səsi eşidilir. Əkrəm müəllimə qəzəblə baxa-baxa mühazirə zalını tərk edir. Elə bu vaxt zəng çalınır.

Martın 30-da baş vermiş hadisəni partiya təşkilatında gizlətməyə çalışsalar da, institutun rektoru Saleh Qocayev dərhal bu barədə şəxsən Mir Cəfər Bağırova xəbər verir. Mosesov özünü xəstəliyə vurur, işə çıxmır. Az.Sİ-nin kommunistləri arasında belə bir şayiə yayılır ki, guya Bağırov yoldaş deyib ki, «xalq düşməninin oğluna sillə vuran müəllim cəzalandırıla bilməz».

Akademik İsmayıl İbrahimov yuxarıda adını çəkdiyimiz kitabında o günləri belə xatırlayır: «Əlli birinci ildə institut partiya yığıncağı ərəfəsində səhərdən hesabat hazırlamaqla məşğuldum. Saat 11-ə 20 dəqiqə işləmiş ilk iki-saatlıq məşğələ başa çatanda partiya komitəsinə əsəbi halda marksizm-leninizm kafedrasının müdiri, professor Petros Mosesov girib, həyəcanla mənə söyləyir ki, auditoriyada bir tələbənin şübhəli kağız-kuğuz oxuduğunu görüb, ona yanaşır, yazını göstərməyi tələb edir, tələbə boyun qaçıranda professor ona sillə vurur.

Mən onu sakitləşdirib kafedraya yolladım, özüm də oturub götür-qoy eləməyə başladım ki, nə əncam görüm. Şəhər partiya komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri, indi də böyük hörmət bəslədiyim bizim Nəsir İmanquliyevə telefonla zəng vurub baş vermiş əhvalatı söylədim. Bir neçə dəqiqədən sonra şəhər komitəsinin ideologiya üzrə katibi Yakov Zevin mənə zəng vurur: «Baş vermiş həngamə münasibəti ilə təbrik edirəm, - deyir. -Partkomun təcili iclasını çağırıb məsələni müzakirə etmək lazımdır. Gərək ki, o, Mosesovun, hətta partiyadan çıxarılmasının vacibliyini nəzərimə çatdırdı... Məsələni çox çək-çevir edib, P.Mosesovun partiyadan xaric edilməsini rəva bildik. Saat dörddə hesabat-seçki yığıncağı başlandı. Kommunistlər Mosesov haqqında qərarımızı bəyəndilər. Amma onun özü yox idi. S.M.Kirov adına Fizioterapevtik İnstitutunda yatağa düşmüşdü. Həmin müalicəxananın baş həkimi Gevorkov idi.

Az sonra Mosesov stasionardan çıxıb işə qayıtdı. Onun şəxsi işinə raykomun bürosunda baxıldı. Məsələ başqa yön aldı. O vaxt raykomun birinci katibi olan Qulam Həsənzadə mənə xəbər verdi ki, M.C.Bağırovun göstərişinə görə P.Mosesov partiyadan çıxarılmayacaq, çünki elə günah işlətməyib, yəni onun

vurduğu tələbə «xalq düşməni» sayılan Bakı şəhər milisinin sabiq rəisi Məmmədəmin Şəkinskinin oğludur.

Bu əhvalatdan agah olan P.Mosesov məsələ müzakirəyə qoyulanda açıq-aydın S.Qocayevlə haqq-hesab çürütmək niyyətilə institutdakı vəziyyəti özü istədiyi kimi qiymətləndirdi. Bizim təklifimizlə protokolda qərar belə şəkildə qeyd olunur ki, Mosesov partiyadan kənar edilməyə layiqdir, lakin səhhətini nəzərə alaraq, ona uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət verilsin»,

Arxiv sənədləri göstərir ki, Mir Cəfər Bağırov Məmmədəmin Şəkinskinin oğluna sillə vuran professor Mosesova güzəştə gedənlərin hamısının səhvini vaxtında düzəltmişdir. Azərbaycan K(b)P Mərkəzi Komitəsinin 1951-ci il 21 aprel tarixli büro iclasının qərarında deyilir:

«M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun marksizm-leninizm kafedrasının müdiri Mosesov P.B. barəsində

M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun marksizm-leninizm kafedrasının müdiri Mosesov P.B. kafedranın işinə rəhbərliyi təmin etmədiyinə və sovet pedaqoqu adına yaraşmayan hərəkətə yol verdiyinə görə vəzifəsindən kənar edilsin.

ÜİK(b)P MK-dan bu qərarın təsdiq olunması xahiş edilsin.

Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov».

Mir Cəfər Bağırovun imzaladığı məktubla bir vaxtda Moskvaya Mosesova haqsız cəza verilməsinə dair şikayət məktubları da çatdırılmışdır. 1951-ci ilin may ayında ÜİK(b)P MK-nın elm və ali məktəblər şöbəsinin müdiri A.A.Jdanov Azərbaycan K(b)P MK-dan Mosesovun vəzifəsindən kənar edilməsilə əlaqədar ətraflı məlumat göndərməyi xahiş etmişdir. Cavab məktubunu M.C.Bağırovun tapşırığı ilə Azərbaycan K(b)P MK katibi Həsən Həsənov may ayının 10-də göndərmişdir. Məktubda deyilir:

«ÜİK(b)P MK-nın elm və ali məktəblər şöbəsinin müdiri

A.A.Jdanov yoldaşa

M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun marksizm-leninizm kafedrasının müdiri professor Mosesov P.B. ciddi nöqsanlara yol vermiş və ondan tələb edilmişdir ki, özünün pedaqoji və elmi fəaliyyətində əsaslı dönüş yaratsın.

1949-cu il aprelin 12-də Azərbaycan K(b)P MK bürosunda M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutu marksizm-leninizm kafedrasının işi müzakirə olunarkən qeyd olunmuşdur ki, kafedranın müdiri Mosesov P.B. kafedraya zəif rəhbərlik edir, bunun nəticəsidir ki müəllimlərin mühazirələrində olduqca ciddi siyasi qüsurlara yol verilir.

...Professor Mosesov P.B. nəinki Azərbaycan K(b)P MK-nın və Bakı Komitəsinin göstərişlərini qulaqardına vurmuş, hətta bu il mart ayının 30-da sovet alimi adına yaraşmayan hərəkət etmişdir: institutun iki fakültəsinin birgə məşğələsində mühazirə zamanı geoloji kəşfiyyat fakültəsinin tələbəsinə sillə vurmuşdur.

Azərbaycan K(b)P MK bürosunun 1951-ci il 21 aprel tarixli qərarı ilə Mosesov P.B. kafedranın işinə rəhbərliyi təmin etmədiyinə və sovet pedaqoqu adına yaraşmayan hərəkətə yol verdiyinə görə Az.Sİ-nin marksizm-leninizm kafedrasının müdiri vəzifəsindən kənar edilmişdir.

Professor Mosesovun ləyaqətsiz davranışı məsələsinə Az.Sİ-nin partiya komitəsinin iclasında baxılmış və onun ÜİK(b)P sıralarından xaric olunması barədə qərar qəbul edilmişdir.

İnstitutun ilk partiya təşkilatı Mosesov xəstə yatdığından bu məsələyə hələlik baxmamışdır».

Protokoldan çıxarışı Mir Cəfər Bağırov imzalamışdır. Mosesov və Mosesov kimilər bu imzanın çəkildiyi qərarın Kreml tərəfindən ləğv olunmasında aciz idilər.

Mir Cəfər Bağırov «Müsavat əsgəri» Məmmədəmin Şəkinskinin oğluna sillə vuran erməni professoru bağışlaya bilməzdi! Bunu Mir Cəfər Bağırovdan sonrakı Azərbaycan rəhbərləri etdilər. Bu barədəki sənədlərə diqqət yetirin:

«Azərbaycan K(b)P Mərkəzi Komitəsinin 1954-cü il 12 fevral tarixli büro iclasının protokolundan çıxarış

P.B.Mosesov yoldaşın S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti marksizm-leninizm kafedrasının müəllimi təsdiq olunması haqqında

1925-ci ildən ÜİK(b)P üzvü, partiya bileti № 4704944, Petros Baqdasaroviç Mosesov yoldaşın S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti marksizm-leninizm kafedrasının müəllimi təsdiq olunması barədə ADU-nun rektorunun təklifi qəbul edilsin.

Azərbaycan K(b)P MK katibi T.Yaqubov».

1954-cü ilin sentyabr ayında Azərbaycan KP MK-nın elm və mədəniyyət şöbəsinin müdiri A.Bayramovun adına Mosesov barədə iki məktub daxil olmuşdur.

Azərbaycan SSR maarif naziri M.Məmmədovun sentyabrın 15-də imzaladığı məktubda oxuyuruq:

«Azərbaycan SSR Maarif Nazirliyi tarix elmləri doktoru, professor Petros Baqdasaroviç Mosesovun M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutu marksizm-leninizm kafedrasının müdiri vəzifəsinə təsdiq olunmasını Sizin müzakirənizə təqdim edir.

P.B.Mosesov yoldaşın şəxsi işi əlavə olunur».

Mosesovun işlədiyi ADU-dan isə MK-ya xasiyyətnamə təqdim edilmişdir. Üç il əvvəl Azərbaycan Sənaye İnstitutundan qovulmuş müəllim xasiyyətnaməsində mələk donunda təqdim edilir: «Mosesov Petros Baqdasaroviç milliyyətcə ermənidir, 1925-ci ildən Sov.İKP üzvüdür.

P.B.Mosesov yoldaş elmlər doktoru və professor, Sov.İKP tarixi sahəsində yüksək ixtisaslı alimdir. O, 1949-cu ildən hal-hazıra kimi Universitetdə marksizm-leninizm fənnindən dərs deyir. 1930-cu ildən ali məktəb müəllimidir.

P.B.Mosesovun mühazirələri və seminar məşğələləri yüksək ideya-nəzəri səviyyədə keçirilir. Onun bilavasitə elmi rəhbərliyi ilə respublikanın bir sıra gənc mütəxəssisi dissertasiya yazıb müdafiə etmişdir.

Professor Mosesov böyük elmi-tədqiqat işi aparmaqla yanaşı, aspirantlara və dissertantlara səmərəli rəhbərlik edir.

P.B.Mosesov yoldaş Sov.İKP tarixini təkbaşına öyrənənlərin məsləhətçisi, Azərbaycan KP Voroşilov Rayon Komitəsinin mühazirəçilər qrupunun rəhbəridir.

Xasiyyətnamə Azərbaycan KP MK-nın elm və mədəniyyət şöbəsinə təqdim olunur».

Mərkəzi Komitənin elm və mədəniyyət şöbəsinin müdiri A.Bayramov yoldaş Mosesovu yeni vəzifəyə təyin etmək üçün şəxsi işini deyil, xasiyyətnaməni əsas götürmüşdür. Niyə? Çünki onun şəxsi işində... 1942-ci ildə töhmət alması barədə də məlumat vardır. Bu cəzanı da ona Mir Cəfər Bağırov vermişdir. Tanış olun:

«Azərbaycan K(b)P MK Bürosu iclasının 1942-ci il 29 iyun tarixii 241 №-li protokolundan çıxarış

P.B.Mosesov tərəfindən partiya sənədinin itirilməsi haqqında

Azərbaycan K(b)P Voroşilov Rayon Komitəsi tərəfindən verilmiş 28988715 №-li partbiletini itirdiyinə görə Mosesov Petros Baqdasaroviçə töhmət elan edilsin.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

Bəli, M.C.Bağırov Azərbaycan rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra vəzifədə olan ermənilər kimi daşnak professorun da yolunda yaşıl işıq yandırılmışdı. O, Azərbaycan Dövlət Universitetində işləməklə yanaşı, həm də M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunda marksizm-leninizm kafedrasının müdiri vəzifəsinə təyin edilmişdir. Respublika «Bilik» Cəmiyyəti Rəyasət Heyətinin üzvü və İdarə Heyətinin sədr müavini seçilmişdir. Dəfələrlə xarici ölkələrə elmi ezamiyyətə göndərilmişdir. Hətta uzaq Kubada mühazirələr oxumuşdur.

Azərbaycan Dövlət Universitetinin rektoru Faiq Bağırzadə və partiya komitəsi katibinin müavini Qurban Bayramov tərəfindən imzalanmış xasiyyətnamədə deyilir ki, P.B.Mosesov respublikamızda ilk tarix elmləri doktorudur, «1917-1920-ci illərdə Azərbaycanda vətəndaş müharibəsi» mövzusunda dissertasiya müdafiə etmişdir...»

Daşnak professor əcnəbi ölkələrin tələbələri qarşısında oxuduğu mühazirələrində Bakıda baş verən hadisələri erməni mənbələrinə əsaslanaraq qiymətləndirmişdir, 1918-ci il mart faciəsini «müsavatçıların Sovet hakimiyyətinə qarşı qiyamı» kimi qələmə vermişdir. Bütün bu elmi-pedaqoji fəaliyyətinə görə orden və medallarla təltif edilmişdir. 1975-ci ilin dekabrında isə anadan olmasının 70 illiyi geniş bayrama çevrilmişdir. 1977-ci il avqust ayının 3-də isə Sov.İKP MK

Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev belə bir qərara imza atmışdır:

«P.B.Mosesov yoldaşa Azərbaycan SSR əməkdar elm xadimi fəxri adının verilməsi barədə

Tarix elminin inkişafında və yüksək ixtisaslı kadrların hazırlanmasında xidmətlərinə görə S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti Sov.İKP tarixi kafedrasının professoru Petros Baqdasaroviç Mosesov yoldaşa Azərbaycan SSR əməkdar elm xadimi fəxri adı verilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin bu məsələyə dair fərmanının layihəsi (əlavə olunur) bəyənilsin»....

***

Naxçıvan MSSR maarif komissarı, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin katibi və digər vəzifələrdə işləmiş Əli Əliyev 1997-ci ildə «Gənclik» nəşriyyatı tərəfindən buraxılan «Əlincə yaddaşı: Naxçıvan - 1914-1992» kitabında yazır: «1966-cı ildə erməni yazıçısı Marietta Şaginyan Moskvadan «Volqa» avtomobilində Avropaya səyahətə çıxır. Fransanın paytaxtı Parisdə olarkən, kommunarların dəfn olunduğu qəbiristanlığa gedir, orada Andronikin at üstündəki heykəlini ziyarət edir,

Moskvaya qayıdandan sonra «İzvestiya» qəzetində Avropa təəssüratları barədə dalbadal səkkiz xatirə-yazı çap etdirir. Məqalələrin ən sanballısını Andronikə həsr etmişdi. Şaginyanın bu hərəkəti mənə bərk toxunmuşdu. Necə deyərlər, isti-isti «İzvestiya» qəzetinin redaksiyasına və Şaginyana məktub yazıb, Andronikin Azərbaycanda törətmiş olduğu cinayətləri, vəhşilikləri canlı faktlar əsasında şərh etdim. Hər iki məktubuma cavab gəldi. Şaginyan mənə belə yazmışdı (məktublarıma aldığım cavablar şəxsi arxivimdə saxlanılır): «Mən Moskvada anadan olmuşam. Androniki tanımıram, qəbiristanlıqda at üstə əzəmətli bir heykəl görüb qələmə aldım».

O vaxtlar Əli Əliyev Naxçıvan Vilayət Partiya Komitəsində çalışırmış. Güman edirmiş ki, Andronikin Azərbaycanda törətdiyi cinayətləri cəsarətlə M.Şaginyana yazdığına görə rəhbər işçilər onu müdafiə edəcəklər. Əfsuslar olsun ki... Müəllif başına gətirilənləri belə nəql edir: «Vətənpərvərlik hisslərimi, vətəndaşlıq borcumu açıq nümayiş etdirdiyimə görə, bəzi «ağzıgöyçək» rəhbər yoldaşlara sözün düzünü dediyimə görə əleyhimə açıq-gizli təbliğat aparılırdı... Qərəz, günlər keçir, zamanın dəyirmanı özü bildiyini özü bildiyi kimi «üyüdürdü». Axır, nəhayət, mənim Ali Sovetdən uzaqlaşdırılmağıma «yol» tapıldı. 1967-ci ilin avqust ayında Vilayət Partiya Komitəsinin birinci katibi Hacıağa İbrahimov məni yanına çağırdı: «APİ-nin Naxçıvan filialı açılır və sizi ora rektor məsləhət görmüşük»-dedi».

...Əli Əliyev yuxarıda adını çəkdiyimiz kitabında daha sonra yazır: «70-80-ci illərdə Zaqafqaziya respublikalarının ensiklopediyalarında Zəngəzur, Naxçıvan qırğınları, Andronikin, Amazaspın, Ovsepyanın və onlarla digər erməni

generallarının əməlləri ört-basdır edildi, bu əməliyyatlara bilavasitə rəhbərlik edən bolşevik təşkilatının, Bakı Kommunasının xidmətləri şişirdildi, qardaş qırğınına son qoymağa çalışan Türkiyə işğalçı dövlət kimi qələmə verildi. 60-70-ci illərdə «Kommunist» qəzetinin, necə deyərlər, «qoltuğuma verib» geri qaytardığı yazılarımı Naxçıvanın «Şərq qapısı» qəzetində çap edirdilər. Təsəvvür edin ki, «Cəmşid bəy Naxçıvanski» adlı məqaləmi «Kommunist» qəzetində Hayro Sərkisova «rəyə veriblər». Gəlib müraciət edəndə ki, materialın aqibəti nə vəziyyətdədir? Mənə açıqca bildirdilər: «Çap edə bilməyəcəyik, vəssalam!»

Arxiv sənədləri göstərir ki, Hayro Sərkisov Azərbaycan mətbuatının «Petros Mosesovu» olmuşdur. Hələ 1940-cı ildə o, «Bakinskiy raboçiy» qəzetinin redaktor müavini vəzifəsində işləyərkən Mərkəzi Komitə tərəfindən töhmət almışdır. Qərarı M.C.Bağırov imzalamışdır.

Yetmişinci illərdə «Kommunist» qəzetinin «Azərbaycan tarixi üzrə məsləhətçisi» «Cəmşid bəy Naxçıvanski» kimi yüzlərlə dəyərli yazıların işıq üzü görməsinə imkan verməmişdir. Bəs Sərkisovların ilhamvericiləri kimlər olmuşlar?

«Kommunist» qəzetinin Sərkisov ənənələrini bəzən davam etdirən «Xalq qəzeti» bu gün də xalqımızın əzəli düşmənlərinin sözlərini oxucularına çatdırır. Qəzetin 2002-ci il 26 mart sayında Sərkisovlar sülaləsindən olan Sərkisyanın narahatlığı belə ifadə olunur: «Azərbaycanda bəzi siyasətçilərin «əgər problem sülh yolu ilə aradan qaldırılmasa, məsələni hərbi yolla həll etmək lazımdır» çağırışları adamları son dərəcə gərgin vəziyyətdə saxlayır. Hər dəfə Qarabağdan söhbət düşəndə, axırı gəlib müharibə məsələsinə çıxır və dua edirlər ki, Heydər Əliyev sağ-salamat olsun. Dağlıq Qarabağ camaatı münaqişənin sülh yolu ilə həllində Heydər Əliyevə ümid bəsləyir və inanır ki, əgər o, hakimiyyətdən getsə, müharibə ehtimalı çoxalacaqdır».

Sərkisyanın «babası» Sərkisov isə 1954-cü ildə Dağlıq Qarabağ Vilayət Komitəsinin təbliğat üzrə katibi vəzifəsində işləyərkən, zəhmindən daşnakların tir-tir əsdikləri Azərbaycan rəhbərindən «zəncir çeynəyirdi»: «1949-cu ildə Moskvaya Ali Partiya Məktəbinə getmək ərəfəsində Bağırov məni qəbul etdi və bunları tapşırdı. ««Oktyabr» jurnalında Şaginyanın məqaləsini oxu. Axı o, Azərbaycandan nə istəyir? Gəncə kəndlərinin Ermənistana birləşdirilməsi nə deməkdir?!

«Literatumaya qazeta» da Şaumyanın oğlu - Levon Şaumyan işləyir. O da Şaginyanı müdafiə edir. Moskvada Mərkəzi Komitənin mətbuat bölməsinə gedərsən. Orada Vahan Qriqoryan işləyir. Bunları ona çatdırarsan.

Mən Moskvada olarkən Bağırovun verdiyi tapşırığa əməl etmədim. Çünki Marietta Şaginyanın və Levon Şaumyanın günahkar olduğunu dərk etmirdim»,

...Sərkisyan dua edir, Sərkisov lənət yağdırır. Bəs zaman nə deyir?...

# MARİETTA ŞAGİNYANIN ƏLYAZMASINA MİR CƏFƏR BAĞIROVUN MÜNASİBƏTİ VƏ...

**(«Nəbz» qəzeti, 19 oktyabr-2 noyabr 2001)**

**Nizami Gəncəvinin 800 illiyi münasibəti ilə 1940-cı ildə Marietta Şaginyan «Nizami Gəncəvi» adlı əsər yazmışdı. Əsərin əlyazması Moskvanın Dövlət Bədii Nəşriyyatı tərəfindən Bakıya - Mir Cəfər Bağırova göndərildi. Azərbaycan rəhbəri ciddi qüsurlara yol verilmiş əlyazmanı Tarix İnstitutunun direktoru, şair və alim İsmayıl Hüseynovun rəyi ilə birlikdə geri qaytardı. Həmin rəydə oxuyuruq:**

«Əlyazmasında ciddi qüsurlar və tədqiqat çatışmazlığı vardır ki, bunlar da bütünlükdə əsərin dəyərini olduqca aşağı salır. Bu qüsur və çatışmazlıqlar aşağıda göstərilənlərdən ibarətdir:

1. Əsərdə Şərqin orta əsrlər tarixindən, xüsusən xilafət və Səlcuq dövlətinin tarixindən çoxlu faktlar verilmişdir ki, müəllif bunların köməyilə Nizami yaradıcılığını milli Azərbaycan təzahürü kimi yox, Şərq, ümummüsəlman təzahürü kimi təqdim etməyə cəhd göstərir.

M.Şaginyan islam ehkamları ilə Nizaminin dini görüşlərini müqayisə etməklə özünün mövqeyini möhkəmlətməyə çalışır və bu təşəbbüs milli Azərbaycan zəminində edilmədiyinə görə belə təsəvvür yaranır ki, müəllif öz tədqiqatı üçün azərbaycanlıların mənəvi-mədəni və maddi-məişət həyatından maraqlı heç nə tapmamışdır. M.Şaginyan üçün ərəb işğalı nəticəsində yaranmış müsəlman dünyası ümumilikdə mövcuddur. Ayrı-ayrı ölkələr daxilində iqtisadi həyatın və ana dilinin milli xüsusiyyətləri, həmçinin milli-psixoloji xarakter nəzərə alınmır. Buna görə də M.Şaginyanın əsərində Firdovsi ilə Nizami yaradıcılığı bir-birindən yalnız janr əlamətlərinə görə fərqlənir.

Buna görə də Nizaminin milli mənsubiyyəti haqqında M.Şaginyanın mülahizələri natamamdır («Nizami Azərbaycanda anadan olmuş və vəfat etmişdir»). Halbuki bir sıra Sovet alimləri bu barədə dəfələrlə yazmışlar (Bertels, Rəfili, Araslı və başqaları).

2. Nizaminin həyat və yaradıcılığı haqqında tədqiqatında M.Şaginyanın sərt mövqeyi özünü şairin poetik və fəlsəfi baxışları, onun təhsili və tərbiyəsi ilə əlaqədar mülahizələrdə açıq-aydın göstərir.

Bu məsələlərdə M.Şaginyanın tezisi belədir: Xilafət dövründə ərəblər yunan mədəniyyətini əxz etmiş, müsəlman dünyasının qalan hissəsi isə bu yeni ərəb mədəniyyətinə qovuşaraq məhz onun vasitəsilə Aralıq dənizi ölkələrində baş verən mədəni dəyişikliklər və nailiyyətlər barədə məlumat əldə etmişlər (bax: «Müqəddəs ailə» fəsli, səh.68 və sonrakı səhifələr).

Bu tezis bir sıra Şərq xalqları üçün müəyyən mənada məqbul olsa da, azərbaycanlıların keçmişini, Azərbaycan mədəniyyətini, o cümlədən ədəbiyyatının tarixini öyrənməyə başlayan oxucunu çaşdıra bilər.

Hələ Yasəf mədəniyyətinin (tədqiq etməyin - Red.) banisi sayılan akademik Marr vaxtilə Qafqaz xalqlarının maddi mədəniyyət tarixini öyrənərək belə nəticəyə gəlmişdir ki, qədim azərbaycanlılar - albanlar ərəblərin Qafqaza

gəlişindən xeyli əvvəl Qara dəniz və Aralıq dənizi xalqları ilə sıx əlaqə saxlayırdılar.

Alban dilində yunan söz və ifadələrinin olmasına Marr «Albaniya əhalisinin bilavasitə Qərblə, Qara dəniz sahilləri ilə və sonra dəniz vasitəsilə Bizansla canlı əlaqələrinin təzahürü kimi» baxır (N.Y.Marr, Seçilmiş əsərləri, 5-ci cild, səh. 75-76).

Beləliklə də, Nizaminin dəqiq elmlər sahəsində məlumatlı olmasını, hər şeydən əvvəl böyük şairin mənsub olduğu Azərbaycan xalqının qədim yunan cəmiyyəti ilə, Bizansla mədəni əlaqələrilə izah etmək lazımdır. Tədqiqatın bu yol ilə aparılması Nizaminin yaradıcılığında bütün milli cəhətlərin açılıb göstərilməsinə kömək edərdi.

Nizaminin Rus dövləti haqqındakı məlumatları ilə əlaqədar da Şaginyanın mövqeyi yanlışdır. İndiyədək alimlər Azərbaycan-Rusiya iqtisadi və mədəni münasibətlərini təsadüfi təzahürlərlə əlaqələndirərək (misal üçün, 9-cu və 10-cu əsrlərdə slavyanların Azərbaycana yürüşləri) dinc yolla yaradılmış bütün münasibətləri sərf-nəzər edirdilər. Şaginyan bu yolla getməmiş, lakin ondan yaxşısını da tapa bilməmişdir. «Yeddi gözəl»də slavyan şahzadəsi haqqındakı materialı Şaginyan ərəb coğrafiyaşünasları və səyyahlarının dedikləri ilə əlaqələndirir.

Mən şəxsən Marrın mülahizəsinə üstünlük verirəm: «Şair Nizami özünün poetik əsəri üçün ölkədə ruslar haqqında olan rəvayətdən istifadə etmişdir. (Seçilmiş əsərləri, beşinci cild, səh. 100).

Üstəlik, Albaniya yazıçısının erməni dilində yazdığı əsərdə «salo» sözünün olmasını Marr əmtəə mübadiləsi və hərbi yürüşdən əlavə həm də Albaniyada (Azərbaycanda) rus koloniyasının olması ilə izah edir. (Yenə orada. 5-ci cild, səh. 111).

Bizim sovet cəmiyyətini maraqlandıra biləcək başlıca cəhət də budur. Slavyan şahzadəsi haqqında rəvayətin mənşəyini məhz burada axtarmaq lazımdır.

3. Nizami və onu əhatə edən mühit, vətəni Azərbaycan orta əsrlərdə sözsüz ki, müsəlman dünyasından təcrid olunmuş halda mövcud deyildi. Üstəlik, islam dini, ərəb və İran mədəniyyəti Azərbaycan cəmiyyətinə əhəmiyyətli təsir göstərirdi.

4. Lakin Nizamini öyrənərkən bu, başlıca amil sayılmamalıdır. Nizaminin mütərəqqi ideyalarının və humanizminin kökləri şairin dövrünə qədər böyük ictimai təbəddülat keçirən Azərbaycanda idi. Axı, XI-XII əsrlərdə şəhər sənətkarları ilə feodalların mübarizəsinin kəskin xarakter aldığı Azərbaycan Yaxın Şərqin ən «narahat» ölkələrindən biri idi.

5.Nizaminin əsərlərində «orta əsrlər sənətkarlarının dərin romantizmlə aşılanmış arzularını» axtarıb tapanlar da tamamilə haqlıdırlar. Bütün bunlar, təkrar edirəm ki, sırf millidir, Azərbaycana məxsusdur.

Şaginyanın isə qəribə ədası vardır: O, Nizami yaradıcılığında yaxşı nə varsa hamısını xarici təsirlərin nəticəsi kimi izah edir. Misal üçün, «Sirlər

xəzinəsi»ndə Səlcuq vəziri Nizami Mülkün (Nizamülmülkün - Red.) «Siyasətnamə»sinin ruhunu axtarıb taparaq, Nizaminin «Əxilik» sufi təriqətinə mənsubiyyətini təsdiq edir. Bu təriqətin də türk nümunəsi olduğunu iddia edir. Şaginyan Nizami poeziyasının ideya mənbələrini haradasa Ərəbistanda 10-cu əsr ensiklopediyalarında - «Müqəddəs ailə»də axtarır. Görünür, Hamber-Krımski məktəbindən uzaqlaşmaq istəmir.

4. Səlcuqları və onların dövlət üsulunu lazımınca qiymətləndirən və Məlik şahı, Nizami Mülkü «ən yaxşı hökmdarlar» mərhələsinə yüksəldən Şaginyan, eyni zamanda, həm faktik, həm də siyasi xarakterli səhvə yol verir.

Faktik yanlışlıq bundan ibarətdir ki, guya Səlcuqlar yeni torpaq mülkiyyət forması olan «iqta»nı tətbiq etməklə Azərbaycanda təhkimçiliyin əsasını qoymuşlar. Siyasi yanlışlıq bundan ibarətdir ki, səlcuqların dövlətindən azərbaycanlıların ilk dövlətçilik forması kimi bəhs olunur. Əslində, Azərbaycan ərazisində ilk dövlət quruluşu e.ə. IX əsrdə yaranmışdır (Manna dövləti). İnqilabdan əvvəlki Türkiyədə, elə kamalçıların da dövründə pantürkistlər səlcuq nümunəli «böyük türk dövləti» qurulmasını təbliğ edirdilər.

5. Mətndə deyilir: «XII əsrin ortalarında, o zaman İran əyaləti olan Azərbaycanda...» (səh.11). Bu, ən azı Nizami zəmanəsində Azərbaycanın tarixini bilməməkdən irəli gələn kobud səhvdir.

İran Sasani dövləti ərəblərin həmləsi ilə hələ VII əsrdə süqut etmişdir. XII əsrdə İranda hakimiyyət türk sultanlarının əlində idi. Nizaminin dövründə Azərbaycanda iki dövlət qurumu mövcud idi:

a) Mərkəzi Şamaxı olan müstəqil Şirvanşahlar dövləti;

b) Mərkəzi Gəncə və Təbriz olan yarımmüstəqil Eldəgizlər-Pəhləvanilər dövləti Aran, Muğan və Cənubi Azərbaycan).

6. Lütvəli bəyin təxəllüsü dəqiq yazılmalıdır: «Azir» (səh.18) yox, «Azər», «Əbül-ala» (səh.19) yox, «Əbül-üla» olmalıdır.

7. Nizaminin təvəllüd yeri (səh.18) uzun müddət mübahisə mövzusu olmuşdur. Belə güman etməyə əsas vardır ki, Nizaminin ehtimal olunan vətəni - Qum şəhəri Şimali Azərbaycanın dağ rayonlarında yerləşmişdir.

8. Şaginyan səlcuqların dövlət quruluşu məsələlərini düzgün işıqlandırmır. Hamıya məlumdur ki, səlcuqların istilasına XI əsrdə özlərinin laxlamaqda olan hakimiyyətlərini hərbi güclə möhkəmləndirməyə ehtiyac duyan İranın feodal əyanları yardım göstərmişlər. Əksinə, səlcuq sultanlarını İranın dövlət xadimləri taxt-tac sahibi etmişlər.

9. Şaginyanın islamda şiə cərəyanı (səh.101) haqqındakı mülahizələri də həqiqətə uyğun deyildir. Nizami Gəncəvi dövründə və ondan əvvəl şiəlik İran separatizmini əks etdirə bilməzdi, çünki, İranda hansısa ciddi azadlıq hərəkatının olduğunu göstərən faktor yoxdur. Ancaq məlumdur ki, xilafət zamanında milli azadlıq hərəkatı İranda deyil, Azərbaycanda (Babək) baş vermiş, bütün xilafətə və

islam sisteminə güclü zərbə vurmuşdu. Azərbaycanlıların bu və digər qəhrəmanlıq ənənələrini Şaginyanın görmək istəməməsi bizdə haqlı təəccüb doğurur.

Şiə məzhəbinin yaranmasına gəldikdə isə, o, xəlifə Əlinin qətlə yetirilməsi ilə əlaqədar deyil, Məhəmmədin vəfatından sonra Əlinin hakimiyyətə gəlməməsi nəticəsində meydana gəlmişdir. Şaginyan çox nahaqdan şiəliyi iranlılara aid edir.

Bununla əlaqədar bizə elə gəlir ki, Şaginyanın şiəlik zəminində «müdhiş ismaililik təriqəti» barəsində yazdıqlarının da elmi-tarixi əsası yoxdur. Müəllifin belə bir fikri də düzgün deyildir ki, guya ismaililər İranın milli azadlığına nail olmağı öz proqramları elan etmişlər (səh. 102).

Şaginyan ismaililik təriqətinin ictimai köklərini dərindən öyrənsəydi, o zaman Nizaminin bu hərəkata mənfi münasibəti tam aydın olardı. İş bundadır ki, ismaililərin əsas özəyini Azərbaycanda torpaq aristokratiyası təşkil edirdi. Onlar dini pərdə altında inqilabi şəhər sənətkarlarına qarşı mübarizə aparırdılar. Burada mütləq qeyd etmək lazımdır ki, ismaililərin mərkəzi Xəzər sahilindəki vilayətdə dağlıq Alamut idi və orada şəhər həyatı zəif inkişaf etmişdi. İsmaililik xalqın maddi və mənəvi qüvvələrinin şəhərlərdə cəmləşməməsinə qarşı çıxan feodal əyanlarının mürtəce cəhdlərini ifadə edirdi. Hakimiyyətin təmərküzləşməsinin güclənməsinə mane olurdu. Aydındır ki, şəhərin əməkçi əhalisinə rəğbət bəsləyən Nizami, bu dəfə ismaililər timsalında meydana gəlmiş feodal irticanın əleyhinə çıxmaya bilməzdi.

11. «Dehqan» sözünün (səh.130) şərhinə mütləq ehtiyatla yanaşılmalıdır. Orta əsrlərdə bu söz həm «kəndli», həm də «torpaq sahibi», yəni ümumiyyətlə, «torpaqla məşğul olan adam» mənasında işlədilmişdir.

Tədqiqatın dili geniş oxucu kütləsi üçün o qədər də oxunaqlı deyildir. Bir sıra məsələlərin şərhində üslubun sadələşdirilməsi arzu olunardı. Yuxarıda haqqında danışılan qüsurların düzəldilməsi və çatışmazlıqların aradan qaldırılması əlyazmasını az-çox məqbul hala salardı. Yalnız bundan sonra və yəqin ki, Elmlər Akademiyası sistemində nəşrindən söhbət gedə bilər.

İ.Hüseynov
15fevral 1941-ci il»

***

Bu da maraqlıdır ki, İsmayıl Hüseynov Moskvada Millətlər İnstitutunun aspiranturasında oxuyarkən ilk dəfə Şaginyan haqqında tənqidə «Bakinskiy raboçiy» qəzetinin 1936-cı il 11 mart tarixli sayında rast gəlmişdi. Azərbaycan pambıqçılarının respublika toplanışında S.Vurğunun çıxışı qəzetdə «Qələbə əldə ediləcəkdir» başlığı ilə dərc olunmuşdu. Şair sadə zəhmət adamlarını qiymətləndirməyən M.Şaginyan barəsində qəzəblə danışırdı. S.Vurğunun nitqində deyilir:

«Bu yaxınlarda baş vermiş bir hadisə məni sarsıtdı. Bu, yazıçı Şaginyanın bəyanatıdır. Bu bəyanat vicdansızcasına bir hərəkətdir. Cəmiyyət əleyhinə

yönəldilmişdir. Onu göstərir ki, Şaginyan sağıcının, mehtərin, pambıqçının -yəni ölkəmizin görkəmli adamlarının əməyinin əzəmətini anlamır...

Səslər-Doğrudur!»

«Doğrudur!» sədası ilə natiqi alqışlayanların başında yığıncağın Rəyasət Heyətində əyləşmiş 40 yaşlı Azərbaycan rəhbəri Mir Cəfər Bağırov dururdu...

Həmin il Mir Cəfər Bağırov «vicdansızcasına bir hərəkət»ə yol vermiş Şaginyanı ifşa edən S.Vurğunun xahişini vicdanla həll etmişdir. 30 yaşlı Azərbaycan şairinə Mir Cəfər Bağırovun dərkənarı ilə təzə mənzil verilmişdir.

S.Vurğunun Mir Cəfər Bağırova yazdığı məktubla tanış olun: «Hörmətli yol. Bağırov!

İndiyə qədər mənim mənzil məsələm həll edilməmişdir. 5 nəfərlik ailəmiz kiçik bir otaqda yaşayır. Bu vəziyyət mənim yaradıcılıq işimə böyük zərbələr vurur, özüm də get-gedə zəifləyirəm. Çox rica edirəm ki, Mərkəzi Partiya Komitəsinin yaşayış binasında boşalmaqda olan bir mənzilin mənə verilməsi sərəncamında bulunasınız.

**Sizin S.Vurğun**

**7 oktyabr 1936-cı il»**

Azərbaycan K(b)P Mərkəzi Komitəsi bürosunun 1936-cı il 17 oktyabr tarixli qərarı ilə S.Vurğun istədiyi təzə mənzil ilə təmin olunmuşdur. Qərarı M.C.Bağırov imzalamışdır.

***

1941-ci ildə İsmayıl Hüseynov da Şaginyana münasibətdə S.Vurğunun mövqeyində olmuş və inkaredilməz dəlillərlə sübuta yetirmişdir ki, bu yazıçı həqiqətən Azərbaycanın «görkəmli adamlarının», o cümlədən N.Gəncəvinin «əzəmətini anlamır» və ya anlamaq istəmir. M.Şaginyan 30 yaşlı Azərbaycan Nizamişünasının elmi məntiqi qarşısında təslim olmuşdur.

N.Gəncəvinin 800 illiyi ərəfəsində ilk monoqrafiya nəşr etdirmək xülyasına düşmüş Şaginyan 1941-ci il fevral-mart aylarında SSRİ Yazıçılar İttifaqı Ədəbiyyatı Fondunun Qolitsino yaradıcılıq evində İsmayıl Hüseynovun rəyi əsasında əsərin üzərində yenidən işləmiş, makinadan çıxarıb, birinci nüsxəsini Dövlət Bədii Ədəbiyyat Nəşriyyatına təqdim etmişdir.

1941-ci il aprel ayının əvvəlində Moskvadan M.C.Bağırovun ünvanına aşağıdakı məktub daxil olmuşdur:

«Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi M.C.Bağırov yoldaşa

Əziz Mir Cəfər!

M.S.Şaginyanın «Nizami Gəncəvi» əlyazmasını Sizə göndərirəm... O, Sizin iradlarınızı və İ.Hüseynov yoldaşın resenziyasını nəzərə almış, əlyazmasını yeni materiallarla tamamlayaraq əsaslı surətdə işləmişdir. Sizdən xahiş edirəm ki,

M.S.Şaginyanın əlyazması haqqında rəyinizi və redaktə etmək üçün fikrinizi bildirəsiniz.

Dövlət Ədəbiyyat Nəşriyyatı
direktoru vəzifəsini icra edən: P.Çakin
7 aprel 1941-ci il
P.S. Əlyazma banderol ilə
göndərilmişdir...»

***

İkinci dünya müharibəsinin başlanması ilə əlaqədar Nizami Gəncəvinin 800 illiyi tədbirlərinə ara verilmişdir. Bakıda 1941-ci ildə Nizaminin rus dilində «Seçilmiş əsərləri» nəşr olunmuşdur. «Sirlər xəzinəsi» poemasından bir parçanı M.Şaginyan tərcümə etmişdir. Əsəri bütünlüklə rus dilinə K.Lipskerov və S.Şervinski çevirmişlər. «Yeddi gözəl» sonuncu dəfə 1991-ci ildə «Azərnəşr» tərəfindən onların tərcüməsində rusca buraxılmışdır.

Bəs 1941-ci ildə Moskvadan Bakıya, M.C.Bağırova göndərilmiş 217 səhifəlik əlyazmanın taleyi necə olmuşdur?

Yuxarıda qeyd etdiyimiz kimi, 1946-cı ildə N.Gəncəvinin 800 illik yubileyinə ölkə miqyasında böyük hazırlıq görüldüyü bir vaxtda, M.Şaginyan Ermənistanda «Sovet Zaqafqaziyası» adlı kitab çap etdirmiş və burada Dağlıq Qarabağı «erməni ölkəsi» adlandırmışdır. Bu da Mir Cəfər Bağırovun Azərbaycan rəhbəri kimi haqlı qəzəbinə səbəb olmuşdur.

Belə ki, Nizaminin 800 illiyi münasibətilə Bakıya gəlmiş M.Şaginyan Mir Cəfər Bağırovun göstərişi ilə geriyə yola salınmışdır (Bu barədə «525-ci qəzet»in 2001-ci il 29 iyun tarixli sayında «Mir Cəfər Bağırovun arxiv sənədlərində» məqaləsində geniş yazılmışdır - T.Q.)

Beləliklə, «Nizami Gəncəvi» əlyazmasının makinadan çıxarılmış birinci nüsxəsi arxivdə toxunulmaz qalmışdır...

1953-cü ildə Azərbaycan xalqının düşmənlərinin, ilk növbədə daşnak xislətli Sovet Ermənistanı rəhbərlərinin qara niyyətləri baş tutmuşdur - Mir Cəfər Bağırov vəzifəsindən azad edilmiş və doğma respublikadan uzaqlaşdırılmışdır.

Bundan sonra M.Şaginyan qol-qanad açmışdır. Nəşrinə müharibədən sonra nail olmayan «Nizami Gəncəvi» əlyazmasını «Nizami haqqında etüdlər» adı ilə 1955-ci ildə Ermənistanda çap etdirmişdir.

Əsəri Ermənistan Elmlər Akademiyası M.Aqambeqyan adına Ədəbiyyat İnstitutu çapa hazırlamış, Akademiyanın nəşriyyatı 4 min tirajla nəşr etmişdir.

1941-ci ildə Nizamini «azərbaycanlı» saymayan M.Şaginyan 60-cı illərdə bu səhvini düzəltsə də, azərbaycanlılara münasibətdə daşnak xislətindən çıxmamışdır.

Marietta Şaginyanın ««Volqa» ilə Fransaya səyahət» məqalələri «İzvestiya» qəzetinin 1965-ci il dekabr və 1966-cı il yanvar saylarında dərc olunmuşdu. 8-ci məqalə «Sonuncu gün» adlanır (bax: «İzvestiya» qəzeti, 1966-cı

il 16 yanvar). Müəllif yazır: «Per-Laşez varlıların qəbiristanıdır. Abaddır, möhkəm səliqə-səhmanlıdır, möhtəşəmdir; yollarına asfalt döşənmişdir. Sərdabələri mərmərdəndir.

Başdaşlarının üzərində şəxs adından yuxarıda nəslin və ailənin soyadı yazılmışdır. Yaxşı qulluq görmüş çəmənliklər, qocaman ağaclar və sükunət - heç bir gəlib-gedən yox...

Şiz məzarların arası ilə məşhur soyadları oxuya-oxuya gedir, gedir, gedirsiniz... Tanış ad da rast gəlir: Şahə qalxmış qüvvətli at, üstündə süvari, elə bil ki, Yerevanda Sasunlu Davidin heykəlidir. Abidənin alt hissəsində həkk olunmuşdur: General Andronik». «İzvestiya»nın növbəti sayında isə (18 yanvar 1966-cı il) Levon Şaumyanın «Alovlu beynəlmiləlçi» adlı məqaləsi çap olunmuşdur.

Məşədi Əzizbəyovun anadan olmasının 90 illiyi münasibəti ilə verilmiş yazıda oxuyuruq: «Məşədi öz qanbir dostları və yoldaşları - Stepan Şaumyan, Alyoşa Caparidze, Vanya Fioletov, Serqo Orconikidze, Yakov Zevin, Anastas Mikoyan, Nəriman Nərimanov və başqaları ilə birgə fəaliyyət göstərmişdir».

Göründüyü kimi, daşnak atasının adını birinci, N.Nərimanovun adını başqalarından sonra çəkmişdir. Xalqımızın bu böyük şəxsiyyətinin «İzvestiya» qəzetində M.Şaginyanın qanbir qardaşı Levon Şaumyalı tərəfindən təhqir olunmasına qarşı Azərbaycandan etiraz səsini qaldıran tapılmamışdır.

Levon Şaumyanın da, Anastas Mikoyanın da, Marietta Şaginyanın da Azərbaycana «təntənəli» səfəri Mir Cəfər Bağırovdan sonra baş tuta bilmişdi. Kədərli təsadüfə bax: Hər dəfə daşnaklar Azərbaycana ayaq basanda ağır itkilərlə üzləşmişik. 1965-ci ildə Anastas Mikoyan Bakıya gələndən sonra Şıxəli Qurbanovu, Maqsud Əlizadəni, İsmayıl Hüseynovu itirmişik... 1975-ci ildə Marietta Şaginyanın pişvazına çıxanlar Əbülfəz Elçibəyi zindana atmışdılar.

Uzun illərdən bəri Azərbaycan üçün «burnunun ucu göynəyən» Şaginyanın bütün yuxuları çin olmuşdur. O, Fransaya səyahətindən sonra Dağlıq Qarabağı gəzmişdir, «xalq düşməni» Mir Cəfər Bağırovdan sonra bu ərazinin «erməni ölkəsi»nə çevrildiyinin canlı şahidi kimi çox xoşhallanmışdır.

1981-ci ildə «Yazıçı» nəşriyyatı «hörmətli erməni xanımına» «sürpriz» hazırlamışdır. 1955-ci ildə Ermənistanda işıq üzü görmüş «Nizami haqqında etüdlər» kitabının fotosurəti 26 ildən sonra Bakıda nəfis şəkildə yayımlanmışdır. Yəqin nəşriyyat rəhbərləri bilməmişlər ki, bu əsər 1941-ci ildə Mir Cəfər Bağırov tərəfindən bəyənilməmiş «Nizami Gəncəvi»nin ixtisar olunmuş variantıdır. Bir də Nizami haqqında 1981-ci ildə M.Şaginyanın əsərinin Bakıda rus dilində nəşr olunması hansı zərurətdən doğurdu?

Axı nizamişünaslıq sahəsində 2 il əvvəl, 1979-cu ildə görkəmli alim R.Azadənin «Nizami Gəncəvi (həyatı və sənəti)» kitabı işıq üzü görmüşdü.

Bundan əlavə Rüstəm Əliyevin 1981-ci il «Azərbaycan» jurnalının 6-cı sayında dərc olunmuş «Nizaminin tərcümeyi-halına dair yeni araşdırmalar» məqaləsi elmi və ədəbi ictimaiyyətin böyük marağına səbəb olmuşdu və b.k.

Bu da təəccüblüdür ki, M.Şaginyanın kitabı ən qısa müddətdə buraxılmışdır:

Oktyabr ayının 2-də fotonabora verilmiş və 14-də çapa imzalanmışdır, 3000 tirajla nəşr edilmişdir. Cild səhifəsinin yuxarısında «Nizami Gəncəvinin 840 illiyinə» sözləri yazılmışdır.

Mir Cəfər Bağırovun qəzəbinə gəlmiş erməni yazıçısının Nizaminin 800 illiyi ərəfəsində Moskvada yazdıqlarını 40 ildən sonra Bakıda təbliğ edənlər M.Şaginyana «milli sürpriz» də hazırlamışlar. Arxiv sənədləri ilə tanış olun:

1981-ci il noyabr ayının 23-də KP MK-nın Mədəniyyət Şöbəsinin müdir müavini N.Məmmədov Azərbaycan KP MK-ya aşağıdakı məktubu ünvanlamışdır:

«Azərbaycan KP MK-ya

Azərbaycan SSR Elmlər Akademiyası Mərkəzi Komitəyə belə bir xahişlə müraciət etmişdir ki, yazıçı, filologiya elmləri doktoru, Ermənistan SSR Elmlər Akademiyasının müxbir üzvü, Sov. İKP üzvü M.S.Şaginyan yoldaşa «Azərbaycan SSR əməkdar elm xadimi» fəxri adının verilməsi məsələsinə baxılsın.

Marietta Sergeyevna Şaginyan - sosializm quruculuğuna həsr olunmuş məşhur roman və povestlərin, fəlsəfi-polemik oçerklərin və publisist məqalələrin müəllifidir. Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. O, bədii yaradıcılığı elmi fəaliyyəti ilə fəal bir şəkildə əlaqələndirir.

50 ildən artıqdır ki, onun SSRİ xalqları ədəbiyyatının aktual problemlərinə həsr olunmuş məqalələri, dünya ədəbiyyatının korifeyləri barədə kitabları nəşr olunur. M.S.Şaginyan elmi fəaliyyətində Azərbaycan ədəbiyyatına, bu ədəbiyyatın Nizami Gəncəvi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Səməd Vurğun, Rəsul Rza, Süleyman Rəhimov və digər nümayəndələrinin yaradıcılığına xüsusi diqqət yetirir.

Onun böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin yaradıcılığına həsr edilmiş «Nizami haqqında etüdlər» monoqrafiyası ümumilikdə Azərbaycan sovet ədəbiyyatşünaslığının, xüsusən nizamişünaslığın inkişafında böyük yer tutur.

Şöbə Azərbaycan SSR Elmlər Akademiyasının təklifini müdafiə edir və MK-nın müvafiq qərar layihəsini Büroya baxılmaq üçün təqdim edir (əlavə olunur)».

Qəribədir, N.Məmmədovun öz məktubunda əsaslandığı sənəd - Azərbaycan SSR Elmlər Akademiyasının rəsmi məktubu bir gün sonra, noyabrın 24-də Mərkəzi Komitəyə daxil olmuşdur. Nizami adına Ədəbiyyat İnstitutu blankında yazılmış məktubla da tanış olun:

«Azərbaycan KP Mərkəzi Komitəsi Mədəniyyət şöbəsinə.

Sovet yazıçısı - Sosialist Əməyi Qəhrəmanı, Lenin mükafatı laureatı Marietta Sergeyevna Şaginyanın yaradıcılığı ölkəmizdə oxucular arasında geniş yayılmışdır, onun kitabları həqiqətən böyük müvəffəqiyyət qazanmışdır.

M.S.Şaginyanın yaradıcılığı çoxşaxəlidir. O, şeir kitablarının, bir sıra romanların, o cümlədən «Hidrosentral» (1930-1931) romanının, müxtəlif mövzulara həsr olunmuş külli miqdarda oçerk və məqalələrin müəllifidir.

M.Şaginyan yaradıcılığında Lenin mövzusu xüsusi yer tutur. «Ulyanovlar ailəsi» (1938-70) tetralogiyasında V.İ. Leninin mütəfəkkir kimi tarixi obrazı yaradılmışdır.

M.Şaginyan hələ inqilabdan əvvəl Azərbaycan ədəbiyyatına maraq göstərməyə başlamışdır.

O, 1906-1919-cu illərdə «Priazovskiy kray», «Kavkazskoye slovo» və «Baku» qəzetlərində əməkdaşlıq edərkən, ədəbiyyat və mədəniyyət hadisələrini demokratik mövqedən əks etdirmişdir.

M.Şaginyanın Nizami Gəncəvi yaradıcılığı sahəsində böyük tədqiqat işi, 1955-ci ildə «Nizami haqqında etüdlər» monoqrafiyasıyla nəticələnmişdir.

Burada Azərbaycan ədəbiyyatının korifeyinin fəlsəfi və humanitar baxışları ətraflı araşdırılmışdır. O, Nizamiyə həsr olunmuş bir sıra məqalələrin də müəllifidir.

Nizami Gəncəvinin «Sirlər xəzinəsi» poemasının bədii tərcüməsi M.Şaginyana məxsusdur.

M.Şaginyanın elmi-tənqidi əsərləri arasında Azərbaycan bədii nəsri, o cümlədən Cəlil Məmmədquluzadənin yaradıcılığında novatorluq haqqında yazılar da vardır.

Müasir Azərbaycan ədəbiyyatında baş verən ədəbi hadisələri də M.Şaginyan mütəmadi izləyir, S.Vurğunun, S.Rəhimovun, R.Rzanın, M.İbrahimovun və başqalarının yaradıcılığına xüsusi diqqət yetirir.

M.Şaginyan Sovet Azərbaycanında keçirilən ictimai-ədəbi tədbirlərdə bir alim və yazıçı kimi fəal iştirak edir.

Ədəbiyyat, dil və incəsənət şöbəsi M.S.Şaginyana Azərbaycan SSR əməkdar elm xadimi fəxri adının verilməsini xahiş edir.

Azərbaycan SSR EA
Ədəbiyyat, dil və incəsənət
şöbəsinin akademik katibi:
M.Z.Cəfərov. 24 noyabr 1981-ci il»

1981-ci il dekabrın 9-da respublika qəzetlərində M.S.Şaginyana «Azərbaycan SSR əməkdar elm xadimi» fəxri adı verilməsi barədə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı dərc edilmişdir.

Moskva yazıçıları «Bakinskiy raboçiy» qəzetində bu Fərmənla tanış olub, Marietta Sergeyevnanı təbrik etməyə yollanmışlar. Fəqət, Azərbaycanın erməni əməkdar elm xadimi 3 aydan sonra onu sevənləri göz yaşına qərq etmişdir. 1982-ci ilin martında 94 yaşında vəfat etmişdir.

Azərbaycanda M.Şaginyanın xatirəsi əziz tutulmuşdur. 1987-ci ildə ASE-nin 10-cu cildində onun şəkli və haqqında məqalə çap edilmişdir.

***

1991-ci ildə «Azərbaycan əməkdar elm xadimi»nin «şərəfli» yolunun davamçısı Andrey Saxarovun zövcəsi Yelena Bonner-Əlixanyan Moskvada keçirilən mitinqlərdə tez-tez deyirdi: «Biz rus ziyalıları, nəhayət, Ermənistan barədə düşünməliyik. Nə üçün bütün bu 3 il ərzində biz bir tərəfi, yəni Azərbaycanı incik salmaqdan çəkinirik? Axı, niyə siz qorxursunuz? Mən ki qorxmuram».

«Azərbaycanın əməkdar elm xadimi»nin nəvəsi Sauri Şaginyan da bu «qorxmazlar»dandır. O, nənəsinin vəsiyyətlərinə əməl edərək, Yerevandan Şuşaya gəlmiş, Dağlıq Qarabağı gəzib dolaşmış, Yerevana qayıtmışdır.

«Nənəmin məzarı Moskvadadır» deyə, Ermənistanda qərar tutmamışdır. Ancaq nənəsinin marşrutu ilə Fransaya deyil, Suriyaya «səyahətə» çıxmışdır. Hazırda isə ABŞ vətəndaşıdır.

O, 2001-ci ilin fevral ayında Vaşinqtonda çıxan «Erməni dirçəlişi» qəzetində üzünü ermənilərə tutaraq deyir: «...Çox iş gördünüz.

Dağlıq Qarabağı yenidən canlandırdınız. Ölmüş və yandırılmış cəsədləri diriltdiniz... Dirilib, dünyaya tanıtdığınız əcdadlarınızı sabah üçün qoruyun. Baxın görün, Poqosyan qardaşınız haradadır, sevimli Ambarsumyanı düşünün, söhbətcil Valiyanı, Matevosyanı, Fazilyanı və başqalarını düşünün. Onları ağılla qorumasaq, hisslərimizə qurban versək uduzarıq, hər şeyi uduzarıq.

Qazandığımızı da, qazanmaq istədiyimizi də... Mən nənəm Marietta Şaginyanın hissə qapılıb yazdığı kitablarını yandırmağının şahidiyəm».

Sauri Şaginyan bu sözləri «Ağıl» adlı publisistik qeydlərində yazmışdır. Yəqin onun ağlına gəlməz ki, onun «hissə qapılıb kitablarını yandırdığı» nənəsi Azərbaycanda XXI əsrdə də xoş təəssüratla yada düşür. Əgər «Xalq qəzeti»nin 2001-ci il 15 iyul tarixli sayı Vaşinqtonda Sauri Şaginyana çatdırılsa, o, təskinlik tapar.

Təskinlik tapar ki, nənəsi bu gün də Şuşasız, Laçınsız, Ağdamsız, Füzulisiz, Cəbrayılsız, Zəngilansız, Qubadlısız qalmış Azərbaycanda əzizlənir. Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev 2001 -ci il iyul ayının 14-də Prezident Sarayında xarici ölkələrin Kütləvi İnformasiya Vasitələri nümayəndələririn qəbulu zamanı çıxışının bir yerində demişdir: «M.Şaginyan hələ II dünya müharibəsindən əvvəl Bakıda olmuşdu.

Deyirdi ki, 1948-ci ildən sonra Bakıda olmamışdır. O xahiş etdi ki, burada qonaq qalmaq istəyir, mən də razılıq verdim. Təxminən 20 gün mənim qonağım oldu.

Onda mən dedim ki, bilirsiniz nə var, sizdən xahiş edirəm, ermənilərin yaşadıqları bölgələrə gedin. Mən xahiş etdim və Dağlıq Qarabağa getdi. Əlbəttə, Bakıda erməni çox idi.

Onlarla ünsiyyətdə olmuşdu. Gəncəyə, Azərbaycanın başqa bölgələrinə getdi və qayıdıb gəldi. Mənim rəhmətlik həyat yoldaşım da incəsənətlə,

ədəbiyyatla çox maraqlanırdı. Elə oldu ki, lap əvvəldən onunla Marietta Sergeyevna arasında yaxşı münasibətlər yaranmışdı. Bazar günü biz onu evimizə dəvət etdik, bütün günü bir yerdə keçirtdik.

Onun burada olduğu axır günlər idi. O öz kitabını mənə bağışladı və dedi: «Bilirsinizmi, mən bütün ermənilərlə görüşdüm və onlara dedim ki, siz burada başqa yerlərdə olduğuna nisbətən daha yaxşı yaşayırsınız. Onun dediklərini indi də xatırlayıram: «Ermənilər Azərbaycanda yağ-bal içində yaşayırlar».

Onu da dedi ki, bir həftə Yerevanda qalıb, oradan gəlibdir. Bir də dedi ki, ədəbiyyatçılar, elm xadimləri ardı-arası kəsilmədən onun görüşünə gəldilər. Əllərində də 100 nəfərə yaxın görkəmli şəxsin imzaladığı siyahı. Onlar Sovetlər İttifaqının rəhbərliyindən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini xahiş edirdilər.

O, onları dinləyib demişdir ki, siz lazımsız işlə məşğul olursunuz. Əvvəla, mən bu siyahıya heç vaxt imza atmayacağam, ikincisi, mən sizə bu işlə məşğul olmağı məsləhət görmürəm. M.Şaginyan isə şəxsiyyət idi».

Nəvə Sauri Şaginyan, nənə Marietta Şaginyanın haqqında danışdığı «100 nəfərə yaxın görkəmli şəxsin imzaladığı siyahıda» «sevimli Ambarsumyan»ı ilk növbədə xatırladır.

Marietta Şaginyandan əvvəl Per-Laşez qəbiristanlığına baş çəkmiş «sevimli Ambərsumyan» barədə Əli Əliyevin yuxarıda adını çəkdiyimiz kitabında oxuyuruq: «Qüdrətli alimimiz Yusif Məmmədəliyevin dediklərindən: «SSRİ Elmlər Akademiyası nümayəndə heyətinin tərkibində Fransada beynəlxalq konfransda iştirak edirdim.

Asudə vaxtlarımızda yerli həmkarlarımız bizə Parisin tarixi abidələrini göstərir, axar-baxarlı yerlərinə aparırdılar. Bir dəfə Per-Laşez qəbiristanlığında olduq. Orda quduz Andronikin at üstündə heykəli var.

Akademik A.Ambarsumyan dəstədən aralandı, «dədəsinin» heykəlinə əklil qoydu.

Doğrusu, onun bu hərəkəti heysiyyətimə toxundu. Moskvaya qayıdandan sonra Akademiyanın Rəyasət Heyətində bu məsələni siyasi və etik baxımdan qabartdım.

Akademiklərdən Aleksandrov, Semyonov, Skoboltsin, Nesmeyanov məni müdafiə etdilər... Ambarsumyanı və Rəyasət Heyətinin akademik katibi Sisakyanı tər basmışdı, cavab verməyə iqtidarları çatmırdı».

Amansız əcəl Yusif Məmmədəliyevi 56 yaşında xalqımızın əlindən aldı. Ambarsumyanları bir daha «tər basmadı».

Yerevanlı ermənilərin Qarabağa yürüşünün Moskvadakı havadarı yenə də Şaginyan oldu. Azərbaycanın əməkdar elm xadimi Azərbaycan Prezidentinin hesablamasına görə «100 yaşınadək yaşamışdır».

Nəvə Sauri Şaginyan nənə Marietta Şaginyanın «hissə qapılıb kitablarını yandırmağından» söhbət açır. Yəqin ki, onun yandırdıqları arasında Azərbaycanla əlaqədar yazıları da olmuşdur. Ancaq nə ünvanına göndərilmiş «Nizami Gəncəvi»

əlyazmasına, nə də bir neçə məktuba əli çatmamışdır. Çünki, bunlar arxiv sənədlərinə çevrilmişdir. İrəlidə xatırladığımız kimi, M.Şaginyanın Bakıya yola salınmış yazılarının birində deyilir:

«...Ermənistan K(b)P MK-nın birinci katibinin yanında oldum. Nə etmək lazım olduğu müzakirə edildi... Bundan əlavə erməni qəzetində çap etdirdiyim məqalənin sonunda kitabım haqqında söz salıb və etiraf edirəm ki, bir neçə yolverilməz və qüsurlu məqamları təshih etməməkdə böyük səhvə yol vermişəm.

Əgər yoldaş Bağırov razılıq versə, mən bunu «Bakinskiy raboçiy» qəzetində də edə bilərəm. Əvvəlcə belə qüsurların necə meydana gəldiyini izah edər, sonra onlara görə üzr istəyərək, sonradan təshih edilən məqamları bir-bir göstərərdim».

Mir Cəfər Bağırov «Nizami Gəncəvi» əlyazması ilə şöhrət tacı qazanmaq istəyən, «Dağlıq Qarabağ erməni ölkəsidir» bəyan edən daşnak yazıçıya böyük Nizaminin bu kəlamı ilə cavab vermişdir: «Üzr istəyən düşmənə inanma, qapından qov».

...Əgər Marietta Şaginyan «şəxsiyyət idi»sə onda Mir Cəfər Bağırov kimdir? Düşmənlərindən güclü şəxsiyyət, məğrur və əyilməz rəhbər!

# NAĞIL HƏQİQƏT DEYİL

**(«Ekspress» qəzeti, 9 avqust 2002)**

2002-ci il iyul ayının 10-da «Alternativ» qəzetində nağılvari bir məqalə oxudum. «Əsər»in müsbət qəhrəmanı Zülfüqar Əhmədzadə, mənfi qəhrəmanı Mir Cəfər Bağırovdur. Onlar oxuculara belə təqdim olunur: «Repressiya illəri qara bulud kimi işığın üstünü örtən bir bəla idi. Çox şairlərimizi, yazıçılarımızı, Vətənini sevən başıpapaqlılarımızı əlimizdən aldı. Bütün bu bəlaların başında isə Mir Cəfər Bağırov dayanırdı... Repressiya illərində sürgün edilmiş və dünyasını Sibirdə dəyişənlərdən biri də Zülfüqar Əhmədzadədir. O, dövrünün ən gözəl şairlərindən, həm də nüfuzlu ictimai xadimi olmuşdur».

Məqalə müəllifi Səid sözünə davam edərək, nəql edir ki, bir dəfə MK katibi Polonski və Nazirlər Sovetinin sədri M.C.Bağırov MK-nın ikinci katibi Yusif Qasımovla bağlı tələ qururlar. Bu məsələ müzakirə edilərkən həm Y.Qasımovu müdafiə edənlər, həm də onun əleyhinə çıxanlar nitq söyləyirlər. Z.Əhmədzadə isə ayağa durub deyir:

- Azərbaycan MK-sı Bakı Komitəsinə uzun müddətdir ki, mirzoyanlar, rubenlər, polonskilər rəhbərlik edir. Azərbaycan MK-da cəmi doqquz faiz azərbaycanlı qalmışdır, qalanlar ruslar, ermənilər, gürcülər, yəhudilər və başqalarıdır. Azərbaycanın belə bir oğlu, kadrı yoxdur ki, Azərbaycana rəhbərlik etsin, üstəlik Yusif Qasımovu da bəyənmirsiniz?...

Bu hadisədən sonra M.C.Bağırovun Zülfüqar Əhmədzadəyə qarşı mənfi münasibətdə olacağı heç kimdə şübhə oyatmır. Polonski Moskvaya gedir, yenidən Azərbaycana qayıtmaq istəyəndə Stalin onu qoymur. Deyir ki, «səni orda istəmirlər, burada qal». M.C.Bağırov Polonskinin yerinə MK-nın katibi vəzifəsinə təyin olunur».

Müəllif uydurmasını çapa verməzdən əvvəl Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində, eləcə də Azərbaycan Xalq Təhsili Muzeyində saxlanılan sənəd və materiallarla tanış olsaydı, bəlkə də bu qədər yalan-palanı qəzet səhifəsinə çıxarmazdı.

Arxiv sənədlərində Mir Cəfər Bağırova qədər Azərbaycanda kimlərin hansı vaxtda rəhbər olduğu dəqiq göstərilmişdir. Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin ilk katibi V.İ.Naneyşvili olmuşdur. O, 1920-ci il iyul ayının 23-dən sentyabrın 8-dək bu vəzifəni tutmuşdur. Həmin il sentyabrın 9-dan 15-dək müvəqqəti olaraq, rəhbərlik Y.D.Stasovaya tapşırılmışdır. 1920-ci il sentyabrın 15-də Azərbaycan K(b)P MK plenumunun qərarı ilə V.Y.Dumbadze bu rəhbər vəzifəyə irəli çəkilmişdir. 1920-ci il oktyabrın 24-də onu G.N.Kaminski əvəz etmişdir.

1921-cı il iyulun 24-dən 1926-cı il yanvarın 20-dək Azərbaycana S.M.Kirov rəhbərlik etmişdir. Rus Serqonu erməni Levon əvəz etmişdir. L.İ.Mirzoyan 1929-cu il iyulun 11-dək Azərbaycanda daşnak siyasəti yürütmüşdür. L.İ.Mirzoyanı N.F.Gikalo yola salmışdır. O, 1930-cu il avqustun 4-dək həmin vəzifədə işləmişdir. N.F.Gikalodan sonra V.İ.Polonski 1933-cü il fevralın 6-dək Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi olmuşdur. V.İ.Polonskidən estafeti

erməni R.Q.Ruben ələ keçirmişdir - 1933-cü il dekabrın 10-dək... Nəhayət, Sovet Azərbaycanının tarixində ilk dəfə olaraq, rəhbərliyə azərbaycanlı Mir Cəfər Bağırov gəlmişdir.

Siyahıdan göründüyü kimi, M.C.Bağırov Polonskidən yox, Rubendən sonra katib seçilmişdir. V.İ.Polonski Azərbaycanda fəaliyyətə başlayarkən Bağırov Azərbaycanda yox idi. O, 1930-cu ildə Moskvada ali partiya məktəbinə daxil olmuş, 1932-ci ildə təhsilini başa vurduqdan sonra ÜİK(b)P Mərkəzi Komitəsi aparatında məsul təlimatçı vəzifəsində çalışmışdır.

Həmin illərdə Yusif Qasımov da Azərbaycandan kənarda - əvvəlcə Leninqradda, sonra isə Şərqi Sibir Vilayətində rəhbər işdə olmuşdur. Bu boyda həqiqəti danmaq olar?!

Ağa qara deyənlər unudurlar ki, məhz Bağırov Azərbaycan rəhbərliyinə gələndən sonra Azərbaycanda milli kadrlar ordusu yaranmağa başlamış; 1949-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin beş katibinin hamısı azərbaycanlı olmuşdur. Semiçastnılar, kozlovlar sonralar Azərbaycana ayaq açmışlar.

Bağırov milli kadrlar məktəbinin istedadlı nümayəndələrindən biri də Zülfüqar Əhməd oğlu Əhmədzadədir. «Alternativ» qəzetində dərc edilmiş materialın, necə deyərlər, əsas süjet xəttini respublika rəhbəri ilə Z.Ə.Əhmədzadə arasındakı «ziddiyyət» təşkil edir. Qəzetdə oxuyuruq: «MK-nın binasında Bağırovla Əhmədzadənin görüşü olur. Pilləkənlərlə yuxarı qalxan Əhmədzadə Bağırovla üz-üzə gəlir, salam verir, lakin cavab almır. İki pilləkən qalxmamış Bağırovun səsi eşidilir: «Əhmədzadə, adamı heç vaxt saymırsan!». Z.Əhmədzadə cavabında bildirir ki, salam verib, lakin cavab almayıb. Bağırov bir qədər də hirslənir və belə deyir: «Xaraba Lənkəranınız daha da xaraba qalıb, adamın yanına da gəlmirsiniz! Səni ora katib göndərəcəyəm, get oranı düzəlt!».

Müəllif nə demək istəyir? Bağırov kadr məsələlərini MK binasının pilləkənlərində həll edirmiş? Azərbaycanın hər guşəsini eyni məhəbbətlə sevən rəhbər «xaraba Lənkəranınız» ifadəsini dilinə gətirərdimi? Axı hamıya bəllidir ki, məhz Bağırovun rəhbərliyi illərində Lənkəranın, Masallının, Astaranın başçıları həmin bölgədə doğulub boya-başa çatanlar, ilk növbədə talış xalqının dilini, adət və ənənələrini bilənlər idilər. Lerik rayonunda dünyaya gəlmiş Mirzə Məmmədov 1937-ci ildə Lənkəran Şəhər Partiya Komitəsinin birinci katibi vəzifəsində ikən SSRİ Ali Sovetinə deputat seçilmişdi.

Arxivdə Azərbaycan rəhbərinin Lənkəran əhalisinə qayğıkeşliyini ifadə edən maraqlı bir sənədlə tanış oldum. **1937-ci il oktyabr ayının 21-də Moskvaya, SSRİ Xalq Komissarları Sovetinin sədri V.M.Molotova aşağıdakı məktub göndərilmişdir:**

«Azərbaycan subtropik sovxozlar tresti bilavasitə SSRİ Torpaq Komissarlığına tabedir. Hazırda respublikamızda çay fabrikinin inşası isə Gürcüstan SSR Yeyinti Sənayesi Komissarlığının çay tresti tərəfindən aparılır.

Sizdən xahiş edirəm ki, bu sahəyə rəhbərliyi sadələşdirmək məqsədilə, Azərbaycan Çay Trestinin yaradılmasına icazə verəsiniz.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

V.M.Molotov Azərbaycan rəhbərinin xahişinə əməl olunması barədə dərhal göstəriş vermişdir. Beləliklə də, 1937-ci ildə Azərbaycanda ilk dəfə Lənkəranda 1 nömrəli çay fabriki istifadəyə verilmişdir.

Bu qədim və ecazkar diyar Bağırovdan sonra «Ümumittifaq bostanı»na çevrilmişdir. Hər il 1 May bayramı ərəfəsində Kreml mətbəxində Lənkəranın faraş kələmindən baş katib üçün borş hazırlanmış, ziyafət məclisindəkilər Lənkərandan göndərilmiş təzə xiyarın dadına baxmışlar və... əvəzində Azərbaycan başçılarının sinəsindən ordenlər asılmışdır.

...1937-ci ildə Zülfüqar Əhmədzadə «Azərnəşr»də «Azlıqda qalan millətlər şöbəsi»nin müdiri işləyirdi. Nəşriyyatın başqa şöbələrində Seyid Hüseyn, Yusif Vəzir Çəmənzəminli və başqa görkəmli ədiblər çalışırdılar. Şair Əhməd Cavad kimi Zülfüqar Əhmədzadə də ədəbi müsabiqələrin qalibi idi. Əhməd Cavad Şekspirin «Otello» faciəsini Azərbaycan türkcəsinə necə ustalıqla tərcümə etmişdisə, Zülfüqar Əhmədzadə də Cek Londonun, C.Sviftin, Anri Barbüsün əsərlərini talış dilinə sənətkarlıqla çevirmişdi. O, həm də talışca bir çox dərsliyin müəllifi idi.

Azərbaycan Dövlət Nəşriyyatının şöbə müdiri vəzifəsinə Z.Əhmədzadə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin tövsiyəsi ilə göndərilmişdi. M.C.Bağırov təmiz vicdanla və təvazökar ziyalı kimi Z.Əhmədzadənin qayğısına həmişə qalmışdır. Lakin 1937-ci ildə keçmiş «Hümmət»çini Moskva «üçlüyünün» əlindən qoparmaq qeyri-mümkün idi.

Z.Əhmədzadə 1942-ci il iyun ayının 9-da Mariysk şəhərində vəfat etmişdir. Əfsuslar ki, 2002-ci il iyunun 9-da repressiya qurbanı olmuş yazıçı və dövlət xadiminin vəfatından 60 il keçməsi yada düşməmişdir.

Bu gün Bağırovu Zülfüqar Əhmədzadənin cəlladı elan edənlər hansı məqsəd daşıyırlar? Uydurulmuş nağılların tam əksinə olaraq, tarixi həqiqətlər Azərbaycan rəhbərinin insani keyfiyyətlərindən söhbət açır. 1942-ci ildə Mir Cəfər Bağırov «xalq düşməni»nin qızı, Bakıdakı 161 saylı orta məktəbin pioner baş dəstə rəhbəri, 19 yaşlı Tahirə Zülfüqar qızı Əhmədzadəni qəbul edib, onunla söhbət etmişdir. Bundan sonra Tahirə Əhmədzadə partiya sıralarına qəbul olunmuş, komsomol orqanlarında məsul vəzifələrə irəli çəkilmişdir. Bağırovun xeyir-duası ilə Tahirə xanım 1949-cu ildə Moskvaya - Ali Komsomol Məktəbinə göndərilmişdir. Respublikaya qayıtdıqdan sonra «xalq düşməni»nin övladı - istedadlı təşkilatçı və gənc ictimai xadim Bakı Vilayət Komsomol Komitəsinin, Azərbaycan LKGİ Mərkəzi Komitəsinin katibi vəzifələrində çalışmışdır.

Uydurduqları əhvalatlarda Bağırovun mənfi surətini yaradanlar buna göz yumurlar ki, sonrakı dövrlərdə vəzifəsindən azad edilmiş bir çox rəhbər işçilərin ailə üzvləri və yaxın qohumları əsassız təqiblərə məruz qalmışlar. Məsələn, 1976-cı ildə Lerik Rayon Partiya Komitəsinin birinci katibi B.Ağayev işdən çıxarılmışdır. Üstəlik Bakıda və Leninqradda təhsil alan qızı və oğlu da ali məktəbdən uzaqlaşdırılmışdır.

Bəraət aldıqdan sonra günahsız tutulanların ailəsinin qeydinə qalmaq yüksək mənsəb sahibindən elə bir qeyri-adi cəsarət tələb etmir. M.C.Bağırov isə ən çətin məqamlarda repressiya qurbanlarının ailə üzvlərinin qayğısını çəkmiş, onların ali təhsil alması üçün şərait yaratmışdır. Yuxarıda qeyd etdiyimiz kimi, Z.Əhmədzadə «Azərnəşr»də Seyid Hüseynlə eyni vaxtda işləmişdir. Hər ikisi şöbə müdiri vəzifəsində çalışıb. Bu da maraqlıdır ki, Z.Əhmədzadənin qızı Tahirə xanım kimi, Seyid Hüseynin qızı Qumral da Mir Cəfər Bağırovun vaxtında ali təhsil almışdır: o, 1952-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir, Tələbəlik illərindən ədəbi yaradıcılıqla məşğul olan Qumral xanım hazırda Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Onun iki cildlik «Son mənzili Xəzər oldu» və «Mənim nakam qardaşım» romanları repressiya qurbanlarının xatirəsinə, ilk növbədə də sənət ustadları - Seyid Hüseynin və Ümmügülsümün xatirəsinə həsr olunmuş bədii sənət nümunəsidir. Atası da, anası da 1937-ci ilin amansız repressiyasına məruz qalmış yazıçı hazırda ömrünün yetmiş ikinci pilləsindədir. Yeni povest və hekayələr üzərində işləyir. Acınacaqlısı budur ki, belə bir təvazökar və nəcib ağbirçək hər cür dövlət qayğısından kənarda qalmışdır. Qumral xanım Sadıqzadənin günü-güzəranı necə keçir? Onun Azərbaycan Yazıçılar Birliyinin sədri Anara yazdığı ərizəsindəki bu cümlələr ürək ağrısı ilə yazılmışdır: «Qocalığa görə altmış min manat təqaüd alıram. İki övladım öz ailələrini çətinliklə dolandırırlar, mənə kömək edə bilmirlər. Maddi vəziyyətimin çox ağır olduğunu nəzərə alıb, Sizdən xahiş edirəm ki, mənə fərdi təqaüd verilməsinə kömək edəsiniz». Amma Qumral xanımın səsinə hay verən tapılmadı. Altı «şirvanla» dolanan ağbirçək böyüklərimizin ayağına düşərək, başlarına dolanmağı da bacarmır. Axı əyilməz Seyid Hüseynin və Ümmügülsümün ruhuna toxunar!

Kimdir günahkar? Yenə də Mir Cəfər Bağırovmu?

* * *

«Alternativ» qəzetindəki məqalədə «repressiya qurbanı Zülfüqar Əhmədzadə»nin dostu Səməd Vurğunun «kinli Bağırov»a qarşı qoyulması nə deməkdir? Qəzetdə oxuyuruq:

«Z.Əhmədzadənin S.Vurğunla yaxın dostluğu olub. Z.Əhmədzadə Sibirdən S.Vurğuna günahsız olması ilə bağlı şeir də göndərib. «And» adlı şeirdə

günahsızlığını bildirir. S.Vurğun şeiri alan kimi Bağırovun yanına gedir. Şeiri məktubla birlikdə ona oxuyur və deyir:

Yoldaş Bağırov, talış xalqının yeganə bir inqilabçı şair oğlu var. Onun heç bir günahı yoxdur. Əgər mümkündürsə, onu Azərbaycana qaytarın.»

Kinli Bağırov isə görün hansı cavabı verir:

«- Səməd, başın xarab olub deyəsən, minlərlə əhmədzadələr gedib, indi mən bu Əhmədzadəni axtarım?

Beləliklə, S.Vurğun dostuna kömək edə bilmir və aşağı düşüb Z.Əhmədzadənin yoldaşına «xahişimi qəbul etmədi» cavabını verir».

Arxiv materialları göstərir ki, repressiya illərində Səməd Vurğunun özünün həyatı təhlükə qarşısındaymış. Həbs olunan yazıçı və alimlərin ifadələrində bildirilirdi ki, «S.Vurğun əqidəli əksinqilabi millətçidir». Bütün bunlara baxmayaraq, «kinli» Bağırov üçün S.Vurğunu repressiyadan xilas etmək mümkün olmuşdur; çünki o, gəncliyində dostu Z.Əhmədzadə kimi «Hümmət»çi deyildi.

Bu iki şair və yaxın dost biri-birindən sonralar ayrı salınmışlar. 1996-cı ildə Səməd Vurğunun 90 illiyi geniş bayram edilmişdir. 1998-ci ildə isə Zülfüqar Əhmədzadənin 100 illiyi münasibətilə respublika miqyasında tədbir keçirilməmişdir.

Arxivdə Z.Əhmədzadənin anadan olmasının 90 illiyi ilə əlaqədar maraqlı bir sənəd saxlanılır. 1990-cı ilin may ayının 31-də Azərbaycanın xalq təhsili naziri Rafiq Babaş oğlu Feyzullayev Azərbaycan SSR Nazirlər Sovetinin sədri Həsən Əziz oğlu Həsənova rəsmi məktub yazmışdır. Məktubda oxuyuruq: «Zülfüqar Əhməd oğlu Əhmədzadə respublikamızda partiya, sovet və təsərrüfat sahələrində bir sıra rəhbər vəzifələrdə çalışmış və Azərbaycanın maarifçi ziyalılarından olmuşdur. O, müəllim, şair və tərcüməçi olmuş və 1933-cü ildən Azərbaycan Yazıçılar İttifaqının üzvü idi.

30-cu illərdə talış ibtidai məktəbləri üçün talış dilində «Əlifba», «Oxu» kitabı, «Qrammatika» və «Türk dili» dərsliklərinin müəllifidir. Bu dərsliklərdə gedən şeirlərin əksəriyyəti onun qələmindən çıxmışdır. O, həmçinin S.S.Axundovun «Qaraca qız» hekayəsini, D.Defonun «Robinzon Kruzo» romanını və başqa əsərləri talış dilinə çevirmişdir. Həmin illərdə onun talış dilində «Ötən günlər» adlı bir şeir kitabı çapdan çıxmışdır. Həmin kitabdakı «Ötən günlər» və «Talışın güzəranı» poemaları talış etnoqrafiyasını, adət-ənənələrini əks etdirir. Onun Azərbaycan dilində yazdığı, məşhur «Çelyuskinçilər»in qəhrəmanlığını tərənnüm edən «Arktika dastanı» poeması da ayrıca kitabça halında nəşr edilmişdir.

Z.Ə.Əhmədzadənin maarif sahəsindəki xidmətləri daha parlaq və gözəgörümlüdür. Beşiyi başında durub, yaratdığı talış məktəblərində onun adının əbədiləşdirilməsi bu yolda çəkdiyi zəhmətə ən gözəl qiymət olar. Z.Əhmədzadənin Astara rayonunun Pensər kəndində anadan olmasını, əmək və yaradıcılıq fəaliyyətinin daha dolğun və məhsuldar dövrünün Astara-Lənkəran rayonlarında

keçməsini nəzərə alaraq, Pensər kəndindəki 2 saylı orta məktəbə və Lənkəran şəhərindəki pedaqoji məktəbə onun adının verilməsini Sizdən xahiş edirik».

Bu xahiş hökumət tərəfindən yerinə yetirilmişdir. Bununla da iş bitmişdir...

«Alternativ»in müxbiri isə gözlərimiz önündə baş verənlərə göz yumub, əcaib-qəraib nağıl uydurub.

# HÖKM ÇIXARIRSAN, DƏLİLİN HANI?

**(«Nəbz» qəzeti, 18-24 may 2002)**

«Günay» qəzetinin 2002-ci il 10 mart tarixli sayında R.Qurbanbəyovun «Tarix heç kimi bağışlamır» başlığı altında iki yazısı dərc olunub: «Komissar öz məktubunun güdazına getdi» və «Şeş-qoşa». Qəzet oxucularına bildirir ki, müəllif, M.C.Bağırovun rəhbərliyi illərində ölkənin təhlükəsizlik orqanlarında çalışmışdır, hazırda istefada olan zabitdir və dərc olunan yazıları tarixi faktlara əsaslanıb. Əslində isə tarixi faktlar R.Qurbanbəyovun uydurmalarını tamamilə alt-üst edir.

Birinci yazının qısa məzmunu belədir: Ötən əsrin 30-cu illərinin ortalarında respublika XDİ komissarı vəzifəsinə Rayev familiyalı «məkrsiz, siyasətdən və intriqalardan uzaq, haqqı, ədaləti sevən» bir nəfər irəli çəkilmişdi. Xalq komissarının Azərbaycandakı haqsızlıqları barəsində Moskvaya göndərdiyi məktubundan xəbər tutan M.C.Bağırov guya onu dərhal yanına çağırtdırmış, xidməti silahını almış, paqonlarını çıxartdırmış və həbs etdirmişdir.

İstefada olan zabit əgər müstəqil Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin muzeyində nümayiş etdirilən materiallarla tanış olsaydı, onda heç olmasa Rayevin familiyasını yarımçıq yazmazdı. Bunu da yəqin edərdi ki, «məkrsiz» komissar 30-cu illərin ortasındakı hansı vaxtda Azərbaycanda işləmişdir. 30-cu illərdə respublikamızdakı KQB başçılarının siyahısı belədir: Frinovski Mixail Petroviç (1930-33), Aqrba Aleksey Sergeyeviç (1933-34), Sumbatov (Topuridze) Yuvelian Davidoviç (1934-38), Rayev-Kamenski Mixail Qriqoryeviç (1938). Rayev-Kamenskini Bakıda rayon partiya komitəsinin katibi vəzifəsində işləyən Yemelyanov Stepan Fyodoroviç əvəz etmişdir.

**Cəmi-cümlətanı bir neçə ay Azərbaycan SSR Xaiq Daxili İşlər Komissarlığına başçılıq etmiş M.Q.Rayev-Kamenskinin əmri ilə 2000-dən çox Azərbaycan vətəndaşı güllələnmişdir.** DT mayorunun son əmri 1938-ci il sentyabrın 18-də imzalanmışdır. «Haqqı, ədaləti sevən» Rayevin hökmu ilə güllələnənlər arasında Ayna Sultanova, Əhməd Pepinov, Teymur Salahov və onlarla soydaşlarımız vardır. Günahsız insanların ölüm fərmanına qol çəkmiş Rayevin öz məhkəməsi isə Moskva şəhərində qurulmuşdur.

Əməkdar jurnalist, «Mən və KQB» povestinin müəllifi Əlirza Balayev ilk dəfə olaraq diqqətəlayiq bir arxiv sənədini üzə çıxarmışdır. Bu, Rayev-Kamenski Moskvada həbs olunandan 2 ay sonra, 1938-ci il noyabrın 13-də Azərbaycan K(b)P Mərkəzi Komitəsinin bürosu tərəfindən qəbul olunmuş qərardır. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət arxivində saxlanılan (fond 1, siyahı 74, iş 536, vərəq121) sənəddə oxuyuruq: «M.Q.Rayev barədə

Xalq düşməni kimi ifşa olunmuş M.Q.Rayev Azərbaycan K(b)P MK-nın Plenumu və Bürosu üzvlüyündən çıxarılsın və partiya sıralarından xaric edilsin».

1938-ci ildə Azərbaycan K(b)P MK-nın katibi M.C.Bağırov deyil, başqası da olsaydı, təbii ki, həmin qərara imza atmalıydı. 1938-ci il hadisələrindən 64 il sonra DT mayorunu məkrsiz, Azərbaycan rəhbərlərini isə məkrli xislətdə təqdim edən istefada olan zabit hansı məqsəd güdür?!

...İndi də keçək «Şeş-qoşa» məsələsinə. Müəllif nəql edir ki, SSRİ Ali Sovetinin deputatları, o cümlədən M.C.Bağırov Bakı-Moskva qatarının sərnişinləri imişlər. Vaqonda M.C.Bağırovla nərd oynayanlar arasında ticarət naziri Mirzə Məmmədov da varmış.

Həlledici oyunun sonunda M.C.Bağırovun bir, Mirzə Məmmədovun isə 4 daşı qalıbmış. Mirzə Məmmədov «şeş-qoşa» atır və oyunu aparır. Məqalə bu cümlələrlə bitir: «Yaltaqların səs-səsə verərək gülüşməsi onu (M.Məmmədovu-T.Q.) susmağa məcbur etdi. Ətrafa sükut çökdü.

Birdən Bağırov uca səslə, yarızarafat-yarıgerçək dedi: «İndi mən bildim ki, respublikada ticarət niyə pis vəziyyətdədir. Sən demə, Mirzə bütün diqqətini nərd oynamağa sərf edirmiş».Moskvadan qayıdandan az sonra M.Məmmədov çıxarıldı və maarif naziri təyin edildi».

Görəsən, müəllifə kim səlahiyyət vermişdir ki, 1973-cü ildə 64 yaşında dünyasını dəyişmiş unudulmaz bir ziyalının, respublikamızda xalq təhsilinin veteranlarından sayılan ictimai xadimin əmək fəaliyyətində ləkəli düzəlişlər etsin?! M.C.Bağırovla birlikdə SSRİ Ali Sovetinin sessiyasına gedən deputatlara «yaltaq» damğası vurmağa onu kim vadar etmişdi?! İstefada olan zabitin «yaltaq» saydığı o insanlar kimlər idi?!

2000-ci ildə «Ağrıdağ» nəşriyyatı tərəfindən buraxılmış «Azərbaycanlı deputatlar SSRİ parlamentində» kitabında (müəllifi Maksim Musayevdir) həmin şəxslərlə tanış oluruq: Üzeyir Hacıbəyov, Mirəsədulla Mirqasımov, Mirzə İbrahimov, Bəsti Bağırova, Çimnaz Aslanova, Mirbəşir Qasımov, Teymur Quliyev...

M.Musayev bütün deputatlar haqqında qısaca məlumat verir. Kitabın 18-ci səhifəsində Mirzə Rəhim oğlu Məmmədov barədə oxuyuruq: «Azərbaycan Respublikasının Lənkəran seçki dairəsindən Millətlər Sovetinə deputat. Ali təhsilli, Moskva Kommunist Tərbiyəsi Akademiyasını bitirib... 1937-ci ildən Komsomolun Mərkəzi Komitəsində şöbə müdiri, sonra Lənkəran Partiya Komitəsinin birinci katibi işləmişdir».

...Əgər R.Qurbanbəyov asudə vaxtlarında Azərbaycan Xalq Təhsili Muzeyinə baş çəksəydi, bir daha yəqin edərdi ki, 1938-ci ilin yanvarında Moskvaya SSRİ Ali Sovetinin sessiyasına gedərkən və qatarda M.C.Bağırovla nərd-taxta arasında mərd-mərdanə şeş-qoşa atarkən M.Məmmədov ticarət naziri deyildi.

Lənkəran rayon partiya komitəsinin birinci katibi idi və o, M.C.Bağırov vaxtındakı bütün raykom katibləri kimi hər cür «alver»dən uzaq olub. Xalq Təhsili Muzeyində uzun illər fasiləsiz çalışan Aliyə xanım Abbasova bizə Məmmədovun 1949-cu il noyabrın 10-da yazdığı tərcümeyi-halını təqdim edir. 3 səhifədən ibarət və aydın xətlə yazılmış avto-bioqrafiyanın ikinci vərəqində oxuyuruq:

«1937-ci ilin may ayından 1938-ci ilin fevralınadək Azərbaycan K(b)P Lənkəran rayon partiya komitəsinin birinci katibi vəzifəsində çalışmışam. 1938-ci ilin fevralından 1942-ci ilin noyabrınadək Azərbaycan SSR Xalq Maarif Komissarı

təyin olunmuşam. 1942-ci ilin noyabrından 1944-cü ilin aprelinədək Azərbaycan K(b)P MK-nın yeyinti sənayesi üzrə katibi vəzifəsində çalışmışam».

Arxiv sənədləri bunu göstərir ki, erkən yaşlarında ata-anasını itirmiş, uşaq evində böyümüş M.Məmmədov həmişə M.C.Bağırovun qayğı göstərdiyi vəzifə sahibi olmuşdur. Təzada diqqət yetirin:

M.C.Bağırov dövründə M.Məmmədov maarif naziri vəzifəsindən Azərbaycan K(b)P MK katibi vəzifəsinə irəli çəkilmişdir. 1946-cı ilədək SSRİ Ali Sovetinin deputatı olmuşdur.

M.C.Bağırovdan sonra isə, 1959-cu ildə yenə də maarif naziri vəzifəsində işləyən M.Məmmədov Mərkəzi Komitənin həmin il fevralın 12-də keçirilmiş büro iclasının qərarı ilə sağlamlıqdan şikayət etmədiyi halda «səhhətinə görə» vəzifəsindən azad edilmişdir.

Görkəmli pedaqoqun və dövlət xadiminin adını ASE-də axtarmaq da əbəsdir. 1982-ci ildə nəşr olunmuş VI cilddə Mirzoyan Varsi var, Mirzə Məmmədov yoxdur.

Bütün bunlara baxmayaraq, «Günay» qəzeti «Komissar öz məktubunun güdazına getdi» və «Şeş-qoşa» məqalələrində faktları təhrif edərək belə bir hökm çrxarır: «Həmin yazılar M.C.Bağırovun rəhbərlik metodu və Azərbaycana vurduğu zərər haqqında dolğun təsəvvür yaradır». Əcəb məntiqsizlikdir...

XX yüzilliyin «əlil» yalanlarına 2002-ci ildə «protez ayaq» icad edənlər gün kimi aydın bir həqiqəti unudurlar. Unudurlar ki, tarix qondarma «məktublardan» və qatar «şeş-qoşa»larından yaradılmır. Artıq zaman öz sözünü deməkdədir - Azərbaycana kimlərin nə boyda zərər vurduğu göz qabağındadır!

# BAKI METROSU MİR CƏFƏR BAĞIROVUN ADI İLƏ BAĞLIDIR

**("Nəbz" qəzeti, 29 iyun 2002)**

Bakı Metropoliteni İdarəsinin yerləşdiyi binanın 4-cü mərtəbəsi muzeyi xatırladır. Dəhliz boyunca divarlardakı stendlər metronun 30 illik tarixini əks etdirir. 1970-ci ildən başlayaraq, bu salnamənin baş qəhrəmanı H.Əliyevdir, böyük portretinin altında «Azərbaycanın günəşi» sözləri həkk olunmuşdur...

Yadıma 1967-ci ilin noyabr ayı düşür. «Bakı Soveti» qarşısına toplaşmış minlərlə soydaşımız arasında mən də vardım.

Noyabrın 6-sı qeyri-adi bir gün idi. Süleyman Rüstəmin atəşin alqışlarla müşayiət olunan çıxışı bu gün də qulağımda səslənir.

Bəli, metronun istifadəyə verilməsi paytaxtımızın tarixinə qızıl hərflərlə yazılmışdır.

Bəs niyə yubiley sərgisində unudulmaz əlamətdar gün unudulmuşdur?

Metromuzun istifadəyə verilməsi münasibəti ilə qırmızı qaytanı kəsən Azərbaycan rəhbərinin şəkli hanı?

Yoxdur!

Ona görə yoxdur ki, metropolitenin başçıları onu «Azərbaycanın qeyri günəşi» hesab edirlər.

Kim bilir, 1967-ci ilin noyabr ayının 6-da Azərbaycan rəhbəri Vəli Yusif oğlu Axundov ilk dəfə «Bakı Soveti» stansiyasında vaqona minərək «Nərimanov»a qədər gedərkən hansı hissləri keçirmişdir?!

Mir Cəfər Bağırovun milli kadrlar ordusunun ləyaqətli nümayəndəsi keçmişləri, olmuşları xatırlamaya bilməzdi. Bəli, Bakı metrosunun inşasının təməl daşında Mir Cəfər Bağırovun adı vardır!

Arxiv sənədləri göstərir ki, hələ İkinci dünya müharibəsindən əvvəl Mir Cəfər Bağırovun təşəbbüsü ilə Bakıda metro tikintisi məsələsi paytaxtın baş planına salınmışdır.

Müharibədən sonra Azərbaycan rəhbəri tikintini davam etdirmək barədə SSRİ Nazirlər Sovetinin razılığını almışdı, Ümumittifaq Yollar Nazirliyi isə müvafiq göstəriş vermişdi.

Azərbaycanın tərəqqisi naminə yorulmaq bilmədən çalışan Mir Cəfər Bağırov hətta müalicədə olarkən belə, Bakıda metro tikintisinin gedişi ilə bilavasitə maraqlanmışdı.

Uzun illər Mir Cəfər Bağırovla çiyin-çiyinə işləmiş, Azərbaycan SSR Nazirlər Sovetinin sədri Teymur Quliyev 1948-ci ilin yanvar ayında Yessentukidə müalicədə olan yaşıdına aşağıdakı məlumatı göndərmişdir:

**«Metro haqqında»**

Metro tikintisi idarəsi işə başlamışdır. Kənd Təsərrüfatı Texnikumu rayonunda 9 nömrəli və Qara şəhər xəstəxanası rayonunda 25 nömrəli şaxtalarda inşa işləri aparılır. Burada hər gün 150 nəfər çalışır. 2 metr dərinlikdə qazıntı işləri görülmüşdür.

Metro tikintisində işləyənlərin ailəsi üçün Hüsü Hacıyev küçəsində yaşayış binasının bünövrəsi qoyulmuşdur. Bundan əlavə Zığda və Montin qəsəbəsində yataqxanaların əsaslı təmiri başa çatmaqdadır.

Qarajın (keçmiş Bakqazın) binasında yenidənqurma işləri aparılır. Keçmiş «Yeni Şərq» mehmanxanasının və Kənd Təsərrüfatı Texnikumu binasının təmirinə başlanılmışdır.

Bakı Sovetinin yaxınlığında ayrılmış sahədə təmizləmə işləri qurtarıb.

Bu sahənin ərazisindən çıxarılan ağaclar dərhal şəhərin başqa yerlərində torpağa basdırılmışdır.

Mir Cəfər Bağırov Bakıya iş başına qayıtdıqdan sonra Teymur Quliyevlə birlikdə metronun tikinti sahələrini bir-bir gəzmiş, inşaatçılarla təmasda olmuşdur.

Bakı metropoliteni tikintisinin layihəsini hazırlamaq məqsədi ilə əlaqədar təşkilatlara tapşırıq verilmişdir. Nəhayət, 1949-cu il noyabr ayının 29-da respublika səviyyəsində müvafiq qərar qəbul olunmuşdur. İndiyədək nəinki Bakı metropoliteni işçilərindən, eləcə də bütün Azərbaycan xalqından gizli saxlanılmış həmin tarixi sənədi ilk dəfə oxuculara təqdim edirəm:

**«Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin texniki layihəsinin müddəaları haqqında»**

Azərbaycan SSR Nazirlər Soveti və Azərbaycan K(b)P Mərkəzi Komitəsi Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin texniki layihəsinin Baştonnelmetrotikinti və Yollar Nazirliyi tərəfindən təqdim olunmuş əsas materialları nəzərdən keçirərək qərara alırlar:

1. Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin texniki layihəsinin əsas materialları sonradan işlənib tamamlanmaq və SSR İttifaqı Hökumətinə təqdim olunmaq şərti ilə bəyənilsin.

2. Təqdimata uyğun olaraq, «Vağzal» stansiyası vestibülünün layihəsi bəyənilsin.

3.Texniki layihədə nəzərdə tutulduğu kimi, kütləvi sığınacaq olan metropoliten su ilə şəhərdə yeganə mənbədən - Bakı su kəmərindən təchiz ediləcəkdir.

Buna görə də metropolitenin xüsusi rejimdə işləməsi üçün ikinci müstəqil su təchizatı mənbəyi nəzərdə tutulsun.

Bu məqsədlə şəhərin dağlıq hissəsində yuxarı horizontların sularından istifadə edilsin və metropolitenə müstəqil su kəməri çəkilsin.

4.Metropolitenin tikintisi zamanı mühəndis-geologiya şəraitini yaxşılaşdırmaq məqsədi ilə tövsiyə edilsin:

a) «Elektrotok» stansiyası 250 metrədək şərqə yönəldilsin, həmin istiqamətdə stansiyaya giriş (vestibül) yaradılsın;

b) «Cəfər Cabbarlı meydanı» stansiyası qarşısında tunellər arasında keçid yaradılsın;

v) «Azadlıq meydanı» stansiyasının yeri vağzallar istiqamətində dəyişdirilib 26 Komissar meydanının altında yerləşdirilsin və təqdim olunan layihədə nəzərdə tutulduğu kimi, vestibül Kirov prospektinin və Azadlıq küçəsinin tinində saxlanılsın;

q) «Vağzal» stansiyası Bakı-Sabunçu vağzalı yolunun altında yerləşdirilsin və mərkəzi vestibül təqdim olunan layihədə nəzərdə tutulmuş sahədə saxlanılsın.

5. Şaxtaların və vestibüllərin tikintisi ilə əlaqədar olaraq, bir sıra binalar sökülməli və üç min nəfərədək əhali köçürülməlidir.

SSRİ Yollar naziri Beşşev yoldaşdan xahiş edilsin ki, Bakı şəhərində metropolitenin birinci növbəsinin tikintisinin baş smetasında həmin məqsəd üçün zəruri olan vəsaiti nəzərdə tutsun. Müəyyən edilsin ki, yeni yaşayış evlərini Bakı Şəhər İcraiyyə Komitəsinin tikinti təşkilatları inşa edəcəkdir. **Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev**
**Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi M.C.Bağırov»**

* * *

...Dövranın gərdişi elə oldu ki, Mir Cəfər Bağırov kimi Teymur Quliyevin də ayağı Bakı metrosu vaqonuna dəymədi. 1965-ci il noyabrın 18-də Azərbaycanın sabiq hökumət başçısı altmış doqquz yaşında vəfat etdi.

1996-cı ildə anadan olmasının 100 illiyi tamam oldu.Xatırlanmadı...

Azərbaycan Respublikası Siyasi Partiyalar yə İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Teymur İmamqulu oğlu Quliyevin xasiyyətnaməsi saxlanılır.

Xasiyyətnaməni Mir Cəfər Bağırov imzalamışdır.

Xalqımıza neçə-neçə əyilməz insanlar bəxş etmiş Cəbrayıl torpağının bu əvəzsiz övladı 18 yaşında Qori Müəllimlər Seminariyasını bitirmişdir.

O da Mir Cəfər Bağırov kimi əmək fəaliyyətinə kənd müəllimliyindən başlamışdır.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə T.Quliyev Culfa-Bakı dəmir yolunun inşa işlərində iştirak etmişdir, Azərbaycanın sovetləşməsinin ilk illərində Cəbrayıl İnqilab Komitəsinin sədri olmuşdur.

Müxtəlif rəhbər vəzifələrdə ləyaqətlə işləyən T.İ.Quliyev 1937-ci ildən başlayaraq uzun illər Azərbaycan hökumətinə başçılıq etmişdir.

Bir neçə dəfə SSRİ Ali Sovetinə deputat seçilmişdir. Əfsuslar olsun ki, M.C.Bağırovdan sonra Azərbaycanın tərəqqisində müstəsna rolu olan bu böyük şəxsiyyət də təqiblərə məruz qalmışdır.

Bunu arxivdəki bir çox sənədlər sübut edir. Məsələn, 1955-ci il mayın 3-də Azərbaycan SSR-in prokuroru A.S.Babayev Azərbaycan KP Mərkəzi Komitəsinin katibi İmam Mustafayevə göndərdiyi arayışda Kirovabad üzümçülük

sovxozunun direktoru T.İ.Quliyevin məsuliyyətə cəlb olunması təklifini irəli sürürdü.

...36 ildən çoxdur ki, T.İ.Quliyev şəhərin yuxarı qəbiristanlığında əbədiyyət yuxusuna dalmışdır.

Rahat yata bilərmi? Əsla yox! Dədə-baba ocaqlarından didərgin düşmüş cəbrayıllıların haray səsi torpağa hopur, sadə məzar evi alışıb yanır:

Cəbrayılı erməniyə vermək olar?

Bakı metropoliteni idarəsi isə yubileyə hazırlaşır. Yubiley dəftərində nə M.C.Bağırovun, nə də T.İ.Quliyevin adı vardır.

Nə yaxşı ki, bu gün Bakıda «Bağırov körpüsü» ilə yanaşı «Quliyev bağı» da mövcuddur. Nə yaxşı ki, metromuzun ilk sənədində bu adlar qoşadır.

Tarixin yeraltı qatlarından onların imzasını silmək mümkün olmadığı kimi nəsillərin də yaddaşından silmək mümkün deyildir.

# «AKSAX SIYIĞI» STATUSA MALİKDİR

**(Nəbz» qəzeti, 9-15 fevral 2002-ci il)**

2000- ci ildə Moskvada «Bütün dünyanın şirniyyatı» adlı qalın bir kitab nəşr olunub. 40 min tirajla buraxılmış, dünya xalqlarının 500-dən çox şirniyyatını əks etdirən «külliyyatın» tərtibçisi V.N.Rodionovadır. İşi, peşəsi, ixtisası, sənəti barədə bir kəlmə də yazılmamışdır. Ancaq hansı yuvanın quşu olduğu göz qabağındadır. Kitabda erməni dəst-xəttinə diqqət yetirin: Suriyasayağı «Palmira», bolqarsayağı paxlava, ispan şokoladı, yunansayağı badam vaflisi, ərəbsayağı «Sultan», Amerika «Kolubosu», erməni «Ayparası», fransızsayağı «Respublika»... erməni sıyığı, Arsax sıyığı...

Deməк, Yer üzündə arsax xalqı da mövcuddur! Bəs «Arsax sıyığı»nın «erməni sıyığı»ndan fərqi nədir? Mayanın, unun, yağın və şəkər tozunun qram fərqində! Başqa sözlə, Azərbaycan xəzinəsindən doşabı çıxarıb, şəkərlə əvəz edərək, erməni və arsax sıyığı icad etmişlər.

Kitabda Türkiyə şirniyyatı nümunəsi yoxdur. «Aypara» ermənilərə məxsusdur. Bəs Azərbaycan şirniyyatı? 520-ci səhifədə oxuyuruq: «Azərbaycansayağı «Aranc». Xəmir üçün: 300 qram un, 3 ədəd yumurtanın sarısı, 1 qram duz, 52 qram konyak və ya araq». Beləliklə, kitabın tərtibçisi Azərbaycan xalqı üçün qondarma bir şirniyyat növü uydurur və xəmirimizə araq qatır. Bəh-bəh! Ermənilər «aypara» hazırlayır, quymaq bişirir, xəşil çalırlar, biz isə təamımıza araq qatırıq!

İki ildir ki, Moskvanın «Royal klassik» nəşriyyatı tərəfindən buraxılmış bu kitab Azərbaycanda yayılmaqdadır. Bakıda erməni gəlinlərinin xanımlıq etdiyi mətbəxdə «Arsax sıyığı» yüksək statusa malikdir...

Moskvada yaşayan soydaşlarımız arasında daşnak şirniyyatına acı qatanlar yoxdur. 2000-ci ildə Rusiya paytaxtında azərbaycanlıların vəsaiti ilə yeni bir kitab çıxmışdır: «XX əsrin yüz görkəmli azərbaycanlısı». «Bütün dünyanın şirniyyatı» kitabının tərtibçisi V.N.Rodionovadan fərqli olaraq, «XX əsrin yüz görkəmli azərbaycanlısı» əsərinin müəllifi Azərbaycan oxucularına tanışdır - Əbdül Hüseynov.

O, M.V.Lomonosov adına Moskva Dövlət Universitetini bitirəndən sonra, SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda çalışmışdır. İran, Türkiyə, Monqolustan və başqa ölkələrdə diplomatiya sahəsində fəaliyyət göstərmişdir. Bir sıra elmi monoqrafiyanın və «Mustafa xanın xəzinəsi» tarixi povestinin müəllifidir. 72 yaşlı alim-yazıçı hazırda Moskvada yaşayır.Təəssüflər olsun ki, «Şirniyyat» kitabında «Arsax» şirniyyatından dəm vuranları həmyerlimiz öz kitabı ilə qanadlandırmışdır. Ə.Hüseynovun təqdim etdiyi 100 nəfər azərbaycanlının 99-u müsbət, yalnız birisi mənfidir. Kitabın 42-ci səhifəsində bu adla tanış oluruq:

«Mir Cəfər Abbas oğlu Bağırov. Azərbaycan xalqının cəlladı, 1933-53-cü illərdə respublika diktatoru».

Son nəfəsinədək daşnaklarla mübarizə aparmış tarixi şəxsiyyət barəsində bu sözləri yazan hansı mənbələrə əsaslanır? Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində bu günlərdə çox maraqlı

sənədlə tanış oldum. Sən demə, Ə.Hüseynov 12 yaşında olanda, «Azərbaycan xalqının cəlladı» «Arsax» deyənlərin xəşilini çalmışdır. Azərbaycan K(b)P Mərkəzi Komitəsinin 1942-ci il 7 aprel tarixli büro iclasının qərarı ilə T.İ.Ter-Qriqoryanın «IX əsrdə ərəb işğalçılarına qarşı Arsaxın mübarizəsi» kitabı satışdan götürülmüş və qadağan edilmişdir.Qərarda deyilir ki, qədim Azərbaycanın bir hissəsi olan Arsax əhalisi bütün Azərbaycan xalqı ilə birlikdə ərəb işğalına qarşı çıxmışdır.

Bundan başqa, Ter-Qriqoryanın müsbət qəhrəman kimi təsvir etdiyi Səhl Sumbat, əslində Azərbaycan xalqının görkəmli sərkərdəsi Babəki xaincəsinə düşmən əlinə vermiş satqındır. Azərbaycan xalqının XX yüzillikdə xilaskarı olmuş Mir Cəfər Bağırova XXI əsrdə «Azərbaycan xalqının cəlladı» demək - «Bütün dünyanın şirniyyatı»nda milli yeməklərimizin xəmirinə araq qatmağa bənzəyir.

Bu isə Mir Cəfər Bağırova rəhmət oxuyan milyonlarla insan tərəfindən heç bir zaman qəbul edilməyəcəkdir.

# ƏRƏB ƏLİFBASI İLƏ YAZILMIŞ MƏKTUBA M.C. BAĞIROVUN DƏRKƏNARI

**(«Nəbz» qəzeti, 16 mart 2002-ci il)**

1952-ci ildə Mir Cəfər Bağırova göndərilən məktublar arasında əski əlifba ilə yazılmış bir vərəq diqqətimi cəlb etdi.

Yarım əsrdən artıq bir müddətdə Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan bu maraqlı sənədlə və Mir Cəfər Bağırovun dərkənarı ilə həyata keçirilmiş tədbirlərlə tanış olanda bir daha yəqin edirsən ki, sadə əmək adamlarının qaldırdığı məsələlərə Azərbaycan rəhbəri necə həssaslıqla yanaşırmış.

Bakının Suraxanı qəsəbəsindən göndərilmiş məktubda oxuyuruq:

«Hörmətli xalq deputatı Mir Cəfər Bağırov yoldaşa

Səmimi kommunist salamı!

Siz bolşevik partiyamızın və Azərbaycan xalqımızın qarşısında sağlam kommunist iradəli deputat sayılırsınız. Mən özüm fəhlə sinfi içərisində doğulan neft mühəndisi sayılıram.

Partiyamızın və dövlətimizin işlərinə aid olan bəzi məsələləri şəxsən Sizə söyləməyi arzulayıram. Sizin bu görüşmək haqqında verdiyiniz sərəncam ümumxalq işinin müəyyən dərəcədə nizama düşüb xeyir verməsinə səbəb ola bilər.

**Ehtiramla, neft mühəndisi**
**Məmmədqulu Abbas oğlu**
**Ələkbərzadə»**

Ünvan: Bakı, Suraxanı, Dzerjinski adına zavodun nəzdindəki İxtisaslaşdırılmış Konstruktor Bürosu.

21 yanvar 1952-ci il»

Mir Cəfər Bağırov neft mühəndisinin «ərəb əlifbalı» məktubunda qaldırdığı məsələnin respublika səviyyəsində həll olunmasını vacib hesab etmişdir.

1952-ci il yanvarın 31-də Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri Nəzər Heydərova,

Mərkəzi Komitə katibi Mir Teymur Yaqubova,

Bakı Şəhər Sovetinin sədri Tofiq Allahverdiyevə və MK-nın şöbə müdiri Ənvər Mehdiyevə aşağıdakı məktub yola salınmışdır:

«N.H.Heydərov yoldaşa

Surəti məlumat üçün:

T.Yaqubov, T.AIIahverdiyev, Ə.Mehdiyev yoldaşlara

Bakının Suraxanı qəsəbəsi Dzerjinski adına zavodun nəzdindəki İxtisaslaşdırılmış Konstruktor Bürosu ərazisində yaşayan Ələkbərzadə Məmmədqulu Abbas oğlunun ərizəsini Sizə göndərirəm.

Onu qəbul edərək, səbrlə, axıradək dinləməyinizi və yanınızda ikən mənə zəng vurmağınızı xahiş edirəm.

Eyni zamanda onun təqribən 25-27 il həyatdan geri qaldığını nəzərə alın, zira o vaxtdan Azərbaycanda ərəb əlifbası ilə yazı aparılmır.

Əlavə M.A.Ələkbərzadənin ərizəsi

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

Azərbaycan rəhbərinin məktubundakı incə eyhama diqqət yetirin: Ərəb əlifbası ilə məktub yazmasını neft mühəndisinə irad tutmayın. Başqa sözlə, buna dini don geyindirməyin!

O zaman, 50 il bundan əvvəl indiki Suraxanı Maşınqayırma Zavodunun adi bir işçisinin Mir Cəfər Bağırova müraciətindən sonra «dövlətimizin işinə aid olan bəzi» məsələlərin həllinə rəvac verilmişdir.

Mir Cəfər Bağırovun tapşırığı ilə Bakı kəndlərinin abadlaşdırılması, orda yaşayan əhalinin sosial-mədəni və məişət şəraitinin daha da yaxşılaşdırılması sahəsində əlaqədar təşkilatlar müfəssəl tədbirlər işləyib hazırlamışlar. Həmin məsələ Azərbaycan K(b)P Bakı Vilayət Komitəsinin 1952-ci il 12 may tarixində keçirilən büro iclasında geniş müzakirə olunmuşdu.

Büronun qərarı ilə məsul vəzifəli şəxslər - Bakı Şəhər İcraiyyə Komitəsinin sədri R.İsmayılov Mərdəkana,

Şəhər Partiya Komitəsinin şöbə müdiri N.İmanquliyev Zirə kəndinə,

Azərbaycan SSR Rəyasət Heyətinin katibi S.Cəfərov Pirşağıya,

Azərbaycan K(b)P MK-nın Qadınlarla İş Şöbəsinin müdiri Ç.Aslanova Maştağaya,

Azərbaycan SSR sosial təminat naziri Z.Kərimova Binə qəsəbəsinə,

Azərbaycan SSR meşə sənayesi naziri R.İsmayılov Xırdalana,

Azərbaycan K(b)P MK-nın şöbə müdirinin müavini Z.Seyidməmmədova Əmircana,

Azərbaycan LKGİ Bakı Vilayət Komitəsinin katibi L.Novruzova Bülbüləyə,

Azərbaycan K(b)P Şəhər Rayon Komitəsinin katibi S.İmanov Saraya təhkim edilmışlər.

Bakı kəndlərində əhalinin güzəranının yaxşılaşdırılması o zaman rəhbər işçilərin daim diqqət mərkəzində olmuşdur. Bu gün Novxanı bağları şanısız, Bilgəh zəfəransız, mühəndis Ələkbərzadələr işsiz qalsa da, Bakı kəndləri yerindədir.

Bu kəndlərin problemlərini həll etmək üçün Mir Cəfər Bağırovun rəhbərlik təcrübəsindən də bəhrələnmək lazımdır.

# MİR CƏFƏR BAĞIROVUN VARİDATI

**(«Nəbz» qəzeti, 6 fevral 2002-ci il)**

Mir Cəfər Bağırov şəxsi varidatını xalqdan gizlətməmişdir. Bütün varlığı ilə sevdiyi milləti İkinci dünya müharibəsinin alovlarından fədakarcasına çıxarmış sərkərdə, 1946-cı ildə 50 yaşına qədəm basdı.

Üç il qabaq böyük oğlu Cahangiri düşmənlə amansız döyüşdə itirmiş atanın təsəllisi kiçik oğlunda idi.

İsmi valideynlərinin baş hərflərindən yaranmış 14 yaşlı Cen 6 saylı orta məktəbə sinif yoldaşları kimi piyada gedib gəlirdi. Mir Cəfər Bağırovun ömür-gün yoldaşı Yevgeniya xanım evdarlıqla məşğul idi.

Bir sözlə, Azərbaycan rəhbərinin güzəranı halal zəhmətlə yaşayan soydaşlarının həyatından fərqlənmirdi.

1946-cı ildə böyük seyid övladı şəxsi hədiyyələrini dövlət muzeyinə təhvil vermək qərarına gəlmişdi.

Bu barədə Respublika Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan sənədi oxuculara təqdim edirəm:

**«Mir Cəfər Bağırov yoldaş tərəfindən Stalin adına muzeyə verilmiş hədiyyələrin siyahısı**

1. İrandan göndərilmiş təbrik məktubu, qırmızı cilddə. 1 səhifədə.

2. İrandakı səfirlikdən və ticarət nümayəndəliyindən alınmış təbrik məktubu, qırmızı dəri qovluqda. 6 səhifədə.

3.Azərbaycan SSR-in 25 illiyi münasibəti ilə SSRİ Xalq Komissarları Soveti yanında Ali Məktəb İşləri üzrə Komitədən göndərilmiş təbrik məktubu, dəri qovluqda, Leninin-Stalinin barelyefi. Metal etiket

4.Azərbaycan SSR sovetləşməsinin 25 illiyi münasibətilə Şahrud şəhəri əhalisinin iki gümüş lövhədə yazılmış təbrik məktubu.

5.Azərbaycan SSR sovetləşməsinin 25 illiyi münasibətilə İranın erməni əhalisinin gümüş lövhədə yazılmış təbrik məktubu.

6.Azərbaycan SSR sovetləşməsinin 25 illiyi münasibətilə Maku xanlarının Mir Cəfər Bağırov yoldaşa hədiyyəsi: çərçivəyə alınmış məxmər parçaya gümüşü və qızılı saplarla almaz və firuzə daşlar (6 ədəd almaz, 15 ədəd firuzə).

7.Məxmər və gümüşü örtüklü mozaikalı mücrü.

8.Azərbaycan SSR sovetləşməsinin 25 illiyi münasibətilə Xalq Partiyası Marağa şəhər təşkilatının hədiyyəsi: Stalin və Mir Cəfər Bağırov yoldaşların portretləri təsvir olunmuş iki ədəd gümüş vaza.

9.Xalı.

10.Müxtəlif sənədlər - 14 vərəqədə.

Təhvil verdi: Azərbaycan K(b)P MK-nın xüsusi bölməsinin müdiri (Novikova)

Qəbul etdi: Stalin adına muzeyin direktoru (Kislaya)
05.VI.1946-cı il»

***

...Görəsən, Mir Cəfər Bağırovun adına göndərilmiş hədiyyələrin aqibəti necə olub?

Gümüş lövhələr, qiymətli mücrü, naxışlı xalı muzeydən hara aparılmışdır?

6 ədəd almaz, 15 ədəd firuzə daşları hansı xanımların cəvahirinə qatılmışdır?

Eşidənlər, bilənlər varmı?

Varsa, dilə gəlsinlər!

# MİR CƏFƏR BAĞIROV ARXİV SƏNƏDLƏRİNDƏ

**(«525-ci qəzet», 29 iyun 2001-ci il)**

«Kommunist» qəzetinin 1949-cu il 26 yanvar tarixli sayında Azərbaycan Kommunist Partiyasının XIX qurultayında Mir Cəfər Bağırovun hesabat məruzəsinin mətni dərc olunub. Məruzənin bir yerində oxuyuruq: «Şair və yazıçılarımızın yoxlanmış və etibarlı mənbələrdən istifadə edərək həqiqətə uyğun əsərlər yaza bilməsi üçün kifayət qədər material və tarixi sənədlər vardır. Son zamanlar məlumatsız, bəzi hallarda hətta şübhəli müəlliflərin kitabları çıxmışdır. Bu cür kitablarda tarixi hadisələr və faktlar kobud surətdə təhrif olunur, hətta bəzi qəzet və jurnalların səhifələrində onlara müsbət qiymət də verilir».

Mir Cəfər Bağırovun haqqında danışdığı əsərlər barədə Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində maraqlı sənədlər saxlanılır.

1946-cı ildə Ermənistan Dövlət Nəşriyyatı Marietta Şaginyanın «Sovet Zaqafqaziyası» kitabını nəşr edib. Ermənistanda və Moskvada ermənilər və ermənipərəstlər tərəfindən rəğbətlə qarşılanan bu kitabın Azərbaycanda da oxucuları az olmamışdır. Əsərdə «tarixi hadisələr və faktlar kobud surətdə təhrif olunur» desələr də, etiraz səsini qaldırmayıblar. Yalnız və yalnız Mir Cəfər Bağırov susa bilməyib. Marietta Şaginyanın daşnak baxışlarını alt-üst edib.

M.C.Bağırovun Kremlə, ÖİK(b)P MK katibi A.A.Jdanova göndərdiyi rəsmi məktubunu bütünlüklə oxuculara çatdırıram:

«1946-cı ildə Ermənistan Dövlət Nəşriyyatı tərəfindən M.Şaginyanın «Sovet Zaqafqaziyası» kitabı nəşr olunub. Sizə bildirməyi zəruri hesab edirik ki, bu kitab çoxlu siyasi səhvlərlə doludur, tarixi həqiqətləri təhrif edir və əslində Zaqafqaziya xalqlarına böhtandır.

Dediklərimizi təsdiq etmək üçün kitabdan bəzi səciyyəvi parçaları nəzərinizə çatdırıram:

1927-ci ildə yazılan «Sevan gölü» oçerkində müəllif Zaqafqaziya xalqlarını tarixən yorulan, əldən düşən, kökü kəsilməyə məhkum edilən xalqlar kimi təsvir edir: «Zaqafqaziyalılar - qədim, yorğun, dünyagörmüş xalqlardır: ötən minilliklərin təsiri ilə onlar məxluqa çevriliblər. Bu sözlər qədim xalq olan, kəşməkeşli keçmişindən yorğun düşən ermənilərə də aiddir. Günəşin hərarətindən və tarixi ahıllıqdan burada isitmə kimi naxoşluq olan tənbəllik çox güclüdür. Bunu ört-basdır etmək üçün məcburi qaydada kiçik bir ordu var: hərbi düşərgə həyatı, təlimlər, məşqlər, marşlar, rəsmi-keçidlər...Yaxınlıqda isə şaqraq səsli pionerlər təbillərin gurultusu altında yürüşə çıxırlar. Bütün bunlar bədənlərini düz saxlaya bilməkdən ötrü ermənilərin vərəmli bel fəqərəsinə keçirilən tibbi kəmərdən başqa bir şey deyildir.» (səh.128)

İnqilabdan illər keçməsinə baxmayaraq, Şaginyanın Zaqafqaziyada gördükləri ancaq dilənçilik, xarabalıqlar və vəhşi həyat tərzidir.

Şaginyan üçün Qarabağda keçmişdəki təhkimçi erməni melikləri əzizdir, belələrini coşğun məhəbbətlə qələmə alır, erməni mülkədarlarını ağıllı və xeyirxah sahibkarlar kimi idealizə edir: «...Bu məliklər xəyalpərəst və lovğa gürcü

knyazlarına bənzəmirlər. Budur, saçı-saqqalı ağarmış rütbə sahibi öz vətəni Qarabağa qayıdır. Nikolay ordusuna məxsus şinelini çiynindən ataraq, xırmana taxıl döyməyə gedir. O da kəndliləri kimi Qarabağda «qaradam» deyilən (pəncərəsiz və təkcə baca yeri olan) komada yaşayır, başqalarından bununla fərqlənir ki, onun daxması generalsayağı səliqə-səhmanlıdır, tər-təmizdir, ağardılmışdır.» (səh.226)

Dağlıq Qarabağı «erməni ölkəsi» (səh.224), «Ermənistanın dvoryan hissəsi» (səh.225) elan edən Şaginyan 1946-cı ildə erməni-azərbaycanlı qırğınını xatırladır, dağıntıların mənzərəsini canlandırır, hətta yazır ki, «Şuşanın ermənilər yaşayan hissəsindəki bir xəndəkdə qana bulaşmış bir çəngə qadın saçını öz gözüylə görmüşdür.» (səh.254)

Müəllifin çadra ilə əlaqədar söylədikləri Azərbaycan qadınlarının adına olduqca yaramaz və təhqiramiz ifadələrdir: «Çadra ehtirasa gətirmək vasitəsi kimi gərəklidir. Onun gecə qaranlığına bənzər mübhəmliyi içərisindəki kövrək bədən hərəkətləri əsrlər boyu təşəkkül tapmış olduqca mürəkkəb zehniyyətlər məcmusu doğurub. Həm uzaq əcdadlara məxsus vəhşiliyin - qadını təpikləmək və tapdalamaq ehtiyacının, həm «mənimdir», «mənimdir» kimi gizli, qapalı, örtülü və vəhşi mülkiyyətçilik hissiyyatının, həm də Zaqafqaziyada geniş yayılan homoseksualizmin psixoloji əsasını burada axtarmaq lazımdır.» (səh.257).

Eyni zamanda Avropa və Amerika qarşısında Şaginyanın kölə xislətini və yaltaqlığını qeyd etmək lazımdır. Dağlıq Qarabağın təbii sərvətləri haqqında danışaraq, bunları Amerikanın təbii sərvətləri ilə müqayisə edən müəllif yazır: «Ölkənin müftə elektrik enerjisi, istifadəsiz qalmış insan enerjisi, bol meşələri və son dərəcə gözəl təbii müalicə vasitələri - bütün bunlar bir-biriylə həmahəngdir və göz qabağındadır. Amerikalı qibtə ilə söyləyərdi: Bu deyilənlərin bəziləri bizim sıldırımlı dağlarımızda, gözoxşar qərb ştatlarımızda da var: əsrarəngiz təbiət, təmiz hava, meşə, təbiətin bəxşişi olan su enerjisi... Ancaq bax, orada ən əsas bir şey çatışmır, onsuz da ölkəni canlandırmaq, gerilikdən və ətalətdən qurtarmaq qeyri-mümkündür.

Bəs bu gün üçün əsas olan nədir? Pulmu? Amerikalılar puldan heç vaxt korluq çəkmirlər. Yox, o başqa cavab verəcək və onun cavabı bizim üçün gözlənilməz olacaq: «Çatışmayan adamdır, işləməyə hazır olan adam. Qarabağda belə adamlar var, işləmək arzusunda olan adamlar.» (səh.228-229).

Dağlıq Qarabağa səyahəti zamanı müəllif yaxşı və gözəl nə görürdüsə, hamısını Avropada gördükləri ilə əlaqələndirir: «Avropanın haradasa orta qurşağına, İsveçrə Bavariyasına, Tirola, Avstriyaya xas olan xəfif Avropa yağışı Dağlıq Qarabağda da tez-tez yağır, eləcə də tez kəsir (səh.295). «Əkinçilik mədəniyyəti havanın təmizliyində təcəssüm edir. Bu, havası sanki saflaşdırılan Avropada xüsusilə nəzərə çarpır.» (səh.227).

M.Şaginyanın «Sovet Zaqafqaziyası» kitabından çoxlu belə misallar gətirmək olar. Sadəcə aydın deyil ki, əsas etibarilə 20-25 il əvvəl yazılan bu

oçerkləri 1946-cı ildə yenidən çap etmək Ermənistan Dövlət Nəşriyyatının nəyinə lazım olub? Görünür, nəşriyyat bunu ifşa olunan xalq düşmənlərinin güclü təsiri altında edib və mahiyyətcə bu, anqlo-saksların, eləcə də vətənimizin digər düşmənlərinin sovet xalqlarının ünvanına yağdırdığı rəzil böhtanlardan və törətdiyi təxribatlardan heç nə ilə fərqlənmir.

Kitabın satışdan yığışdırılmasını zəruri hesab edirik.

Əlavə: Marietta Şaginyanın «Sovet Zaqafqaziyası» kitabı.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov

21 iyul 1947-ci il.»

***

...Azərbaycanda «öz dinləyicilərinin və oxucularının qəlbinə günəş kimi nüfuz edən» insanlardan biri də Səməd Vurğunun yaxın dostu Mirzə - İbrahimov olub. M.C.Bağırovun etibarını qazanan bu işıqlı şəxsiyyət 1946-50-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində M.İbrahimovun ictimai fəaliyyətilə bağlı bir sıra maraqlı sənədlər saxlanılır.

1938-ci il yanvarın 3-də Mirzə Əjdər oğlu İbrahimov haqqında Moskvanın mərkəzi təşkilatlarına ünvanlanan şikayət ərizəsi yazılıb. Məktubda oxuyuruq: «Yoldaşlar! Aşağıdakı məlumatı nəzərinizə çatdırmağı özümə vətəndaşlıq borcu sayıram. SSRİ Ali Soveti Millətlər Sovetinə deputat seçilən M.İbrahimov İran təbəəlidir. Onun əsl simasını üzə çıxarmaq lazımdır.

Bizə məlumdur ki, o öz anketində Naxçıvanda doğulduğunu, yəni azərbaycanlı olduğunu göstərir, başqa sözlə maskalanır.

M.İbrahimov xalis iranlıdır, Culfadan sərhəddi keçib Naxçıvana gəlib. Az müddətdən sonra Bakıya köçüb. İrandakı dayısı ilə əlaqə saxlayır.

Y.Məmmədov və başqaları».

Şikayət məktubu Moskvadan Bakıya, Azərbaycan K(b)P MK katibi M.C.Bağırova göndərilib. M.C.Bağırov M.İbrahimovun dəst-xəttilə yazdığı tərcümeyi-halında bir cümlənin altından karandaşla xətt çəkib: «1911 -ci il oktyabrın 15-də (28-də) Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində anadan olmuşam.» Sonra da anonim məktubun yuxarısına «İşə alınsın» sözlərini yazıb.

Moskvaya şikayət ərizəsindən sonra M.C.Bağırov «İran təbəəli» deputatı Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi edib.

1942-ci il oktyabr ayının 22-də otuz bir yaşlı M.İbrahimov barədə M.C.Bağırov Moskvaya, Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin kadrlar şöbəsinə aşağıdakı məktubu yola salıb:

«Azərbaycan K(b)P MK Bürosunun 1942-ci il 21 oktyabr tarixli protokolundan çıxarış:

Azərbaycan SSR Xalq Maarif Komissarı barədə

Mirzə Əjdər oğlu İbrahimov yoldaş Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəisi vəzifəsindən azad edilərək, Azərbaycan SSR Xalq Maarif Komissarı təsdiq olunsun.

Həmin qərar təsdiq olunmaq üçün ÜİK(b)P MK-ya göndərilsin.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

1947-ci ildə Azərbaycan hökumət başçısının müavini M.İbrahimovun ünvanına Moskvadan göndərilən bir məktub arxivdə saxlanılır, Bu sənədlə də oxucuları tanış edirəm: «Yoldaş İbrahimov! Ermənistanda kitabımı təkrarən oxudum və bu qənaətə gəldim ki, Siz tamamilə haqlısınız. Kitabda xoşa gəlməyən, doğru olmayan təhqiramiz məqamlar vardır və bunlar yalnız Azərbaycana deyil, Ermənistana da aiddir.

Bu məsələ ilə əlaqədar Ermənistan K(b)P MK-nın birinci katibinin yanında oldum. Nə etmək lazım olduğu müzakirə edildi. Mən kitabı satışdan yığışdırmağı xahiş etdim.

Lakin bu, çapa hazırlanan yeni kitabım üçün ağır nəticələrə gətirib çıxarardı, Moskva onun çapını labüd olaraq dayandırardı. Kitabı söküb, beş səhifəni, o cümlədən Dağlıq Qarabağa aid hissənin birinci səhifəsini (mənim əlyazmamda olan mətni bərpa etməklə) və «Qara çuval» məqaləsindəki iki səhifəni yenidən çap etməyi qərara aldıq.

Bundan əlavə, erməni qəzetində çap etdirdiyim məqalənin sonunda kitabım haqqında söz salır və etiraf edirəm ki, bir neçə yolverilməz və qüsurlu məqamları təshih etməməkdə böyük səhvə yol vermişəm.

Əgər yoldaş Bağırov razılıq versə, mən bunu «Bakinskiy raboçiy» qəzetində də edə bilərəm: əvvəlcə belə qüsurların necə meydana gəldiyini izah edər, sonra onlara görə üzr istəyərək, sonradan təshih edilən məqamları bir-bir göstərərdim.

Ermənistanın «Qlavlit»i təshih olunan nüsxələr gələnədək kitabın satışını dayandırmağı əmr edib. Biz ən çox xoşagəlməz məqamları aradan qaldırdıq.

Şuşa ilə əlaqədar yerləri isə olduğu kimi saxlamaq lazım gəldi, əks təqdirdə bütün kitabı söküb, yenidən cildləməli olardılar.

Ancaq müqəddimədə qeyd etmişəm ki, Azərbaycan və Gürcüstan kitabda təsadüfən təmsil olunub və bu, səciyyəvi mahiyyət daşımır.

Mən özüm kitabımı oxuyaraq dəhşətə gəldim və onun çap olunmaması üçün qiymətli nəyim varsa ondan, hətta həyatımın qalan hissəsindən keçərdim. Burada redaktor ağır tənbeh edildi. Mən söylədim ki, Siz Aqabaiyanı xəbərdar etmisiniz, lakin o heç bir tədbir görməyib.

Salam göndərirəm: M.Şaginyan.»

***

Dəfələrlə Moskvada və Bakıda M.Şaginyanla səmimiyyətlə görüşərək hal-əhval tutan M.İbrahimov «qələm dostu»nun düşdüyü vəziyyətə ürəkdən acısa da, aldığı məktubu dərhal respublika rəhbərinə göndərib.

«Bu gün mənim adıma poçta ilə M.Şaginyandan məktub daxil olub. Həmin məktubu Sizə göndərməklə, müvafiq göstəriş verməyi xahiş edirəm.

Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini M.İbrahimov».

M.C.Bağırov M.Şaginyanın məktubundakı «Şuşa ilə əlaqədar yerləri isə olduğu kimi saxlamaq lazım gəldi» sözlərinin altından karandaşla xətt çəkib. M.İbrahimovu yanına dəvət edib, onunla söhbəti müxtəsər olub: «Sən yazıçısan, ürəyin yumşaqdır. Düşmənlə düşmən tək rəftar edərlər!»

Bu dəfə M.C.Bağırov M.Şaginyanın haqqında Moskvaya - Beriya yoldaşa yazıb:

«SSRİ Nazirlər Sovetinə, L.P.Beriya yoldaşa

M.Şaginyanın 1946-cı ildə Ermənistan Dövlət Nəşriyyatı tərəfindən buraxılan «Sovet Zaqafqaziyası» kitabının bir nüsxəsini məlumat üçün Sizə göndərirəm.

Bununla birlikdə həmçinin həmin məsələ ilə əlaqədar Jdanov yoldaşa göndərdiyim məktubumun surətini, eləcə də Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini M.İbrahimovun ünvanına M.Şaginyandan məktubun və mənim adıma qoşma məktubun surətlərini göndərirəm.»

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov

1 noyabr 1947-ci il № 217».

***

Daşnaklara münasibətdə həmişə M.C.Bağırovun mövqeyini müdafiə edən Lavrenti Pavloviç Beriya öldürüldükdən sonra, M.Şaginyan barəsindəki məktublar M.C.Bağırova qarşı çevrilib. 1956-cı ilin yazında SSRİ Baş prokuroru Bakıda məhkəmə iclasında M.Şaginyanın da müdafiəçisi rolunda idi.

***

...«Azərbaycan» qəzetinin 13 mart 2001-ci il tarixli sayında Milli Məclisin deputatı, filologiya elmləri doktoru, professor Şamil Qurbanov «Azərbaycanlıların soyqırımı» məqaləsində yazır:

«...Moskvada yaşayan M.Şaginyan dəfələrlə Azərbaycana gəlib və M.C.Bağırov onu qəbul etməyib, təhqir edib qovub.

Sonra 1983-cü ildə Moskvanın «Sovetskiy pisatel» nəşriyyatında Ararat Barseqyan «Məhəbbət mozaikası» adlı əsərini çap etdirdi və bizim təbliğ etdiyimiz yalançı dostluğumuza tüpürdü.

Belə ki, həmin kitabın ilk səhnə əsərində hadisələr keçən əsrin axırlarında Qarabağda cərəyan edir və bura Ermənistan torpağının bir parçası kimi verilir,

personajlardan biri - Melik Şahnazar «böyük erməni knyazı», Pənah xan yalançı İran hökmdarı kimi verilir. Bu əsər hətta Bakıda erməni dilində tamaşaya qoyulub. Əsərin pafosu belədir: azərbaycanlılar gəlmə, ermənilər isə aborigen kimi verilir və göstərilirdi ki, gec-tez biz burada tam hökmranlıq edəcəyik.

Onun dalınca Z.Balayanın «Ocaq» adlı murdar əsəri çıxdı və nəhayət, məlum hadisələr baş verdi.

...1960-cı illərdə Bakıda M.Ə.Sabirdən sonra ikinci heykəl olan, bütün Şərqdə dramaturgiyanın əsasını qoyan M.F.Axundovun abidəsi gecə ikən uçuruldu. Bu heykəl kimə nə eləmişdi, niyə uçurulurdu?

Məlum oldu ki, o günlərdə televiziya ilə M.F.Axundovun «Hacı Qara» komediyası göstərilib. Orada belə bir yer var: Hacı Qara mal alverindən gələrkən yolda bir neçə erməni kəndlisinə rast gəlir.

Bu biçarələr biçindən evlərinə qayıdırlarmış. Hacı Qara gecə vaxtı elə bilir ki, bunlar yol kəsəndirlər, onu soymaq istəyirlər. Özü daşın arxasına keçib onların üstünə qışqırır: «Tüfənglərinizi yerə salın, yoxsa vurdum».

Ermənilər başlayırlar yalvarmağa.

Mkrtıç - Vallah, yarağımız yoxdur, bu iki oraqdan başqa bizdə kəsər tapılmaz. Əgər bizdə silah varsa, qanımız sənə halaldır.

Hacı Qara - Sizin qanınız çoxdan halaldır, amma bu zamanadək tökən olmuyub».

Bu sözlərə görə Bakının mərkəzində, sovet hakimiyyətinin güclü dövründə M.F.Axundovun heykəlini o zaman iki erməni balası uçurtmuşdu. Azərbaycan hökuməti bunun səsi çıxmasın deyə tez-tələsik heykəli qaldırdı və hər şey guya yoluna qoyuldu.

Bundan sonra daha dəhşətli hadisələr baş verdi. Bakının ikinci gözəl tarixi abidəsi olan Opera Teatrının binasını yandırdılar...

Həmin yandırılan bina mərhum Əliş Ləmbəranskinin rəhbərliyi altında təzədən tikildi. Bina tikilib qurtaranda bir də yandırıldı. İstintaq aparıldı, məlum oldu ki, yenə ermənilərin işidir.

Özü də adi fəhlə işləyənlər acıqdan yandırmışlar. Yenə üstü örtüldü, səs salınmadı. Opera binası üçüncü dəfə təzədən tikildi. Belə faktları daha da artırmaq olar».

...M.F.Axundov adına Opera və Balet Teatrının əzəmətli binasını ermənilər 1985-ci il aprelin 17-də yandırıblar. Azərbaycan xalqı böyük Üzeyirin anadan olmasının yüz illiyini təntənəli şəkildə burada keçirməyə hazırlaşırdı... O dəhşətli yanğın mənim də hafizəmdə sönməz qalıb. Uşaq kimi ağlayırdım.

Evə qayıdanda, varlığımı sarsıdan hisslərimi şeir misralarına çevirdim. Fəqət şeiri heç bir qəzet və jurnalda çap etdirə bilmədim. Ancaq və ancaq 1992-ci ildə «Ömrün gecikən yazı» kitabıma daxil edə bildim.

***

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində (fond I, siyahı 104, iş 52) 1948-ci il may ayının 4-də Şamxor rayonundan Bakıya, M.C.Bağırovun adına göndərilən bir teleqramla əlaqədar materiallar saxlanılır. Məsələnin qısaca təfsilatı ilə tanış oluruq.

«Azərbaycan K(b)P MK katibi Bağırov yoldaşa

Sizin nəzərinizə çatdırıram ki, bu gün, 1948-ci il may ayının 4-də axşam saat altının yarısında Şamxor rayon partiya komitəsinin ikinci katibi Avaqimov yoldaş dövlət maşınını özü idarə edərkən, qəza törədib və qəza nəticəsində mənim iki bacım həlak olmuşdur. Bacılarımın böyüyü 18, kiçiyi 16 yaşında idi.

Raykom katibi onların həyatına son qoydu. Xahiş edirəm, tədbir görəsiniz.

Şamxor şəhəri, Naxırçılar sahəsi, Paşa Əliyev».

Teleqram elə həmin gün M.C.Bağırova çatdırılıb. Onun tapşırığı ilə məsələ dərhal yoxlanılmış, müəyyən edilmişdi ki, Avaqimovun özbaşınalığı nəticəsində həqiqətən Əliyevlər ailəsinin iki qız övladı ağır xəsarət alaraq yolda keçinib.

Ertəsi gün, mayın 5-də Şamxor rayon partiya komitəsinin qərarına əsasən Avaqimov vəzifəsindən kənar edilib və cinayət məsuliyyətinə alınıb. M.C.Bağırovun bir dərkənarıyla iki azərbaycanlı qızın qanı yerdə qalmayıb.

Arxivdəki digər material da bu cəhətdən ibrətamizdir. Fonddakı sənədlərdən aydın olur ki, 1946-cı ildə SSRİ-nin Baş prokuroru Qorşeninin adına Dağlıq Qarabağ Muxtar Vilayətindən şikayət məktubları göndərilib.

Həmin məktublarda göstərildiyi kimi, vilayətin ayrı-ayrı rayonlarında qanunsuz olaraq kolxozçuların mal-qarası əlindən alınır, belə yaramaz hallara yol verənlərə isə DQMV prokuroru Ayrapetyan himayədarlıq edir.

SSRİ Baş prokuroru Qorşenin şikayət ərizələrini Azərbaycan SSR prokurorluğuna göndərib.

Respublikanın baş prokuroru Xəlil Əfəndiyev yoxlamanın yekunları əsasında Moskvaya göndərəcəyi məktubu M.C.Bağırova təqdim edib.

Respublika prokurorunun cavab məktubu M.C.Bağırovu qane etməyib. Nə üçün? Səbəbi M.C.Bağırovun Azərbaycan K(b)P MK-nın ikinci katibi Həsən Seyidova ünvanlanan aşağıdakı məktubunda göstərilir:

«H.Seyidov yoldaşa

Xahiş edirəm kolxozçuların mal-qarasının qanunsuz olaraq əllərindən alınmasına aid faktların yoxlanılması barədə respublika prokuroru Əfəndiyev yoldaşın Qorşenin yoldaşa yazdığı arayışın surəti ilə tanış olasınız, həmçinin bununla T.Quliyev yoldaşı, Azərbaycan K(b)P MK katiblərini və Abdullayev yoldaşı da tanış edəsiniz.

Mən belə hesab edirəm ki, Əfəndiyev yoldaş əslində Dağlıq Qarabağ Muxtar Vilayəti prokuroru Ayrapetyanı müdafiəyə qalxıb.

Halbuki onu məsuliyyətə cəlb etmək lazımdır, ona görə ki, Ayrapetyan, əvvəla, kolxozların mal-qarasının oğurlanmasına, mənimsənilməsinə və

dağıdılmasına rəvac verir, ikincisi, Moskvaya böhtan dolu teleqramlar vurur, Əfəndiyev yoldaş isə arayışında bunlardan bir kəlmə də olsun yazmır.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov

23 avqust 1946-cı il. № 467.»

SSRİ baş prokuroruna Azərbaycandan cavab məktubu DQMV prokuroru Ayrapetyan işdən kənarlaşdırıldıqdan sonra yola salınıb.

Xəlil Əfəndiyev isə M.C.Bağırovun qayğısından kənarda qalmayıb. Onu yanına dəvət edərək, sərt ifadələrlə danlasa da, respublikada rəhbər vəzifələrdə işləməsinin qarşısını almayıb.

X.Əfəndiyevin Azərbaycan K(b)P MK-nın ən böyük və mühüm şöbəsinin müdiri vəzifəsinə irəli çəkilməsinin çoxlarına məlum olmayan bir səbəbi də var: M.C.Bağırovun iradından sonra respublika prokuroru özü şəxsən bir neçə ermənінin cinayət əməlini aşkar edib.

# KƏLƏFİN UCU NECƏ AÇILIR?

**(«Nəbz» qəzeti, 23 noyabr-11 dekabr 2002-ci il)**

İyirminci illərdə Mir Cəfər Bağırov Azərbaycan Dövlət Siyasi İdarəsində fəaliyyət göstərərkən, bir neçə müsavatçı ziyalını həbsdən qurtarmışdır. Onların arasında Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin bacanağı, görkəmli ədib, jurnalist və nasir Seyid Hüseyn də vardı. Ölməz sənətkarın qızı -Azərbaycan Yazıçılar Birliyinin üzvü Qumral Sadıqzadə 1998-ci ildə nəşr olunmuş «Son mənzili Xəzər oldu» romanında atasının dilindən eşitdiklərini oxuculara çatdırır: «Məni nəcib adamlar xilas etdilər. Ömrüm boyu özümü onlara borclu hesab edəcəyəm. Çünki hər şey gözləmək olardı... Şəxsən Mir Cəfər Bağırov özü dedi ki, səni hərtərəfli yoxlamışıq, haqqında yazılanlar böhtandır. Get, arxayın ol, bir də səni bu məsələyə görə narahat edən olmayacaq. Bu mənə bəsdir».

Seyid Hüseyn də M.Ə.Rəsulzadə kimi, uşaqlıqda mədrəsədə oxumuş, ərəb və fars dillərini öyrənmiş, sonra isə rus-tatar məktəbinə daxil olmuşdu. Bacanağından 3 yaş kiçik olan Seyid Hüseynin əmək fəaliyyəti də M.Ə.Rəsulzadənin ilk ədəbi və naşirlik fəaliyyəti ilə həmahəngdir. Hər iki nadir istedad sahibi 20-30 yaşlarında «Təkamül», «İqbal», «Açıq söz» və s. qəzet və jurnalların naşiri və redaktoru olmuşlar.

1926-cı ildə M.Ə. Rəsulzadənin atası Axund Molla Ələkbər dünyasını dəyişdi. Böyük bir ailənin bütün çətinliyini Seyid Hüseyn çiyinlərinə aldı. Həmin illərdə bu zəhmətkeş insanın bir neçə yerdə işləməsinin başlıca səbəbi bununla izah oluna bilər: Sənaye və Kooperativ texnikumlarda müəllim, axşamlar «Kommunist» qəzetinin buraxıcısı, Sabunçu, Suraxanı, Balaxanı, Ramana, Bayıl klubları nəzdindəki ədəbiyyat dərnəklərinin rəhbəri, «Azərnəşr»də redaktorluq fəaliyyəti...

1932-ci il aprel ayının 23-də ÜİK(b)P MK-nın «Ədəbi-bədii təşkilatların yenidən qurulması haqqında» qərarına müvafiq olaraq, Azərbaycanda Sovet Yazıçıları İttifaqı yaradıldı, Yeni təsis edilmiş ittifaqın bəzi gənc üzvləri yeni- yeni əsərlər yazmaq əvəzinə, yaşlı ədiblərimizin əleyhinə «yuxarılara» məktublar göndərirdilər. Seyid Hüseyn də tənqid hədəfi idi. Gənc kommunist cızmaqaraçılar yazırdılar ki, «Azərnəşr»ə soxulmuş Seyid Hüseyn öz murdar keçmişini gizlədir. Onun arvadı Ümmügülsüm Sadıqzadənin əsl familiyası Rəsulzadədir, M.Ə.Rəsulzadənin əmisi qızıdır. Seyid Hüseyn Müsavatın lideri ilə əlaqə saxlayır».

1932-ci ildə qarayaxanlar «Müsavat firqəsinin sabiq üzvü»nü «Azərnəşr»də redaktorluqdan uzaqlaşdırdılar...

Həmin vaxtlar Mir Cəfər Bağırov Azərbaycandan uzaqlarda idi. O, Moskva Ali Partiya kurslarında ikiillik təhsili başa vurduqdan sonra ÜİK(b)P Mərkəzi Komitəsinin aparatında təlimatçı vəzifəsində çalışırdı. Moskvanın Azərbaycan rəhbərləri isə əvvəlcə rus V.İ.Polonski, sonra da erməni R.Q.Quben idi. M.C.Bağırov Azərbaycan K(b)P MK-nın birinci katibi vəzifəsinə irəli çəkildikdən sonra... keçmiş müsavatçılar elm, mədəniyyət və mətbuat sahələrində məsul vəzifələrə təyin olundular. İki il əvvəl işdən çıxarılmış Seyid Hüseyn Azərbaycan KP MK-nın tövsiyəsi ilə «Azrnəşr»in şöbə müdiri vəzifəsinə təsdiq edildi. «Azərnəşr»in 1934-cü ildə Seyid Hüseyn tərəfindən tutulmuş bədii ədəbiyyat

planında Azərbaycan yazıçılarının əsərləri ilə yanaşı Tolstoyun «Hərb və sülh» romanı, Şillerin «Qaçaqlar» dramı, Hötenin «Gənc Verterin iztirabları» povesti, Heynenin şeirlər kitabı da vardı. Şöbə müdiri öz işindən çox razı idi. İçərişəhərdən «Azərnəşr»in binasına gəlir, qələm dostları ilə görüşür, nəşrə hazırlanan kitabları gözdən keçirirdi. Nəşriyyat binasının yaxınlığındakı bir mənzilə də baş çəkirdi. Burada baldızı Ümbülbani onu həmişə hörmətlə qarşılayırdı. Seyid Hüseyn sevinirdi ki, artıq Məhəmməd Əminin böyük oğlu, on doqquz yaşlı Rəsulun əli çörəyə çatmışdır. O, Bakı Maliyyə Texnikumunu bitirdikdən sonra təyinatla Masallı rayonunda işləyirdi. Hər ay məvacibinin yarısından çoxunu Bakıya, anasının ünvanına göndərirdi.

1936-cı ildə Azərbaycan K(b)P MK iclasında «Azərnəşr»in 1937-ci il üçün planı təsdiq olundu. Plana müvafiq olaraq S.Hüseynin «Şirinnaz» povesti ayrıca kitab halında çapdan çıxmışdı. Redaktoru Yusif Vəzir Çəmənzəminli idi. «Mübariz allahsızlar kitabxanası» başlığı altında buraxılmış kitabda əslində «Allahlılıq» təbliğ olunurdu. Bunu yəqin etmək üçün kitabdakı izahlı lüğəti oxumaq kifayətdir. «Şirinnaz»ın sonrakı nəşrlərinin heç birisində bu «lüğət»in verilməməsi nəzərə alınmışdı.

***

Otuzuncu illərdə S.Hüseyni əsassız tənqid atəşinə tutanlar sonralar da bəd niyyətlərindən əl çəkmədilər.

Azərbaycan Sovet Ensiklopediyasının 1984-cü ildə nəşr olunmuş səkkizinci cildində onun haqqında verilmiş məlumatda deyilir: «Məqalələrində dünyagörüşü və ictimai-siyasi baxışlarındakı ziddiyyətlər, məhdudluq, metodundakı idealist estetika ünsürləri ilə bağlı birtərəfli və yanlış cəhətləri də mövcuddur.» Böyük ədibin irsinə ASE mövqelərindən yanaşanlar «Şirinnaz» kimi əvəzsiz sənət abidəsinə də balta çaldılar. 1993-cü ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən buraxılmış «Gilan qızı» kitabında «Şirinnaz» adı «Gənclik macəraları» oldu, izahlı lüğət ixtisar edildi. Redaktorunun üstündən xətt çəkildi. 1937-ci ildə nəşr olunmuş əsər yersiz və əsassız dəyişikliyə düçar oldu.

Arxiv sənədləri göstərir ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından biri olan Y.V.Çəmənzəminli Mir Cəfər Bağırovun yüksək qiymətləndirdiyi şəxsiyyətlərdən biri olmuşdur. 1933-cü ildə Mir Cəfər Bağırov Azərbaycan rəhbərliyinə gəldikdən sonra keçmiş müsavatçı ədib üçün səmərəli yaradıcılıq şəraiti yaradıldı. Azərbaycan Dövlət Sənaye İnstitutunun dil və ədəbiyyat kafedrasının assistenti Mərkəzi Komitənin tövsiyəsi ilə Azərbaycan Dövlət Sənaye nəşriyyatının tərcüməçi-redaktoru təsdiq edilmişdir. Otuzuncu illərdə Azərbaycan mətbuatı səhifələrində tənqid atəşinə tutulan «Studentlər» romanı 1935 və 1936-cı illərdə böyük tirajla «Azərnəşr» tərəfindən buraxılmışdır. 1934-37-ci illərdə həmçinin böyük yazıçının «Qızlar bulağı», «Yaramaz» və «Cənnətin qəbzi» kitabları nəşr edilmişdir. Həmin dövrdə Y.V.Çəmənzəminli «İki

od arasında» romanını bitirib çapa hazırlamışdır. Sonralar heç bir zərurət olmadan «Qan içində» adı ilə nəşr olunmuş bu tarixi sənət abidəsi bu gün də ilk variantının nəşrini gözləməkdədir. Çünki bu tarixi romanda təkcə Molla Pənah Vaqifin obrazı yaradılmamışdır, ASE-nin onuncu cildində Y.V.Çəmənzəminli haqqında məqalədə deyildiyi kimi, «İki od arasında» əsərində Çəmənzəminli Qarabağ xanlığını Azərbaycanın rəmzi kimi göstərmişdir.»

2005-ci ildə 118 yaşı tamam olacaq Y.V.Çəmənzəminli vaxtilə «Azərbaycan» qəzetində yazırdı:

«Bolşevizmin qüvvəti Rusiyadakı ədalətsizlikdən nəşət etmişdir. Bolşevizm heç bir millət üçün, xüsusa, bizim kimi əsarətdən yenicə xilas olmuş millətlər üçün heç bir səadət gətirməz. Bolşevizmin sonu hərc-mərclikdir. Biz gərək bolşevizmin öz vətənimizə gəlməsinə bütün ciddiyyətimizlə mane olaq. Bunun qarşısını almaq üçün bolşevizmi doğura biləcək ədalətsizliyi məmləkətimizdən rəf və dəf etməliyik».

Uzaqgörən müsavatçının sözləri çağdaş Azərbaycan cəmiyyəti üçün də əhəmiyyət kəsb edir.

Bəs 1937-ci ildə «bolşevizmin düşmənini» Azərbaycan Kommunist (bolşeviklər) Partiyasının rəhbəri necə xilas etmişdir?

Mir Cəfər Bağırova yaxşı məlum idi ki, M.Ə.Rəsulzadənin gənclik dostu Stalin Sovet Azərbaycanının Türkiyədəki ilk səfiri Y.V.Çəmənzəminlini də o zamanlar tanıyırdı. Üzeyir Hacıbəyovu Kommunist (bolşeviklər) Partiyasına qəbul etdirərək, təqibinə son qoyan M.C.Bağırov Çəmənzəminli üçün də nicat yolu tapdı. Və həm onun, həm də əsərlərinin, xüsusilə də «İki od arasında»nın 1937-ci ildə Moskva «üçlüyü»nün əlinə keçməsinin qarşısını aldı.

1937-ci il iyun ayının 8-də əlli illiyi ərəfəsində «Azərnəşr»də redaktor vəzifəsində işləyən Çəmənzəminli M.C.Bağırovun tövsiyəsi ilə hamıdan, xüsusilə qələm dostlarından gizlin Stalin yoldaşa məktub yazmış və bu müraciət tezliklə Kremlə çatdırılmışdır. Həmin aylar həbs edilmiş bir çoxlarının ifadələrində «pantürkist və müsavatçı» kimi göstərilən Y.V.Çəmənzəminli Moskvaya yazdığı məktubda «müsavatçıların qənimi, bolşeviklərin isə dostudur». İyun ayının 8-də Moskvaya yola salınmış məktub bir həftədən sonra, iyunun 14-də M.C.Bağırova göndərilmişdir. Azərbaycanın müsavatçılığı bolşevizmdən üstün tutan rəhbəri fürsətdən istifadə edərək, Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki ilk səfirinin Özbəkistana köçməsinə və orada Pedaqoji İnstitutda müəllimlik etməsinə imkan yaratmışdır.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində altmış beş ildən bəri bir qovluqda saxlanılmış məktubu ilk dəfə olaraq oxucularıma çatdırıram:

**ÜİK(b)P MK-nın baş katibi, böyük rəhbər**
**Stalin yoldaşa**
**Azərbaycan yazıçısı Yusif Vəzir Çəmənzəminlidən**

Bu il mənim 50 yaşım və ədəbi fəaliyyətimin 30 illyi tamam olur. Keçdiyim bu uzun yola yekun vurarkən, fəaliyyətimin müsbət cəhətləri ilə bərabər mənfi tərəflərinin də olduğunu təsdiq edirəm ki, bu da məni rüsvayçı Müsavat düşərgəsinə (1917-25-ci illər) sürükləyən dövrü əhatə edir.

İnqilaba qədər mən düz yolda idim: dinə qarşı mübarizə aparırdım («Cənnətin qəbzi»), qadınlara bərabər hüquq tələb edirdim («Qanlı göz yaşları», «Arvadlarımızın halı», «Yuxu» və bir çox başqa hekayələr), polis rejimini, bəyləri, xanları və tacirləri ifşa etmişəm («Zeynal bəy», «Polis paltosu», «Xanın qəzəbi», «Hacı» və i.a.).

Mən inqilabı da rəğbətlə qarşıladım. Ancaq ilk günlərin qarışıqlığı, asayişin pozulması və çətinlikiər məndə xırda burjua yazıçısı əndişəsi yaratdı, beləliklə, inqilabdan uzaqlaşdım. Müsavatçıların cəbhəsində öz tənhalığımı hiss etdim - baxışlarımda müsavatçılarla solçuluq mövqeyində oldum: fəhlə və kəndli məsələsinin dərhal həll olunması zərurətindən yazdım, əlifbamızın latınlaşdırılmasını tələb etdim və ermənilərlə qardaşlıq münasibətlərinin bərqərar olmasını təklif etdim. Təbiidir ki, nə Azərbaycanda, nə xaricdə Müsavatın heç bir yığıncağında iştirak etməmişəm. Bu, bir qədər qeyri-inandırıcı görünsə də, faktdır. Digər tərəfdən, bundan ehtiyat edirdim ki, bolşevizm bizim şəraitdə qanlı hadisələr törədə bilər, buna görə də ingilislərlə «dostluğa» inanırdım. Mən sadəlövhcəsinə fikirfəşirdim ki, Azərbaycan Rusiyadan ayrılıqda müstəqil ola bilər.

Azərbaycanın sovetləşməsi xəbəri İstanbula çatar-çatmaz orada təhsil alan tələbələrimizi səfarətə yığıb vəzifəmin bitmiş olduğunu elan etdim. Fəqət bunu həyata keçirmək asan deyildi. Türkiyəyə gələn müsavatçılar bu barədə əsla eşitmək istəmirdilər.

İstanbulu tərk edərək, Parisdə təhsil alan qardaşımın yanına getdim. Paris yaxınlığındakı kommunist şəhəri olan Klişidə yaşadım və üç il zavodlarda fəhlə işlədim. Klişi şəhəri mənim üçün siyasi məktəb oldu. Orada mənim dünyagörüşüm büsbütün dəyişdi və SSRİ-yə qayıtmaq qərarına gəldim. Ancaq qardaşım vərəm xəstəliyinə tutulduğundan bir müddət ləngidim. Nəhayət, 1925-ci ildə Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Musabəyov yoldaşa müraciət etdim.

SSRİ-nin Parisdəki səfirliyinə özüm barədə müfəssəl məlumat təqdim etdim. Bir ildən sonra SSRİ İcraiyyə Komitəsinin qərarı ilə Sovet vətəndaşlığına bərpa olundum.

Düz on bir il bundan əvvəl mən kapitalist dünyasını lənətləyərək, Vətənimə döndüm. Özümə söz verdim ki, Sovet Azərbaycanının tərəqqisi uğrunda mübarizə aparacaq, həyatımı sovet mədəniyyətinə və maarifinə həsr edəcəyəm. Sovet ölkəsi mənim üçün macəralarla dolu tufanlı dənizdən sonra nicat sahili idi.

Böyük rəhbər!

Sizdən xahiş edirəm ki, yaradıcısı olduğunuz Konstitusiya naminə, insana hörmət naminə məni təqib və fitnələrdən qoruyun. Əzablardan yorulmuşam və Bakıda işləyəcəyimə ümidimi itirmişəm. Qazaxıstana köçmək və həyatımın qalan hissəsini orada asudə yaşayıb ailəmə həsr etmək istəyirəm.

Hörmətlə: Y.V.Çəmənzəminli

8.VI.1937-ci il.»

***

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Seyid Hüseynin redaktorluğu ilə Həmid Axundlunun 1937-ci ildə «Azərnəşr» tərəfindən buraxılmış «Kələfin ucu» romanının bir nüsxəsi saxlanılır. Qalın cildli, yüz səksən beş səhifəlik kitabın ilk səhifəsində müəllifin şəkli verilmiş, sonrakı səhifədə bu sözlər yazılmışdı: «Azərbaycanın sovetləşməsinin 15 illiyi münasibətilə Xalq Komissarlar Şurasının elan etdiyi ən yaxşı ədəbi əsər konkursunda 3-cü mükafatı qazanmışdır».

Həmid Məmmədrəhim oğlu Axundlu 1909-cu il mart ayının 21-də Bakının Əmircan kəndində anadan olmuşdu. Gənclik illərində rayon komsomol komitəsində çalışmışdı. Günləri Suraxanı mədənlərində keçmişdi. O, «Kələfin ucu» romanı üzərində işləyərkən, «Neft uğrunda» qəzetinin məsul katibi idi. Müsabiqədə mükafata layiq görülmüş bu romana qədər müəllifin «Maskalı adam» hekayələr və «Nəhənglər» adlı oçerklər kitabları nəşr olunmuşdu.

Həmid Axundlu ilk böyük yaradıcılıq işinin bəhrəsini görəndə iyirmi doqquz yaşındaydı. «Kələfin ucu» romanı üzərində üç il işləmişdi. Ayrı-ayrı parçalarını hələ əlyazması şəklində sevimli müəllimi Seyid Hüseynə oxumuşdu. Əsər müsabiqədə mükafata layiq görüləndə onu Əmircanda, Suraxanıda, şəhərdə - Yazıçılar İttifaqında da təbrik edənlər çoxuydu. Lakin... Seyid Hüseyn həbsə alınandan sonra Həmid Axundluya münasibət dəyişdi. Bir gün səhər Əmircan stansiyasında elektrik qatarına minəndə öz gözləriylə gordüyünə inanmaq istəmədi. Onunla bır yerdə mədəniyyət sarayı nəzdindəki ədəbiyyat dərnəyinə gələn keçmiş məktəb dostu üzünü yana çevirib saymazyana ötdü. Sabunçu vağzalından «Azərnəşr»in binasına piyada gəldi. Konservatoriyanın həndəvərində Azərbaycan Dövlət Pedaqoji İnstitutunda ona ədəbiyyatdan dərs demiş müəllimlə üzbəüz çıxdı. Salamlaşanda müəllim keçmiş tələbəsinə əl uzatmadı. Yan-yörəsinə baxdı. Həmid Axundlunun qulağına pıçıldadı: «Muğayat ol, səni tutacaqlar.»

«Kələfin ucu»nun müəllifi «Azərnəşr»də dəfələrlə olduğu bir otağın qapısını açdı. Bədii ədəbiyyat şöbəsində bir neçə ay əvvəl Seyid Hüseynin əyləşdiyi masa arxasındakı təzə müdirə salam verdi. Müdir dərhal soruşdu:

-Səndə «Kələfin ucu»ndan neçəsi qalıb?

-İyirmi dənəydi. On doqquzunu hədiyyə eləmişəm, bircəsi evdədir.

Təzə müdir amiranə dedi:

-Özündəkini də, bəxşiş verdiklərini də yığıb gətir!

Həmid Axundlu səsini ucaltdı:

-Niyə axı?

Müdir cavab vermədi. Böyründəki seyfə tərəf əyildi. Yuxarı gözündən üç ədəd sənəd çıxarıb artırmanın üstünə qoydu.

-Yaxın gəl, bunlarla tanış ol,- dedi-onda bilərsən ki, Müşfiqi Hüseyn Cavid apardığı kimi, səni də Seyid Hüseyn yanına çəkəcəkdir.

Həmid Axundlu cin atına mindi:

-Yoldaş müdir! Əvvəla, mən o boyda sənətkarın tayı ola bilmərəm. İkincisi də, Müşfiqin evini Cavid əfəndi deyil, sizin kimi dönük qələm sahibləri yıxdılar.

Müdirin qəzəbi coşdu:

-Az danış, bunları oxu, mənə qaytar!

Həmid Axundlu «Kələfin ucu» kitabı barədə yazılmış rəyləri oxudu. Hər iki rəyi ondan bir yaş böyük olan həmkarları yazmışdılar. Azərbaycan Sənaye İnstitutunda fəlsəfədən dərs deyən Heydər Hüseynovu qiyabi tanıyırdı, 1934-cü ildə «Gənc bolşevik» jurnalında çıxmış «Faşizm və sosial faşizm» məqaləsini maraqla oxumuşdu. Hətta jurnaldan bir neçə nüsxə alaraq, tələbə yoldaşlarına bağışlamışdı. İkinci rəyçi ilə şəxsən tanış idi. Mir Cəlal Paşayev də ondan bir yaş böyükdü. Ancaq Həmid Axundlunun ilk kitabı rəyçinin ilk kitabından bir il əvvəl nəşr olunmuşdu. Mir Cəlalın 1932-ci ildə «Azərnəşr» tərəfindən «Sağlam yollarla» oçerklər toplusu çıxanda onu şəxsən təbrik etmişdi. Həmid Axundlu rəyləri oxuduqca haldan-hala düşür, bütün varlığı təlatümə gəlirdi.

Gənc filosof Heydər Hüseynovun 1937-ci il aprel ayının 26-da «Kələfin ucu» kitabı barədə rəyində deyilirdi:

«1. Kontrrevolyusion fikirlər yürüdülən bir neçə yerlər vardır.

Məsələn, səh.30, 31,32.

2.Səh.105. İnternasional birlik haqqında doğru olmayan fikirlər yürüdülür.

3.Səh.85. Başqa millətlərlə birlik məsələsində qarşıya qoyulan məsələyə kimsə doğru cavab vermir, müəllif bu fikri məchul qoyub gedir.

4.Səh.55. Siyasi birlik səviyyəsini artırmaq uğrunda komsomolçuların sual-cavab şəklində təşkil etdikləri siyasi savad metodu çoxdan Mərkəzi Komitə tərəfindən yaramaz metod olduğu üçün aradan qaldırılmış olduğu halda, müəllif bu metodu idealizə edir.

5.Səh.129. «Fərman fitrətən, atası Zərbalı kimi, insan qanı axıtmaqdan qorxmazdı.» Fitrətən qan axıtmaq ideyası düzgün deyil.

6.Səh.1. «Azərbaycanın sovetləşməsinin...» deyil, Azərbaycanda sovet hakimiyyətinin qurulmasının...».

7.Əsərdə bir sıra yaramaz ifadələr vardır.

Əsər yenidən redaktə olunmalı (çünki redaktə olunduğu hiss edilmir, istər ideya, istər stil və istərsə də ifadə pozğunluğunun sayı olduqca çoxdur). Yaramaz səhifələri çıxarıldıqdan sonra buraxmaq olar.»

Həmid Axundlu Heydər Hüseynovun yazdığı rəyi oxuduqdan sonra müdirə nə isə demək istədi.

- Saxla, o birini də oxu, sonra danışarsan,- deyə müdir amiranə dedi.

H.Axundlu Mir Cəlalın rəyini oxudu:

1. Əsər redaktə edilməmişdir. Müəllifin bir sıra yanlış, pozuq, yarımçıq cümlə və ifadələri, iyrənc «obraz»ları, dumanlı təsəvvürlərini göstərən tərkibləri, biədəb təsvirləri olduğu kimi, təshihsiz çap olunmuşdur.
2. Əsərdə guya mənfi tiplərin dili ilə səhifələr boyu kontrrevolyusion fikirlər yürüdülür. Müsavatçı, millətçi məfkurələrə geniş tribuna verilmişdir (səh.30-31 -32, 105). Müəllifin bu fikirlərə qarşı çıxan «müsbət» qəhrəmanları da öz danışıqlarında kontrrevolyusion fikirlər deyirlər (səh.105. Ramazanın cavabı).
3. Kitabda həyatımız, quruluşumuz haqqında bir sıra dumanlı, ikimənalı, bəzən çox zərərli cümlələr vardır (səh.127).

**Nəticə**

Kitabın çapdan çıxdığını nəzərə alaraq, ədəbi cəhətlərini olduğu kimi buraxmaq olar. Lakin kontrrevolyusion səhifələri yox etmək üçün 30-31-32 və 127-ci səhifələri çıxmaq lazımdır. Həmin səhifələri müəllif düzəltdikdən sonra buraxmaq olar.»

Həmid Axundlu Heydər Hüseynovun və Mir Cəlalın rəyləri ilə tanış olduqdan sonra şöbə müdirinə dedi:

- Rəylərdəki bəzi fikirlərlə razı deyiləm. Mən nə kontrrevolyusion, nə də müsavatçı, millətçi məfkurələrə geniş tribuna vermişəm. Gedib Heydər Hüseynovla da, Mir Cəlalla da danışaram. Xırda-para ifadələri düzəltməklə, «Kələfin ucu»nu təkrar nəşrə hazırlayaram.

Müdirin gözləri kəlləsinə çıxdı:

-Nə? Təkrar nəşr? Al, bunu da oxu!

Həmid Axundlu rəsmi sənədlə tanış oldu:

**«Azərbaycan SSR Xalq Komissarlar Şurası müvəkkili** yanında hərbi senzor **şöbəsi Bakı, Şaumyan küçəsi, 20.1937-ci il 9 iyun**

**Arayış**

H.Axundlunun «Kələfin ucu» kitabının yayılmasına və çapına 1936-cı ilin sonunda «Qlavlit»in keçmiş sədri, hazırda həbs olunmuş trotskiçi-müsavatçı Eminbəyli tərəfindən icazə verilmişdir.

Kitab çapdan çıxdıqdan sonra tərəfimizdən qadağan edilmişdir. Çünki burada əksinqilabi böhtanlar və digər cəfəngiyyat aşkara çıxarılmışdır.»

Həmid Axundlu kağızı masanın üstünə atdı, ayağa qalxa-qalxa qəzəblə dedi:

-Bu yazanın özü cəfəngiyyatdır. Cəld addımlarla otaqdan çıxdı. Şöbə müdiri onun dalınca rusca söyüş söyəndən sonra azərbaycanca mızıldandı: «Müsavat tulası, az qalıb, güllələnəcəksən!»

Həmid Axundlu «Azərnəşr» binasından aşağı endi, Fioletov küçəsinə buruldu. «Bəlkə Mir Cəlal İttifaqda oldu»- deyə Yazıçılar İttifaqına tərəf yönəldi. İçəri keçdi, dəhlizdəki iki elan nəzərini cəlb etdi. Birincisində Azərbaycan yazıçılarından kimlərin ezamiyyətə göndərilməsi və nə qədər pul verilməsi barədə məlumat vardı. Siyahının əvvəlində «M.S.Ordubadi-8.000 manat», axırında «Əliağa Vahid-1.000 manat» yazılmışdı. Siyahıya Yazıçılar İttifaqının katibi Kamski imza atmışdı.

İkinci elanı da Kamski imzalamışdı. Ancaq katib kimi yox, partorq kimi. Həmid Axundlu elanda Mir Cəlalın adını gördü. Səməd Vurğun, Məmməd Səid Ordubadi ilə birlikdə ədəbiyyat fondunun hesabına iki aylığa Jeleznovodsk şəhərinə istirahətə göndərilmişdi.Elan lövhəsinin qarşısında Həmid Axundlunu Yazıçılar İttifaqının təzə sədri Əli Məmmədov gördü, soruşdu:

- Kələfin ucunu burada axtarırsan?
- Həmid Axundlu dərhal cavab verdi:
- Əli müəllim, mən kələfin ucunu itirməmişəm, dolaşdıranlar var. Mir Cəlalı görməyə gəlmişəm.

Əli Məmmədov siyahını nişan verdi.

-Oxumadın elanı, anlamadın ki, Mir Cəlalı hansı şəhərdə axtarmaq lazımdır?

-Oraya getmək fikrim yoxdur, anlayın!

-Buraya da gəlmək fikrin olmasın. Səni İttifaqın üzvlüyündən çıxarmışıq.

-Nə üçün?

-Hələ bir sual da verirsən?

Əli Məmmədov kabinetinə yan alanda, qanrılaraq dedi:

- Səni ümumittifaq mətbuatında rüsvay edəcəyik!

...Həmid Axundlu dəniz qırağına gəldi. Burada onu tanıyan yox idi. Dalğalar, qağayılar bu gün ona insanlardan doğma görünürdü... Əsəbləri gərilmiş, yorulmuş bir halda Sabunçu vağzalına yaxınlaşdı. Kassadan bilet alaraq, Suraxanı elektrik qatarının ikinci vaqonuna əyləşdi. Vaqondakılara göz gəzdirdi. Nədənsə, bu gün vaqonda tanış bir adamla rastlaşmadı. Onunla qarşı-qarşıya oturan da yoxdu. Yol boyu həmdəmi özü idi. Ürəyi ilə danışırdı: «Müəllimim Seyid Hüseyn həbsdə, mən elektrik qatarında. «Kələfin ucu» olmasaydı, onu tutmazdılar. Qoy məni də həbs etsinlər»...

* * *

Həmid Axundlu nədənsə qatardan Əmircana çatmamış, Bülbülə dayanacağında düşdü. Laçınlılar məhəlləsilə aşağı endi, Naxır bulağına tərəf addımlayanda, nəyisə xatırlayıb ayaq saxladı. Fikrindən keçdi ki, Ağakərimgilin darvazasını döysün, alim dostu Şərifdən ona bağışladığı «Kələfin ucu»nu alsın. İyirmi kitabdan birisi də

Şərifdə idi. Ancaq həyətə yaxınlaşmadı. «Nəinki Şərifdən, Əmircandakı, Sabunçudakı, Qaraçuxurdakı, Hövsandakı tanışlarımdan da kitabımı geri almayacağam. Bəxşişi istəməzlər. Şəhərə də ayaq basmayacağam. Tutub aparmaq istəyirlər, Əmircana gəlsinlər.»

Həmid Axundlu Bülbülə gölünün sahili ilə Xiləyə çathaçatda qulağına doğma bir səs gəldi:

- Adə, Həmid, beş addımlıqdan bu boyda adamı görmürsən?

Dönüb baxdı, Səttar Bəhlulzadə idi. Görüşüb bir-birinə sarıldılar Həmid Axundlu kövrəldiyini köhnə dostundan gizlətməyə çalışdı, Səttar Bəhlulzadə soruşdu:

- Bir həftədir kənddəyəm, gözə görünmürsən. Salamatlıqdır?

- Başım bir az qarışıqdır, - deyə Həmid Axundlu cavab verdi, - Moskvada nə var, nə yox? Orada da tuthatutdur?

- Adə, tuthatut elə bir tut ağacıdır ki, budağı tərpətdin, tut yağışı başlayacaq.

-Nə vaxt Moskvaya qayıdırsan?

-Sabah axşam, inşaallah. Səhər Xilənin mənzərəsini gölün ortasından ağa köçürmək istəyirəm.

-Səttar, onda gəl bizə gedək, səninlə məsləhətləşmək istəyirəm.

-Həmid, sən məndən beş-altı ay böyüksən. Sən martda olmusan, bəndən dekabrda. Kiçik rəssam böyük ədibə nə məsləhət verə bilər. Bu bir, ikincisi də evdə nə var, bu göl qırağında söhbət edirik də özümüzçün.

Səttar Bəhlulzadə «Kələfin ucu» romanını oxumamışdı. Həmid Axundlu başına gələnləri nəql edəndən sonra, rəssam dostu məsələdən hali oldu. Astadan dindi:

- Həmid, sən komsomolda işləmisən. Səni bütün Suraxanı rayonu tanıyır, şəhər təşkilatlarında da hörmətin var. Sən hara, Müsavat hara?! Sənə dəyməzlər.

- Yox, Səttar, yəqin Moskvaya çatanda mərkəzi qəzetlərdə mənim haqqımda oxuyacaqsan...

Səttar Bəhlulzadə dostunun sözünü kəsdi:

- Mən qəzet-zad oxumuram. Sənin pisliyinə yazanın dədə-babası gorbagorolsun!

Hər ikisi susdu. Sükutu Səttar Bəhlulzadə pozdu:

-Həmid, Dövlət Rəssamlıq məktəbinə mən yetimi bilirsən kim göndərib?

-Yox!

-Sənə deyə bilərəm - Mir Cəfər Bağırov yoldaş. Kişinin bütün dediklərinə əməl eləmişəm. Bilirsən də, təkcə nədən başqa... Ancaq az içirəm. Mərkəzi Komitəyə məktub apar. Orda səni tanıyanlardan təvəqqe elə ki, haqqında Bağırov yoldaşa düzgün məlumat versinlər. Rəyçilər öz kefindədir, səni niyə dara çəksinlər?! İnşaallah, axırı yaxşı olar...

***

Səttar Bəhlulzadənin Moskvada nigarançılığı təkcə Həmid Axundlu sarıdandı. Həmid Axundlu bunu yaxşı bilirdi. Ona görə də Azərbaycan KP MK-da,

incəsənət şöbəsinin müdiri Hökumə Sultanovanın yanında olan söhbətin məğzini rəssam dostuna yazmışdı. Təfsilatı isə belə olmuşdu:

Gənc yazıçını və komsomol işçisini Hökumə xanım səmimiyyətlə qarşılamışdı. Həmid Axundlu şöbə müdirinin stolu üstündə dəst-xəttilə yazdığı məktubunu və məktubun sol tərəfində göy karandaşla yazılmış dərkənarı gördü. Dərkənar Mir Cəfər Bağırov yoldaşın idi. Nə yazıldığını ancaq Hökumə xanım bilirdi.

Hökumə Sultanova söhbəti başqa məktubdan başladı:

- Xahiş edirəm, bunu buradaca oxuyub, izahat yazasınız.

Məktub imzasız idi. M.C.Bağırov yoldaşın adına göndərilmişdi. İmza yerinə «Əmircanlılar» iri hərflərlə həkk edilmişdi. Məktubda deyilirdi ki, maskalanmış Həmid Axundlunun atası molla Məmmədrəhim məşhur müsavat mövhumatçısı, kapitalist Tağıyevin əlaltısı Axund Əbu Turabın şagirdi olmuşdur. Qəsbkar türk ordusu Bakıya soxulanda və Əmircan kəndini yerlə-yeksan edəndə o, qaniçən Ənvər Paşaya mədhiyyə yazmışdı. Lenin-Stalin partiyasına və qardaşımız böyük rus xalqına qarşı olan həmin şeiri onun antisovet oğlu Həmid Axundlu əzbər söyləyir. Bir az sıxışdırsanız, boynuna alar.

Həmid Axundlu izahatında göstərdi ki, «Əmircanlılar» adı altında yazılmış bütün deyilənlər yalan və böhtandır. Atam həqiqətən kəndimizin mütərəqqi fikirli Axund Əbu Turabın şagirdi olmuşdur. Axund Əbu Turab mövhumatçı deyil, ərəb, fars və rus dillərini mükəmməl bilən, riyaziyyat, təbiət, coğrafiya, ədəbiyyat, məntiq elmlərinə yiyələnmiş kamil bir alim olmuşdur. Əmircanda ilk rus-tatar məktəbini də o açmışdır. Atam da orada təhsil almışdır. 1930-cu ildə Əmircanda kolxoz təşkil olunanda, atam oraya yazılmış və maldarlıq fermasında çalışmışdır. Keçən il vəfat etmişdir. İlinə az qalıb. Rəhmətlik heç bir zaman şeir yazmayıb

Hökumə xanım izahatı diqqətlə oxudu. İzahatı Həmid Axundlunun məktubunun üstünə qoydu:

- Məktubda göstərilən şeiri atanın yazmadığını Bağırov yoldaş özü təsdiq etmişdir. Budur, həmin şeirin yazıldığı varağın kənarında göy karandaşla xətt çəkmiş və «Salman Mümtaz» yazmışdır. Bu belə. Qaldı sizin məsələnizə, yoldaş Bağırovun tapşırığı ilə haqqınızda olan bütün materialları araşdırmışam və nəticəsi barədə məlumat vermişəm. Mərkəzi Komitə ümid edir ki, siz öz səhvlərinizdən nəticə çıxaracaqsınız. Bağırov yoldaş tapşırmışdır ki, işlə təmin edilməyinizə köməklik edək.

... «Əmircanlılar» Həmid Axundlunu atasının ilində kənd qəbristanlığında görəndə gözlərinə inanmadılar. Ancaq bir daha rəhmətlikdən anonim məktub yazaraq ruhunu incitmədilər.

Həmid Axundlu sonralar Səttar Bəhlulzadə ilə görüşlərində «Əmircanlılar»dan söhbət salıb deyirdi ki, onlar bir şeyi düzgün yazmışdılar, mən Salman Mümtazın o məşhur şeirini əzbər bilirəm.

Səttar Bəhlulzadə Həmid Axundlu ilə görüşlərini tez-tez yada salardı. Müharibə ərəfəsində onlar səhər-səhər məscidin qabağında görüşər, hal-əhval tutardılar. Həmid Axundlu rəssam dostunu stansiyayadək yola salar, özü isə piyada iş başına - rayon mədəniyyət sarayına yollanardı. Həmid Axundlu M.C.Bağırova yazdığı məktubdan sonra mədəniyyət sarayı nəzdindəki kitabxananın müdiri vəzifəsinə təyin olunmuşdu. Kitabxana ikinci mərtəbədə yerləşirdi. Çox vaxtlar qeyri-adi kitabxana müdiri mərtəbənin süpürgəçisindən də erkən iş başında olardı. Zəngin kitabxanaya daxil olan ilk kitabın, jurnalın, qəzetin oxucusu kitabxana müdiri idi. Düzüm-düzüm kitab rəflərində oxumadığı bir kitab olsun belə yox idi. Bəzən də «cildi bəzək, içi təzək» nəşrləri əlinə alar, səhifələyər və pıçıltı ilə Salman Mümtazın məşhur şeirini söyləyərdi, elə bil quru və cansız varaqlara millət qanı, millət nəfəsi hopdurardı.

Həmid Axundlu 1941-ci il iyunun son həftəsində kitablar aləmindən ayrıldı, düşmənlə döyüşə yollandı. Ürəyində Seyid Hüseynin canlı surəti, dilində Salman Mümtazın zildən düşməyən misraları. Bu şeir onun üçün elə bil «kələfin ucu»ydu, bir-iki sətir dilinə gətirən kimi qollarına qüvvət gəlirdi. Silaha sarılırdı. Bu mənəvi qidadan doymurdu.

Həmid Axundluya müharibə illərində qartal qanadı verən başqa bir amil də vardı. Mir Cəfər Bağırovun xeyir-duası ilə o, Cənubi Azərbaycana göndərilmişdi. Təbrizdə, Pəhləvidə, Rəştdə, Qəzvində, Ərdəbildə olanda yenə də mübarizə himni Salman Mümtazın şeiri idi. Qırx yaşlı baş leytenanta elə gəlirdi ki, Azərbaycan türk ordusunun ali komandanı general Mir Cəfər Bağırovun rəhbərliyi ilə bütöv Azərbaycan ordusu yaranmaqdadır...

Həmid Axundlu ən etibarlı dostu və həmfikiri Səttar Bəhlulzadə ilə məktublaşırdı. Rəssamın çəkdiyi «Fətəli xan» portretini hafizəsində canlandırırdı. Fətəli xanın Əmircana gələrək, bacısının qolları üstündə can verməsinə inana bilmirdi. Elə zənn edirdi ki, Fətəli xan Bibiheybət qəbiristanlığından qalxmış, köhlən atının belində Arazı keçmiş, Azərbaycanın bütövlüyü uğrunda yenidən mübarizəyə atılmışdır...

Bakının Əmircan kəndindən Həmid Axundluya yola salınan məktubların bir müəllifi vardı - ömür-gün yoldaşı Böyükxanım.

***

Ziya dədə-baba ocağında, bir zamanlar atasının yatdığı beşikdə yırğalananda, Həmid Axundlu İrandan Azərbaycana qayıtdı. Onu Mərkəzi Komitəyə, Mir Cəfər Bağırovun yanına dəvət etdilər. M.C.Bağırov 1937-ci ilin «müsavatçısı və millətçisi» ilə yarım saatadək səmimi söhbət elədi. Hər şeylə maraqlandı, o cümlədən gənc zabitin və partiya işçisinin səhhəti ilə də, ailə vəziyyəti ilə də, ədəbi yaradıcılıq planları ilə də. Ertəsi günü Həmid Axundlu yaşadığı rayonun partiya komitəsində təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsinə təyin edildi. Bir müddətdən sonra isə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin qərarı

ilə respublika Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti sədrinin müavini vəzifəsinə irəli çəkildi.

1949-cu ildə Həmid Axundlunun «Azərnəşr» tərəfindən «50 il buruqlar arasında» kitabı nəşr olundu. Bu, müəllifin 1937-ci ildən sonra işıq üzü görmüş ilk əsəri idi. O, yeni kitabının bir nüsxəsini müəllif sözü (avtoqrafı) ilə Hökumə Sultanovaya hədiyyə etdi. Söhbət dolanıb ötən illərə uzandı. Hökumə xanım Həmid Axundlu üçün gözlənilməz olan bir həqiqəti də dedi: «Mir Cəfər Bağırov sənin «Kələfin ucu» romanındakı neft barəsində yazdıqlarını təqdiredirdi, dediklərin onun xoşuna gəlmişdi».

**Həmid Axundlu evə qayıdanda ayrıca bir yerdə saxladığı «Kələfin ucu» romanının 1937-ci il nüsxəsini götürüb varaqladı. Neft haqqında qəhrəmanın dilindən söylənənləri oxudu: «Neft böyük anamızın südüdür. O anamız ki, bizi sinəsində bəsləyir. Qadının döşündəki süd kimin üçündür? Məlum şeydir, öz körpəsi üçün! Bax, elə də vətənimizin südü onun oğlanlarınındır. O, bizim irsi payımızdır. Əgər öz əlimizdə qalsaydı, geymimiz zər, xörəyimiz plov olardı, plov! Doğma Azərbaycanımız isə, adını çəkmə, indi yadlar tərəfindən əmilən o hörmətli ana cənnətə dönərdi, cənnətə!»**

Həmid Axundlunun 1937-ci ildə yazdığı və M.C.Bağırovun xoşladığı bu sözlər- bu gün də öz əhəmiyyətini itirməmişdir. «Kələfin ucu»ndan bu parçanı ixtisara salanlar «irsi payımızı» da əlimizdən alıb əcnəbi şirkətlərə satmaqda davam edirlər!

... 1956-cı ildə Mir Cəfər Bağırovun xalqımızın Kreml düşmənləri tərəfindən qurulmuş qondarma məhkəməsindən sonra, Azərbaycanın bəzi şair və ədibləri onlara mənəvi ata olmuş rəhbəri «Mircəllad», «Mirqəzəb» adlandırdılar, Yalanlar, böhtanlar tüğyan etdi... Həmid Axundlu isə mənliyinə sığınaraq haqqı danmadı!

1960-cı ildə Həmid Axundlunun «Azərnəşr» tərəfindən «Ağır günün dostları» romanı çapdan çıxdı. «Kələfin ucu»nu isə yenidən nəşr etdirə bilmədi. 1937-ci ilin «Qlavlit»i kəsərini artırmışdı.

1964-cü il sentyabr ayının 4-də Həmid Axundlu 55 yaşında dünyasını dəyişdi. Əmircan kənd qəbristanlığında təzə məzar başında 20 və 18 yaşlarında iki oğul - Ziya və Fikrət göz yaşı axıdırdılar. Onların ahəstəcə qolundan tutan Səttar Bəhlulzadə idi. Ecazkar rəssam sənət dostunun qəbri üstünə 10 il səcdəyə gəldi. Sonra isə... onun özünü də kənd qəbristanlığına çiyinlərdə gətirdilər.

Həmid Axundlunun 1937-ci ildə Seyid Hüseynin redaktorluğu ilə «Azərnəşr» tərəfindən buraxılmış «Kələfin ucu» romanı bütün əsr boyu arxivdə qaldı. Yazıçının ölümündən sonra, 1970-ci ildə «Seçilmiş əsərləri»ndəki «Kələfin ucu» povesti şəklinə düşdü. Mir Cəlalın 1937-ci ildə rəyindəki «əsər redaktə edilməmişdir» cümləsinə 1970-ci ildə əməl edildi. 14 il qabaq bəraət almış Seyid Hüseynin adı redaktor kimi göstərilmədi. Heydər Hüseynovun 1937-ci ildə rəyindəki «kontrrevolyusion fikirlər yürüdülən» yerlər 1970-ci ildə ixtisara düşdü.

1937-ci ildə M.C.Bağırovun bəyəndiyi «neftə dair fikirlərdən» ibarət hissələrə qayçı tutuldu. Həmin parçalara diqqət yetirin: «Neftimiz hara gedir? Kimlərin evini qızdırır? Kimlərin bığına yağ çəkir? O qiymətli şirə qızıla çevrilərək kimlərin cibində cingildəyir?!»

1970-ci ildə «Kələfin ucu»ndan təkcə ayrı-ayrı səhifələr çıxarılmamışdır. Əsərdə cərəyan edən tarixi hadisələrə də 70-ci illər Sov. İKP mövqeyindən yanaşılmışdır.

...1999-cu ildə Əmircan kəndinin müqəddəs torpağında əbədiyyət ömrünü davam etdirən iki sənətkarın - Səttar Bəhlulzadənin və Həmid Axundlunun 90 yaşı tamam oldu. Yada düşmədilər, xatırlanmadılar. Həmin il Seyid Hüseynin ömür-gün yoldaşı, istiqlal şairəsi Ümmügülsüm 100 yaşı adladı - yada düşmədi. Məhəmməd Əmin Rəsulzadənin, Mirzəbala Məmmədzadənin, Səməd Mənsurun, Əhməd Cavadın, Əlabbas Müznibin, Əzim Əzimzadənin və başqalarının yubiley yaşları təqvim vərəqlərindən silindi. Sonda müstəqil Azərbaycanımız hansı cümhuriyyətin varisidir? Müasir qələm sahiblərimiz hansı qələm fədailərinin davamçılarıdır?

İnşaallah, «Kələfin ucu» açıldıqca hələ çox məqamlar üzə çıxacaqdır.

# MİR CƏFƏR BAĞIROV:YALAN VƏ HƏQİQƏTLƏR

***(«Yeni zaman» qəzeti, 4 avqust 2000-ci* il *-14 dekabr 2002-ci il)***

1956-cı ilin may ayının 27-də Azərbaycan radiosu iki dəhşətli xəbəri dinləyicilərinə çatdırdı. Səhər xəbərlərində deyilirdi: SSRİ Ali Məhkəməsi hərbi kollegiyasının hökmü icra olunmuşdur - Mir Cəfər Bağırov güllələnmişdir.

Axşam xəbərlərində deyilirdi: Böyük Azərbaycan şairi Səməd Vurğun uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir.

Həmin gün bütün Azərbaycan matəm libası geyindi, göz yaşı axıtdı...

«Güllələnən» M.C.Bağırovun əks-sədası sonralar Sibir və Tatarıstan həbsxanalarından gəldi.

Dünyasını dəyişmiş S.Vurğun əbədiyyət dünyasından baş qaldırdı. Azərbaycan Sovet poeziyasının bayraqdarının həyatı müasirlərinin xatirələrində yenidən canlandı.

S.Vurğun ömrü haqqında ilk, ən dolğun və ən doğru-dürüst xatirələri şairin böyük qardaşı və dostu Mehdixan Vəkilov yazdı. «Mənim qardaşım» xatirə-povesti 1976-cı ilin may ayında, müəllifin vəfatından 10 il keçəndən sonra, «Azərbaycan» jurnalının 5-ci və 6-cı saylarında dərc olundu.

Mehdixan Vəkilov yazırdı: «Mən Səməd Vurğunun böyük qardaşıyam. Biz ömrümüz boyu heç zaman bir-birimizdən ayrılmamışıq. Mən onun həyatının canlı şahidi, onun həyat yolunda odlara, alovlara yanan qardaşı olmuşam».

Bəzi qələm sahiblərinin yaradıcılığında «Mircəllad», «Mirqəzəb» obrazı zühur etsə də, S.Vurğunun «həyatının canlı şahidi, onun həyat yolunda odlara, alovlara yanan qardaşı» Mir Cəfər Bağırovun qarasına bir kəlmə də yazmadı.

1973-cü ildə «Azərnəşr» ilk dəfə olaraq, S.Vurğunun haqqındakı xatirələri bir kitabda toplayıb nəşr etdi. «Qalacaqdır dünyada...» kitabının tərtib edəni Cavid Məmmədbəyov, redaktoru professor Kamal Talıbzadə idi. Topluda böyük söz ustadı və görkəmli ictimai xadim haqqında 43 nəfərin xatirələri verilmişdi, Onların arasında Abdulla Şaiq, Süleyman Rəhimov, Mikayıl Rzaquluzadə, Seyfulla Şamilov, Əfrasiyab Bədəlbəyli, Sarvan Salmanov, Bülbül, Sidqi Ruhulla, Yusif Səmədoğlu, Balaş Azəroğlu, Mirvarid Dilbazi, Mirzə İbrahimov və başqaları vardır.

Kitabda heç bir müəllifin yazdığı xatirədə Mir Cəfər Bağırovun adına təsadüf edilmir.

1986-cı ildə «Elm» nəşriyyatı Nizami adına Ədəbiyyat İnstitutunun hazırladığı mülahizələr, xatirələr və tədqiqlərdən ibarət olan «S.Vurğun» kitabını rus dilində nəşr etmişdir. Burada həm Azərbaycan və həm də başqa xalqların görkəmli ədəbiyyatşünas və yazıçılarının ölməz şair barəsində yazıları toplanmışdır. Nə A.Fadeyev, N.Tixonov, P.Antokolski, K.Simonov, A.Adalis, M.Aliker, İ.Sifvinski, nə də M.Hüseyn, M.Arif, M.İbrahimov, Rəsul Rza, Q.Qasımzadə, B.Nəbiyev, Ş.Salmanov, F.Vəlixanova, H.Babayev və digər müəlliflərin xatirə və tədqiqat səciyyəli məqalələrində Mir Cəfər Bağırovun adı çəkilmir.

Nə qədər təəccüblü olsa da, S.Vurğunla əlaqədar xatirələr kitabına Mir Cəfər Bağırovun adı şairin vəfatından və Mir Cəfər Bağırovun «güllələnməsindən»

40 il keçdikdən sonra, 1996-cı ildə düşmüşdür. «Vurğun ömrü məktublarda, ellər vurğunu» adlanan kitabın sponsoru Azərbaycan Mədəniyyətinin Dostları Fondudur. Nəşriyyatın və mətbəənin adı göstərilməmişdir.

Kitaba xalq şairi Mirvarid Dilbazinin 1994-cü ildə yazdığı xatirəsi daxil edilmişdir. Yazıda oxuyuruq: «Müharibə illərində Mirzə İbrahimov maarif naziri idi. Deyilən həqiqətə görə bir dəfə S.Vurğunu Mərkəzi Komitəyə çağırırlar. «Kişi» ona deyir:

- Mirzə İbrahimov haqqında mənfi bir rəy yaz.

Səməd Vurğun:

- Mən belə bir rəy yaza bilmərəm, - deyir, -çünki mən Mirzəni xalq işinə çox lazımlı, müsbət bir şəxsiyyət kimi tanıyıram».

Görəsən, ağbirçək şairəmiz «deyilən həqiqəti» haradan və kimdən eşitmişdir? Və niyə görə məhz 1994-cü ildə qələmə almışdır? Mirzə İbrahimovun sağlığında yazsaydı, «deyilən həqiqət» uydurulan yalana çevrilərdi.

S.Vurğunun anadan olmasının 70 illiyi münasibətilə M.İbrahimovun 1976-cı ildə yazdığı və həmin il «Azərbaycan» jurnalının 5-ci sayında dərc etdirdiyi «Yadıma düşdü» sərlövhəli geniş xatirəsində S.Vurğunla dostluğunun bütün məqamlarından hərtərəfli söhbət açılır. Xatirənin bir yerində deyilir: Səmədin təklifi ilə biz 1947-ci ilin payızında Qazaxa yola düşdük. Bir gecə Daşsalahlıda qaldıq... Bir dəfə hələ səhərin gözü çırtlamamış, alaqaranlıqdan məni oyatdı:

-Ayə, dur, payız səhərinin mənzərəsi gözəl olur. Ovun da yaxşı vaxtıdır. Biz geyinib çölə çıxanda kənd qaranlıq içində idi. Ara-sıra itlərin səsi eşidilirdi. Üfüqlər təzəcə ağarmağa başlayırdı. Səmədin «Reks» adlı ağıllı bir iti vardı. İt özünü hey ora-bura vurur, kolların arasına girib-çıxırdı, lakin qırqovuldan-filandan əsər-əlamət yox idi. Üfüqlər açılmışdı, uzanıb gedən çöllər, tarlalar görünürdü.

-Ayə, ora bax, Göyəzən dağı - deyib, Səməd sevinclə məni səslədi. Dönüb baxdım, aşağıda ağ dumanın içindən boylanan hündürlüyü gördükdə dedim:

-Ay Səməd, sənin şeirində «Göyəzən dağı» oxuyanda elə bilmişdim ki, Şahdağından, Elbrusdan ucadır. Bu ki, təpə imiş...

Səmədin uşaqlıqdan hazırcavab olduğunu qardaşı Mehdixan öz xatirələrində yazmışdır. Biz bunu söhbətlər, mübahisələr, müzakirələr zamanı yaxşı görmüşük. İndi də o, dərhal cavab verdi:

-Ayə, mənim böyüklüyüm ondadır ki, təpəni dağ kimi tərənnüm edirəm. Sən dağı təpə eləyənlərdən qorx».

Kitabdakı bu xatirədən elə çıxır ki, müharibə illərində M.C.Bağırovun «M.İbrahimov haqqında mənfi rəy yaz» tapşırığına məhəl qoymayan S.Vurğun müharibədən sonra M.İbrahimovla birlikdə ova çıxmışdır. «Kişi» iki dost arasına nifaq sala bilməmişdir.

1994-cü ildə M.İbrahimovu «aravuran» kimi oxuculara təqdim etməklə, dedi-qodulardan həqiqət yaratmaqla «dağı təpə eləyənlərin» məqsədi nədir?

Başqa bir xatirədə oxuyuruq: «Mayın 30-da, dəfn günü S.Vurğunun cənazəsi M.Maqamayev adına Filarmoniyanın binasından Fəxri Xiyabana aparılarkən yolda şair Mirmehdi Seyidzadə üzünü Mərkəzi Komitənin binasına tutub demişdir:

-Ey yazıq Səməd, bu kabus yuvasından nə qədər qanı qara çıxmısan. Səni bu otaqlardakı yaltaq, buqələmun, rəzil məmurlar öldürdü. Mircəfərlər, çeplakovlar, mirzoyanlar...

Əli Vəliyev:

-Mirmehdi, itin-qurdun adını çəkib Səmədin müqəddəs ruhunu tərpətmə. Yeri gedək, kişiyə son borcumuzu verək - kədərlə köks ötürüb - qəddimizi əyib, belimizi sındırdın, Səməd, - deyib Mirmehdinin qolundan tutur, cənazənin dalınca addımlayırlar».

Əvvəla, Əli Vəliyev də, M.Seyidzadə də öz sağlığında S.Vurğun haqqında xatirələr yazıb çap etdirmişlər və bu xatirələrdə M.C.Bağırovun adına təsadüf edilmir. İkincisi, necə olmuşdur ki, 1996-cı ilədək «Ə.Vəliyevlə M.Seyidzadənin dəfn dialoqu» eşidilməmiş qalmışdır?

Kim inana bilər ki, Ə.Vəliyev M.C.Bağırovun adını «İtin-qurdun siyahısına» sala bilər? Kim inana bilər ki, M.Seyidzadə M.C.Bağırova dəfn mərasimində lənət yağdıra bilər? Rəhmətliklərin ruhunu incidənlərə ar olsun!

1938-ci il martın 19-da S.Vurğunun M.C.Bağırova yazdığı məktubunda deyilirdi:

«Hörmətli yoldaş M.C.Bağırov!

Bu il mən «Vaqif» adlı nəzmlə yazdığım ilk dram əsəri üzərində işləmişəm. Həmin iş başa çatdırılmışdır. Həmin dram əsərində dahi Azərbaycan şairi Vaqifin həyatı, yaradıcılığı, onun Qarabağ xanı və İran şahı - istilaçı Məhəmməd Şah Qacar tərəfindən faciəli surətdə qətlə yetirilməsi təsvir edilir. Eləcə də həmin əsərdə Zaqafqaziya xalqlarının (Azərbaycan, gürcü, erməni, kürd) yadelli istilaçı Qacara qarşı qəhrəmanlıq mübarizəsi, bununla da həmin xalqların tarixi dostluq və qardaşlıq kökləri ilə bağlılığı əks edilmişdir».

Mehdixan Vəkilov 1976-cı ildə «Mənim qardaşım» xatirə-povestində göstərirdi ki, S.Vurğun «Vaqif» pyesi üzərində işləyərkən, XVIII əsr Azərbaycan tarixinə, xüsusən Qarabağ xanlığına dair ədəbiyyatı böyük maraqla oxuyurdu. Səmədin «Qarabağnamə»ni tapdırıb, ona göndərməyi Heydər Hüseynovdan xahiş etdiyi və 1936-cı ildə Vaqif dövrünə, onun həyatına, bütünlükdə Qarabag xanlığı tarixinə dair Yusif Vəzirlə saatlarla söhbət etdiyi yaxşı yadımdadır.

M.C.Bağırovun rəhbərliyi dövründə Azərbaycan Dövlət Dram Teatrının baş rejissoru və direktoru işləmiş, 1938-ci ildə Stalin mükafatı laureatı adını almış Adil İsgəndərov S.Vurğunun «Vaqif» pyesinin səhnə təcəssümü barədə 1964-cü ildə yazırdı: ««Vaqif» mənzum dramının ilk dəfə tamaşaya qoyulduğu vaxtdan 26 il keçir. Bu müddətdə biz səhnəmizin yaraşığı olan bu əsəri yalnız Bakıda, respublikamızın başqa şəhərlərində deyil, həmçinin qastrol zamanı ölkəmizin

paytaxtı Moskvada, Özbəkistanda, Ermənistanda, Gürcüstanda da müvəffəqiyyətlə nümayiş etdirmişik».

S.Vurğun şeirini yüksək qiymətləndirən M.C.Bağırov «Vaqif» pyesinin ilk tamaşaçıları arasında olmuşdur. M.C.Bağırov sonrakı illərdə «Vaqif» əsərinin Moskvada nümayiş etdirilməsini öz dəst-xəttilə təsdiqləmişdir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan aşağıdakı sənədə diqqət yetirin:

**«Azərbaycan K(b)P Mərkəzi Komitəsi**

**M.C.Bağırov yoldaşa**

Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsinə bu il mayın 26-da SSRİ Nazirlər Soveti yanında İncəsənət İşləri Komitəsi sədrinin müavini Petrosyan yoldaşdan teleqram daxil olmuşdur. Teleqramda göstərilir ki, İncəsənət İşləri Komitəsinin 24 may tarixli əmri ilə bu ilin avqust ayında Moskvada Azərbaycan Dram Teatrının qastrolunun keçirilməsi qərara alınmışdır. Petrosyan yoldaşın teleqramında həmçinin göstərilir ki, müqavilə bağlamaq və qastrolun smetasını təsdiq etmək üçün Azərbaycan Dram Teatrının nümayəndəsi Moskva şəhərinə ezam edilməlidir. Aşağıdakıları məqsədəuyğun hesab edirik:

I. Əzizbəyov adına Azərbaycan Dram Teatrının Moskva şəhərində qastroluna bu tamaşalar daxil edilsin:

1.«Şərqin səhəri». Müəllifi Ə.Məmmədxanlı, rejissoru A.İsgəndərov, rəssamı N.Fətullayev.

2.«İşıqlı yollar». Müəllifi İ.Əfəndiyev, rejissoru A.İsgəndərov, rəssamı N.Fətullayev.

3.«Ölülər». Müəllifi C.Məmmədquluzadə, rejissoru Ş.Bədəlbəyli, rəssamı İ.Axundov.

4.«Günahsız müqəssirlər». Müəllifi A.N.Ostrovski, rejissoru A.Şərifov, rəssamı İ.Axundov.

5.«On ikinci gecə». Müəllifi V.Şekspir, rejissoru M.Məmmədov, rəssamı Yerimenko.

6«Xanlar». Müəllifi Səməd Vurğun, rejissoru A.İsgəndərov, rəssamı N.Fətullayev.

II. Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsinə və Əzizbəyov adına Azərbaycan Dram Teatrının müdiriyyətinə tapşırılsın:

1.Qastrol üçün nəzərdə tutulmuş bütün tamaşaların səhnə quruluşunu, aktyor ifasını və bədii tərtibatını yoxlasınlar və beləlikiə, tamaşaların yüksək keyfiyyətini təmin etsinlər.»

2.Bütün qastrol tamaşalarının mətnini, həmçinin Əzizbəyov adına Azərbaycan Dram Teatrının yaradıcılıq yolları barədə bir çap yarım həcmində kitabçanı hazırlayıb rus dilində nəşr etsinlər.

3.SSRİ Nazirlər Soveti yanında İncəsənət İşləri Komitəsində smeta xərclərinin və repertuar planının təsdiqi, habelə qastrol səfəri ilə əlaqədar digər məsələlərin həlli üçün A.İsgəndərov yoldaş Moskva şəhərinə ezam olunsun.

Xahiş edirik göstəriş verəsiniz.

H.Həsənov

Mirzə İbrahimov

H.Sultanova.»

M.C.Bağırov yazılanlara razılıq vermişdir. Ancaq bir göstərişi olmuşdur: Səməd Vurğunun «Xanlar» pyesi «Vaqif»lə əvəz olunsun.

1948-ci ildə daşnakların və onların Kreml havadarlarının Dağlıq Qarabağla bağlı məkrli niyyətlərini yaxşı dərk edən M.C.Bağırov, görünür, qəsdən bu düzəlişi etmişdi. Dünən Şuşanı İran şahı Qacardan qoruyan azərbaycanlılar bu gün Qarabağın müqəddəs torpağını yadların tapdağı etməyəcəklər!

O zaman kimin ağlına gələ bilərdi ki, 1948-ci ildən 48 il keçəndən sonra, 1997-ci ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin əməkdaşı, filologiya elmləri namizədi olan soydaşımız məşhur «Vaqif» tamaşasının yeni «səhnə tərtibatı»nı verəcəkdir. Bu «tərtibat»da Vaqif rolunda S.Vurğun, Qacar rolunda M.C.Bağırov olacaqdır.

Söhbət Adilxan Bayramovun 1997-ci ildə Bakıda, Azərbaycan-Amerika Mədəniyyət Mərkəzinin icarə mətbəəsində yığılıb çap edilmiş «Vurğun ocağı» kitabından gedir. Kitabda oxuyuruq: «Molla Pənah Vaqif 1797-ci ildə Ağa Məhəmməd şah Qacarın hüzurunda dayanmışdı... Səməd Vurğun Molla Pənah haqqında məşhur «Vaqif» pyesini 1937-ci ildə qələmə alıb... Elə həmin il S.Vurğun düz 4 dəfə şəxsi məsələsi üçün «hökmdarın hüzuruna» -respublika rəhbərinin yanına çağrılıb. Əlbəttə, elə həmin vaxt «hökmdar» - respublikanın rəhbəri düyməni basıb təltif işinə baxan əməkdaşı da çağıra bilərdi, NKVD-nin meşin gödəkcəli əməliyyatçılarını da.

...Şair «Vaqif»i yazırdı. Azərbaycan ədəbiyyatının incilərindən birini yaradırdı.

...S.Vurğunu millətçilikdə günahlandırır, ana dilini, öz xalqını sevdiyinə, «Vaqifin şirin dili» ifadəsini işlətdiyinə görə ittiham edirdilər, Vaqifi də öz elini və dilini müdafiə etdiyinə görə qətlə yetirdilər.»

Bəs Vaqif - S.Vurğunu Qacar - Mir Cəfər Bağırovun əlindən kim xilas etmişdir? Buna «525-ci qəzet» 2000-ci il 27 yanvar tarixli sayının 7-ci səhifəsində iri başlıqla cavab verir: «Yazıçı Vidadi Babanlının dediyinə görə, S.Vurğunu M.C.Bağırovdan Stalin qoruyub.»

Müsahibədə daha sonra deyilir: «Bir gün Vurğunla Fadeyev hardasa yeyib-içib hallanandan sonra Puşkin meydanından Tverskoy bulvarı ilə üzü aşağı gedirmişlər. Qəflətən arxadan kimsə Səmədi çağırır. Səməd əvvəlcə fikir vermir. Arxadan bir də çağırırlar, Səməd dönüb baxır ki, Mir Cəfərdir. Tez qayıdıb görüşürlər. Bağırov soruşur ki, Bakıya nə vaxt qayıdacaqsan? Səmədin qayıtmaq

fikri olmasa da, karıxdığından cavab verir ki, sabah. Mir Cəfər deyir, lap yaxşı oldu, bir yerdə, mənim vaqonumda gedərik. Ertəsi gün vaqonda yaxşı yeyib-içəndən sonra Səməd bir az hallanır. -Səməd, bilirsənmi, mən səni nə qədər istəyirəm? Vurğun deyir, -bilirəm, Mir Cəfər Abbasoviç, məni oğlunuz qədər istəyirsiniz. Mir Cəfər: -yox, oğlumdan çox istəyirəm- deyir, -Səməd, ürəyində həyata keçilməyən arzun varmı, de, bəlkə mən o arzunu yerinə yetirə bildim. Vurğun da sadəlövh adam, həm də ki, keflənib. Dilindən çıxarır ki, bəs Mikayıl Müşfiq çox cavan, istedadlı bir şair idi, onu günahsız tutdular, bəlkə onun buraxılmasına kömək edəsiniz. Mir Cəfər onun sözünü kəsir, əsəbiliklə qayıdır ki, necə, sən nə danışırsan? Səməd çəkinsə də, özünü toplayıb, Müşfiqin şeirlərindən bir neçə bənd deyir, sonra da soruşur ki, yoldaş Bağırov, bu şeirlərdə antisovet ruhlu nə var axı? Mir Cəfər bir az fikrə gedir, -sən məni inandırdın, Bakıya qayıdan kimi bu işlə məşğul olaram, Müşfiqi axtarıb tapdıraram. Onda Səmədgil hələ Müşfiqin çoxdan güllələndiyini bilmirlərmiş. Bu hadisədən bir həftə sonra Mərkəzi Komitədə partiya fəallarının yığıncağında tribunada çıxış edən Bağırov birdən üzünü zala tutub qəzəbli tonda deyir: «Yoldaşlar, biz bəzi adamlara həddən artıq inanıb, irəli çəkmişik, onlara hər cür şərait yaratmışıq. Amma sən demə, onların ürəyində, beynində Sovet hökumətinə, sosialist quruluşuna qarşı nifrət var.» Sonra barmağını Səmədə tuşlayır: «Vot, odin iz nix - qospodin Samed Vurqun Vekilov! Na dnyax on prosil menya osvobodit yaroqo vraqa naşeqo naroda Mikaila Muşfiqa!» Yalnız onda Səməd də, yerdə qalanlar da başa düşürlər ki, Bağırovun S.Vurğunu öz vaqonuna dəvət etməkdə məqsədi şairdən söz almaq olub.»

Həm M.C.Bağırovu və həm də S.Vurğunu bu dərəcədə cılızlaşdıran sözləri ancaq və ancaq vicdan susanda dilə gətirmək olar.

***

Yalançı şahidlər eşitdiklərindən, doğruçu şahidlər gördüklərindən danışırlar.

Tanınmış yazıçı-publisist Əli İldırımoğlunun 1999-cu ildə «Gənclik» nəşriyyatı tərəfindən buraxılmış «Közərən sətirlər» kitabı bu həqiqəti bir daha sübuta yetirir. Müəllif son vaxtlar bəzi mətbuat səhifələrində M.C.Bağırov haqqındakı uydurma və yalanları inkaredilməz faktlarla rədd edir.

Yalançı şahidlər M.C.Bağırovun «patoloji əzazilliyindən», «Azərbaycan xalqının ən yaxşı övladlarını amansızcasına tələf etdiyindən» 2000-ci ildə də yazmaqda davam edirlər, ona «ateist», «Allahsız» deyirlər. Əli İldırımoğlunun şahidi olduğu hadisələrdə isə M.C.Bağırov gənclik illərində də, sonralar da azərbaycanlıların dədə-baba adətlərini yaşadan kamil insan kimi yüksəlir. M.C.Bağırovdan bəhs edən səhifələri birlikdə oxuyaq:

«Bir gün soraq gəldi ki, Bağırovun dəstəsi həmin bu Xəndək kəndinə tərəf üz tutub. Böyüklü-kiçikli hamı səksəkə içindəydi. Bağırov dəstəsiylə gəlib

dayandı kəndin ayağında, bu günkü kimi yadımdadır. Mən də sütül oğlan idim. Nəsirin damının üstünə çıxıb baxırdım...

Bağırovun atı qabaqdaydı. O, atın başını yığıb yolun yaxınlığındakı evin həyətinə toplaşanlardan soruşdu:

-Bu kənddə Alı adlı adam var?

-Var! Var! - Hamı bir ağızdan cavab verdi.

-İndi o harada olar?!-M.C.Bağırov qeyzlə soruşdu.

-Evindədir! Evindədir! - adamlar ordan-burdan dilləndilər.

-Onu çağıra bilərsiniz?

-Çağırarıq, niyə çağırmırıq!

Alı kişiyə xəbər getdi ki, kəndin altında bir dəstə atlı dayanıb, səni gözləyir. Hündür boylu, dolu bədənli və əynində toxunma qara çuxa, başında saçaqları çiyninə tökülən iri papaq olan Alı kişi asqıranda damdan torpaq tökülürdü. Onun at ilxısının, qoyun sürüsünün ucu-bucağı görünmürdü. «Səni çağırırlar»-deyəndə o dəqiqə ürəyinə damdı ki, M.C.Bağırovun dəstəsidi. Yəqin indi də məndən haqq-hesab çəkməyə gəliblər. Alı kişi arvad-uşağını başına yığıb onlara toxtaqlıq verdi:

-Gedirəm, -dedi. -Bəlkə qayıtmadım. Dünyanın işini bilmək olmaz. Əcələ aman yoxdur. Yəqin mənimki də buracanmış. Nəbadə dost-düşmən yanında özünüzü sındırasınız. Onsuz da bir can borcluyam, əgər vaxtım çatıbsa...

...O boyda dağ kimi kişi, üzü aşağı enəndə iki dəfə töyəccələndi, papağı başından düşdü. Alı kişi papağını yerdən götürüb başına qoydu. Və asta-asta düz M.C.Bağırovun atlılarının qabağına yeridi. Salam-kəlamdan sonra M.C.Bağırov soruşdu:

-Xəndəkli Alı kişi sizsiniz?

-Bəli, mənəm.

-Nə qədər mal-dövlətiniz var?

-Ağa, cəddinə qurban olum...

M.C.Bağırov onun sözünü yarımçıq kəsdi:

-Ağa yox. İndi bizdə bəy, xan, ağa yoxdur. Yoldaş, yoldaş demək lazımdır.

- Ağa, cəddinə qurban olum!- Alı kişi eyni sözü yenə təkrar etdi, - bilirəm məni öldürməyə gəlmisən, elə yuxusunu da görmüşəm. Neynək, öldür! Qanım saa halaldı! Ancaq orası var ki, üzü aşağı, üzü yuxarı eşidib-bilən bütün Həkərli camaatı deyəcək ki, ağa nahaq bir qan eləyib. Niyə ki, düzdür, mənim at ilxılarım, qoyun sürülərim, bəs deyincə mal-davarım var. Amma bura toplaşan bütün bu Xəndək camaatı yaxşı bilir ki, mən bu mal-dövləti kiməsə zülm eləyib, xəyanət yoluynan yığmamışam. Heç kəsə də güzaddığım olmuyub. Karlı qardaşlarım, qoçaq oğlanlarım, qohum-qardaşım var. Hamısı öz zəhmətimiznən başa gəlib. El bilir ki, yetim-yesir atası olmuşam. Yazıq-yuzuğa əl tutmuşam. Bu kəndin xeyir-şərindən kənar durmamışam. Ağa, indi tay özün bil, Allahın bilsin...

M.C.Bağırov Alı kişidən soruşdu:

-Deyirlər, qırxa bir at bağlamısan, düzdümü?

-Bəli, ağa, saa yalan sata bilmərəm, düz eşitmisən. Çünki qabaqda o dünyamız var. Əhd eləmişəm ki, Kərbəla torpağına ziyarətə gedim. Ona görə də atı qırxa bağlamışam.

-O atı bizə verərsənmi?

-Peşkəşdir, ağa, bir at nədir ki, saa qıymayım. İlxım da saa qurbandır.

-Onda gözlüyürük, həmin o qırxa bağladığın atı gətir. -M.C.Bağırov sakitcə dilləndi.

Alı kişi evə qayıdıb atı tövlədən çıxartdı. Və belinə də o vaxtkı hesabnan at qiymətinə gedən bir ingilis yəhəri vurdu. İşıq üzü görməyən köhlən at! Arpa-samandan da bol-bol yeyib səmriyib. Alı kişi havalanmış, harın atı bir təhər yavaşıdıb yola gətirdi. Və M.C.Bağırovun adamlarına təhvil verdi. İnsaf üzünə, M.C.Bağırovun dəstəsi bu Xəndək kəndində bir adama dəyib-dolaşmadı. Alı kişiyə də bir «sağ ol» deyib, dəstə-tifaqnan üzü aşağı tərpəndilər. Ən maraqlısı odur ki, heç aradan həftə keçməmişdi,

M.C.Bağırovun adından Alı kişiyə bir paket gəldi, içində də atın artıqlanmasınca pulu».

İndi nə Alı kişi var, nə də Alı kişinin köhlən atının pulunu artıqlamasınca ödəyən M.C.Bağırov. Köhlən atların cıdır meydanında Xanış çobanların qurbanlıq qoyunlarıdır...

Bu gün dünyanın bu başından o başına səfər edən dövlət məmurları Bakıda bir marşrutun sərnişinləridir -yaşadığı rahat mənzilin və əyləşdiyi kabinetin. Azərbaycanın rayon və kəndlərinə baş çəkmək, camaatın gün-güzəranı qayğısına qalmaq yada düşmür. Yalançı şahidlər isə məddahlıq azarına tutulur, çıxış yolunu M.C.Bağırovun ünvanına qaralar yaxmaqda görürlər.

Əli İldırımoğlu bütün bu böhtanlara konkret faktlarla cavab verir. Kitabı vərəqləyək:

«Müharibənin ağır illəriydi, gündə bir qara kağız gəlirdi. Çəltiyi əkib-becərməyə adam tapılmırdı. Kənd qocaların ümidinə qalmışdı. Almanlar da gəlib dirənmişdi Mahaçqalaya. M.C.Bağırov onda hərdən kəndlərə çıxıb, camaatdan hal-əhval tuturdu. Bir gün də xəbərsiz-ətərsiz gəlib Muradxanlı orta məktəbinin yanından keçəndə təsadüfən Alməmməd müəllimlə rastlaşır. Alməmməd müəllim də vaxtıyla Bakı fəhləsi olmuşdu. Son vaxtlar gəlib buralarda rus dili dərsi deyirdi.

...M.C.Bağırov Alməmməd müəllimi görən kimi maşını saxlatdırır. Salam-kəlamdan sonra M.C.Bağırov soruşur ki, müəllim işləyirsən? Alməmməd deyir ki, bəli, müəlliməm. M.C.Bağırov ondan müəllimlərin dor-dolanışığını, məktəbin vəziyyətini, uşaqların əzvayişini soruşur. Alməmməd müəllim özünü cəmləşdirib:

- Yoldaş M.C.Bağırov,- deyir, - bizim bu Muradxanlı orta məktəbinə Qubadlıdan başqa Laçın, Zəngilan, Cəbrayıl kəndlərindən də tələbə gəlir. Böyük

də məktəbdir. Əsas çətinliyimiz odur ki, şagirdlərdən elələri var ki, atası müharibədə həlak olub, anası da burda dünyasını dəyişib... Yeməyə çörəyi yox, geyməyə paltarı. Düşüblər dilənçi vəziyyətinə. O cür uşaqları məktəbə cəlb edə bilmirik...

M.C.Bağırov fikrə gedir, sonra soruşur:

-Müəllim, yaxşı, bəs onda neyləyək, nə çarə qılaq?

-Yoldaş M.C.Bağırov, çarəsi odur ki, mümkün eləyə bilsəydiniz, məktəbin yanında 30-40 nəfərlik internat açılardı. Dediyim o sahibsiz uşaqları internata qəbul eləyib, oxutdurardıq.

-100 nəfərlik internat yaratsaq, həmin o kimsəsiz uşaqları vəziyyətdən çıxara bilərik?- M.C.Bağırov Alməmməd müəllimin fikrini soruşur.

-Yoldaş M.C.Bağırov, onda bu el-obanın hamısı sizə duaçı olar.

Aradan bir həftə keçməmişdi ki, ağır yüklü avtomaşınlar Muradxanlı orta məktəbinin qabağında dayandı. İçində də 100 nəfər uşaq üçün çay qaşığından, yatıb-duracağından tutmuş, əyninin pal-paltarına qədər...»

Tale elə gətirib ki, Əli İldırımoğlu Alməmməd müəllimlə M.C.Bağırovun görüşündən 4 il sonra Muradxanlı orta məktəbində dərs hissə müdiri işləmişdi. O, həmin illəri xatırlayaraq belə yazır: «Pedaqoq, jurnalist, yazıçı kimi keçdiyim yola nəzər salıb deyərdim ki, müəllimi hörmətli tutulmayan elm ocağı, dövlətin gündəlik, hərtərəfli qayğısından yarımayan xalq çətin təşəkkül tərəqqi tapar və nadanlıq, hərc-mərclik girdabından xilas ola bilməz.

Bağırovun bir nəfər kənd müəlliminə vurulan sillənin ona dəyibmiş kimi tufan qoparıb, bütün rayon başçılarını məhşər ayağına çəkməsi faktı da yaxşı yadımdadır.

Müharibə dövrü arxa cəbhədə fəallıq göstərən Qubadlı rayon partiya komitəsinin birinci katibi çox üzdə idi. Ona o vaxtlar tək-tək adamlara müyəssər olan xoşbəxtlik üz vermişdi. Lenin ordeni almışdı. Mərkəzdəkilərin yanında bir sözü iki deyildi. Onun bu nüfuzu Bakı ilə Qubadlı arasında keçilməz səddə çevrilmişdi. Və bu şöhrət pərdəsi arxasında Qubadlıda dərəbəylik mühiti yaranmışdı.

...Kəndlərin birində idarə başçısı müəllimə əl qaldırır. Müəllim döyülüb-təhqir olunduğunu o vaxt maarif naziri işləyən Mirzə İbrahimova bildirir. İbrahimov da məsələni Mərkəzi Komitəyə çatdırır. Əhvalatdan M.C.Bağırov xəbər tutur. Üç nəfər raykom katibi, bir də ispalkomun sədri bu məsələ ilə əlaqədar Mərkəzi Komitənin bürosuna dəvət olunurlar. M.C.Bağırov onları görən kimi ayağa qalxıb əsəbi halda:

-Deyirlər, orada qoçular peyda olub, bu düzdürmü?!- qeyzlə soruşur.

-Eşitdiyimə görə, Qubadlıda xalq müəllimlərini döyüb, təhqir edirlər, bu doğrudurmu?!

Heç kəsdən səs çıxmır. Büro üzvlərindən danışan olmur. Rayon başçıları susurlar. M.C.Bağırov üzünü əyləşənlərə tutaraq:

- Mənə elə gəlir ki, müəllimi ucuz tutulan rayonun başçıları özləri qara köpüyə dəyməz - bunu deyib büroda əyləşən Mərkəzi Komitənin işçilərinə və inzibati orqanların rəhbərlərinə belə göstəriş verir:

- Ləngimədən, günü sabahdan gedin Qubadlıya. Yoxlayın, araşdırın, orda xalq müəllimlərini niyə döyüb təhqir edirlər? Müəllimləri niyə gözümçıxdıya salırlar?!

...Yoxlamanın nəticəsi Mərkəzi Komitənin bürosunda müzakirə olunarkən rayon başçılarının demək olar ki, əksəriyyəti vəzifəsindən azad edildi. Döşündən Lenin ordeni asılan raykomun birinci katibinin axır sözü bu oldu:

-Yoldaş Bağırov, səhvimizi indi başa düşürük. Qarşınızda təqsirkarıq. Xahiş edirəm, məni Mingəçevirin tikintisinə fəhlə göndərin. Orada daş daşıyıb, beton qarışdırıb, özümü doğruldaram.

Lakin cəzadan yaxa qurtaran olmadı. Bəli, bir nəfər müəllimin heysiyyatının tapdalanmasına görə! Bu, Qubadlının səmasında cövlan edib, adamların əsəbini tarıma çəkən qara buludların bir andaca dağılmasına bənzəyirdi. Şimşək çaxdı, sel-su Qubadlı dərələrinin zir- zibilini yuyub təmizlədi, göy qübbəsi şəfəqləndi...»

Bu gün, yeni yüzilliyin astanasında, 1956-cı ilin saxta istintaq materialları arasından boylanaraq M.C.Bağırovu ittiham etmək - Rudenko obrazında Azərbaycan səhnəsində görünmək kimi bir şeydir. Yalançı şahidlər unudurlar ki, vaxtilə Ruhulla Axundovun, Sultan Məcid Əfəndiyevin, Qəzənfər Musabəyovun, Dadaş Bünyadzadənin, Hüseyn Rəhmanovun və başqalarının məhkəmə materialları kimi, M.C.Bağırovun da istintaqının qondarma olduğuna hökm veriləcəkdir.

M.C.Bağırovu qəddarlıqda ad çıxarmış Qacara bənzədənlərdən soruşmaq istəyirsən: deyin görək, niyə Rusiya imperatoru I Pyotr Azərbaycan xalqı üçün işğalçı olmasın, İran şahı Qacar qəsbkar görünsün? Özü Azərbaycan türkü olan və ordusunun əsasını da Azərbaycan türkləri təşkil edən sərkərdə Qarabağı ələ keçirsəydi, qədim dədə-baba torpaqlarımız ermənilərə məskən olmazdı. Dünən İbrahim xan Rusiyaya bel bağlamasaydı... bu gün «Laçın dəhlizi» olmazdı. Son iki əsrdə Azərbaycan xalqının başına gətirilən müsibətlərin başlıca səbəbi budur ki, böyüklərimiz kafirlərə dost gözü ilə baxmış, düşmənləri soydaşlarımız arasında axtarmışlar.

Filologiya elmləri doktoru, professor Vaqif Arzumanlının 1999-cu ildə çapdan çıxmış «Tarix siyasətin, siyasət tarixin dili ilə» adlı çox dəyərli kitabında verilmiş bir sənədlə tanış olanda, M.C.Bağırovu Qacara bənzədənlərə qarşı olan qəzəbim soyudu. Ona görə ki, ürəyimdə Azərbaycan Sovet Ensiklopediyasında yazıldığı kimi, «şöhrətpərəst və son dərəcə qəddar» olan Ağa Məhəmməd şah Qacara rəğbət hissi oyandı. Şahın təqribən 1795-ci ildə gürcü çarı II İrakliyə yazdığı məktubu Vaqif Arzumanlı Azərbaycan türkcəsinə çevirib oxuculara çatdırmışdır. Məktubda deyilir: «...Siz ruslara yaxınlaşıb onlara qoşulmusunuz. O

ruslara ki, İranda ancaq alver məqsədi ilə gəzib-dolaşırlar və elə bütün iş-peşələri də yalnız alverlə, ticarətlə məşğul olmaqdır.

Sən yaşı 90-ı haqlamış adamsan, amma bağışlanmaz səhvlərə yol verirsən: kafirləri torpağına buraxmısan, onlarla birləşmisən və onlara istədikləri kimi davranmağa şərait yaradırsan».

Gürcü çarı II İrakli kimi, Qarabağ xanı İbrahim xanın da «kafirlərlə birləşməsindən» nə hasil oldu?

Bəli, «Yekaterina qılıncı» öz işini gördü. Öz dəstəsində erməni Arşakı, gürcü Şalikonu, yəzdi kürdü Musanı və yerli çobanları birləşdirmiş Eldar «Misri qılıncı» Qacarın üstünə qaldırdı.

M.C.Bağırovu qəddarlıqda Qacara tay tutanlar 1805-ci ildə İbrahim xanın imza atdığı təslimçilik müqaviləsinin müddətini 1993-cü ildə Bişkekdə qeyri-müəyyən vaxtadək uzatdılar, Pənah xanın müqəddəs torpağını daşnaklara həvalə edərək Lissabon bayramı keçirdilər...

***

M.C.Bağırov nə cəllad, nə canişin, nə əzazil, nə də «qırmızı terror» olmuşdur. Oxuculardan aldığım məktublar bunu bir daha təsdiq edir. Bakıdakı 1 saylı hüquq məsləhətxanasında vəkil işləyən 86 yaşlı Bələd Qasımov belə yazır: «M.C.Bağırov təmiz, ədalətli, obyektiv, insanpərvər adam olub. Onun yaxşı cəhətlərindən aylarla yazmaq və danışmaq olar. M.C.Bağırovun necə böyük şəxsiyyət olmasını yaşlı adamlar yaxşı bilirlər. Lakin bunu gənclərin də təsəvvür etməsi vacibdir.

Camaat onu tez-tez küçədə, bazarda, teatr zalında görərdi. Mühafizəçilərinin olduğu nəzərə çarpmazdı.

Azərbaycanda M.C.Bağırov kimi rüşvətxor və haramzadaların barışmaz qənimi olan ikinci bir rəhbər olmamışdır. Vəzifə sahiblərindən hər hansı birisinin rüşvət aldığını bilsəydi, həmin gün işdən çıxarılıb məsuliyyətə cəlb olunardı. Ona görə də hamı düz işləməyə çalışırdı.

İndi də M.C.Bağırovun şəxsən özümə etdiyi kömək barədə danışmaq istəyirəm. Mən müharibənin başlandığı gündən ön cəbhədə vuruşmuşam. Dəfələrlə yaralanmışam və sağaldıqdan sonra yenə də döyüşə getmişəm.

Böyük Vətən müharibəsi qələbəmizlə başa çatanda mən hərbi xəstəxanada yatırdım. Ancaq 1945-ci ilin dekabrında sağalıb Vətənə qayıtdım. Gecə yarısı təyyarədən düşüb, müharibədən əvvəl yaşadığım mənzilə - Zevin küçəsindəki 11-ci binanın 52-ci mənzilinə gəldim. Qapını döyəndə qəribə mənzərə ilə rastlaşdım. Məlum oldu ki, üç gözdən ibarət halalca mənzilimdə Aqulyan adlı bir erməni yaşayır. Aqulyan yaşadığı mənzilin mənə məxsus olduğunu bilsə də, dedi ki, orada heç səhərədək qalmağıma da razı ola bilməz, açıq qapını üzümə çırparaq bağladı.

Çarəsiz qalıb, əlimdəki şeyləri öz evimin qapısı ağzında qoydum, aşağı - ikinci mərtəbəyə endim, yəhudi qonşum Semyonun qapısını döydüm. Semyon və

arvadı Sara gecədən xeyli keçsə də, məni səmimiyyətlə qarşılayıb içəri saldılar, sevinclərindən ağladılar. Aqulyanın professor olsa da, pis adam olduğunu dedilər. Təkid etdilər ki, gecəni onlarda qalım. Mən onların tək otağında qalmağı rəva bilmədim. Şeylərimi orada qoyub, yaxınlıqdakı «Novaya Yevropa» mehmanxanasında yer aldım.

Ertəsi günü Voroşilov rayon prokuroru Allahverdiyevin qəbuluna getdim. O, məni hörmətlə qarşıladı. Ona gecə başıma gələn əhvalatı danışanda çox əsəbiləşdi və bildirdi ki, bu daşnak ermənini sənin qanuni evindən çıxaracağam. Çünki müharibə iştirakçılarının mənzil sahəsinin saxlanması barədə fərman vardır.

Mən prokurora razılığımı bildirib mehmanxanaya qayıtdım.

Ertəsi günü Allahverdiyev Aqulyanın professor olduğunu və yuxarılarda adamı olduğunu bildirdi, mənə məsləhət gördü ki, evlər idarəsinə ərizə yazım ki, başqa yerdə mənzillə təmin olunum.

Prokurorun kabinetindən əsəbi halda çıxdım, dəniz qırağına tərəf yol aldım. Fikir məni apardı. Necə edim, haraya gedim?

Mehmanxanadan Mərkəzi Komitəyə zəng çaldım. Cəbhədən qayıtdığımı, çıxılmaz vəziyyətə düşdüyümü nəzərə alaraq, yoldaş M.C.Bağırovun qəbuluna düşməyi xahiş etdim. Üç saatdan sonra mehmanxanaya zəng vurub mənə xəbər verdilər ki, sabah səhər saat 10 tamamda M.C.Bağırovun qəbulunda olmalısınız.

Deyildiyi vaxtda Mərkəzi Komitədə oldum. M.C.Bağırov ayağa durub irəli gəldi, məni çox səmimi qarşıladı. Döşümdəki orden və medallara baxdı, dedi ki, görünür şərəflə vuruşmusan, Azərbaycanın adını uca tutmusan, çox sağ ol.

M.C.Bağırov masanın arxasına keçib yerində əyləşdi. Mənə müraciət etdi:

-Buyurun, yoldaş Qasımov. Sizi dinləyirəm, sözünüzü deyin.

Mən başıma gələnləri qısaca danışdım. M.C.Bağırov Bakı Sovetinin sədrinə zəng vurdu:

-Qeyd elə, Zevin küçəsi 11, mənzil 52. Ev Qasımov Bələd Mirzəhüseyn oğlunun adınadır. Professor Aqulyana hansı yolla və kim tərəfindən , order verilməsini aydınlaşdırın. Üç saat müddətində evi boşaldın və Qasımova təhvil verin!

Mən Mərkəzi Komitənin binasından çıxıb Zevin küçəsinə yaxınlaşanda evimizin qabağında yük maşını, yanında milis işçilərini gördüm. Semyongilə qalxdım. O, mənə bildirdi ki, Baksovetin işçisi səni xəbər alırdı. Yuxarıdadır. Aqulyanın şeylərini daşıyırlar. Qanuni mənzilimin açarını əlimə aldım. Mehmanxanaya gəlib şeylərimi götürdüm. Poçtdan M.C.Bağırova minnətdarlıq teleqramı göndərdim.

Bələd Qasımov 1914-cü ildə Lerik rayonunun Kələxan kəndində anadan olmuşdur. Qocaman hüquqşünasın yaddaşından M.C.Bağırovun Lerik səfəri də silinməmişdir. «Fəxri hüquq doktoru» bu barədə məktubunda belə yazır: «1952-ci ildə M.C.Bağırov Lerikə gedərək, oradakı hərbi hissəyə baş çəkmiş və sərhəddə olmuşdu. Bizim kəndə çatmamış mənzərəli bir yerdə M.C.Bağırov və onun səfər

yoldaşları süfrə açıb nahar edirlərmiş. Bu zaman M.C.Bağırov yoldan keçən bir ağsaqqal kişini yanına çağırmış, onunla çörək kəsməyi təklif etmişdir. Qoca yeməkdən imtina edərək, qonağın kim olduğunu soruşur. Bağırov olduğunu yəqin edəndə özünü itirir. Cavab verir ki, mən Allah bəndəsi, sənin kimi rəhbərlə bir süfrədə əyləşə bilmərəm.

-Onda mənə bir sözünüz varmı?

-Yoldaş M.C.Bağırov, Allah sənin kölgəni üstümüzdən əskik eləməsin. Bir xahişim var: vergidən məni azad et. Dünən evdə olan döşəyimi söküb yununun yarısını aparıb yun hazırlığı idarəsinə vermişəm. Çünki vergini ödəməyə pulum yoxdur.

M.C.Bağırov qocanın xahişinə əməl ediləcəyini bildirir. Xudafizləşəndə onun etirazına baxmayaraq, heybəsinə ağ çörək, bişmiş toyuq və başqa yeməklərdən qoyur».

***

Polkovnik Hümbət Məhəmməd oğlu İsmayılov öz məktubunda yazır: «Yeni Zaman» qəzetində M.C.Bağırov haqqında yazılanları həvəslə oxuyuram. Ona görə ki, M C.Bağırov haqqında həmişə müsbət fikirdə olmuşam. Onun millətini sevən, xalqının qeydinə qalan, ədalət və haqqın tərəfdarı olan tələbkar bir rəhbər olduğunu yəqın etmişəm və indi də həmişəki kimi buna inanıram Xoşbəxtəm ki, bu dahi şəxsiyyətlə mən də əl tutub görüşmüşəm.

Müharibənin ən dəhşətli günlərində, 1942-cı ilin sentyabrında məni Dağıstanın Sulaq çayının sağ sahilində yerləşən hərbi hissəyə göndərdilər. Orada 1939-40-cı illərdə məktəb direktorumuz olmuş Hacı Əliyevlə rastlaşdım.

Bir səhər bizi sudabeker maşınına mindirib Sulaq çayının yuxarı tərəfində yerləşən Çiryurd dəmir yol vağzalına gətirdilər. Hamımız maşından düşüb, dalanda dayanmış 3 vaqonun qabağında sıraya düzüldük. Azərbaycanlı bir zabit məlumat verdi ki, Zaqafqaziya respublikalarında milli diviziyalar yaradılır. Bizi başqa hərbi hissələrdən milli diviziyaya göndərilmək üçün buraya gətiriblər. Vəzifəmiz ondan ibarət olacaqdır ki, əksəriyyəti kənd rayonlarından gələn və rus dilini bilməyən həmyerlilərimiz arasında ana dilində hərbi-siyasi iş aparaq. Zabit siyahı ilə bizi bir-bir vaqona çağırırdı. Bu məqamda keçmiş direktorum Hacı Əliyev mənə bildirdi ki, onu 223-cü diviziyaya təyin ediblər, mən də həmin diviziyanı xahiş edim.

Növbə mənə çatdı. Vaqonun qapısını açanda gördüm ki, M.C.Bağırov dayanmışdır. Mən salam verən kimi qolumdan tutdu və kabinet kimi düzəldilmiş vaqonda stol arxasına keçdi. Aramızda sorğu-sual oldu:

-Hansı rayondansan?

-Şəmkirdən.

-Hansı kənddən?

-Şiştəpədən.

-O dağın dibindəki kənddən?

-Bəli.

-Kəndinizdə olmuşam.

Sonra M.C.Bağırov müharibə vaxtı Azərbaycan milli diviziyasının vəzifələrindən danışdı. Onun söhbəti ürəyimdə qələbəyə inamı qat-qat möhkəmləndirdi. Axırda dedi:

-Səni 416-cı diviziyaya göndərirəm.

Mən sözlü adam vəziyyətinə düşdüm. Direktorumuz Hacı Əliyevin xahişi fikrimdə cövlan edirdi.

M.C.Bağırov halımı hiss etdi:

-Oğul, utanma, nə sözün var?

-Yoldaş M.C.Bağırov, xahiş edirəm məni 223-cü diviziyaya göndərəsiniz.

-Nə üçün, bala?

-Müəllim yoldaşımla bir yerdə olmaq istəyirəm.

M.C.Bağırov ayağa qalxdı. Səmimiyyətlə dedi:

-Oğul, 416-cı diviziyanın bir alayı Şəmkirdə təşkil olunur. Orada həm müəllim yoldaşlarını tapacaqsan, həm də öz yaxın qohumlarını, Şiştəpədən olan həmyerlilərini. Sənə uğurlar olsun!

M.C.Bağırov vaqon-kabinetin qapısınadək məni yola saldı. Vaqonun qabağında Hacı Əliyevin gözlədiyini gördüm, soruşdu ki, 223-ə düşdün? Mən əhvalatı olduğu kimi danışdım. Məktəb direktorumuz dedi: «Yoldaş M.C.Bağırovun məsləhəti mənim üçün qanundur».

M.C.Bağırovla söhbətlər başa çatdıqdan sonra 3 sudabeker maşını vağzalyanı meydana gəldi. Zabit siyahıya baxaraq, kimin hansı maşına minəsi olduğunu elan etdi. Mən məktəb direktorumuz ilə qucaqlaşıb görüşdüm, ayrı-ayrı maşına tərəf üz tutduq.

Məni 416-cı diviziyanın 1374-cü alayının avtomat rotasına siyasi rəhbər təyin etdilər. M.C.Bağırov yoldaşın dedikləri elə ilk gündən düz çıxdı. Alayın xüsusi şöbəsinin rəisi mənim köhnə dostum Bayram Məmmədov idi.

Onu da deyim ki, M.C.Bağırov köhnə amerikan «Villis»ində tez-tez hərbi hissələrə baş çəkirdi. Bir dəfə hissəmizdə olan bir hadisə barədə ona məlumat vermişdilər. Hadisənin məğzi belə idi: Komandir azərbaycanlı soldatı pis sözlərlə söymüş, soldat da bir anda hirsindən komandiri qaldırıb başı üstə yerə vurmuşdu. M.C.Bağırov bu münaqişədən danışarkən dediyi sözlər indi də qulağımda səslənir:

«Görünür, bəzi zabitlər bizim millətimizin əxlaq qanununu, adət-ənənəsini bilmir və bilmək də istəmirlər. Hətta Hitler də göstəriş verib ki, Zaqafqaziyada almanlar özlərini Rusiyadakı kimi aparmamalıdırlar, yerli ənənələr nəzərə alınmalıdır. Yadda saxlayın ki, Azərbaycanda əsgəri təhqir etmək komandirin ən böyük cinayətidir».

1943-cü ilin fevralından avqustun axırına kimi Taqanroq şəhərinin yaxınlığındakı Sambek adlanan yerdə mövqe tutmuşduq. Rotamızda olan bir azərbaycanlı əsgərin əhval-ruhiyyəsinin pis olduğu nəzərimi cəlb etdi. Onun

ürəyinə yol tapandan sonra dərdini mənə dedi. Həyat yoldaşından aldığı məktubundakı bu sözləri oxuyub mən özüm də dəhşətə gəldim: «Kolxoz sədrimiz mənə gün verib, işıq vermir. Gəl birinci onu öldür, sonra gedib faşistləri öldürərsən.»

Mən həmyerlimizə məsləhət gördüm ki, M.C.Bağırovun adına bir məktub yazıb cavab gələnədək səbr eləsin. O, mənimlə razılaşdı.

Məktub alay komissarı polkovnik Əfəndiyevin vasitəsilə mərkəzə göndərildi.

Bir neçə həftədən sonra bir də gördüm ki, kolxoz sədrini öldürmək üçün tapança axtaran sıravi əsgər şadlıq içində yanıma gəlib: «Yoldaş baş leytenant, indicə kənddən məktub almışam. Arvadım yazır ki...»

-Nə yazır?

-Yazır ki, zəhmət çəkib Taqanroqdan gəlmə. Çünki o sədri öldürə bilməyəcəksən. Yoxa çıxıb, yerində sənin yaxşı tanıdığın ağsaqqalımızdır. Məndən nigaran qalma. O əclafı göz qabağına gətirib bir neçə faşisti də o dünyalıq elə.

...Müharibə qurtardı. Məni Bakı hərbi dairəsinə göndərdilər. Sonra yenə öz milli diviziyamızın zabiti oldum. 1946-cı ilədək qulluq etdiyim dövr ərzində M.Bağırovun azərbaycanlı zabitlərə atalıq qayğısının dəfələrlə şahidi olmuşam. O, zabitlərimizdən 10 nəfərini imtahansız olaraq Frunze adına hərbi akademiyaya qəbul elətdirdi. Həmin zabitlər akademiyanı bitirdikdən sonra yenə də Azərbaycana qayıtdılar.

M.C.Bağırovun təşəbbüsü ilə yaradılmış milli diviziyalarımız müharibə illərində və müharibədən sonra Azərbaycan ordusunun özəyi idi. Bu ordunun azərbaycanlılardan və Azərbaycanda yaşayan digər millətlərin nümayəndələrindən olan heyəti nəinki Dağlıq Qarabağı, bütün Qərbi Ermənistan torpağını işğalçılardan təmizləməyə qadirdi. Ona görə də 1956-cı ildə M.C.Bağırovu güllələyənlərin əli ilə milli qoşun hissələrimiz dağıdıldı».

***

M.C.Bağırovun «millilik prinsipi» özünü hətta idman sahəsində də göstərirdi. Azərbaycanın əməkdar artisti Adil Məlikov «Rezonans» qəzetinin 11-17 dekabr 1999-cu il tarixli sayında «M.C.Bağırov əlimi sıxıb...» sərlövhəli müsahibəsində belə yazır: «Mən uşaqlıqda yaxşı futbol oynayırdım, hətta «Neftçi»də də çıxış etmişəm... O vaxt M.C.Bağırov göstəriş vermişdi ki, yalnız azərbaycanlılardan ibarət futbol komandası yaradılsın. Başqa millətin Azərbaycana nə canı yanacaq. Bir balaca ustalaşan kimi qaçıb gedəcəklər... Odur ki, bütün rayonlardan perspektivli oyunçuları yığıb Bakıya gətirmişdilər. O zaman indiki «Azadlıq» meydanının yerində böyük bir stadion var idi - «Dinamo». Onda hələ Stalin adına (indiki Tofiq Bəhramov adına) stadion tikilməmişdi. Bizi «Dinamo»ya yığdılar. O vaxt nə hökumət evi vardı, nə də ətrafdakı binalar. Stadionda bizi oynadır, xoşa gələni saxlayır, perspektiv

görmədiklərini rayona göndərirdilər. Oyunum onları razı saldığı üçün məni də saxladılar, otaq verdilər. M.C.Bağırovun göstərişinədək Ələkbər Məmmədov, Adil və İsmayıl İsmayılov qardaşlarından başqa oyunçuların hamısı rus, erməni və gürcü idi.

Beləliklə, gənc azərbaycanlılardan ibarət komanda düzəltdilər. Oyunçular püxtələşdikdən sonra biz olduq «Neftçi»nin əvəzedici heyəti. Və buradan bir-bir, iki-iki əsas heyətə keçməyə başladıq. M.C.Bağırov bu işə ürəkdən yanaşırdı. Stadiona gəlir, vəziyyətimizlə maraqlanır, fərqlənənləri tərifləyir, ruhlandırırdı. O, mənim əllərimi də sıxıb, «futbolumuzun gələcəyi sizin əlinizdədir»-demişdi».

**Təəssüflər olsun ki, bu gün müstəqil Azərbaycan ölkəsinin M.C.Bağırov ənənələrinə əsaslanan milli futbol komandası yoxdur. Azərbaycanlılardan ibarət güclü futbol komandası yaratmaq əvəzinə, başbilənlərimiz Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının qanuni sədri Fuad Musayevə sağ və sol cinahdan zərbələr vurmaqla məşğuldurlar...**

***

«Kommunist» qəzetinin 1950-ci il 5 avqust tarixli sayında Bakı şəhər partiya təşkilatının 27-ci konfransında Azərbaycan KP MK və BK katibi M.C.Bağırovun çıxışının mətni dərc olunmuşdur. M.C.Bağırov Azərbaycan dilinin bütün respublika vətəndaşları tərəfindən öyrənilməsi, xüsusilə məktəblərdə hərtərəfli tədris edilməsi zərurətindən danışaraq belə deyir: «...Dili yalnız dərs zamanı və dərs kitablarından istifadə etməklə deyil, habelə kitabxanadan istifadə edib müntəzəm surətdə mütaliə etməklə öyrənmək lazımdır. Çox zaman uşaqlar ədəbiyyatdan kəsilirlər, özləri sərbəst yaza bilmirlər. Ona görə yaza bilmirlər ki, söz ehtiyatları çatışmır, az mütailə edirlər.

Dili mükəmməl bilmək və tamamilə mədəni işçi ola bilmək üçün Azərbaycan poeziyasını, ədəbiyyatını, birinci sırada onun Füzuli, Vaqif, Zakir, M.F.Axundov, Sabir və başqaları kimi nümayəndələrini ciddi surətdə öyrənmək lazımdır».

M.C.Bağırov Azərbaycən ədəbiyyatı klassiklərinin əsərlərinin nəşrinə xüsusi qayğı göstərmişdir. Mərkəzi Komitənin büro iclaslarında nəşriyyat planlarının müzakirəsi və təsdiqi buna misaldır. 1951-1952-ci illərdə C.Məmmədquluzadənin seçilmiş əsərlərinin iki cildliyinin nəşr olunması da Azərbaycan rəhbərinin göstərişi ilə həyata keçirilmişdir. «Azərnəşr» tərəfindən 1951-ci ildə nəşr edilmiş birinci cildə «Nəşriyyatdan» sərlövhəli ön söz daxil edilmişdir. Burada oxuyuruq: ««Azərnəşr» böyük Azərbaycan demokratik ədibi, dramaturqu, məşhur «Molla Nəsrəddin» jurnalının banisi və redaktoru C.Məmmədquluzadənin ikicidlik külliyyatını yenidən nəşr edir.

Oxuculara təqdim olunan birinci cildə yazıçının nəsr əsərləri, xatiratı və tərcümeyi-halı daxildir. İkinci cilddə C.Məmmədquluzadənin dram əsərləri,

felyeton, məqalə və məktubları veriləcəkdir. Hər iki cildin nəşrində Nizami adına Ədəbiyyat və Dil İnstitutunun 1936-cı ildə çap etdirdiyi ikicildlik «Əsərlər» və C.Məmmədquluzadənin əldə olan avtoqrafları əsas götürülür. Bir sıra əsərlər birinci dəfə olaraq indiki nəşrin müvafiq cildlərinə daxil edilir».

Lakin C.Məmmədquluzadənin «Seçilmiş əsərləri»nin birinci cildinin siqnal nüsxəsinə «Qlavlit» tərəfindən qadağa qoyulur. Səbəbini Azərbaycan KP MK-nın katibi Qəzənfər Cəfər oğlu Məmmədov M.C.Bağırovun ünvanına yazdığı rəsmi məktubunda göstərir. Həmin məktub Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılmaqdadır.

**«Azərbaycan KP MK-nın katibi M.C.Bağırov yoldaşa**

Azərbaycan Dövlət Nəşriyyatı C.Məmmədquluzadənin seçilmiş əsərlərinin ikicildliyinin yenidən nəşr olunmasına başlamışdır. 1936-cı ildəki birinci nəşrdən fərqli olaraq bu külliyyat yazıçının, demək olar ki, bütün başlıca əsərlərini əhatə edir. Hazırda birinci cild çapdan çıxmışdır. Burada ədibin nəsr əsərləri - povest, hekayə və xatirələri toplanılmışdır.

Kitabın siqnal nüsxəsi əsaslı surətdə nəzərdən keçirilərkən bir sıra ciddi nöqsanlar aşkar edilmişdir. Belə ki, kitabın tərtibçisi Mirəhmədovun və redaktoru Ə.Sadıqovun məsuliyyətsizliyi üzündən birinci cildə ideya cəhətdən qüsurlu əsərlər daxil edilmişdir. Məsələn, «Proletar şairi» hekayəsində proletar şairin obrazı gülünc təsvir olunaraq lağa qoyulur. «Hamballar» və «Qəza müxbiri» hekayələri təsadüfi faktlar üzərində qurulmuş və sovet gerçəkliyi haqqında düzgün təsəvvür yaratmır.

Ən böyük nöqsanlar kitaba daxil edilmiş «Xatiratım»dadır. Özlüyündə «Xatiratım» qiymətli memuar əsəridir, burada müəllif həyat müşahidələrini qələmə alır, islam dinini kəskin tənqid edir, «Şərqi-Rus» qəzetindəki fəaliyyətindən ətraflı söhbət açır və «Molla Nəsrəddin» jurnalının birinci nömrəsinin çıxmasından bəhs edir. Lakin «Xatiratım»ın bir neçə yerində C.Məmmədquluzadə qəzet- jurnal fəaliyyəti sahəsində qatı türkist millətçilər olan Əhmədbəy Ağayevin və Əlibəy Hüseynzadənin adlarını çəkir; H.M.Abdullanı xatırlayarkən yazır ki, o, bizim məşhur yazıçılarımızdan birisinin atasıdır. Həmin yazıçı ifşa olunmuş xalq düşməni H.Caviddir.

«Xatiratım»da 1905-ci il 17 oktyabr manifesti «əhalinin tam azadlığı» manifesti kimi qiymətləndirilir. Ən ciddi nöqsan isə bundan ibarətdir ki, Azərbaycan xalqının həyatında Rusiyanın rolu birtərəfli işıqlandırılır. 419, 421, 426, 442-ci səhifələrdə müəllif azsaylı xalqlara «rus hökumətinin» mürtəce münasibətindən dəfələrlə danışır.

«Seçilmiş əsərləri»n birinci cildinin müqəddiməsiz və müfəssəl izahatsız çap olunması göstərilən nöqsanları daha da yolverilməz edir.

**C.Məmmədquluzadənin «Seçilmiş əsərləri»nin birinci cildinin hazırlanmasında və çapında ciddi nöqsanlara görə kitabın buraxılışı tərəfimizdən saxlanılmışdır.**

**Q.Məmmədov».**

Görəsən, Qəzənfər Məmmədovun göstərdiyi səhifələrdə kimlərin adı çəkilir? C.Məmrnədquluzadənin 1951-ci ildə «Azərnəşr» tərəfindən buraxılmış «Seçilmiş əsərləri»nin birinci cildində həmin səhifələri varaqlayırıq.

Səhifə 419. «...Məlumdur ki, o vaxtlar müstəbid Rusiya hökumətinin mənəm-mənəm bir dövründə, rus tayfasından savayı türk kimi kiçik millətə etina olunmurdu, türk dilində bir müstəqil cəridə intişarına yol verməyi Peterburq hökumətindən heç gözləmək olmazdı. Xüsusən ki, İran və Osmanlı ilə həmsərhəd olan Qafqaz müsəlmanlarının maarifinin qüvvətlənməyinə Rusiya hökuməti heç vaxt yol vermək istəməzdi. Bununla bərabər Məhəmməd ağa qəzetinin icazəsini aldı və nə tövr aldı, bu mənə məlum deyil. Ancaq mənə, Məhəmməd ağanın vətəninin övladına, bu məlumdur ki, o vaxtlar ədibimiz qəzet məşqinə düşəndə, mən eşitdim ki, Məhəmməd ağa atadan qalma mülkünün ev hissəsini satıb 18 min manata və bu pulu alıb gedib Tiflisdə qəzet nəşr etsin».

Səhifə 421. «Necə ki, ərz olundu, Qafqazda müsəlmanlar içində türkcə qəzet tək bir «Şərqi-Rus» idi. Bu da ki, məlumdur, Tiflisdə bina olunmuşdu və orada da çıxmaqda idi. Bakı şəhəri, o milyonlu və mədənli Bakı şəhəri öz qəhrəman yazıçıları ilə, öz Əhmədbəy Ağayev, Əlibəy Hüseynzadə, Haşım bəy Vəzirov, Məmmədəmin Rəsulzadə, doktor Qarabəy Qarabəyov, şair Müznib, Hacı İbrahim Qasımov, Cəfər Bünyadzadə və qeyri kimi əhli-qələmləri ilə uzaqdan Tiflisə baxıb onun gündəlik «Şərqi-Rus» qəzetinə həsrət aparırdılar».

Səhifə 426. «Məcmuəmizi yadda saxlayanlar bilirlər ki, birinci nömrəsinin bir səhifəsində, 1906-cı ildə aprel ayının 6-da erməni-müsəlman davasının qızğın vaxtlarında bir belə şəkil çəkmişik: bir müsəlman kəndlisi öz inəyini bir rus soldatına təklif edir və əvəzində onun tüfəngini istəyir. Buradaca bir erməni kişisi yenə həmin tüfəngli soldata bir paçka əskinaz pul təklif edir və onun tüfəngini istəyir. Bu şəkil özü erməni-müsəlman davasında, bu iki tayfanın bu davaya hazırlaşmaq həvəsini bərabər mizanda göstərir. Və xah o vaxtlar, xah ondan sonra, illər uzunu bu iki qonşunun bir-birinə olan ədavətini və onların bir-birilə vuruşmağını tədqiq etdikdə bunu gördük ki, əgər burada bir qəbahət varsa, o qəbahətə bu iki millət müsavi surətdə şərikdir. Və əgər bunların birisi bigünah və məzlumdursa, o biri də habelə günahsızdır...

...Bir tərəfdən erməni-müsəlman davası bizi camaat işinə qarışmağa və iki millətin ədavətini söndürmək yolunda əlləşməyə məşğul edirdi, bir tərəfdən də Rusiya hökumətinin yapon müharibəsindən zəif düşdüyü fürsət sayıb əzilmiş millətlər baş qaldırmağa başlamışdılar və hərə öz tələbatını ortalığa qoyub hökumətə ariz olmuşdu. Bir qədər vaxt ruznaməyə sahib olmağa ümidimiz gəlmirdi: çünki keçmişdə minlərcə zəhmətə düçar olub, bağlanan türk cəridələrini nəzərə alıb, bu barədə tamamən naümid idik. Bilirdik ki, türk mətbuatını gözləri götürməyən sansorlar, qaraxanov və kişmişovlar hələ ölməyiblər. Və nə qədər ki, onlar ölməyiblər və sansorluqda vardırlar, ruznaməyə izn ala bilsək də bir şey yaza

bilməyəcəyik. İzn almaq da çox çətin bir əmr idi. Bunu gördük ki, Hacı Zeynalabdin kimi o əsrin pəhləvanı «Həyat» qəzetinə izn hasil eləmək üçün Peterburqa, padşah yanına Bakıdan məxsusi adam göndərməyə məcbur oldu».

Səhifə 442. «...Elə ki, birinci nömrəmiz Təbriz şəhərində intişar olundu, camaat bir-birinə dəydi və dükan-bazarı bağlayıb məscidlərə cəm oldular. Vaveyla və şəriətə! «Molla Nəsrəddin» «istixarə»ni məsxərəyə qoyub! Əgər fazili-möhtərəm Siqətil-islam ortalığa düşməsə idi və avamı başa salmasa idi ki, «burada Molla Nəsrəddinin məqsədi gülmək deyil, fahişəxanaların məzərrətini göstərməkdir», bilmirəm axırda nə qiyamət qopacaq idi. Söylədiyim Siqətil-islam haman Siqətil-islamın doğma qardaşıdır ki, onu Şücaüddövlə məlunun əsrində Təbrizdə rus hökuməti, qeyri bir neçə azadixah mücahidlər ilə bir yerdə dar ağacından asdırıb edam etdirdi.

Həmin ixtarımızda ikinci nəsihətimiz bu idi ki, camaat dəmir qələm ilə və rus mürəkkəbilə idarəmizə kağız yazmasın. Təbriz mürəkkəbi ilə yazsın. Bunun mənası bu idi ki, o vədə iman əhlinin əksəri rus mürəkkəbini murdar hesab edib, ondan qaçırdılar və Təbrizdən gələn qara rəngə qəmişi batırıb diz üstə hıqqına-hıqqına yazı yazırdılar».

M.C.Bağırov Q.Məmmədovun yazdığı məktubu oxuyub, onu yanına çağırdı. Nədənsə, söhbəti C.Məmmədquluzadədən deyil, M.Ə.Sabirdən saldı: -Sabirdən hansı şeiri əzbər bilirsən?

Q.Məmmədov dərhal cavab verdi:

-Dərsə gedən bir uşaq...

M.C.Bağırov şeiri yarımçıq saxladı:

-Bunu dərsə getməyən uşaq da bilir. Sabirin xalqımız barədə bu misralarını əzbərləmək çətindir?

Millət necə tarac olur-olsun, nə işim var,
Düşmənlərə möhtac olur-olsun, nə işim var.

-Füzulidən nə bilirsən?

-Şəbü-hicran yanar canım...

-Bəs bunu kim yazıb:

Cənnəti almaq olmaz axça ilə,
Girmək olmaz behiştə rüşvət ilə.

-Yoldaş Bağırov, bu sətirlər gərək ki, S.Ə.Şirvaninindir.

-Nə Füzulini mütaliə etmisən, nə Seyid Əzimi?..Yaxşı, bunu kim yazıb?

Məyus olma, amandır,
Məyus olmaq yamandır,
Qorxaq diləksiz yaşar,
Millətim qəhrəmandır.

-Yoldaş Bağırov, gərək ki, Abbas Səhhət...

-Gərəksiz-filansız, Məhəmməd Hadinindir.

M.C.Bağırov məktubu əlinə aldı:

-İndi də deyirsən, C.Məmmədquluzadənin yazdıqlarını redaktə etsinlər? Axı o bu əsərləri yazanda nə Əhmədbəy Ağayev, nə Əlibəy Hüseynzadə, nə də digərləri sənin məktubunda deyildiyi kimi, «pantürkist və millətçi» adlandırılmırdı. Yaxşı, Hüseyn Cavidin atası hardan biləydi ki, oğlu «pantürkist» olacaqdır?

Sənin məktubundan elə çıxır ki, 1952-ci ildə 1937-ci ilin qanunları ilə işləməliyik. Onda gərək Rəsulzadənin Bakıya gəlmiş və Seyid Hüseynin ailəsində sığınacaq tapmış qız nəvəsini sürgünə göndərək?

Tağıyevin qəbrini yox edək? Leninqraddan bizə pənah gətirmiş qızı Saranı işsiz qoyaq, küçələrə ataq? Sənin «məsuliyyətsiz» dediyin Əvəz Sadıqov və Əziz Mirəhmədov istedadlı adamlardır. Yemelyanova tapşıraq ki, onları cəzalandırsın?

Q.Məmmədov başını aşağı salmışdı, alnında tər damcılanırdı. M.C.Bağırovun sözləri sırğa kimi qulaqlarından asılırdı:

-Belə məktubları yazmamışdan əvvəl mütləq məsləhətləş. Kitab üzərindən qadağanı götür və dərhal yayılmasına nəzarət et. Məktubun da işə alınsın.

1952-ci il yanvar ayının 19-da «işə alınmış» məktubda adları çəkilənlərin taleyi necə olmuşdur?

«Azərnəşr»də bədii ədəbiyyat şöbəsinin müdiri işləmiş Əvəz Sadıq Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi bürosunun qərarı ilə yeni nəşr olunan «Kirpi» satirik jurnalının redaktoru vəzifəsinə irəli çəkilmişdir. M.C.Bağırovun məhkəməsindən 3 ay sonra, 1956-cı il avqust ayının 27-də dünyasını dəyişmişdir.

M.C.Bağırovun Azərbaycana rəhbərliyi illərində müxtəlif vəzifələrdə işləmiş, o cümlədən «Azərnəşr»də baş redaktor olmuş Əziz Mirəhmədovun 2000-ci il fevral ayının 11-də 80 yaşı tamam oldu. Təəssüflər olsun ki, 1949-cu ildə «Məhəmməd Hadi» mövzusunda namizədlik dissertasiyası yazmış, 1952-ci ildə C.Məmmədquluzadənin «Külliyyatı»nı hazırlamış qocaman alimin 80 illiyi prezident fərmanı ilə geniş qeyd edilmədi, təltif olunmadı. Görünür, əsrin sonunda rəhbər dairələr Əziz Mirəhmədova münasibətdə 1952-ci ildə yazılmış və M.C.Bağırov tərəfindən rədd edilmiş məktubu nəzərə almışlar.

M.C.Bağırov dövründə olduğu kimi, başqa rəhbərlərin vaxtında da Azərbaycanda müasir mətnşünaslıq elminin banisi Əziz Mirəhmədov «məddahlıq» mətni yazmamışdır. Böyük alim həmişə elmi həqiqətin keşiyində durmuşdur.

***

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Q.Məmmədov haqqında bir sıra sənədlərlə tanış olmaq mümkündür. Onun 1941-ci il martın 3-də öz dəsti-xətti ilə yazılmış tərcümeyi-

halından aydın olur ki, 1905-ci ildə Bakıda anadan olmuşdur. Atası Cəfər Balaxanı neft mədənlərində fəhləlik etmişdir, 1923-cü ildə vəfat etmişdir.

Q.Məmmədov 10 yaşından əmək meydanına atılmışdır. Dəmirçi, pinəçi və bərbər yanında şagirdlik etmişdir. 1919-cu ildə Binəqədidəki Səlimov çörəkxanasında muzdla işə girmişdir.

Sovet hakimiyyəti illərində mətbuat orqanlarında fəaliyyət göstərmişdir. «Gənc işçi» qəzetində məsul katib, məsul redaktor, «Kommunist» qəzetində şöbə müdiri, məsul katib, redaktor müavini və məsul redaktor işləmişdir. Müharibə illərində Azərbaycan KP MK-nın təbliğat və təşviqat üzrə katibi olmuşdur. 1945-ci ildə Ali Partiya Məktəbində təhsil almışdır. Təhsilini başa vurduqdan sonra Azərbaycanda yenə də məsul vəzifələrdə çalışmışdır. SSRİ Ali Sovetinə deputat seçilmişdir.

Arxiv sənədlərində Q.C.Məmmədovun ictimai-siyasi fəaliyyətinin bir çox məqamları əksini tapmışdır.

Azərbaycan Kommunist (bolşevik) Firqəsi Mərkəzi Komitəsinin 1940-cı il 19 mart tarixli qərarında oxuyuruq:

**«Kommunist» (Azərbaycan dilində) qəzetinin redaktoru barədə:**

Q.C.Məmmədov Bakı şəhər Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin katibi işindən azad olunmaqla, «Kommunist» (Azərbaycan dilində) qəzetinin redaktoru vəzifəsinə təsdiq edilsin.

Bu qərar təsdiq olunmaq üçün ÜİK(b)P MK-ya göndərilsin.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

«Kommunist» qəzetinin redaktoru Q.C.Məmmədov eyni zamanda əvəzçiliklə «Fəhlə-kəndli müxbiri» jurnalının redaktoru vəzifəsində də çalışmışdır.

1951-ci il mayın 14-də M.C.Bağırovun imzaladığı qərarla Q.Məmmədov «Kommunist» qəzetinin redaktorluğundan azad edilərək yeni vəzifəyə irəli çəkilmişdir - Azərbaycan K(b)P MK-nın təbliğat və təşviqat şöbəsinin müdiri təyin olunmuşdur.

M.C.Bağırovun respublikaya rəhbərliyinin son ili olan 1953-cü ildə imzaladığı sənədlər arasında həmin ilin mart ayının 26-da qəbul edilmiş bir qərar da vardır:

«Azərbaycan SSR Mədəniyyət Nazirliyinin yaradılması barədə».

Bu qərarla Q.Məmmədov nazirin birinci müavini vəzifəsinə təsdiq edilmişdir.

Həyatın mənasını xalqına namusla xidmət etməkdə görən təcrübəli mətbuat işçisi və dövlət xadimi Q.Məmmədov Azərbaycanın ilk mədəniyyət naziri Ələkbərov Məmməd Həmid oğlu ilə əl-ələ verərək yeni fəaliyyət meydanına atılmışdır.

Təəssüflər olsun ki, M.C.Bağırov vəzifədən kənarlaşdırıldıqdan sonra onun sədaqətli silahdaşlarından biri olan Q.Məmmədov da haqsız böhtanlara sipər olmuşdur. Yazıçı-jurnalist Əli İldırımoğlu «Közərən sətirlər» kitabında o günləri

xatırlayaraq belə yazır: «Bir dəfə redaktor məni yanına çağırdı və: -Əlindəki işləri kənara qoy, yuxarıdan ciddi tapşırıq var. Tutarlı bir felyeton yazmalısan, - dedi, - Q.Məmmədovu tanıyırsan? Qabaqlar Mərkəzi Komitənin ideoloji sahəyə baxan katibi işləyib. Ordan çıxandan sonra bir müddət bizim «Kommunist» qəzetində redaktor olub. Hazırda mədəniyyət nazirinin müavinidir. Qulağım çalıb ki, ordan da əkmək istəyirlər. Başa düşdün də nə demək istəyirəm?! Məsələ belədir. - əlavə etdi, - Q.Məmmədov mədəniyyət nazirinə müavin keçəndən sonra bir pyes yazıb. Həmin pyesi 3 min manata Naxçıvan teatrına sırıyıb. Ancaq əsər zəif olduğuna görə səhnəyə qoyulmayıb. Məni SK-a çağırmışdılar. Bu faktları ordan veriblər. - Redaktor içərisində müxtəlif sənədlər olan nazik qovluğu mənə uzatdı. - Diqqətlə oxu, - dedi, -Naxçıvana qayıdanda ətraflı yoxlayarsan. Teatrın direktoru ilə görüş, aktyorlarla söhbət et, onlar əhvalat necə olub deyərlər. Təcili yaz və birbaşa da mənim üstümə göndər.

Redaktorun bu ciddi tapşırığından sonra yazacağım felyetonun ictimaiyyət tərəfindən necə qarşılanacağı barədə əvvəlcə öz-özümə sual verdim. - Pah atonnan! Müxbirdəki cürətə bax ey! «Kommunist» qəzetinin redaktoru olan nazir müavinini gör nə kökə salıb ey!!! Malades! - Heç şübhəsiz ki, burnunun qabağını görməyən, dayaz düşüncəli oxucular belə deyəcəklər. Bəs babam Məşədi Paşa, atam İldırım nə deyərdi?! - Əli, axı sənə o cür öyüd verməmişik. Adam var, dəvəni dəngiynən yeyir, heç üstünü vuran yoxdur. İndi o yuxarıdan aşağı düşmüş Q.Məmmədovun ya qəlbinə şeytan dolub, ya da ehtiyacdanmı üzüqaralıq eləyib, qəpik-quruş qazanmaq üçün bir qəlp iş tutub. Onu nahaq rüsvayi-cahan eləmisən. Kişi yıxılana balta vurmaz! Özü də nəyin üstdə! Vallah, billah, Q.Məmmədov Mərkəzi Komitənin katibi işləsəydi, indi o artistlər heç nədən bir konsert düzəldib qoymuşdular ortalığa. O pyes qüsurlu olsa da belə artistlər onu bəzəyib, düzəldib səhnəyə çıxarardılar ki, baxanda deyərdin, Şekspir, C.Cabbarlı onun yanında yalandır. Yəqin bu işə pəl vuranlar elə o Mərkəzi Komitənin ab-havasından iy çəkənlərin özləridir. Pyesi üzə çıxarmağa qoymurlar ki, başları ağrıyar. Ay Əli, guya sən bilmirsən ki, taxtından düşənin sözü qızıl olsa da, köpük qədər qiymət vermirlər?! Dünən o Q.Məmmədovun kabinetinə əyilə-əyilə girib, qabağında ləbbeyk deyənlər bu gün onun kölgəsini qılınclayır. İndi də özləri kənarda durub, səni qabağa verirlər. Tikana yaba etmək istəyirlər. İnsaf da yaxşı şeydir! Bir vaxt redaktor olduğu qəzetdə onun barəsində nə üzlə felyeton vermək istəyirlər?!»

Əli İldırımoğlu Q.Məmmədov haqqında felyeton yazmaqdan imtina etmişdir. Lakin nazir Məmməd Qurbanovun 1956-cı il fevralın 7-də Mərkəzi Komitəyə yazdığı arayış öz işini görmüşdür. Bu yazılı məlumatdan sonra Azərbaycan KP MK katibi İmam Mustafayev tərəfindən həmin il aprel ayının 6-da imzalanmış qərarda oxuyuruq:

«Azərbaycan SSR mədəniyyət nazirinin müavini Məmmədov Qəzənfər Cəfər oğlu işinin öhdəsindən gəlmədiyi üçün vəzifəsindən azad edilsin.

Mədəniyyət naziri M.Qurbanova tapşırılsın ki, bir həftə ərzində Q.Məmmədovu respublika mədəniyyət nazirliyi sistemində işlə təmin etsin».

Mədəniyyət naziri bu tapşırığa əməl etməmişdir.

MK katibi İ.Mustafayev üç həftədən sonra, 1956-cı il aprelin 27-də alicənablığını qərarla təsdiqləmişdir.

**«Təbliğatçı» jurnalının redaktoru barədə**

«Azərbaycan KP MK orqanı «Təbliğatçı» jurnalının redaktoru vəzifəsinə Qəzənfər Cəfər oğlu Məmmədov təsdiq edilsin.»

MK-nın 1960-cı il 26 fevral tarixli qərarı ilə Q.Məmmədov «Azərbaycan kommunisti» jurnalının redaktoru təsdiq edilmişdir. Bir il sonra, 1961-ci il oktyabrın 10-da 56 yaşlı əməksevər insana təqaüdə çıxması barədə ərizə yazmaq təklif olunmuşdur.

***

...Günlərin bir günü təqaüdçü Q.Məmmədov qəzet vitrini qarşısında ondan 6 yaş böyük olan bir qadınla rastlaşmışdır. Əlindəki çantadan bu biçarənin kim olduğunu tez yəqin etmişdir. Qadın da Q.Məmmədovu tanımışdır. Dərdi açılmışdır, şikayətlənmişdir:

- Məni Axundov institutunun kitabxanasında işdən çıxarmışlar. Yoldaş Q.Məmmədov, kömək edə bilərsinizmi bir yerə işə düzəlim?

Q.Məmmədov bu sual qarşısında daşa dönmüşdü. Yadına 1952-ci il yanvarın 19-da M.C.Bağırov ilə söhbəti düşmüşdü: «Deyirsən Leninqraddan bizə pənah gətirmiş Saranı işsiz qoyaq, küçələrə ataq?»

«Əsrin pəhləvanı» H.Z.Tağıyevin qızı küçələrə düşmüşdü. Çünki M.C.Bağırov yox idi...

1998-ci ilin yanvarında «əsrin pəhləvanı»nın anadan olmasının 175 illiyi tamam oldu - yada düşmədi.

1999-cu ilin mayında «əsrin pəhləvanı»nın əzabkeş qızı Sara xanımın anadan olmasının 100 illiyi tamam oldu -yada düşmədi.

1999-cu ilin sentyabrın 1-də «əsrin pəhləvanı»nın vəfatından 75 il keçdi. Xatırlanmadı. Niyə? Çünki əsrin sonunda əsrin həqiqi pəhləvanlarının boş qalmış yerini comərdlik iddiasında olan yalançı pəhləvanlar tutmuşlar...

Əfsuslar olsun ki, yalançı pəhləvanların «qazlı su dəyirmanlarına şərbət qatanlar» arasında bəzi qəzet redaktorları da vardır. Onlar köhnə dəyirman daşlarına yenə də M.C.Bağırovun adını qara hərflərlə yazmaqda davam edirlər.

2000-ci ilin mayında İkinci dünya müharibəsində faşizm üzərində qələbənin 55 illiyi qeyd olundu. Azərbaycanda ən adi döyüşçü belə xoş sözlərlə anıldı. Ədalətsizlik isə M.C.Bağırova qarşı oldu. Həm də bu ədalətsizliyi «Ədalət» qəzeti etdi. Qəzetin 29 aprel-2 may 2000-ci il tarixli sayında baş redaktor Aqil Abbas Berlinədək şərəfli qəhrəmanlıq yolu keçmiş 416-cı Azərbaycan diviziyasını belə qiymətləndirir: «Yazırlar ki, M.C.Bağırov millət üçün xüsusi bir diviziya yaradıb -

416-cı diviziya. Ona Taqanroq diviziyası da deyirlər. Görəsən, M.C.Bağırov bu diviziyanı yaratmaqla azərbaycanlıları ölümün pəncəsindən xilas edib, yoxsa ölümün pəncəsinə verib?

Müharibə vaxtı hər polka deyək ki, 7-8 azərbaycanlı düşürdü. 1000 adamın içində 10 adamın sağ qalması ehtimalı daha çoxdur. Amma bütöv diviziyanın hamısı azərbaycanlılardan təşkil edilir və müharibənin ən ağır nöqtələrinə göndərilir. Və qırılanların yeri də azərbaycanlılarla doldurulur. Nemes qırdıqca, azərbaycanlılar eşalon-eşalon papalneniyə gedir»,

Bu şər nağıla «papalneniye» etməyə ehtiyac yoxdur.

Müharibə illərində bir çox dövlət xadimlərinin övladları ön cəbhələrdə idilər. Ancaq respublika rəhbərləri arasında yalnız M.C.Bağırovun oğlu yaralandıqdan sonra hərbi xəstəxanadan birbaşa düşmənlə vuruşa yollanmışdı...

Cahangir Mir Cəfər oğlu Bağırov 1919-cu il oktyabrın 6-da anadan olmuşdu. Orta məktəbi bitirdikdən sonra ordu sıralarına göndərilmiş, 1938-ci ildə Yeysk şəhərindəki hərbi dəniz-təyyarəçilik məktəbini bitirmişdi. Müharibə başlayanda Cahangir leytenant idi, sorağı Serpuxov ətrafındakı ağır döyüşlərdən gəlirdi. Gənc azərbaycanlı şahin partiya sıralarına keçirilmişdi.

1943-cü ilin əvvəllərində Cahangir Bağırov düşmənlə hava döyüşündə sol qolundan yaralansa da, təyyarəsini ustalıqla yerə endirdi, təslim olmadı. Yaralı şahini digər əsgərlərlə birlikdə Bakıdakı hərbi xəstəxanaya gətirdilər... Həmin ilin fevral ayının 4-də Cahangirin atasına yazdığı məktub 40 ildən sonra mətbuat səhifələrinə düşdü: «Əziz ata! 2 ay yarımdır ki, mən öz yerimdə sayır, indi bu qədər qiymətli olan çörəyi yeyirəm. Vətənimizin təhlükədə olduğu, minlərcə gəncin döyüş bölgəsində nə canını, nə qanını əsirgəmədiyi bir vaxtda müşahidəçi mövqeyindəyəm. Halbuki mən ən şiddətli döyüş yerlərində olmalıyam. Çünki sənin oğlunam, Vətənimin oğluyam, Partiyamızın oğluyam.

Əgər sən bilsən ki, mən adamların gözlərinə baxanda necə xəcalət çəkirəm, cavan, sağlam adam olsam da arxa cəbhədə vaxt keçirirəm... Ata, səndən xahiş edirəm ki, mənim cəbhəyə qayıtmaq məsələmin həllini sürətləndirəsən. Mənə burada bildirirlər ki, 2 ay yarım da gözləyim, yeni təyyarədə havaya qalxım... Mən isə hətta U-2 təyyarəsində uçmağa hazıram. Yalnız fəallyyətsizlik, döyüşdən qalmaq məni sıxır.

Səbrsizlikiə cəbhəyə göndəriləcəyim günü gözləyirəm. Sübut edəcəyəm ki, sənin oğlun sənə və vətəninə layiqdir. Bərk-bərk öpürəm. Sənin Cahangirin».

...Peşəkar təyyarəçi Cahangir Bağırov yenidən ön cəbhəyə yollandı. Alayda heç kəs bilmirdi ki, komandanlığın ən müşkül görünən tapşırığını dəqiq yerinə yetirən bu qaynar baxışlı şahin Azərbaycan rəhbərinin oğludur.

1943-cü il iyun ayının əvvəli idi. Cahangir Bağırovun xidmət etdiyi hissə hərbi obyektimizi bombalamağa qalxan faşist təyyarələrini məhv edirdi. Düşmən təyyarələrinin qarşısına çıxan Cahangir Bağırov hər dəfə qələbə ilə qayıdırdı. İyunun 5-də növbəti əməliyyat zamanı C.Bağırov qəfildən 11 alman təyyarəsi ilə

üzbəüz gəldi. Qeyri-adi məharətlə bunlardan yeddisini vurub yerə saldı. Yanacağı tükəndiyindən ölümün gözünə dik baxaraq təyyarəsini faşist təyyarəsinə vurdu...

Cəbhə qəzetlərində dərc olunmuş materiallarda C.Bağırovun qəhrəmanlıqla həlak olması, onun ölümündən sonra Lenin ordeni ilə təltif olunmağa təqdim edilməsi göstərilirdi. Azərbaycanda isə yalnız iyulun 8-də respublika qəzetlərində nekroloq dərc olundu. Oxucular ilk dəfə idi ki, M.C.Bağırovun oğlunun şəklini görürdülər. Əfsuslar ki, qara haşiyədə.

1943-cü il iyunun 6-da alman-faşist işğalçılarının cinayətlərini təhqiq və müəyyən edən fövqəladə komissiyanın sədri Nikolay Şvernik M.C.Bağırova zəng vuraraq, onun oğlunun rəşadətlə həlak olması xəbərini çatdırmış, səmim-qəlbdən başsağlığı vermişdi, Ölümündən sonra Lenin ordeni ilə yanaşı Sovet İttifaqı Qəhrəmanı -Qızıl Ulduz medalı ilə də təltif olunacağını bildirmişdi. Bunu da əlavə etmişdi ki, komandanlığın əmri ilə igid şahinin cənazəsi öz Vətəninə - Azərbaycana göndərilir.

M.C.Bağırov cavabında demişdi:

-Nikolay Mixayioviç, başsağlığı üçün minnətdaram. Ancaq xahiş edirəm Lenin ordeni ilə kifayətlənəsiniz. Bir də müharibənin sərt qanunlarına riayət etməyi rica edirəm, Vətən yolunda canından keçənlərin hamısı mənim balalarımdır, oğlumun həlak olduğu torpaqda basdırılmasına ata kimi etiraz etmirəm.

N.M.Şvernikin bu sözləri telefon danışığını tamama yetirmişdi:

-Yoldaş M.C.Bağırov, təltif barədəki xahişinizi nəzərə almaq olar. Ancaq ikincisi... gecdir. Tabut artıq hərbi təyyarədədir və Bakıya istiqamət götürmüşdür.

...Cahangir Bağırovun cənazəsinin Bakıya gətirilməsinin bilavasitə təşkilatçısı olan Həzi Aslanov M.C.Bağırova təklif etmişdi ki, mərhum Dağüstü parkda dəfn edilsin. Azərbaycan rəhbəri Azərbaycan Ordusunun sərkərdəsinə «baxarıq» cavabını vermişdi. Həmin gün sübhdən Bakının Dağüstü parkından xeyli aralıda, Yasamal qəbristanında sinə daşında «Cahangirdən və Mir Cəfərdən yadigar» yazılmış bir məzarın yanında təzə bir qəbir qazılırdı. Cahangirin əbədiyyət beşiyini anası yırğalayacaqdı. Bunu, şəhid oğlun atası M.C.Bağırov məsləhət görmüşdü...

Dünyadan nakam gedən 24 yaşlı Cahangir Mir Cəfər oğlu Bağırovun 1999-cu il oktyabrın 6-da təvəllüdü günündən 80 il keçdi. Nə televiziya ekranlarında, nə də mətbuat səhifələrində xatırlandı.

2000-ci ilin may ayında, faşizm üzərində qələbənin 55-ci ildönümü ərəfəsində iyirmi cildlik «Azərbaycan Respublikası Xatirə kitabı»nın ikinci cildi nəşr olundu. Familiyası «B» hərfi ilə başlayanlar arasında təkcə bir nəfərin - Bağırov Cahangir Mir Cəfər oğlunun adı yoxdur.

Yasamal qəbristanlığında uyuyan Cahangirin günahı nədir? Günahı ondadır ki, M.C.Bağırovun oğludur. Bəs M.C.Bağırovun günahı nədir? Bu suala Aqil Abbas «Ədalət» qəzetinin 3-5 may 2000-ci il tarixli sayında məqaləsinin sərlövhəsi ilə cavab verir:

«M.C.Bağırov müsavatçı olub».

***

Zaman göstərir ki, partiya mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın milli dəyərlərini əməllərində yaşadanlar xalqımızın yaddaşına hakim kəsilirlər. M.Ə.Rəsulzadə də, M.C.Bağırov da əsrimizin belə tarixi şəxsiyyətləridir.

Vaxtilə M.Ə.Rəsulzadə yazmışdı: «Diriliklərin ən qiymətlisi milli dirilikdir». M.C.Bağırov isə bu kəlamı Azərbaycana rəhbərliyi dövründə sübuta yetirmişdir. 1933-cü il dekabr ayının 10-da M.C.Bağırov respublikanın ilk azərbaycanlı rəhbəri olanda, ətrafındakılar, demək olar ki, qeyri-azərbaycanlılar idilər. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivindəki sənədlərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1934-cü ildə keçirilən büro iclaslarında iştirak edənlərin tərkibinə diqqət yetirin: Qulbis, Sef, Purnis, Rusavskiy, Rodionov, Sanayskiy, İvanov, Poqonov, Blyumzak... 15 il keçdikdən sonra, 1949-cu ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin 5 nəfər katibinin beşi də azərbaycanlı idi: Mir Cəfər Bağırov, Həsən Seyidov, Qəzənfər Məmmədov, Həsən Həsənov, Sultan Qafarzadə.

***

Milli dəyərlərimizin canlı rəmzi olan Bakı Dövlət Universitetinin iki yaradıcısı vardır - Məhəmməd Əmin Rəsulzadə və Mir Cəfər Bağırov.

1918-ci il dekabr ayının 7-də Azərbaycan parlamentinin təntənəli açılışında Azərbaycan Xalq Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadə demişdi: ««Müsavat» partiyası birinci olaraq, Azərbaycanın müstəqilliyi bayrağını yüksəyə qaldırmışdır. Beləliklə, müsəlman partiyaları arasında Azərbaycan ideyasında fikir ayrılığı yoxdur. Xalqın şüurunda Azərbaycan ideyası artıq möhkəmlənmişdir». Bu sözlərdən 8 ay sonra, 1919-cu il sentyabrın 1-də ADR parlamenti böyük öndərin bir arzusunu da həqiqətə çevirmişdir - Bakı Universitetinin təsis edilməsi barədə qərar qəbul olunmuşdur. Universitetin ilk rektoru professor Vasili İvanoviç Razumovski yazırdı ki, Azərbaycan öz ali maarif ocağını yaratdı. Türk xalqının tarixinə yeni parlaq səhifə yazıldı. Avropa ilə Asiyanın qovşağında yeni çıraq yandı. Bu, Rəsulzadənin sayəsində, onun gücü, maarifçilik səyləri ilə mümkün oldu.

Əfsuslar ki, «Avropa və Asiyanın qovşağında yeni çıraq» 10 ildən sonra, 1930-cu ildə söndürüldü.

Azərbaycan K(b)P MK katibliyinin həmin il 30 mart tarixli qərarı ilə ADU-nun fəaliyyətinə son qoyuldu. Universitetin tibb fakültəsi Azərbaycan Tibb Universitetinə, pedaqoji fakültəsi isə Ali Pedaqoji İnstituta çevrildi. Əslində bu ali təhsil ocaqlarını, eləcə də digərlərini ADU-nu ləğv etmədən də yaratmaq olardı. Məsələ siyasi mahiyyət daşıyırdı. Müsavat vaxtında təşkil olunmuş ali məktəb bağlanmalı idi! Bunu da göstərmək lazımdır ki, nə Ermənistanda, nə də Gürcüstanda universitetlər ləğv olunmamışdı.

...ADU-nu 4 ildən sonra, 1934-cü ildə «müsavatçı» M.C.Bağırov cana gətirdi.

1934-cü il mayın 7-də Azərbaycan rəhbərinin imzaladığı qərar belə adlanırdı: «Azərbaycan Dövlət Universitetinin təşkil edilməsi barədə». Qərarda deyilirdi:

1.Bakıda Azərbaycan Dövlət Universitetinin təşkil olunması zəruri sayılsın.

2.Pedaqoji fəhlə fakültəsinin binası (Kommunist küç. 6) universitetə verilsin və pedaqoji fəhlə fakültəsi Fioletov küçəsində Dövlət Bankının boşalan binasına köçürülsün.

3.Bakı Sovetinə təklif edilsin ki, Dövlət Bankının binasını Xalq Maarif Komissarlığının sərəncamına keçirsin və pedaqoji fəhlə fakültəsinə dəxli olmayan şəxslərin və təşkilatların həmin binaya köçməsinə yol verilməsin.

M.C.Bağırovun imzaladığı başqa bir qərarda deyilir: **«Azərbaycan Dövlət Universiteti üzrə:**

a) Bakı Pedaqoji Fəhlə fakültəsinin ləğv olunması və onun tələbələrinin Azərbaycan SSR Xalq Maarif Komissarlığı Bakı Pedaqoji Texnikumunun müvafiq siniflərinə qəbul edilməsi barədə Azərbaycan SSR Xalq Maarif Komissarlığının təklifi qəbul edilsin.

Pedaqoji Fəhlə fakültəsinin boşalan binası avqustun 1-dən gec olmayaraq, ADU-nun sərəncamına verilsin.

b) Eyvazov yoldaşa (Dövlət Plan Komitəsi), Şahbazov yoldaşa (Xalq Maarif Komissarlığı) və İsmayılov yoldaşa (MK) bir vəzifə olaraq tapşırılsın ki, xalq təhsili kadrlarının ixtisasını artıran institutun yerləşdirilməsi üçün Krasnopresnenskaya küçəsindəki 43 nömrəli binanın ikinci mərtəbəsinin tikilməsi məsələsini 2 gün ərzində həll etsinlər.

v)Xalq Maarif Komissarının müavini İ.İbrahimov yoldaşa, Baqdasarov yoldaşa (Azərkommunaltikinti) bir vəzifə olaraq tapşırılsın ki, ADU-nun tələbələri üçün yataqxananın (Kolodeznaya küçəsi) tikintisini avqustun 20-dək başa çatdırsınlar, universitetin rektoru Həsənbəyov yoldaşa bir vəzifə olaraq tapşırılsın ki, yataqxananın sentyabrın 1-dək lazımi avadanlıqla təchiz olunmasını təmin etsin.

q)Xalq Yerli Sənaye Komissarlığına (Allahverdiyev yoldaşa) və Nərimanov adına Sənaye Texnikumunun direktoruna (Quliyev yoldaşa) təklif edilsin ki, Nərimanov adına Texnikumun binasının üçüncü mərtəbəsində 4 otağı dərs məşğələləri üçün iyulun 15-dək ADU-nun sərəncamına versinlər».

Qeyd etmək lazımdır ki, qərarda adı çəkilən Həsənbəyov 1935-ci il yanvar ayının 20-də ADU-nun rektoru vəzifəsinə təyin edilmişdir. Universitetin ilk rektoru isə K.M.Ələkbərli olmuşdur.

2000-ci il fevral ayının 10-da «Bakı universiteti» qəzeti «BDU-nun salnaməsindən yarpaqlar» sərlövhəsi ilə ayrıca bir səhifə vermişdir Burada BDU-nun ilk rektoru V.İ.Razumovskidən tutmuş ta hazırkı başçısı A.İ.Məhərrəmovadək bütün rektorlar barəsində qısaca məlumat dərc olunmuşdur. 1934-1937-ci illəri

əhatə edən dövrdəki siyahıda M.K.Ələkbərlidən sonra Əziz Əliyev gəlir. Həsənbəyov ixtisara düşmüşdür. Hansı səbəbə? Axı «Bakı Universiteti» nəşriyyatının 1991-ci ildə ADU-nun yaradılmasının 70 illiyi ilə əlaqədar tarixçi alim Aslan Atakişiyevin «BDU-nun tarixi» kitabının birinci cildində universitetin rektorları sırasında B.Həsənbəyovun da adı və fotosu verilmişdi. O ki qaldı Əziz Əliyevə, o, vur-tut bir neçə ay universitetin rektoru vəzifəsini icra etmişdir. Bu barədə Ə.Əmiraslanov və F.İslamzadənin «Azərbaycan Tibb Universiteti» kitabında («Təbib» nəşriyyatı, 2000-ci il) dürüst yazılmışdır:

«Ə.Əliyev 1934-cü ilin mart ayında səhiyyə işlərini canlandırmaq məqsədilə Bakı Şəhər Səhiyyə Şöbəsinin müdiri təyin edilir. Lakin az keçməmiş, 1935-ci il yanvarın 14-də yenidən Tibb İnstitutunun rektoru vəzifəsinə qaytarılır. Bu müddətdə (8 ay ərzində) institutun rektoru vəzifəsini professor Müseyib Hüseynov yerinə yetirib. Ə.Əliyev bir müddət (1937-ci ildə) Tibb İnstitutunun rektoru vəzifəsi ilə birlikdə Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsini də icra etmişdir...»

Adı 2000-ci il yubiley siyahısına düşməyən Balabəy Cabbar oğlu Həsənbəyov Azərbaycanın ilk iqtisadçı alimlərindəndir. Professor universitetin rektoru təyin olunanda 36 yaşı vardı. O vaxtlar M.C.Bağırov MK-da yeganə türk oğlu türk olduğu kimi, Balabəy Həsənbəyov da ADU rəhbərliyində tək bir azərbaycanlı idi. Mərkəzi Döviət Arxivində 1935-ci ildə tərtib olunmuş bir siyahı saxlanır. Burada ADU-dakı professorların familiyalarına diqqət yetirin: Həsənbəyov B.C., Tixomirov B.N., Qubaydulin A.S., Nikolayev Y.S., Kuznetsov P.İ., Krasusskiy KA, Qrossqeym A.A., Şutov D.A., Yelpatevskiy V.S., Yelkin L.İ., Saar Q.P., Oksner A.N., Krvanko A.S., Buxştab A.A., Trivus A.A. və başqaları.

M.C.Bağırovun xeyir-duası ilə ADU-nun rektoru vəzifəsində çalışan Balabəy Həsənbəyov əməli fəaliyyətində çox böyük çətinliklərlə üzləşirdi. Azərbaycanın hakimiyyət orqanlarında işləyənlərin bir çoxu Azərbaycan K(b)P MK bürosunun Universitetə aid qərarlarını vaxtında yerinə yetirmək istəmirdilər.

1936-cı il iyul ayının 26-da professor Həsənbəyovun Azərbaycan K(b)P MK-nın məktəb şöbəsinin müdir müavini Ozerov yoldaşa göndərdiyi məktubda oxuyuruq: «Azərbaycan K(b)P MK Bürosu bu il iyulun 7-də Azərbaycan Dövlət Universiteti üzrə qərar qəbul etmiş və həmin qərarda aşağıdakılar bir vəzifə olaraq tapşırılmışdır:

a)Xalq Maarif Komissarlığı pedaqoji fəhlə fakültəsinin binasını bu il avqustun 1-dən gec olmayaraq ADU-nun sərəncamına versin;

b)Eyvazov, Şahbazov, İsmayılov yoldaşlar Krasnopresnenskaya küçəsindəki 43 nömrəli binada ixtisasartırma institutu üçün nəzərdə tutulan ikinci mərtəbənin abadlaşdırılması məsələsini gün ərzində həll etsinlər;

v)Xalq Maarif Komissarının müavini İbrahimov yoldaş və Azərkommunaltikintinin direktoru Baqdasarov yoldaş ADU üçün nəzərdə tutulan yataqxananın tikintisini bu il avqustun 20-dək başa çatdırsınlar;

q)Xalq yerli sənaye naziri Allahverdiyev yoldaş və Nərimanov adına Texnikumun direktoru Quliyev yoldaş 3-cü mərtəbədə 4 otağı bu il iyulun 15-dən gec olmayaraq ADU-nun sərəncamına versinlər.

Qərarda icraçıların və icra müddətlərinin konkret göstərilməsinə baxmayaraq, bircə bəndi də yerinə yetirilməmişdir. İyun ayı qurtarır və dərs ili bu il sentyabrın 1-də başlanmalıdır. Əgər yaxın günlərdə qərarın bütün bəndləri yerinə yetirilməsə, məşğələlərin normal şəraitdə başlanması pozulacaqdır. Xahiş edirəm, bütün yoldaşlara tapşırılsın ki, MK-nın qərarında onlara həvalə olunmuş vəzifələri dərhal yerinə yetirsinlər».

ADU-nun Partiya Komitəsinin katibi Mnatsakanova isə Voroşilov rayon komitəsinin gizli tapşırıqlarını yerinə yetilirdi - universitetdə əksinqilabi millətçi təşkilatların üzvlərini aşkara çıxarmalı!

1936-cı il aprel ayının 8-də Mnatsakanovanın Voroşilov rayon partiya komitəsinin katibinə ünvanladığı məktubda deyilir:

**AK(b)P Voroşilov rayon komitəsinin ikinci katibi Okinşeviç yoldaşa**

Tarix fakültəsinin birinci kurs tələbəsi, 1932-ci ildən AK(b)P üzvü Qara Sadıqovun ərizəsini Sizə göndərirəm. Ərizədə tarix fakültəsinin birinci kurs tələbəsi Sərvər Bədəlbəylinin əksinqilabi fitnəkarlığından bəhs edilir.

Sərvər Bədəlbəyli bitərəfdir, keçmiş müəllim oğludur. 1936-cı il yanvarın əvvəlində o, tələbə Qara Sadıqov ilə söhbətində açıq-aşkar millətçilik ruhunda və əksinqilabi ruhda danışmışdır. Bədəlbəylinin bu hərəkəti barədə yoldaş Sadıqov partiya komitəsinə vaxtında məlumat verməmişdir. Yalnız bu il martın 29-da ADU-nun ümumi partiya yığıncağında Talıblının millətçilik ruhlu fitnəkarlığı barədə AK(b)P Bakı Komitəsinin qərarı müzakirə olunarkən və ADU-nun ayrı-ayrı tələbələri arasında millətçilik təzahürləri barədə məsələdən danışılarkən Sadıqov Bədəlbəylinin əksinqilabi fitnəkarlığı barədə məsələ qaldırmışdır.

Bədəlbəylinin fitnəkarlığına vaxtında öz münasibətini bildirməməsini və partiya təşkilatına məlumat verməməsini biz Sadıqovun bolşevik sayıqlığının zəifləməsi kimi qiymətləndiririk. Sadıqov bu hərəkətinə görə partiya cəzası almalıdır.

Bu faktdan əlavə 1936-cı ilin fevralında tarix fakültəsinin bəzi tələbələri Bədəlbəyliyə belə bir sualla müraciət etmişdilər ki, nə üçün o, opriçnina haqqında yazılı məruzəsində Trotskinin əksinqilabi nəzəriyyəsini hərtərəfli tənqid etməmişdir? Bədəlbəyli tələbələrin sualına belə cavab vermişdi: «Trotskinin kitabını oxumamışam, buna görə də onun əsərlərini tənqid edə bilmərəm».

Tarix fakültəsi birinci kurs qrupunun xüsusi müşavirəsində fakültənin dekanı yoldaş Tixomirov və partiya təşkilatçısı yoldaş Tyutin Trotskinin əsərlərini öyrənmək barədə məsələnin Bədəlbəyli tərəfindən bu şəkildə qoyulmasının yolverilməz olduğunu izah etmiş və demişlər ki, biz bütün tarixi marksizm banilərinin əsərləri əsasında öyrənməli və trotskizmin əksinqilabi mahiyyətini ifşa etməliyik.

1936-cı il martın 10-da komsomola daxil olmaq barədə ərizə vermişdir. Lakin Bədəlbəylinin ərizəsi rədd edilmişdir.

Komsomola daxil olmaq barədə onun verdiyi ərizənin müzakirə edildiyi iclasda Bədəlbəyli sinfi mübarizəni inkar etmiş və bunu ölkəmizdə siniflərin ləğv olunması ilə əsaslandırmışdır.

Bizə məlumdur ki, Bədəlbəyli tarix fakültəsinin ikinci kursunda oxuyan millətçi əhval-ruhiyyəli bəzi tələbələrlə əlaqə saxlayır. Qazıyev belə tələbələrdəndir. O, tarix fakültəsinin kafedralarına nümayəndələr seçilərkən, açıq-aşkar şovinist ruhlu təklif irəli sürmüşdür. O təklif etmişdir ki, yığıncaq iki hissəyə ayrılmalı, türklər türk namizədə, ruslar rus namizədə səs verməlidirlər.

Tarix fakültəsinin partiya təşkilatçısı yoldaş Tyutin Qazıyevin dərsini lazımınca vermişdir. Həmin yığıncaqda Qazıyev qrupun həmkarlar ittifaqı təşkilatçısı vəzifəsindən azad edilmişdir.

Əlavə: Sadıqov yoldaşın ərizəsi.

ADU-nun Partiya Komitəsinin katibi Mnatsakanova».

Universitetin 1936-cı ildə tələbəsi olmuş soydaşlarımızın yazdıqlarını 64 ildən sonra oxuyuruq:

«ADU Partiya Komitəsinin komissiyasına

Tarix fakültəsinin birinci kurs tələbəsi Qara Sadıqov tərəfindən

1936-cı ilin yanvarında tələbə Sərvər Bədəlbəyli ilə söhbət edərkən o dedi: «Azərbaycan İranın və Türkiyənin hökmranlığı altında olsaydı, Azərbaycan türklərinin mədəni səviyyəsi çarizm dövründəkindən və indikindən qat-qat yüksək səviyyəyə çatardı. Türkləri məktəblərə az qəbul edirlər, buna görə də ADU-nun tarix fakültəsində türklər sayca azdır. Tarix fakültəsinin iki qrupa (rus qrupuna və türk qrupuna) parçalanması türkləri ADU-dan xaric etmək məqsədi daşıyır.

Mən istəyirəm ki, «Azərnəşr» Trotskinin kitablarını çap etsin, hamı həmin kitabları oxuyub tənqid edə bilsin. Tixomirov yoldaşın bu məsələlərdən xəbəri var.

Trotskinin kitabları haqqında Tixomirov yoldaş yazdıqlarım barədə isə təkcə mənə danışmışdır.

O, komsomol yığıncağında demişdir ki, hazırda sinfi mübarizə yoxdur.

Sadıqov.

21 mart 1936-cı il».

Voroşilov rayon partiya komitəsinin və universitetin partiya təşkilatının birlikdə «hazırlıq» tədbirlərindən sonra, tarix fakültəsinin dekanı, Həsənbəyovun yaxın dostu Boris Tixomirov həbs olundu. Onun istintaq materiallarında Leninqraddan alınmış arayış da vardı. Orada deyilirdi: «Leninqrad şəhərində məsuliyyətə cəlb olunmuş əksinqilabçı trotskiçilərdən Qarber, Zeydel və başqalarının verdikləri ifadələrə görə XDİK tərəfindən müəyyən edilmişdir ki, B.N.Tixomirov trotskiçi-zinovyevçi təşkilatın üzvüdür».

B.Nikolayeviçin yaxın qohumları Balabəy Həsənbəyova «məxfi» bir məlumat da çatdırdılar. «Azərbaycanda trotskiçi-zinovyevçilərə qarşı mübarizədən

mərkəz narazıdır. Yəqin ki, Bağırov bu yaxınlarda vəzifədən götürüləcəkdir. Deyirlər ki, Azərbaycanda işləri qüvvətləndirmək üçün Mikoyan yoldaş gələcəkdir».

Axşam B.Həsənbəyov şəxsi kitabxanasını nəzərdən keçirdi, əlyazmalarını, qeydlərini vərəqlədi. Birdən kitabların arasından bir vərəq yerə düşdü, əyilib qaldırdı. Orada Nəriman Nərimanovun 1923-cü ildə yazdığı sözləri oxudu: «Mən təsdiq edirəm ki, mənim «Bahadır və Sona» romanım yoldaş Mikoyan hələ daşnak olarkən artıq müvəffəqiyyət qazanmışdı. Onda nə üçün 20 il keçdikdən sonra mən millətçi olmalıyam, yoldaş Mikoyan isə beynəlmiləlçi.» Professor həmin vərəqi cırıb bürmələdi və sobaya atdı. Öz-özünə pıçıldadı: M.C.Bağırov yoldaş vəzifədən getsə, yəqin ki, universiteti yenidən bağlayacaqlar...

1937-ci il yanvarın 28-də universitetin rektoru həbs olundu. Evində axtarış aparılarkən professorun əlyazmalarında Trotskinin əsərlərindən dəlillər gətirildiyi aşkar edilmişdi. Müstəntiqin «bunlar kim tərəfindən yazılmışdır?» sualına əyilməz rektor belə cavab vermişdi: «Özüm yazmışam. Bunlar mənə 1931-ci ildə yazdığım «Azərbaycanda işçi qüvvəsinin təkrar istehsalı problemi» adlı elmi işim üçün lazım olmuşdur».

***

1937-ci ilin noyabrında Cəbrayıl Ağəli oğlu Ələsgərov Bakı Universitetinin rektoru təsdiq edildi. O, 1907-ci ildə Şamaxıda anadan olmuşdu. Azərbaycan Sənaye İnstitutunu bitirmişdi. 30 yaşlı mühəndis-iqtisadçı, həmin ilin dekabr ayında 41 yaşlı respublika rəhbərinin yanında idi. M.C.Bağırov MK-nın universitetə dair çıxardığı qərarların qeyri-qənaətbəxş yerinə yetirildiyini bildirdi. Sonra söhbətin mövzusu milli kadr üzərinə yönəldi. Rektor bu sahədəki çətinliklərdən danışarkən dedi:

- Yoldaş Bağırov, hansı gənc alimin tərcümeyi-halını araşdırırsan, gedib Müsavata çıxır...

M.C.Bağırov rektorun sözünü kəsdi:

- Moskva Universitetində məgər həqiqi alimlərin ata- babası kommunist olub? Axtarsan, ya menşevik, ya eser, ya da digər təmayüllərdən. Sən gənc türk alimlərimizin öz bilik səviyyəsini əsas götür, daha onların əcdadlarının sümüklərini qəbrdən çıxarıb analiz etmə.

Rektor əlindəki bloknotunu açmaq istəyəndə M.C.Bağırov:

- Dediklərimi kağıza yazmaq lazım deyildir, bunları yadda saxlamaq və işdə nəzərə almaq üçün söyləyirəm.

M.C.Bağırov rektorun ona təqdim etdiyi siyahıya göz gəzdirdi. Burada ADU-nun professor-müəllim heyəti əks olunmuşdu. Hiss edilirdi ki, o, ADU-da dərs deyənlərin hər birisini yaxından tanıyırdı. Üzünü C.Ələsgərova tutdu:

-Niyə Cəfər Xəndan, Əşrəf Hüseynov assistent təsdiq edilməyib, Yusif Məmmədəliyevin alimlik dərəcəsi yoxdur? Bunlar üçün rektor kimi məsuliyyət daşıdığınızı unutmayın.

Əslində bu iradlar C.Ələsgərovun ürəyindən idi. Ona görə də cəsarətə gələrək dedi:

- Yoldaş Bağırov, onda icazə verirsinizmi, Tixomirovun yerinə tarix fakültəsinə gənc və istedadlı filosof Mehbalı Qasımovu irəli çəkək?

M.C.Bağırov qətiyyətlə cavab verdi:

Bunun icazəsini məndən niyə istəyirsiniz? Universitetdə bütün fakültələrin və kafedraların, gələcəkdə isə partiya, komsomol təşkilatlarının başında yerli kadrlarımız durmalıdır. - M.C.Bağırovun üzündə təbəssüm sezildi, - bunu da dəftərçənə yazmamaq üçün deyirəm.

Ələsgərov respublika rəhbərinin vaxtını aldığına görə üzrxahlıq etdi. Ayağa qalxmaq istəyəndə M.C.Bağırov dedi:

- Əyləşin, bir sualıma cavab verin: Azərbaycan Universitetinin neçənci rektorusan?

Cəbrayıl müəllim özünü itirən kimi oldu, ürəyində rektorları yada saldı: Razumovski, Davidenko, Qulyayev, Şahbazi, Yelipotevski, Məmmədov, Ələkbərli, Həsənbəyov...

- Doqquzuncuyam, yoldaş Bağırov - cavab verdi.

M.C.Bağırov:

- Mənə başqa sözün yoxdursa, gedə bilərsən, - dedi və ayağa durub xudafizləşəndə əlavə etdi:

- Gələn il doqquzuncu rektoru Azərbaycan parlamentinin ilk rektor deputatı görmək istəyirəm.

1938-ci ilin aprelində MK-da Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədlər siyahısında Cəbrayıl Ağəli oğlu Ələsgərovun da adı vardı.

Azərbaycan Dövlət Universitetinin müəllim və tələbələri isə bu barədə 1938-ci il may ayının 28-də xəbər tutdular. Həmin gün «Kommunist» və «Bakinski raboçi» qəzetlərində dərc olunmuş siyahıda göstərilirdi ki, Azərbaycan Dövlət Universitetinin rektoru. ÜİK(b)P üzvü Ələsgərov Cəbrayıl Ağəli oğlu Şamxor rayonu 156 nömrəli seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd irəli sürülmüşdür.

ADU-nun rektoru C.Ələsgərovun deputatlığa namizədliyi respublikanın ictimaiyyəti arasında rəğbətlə qarşılandı. Ancaq mir cəfərləri və cəbrayılları sevməyənlərin qəzəbinə tuş gəldi, ADU-da çalışan qeyri-azərbaycanlı müəllim və tələbələr adından mərkəzi orqanlara və respublika təşkilatlarına etiraz məktubları yol aldı. ADU-nun komsomol komitəsi katibi Melik-Osipovun və tarix fakültəsinin tələbəsi Kriçevskinin müxtəlif təşkilatlara universitetin tələbələri və komsomolçuları adından göndərilən bəzi məktublarla tanış olun:

«1938-ci il mayın 28-də «Bakinski raboçi» qəzetində Azərbaycan Dövlət Universitetinin rektoru Ələsgərovun Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizəd irəli sürülməsi barədə məlumatı oxuyub heyrətə gəldik. Çünki Ələsgərov bu şərəfə layiq deyildir. Onun bir il ərzində ADU rektoru vəzifəsində yarıtmaz işi dediklərimizə sübutdur:

1.Ələsgərov universitetin müəllimləri və tələbələri arasında hörmətə malik deyildir.

2.Universitetdə xalq düşmənlərinin fitnəkarlığının nəticələri Ələsgərovun rektor kimi nöqsanlı işinin ucbatından aradan qaldırılmamışdır.

3.Universitetə yeni tələbə qəbulu pozulmaq təhlükəsi qarşısındadır.

4.Universitetin çox mühüm bir orqanı olan tədris hissəsi olduqca pis işləyir. Tədris hissəsinə Ələsgərova yaltaqlıq edən bir şəxs başçılıq edir. Universitetin bütün fakültələrində müəllim çatışmazlığı mövcuddur. Bir çox fənlər üzrə tələbələr bu günədək proqramlarla təmin olunmamışlar...

Universitetin aspiranturası biabırçı haldadır, burada dövlətin pulu hərraca qoyulur.

5.Bioloji fakültəyə rəhbərlik edən Məmməd Qasımov işin öhdəsindən gəlmir.

6.İdman kafedrasının, həmçinin böyük müdafiə əhəmiyyəti olan hərbi kafedranın işi bərbad hala düşüb. Bu kafedraların fəaliyyətini yaxşılaşdırmaq barədə universitetin ictimai təşkilatları dəfələrlə rektorluq qarşısında məsələ qaldırıbsa da, Ələsgərov əhəmiyyət verməmişdir.

7.Universitetin kitabxanasının fondları və tarix kabinəsi acınacaqlı vəziyyətdədir. Yeni nəşr olunmuş kitabların alınmasına məhəl qoyulmur. Guya rektorluğun buna vəsaiti yoxdur.

8.Azərbaycanda məşhur olan alimlər universitetdən uzaqlaşdırılır. Məsələn, professor Paxomov, professor Boqaçyov belələrindəndir.

Yuxarıda sadaladıqlarımızdan aydın olduğu kimi, rektor Ələsgərov təiəbələrin məhəbbətini və hörmətini qazanmamışdır. Ələsgərov partiyanın və hökumətin etimadını doğrultmadığı üçün onu Azərbaycan SSR Ali Sovetinin deputatı seçmək olmaz. Biz Ələsgərovun deputatlığa namizədliyinin geri götürülməsini təkidlə tələb edirik. İnanırıq ki, universitet tələbələrinin böyük əksəriyyətinin fikri nəzərə alınacaqdır».

Əlbəttə, L.Melik-Osipov və A.Kriçevski ADU tələbələrinin əksəriyyətinin sözünü ifadə etmirdilər. 1938-ci il iyun ayının 28-də universitetin rektoru Cəbrayıl Ağəli oğlu Ələsgərovun adını Azərbaycan SSR Ali Sovetinin deputatlarının siyahısında gördükdə... onlar «mübarizəni» davam etdirməkdən çəkinmədilər. Arxivdəki «deputatlığa namizəd» və «deputat» Ələsgərov barəsindəki böhtan məzmunlu məktublar biri-birindən fərqlənmir.

1939-cu il yanvarın 1-də ADU-nun «komsomolçularından» Azərbaycan LKGİ-nin Bakı Komitəsi tələbə şöbəsinin müdiri Tofiq Allahverdiyevin adına bu

məzmunda şikayət məktubu daxil olmuşdu: «Universitetimizə uzun zaman xalq düşmənlərinin rəhbərlik etməsi bütün tədris və tərbiyə işlərinin pozulması ilə nəticələnmişdir. Ələsgərovun şəxsində yeni rektor qarşıya qoyulan vəzifələrin öhdəsindən gələ bilməmişdir.

Bu günədək universitetdə ziyankarlığın kökü kəsilməmişdir. Moskvadan gəlmiş bir sıra müəllimlər indiyədək mənzil ilə təmin olunmamışdır, buna görə də onlar universitetdə işləməkdən imtina etmişlər.

Ələsgərov bilərəkdən tələbələr arasında narazılıq yaradır. Məsələn, ilin yarısında 95 nəfər tələbə təqaüddən kəsilmişdi, əsas da bu idi ki, maddi cəhətdən təminatlıdırlar. Sonradan onların hamısı təqaüdlə təmin edilmişdir.

Ələsgərov kobuddur, ADU-nun müəllimləri və tələbələri arasında nüfuzu yoxdur.

Biz aşağıdakı təxirəsalınmaz tədbirlərin görülməsini lazım bilirik:

1.Universitetdə hökm sürən vəziyyəti araşdırmaq üçün xüsusi komissiya yaradılsın.

2. Universitetdə rəhbərlik - ilk növbədə rektor və tədris işi üzrə prorektor dəyişilsin.

3. Göstərilən vəzifələrə universitet əməkdaşlarından ən münasibi bunlardır: rektor vəzifəsinə - tarix fakültəsinin dekanı Mehbalı Qasımov, prorektor vəzifəsinə - ADU-nun elmi katibi Quliyev».

**Beləliklə, melik-osipovlar və kriçevskilər başqa bir iyrənc işə qurşandılar - M.C.Bağırovun xeyir-duası ilə universitetdə namusla işləyən iki azərbaycanlının arasını vurmaq istədilər və vurdular da. ADU-nun rektoru Cəbrayıl Ələsgərov ilə tarix fakültəsinin dekanı Mehbalı Qasımov arasındakı münaqişə arxiv sənədlərində də iz buraxmışdır.**

***

Mehbalı Qasımov ilə Cəbrayıl Ələsgərov arasındakı yaş fərqi az idi - bir il dekan rektordan böyük idi, 1906-cı ildə anadan olmuşdu. Bu da maraqlıdır ki, C.Ələsgərovun rektorluğu illərində Mehbalı Qasımov 1937-ci ildə Azərbaycan K(b)P Mərkəzi Komitəsi tərəfindən təsdiq olunmuş ilk dekandır. Onun tarix fakültəsinin dekanı vəzifəsinə təsdiq olunması üçün tərtib olunmuş və üzərində foto-şəkli bərkidilmiş arayışda oxuyuruq: Mehbalı Məmməd oğlu Qasımov 1926-1928-ci illərdə Naxçıvan MSSR Kənd Təsərrüfatı Texnikumunda təhsil almış, 1928-1930-cu illərdə Azərbaycan diviziyasında hərbi xidmətdə olmuşdur. 1930-1931-ci illərdə Naxçıvan MSSR fəhlə-kəndli müfəttişliyində çalışmışdır. 1931-ci ildə o, Moskvaya - Krupskaya adına Kommunist Tərbiyəsi Akademiyası nəzdindəki fəhlə kurslarına göndərilmişdir. 1933-cü ildə Mehbalı Qasımov Moskva Tarix, Fəlsəfə və Ədəbiyyat İnstitutunun fəlsəfə fakültəsinə daxil olmuş və 1937-ci ildə oranı müvəffəqiyyətiə bitirmişdir.

Həmin arayışa əlavə edilmiş iki xasiyyətnamə də Mehbalı Qasımovun gənclik illərində coşğun fəaliyyətini və biliyini əks etdirir. 1931-ci il mart ayının 20-də Azərbaycan diviziyasının rota komandiri Kərimovun və hərbi komissar Ələsgərovun imzaladıqları xasiyyətnamədə deyilir: Qasımov yoldaş Qızıl Ordu sıralarında özünü nümunəvi və fəal döyüşçü kimi göstərmişdir. Rota komandanlığı tərəfindən təşəkkür almışdır. Türk hərbi müxbirləri arasında ən yaxşılarından biridir.

1937-ci il iyul ayının 25-də Moskva Tarix, Fəlsəfə və Ədəbiyyat İnstitutunun rektoru A.Karpovun və fəlsəfə fakültəsinin dekanı A.Qaqarinin imzaladıqları akademik xasiyyətnamədə oxuyuruq:

«Qasımov yoldaş tələbə ikən institut partiya təşkilatının tapşırığı ilə ÜİK(b)P Moskva şəhəri partiya komitəsinin ştatdankənar təbliğatçısı olmuş, həmçinin Moskvanın sənaye müəssisələrində metodiki iş aparmışdır. M.Qasımov yoldaşın yerlərdəki ictimai fəaliyyəti müsbət əks-səda doğurmuşdur.

Qasımov yoldaş 1937-ci il may-iyun aylarında dövlət imtahanında əsas fənlər üzrə aşağıdakı qiymətləri almışdır:

1.Dialektik materializm - əla.
2.Tarixi materializm - əla.
3.Fəlsəfə tarixi (antik, yeni və müasir) -əla.
4.Siyasi iqtisadiyyat - kafi.
5.Leninizm - əla.
6.

M.Qasımov aspiranturadan imtina edərək, Bakıya qayıtmışdır. C.Ələsgərov rektor təyin olunmamışdan 2 ay əvvəl, 1937-ci il sentyabrın 1-dən Azərbaycan Dövlət Universitetində leninizmdən dərs deməyə başlamışdır. Yeni rektor yaradıcı təfəkkür tərzinə malik olan gənc filosofu dekanlıqdan kafedra müdiri vəzifəsinə məsləhət bilmişdir.

Voroşilov rayon komitəsinə ünvanlanmış xasiyyətnamədə Ələsgərovun və ADU-nun partiya təşkilatlarının katibi Novixinin imzası vardır. Xasiyyətnamədə göstərilir ki, M.Qasımov ADU-nun partiya komitəsinin üzvüdür. Universitetin ictimai-siyasi həyatında fəal iştirak edir. Partiya cəzası yoxdur. Heç bir siyasi yanlışlığa yol verməmişdir. İşə vicdanla yanaşır. M.Qasımov ADU-nun tarix və dialektik materializm kafedrasının müdiri vəzifəsinə tövsiyə edilir.

Lakin bir il keçməmiş M.Qasımovdan Voroşilov rayon partiya komitəsinə tamamilə başqa məzmunda məktublar daxil olmağa başlamışdır. Arxivdə saxlanılan belə sənədlərdən bəzilərinə diqqət yetirin:

**«Azərbaycan K(b)P Voroşilov rayon komitəsinin katibinə**

Azərbaycan Dövlət Universiteti tarix fakültəsi dekanlığının katibəsi F.B.Lifşist tərəfindən

## ƏRİZƏ

Mən 1938-ci il fevralın 15-dən ADU-nun tarix fakültəsi dekanlığının katibəsi vəzifəsində işləyirəm. 5 ay keçdikdən sonra, iyul ayının 1-də, məzuniyyətə çıxmaq ərəfəsində rektor məni yanına çağırdı, namusla və səliqəli işləyən işçiyə bunları dedi: «Frida, dekan haqqınızda yazıb ki, vəzifənizin öhdəsindən gəlmirsiniz».

Mən rektora bildirdim ki, bu heç cürə ola bilməz. Hətta naşı olsaydım da, bu 5 ayda püxtələşərdim.

Bununla da aramızdakı söhbət bitdi və rektor mənə işimi davam etdirməyi tapşırdı.

Məzuniyyətdən qayıdıb dekanlıqda öz vəzifəmi yerinə yetirməyə başladım. Bir neçə gündən sonra mənim dekanım, yəni M.Qasımov bildirdi ki, «işə başdansovdu yanaşdığıma görə mənə axırıncı xəbərdarlıq edilməklə töhmət elan edilməsi barədə» əmr hazırlayım.

Mən deyilən məzmunda əmri hazırlayıb dekana göstərmədən, ADU-nun işlər idarəsinə apardım və əmr rektora çatdırıldı. Dekanlığa qayıdıb rektorun dərkənarını dekana göstərdim. Dekan heç dərkənara da baxmadı. Ərz elədi ki, elə bu saat iş yerimi tərk edim və bir daha dekanlıqda görünməyim.

Mən yenə də rektorun yanına getdim, dedim ki, M.Qasımov məni dekanlıqdan qovub-çıxardı. Ələsgərov yoldaş ona zəng vurub danışdı, mənə bildirdi ki, işimdə qalacağam.

Fakültəyə gələndə M.Qasımov mənə bir üz göstərdi ki... Dedi: «Mən səni işdən qovmuşam və işə götürməyəcəyəm. Ayağın buraya dəyməsin. Rektora da bu sözləri çatdıra bilərsən!

Sizdən xahiş edirəm ki, işə qarışasınız və mənə kömək edəsiniz.

İmza: Lifşist.

3.IX.38-ci il.»

Dekanlığın katibəsinin şikayət məktubu ADU-nun partiya komitəsinin katibi Novixinə göndərilmişdir. Ərizənin baxılmasının nəticəsi barədə sentyabrın 5-dək məlumat verilməsi tapşırılmışdır. Universitetin rektoru C.Ələsgərov tarix fakültəsi dekanının Lifşisti işdən azad etmək barədə 1938-ci il 3 sentyabr tarixli 3 nömrəli əmrini rəsmən ləğv etmiş və Lifşistin sentyabrın 3-dən 8-dək işdə olmadığı günlərin əmək haqqını dekan M.Qasımovun hesabına ödənilməsi barədə göstəriş vermişdir.

Sözsüz ki, C.Ələsgərovun mövqeyi M.Qasımovu hövsələdən çıxarmışdı. O, universitet tarixində rektorla dekan arasındakı münasibətlərdə misli-bərabəri olmayan bir sənəd hazırlamışdır:

«ADU-nun rektoru Ələsgərov yoldaşa

Mənim işə götürdüyüm Bünyadzadənin işdən kənarlaşdırılması səbəbləri barədə izahat verməyinizi xahiş edirəm. Tarix fakültəsinin dekanı M.Qasımov

11 sentyabr1938-ci il».

1938-ci il sentyabrın 11-də - dekanın rektordan izahat tələb etdiyi gündə, universitetin başqa bir otağında dekandan şikayət məktubu yazılmışdır. Tanış olun:

«ADU-nun Partiya Komitəsinə

ÜİK(b)P üzvü, tarix fakültəsinin V kurs tələbəsi Cümşüd Həsənov tərəfindən

**ƏRİZƏ**

Mən 1938-ci il sentyabrın 8-də ADU-nun rektorunun əmri ilə tarix fakültəsinin laborantı təyin olunmuşam, lakin həmin gündən fakültənin dekanı M.Qasımov məni işə buraxmır. Dəfələrlə xahiş etməyimə baxmayaraq, M.Qasımov heç bir səbəb olmadan və rektorun əmrini nəzərə almadan laborant işləməyimə icazə vermir. Üstəlik M.Qasımov mənimlə davranışında kobudluq göstərir.

Partiya Komitəsindən xahiş edirəm ki, M.Qasımov yoldaşın düzgün olmayan hərəkətləri pislənilsin.

İmza: Həsənov Cümşüd».

Universitetin partiya komitəsinin katibi Novixin sentyabrın 13-də dördüncü kurs tələbəsinin ərizəsinə belə bir dərkənar yazmışdır: «Movsesyan yoldaşa. Ərizəçinin işə buraxılmaması səbəblərini araşdırın».

Sentyabrın nəhs günündən başlayaraq, M.Qasımova qarşı hücuma rəvac verilmişdir. Dünən rektor C.Ələsgərovu günahlandıran melik-osipovlar bu gün M.Qasımovu təqsirləndirən movsesyanlara çevrilmişdir. Azərbaycanlı dekan isə soydaşı rektoru öz rəqibi sayırdı.

1938-ci il iyun ayının 16-da M.Qasımov Voroşilov rayon partiya komitəsinin katibi Bloxinə bu məzmunda məktub yazmışdır:

«ADU-nun rektoru bolşevikcəsinə tənqidi xoşlamadığından, partiya komitəsində onun məruzəsindən sonra mənim kəskin çıxışımı qeyri-normal hesab etdi, mənə qarşı böhtançı mövqeyi tutdu. Bu böhtanların mahiyyəti aşağıdakılarla izah olunur:

1.Mənim dekan kimi fəaliyyətə başladığım müddətdə tarix fakültəsində müəyyən nailiyyətlərin olmasına məhəl qoymayaraq, rektor partiya komitəsində bəyan etdi ki, M.Qasımov dekan seçildikdən sonra tarix fakültəsində işlər tamamilə pozulmuşdur.

2.Partiya komitəsinin iclasında məni nəzərdə tutaraq, ərz etdi ki, görünür, bəzi adamları vəzifədən uzaqlaşdırmalı olacağıq.

3.Tarix fakültəsinin təqaüddən kəsilmiş bir tələbəsinə (Volozova) demişdir ki, rektor onun təqaüdünü bərpa edə bilər, bu şərtlə ki, dekan başqa bir tələbəni təqaüddən çıxarmalıdır, dekan isə söz-söhbətdən ehtiyat edərək buna yol vermir. Bu sözlər mənim ünvanıma deyilmişdir.

Ələsgərov ümumi partiya iclasında bildirdi ki, bunları hirsləndiyindən demişdir.

Xahiş edirəm mənim düşdüyüm vəziyyəti dərindən dərk edəsiniz və ədalətli nəticəyə gələsiniz. Bunu söyləməyi özümə borc bilirəm: mənim üçün nə kimi şərait yaradılmasından asılı olmayaraq, universitetdə işləyə bilməyəcəyəm. Çünki mən canlı insanam və hər bir ağlı başında olan canlı insan belə böhtanlarla barışa bilməz».

1938-ci il iyun ayının 27-də ADU-nun partiya komitəsinin iclasında Ələsgərov-Qasımov münasibətlərinə baxılmışdır. İclasın protokolundan çıxarışda oxuyuruq:

«İclas qərara alır:

1.M.Qasımov fəaliyyətə başlayandan sonra tarix fakültəsində işlərin tamamilə pozulması barədə Ələsgərovun partiya komitəsində dedikləri qeyri-düzgün və böhtan xarakterli hesab edilsin.

2.Partiya komitəsində Ələsgərovun «ancaq indi mənə bəlli oldu ki, burada qruppabazlıq vardır, tezliklə təmizləmə aparılmalıdır» sözlərinin partkomun üzvü olan M.Qasımov yoldaşa aidiyyatı yoxdur.

3.Ələsgərov həqiqətən fakültə dekanlarının nüfuzunun aşağı salınmasına gətirib-çıxaran hərəkətlərə yol vermişdir.

4.Fakültənin dördüncü-beşinci kurslarını professor- müəllim heyətilə təmin etmək barədə M.Qasımov yoldaş tərəfindən təklif edilmiş tədbirlərə Ələsgərov başdansovdu münasibət göstərmişdir.

5.M.Qasımov yoldaşın işdən azad olunmaq haqqındakı ərizəsi rədd edilsin və ona tapşırılsın ki, yeni tədris ilini tam hazırlıqla qarşılamaq üçün fakültədəki mövcud nöqsanları tezliklə aradan qaldırsın.

Partiya komitəsinin katibi Novixin M.T.

Tarix fakültəsinin ilk azərbaycanlı dekanını vəzifəsində saxlayanların iç üzü yeni tədris ilində açıldı. Sən demə, onların məqsədi M.Qasımovu dekanlıqdan...DTK zirzəmisinə aparmaq, Universitetin partiya komitəsinin üzvünü «trotskiçi» kimi qələmə vermək imiş. 1937-ci ildə Azərbaycan K(b)P MK-nın məktəb və elm şöbəsində keçirilmiş müşavirələrin protokollarının M.Qasımova aid yoxlama materiallarına əlavə edilməsi də bu məqsədi güdürdü. Həmin müşavirə protokolunu 63 il keçdikdən sonra oxuyarkən M.Qasımovun nə qədər savadlı və dönməz olduğunun bir daha şahidi olursan. Protokolun kiçik bir hissəsinə diqqət yetirin:

«Dinlənildi:

Komissiyanın məlumatı və M.Qasımov yoldaşın ərizəsi.

**Okinşeviç** - Tələbələrin mühazirə dəftərlərini yoxlayarkən, bir sıra səhv fikirlərin yazılması aşkar olunmuşdur. Məsələn, tələbə Çernomordikin dəftərində belə yazılmışdır: «..,trotskiçilər əvvəllər əksinqilabçı olmamışlar, ancaq sonra onlar (trotskiçilər) əksinqilabçılara çevrildilər». Mən, əlbəttə, şübhə etmirəm ki, M.Qasımov yoldaş məsələni belə izah etməmişdir, Bununla belə, deməliyəm ki, sayıqlığı itirmək, tələbələrin tərkibini nəzərdən qaçırmaq olmaz. Məsələn,

müəyyən edilməliydi ki, dəftərinə bu cür sözlər yazan Çernomordik hansı yuvanın quşudur.

Bundan başqa, M.Qasımov yoldaş öz mühazirələrində demişdir ki, 1924-cü ilə qədər kənddə sosialist münasibətləri olmamışdır. Bu, məsələnin tamamilə yanlış qoyuluşu deməkdir.

**Ayryan** - Əgər M.Qasımov məsələni belə qoyur ki, 1924-cü ilədək kənd təsərrüfatında sosialist münasibətləri yaranmamışdır, çox ciddi siyasi səhvə yol verir. Sosialist münasibətləri kənddə 1917-ci ildən başlayır.

**M.Qasımov** - Okinşeviç yoldaş Stalinin əsərlərində köhnə və yeni trotskizm barədə bir söz deməmişdir. Bu, sadəcə olaraq, Stalinin əsərləri ilə bilavasitə tanış olmamaq deməkdir».

Tarix fakültəsində baş verən bütün hadisələr, hətta tələbələrin xəstələnməsi halları və dərsə gəlməməsi də M.Qasımovun ayaqqabısının «dekan» dabanına yazılmışdır. Lifşistdən sonra dekanlığın katibəsi olan Xublarovanın imzası ilə yoxlama komissiyasına göndərilmiş bu arayış da həmin məqsədlə tərtib edilmişdir:

«1938-ci il oktyabrın 1-dən noyabrın 5-dək tarix fakültəsi üzrə üzrsüz səbəblərə görə dərs buraxılışı:

III kurs
Rəcəbov - 11 saat
Heydərov - 32 saat
Osipov- 132 saat
Cəmi - 175 saat

II kurs
Avanesyan - 21 saat
Arutyunov- 12 saat
Salevonçik- 12 saat
Cəmi 45 saat

I kurs
Tarusova -13 saat
Avakimova -16 saat
Xaçaturyan - 11 saat
Minasyan - 10 saat
Mamedov- 10 saat
Yaqubov- 15 saat
Cəmi - 75 saat
Fakültə üzrə: 295 saat».

Yoxlama materiallarında M.Qasımovun bütün yaxın qohumlarının keçmişi barədə də məlumatlar toplanmışdır.

ADU-nun partiya təşkilatının, Voroşilov rayon partiya komitəsinin və Mərkəzi Komitənin məktəb və elm şöbəsinin birlikdə təşkil etdikləri yoxlamanın nəticələri belə ümumiləşdirilmişdir:

«Son vaxtlar ADU-da bizim tərəfimizdən tarix fakültəsinin dekanı M.Qasımov başda olmaqla, partiyaya zidd olan qrup müəyyən edilmişdir.

M.Qasımov siyasi cəhətdən şübhəli ünsürləri ətrafında toplayaraq, ADU-nun partiya və komsomol təşkilatlarını yuxarı rəhbər orqanlara qarşı qoymuşdur».

Bəli, fəlsəfə elminin dərinliklərinə qəvvas kimi baş vuran gənc alim girdaba düşmüşdü.

Ümidi ancaq və ancaq bir nəfərə qalmışdı. Dekabrın soyuq günlərindən birində gecə yarı aşağıdakı məktubu yazdı. Zəmanəmizin böyük filosoflarından birisinin dəst-xəttilə tanış olun:

**«Azərbaycan K(b)P MK birinci katibi Bağırov yoldaşa**

Yoldaş Bağırov! Sizdən xahiş edirəm ki, məni 15-20 dəqiqəliyə qəbul edəsiniz. O zaman yəqin edəcəksiniz ki, mən kiməm və bəzi adamlar nə üçün məni xalq düşməni - kimi qələmə verirlər. Əgər indi Siz şəxsən bu məsələ ilə məşğul olmasanız, mənim haqqımda yalana əsaslanan saxta sənədlər tərtib olunacaqdır.

Yoldaş Bağırov! Mən bu məsələlər içərisində dolaşıb-qalmışam. Xahiş edirəm düşdüyüm vəziyyətdən çıxmaq üçün kömək edəsiniz.

Yoldaş Bağırov! Vicdanıma and içirəm ki, mənim damarlarımda bir damcı belə olsun əksinqilabçı qanı yoxdur.

Məni əslində partiyaya zidd adamların böhtanlarına görə partiya sıralarından kənar etmək istəyirlər. Qardaşım haqqındakı sənədləri Sizə təqdim edirəm.

O, Naxçıvan MSSR-də milis rəisi işləmişdir və banditlərə qarşı mübarizədə həlak olmuşdur.

Yoldaş Bağırov! Mən hər şeyi məktubda yaza bilmirəm. Bir daha xahiş edirəm ki, məni qəbul edəsiniz, mənim səhvlərimi deyəsiniz və bu səhvləri əməli fəaliyyətimdə aradan qaldırmaq üçün mənə imkan verəsiniz.

Yoldaş Bağırov! Sizə and verirəm ki, mənim heç bir zaman hər hansı bir düşmən ünsürləri ilə heç bir əlaqəm olmamış və yoxdur. Xahiş edirəm bunu şəxsən özünüz yoxlayıb yəqin edəsiniz».

M.C.Bağırovla M.Qasımovun söhbəti 15-20 dəqiqə deyil, 2 saat çəkdi.

M.Qasımovun taleyində möcüzə baş vermişdi: Azərbaycan rəhbəri tarix fakültəsinin ilk azərbaycanlı «trotskiçi» dekanını «əjdahanın» ağzından xilas edə bilmişdi.

Ötkəm dekan ilə rektor arasındakı əlbəyaxa çarpışmaya isə... müharibə son qoydu.

***

1941-ci il iyun ayının 22-də Cəbrayıl Ələsgərov Azərbaycan SSR Ali Sovetinin deputatlan olan digər şəxslər - Səməd Vurğun, Bülbül, Rəsul Rza, Mirzə İbrahimov, İsmayıl Hidayətzadə ilə birlikdə M.C.Bağırovun yanında idilər. Onlar respublika rəhbərindən xahiş edirdilər ki, düşmənlə döyüş meydanına göndərilsinlər. M.C.Bağırov millətin dəyərli şəxsiyyətlərini müharibənin alovlarından qoruyub saxlaya bildi, onların hər birinə öz döyüş səngərini müəyyən edib göstərdi.

Arxiv materiallarından göründüyü kimi, ADU-nun ilk deputat rektoru C.Ələsgərov müharibə illərində Azərbaycanın maarif nazirinin müavini vəzifəsində çalışmış, Azərbaycandan İrana göndərilən məsul işçilər arasında olmuşdur.

C.Ələsgərova aid son sənəd 1944-cü ilə məxsusdur.

Azərbaycan K(b)P MK özünün 1-3 aprel 1944-cü il tarixli büro iclasında «Təbriz şəhərində onillik məktəb təşkil olunması barədə» qərar qəbul etmişdir. Qərarı M.C.Bağırov imzalamışdır.

Qərarda göstərilir ki, Təbrizdə açılacaq onillik məktəbdə dərslər Azərbaycan dilində keçiriləcəkdir. Təhsil pulsuzdur. Məktəbin direktoru vəzifəsinə 1931-ci ildən partiya üzvü, Azərbaycan SSR maarif nazirinin müavini Cəbrayıl Ağəli oğlu Ələsgərov təsdiq edilmişdir.

Tarix fakültəsinin ilk azərbaycanlı dekanına müharibə illərində mayor Qasımov kimi müraciət edirdilər. O, Zaqafqaziya cəbhəsinin siyasi idarəsinin qəzet redaktoru idi.

***

ADU-nun tarix fakültəsinin ilk azərbaycanlı «trotskiçi» filosofu müharibədən sonra da M.C.Bağırovun qayğısı ilə əhatə olunmuş, şərəfli və mərdanəliklə dolu ömür yolunu vüqarla davam etdirmişdir. Azərbaycan Elmlər Akademiyası Fəlsəfə İnstitutunda işləməklə yanaşı respublika partiya məktəbində müəllimlik etmişdir. Azərbaycanca-rusca lüğət tərtib edərək nəşr etdirmişdir. Bir çox alimlərin girişə bilmədikləri bir mövzuya əl atmışdır: «Ömər Xəyyamın fəlsəfi dünyagörüşü» adlı dissertasiyasını bitirərək müvəffəqiyyətlə müdafiə etmişdir.

Sonra ADU-nun fəlsəfə kafedrasının rəhbəri olmuşdur, həmin vəzifədə 1962-ci ildə dünyasını dəyişmişdir.

Kəşməkeşli həyat yolu keçmiş filosof sağlığında Azərbaycanın əməkdar elm xadimi adına layiq görülmüşdür, altı cildlik «Fəlsəfə tarixi»nin müəlliflərindən biri kimi şöhrətlənmişdir. 1979-cu ildə isə... Azərbaycan Sovet Ensiklopediyasının üçüncü cildində altı cildlik «Fəlsəfə tarixi»nin müəlliflərindən ən sanballısına bircə abzasdan ibarət olan məqalə həsr olunmuş, foto-şəklinə yer tapılmamışdır. 1996-cı il may ayının 18-də 90 il bundan əvvəl Naxçıvanın Əbrəqunis rayonunun Xoşkeşin kəndində dünyaya göz açmış məğrur şəxsiyyətin yubiley yaşı unudulmuşdur.

* * *

Müharibə illərində ADU yenə də bağlanmaq təhlükəsi qarşısında qalmışdı. Ancaq bu dəfə 1930-cu il qərarı baş qaldıra bilmədi. Müsavat yadigarını yenə də M.C.Bağırovun bu sözləri xilas etdi: «Bakı Universiteti nəhəng elm və təhsil ağacıdır. Bu ağacı rişələrindən qoparıb atmaq olmaz, onun budaqlarının çoxalmasına çalışmalıyıq».

Belə də oldu. Azərbaycan Dövlət Pedaqoji İnstitutu, Azərbaycan Qiyabi Pedaqoji İnstitutu, Xalq Təsərrüfatı İnstitutu, Xarici Dil Müəllimləri İnstitutu, Azərbaycan Bədən Tərbiyəsi İnstitutu Azərbaycan Dövlət Universiteti ilə birləşdirildi, köklü ağacın budaqları şaxələndi.

1944-cü il yanvarın 3-də M.C.Bağırov ADU ilə əlaqədar digər mühüm qərara imza atdı - «S.M.Kirov adına ADU-da Şərq xalqları tarixinin və Şərq dillərinin öyrənilməsi tədbirləri haqqında». Bu qərardan sonra universitetin filologiya fakültəsində iranşünas və türkoloqlar hazırlayan Şərq şöbəsi açıldı. Başqa sözlə desək, M.C.Bağırovun imzaladığı qərarla əslində BDU-nun 1919-cu ildə mövcud olmuş «Tarix-filologiya» fakültəsindəki «Osmanlı ədəbiyyatı tarixi» bərpa olundu. Həmin ildə Müsavatın lideri M.Ə.Rəsulzadənin dərs dediyi fakültədə indi də Həmid Araslı kimi şərqşünaslar tələbə auditoriyalarında göründülər.

M.C.Bağırov haqqında Müsavat liderinin yazdığı bir şair və ədəbiyyatşünası - Cəfər Xəndanı ADU-nun rektoru təyin etmişdir.

Cəfər Xəndan universitetə rektor təyin ediləndə 40 yaşında idi, 1934-cü ildən ADU-da dərs deyirdi. M.C.Bağırova yaxşı bəlli idi ki, Cəfər Zeynal oğlu Hacıyev öz gərgin zəhməti hesabına respublikanın qabaqcıl elm xadimlərindən biri olmuşdu. Onun tərcümeyi-halına və əmək fəaliyyətinə dair arayışa M.C.Bağırov göz gəzdirirdi: 1910-cu ildə Yerevan şəhərində müəllim ailəsində anadan olmuşdur. 1918-ci ildə Hacıyevlər ailəsi Ermənistandan Azərbaycana köçmüş, Gəncədə yaşamışdır. Ata-anasını erkən yaşlarında itirən Cəfər 1925-ci ilədək Gəncə uşaq evində qalmışdır. Pedaqoji texnikumu bitirmiş, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutuna daxil olmuşdur. Tələbə ikən həm də fəhlə fakültəsində müəllimlik etmişdir. 29 yaşında alimlik dərəcəsi adına layiq görülmüşdür...

Bəli, BDU tarixində ilk dəfə olaraq filologiya fakültəsinin dekanı rektor vəzifəsinə irəli çəkildi. M.C.Bağırov dövrünün sonuncu rektoru 1961-ci il avqustun 10-da qəflətən vəfat etdi.

1954-cü ildən 2000-ci ilədək BDU-nun on bir rektoru olmuşdur. Onların arasında Cəfər Xəndandan sonra ixtisasca filoloq olanı yoxdur...

***

M.C.Bağırov nəinki universitetin rektor və dekanlarının, professor və müəllimlərinin, adicə tələbələrinin də taleyinə biganə qalmamışdır. Bu da maraqlıdır ki, M.C.Bağırovun şəxsi qəbulunda olan bir çox orta savadlı istedadlı gənclər sonra universitetə daxil olmuşlar.

1948-ci ilin dekabrında Lerik rayonunun Kürdəsər kəndindən Azərbaycan K(b)P MK katibi M.Bağırovun adına daxil olmuş məktub arxivdə saxlanılır:

**«Azərbaycan Kommunist (b) Partiyası Mərkəzi Komitəsinin katibi, Azərbaycan xalqının rəhbəri M.C.Bağırov yoldaşa**

Vətəndaşı olduğum qüdrətli dövlətimizin şöhrətindən ilham alan 23 yaşlı gənc qəlbim tam 4 ildir ki, şairlik ilham və istedadı ilə çırpınır. Bu qısa yaradıcılıq dövründə 100 şeir, 150 qəzəl, 3 hekayə, 1 povest, Moskva müsabiqəsinə göndərdiyim 1 pərdəli pyes və Azərbaycan xalqının qəhrəman oğlu, tank qoşunları qvardiya general-mayoru Həzi Əhəd oğlu Aslanovun qəhrəmanlığına həsr etdiyim 1 mənzum poema yazıb qurtarmışam.

Əsərlərimdən yalnız 4 şeir «Azərbaycan gəncləri» və «Ədəbiyyat» qəzetlərində dərc olunmuşdur.

Azərbaycan Sovet Yazıçılar İttifaqında bir neçə dəfə olmuşam. S.Vurğunla S.Rüstəmdən başqa heç bir yazıçıdan mənəvi köməklik almamışam. Kənddən şəhərə göndərdiyim şeirlərimə əhəmiyyətsiz cavablar alıram. Bəzi vaxt heç cavab da ala bilmirəm. Yazdığım əsərlər əhəmiyyətini itirib sandıqda qalır. Əziz atam Bağırov! Mənim qəlbim ictimai həyatın nəbzi ilə çırpınır, hər gün yeni əsər yaradıramsa, bunu mətbuat səhifələrində görmürəm. Habelə yazdığım şeiri yazı maşınında çap etdirməkdən ötrü imkanım olmadıqda çox şeirlərimi qələmlə yazıb göndərirəm.

Əziz atam Bağırov! Mən də öz əsərlərimi respublikamızın qəzet və məcmuələri səhifələrində, vətənimizin xeyrindən ötrü, xalqımızın mənafeyindən ötrü istifadədə görmək istəyirəm. Mən də Sovet Yazıçılar İttifaqının bir hörmətli üzvü kimi xalq şairi olmaq istəyirəm. Bu arzular aləmində yaşayıb, öz qələmimi iti süngüyə çevirib indiki beynəlxalq aləmdə irticaçı, müharibə qızışdırıcılarının qəlbini dəlmək istəyirəm. Bunun üçün yeganə yol mətbuatdırsa, mən də mətbuatdan kifayət qədər razı qalmıram.

Əziz atam Bağırov! Mənim təhsilim ümumi ortadır. 8 ildir ki, müəllim işləyirəm. Bəlkə də şeirlərimdə mənəvi bir səhv və ya nöqsan vardır. Mən onu görə bilmirəm. Odur ki, Sizdən doğma bir övlad kimi xahiş edirəm arzuma müvafiq göndərdiyim bu sovqat məktubumu qəbul edəsiniz. Həmçinin H.Aslanov poemasının mətbuatda görünməsi üçün atalıq qayğısı göstərməklə məni sevindirəsiniz.

**Hörmətlə: Məmmədhüseyn Rüstəm oğlu Əliyev. Lerik rayonu Kürdəsər kənd əhli.»**

M.C.Bağırov bir qovluq şeir və poemalardan ibarət olan «Sovqat məktubu»nu nəzərdən keçirmiş, müəllifin ərizəsindəki «mənim təhsilim ortadır» sözlərinin altından göy karandaşla xətt çəkmişdir. Göstəriş vermişdir ki, Lerikə cavab məktubu yazıb bildirsinlər ki, Məmmədhüseyn Əliyev Bakıya, Yazıçılar İttifaqına gələndə, Azərbaycan KP MK-ya da təşrif buyursun, M.C.Bağırov yoldaş onunla görüşmək istəyir.

1949-cu ilin yanvarında, məktəblilərin qış tətili günlərində «xalq şairi» olmaq istəyən orta məktəb müəllimi xalq rəhbəri ilə görüşmüşdür. Elə söhbət də «xalq şairi»ndən başlamışdır. M.C.Bağırov demişdir:

- Xalq şairi olmaq hər hansı bir şairin özündən və istəyindən asılı deyildir. Bu adı ona heç bir hökumət və partiya da verə bilməz. Bu qiymət nadir söz sərraflarına xalqın özü tərəfindən verilir. Mənə göndərdiyin əsərlərlə tanış oldum. Qəzəllərin çox zəifdir, görünür, əruzu qavramırsan. Həzi Aslanov haqqındakı poeman göstərir ki, hələ şairlik qabiliyyətin azdır. Bəlkə gələcəkdə bunu nəsr əsəri kimi işləyəsən?

-Baş üstə, yoldaş Bağırov, lap roman da yazaram...

M.C.Bağırov kənd müəlliminin ailə dolanışığı ilə maraqlandı. Ondan soruşdu:

-Sən Bakıda qalsan, orada sənin dərslərini deyəcək müəllim tapılarmı?

-Əlbəttə, yoldaş Bağırov... Ancaq məni Yazıçılar İttifaqına işə götürməzlər.

M.C.Bağırov ciddiləşdi:

-Sən məgər peşəkar yazıçısan ki, ittifaqda işləyəsən? Neçə yaşındasan?

-23, yoldaş Bağırov.

-Niyə instituta daxil olmursan?

-Arzum universitetin ədəbiyyat fakültəsinə girməkdir, yoldaş Bağırov.

-Arzuna çat. Universiteti bitirəndən sonra yanıma gələrsən, dalısına baxarıq.

Məmmədhüseyn Əliyev 1954-cü ildə ADU-nun filologiya fakültəsini bitirdi. Bir daha M.C.Bağırovu görmədi.

M.Əliyev M.C.Bağırovun məsləhətlərini və atalıq qayğısını əziz tutdu. Universiteti bitirəndən sonra... birdəfəlik şeirdən nəsrə keçdi. Bir-birinin ardınca Bakıda «Gənclik» nəşriyyatında «Lənkəran hekayələri», «Azərnəşr»də «Müstəntiq», «Yazıçı» nəşriyyatında «Qayaların səsi» kitablarını nəşr etdirdi. Nəhayət, 1984-cü ildə onun Həzi Aslanova həsr etdiyi «Dağlar oğlu» romanı 20 min nüsxə ilə çap olundu.

***

ADU-nun tarix fakültəsinin tələbələri arasında «Azərnəşr» tərəfindən buraxılmış stolüstü təqvimin dekanlıqdan və kafedralardan birdən-birə yoxa çıxması söz-söhbətə səbəb olmuşdu. Bu təqvimlərin yerinə Moskvada nəşr olunmuş təqvimlər qoyulmuşdu. Nə müəllimlər, nə də tələbələr bunun səbəbini bilmirdilər. Bilmirdilər ki, təqvim təkcə Universitetdən deyil, bütün satış mağazalarından, idarə və müəssisələrdən, hətta ayrı-ayrı mənzillərdən belə götürülmüşdü. Bu «hadisənin» səbəbi Azərbaycan Respublikası SPİHMDA-dəki bir sənəddə aydınlaşır.

1948-ci il yanvar ayının 23-də Azərbaycan SSR daxili işlər naziri general-leytenant Yaqubov Azərbaycan K(b)P MK katibi Seyidova aşağıdakı məlumatı göndərmişdir:

«Azərnəşr» tərəfindən buraxılmış 1948-ci il stolüstü təqvimində (19 mart vərəqi) siyasi səhvə yol verildiyi barədə yazılmış imzasız ərizəni Sizə göndərirəm».

İmzasız ərizədə oxuyuruq: ««Azərnəşr»in buraxdığı 1948-ci il stolüstü təqviminin 19 mart vərəqində göstərilir ki, «1925-ci ildə Azərbaycanın böyük yazıçısı, görkəmli ictimai və siyasi xadim Nəriman Nərimanov vəfat etmişdir.»

Mövcud olan məlumatlara görə, N.Nərimanov keçmiş xalq düşmənləri ilə əlaqədə olmuşdur. Sual olunur, necə ola bilər ki, N.Nərimanov görkəmli ictimai və siyasi xadim kimi qiymətləndirilsin, axı o, burjua millətçisidir, xalq düşmənidir.

A.Mamedov 10.01.48».

1948-ci il təqviminin 19 mart vərəqində yazılanlar 1949-cu ilin təqviminə köçürülməsə də, tarix fakültəsinin bəzi tələbələrinin yaddaşından silinməmişdi. Beləri arasında müharibə iştirakçısı olmuş bir tələbə də vardı - Qırmızı Bayraq və birinci dərəcəli Vətən müharibəsi ordenləri ilə, 14 döyüş medalı ilə təltif edilmiş 24 yaşlı Firudin Məhəmməd oğlu Həsənov.

Sonralar Firudin Şuşinski kimi şöhrət tapmış tələbənin tərcümeyi-halından məlum olur ki, o, 1925-ci il oktyabrın 20-də Şuşada anadan olmuşdur. Uşaqlıqdan musiqiyə böyük həvəs göstərmişdir. 8 yaşında Şuşadakı musiqi məktəbinə daxil olmuşdur, skripka çalmağı öyrənmişdir. Məşhur tarzən olan əmisi Qara bəy isə onun tar müəllimi olmuşdur. Balaca Firudinin hər şeyə - elmə, tarixə, musiqiyə, incəsənətin bütün növlərinə dərin maraq göstərməsi onun qeyri-adi fitri istedadından xəbər verirdi. Əlbəttə, valideyn tərbiyəsinin də rolu böyükdü. Atası Qarabağda hörmət qazanmış tacirlərdən biri idi, ona şuşalılar Qızıl Məhəmməd deyirlərmiş. Anası Səyyarə xanım İbrahim xanın nəslindənmiş...

Firudin bəy Qarabağın, Şuşanın tarixini ilk dəfə ata-anasının söhbətlərindən hafizəsinə yazmışdı. Mütaliəni sevən, qədim muğamın sirlərini dərk etməyə çalışan, xalqın tarixi şəxsiyyətlərinin həyatına dair geniş məlumatlar toplayan yeniyetmə Hacı Zeynalabdin Tağıyevin adını atasından, Natəvanın şeirlərini anasından eşitmişdi. N.Nərimanovun ata-baba nəsli barədə də ona doğma atası danışmışdı.

Firudin bəy müharibədə tank diviziyasında batareya komandiri olanda, N.Nərimanovun - təqvimdəki «xalq düşməni»nin oğlunun da tankçı olduğunu bilmirdi. Təkcə bunu bilirdi ki, N.Nərimanov oğluna öz atasının adını qoymuşdu - Nəcəf, Öz-özünə fikirləşirdi: «Övladına babasının adını verən, öz xalqının düşməni olarmı?»

Firudin kitabxanada tarixi kitabları arayıb tapırdı. Rusca yaxşı bildiyindən çətinlik çəkmirdi. Marksın, Engelsin, Leninin, Stalinin əsərlərini də rus dilində oxuyurdu. Leninin məktublarından birində N.Nərimanovun adına rast gələndə, cümlələri olduğu kimi dəftərinə köçürdü:

«N.Nərimanova məktub, şifrlə
26.09.1921-ci il.
Bakı, Nərimanova

Vilayət Xarici Ticarət İdarəsinin razılığı və RKP MK-nın icazəsi olmadan nə almanlarla, nə də başqa heç kəslə xarici ticarət müqaviləsi bağlamayın. Bunun alındığı və icrası haqqında teleqrafla cavab verin, sonra da bütün təfsilatı məktubla xəbər verin».

Məktub Leninin əli ilə yazılmış, Stalin tərəfindən imzalanmışdı.

Ertəsi günü Firudin oxuduğunu tələbə dostlarından etibarlısına danışdı. O, «Bu ola bilməz, nə danışırsan?»-dedi. Firudin cavabında: «bax, filan cild, filan səhifə, get bax».

Etibarlı dost axşam yataqxanada Firudinin yanında idi. İnciklikłə dedi: «Firudin, özünü dola. Kitabxanada nəinki filan səhifə, heç dediyin filan cild yerli-dibli yoxdur». Dostundan ayrılanda yavaşcadan dedi:

- Firudin, sən bir az kəmhövsələsən, nəbadə bu haqda fakültədə söhbət salasan, adamın atasını yandırarlar.

Firudin gecədən xeyli keçmiş yuxuladı. Səhər universitetə gələndə yolunu MK-nın binası qabağından saldı, zərfi qutuya atdı. Zərfin içindəki dəftər vərəqində belə yazmışdı: «Yoldaş M.C.Bağırov! Sizdən xahiş edirəm ki, N.Nərimanov məsələsi ilə əlaqədar məni qəbul edəsiniz.

ADU-nun tarix fakültəsinin tələbəsi Həsənov».

MK-dan ADU-nun rektoru Abdulla Qarayevə zəng vurulandan sonra Universitetdə aləm bir-birinə qarışdı. MK-nın katibi Həsən Həsənov Mir Cəfər Bağırovun bu sözlərini rektora çatdırdı: «Görün universitet nə günə qalıb ki, tələbə Nəriman Nərimanovun kim olması barədə sualla mənə müraciət edir».

Rektor əmr verib Firudin Həsənovu universitetdən qovdu, komsomol komitəsi öz sıralarından çıxardı, partkom tarix fakültəsinin partiya təşkilatçısını töhmətləndirdi. F.Həsənov isə MK binasında idi. M.C.Bağırov yoldaşla görüşün reqlamenti də müəyyən edilmişdi - 6 dəqiqə.

M.C.Bağırovun ilk sözü bu oldu:

-Mənə məlumat veriblər ki, sən Stalinin Nərimanova məktubunu tapmısan? Stalinin əsərlərini əvvəldən-axıradək nəzərdən keçiriblər, belə bir şey yoxdur.

Firudin ilk dəfə yaxından gördüyü rəhbərin zəhmindən yerində duruxub-qalmadı. Dərhal cavab verdi:

-Yoldaş Bağırov, Stalin yoldaşın imzaladığı məktub Leninin əsərlərinin 35-ci cildindədir, - deyə baxışlarını otağın sol divarının qabağındakı kitab dolabına çevirdi: -İcazə verirsinizsə, sizə göstərə bilərəm.

-Göstər görüm.

Firudin dolabdan Leninin 1945-ci ildə Moskvada nəşr olunmuş əsərlərinin 35-ci cildini çəkib əlinə aldı və «Nərimanova məktub»u M.C.Bağırova göstərdi.

Azərbaycan rəhbəri «Nərimanova məktub»u oxuyanda artıq «6 dəqiqəlik» reqlament geridə qalmışdı.

M.C.Bağırov elə bil gənclik illərinə, Qubada müəllimlik etdiyi çağlara qayıtmışdı. Və şagirdi də bu nərimanovçuluq xəstəliyinə tutulmuş universitet tələbəsi idi. Başını qaldırıb dedi:

-Əyləş.

Firudin utana-utana irəli addımlayıb, M.C.Bağırovun nişan verdiyi yerdə oturdu. Rəhbərin səsində bir doğmalıq duydu:

-Sən tarixçi olmaq istəyirsən. Ona görə hər bir hadisəni baş verdiyi zamana görə qiymətləndirməyi bacarmalısan. 1921-ci ildə Azərbaycan hökumətinin başında N.Nərimanov yox, başqası da olsaydı, Stalin yoldaş Leninin adından ona belə tapşırıq verəcəkdi. Bilirsənmi söhbət nədən gedir?

- Bakı neftindən, yoldaş Bağırov.

-Biz də çalışırıq ki, neftimiz zəhmətkeşlərimizin rifahının yüksəlməsinə kömək etsin. N.Nərimanov da bunu istəyirdi. Biz Stalin yoldaşa minnətdarıq ki, Azərbaycana ölkə büdcəsindən əlavə pul keçirirlər. Neft fondu hesabına yüzlərlə gənclərimiz başqa şəhərlərdə təhsil alırlar.

Sonra birinci katib ilə universitetin hazırcavab tələbəsi arasındakı söhbət dialoqa çevrildi:

-Bu, sizin səyinizlə baş tutub, yoldaş Bağırov. Neftin hər tonu 2 manat, plandan əlavə hasil edilən hər tona 4 manat, ildə milyon manatlarla pul alırıq.

-Sənin bundan da xəbərin var... Daha nələri bilirsən?

-Muğamlarımızı, Qarabağın tarixini, yoldaş Bağırov!

-Şuşanın neçə yaşı var?

-199, yoldaş Bağırov!

Söhbət «Şuşa» ilə bitdi. Firudin Həsənov otaqdan çıxanda «reqlament»dən düz bir saat keçmişdi...

***

M.C.Bağırov Yemelyanovu yanına çağırdı. O, içəri girən kimi qovluğunu açıb bir neçə sənədi Bağırova göstərərək:

- F.Həsənovun atası da Tağıyev kimi birinci dərəcəli tacir olub... Bu da tələbənin ADU-dan çıxarılması haqqında əmrin surətidir. O, Azərbaycan Cinayət Məcəlləsinin...

M.C.Bağırov DTK sədrinin sözünü kəsdi:

- Tələbənin dərsini mən özüm vermişəm. Bir daha «nərimanovçuluq» ilə məşğul olmayacaq. Bu məsələni bitmiş hesab elə. Qaldı ki, Stalinin Nərimanova teleqramına, nə sən, nə MK-dakılar, nə də mən özüm bilmirdim ki, sənəd Leninin əsərində imiş. Buna görə hamımız dama basmaq istədiyin tələbəyə minnətdar olmalıyıq.

Bəli, Firudin Həsənovu 1949-cu ildə DTK zirzəmisinə sala bilmədilər. Onu 1956-cı ilin yanvarında, Azərbaycan rəhbərinin məhkəməsinə geniş hazırlıq görüləndə Dövlət Təhlükəsizlik Komitəsinə çağırdılar. Bildirdilər ki, şahid kimi ifadə versin və yazsın ki, universitetdən qovulmasının baiskarı Bağırovdur.

Firudin Həsənov cavabında demişdi:

- Cavan oğlan, KQB-də işləyəndə nolar, azərbaycanlı zabitsən, M.C.Bağırov olmasaydı mən 31 yaşıma gəlib çıxmazdım. Adam da o boyda kişiyə qara yaxar?

Firudin Şuşinski həqiqətən sonralar respublika mətbuatında dərc etdirdiyi məqalələrində, yeri gəldikcə M.C.Bağırovun fəaliyyətindən də söhbət açmışdır. O, M.C.Bağırovun dediyi sözləri həmişə arxivlərdə işləyərkən xatırlamışdır: «Hər bir hadisəni baş verdiyi zamana görə qiymətləndirməyi bacarmalısan».

Firudin Şuşinski 50 yaşına çatanda Azərbaycanda və onun hüdudlarından kənarda məşhur olan bir şəxsiyyət idi. O, «hadisəni baş verdiyi zamana görə qiymətləndirməyi bacararaq» Yerevanda, Tiflisdə və başqa şəhərlərdə əldə etdiyi sənədlər əsasında məşhur «Şuşa» kitabını yazmışdı. Ermənilər Yerevanda Andronikə abidə yapmağa hazırlaşarkən Firudin Şuşinski onu «Azərbaycan xalqının ən qəddar düşməni» adlandırmışdı. Azərbaycan və rus dillərində nəşr olunmuş bu kitaba qadağa qoyulduqda, o, düz Kremlə, Mikoyanın kabinetinə getmişdi, daşnakı müdafiə edən daşnaka qəzəb dolu sözlər söyləməkdən çəkinməmişdi.

1970-ci ildə 45 yaşlı musiqi tədqiqatçısının «Azərbaycanın xalq musiqiçiləri» kitabı musiqisevərlərin və geniş oxucu auditoriyasının böyük marağına səbəb oldu. Görkəmli elm və incəsənət xadimlərinin rəyi ilə 1979-cu ildə Moskvanın «Sovetskiy kompozitor» nəşriyyatı F.Şuşinskinin həmin kitabını ümumittifaq oxucusuna çatdırdı.

İşgüzar musiqişünas alim və tədqiqatçı 60 yaşına əzəmətli bir hədiyyə hazırladı. 1985-ci ildə Bakıda «Yazıçı» nəşriyyatı tərəfindən yubilyarın «Azərbaycanın xalq musiqiçiləri» kitabı yenidən nəşr olundu. Bu dəfə 30 min tirajla. Teymur Əhmədovun redaktorluğu ilə işıq üzü görmüş bu kitaba böyük bəstəkarımız Fikrət Əmirov ön söz yazmışdı. «Misilsiz xəzinə» sərlövhəli bu məqalədə oxuyuruq:

«F.Şuşinski Azərbaycan musiqi mədəniyyəti tarixində xanəndəlik sənətini öyrənmək sahəsində ilk uğurlu addım atmışdır. Xalq musiqiçiləri və onların ölməz sənəti haqqında sanballı monoqrafik əsər yazmaq qərarına gələn müəllifin qarşısında böyük çətinliklər dururdu. O, arxivlərdə ciddi axtarışlar aparmalı, bir çox ölkələrin şəhər və kəndlərini oymaq-oymaq gəzməli idi. Eyni zamanda, qocaman xanəndələrlə, musiqi həvəskarları və incəsənət xadimləri ilə görüşüb xatirələr toplamalı, dövri mətbuatı gözdən keçirməli idi. Bütün bunlar uzun illər səbr və inadla, əzab-əziyyətə qatlaşmaqla, böyük zəhmətlə başa gələ bilərdi. F.Şuşinski bu işin öhdəsindən fədakarlıqla gəldi. Təsadüfi deyil ki, onu musiqi mədəniyyətimizin

tarixini öyrənən ilk tədqiqatçı adlandırırlar. Çünki F.Şuşinskiyə qədər bu sahədə heç kəs xüsusi tədqiqat aparmamışdır».

F.Əmirov musiqişünas yazıçı və fədakar tədqiqatçının anadan olmasının 50 illiyi münasibəti ilə ona bu teleqramı vurmuşdu: «Əzizim Firudin! 50 illiyin münasibətilə mənim ən səmimi təbriklərimi qəbul etməyi xahiş edirəm. Sənin Azərbaycan musiqisinin tarixinə, xalq musiqiçilərinə həsr etdiyin nadir kitablarını arxeoloqların tarixi qazıntılarına bənzətmək olar. Yeni-yeni uğurlar arzulayıram. 50 yaşında Səni əlli dəfə öpürəm.

Fikrət Əmirov».

F.Şuşinski 60 yaşını böyük dostu və sirdaşı Fikrət Əmirovsuz qarşıladı. O, bir il qabaq, 1984-cü il fevralın 20-də 62 yaşında qəflətən vəfat etmişdi. Bəstəkarın dəfnindən 3 həftə keçəndən sonra, «Kommunist» qəzetinin 1984-cü il 16 mart tarixli sayında mərhumun «Azərbaycan xalq mahnıları» adlı məqaləsi «Bəstəkarın düşüncələri» başlığı altında verilmişdi. «Bəstəkarın düşüncələri»nin bəstəkarın sağlığında dərc olunmasının səbəbini qəzet belə izah edirdi: «Mərhum bəstəkarımız, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Fikrət Əmirov vəfatından əvvəl qəzet üçün Azərbaycan xalq mahnıları haqqında məqalə yazmışdı. Məqalə iri olduğundan bir qədər yığcamlaşdırmaq təklif edilmişdi. Müəllif razılaşmışdı. Lakin qəfil ölüm imkan vermədi. İndi həmin məqaləni olduğu kimi oxuculara təqdim edirik».

Sual olunur, bəstəkarın sağlığında onun məqaləsini olduğu kimi çap etmək olmazdımı? Bu sualın cavabını F.Şuşinski verirdi. Məqalədəki bu abzası göstərirdi: «Mən rus, ukrayna, moldovan mahnılarının möcüzəli səslər aləminə dalıram, Yaxın Şərq nəğmələrinin axıcılığı, yaxud əksinə, oynaq ritmləri məni sehrləyir, gürcü havalarının şuxluğu, xüsusi harmoniyası məni həyəcanlandırır. Bununla belə doğma Azərbaycan mahnılarını eşidən kimi ürəyim istər-istəməz yerindən oynayır».

Müəllifə məsləhət bilmişdilər ki, bu abzasda «erməni» sözü də olsun. F.Əmirov belə cavab vermişdi: «Erməninin milli musiqi aləti yoxdur. Milli musiqi aləti olmayan xalqın musiqi havası özgə xalqlara məxsusdur. Necə yazmışam, eləcə də verin».

Görünür, hər qəfil ölümün min bir səbəbi var...

***

F.Şuşinski 1985-ci ilin oktyabrın 20-i, günortadan sonra Fəxri Xiyabana yol aldı. F.Əmirovun məzarına qərənfillər düzdü. Düşüncələrə qapılaraq, pay-piyada evinə gəldi. Qapıda oğlu Məhərrəm onu bir dəstə çiçəklə qarşıladı. Firudin bəy «atam, çox sağ ol» deyərək içəri keçdi. Doğmaları, əzizləri onu gözləyirdi. Məhərrəm poçtalyonun gətirdiyi təbrikləri atasına göstərdi: Arif Mənsurov, Süleyman Ələsgərov... Məhərrəmin yaxından tanımadığı müxtəlif peşə sahibləri...

Xəlil Rza Ulutürk yubilyara bağışladığı kitabının cild səhifəsinə belə yazmışdı: «Azərbaycan türklərinin şanlı oğlu, şair ürəkli, alim zəkalı sarsılmaz yurdsevər qardaşımız Firudin Şuşalı Kişiyə ərməğan edirəm».

F.Şuşinskiyə əməkdar incəsənət xadimi adı verilməsi onun pərəstişkarlarının bayramına çevrildi. Bəstəkar Tofiq Quliyev öz təbrikində yazırdı: «Musiqimizin keşiyində duran fədakar insana yüksək ad verilməsi məni hədsiz sevindirdi. Yeni əsərlər gözləyirəm». Təbrik göndərənlər arasında Mirzə İbrahimov, Aqşin Əlizadə, Şövkət Ələkbərova, Fərhad Bədəlbəyli, akademik İmam Mustafayev, şair Tofiq Bayram da vardı.

F.Şuşinski 70 yaşına ... Şuşasız addımlayırdı. Nələr çəkdiyini birözü bilirdi...

Fəqət əyilməz insanı özümüzkülər əydilər. Yubiley yaşı da yaddan çıxdı.

İctimai-siyasi satirik qəzet olan «Xeyir və Şər»in 1995-ci il 21 iyul tarixli sayında «zəhmətkeşlər adından» aşağıdakı məktub dərc olundu:

«Hörmətli «Xeyir və Şər» qəzetinin baş redaktoru Telman Ərəstunoğlu!

Qəzetinizin 11 iyul 1995-ci il tarixli sayında «F.Şuşinskinin musiqi dünyamızdakı «yeni kəşfləri» və ya şüurlu təxribatı» sərlövhəli yazını oxuduq. Sözün həqiqi mənasında sənətkarlarımıza atılan qərəz və böhtanlara görə bərk hiddətləndik.

Xalqımızın ən zəngin sərvəti xalq musiqisidir. Bu musiqi bizim böyüklüyümüzü, babalarımızın nəyə qadir olduğunu göstərib, əsrlərin daş arxasından eşidilən və eşidildikcə ürəkləri vəcdə gətirən musiqimiz, xalqımızın ən seçmə sənətkarları - respublikanın xalq artisti Hacıbaba Hüseynov, əməkdar artist Nəzakət Məmmədova, xalq artistlərimiz Canəli Əkbərov, İslam Rzayev, Arif Babayev, Habil Əliyev, Ramiz Quliyev, Niyaməddin Musayev necə də təsirli, necə də kövrək, necə də ürəkoxşayandır. Bu sənətkarlar sözün həqiqi mənasında musiqi dünyamızın parlaq ulduzlarıdır. Onların hər biri ilə xalqımız fəxr edir.

Azərbaycan xalqı musiqi ürəkli, Koroğlu qeyrətli, Dədə Qorqud düşüncəli xalqdır. Sadəcə, bir həqiqəti dərk etmək üçün musiqişünas, tarixçi olmaq lazım deyil. Sadəcə olaraq, xeyirxah olmaq lazımdır. Həqiqət də odur ki, dünyada elə bir xalq tapılmaz ki, özünün nüfuzlu, tanınmış şəxsiyyətlərini təbliğ etməsin, onunla fəxr etməsin. Axı Habil kamanı harda, hansı ölkədə dinirsə, biz fəxrlə belə deyirik: O, bizim xalqımızın nümayəndəsidir azərbaycanlıdır. Üstəlik belə sənətkarlar özlərinin səyi, istedadları ilə məşhurlaşmış, hər yerdə də Azərbaycanı ləyaqətlə təmsil etmiş və edirlər. Belələrinə qara yaxmaq, onları lağa qoymaq F.Şuşinski kimi saçı-saqqalı ağarmış, ixtiyar yaşlı bir adam üçün məqbul deyil.

Lənkəran ziyalılarının obyektiv fikrini nəzərə alaraq, Azərbaycan milli musiqi mədəniyyətinə böyük ləkə gətirə biləcək belə üzdəniraq kitabın çapının dayandırılması üçün qəti tədbir görmənizi xahiş edirik.

**İmzalar:**

1.Mirhaşım Talışlı - respublikanın əməkdar müəllimi, Lənkəran Dövlət Universitetinin baş müəllimi.
2.Həzi Əliyev - «Lənkəran» qəzetinin baş redaktoru, yazıçı.
3.Yadulla Ağazadə - Lənkəran Dövlət Universitetinin baş müəllimi.
4.Mirsalam Babayev - Lənkəran Birləşmiş Xəstəxanasının baş cərrahı, şair.
5.Mirsayad Babayev - Lənkəran Hərbi Xəstəxanasının həkimi, Fövqülfüsəhi məclisinin üzvü.
6.Əlisəfa Həsənov-jurnalist.
7.Kərbəlayi Mirsaleh Talışlı - optik.
8.Mustafa Axundov - hərbi qulluqçu.

Göründüyü kimi, satirik-siyasi qəzet müstəqil Azərbaycan Respublikasının mətbuata aid olduğu qanunlarının ziddinə olaraq Leninin «Qəzet nəinki kollektiv təşviqatçıdır, həm də kollektiv təşkilatçıdır» şüarına əməl etmişdir. Bu vəzifəni «şərəflə» yerinə yetirmək üçün əməkdar müəllimdən, rayon qəzetinin baş redaktorundan, yazıçıdan, jurnalistdən, həmçinin cərrah-şairdən, optikdən, hərbi qulluqçudan istifadə etmişdir.

Sözsüz ki, «8-lər» F.Şuşinskinin «Musiqişünasın düşüncələri» kitabını görməmişdilər və görə də bilməzdilər. Çünki 70 yaşlı müəllifi də öz kitabına həsrət qoymuşdular. «Gənclik» nəşriyyatında 16 min tirajla nəşr olunmağa başlayan kitabın çapı dayandırılmışdı. Bu ədalətsizliyə qarşı ilk etiraz səsini 1995-ci ildə Azərbaycan Respublikası mətbuat və informasiya naziri vəzifəsində çalışan, millət vəkili Sabir Rüstəmxanlı qaldırmışdı. O, «Xeyir və Şər»in müxbirinə demişdi: «Qəzetiniz ictimai-siyasi satirik qəzetdir. Siz sənət, musiqi sahəsində fəaliyyət göstərən qəzet deyilsiniz. Fikir söyləyəndə də ehtiyatlı olmalısınız.

F.Şuşinski ömrü boyu musiqi tarixi ilə məşğul olub. Habil Əliyevi və qəzetinizə müraciət edən digər musiqi sənətkarlarımızı mən çox sevirəm. Amma F.Şuşinski nə vaxtsa onların ifasından narazı qalıb, güzəştə getmədən, bəlkə də ərklə fikrini bildirib. Və həmin məqalələri «Musiqişünasın düşüncələri» kitabında toplayıbsa, buna da təbii baxmaq lazımdır».

Təəssüflər olsun ki, peşəkar jurnalistin və millət vəkilinin sözləri «Xeyir və Şər»i şər yolundan çəkindirməmişdir. Qəzetdə verilmiş məqalələri oxuyanda belə bir təsəvvür oyanır ki, Fikrət Əmirovun, İmam Mustafayevin, Mirzə Ibrahimovun, Şövkət xanım Ələkbərovanın, Xəlil Rza Ulutürkün, Tofiq Quliyevin və başqa məşhur şəxsiyyətlərin yüksək qiymətləndirdikləri Firudin Şuşinski əslində xalq musiqimizin «xalq düşməni» imiş. Azərbaycan Sovet Ensiklopediyasının ikinci cildindən başlayaraq, bütün cildlərində musiqişünaslığa dair məqalələri verilmiş, ensiklopedik biliyə malik əməkdar incəsənət xadimi sən demə Azərbaycanın bütün məşhur sənət adarnlarının qənimi imiş.

Firudin Şuşinskinin anadan olmasının 60 illiyi ərəfəsində «Yazıçı» nəşriyyatı tərəfindən 30 çap vərəqi həcmində buraxılmış kitabında çoxlu fotoşəkillər də

verilmişdir. Bu fotolardan biri 1964-cü il martın 2-də Bakıda çəkilmişdir. Şəkildə Xan Şuşinski, Əliağa Vahid, Hacıağa Abbasov, Sahib Şükürov, Firudin Şuşinski və Habil Əliyevdir. Habil Əliyev Firudin Şuşinskinin qolundan tutmuşdur. Qol-qola durmuş iki sənət adamı arasında söz-söhbət də, küsü də, inciklik də ola bilər, lakin biri digərinə düşmən kəsilə bilməz. «Xeyir və Şər» bütün bunları inkar edir. Dostlar arasındakı körpünü Şərin arşını ilə ölçür. Firudin Şuşinskiyə qarşı ittihamlara diqqət yetirin:

**Xalq şairi yazır:** «Nəhəng fil də balaca kəsəyəndən qaçır. Kəsəyən öz iyrəncliyi ilə fili qova bilirsə, fil kiçilib kəsəyən olmur, nə də kəsəyən bununla böyüyüb fil olan deyil. F.Şuşinski kimilərin yüz il yazdığını Habil bir dəfə səhnəyə çıxıb çalmağı ilə darmadağın edəcək». Firudin Şuşinskini kəsəyənə bənzətmək təhqir deyilmi?

**Xalq artisti yazır:** «Mən dünyanın 72 ölkəsində olmuşam və həmin ölkələrin hamısında uğurlu çıxışlarımız olub... Lakin bunlar haqqında F.Şuşinski bir dəfə də olsun maraqlanıb, bizim təəssüratlarımıza əsaslanaraq, bir kiçik yazı da yazmayıb».

Məşhur xanəndə məgər bilmir ki, Firudin Şuşinski özgələrinin təəssüratı və tapşırığı ilə nə böyük, nə də kiçik yazı yazan deyil?

**Xalq artisti və bəstəkar yazır:** «Şostakoviç kimi dahi sənətkar Azərbaycan xalq musiqisini Okean adlandırmışdır. Bəli, nə göl, nə dəniz, Okean! Bu, həqiqətdir. Bu Okean var və onun içərisində üzən nəhənglərimiz olub, var və olacaqdır. F.Şuşinski bu günün görkəmli sənət adamlarına qiymət" verməkdə nəinki xəsislik edir, o, hətta qərəzçilik edir».

Xalq artisti və bəstəkar Azərbaycan xalq musiqisinin Okeana bənzədilməsi barədə sözləri təkrar edirsə, xalqımız bilir ki, bu okeanın ilk qəvvası Firudin Şuşinskidir. Xalq bunu da bilir ki, göldə üzə-üzə özlərini Okean sahibi kimi aparanlara Azərbaycan xalq musiqişünaslığının bilicisi barışmaz münasibət göstərmişdir,

**Xalq artisti və professor yazır:** «Adını qarabağlı qoyub, bizi biabır edir. 1988-ci ildən bəri bir dəfə də Qarabağa ayaq basmayıb, bir qaçqına dayaq olmayıb, biz isə güllə yağışı altında əsgərlərə konsertlər veririk. Niyə də getsin? Nə Şuşa var, nə Ağdam var, nə İsa bulağı, nə də onun quzu kəsib kabab çəkənləri. Yəqin indi kabab iyi başqa zonalardan gəlir. Qoy getsin həmin o kabab iyi gələn yerlərə...»

Xalq artisti və professor bilməmiş deyil ki, Firudin Şuşinski əgər qarabağlı olmasaydı, «başqa zonalardan» gəlsəydi, konservatoriya rektoru, xalq artisti, professor, fərdi təqaüdçü, millət vəkili olardı. Onun da anadan olmasının 70 illiyi Respublika sarayında təntənəli surətdə keçirilərdi.

Firudin Şuşinski əsl-nəcabətli qarabağlı olmasaydı, «kabab iyi gələn yerlər» əsiri yaranardı, daşnaklarla kəllə-kəlləyə gəlməzdi. Atəşkəs zonasında konsert verməyə nə var ki?

**Musiqi Akademiyasının kafedra müdiri və professor yazır:** «F.Şuşinski musiqiçi deyil, daxili aləmi çox kasıbdır, duymur, hiss etmir, sadəcə olaraq təxribatçıdır. Çox şey lazım deyil. Qoy F.Şuşinski gəlib bizə ibtidai musiqidən imtahan versin. Əgər biz ona «3» qiyməti yaza bilsək, sonra gedib özünü akademik elan etsin».

Düşünürsən, nə yaxşı Aşıq Ələsgər, salnaməçi Qulam Məmmədli, tarzən Bəhram Mansurov, klarnetçalan Şəmsi İmanov və başqa fitri istedad sahibləri Musiqi Akademiyasının kafedra müdiri və professorunun imtahanından keçməmişlər. Yoxsa Firudin Şuşinskiyə verilən qiymət onların da imtahan vərəqəsinə yazılardı.

**Respublikanın xalq artisti yazır:** «Bu kişinin kim olduğunu bilmək çətindir: Firudin Şuşinski, F.Şuşalı, musiqişünas F.Şuşinski və s. Gələcək nəsillər üçün bu, çətinlik yaratmazmı?»

Respublikanın xalq artisti nigaran qalmasın. Ola bilər ki, gələcəkdə «xalq artisti» adı götürülsün. Ancaq həkim, yazıçı, publisist, dramaturq, mütəfəkkir, siyasi xadim Nəriman Nərimanov, şair, dramaturq, filologiya elmləri doktoru, partiya xadimi Şıxəli Qurbanov necə yaşayırsa, «musiqişünas F.Şuşinski, musiqi tədqiqatçısı F.Şuşinski» də F.Şuşinski kimi qalacaqdır.

**Sənətşünaslıq namizədi və beynəlxalq müsabiqə laureatı yazır:** «F.Şuşinski deyirdi ki, xanəndə yalnız qarabağlı olmalıdır. Axı məsələni belə qoymaq olmaz. Respublikanın başqa rayonlarından olan müğənniləri belə qiymətləndirmək olmaz. Mən kitabı oxumamışam...»

Sənətşünaslıq namizədi və beynəlxalq müsabiqə laureatından soruşmaq istəyirsən ki, F.Şuşinskinin kitabını oxumamısansa, niyə belə alışıb-yanırsan? Hansı məqaləsində F.Şuşinski «tayfabazlıq»dan yazmışdır? Bir də ki, görünür qarabağlıların hamısı xanəndə olduqlarındandır ki, bu gün respublikaya rəhbərlik edən birincilər arasında bir nəfər də olsun ağdamlı və ya şuşalı yoxdur. Bu məsələdə musiqişünasın nə günahı?

**Məşhur xanəndə yazır:** «O, vaxtilə «Ulduz» jurnalında yazmış olduğu bir məqalədə məni «mərsiyəxan» adlandırmışdı. Təsəvvür edin, 30 ildən sonra nəvə-nəticələrim valideynlərindən soruşur ki, babam nəçi olub? Cavab verirlər ki, xanəndə. O isə F.Şuşinskinin kitabını göstərib deyir ki, yox, düz demirsiniz, mənim babam «mərsiyəxan» olub».

Kim deyə bilər ki, gələcəkdə məşhur xanəndə kimi məşhur mərsiyəxan da şöhrətlənməyəcək? Nəvə-nəticələr bəlkə elə F.Şuşinskinin kitabını oxumadan babalarının sənətinə hörmətlə yanaşacaqlar?

**Müğənni yazır:** «F.Şuşinski özünü çoxbilmiş hesab edən eqoist bir insandır... O, mənim və İ.Rzayevin haqqında da hədyanlar yazmış, lakin heç yanda çap etdirə bilməmişdir. Səhv etmirəmsə, yazının sərlövhəsi «Şur və Şor» idi. F.Şuşinski «bəy», (o özünə bəy deməyi çox sevir) Şurun Şora nə dəxli var?

Xalq artistlərinin, professorların, beynəlxalq müsabiqə laureatlarının, müğənnilərin və başqa adlı-sanlı incəsənət xadimlərinin ərizələri əsasında Bakı şəhər prokurorluğu «özünü çoxbilmiş hesab edən eqoist bir insan» haqqındakı materialları Səbail rayon xalq məhkəməsinə göndərmişdir. 1996-cı il sentyabrın 10-da Səbail rayon xalq məhkəməsi Z.Əliyevin sədrliyi, xalq iclasçıları Q.Hacıyev və R.Eyvazovun iştirakı ilə işə baxmışdır. Məhkəmənin qətnaməsində göstərildiyi kimi, nə prokuror, nə də müdafiəçi iclasda olmamışdır. Qətnamədə oxuyuruq: «Cavabdeh F.Həsənov məhkəmə iclasına gəlməmişdir və məhkəmə onun iştirakı olmadan işə baxılmasını mümkün hesab etmişdir».

F.Şuşinski 71 yaşında Cinayət Məcəlləsinin 120 və 122-ci maddələri ilə məsuliyyətə alınmışdır. Məhkəmə «Musiqişünasın düşüncələri» kitabının çapının dayandırılması və çap olunan nüsxələrin doğranması haqqında qərar qəbul etmiş, kitabın müəllifi 3 il müddətində azadlıqdan məhrum edilmişdir.

Xəstəxana çarpayısında şam kimi əriyə-əriyə 72 yaşını yola salan böyük sənətkar və musiqişünas alim cəza müddətini sonadək çəkə bilməmişdir . 1997-ci il oktyabr ayının 25-də vəfat etmişdir.

Nə televiziya ekranlarında, nə də rəsmi qəzetlərin səhifələrində rəhmətliyin qara haşiyəli şəkli görünməmişdir, vida yazısı verilməmişdir. Firudin bəy Şuşinskinin pərəstişkarları bu qəfil ölümdən sonralar xəbər tutmuşlar.

Mir Cəfər Bağırovun Sovet rejimi illərində xilas etdiyi 24 yaşlı universitet tələbəsi «Azad Azərbaycan» radio sədaları ilə 72 yaşında tabut maşınında Bakıdan yola salınmışdır- Bərdə rayonuna. Allah rəhmət eləsin!

...Adamı yandıran budur ki, F.Şuşinskinin ili çıxsa da, ona qarşı ittihamçıların qəzəbi soyumamışdır.

Mərhumun sağlığında radionun «Axşam görüşləri» proqramının üç verilişində F.Şuşinskinin ittihamçılarının radio məhkəməsini aparan Rəfael Hüseynov «Şur» nəşriyyatı tərəfindən 1999-cu ildə buraxılmış «Zülfü Adıgözəlov xatirələrdə» kitabında yazır: «İllərlə musiqimizin keçmişi haqqında mətbuatda yazılar buraxdırmış, toplayıcı kimi müəyyən faydalı işlər görsə də, savadının qıtlığı və qərəzkarlığı ucbatından xeyirdən daha artıq ziyanvericilik etmiş Firudin Həsənov (ləqəbi «Şuşinski» idi) Zülfü-Hacıbaba səsləşməsini belə qarayaxıcı və çirkablı hədyanlarla bulamışdı: «Son zamanlar səsi-səmiri olmayan, lakin zor ilə xanəndə eşqinə düşən bəzi nağaraçılar Zülfünü hələ onun sağlığında belə guya «yamsılaya» bildiklərini və bundan Zülfünün guya «əsəbiləşdiyi» kimi dərviş bayatıları söyləməklə özlərini gülünc vəziyyətə qoyurlar. Sənətdə «mənəm-mənəm» deyən bu cılız «xanəndələrin» nəzərinə çatdırmaq istərdim ki, pişik balası şirə necə bənzəyirsə, onlar da Zülfüyə elə bənzəyirlər».

Guya Zülfüyə qahmar çıxan (əslində onun ruhunu incidən), ona üzdəniraq məhəbbətini üfunət saçaraq izhar edən başabəla qələmçinin bu xəbis sətirləri nəşr edilib, həmin müəllifin kitablarında qalır və onları görməməzliyə vurub üstündən keçsəm düz olmaz (Azərbaycan musiqi sənətinin istedadlı ifaçılarının iri bir

dəstəsinin şərəf və ləyaqətini alçaldan, təhqirlərlə, söyüşlərlə, böhtanlarla dolu yazılarına görə həmin özündənbəy F.Həsənov (Şuşinski) Bakı şəhər Səbail rayonu xalq məhkəməsinin 1996-cı il 10 sentyabr tarixli qətnaməsi ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 121-ci (2 hissə) və 122-ci (2 hissə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edildi».

Rəfael Hüseynov bu məqaləni F.Şuşinskinin vəfatından il yarım keçəndən sonra, 1999-cu il fevralın 2-də yazmışdır və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin sifarişi ilə nəşr olunmuş kitabda «Zülfü zirvəsi» sərlövhəsi ilə ilk yazıdır.

Həmin kitabda Rəfael Hüseynovun ittihamlarının əksinə olaraq, Zülfü zirvəsini əsl kəşf edənin - «savadının qıtlığı və qərəzkarlığı ucbatından xeyirdən daha artıq ziyanvericilik etmiş» «başıbəla qələmçi» «özündənbəyin» şəkli getmişdir. Fotonun altında yazılmışdır: «Zülfü Adıgözəlovun xatirə lövhəsinin açılışında: (Soldan) Tofiq Quliyev, Yalçın Adıgözəlov, Vasif Adıgözəlov, Polad Bülbüloğlu, Firudin Şuşinski. 1991-ci il».

Təəssüflər olsun ki, «Zülfü Adıgözəlov xatirələrdə» kitabına əvəzsiz xanəndə haqqında ən sanballı əsərlər yazmış Firudin Şuşinskinin məqaləsi salınmamışdır. Belə olsaydı, oxucular yəqin edərdilər ki, Rəfael Hüseynovun misal gətirdiyi parçada Hacıbaba Hüseynovun adı yoxdur.

«Zülfü Adıgözəlov» adlı geniş məqalə F.Şuşinskinin 1985-ci ildə nəşr olunmuş «Azərbaycan xalq musiqiçiləri» kitabında verilmişdir. Kitabın 438-439-cu səhifələrində yazılanları bir daha oxuyun: «Zülfü oxumurdu, şirin nağıl söyləyirdi. Ona qulaq asanda elə bil ustad bir şair ilham məhsulu olan şeir oxuyur və yaxud mahir bir rəssamın fırçasından çıxmış ifadəli bir tablonu seyr edirsən.

Zülfü oxumağının gücü təkcə ariflər məclisini şənləndirmək olmamışdır. O özünün böyük sənəti ilə hətta «emosional savadsızları», yəni ədəbiyyata, şeirə, musiqiyə biganə, həm də laqeyd olanları belə ehtizaza gətirib onları musiqini dinləməyə təhrik edərdi.

Zülfünün xalq içərisində populyar olmağının bir səbəbi də başqa müğənnilərə nisbətən daha sərbəst oxuması, insanın mənəvi aləmini əks etdirməsi, eyni zamanda özünün fikir aydınlığı, intonasiyası və oxumağının sadəliyi ilə xalqa yaxın olması idi.

Zülfü klassik xanəndələrin zəngin təcrübəsini öyrənməklə onu yaradıcılıqla dərk edib, eyni zamanda doğma musiqi folkloruna əsaslanmışdı.

Zülfünün sənəti əsl sənətdir, böyük sənətdir, mənalı və son dərəcə gözəl sənətdir, bir sözlə, həqiqi söz sənətidir. Böyük sənət isə insanları öz qüdrətli və sehrkar təsiri altına almaya bilməz.

Böyük sənətkar ömrünün son illərində musiqi məktəblərində muğam dərsi verirdi. Onun bir çox istedadlı şagirdləri vardır. Hətta Mütəllim Mütəllimov, Qənbər Zülalov, Həşim Kələntərli, Cahan Talışinskaya, Sürəyya Qacar, Sahib Şükürov, İldırım Həsənov, Əbülfət Əliyev, Yaqub Məmmədov kimi mahir

müğənnilər Zülfü sənətindən çox şey öyrənmişlər. Lakin heç kəs Zülfü sənətini, xüsusilə onun muğamlarda işlətdiyi nadir və çətin priyomları təkrar edə bilməmişdir.

Burada yeri gəlmişkən bir haşiyə çıxmaq istərdim. Son zamanlar səsi-səmiri olmayan, lakin zor ilə xanəndəlik eşqinə düşən bəzi «nağaraçılar» hələ onun sağlığında belə guya «yamsılaya» bildiklərini və bundan Zülfünün guya «əsəbiləşdiyi» kimi dərviş bayatıları söyləməklə özlərini gülünc vəziyyətdə qoyurlar. Sənətdə «mənəm-mənəm» deyən bu cılız «xanəndələrin» nəzərinə çatdırmaq istərdim ki, pişik balası şirə necə bənzəyirsə, onlar da Zülfüyə elə bənzəyirlər».

1999-cu ildə «Zaman» nəşriyyatı tərəfindən buraxılmış «Varlıq» ensiklopedik toplusunun naşirlərinin gözündə də «yeriyən ensiklopediyanın» varlığı yoxluğa çevrilmişdir. İlin oktyabr ayının 20-də anadan olanlar arasında «Təfəkkür» universitetinin rektoru Mail Abbasəli oğlu Dəmirli var, anadangəlmə təfəkkürə malik Firudin Məhəmməd oğlu Şuşinski yoxdur... Öz varlığı haqqında Firudin Şuşinskinin özü belə demişdir:

«Bəzən biz xalq üçün canını, sənətini fəda etmiş sənətkara qarşı laqeydlik edirik. Onu lazımi qədər qiymətləndirmirik. Lakin onu itirdikdən sonra dizimizə döyüb, pencəyimizin ətəyini gəmirib heyfslənirik. Hər şey əldən çıxandan sonra onun qədir-qiymətini başa düşürük...»

***

...Seyid Hüseynin Yusif bəy Çəmənzəminlinin redaktorluğu ilə 1937-ci ildə nəşr olunmuş «Şirinnaz» povestinin, Həmid Axundlunun Seyid Hüseynin redaktorluğu ilə həmin ildə buraxılmış «Kələfin ucu» romanının qadağa qoyulmuş nüsxəsi ilə arxivdə tanış oldum. 1995-ci ildə F.Şuşinskinin «Musiqişünasın düşüncələri» kitabının beş min tirajla çıxan nüsxəsindən bircəsini də tapa bılmədim - nə nəşriyyatda, nə M.F.Axundov adına respublika dövlət kitabxanasında, nə məhkəmədə, nə də arxivlərdə. Əsrin sonunda nə Seyid Hüseyn sağdır, nə Həmid Axundlu, nə də Firudinbəy Şuşinski. Ancaq «Şirinnaz» var, «Kələfin ucu» durur, «Musiqişünasın düşüncələri» məhv edilir...

***

Ömrümün on ili ADU divarları arasında keçdiyindən bir çox hadisələrin şahidi olmuşam və bunlar haqqında «Həyatım - mənim deyil» kitabımda geniş söhbət açacağam. Taleyimdən razıyam ki, Həsən Şahgəldiyev, Əli Sultanlı, Məmməd Arif Dadaşzadə, Feyzulla Qasımzadə, Cəfər Xəndan, Abbas Zamanov kimi müəllimlərin mühazirələrinə qulaq asmışam. Yusif Məmmədəliyev, Şəfayət Mehdiyev kimi akademiklərlə təmasda olmuşam. Çox şeyləri xatırlayanda qət

edirəm ki, BDU-nun həqiqi tarixi hələ bundan sonra yazılacaqdır. Yəqin ki, bir çox səhifələr filologiya fakültəsinin baş müəllimi olmuş Abbas Zamanova həsr ediləcəkdir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Abbas Fəttah oğlu Zamanovla əlaqədar materiallar vardır. Azərbaycan KP MK-nın 1960-cı il aprelin 5-də keçirilmiş büro iclasında məsələ belə adlanır: «Sov. İKP üzvü Zamanovun partiya üzvünə yaraşmayan hərəkətləri barədə».

Abbas Zamanovun «hərəkətlərini» onun tələbələrindən olan Ataxan Paşayev «Ədəbiyyat qəzeti»nin 2000-ci il 4 avqust tarixli sayında müfəssəl şərh edir: «Abbas müəllimin adı və çöhrəsi mənim yaddaşımda o dövr üçün ağlagəlməz dərəcədə mərdanə, qorxmaz çıxışı ilə əbədilik həkk olundu. Bu o vaxt idi ki, bütün Bakıda, o cümlədən də tələbələr arasında Naxçıvan Muxtar Respublikasının Ermənistana veriləcəyi haqda gizli-gizli söhbətlər gedirdi. Söhbət üçün real zəmin də var idi. Ölkəyə rəhbərlik edən Nikita Xruşşov Ukraynanın Rusiyaya birləşməsinin 300 illiyinin bayram edilməsi ilə əlaqədar olaraq tamamilə Rusiya ərazisindən ayrı, Ukrayna torpaqlarına bitişik Krım vilayətini Ukraynaya vermişdi. Özü də həmin məsələ N.Xruşşovun məruzəsində belə əsaslandırılmışdı ki, Krım istər Rusiyaya daxil olsun, istərsə də Ukraynaya, fərqi yoxdur - vahid və bölünməz böyük Sovetlər İttifaqının ayrılmaz hissəsidir.

Yaranmış fürsəti heç vaxt əldən qaçırmayan ermənilər N.Xruşşovun bu səxavətindən istifadə edərək 1920-ci ildə Zəngəzur Ermənistana verildikdən sonra süni şəkildə Azərbaycanın əsas torpaqlarından aralı düşmüş Naxçıvan Muxtar Respublikasının Ermənistana verilməsi haqqında məsələ qaldırmışdı. N.Xruşşov isə sonralar xatirələrində özünün də etiraf etdiyi kimi, batində qatı daşnak, üzdə isə kommunist mündirinə bürünmüş A.Mikoyanın onunla olduqca isti münasibətləri də bu işin reallaşdırılması üçün çox əlverişli zəmin yaratmışdı.

O vaxt Elmlər Akademiyasının Kommunist (indiki İstiqlal) küçəsindəki «İsmailiyyə» binasında yerləşən akt zalında keçirilən xatirə gecəsində Abbas müəllimin, Dövlət Təhlükəsizliyi Komitəsində kəsilən başın bir damla belə qanı yerə düşmədiyi bir zamanda, necə deyərlər, «başını ətəyinə qoyaraq» bu məsələyə kəskin etirazını bildirməsini yalnız öz xalqını və vətənini sözdə deyil, işdə ürəkdən sevən, onun uğrunda hər dəqiqə ölümə belə hazır olan böyük ürək sahibi edə bilərdi.

Yadımdadır, xatirə gecəsini rəhmətlik akademik, sözün əsl mənasında böyük səbr sahibi Məmməd Arif Dadaşzadə aparırdı.

Gecədə S.Vurğun haqqında çoxlu xatirələr deyildi, şeirlər oxundu. Abbas müəllimə də söz verildi. Həmin səhnə indiki kimi gözümün qabağındadır. O, arxa cərgədə oturmuşdu. Xitabət kürsüsünə çıxaraq S.Vurğun haqqında, onun vətənpərvərliyi və vətənə xidməti haqqında danışaraq, nəhayət, fikrini o yerdə cəmləşdirdi ki, əgər S.Vurğun bu gün sağ olsaydı Azərbaycanın dilbər

guşələrindən, ən qədim və ulu torpaqlarından olan Naxçıvanın Ermənistana verilməsinə heç cür razı olmazdı.

Zalda oturanların əksəriyyəti tələbələr idi. Abbas müəllimin bu sözündən sonra sürəkli əl çalındı, O keçib öz yerində oturdu. Zalda bir gərginlik yaranmışdı. Belə vəziyyətdə həmişə özünü çox soyuqqanlı və təmkinli aparan Arif müəllim istədi ki, vəziyyətə bir qədər yüngüllük gətirsin. O, zala və Abbas müəllimə müraciətlə dedi: «Mənə belə gəlir ki, Abbas müəllim öz dediyi sözlər haqqında yaxşı-yaxşı fikirləşsə bizimlə razılaşar ki, bu sözlər ümumiyyətlə lazım deyildi, xüsusilə də belə bir məclisdə».

Arxa cəbhədə oturmuş Abbas müəllim yerindən qalxaraq, xitabət kürsüsünə gəldi və dedi: «Abbas müəllim heç vaxt düşünülməmiş söz demir. Öz dediyimdən isə peşman deyiləm». Zalda yenidən sürəkli alqışlar qopdu.

Abbas müəllimin bu etirazına zaldakı əsasən universitet tələbələrinin müsbət reaksiyası Rəyasət Heyətində oturanları əməlli-başlı çaşdırmışdı. Təsadüfi deyildi ki, elə həmin günün səhərisi universitet auditoriyalarında əsl «şeytan ovu» başlandı. Universitet respublika və Bakı şəhəri partiya və komsomol təşkilatları və əlbəttə ki, ilk növbədə hər yerdə gözü və qulaqları olan dövlət təhlükəsizliyi orqanlarının total yoxlanışına məruz qaldı. Xüsusilə komsomol təşkilatlarına ciddi iradlar tutulurdu ki, zalda oturanların əksəriyyəti universitet tələbələri idi. Özü də deyəsən onlar universitetdə yaradılmış hansısa bir gizli tələbə təşkilatı aşkar edə bilmədikdə isə Abbas müəllimi partiya sıralarından xaric edib universitet müəllimliyindən uzaqlaşdırdılar».

Arxivdə Abbas Zamanovun 1960-cı il aprel ayının 5-də yazdığı izahatın əsli saxlanılır. İzahatda oxuyuruq:

**«Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsinin müdiri Ş.Qurbanov yoldaşa**

**İzahat**

S.Vurğunun xatirəsinə həsr edilmiş yığıncaqdan bir neçə gün əvvəl bizim fakültənin dekanlığında üç yoldaş (S.Əliyev, Nəsir Məmmədov və Fərhad Zeynalov) söhbət edirdilər. Məni görüb yanlarına çağırdılar. F.Zeynalov yoldaş dedi ki, Naxçıvandan yenicə gəlmiş coğrafiya elmləri namizədi Xəlil (familiyası mənim yadımdan çıxıb) ilə görüşüb. Xəlil deyirmiş ki, Naxçıvan vilayət partiya komitəsində olmuş və orada iki nəfər büro üzvü ona demişdir ki, Naxçıvanın Ermənistana birləşdirilməsi haqqında vilayət komitəsinin qarşısında məsələ qaldırılmışdır. Mən əvvəlcə buna inanmadım, həmin yoldaşların yanında dedim ki, şayiədir, heç bir vaxt belə şey ola bilməz. Onlardan ayrıldım. Lakin eşitdiyim mənə bir dərd oldu, məni daxilən narahat etdi. Bəla burasındadır ki, bu yaxınlarda Yerevanda ezamiyyətdə olduğum zaman buna bənzər söhbət eşitmişdim. Mənə elə

gəldi ki, yəqin bu həqiqətdir və tezliklə həll ediləcəkdir. Bu fikir başımda həyəcan keçirirdim.

Əlbəttə, mən bunu gəlib öz partiya təşkilatıma deməli idim. Ondan məsləhət almalı idim. Lakin o qədər hissə qapılmışdım ki, belə etmədim, dəxli olmayan bir yığıncaqda bunu açıb söylədim.

Mərkəzi Komitədə olduqdan sonra nə qədər böyük səhv etdiyimi dərin peşimançılıq hissilə başa düşdüm. Əlbəttə, mənim hərəkətim kommunistə yaraşmayan bir hərəkətdir. Odur ki, Mərkəzi Komitənin mənə verəcəyi hər hansı bir cəzanı mən qabaqcadan ədalətli hesab edirəm.

5.IV.60. A.Zamanov».

Abbas müəllim bu izahatı aprelin 5-də səhər saat on radələrində Ş.Qurbanovun iş otağında yazmışdı. Büro iclası günortadan sonra olacaqdı. Təbliğat və təşviqat şöbəsinin 35 yaşlı müdiri Abbas müəllimi yola saldıqdan sonra, izahatı götürüb MK-nın 36 yaşlı katibinin yanına getdi. Nazim Hacıyevlə Ş.Qurbanov bu qərara gəldilər ki, Abbas müəllimə «kommunistə yaraşmayan hərəkətinə» görə töhmət elan etsinlər. Onlar Mərkəzi Komitənin birinci katibi Vəli Axundovun kabinetinə üz tutdular. Köməkçi onlara Semiçastnı və Kardaşev yoldaşların içəridə olduğunu bildirdi.

N.Hacıyev A.Zamanovun izahatını V.Axundova təqdim etdi:

-Vəli Yusifoviç, səhvini dərindən başa düşüb...

-Nə təklif edirsiniz?

-Töhmətlə kifayətlənmək olar.

MK-nın ikinci katibi Serniçastnı cin atına mindi:

-Sizin hər ikinizi başa düşmürəm. Nikita Sergeyeviçin Bakıya gəlişi ərəfəsində millətçiyə töhmət? Nə danışırsınız?!

Semiçastnı üzünü respublika Dövlət Təhlükəsizliyi Komitəsinin sədrinə tutdu:

- Aleksandr Vasilyeviç, Zamanovun 37-39-cu illərdə «Azərnəşr»də və «Qlavlit»də fəaliyyətinə aid sənədləri də MK-ya verin.

***

Azərbaycan Respublikası SPİHMDA-da Abbas Zamanov haqqındakı çoxsəhifəlik yoxlama materialları arasında Semiçastnının dediyi sənədlərdən ancaq birisinə rast gəldik. Bu, Qlavlitin 1938-ci il 14 mart tarixli 32 nömrəli əmrindən çıxarışdır Əmrdə deyilir: «Azərbaycanca bütün jurnal və qəzetlər üzrə müvəkkil işləyən Zamanov Abbas Fəttah oğlu ərizəsinə əsasən işdən azad olunsun».

Görünür, DTK-da çalışan məmurlar Abbas Zamanovun gözdən keçirdiyi qəzet və jurnal materialları arasında azərbaycançılığı təbliğ edən əsərləri aşkara çıxarmışlar...

Mir Cəfər Bağırov iş başında olsaydı, DTK rəhbərlərinin arayışlarını özlərinə qaytarardı, 1938-ci ildə olduğu kimi, 1960-cı ildə də Abbas Zamanovu ermənilərin əlindən alardı... Əfsuslar ki, 60-cı illərdə Azərbaycan KP MK Azərbaycan DTK-sı əhatəsində idi. Budur, həmin il aprel ayının 8-də, büro iclasından dərhal sonra ADU-nun baş müəllimi haqqında çıxarılmış qərar və bu qərara əlavə olunmuş məktubların surətləri Moskvaya, Sov.İKP MK yanında Partiya Nəzarəti Komitəsinə göndərilmişdir. Abbas Zamanovun «burjua millətçisi» olması ümumittifaq miqyasında yayılmışdır. Moskvaya göndərilmiş sənədlərlə 40 ildən sonra tanış oluruq.

1960-cı il martın 30-da Azərbaycan KP MK-ya Azərbaycan SSR maarif naziri professor M.Mehdizadədən məktub daxil olmuşdur. Məktubda oxuyuruq:

«Aşağıdakı məlumatı verməyi zəruri hesab edirəm.

Dünən, martın 29-da Azərbaycan SSR Elmlər Akademiyasında xalq şairi S.Vurğunun anadan olmasının ildönümü münasibətilə tədbir keçirilmişdir. Tədbir Elmlər Akademiyası, Azərbaycan Dövlət Universiteti və Azərbaycan Yazıçılar İttifaqı tərəfindən təşkil olunmuşdur.

Yığıncağı giriş sözü ilə akademik Məmməd Arif Dadaşzadə açdı. Professor Cəfər Xəndan şairin yaradıcılığı və fəaliyyəti barədə məruzə etdi. Bundan sonra şair və yazıçılar S.Vurğun haqqında xatirələrini söylədilər. Onların arasında Azərbaycan Dövlət Universitetinin müəllimi Abbas Zamanov da vardı. Abbas Zamanov çıxışında bildirdi ki, Naxçıvandan gəlmiş hansısa tanışı ona məlumat verib ki, guya hansısa təşkilatlar (konkret adlarını demədi) Naxçıvan MR»nin Azərbaycan SSR-dən ayrılaraq Ermənistanla birləşdirilməsi barədə məsələ qaldırmışlar.

Belə bir əsassız, məsuliyyətsiz və provokasiya məqsədilə olan çıxış zaldakılar tərəfindən alqışlarla qarşılandı ki, bunların da 90 faizindən çoxu ADU və APİ tələbələri idi.

Yığıncağın sədri M.A.Dadaşzadə Rəyasət Heyəti üzvlərinin yekdil fikrini ifadə edərək, Abbas Zamanovun sözlərini kəskin surətdə rədd etdi; göstərdi ki, onun dediklərinin heç bir əsası yoxdur, siyasi cəhətdən yanlışdır və kütlələri çaş-baş salır. Lakin akademik M.A.Dadaşzadənin çıxışı auditoriyadakılar tərəfindən dərk edilmədi, Abbas Zamanovun yerindən dediyi replikaya isə əl çaldılar.

Belə hesab edirəm ki, A.Zamanovun göstərilən məlumatı əsassızdır və tələbələrin buna münasibəti səhvdir. Çünki bunlar Lenin milli siyasətinə daban-dabana ziddir və belə halların qarşısını almaq məqsədilə ən qəti tədbirlər görülməlidir. O cümlədən:

1.Bu günün axırınadək tədbirin müvafiq təşkilatçıları Azərbaycan KP MK-ya çağırılsın, baş vermiş hadisə müzakirə edilsin.

2.Naxçıvan MSSR-in Azərbaycan SSR-dən ayrılması barədə Azərbaycan Dövlət Universitetinin müəllimi Abbas Zamanovun məlumatı heç bir əsası olmayan məsuliyyətsiz çıxış kimi pislənilsin.

3.Qabaqcadan hərtərəfli hazırlıq işi aparılmaqla, ADU və APİ partiya təşkilatlarının qapalı yığıncaqları keçirilsin, Abbas Zamanovun məsuliyyətsiz bəyanatı və buna tələbələrin düzgün olmayan münasibəti kommunistlərin özləri tərəfindən pislənilsin, bu sahədə siyasi-tərbiyəvi işin yaxşılaşdırılması üçün tədbirlər görülsün.
4.ADU və APİ tələbələri üçün Sovet Azərbaycanının 40 illiyi münasibətilə məruzələr təşkil edilsin və bu məruzələrdə SSRİ-də Lenin milli siyasətinin qələbəsi məsələlərinə geniş yer verilsin, tələbələrin belə məsələləri düzgün qavramasına nail olunsun.

Azərbaycan SSR

Maarif naziri M.M.Mehdizadə

30 mart 1960-cı il, Bakı şəhəri»

Ertəsi günü, 1960-cı il martın 31-də Azərbaycan Yazıçılar İttifaqından rəsmi məktub daxil olmuşdur:

«Mərhum xalq şairimiz S.Vurğunun vəfatından sonra hər il bir ənənə olaraq yazıçılarımız, alimlərimiz və incəsənət işçilərimiz onun xatirə gecəsini keçirirlər.

Bu münasibətlə mart ayının 29-da axşam saat 8-də Azərbaycan Yazıçılar İttifaqı Elmlər Akademiyası, S.M.Kirov adına Universitet, radio verilişləri və televiziya komitəsi ilə birlikdə şairin xatirə gecəsini təşkil etmişdir. Gecədə giriş sözü söyləmək akademik-yazıçı M.Arifə, məruzə isə filoloji elmləri doktoru professor C.Xəndana tapşırılmışdır.

Gecədə çıxış etmək üçün Azərbaycan Yazıçılar İttifaqı tərəfindən aşağıdakı siyahı tərtib edilmişdir:

Səməd Vurğun gecəsində şairlərin çıxışı:

1.Süleyman Rüstəm
2.Nəbi Xəzri
3.Əliağa Kürçaylı
4.İbrahim Kəbirli
5.İslam Səfərli
6.Tələt Əyyubov
7.Bəxtiyar Vahabzadə
8.Hüseyn Hüseynzadə
9.Zeynal Xəlil
10.Osman Sarıvəlli
11.H.Xəlil Rza

Həmin gecədə şairlərimizin oxuyacağı əsərlər əvvəlcədən nəzərdən keçirilmişdir.

Gecədə öz çıxışı ilə biz yazıçıları qəzəbləndirən və təəccübləndirən Abbas Zamanovun (Kirov adına Universitetin müəllimi) adı bizim tərtib etdiyimiz siyahıda olmamışdır.

Azərbaycan Yazıçılar İttifaqının katibi İlyas Əfəndiyev, Azərbaycan Yazıçılar İttifaqının ilk partiya təşkilatının katibi Zeynal Xəlil, Azərbaycan Yazıçılar İttifaqının katibi Nəbi Babayev.

31 mart 1960-cı il».

1960-cı ilin apreli Azərbaycan KP MK-ya Abbas Zamanov haqqında rəsmi məktublarla təqvimə düşmüşdür.

Aprelin 1-də Azərbaycan *KP* MK üzvləri A.Bayramov və M.Mehdizadə imzaladıqları məktubda yazırdılar: «Abbas Zamanovun fitnəkar və siyasi cəhətdən ziyanlı çıxışı zəhmətkeşlərin beynəlmiləl tərbiyəsi işinə böyük zərbə vurur. Bu hərəkətlərinə görə, Abbas Zamanov, fikrimizcə, ən ciddi partiya cəzası almalıdır - partiya sıralarından kənar edilməlidir».

Aprelin 4-də MK aparatının məsul işçiləri olan M.Ziyadov, Z.Hüseynova və N.Gəncəli 5 səhifəlik arayış tərtib etmişlər. Arayış belə adlanır: «Xalq şairi S.Vurğunun xatirəsinə həsr edilmiş gecədə S.M.Kirov adına ADU-nun müəllimi, Sov. İKP üzvü Abbas Zamanovun partiyaya zidd çıxışı barədə».

Aprelin 5-də həmin məsələ üzrə MK bürosunun qərarının sərlövhəsində «partiyaya zidd» sözləri «partiya üzvünə yaraşmayan» sözləri ilə əvəz edilmişdir.

Qərarda deyilir:

«Azərbaycan Dövlət Universitetinin baş müəllimi Zamanov (hörmətsizliyə bax, adı və atasının adı göstərilmir-T.Q.) S.Vurğunun təvəllüdü gününə həsr olunmuş ədəbi gecədə özünü ləyaqətsiz aparmış, yığıncağın aparıcısına fırıldaq gələrək çıxış etmiş və burjua-millətçi hərəkətlərə yol vermişdir.

Zamanov öz çıxışında böhtancasına bildirmişdir ki, guya Naxçıvan MSSR-ni Ermənistan Respublikasına birləşdirmək barədə məsələ qaldırılmışdır. Qatı millətçiliklə dolu bu uydurmasını o, yaradıcılığı həmişə proletar beynəl-miləlçiliyi, xalqlar dostluğu və doğma Kommunist Partiyası işinə sədaqət ideyaları ilə bəhrələnmiş böyük xalq şairinin adı ilə əlaqələndirmişdir. Zamanovun fitnəkar çıxışı, təəssüf ki, zaldakı dərrakəsiz tələbələr tərəfindən müdafiə edilmişdir.

Hərəkətlərinin MK bürosunda müzakirəsi gedişində Zamanov özünü səmimi aparmamış, kobud səhvə yol verdiyini etiraf etməmiş və buna partiya mövqeyindən yanaşmamışdır. Zamanovun MK bürosunda davranışı açıq-aşkar partiya üzvünə yaraşmayan hərəkətdir.

Azərbaycan KP Mərkəzi Komitəsi Zamanovun fitnəkar çıxışına Azərbaycan Dövlət Universitetində müəllim və tələbələr arasında ideya-siyasi işin olduqca zəif aparıldığını, partiya təşkilatının və rektorluğun fəaliyyətinin aşağı səviyyədə olduğunun nəticəsi kimi baxır.

Azərbaycan KP MK qərara alır:

1.Sov. İKP üzvü Zamanovun partiyaya zidd, fitnəkar, burjua-millətçi çıxışı pislənilsin.

2.ADU-nun partiya təşkilatına təklif olunsun ki, A.Zamanovun gələcəkdə Sov. İKP sıralarında qalıb- qalmaması məsələsinə baxsın.

3. ADU-nun rektorluğundan və partiya komitəsindən tələb edilsin ki, bu qərardan lazımi nəticə çıxarsınlar, kommunistlərin, komsomolçuların və bütün tələbə-gənclərin sovet vətənpərvərliyi, xalqlar dostluğu və Sovet İttifaqı Kommunist Partiyasına sədaqət ruhunda tərbiyələnməsi sahəsində işlərin gücləndirilməsinə yönəldilmiş konkret və təsirli tədbirlər hazırlayıb həyata keçirsinlər.»

***

M.C.Bağırovun rəhbərliyi illərində Azərbaycan KP MK bürosunda heç bir zaman Azərbaycan Dövlət Universitetinin müəllimi və ya tələbəsi barədə belə rüsvayedici və kəskin qərar qəbul edilməmişdir. Abbas Zamanova gəldikdə isə, M.C.Bağırov onu şəxsən tanıyırdı, «burjua millətçisi» olduğu üçün məsul vəzifələrdə işləməsinə şərait yaradırdı. Uşaqlıq və yeniyetməlik çağlarını yetimxanada keçirmiş, komsomol təşkilatlarında çalışmış, respublika qəzetlərində və «Azərnəşr»də rəhbər sahələrdə işləmiş fitri istedad sahibi iki dəfə M.C.Bağırovun yanına çağırılmışdı. 1940-cı ildə M.F.Axundov adına Azərbaycan opera teatrının və filarmoniyasının direktoru təyin olunanda, bir də Azərbaycan artistlərinin Təbrizə qastrol səfərinin rəhbəri kimi yola düşəndə. Hər dəfə də Azərbaycan rəhbəri ayağa durub onunla salamlaşmış, hal-əhval tutmuş və xeyir-dua verib uğurlar arzulamışdı.

İndi isə - 1960-cı il aprelin 5-də büro iclası başlanmamışdan əvvəl dəhlizdə onun salamını alan yox idi. Büro iclasında isə «Mən çox həyəcanlıyam, ona görə icazə verin, azərbaycanca danışım»-deyə müraciət edəndə, onun sözünü ağzında qoydular. Dedilər ki, sən elə bu müraciətinlə millətçi olduğunu sübut edirsən. Qərara da yazdılar ki, özünü səmimi aparmamışdır...

Azərbaycanın böyükləri Abbas Zamanovu həqiqəti dediyi üçün Universitetdən kənar edərək çöllərə atandan sonra, beynəlmiləlçilik yolunda yeni addımlar atdılar. ADU-nu yoxlayanlar arayışların birində yazırdılar: «Kafedraların rəhbərləri, aspiranturaya namizədlər seçilərkən və tələbələrə fərdi təqaüdlər təyin olunarkən, heç də həmişə Universitetin çoxmillətli tərkibi nəzərə alınmır. Məsələn, universitetin 81 aspirantından yalnız 7 nəfəri digər millətlərin nümayəndəsidir. Fərdi təqaüd alan 18 tələbə arasında qeyri-azərbaycanlı olanı yoxdur».

***

Azərbaycan böyükləri «burjua millətçisi» Abbas Zamanovun acığına Ermənistan SSR-in 40 illiyini Azərbaycan xalqının «doğma və əziz bayramı» kimi qeyd edirdilər. Mərkəzi Komitənin 1960-cı il 9 iyul tarixli büro iclasının 17 nömrəli protokolunu nəzərdən keçiririk. Burada Litva SSR və Estoniya SSR-in yubiley ildönümünə təbriklər göndərmək qərara alınır. Ermənistan SSR-in 40 illiyi ilə əlaqədar isə geniş qərar qəbul olunur. Həmin qərarda aşağıdakı maddələr də vardır:
9.Respublikanın nəşriyyatlarına tapşırılsın ki, Ermənistan SSR-in 40 illiyinə həsr olunmuş kitabların, broşuraların və digər ədəbiyyatın buraxılmasını təmin

etsinlər. Bu kitab və broşuralara müəllif kimi Ermənistanın partiya, sovet işçilərini, elm, ədəbiyyat və incəsənət xadimlərini, istehsalat qabaqcıllarını cəlb etsinlər.
10.Azərbaycan SSR idman cəmiyyətləri və təşkilatları ittifaqına tapşırılsın ki, Ermənistan SSR-in 40 illiyi şərəfinə idman yarışları təşkil etsin.
11.Ermənistan SSR-in 40 illiyinə hazırlıq və onun keçirilməsi üçün aşağıdakı tərkibdə komissiya təşkil olunsun: N.M.Hacıyev, Ə.H.Kərimov, .A.Allahverdiyev, Ş.Q.Qurbanov, A.S.Bayramov, M.Ə.Əlizadə, M.S.İsgəndərov, K.A.Hüseynov, Ə.C.Ləmbəranski, Y.H.Məmmədəliyev, Z.Z.Şükürova, N.S.Şahnazarov, Mehdi Hüseyn, Q.Qarayev, M.A.Tərlanov, F.A.Məlikov.

***

Azərbaycanda xalqımızın ən görkəmli oğul və qızlarının başı Ermənistan bayramına qarışdığı aylarda, Yerevanda, Moskvada və daşnakların yuva saldıqları başqa şəhərlərdə Azərbaycan əleyhinə məqalələr hazırlanırdı. Nə qədər qəribə görünsə də, daşnakların mənafeyi bu dəfə Sov. İKP ilə Ramqavar burjua-millətçi partiyasını qardaşlaşdırmışdı. M.C.Bağırovu Azərbaycan rəhbərliyindən uzaqlaşdıran Mikoyan və Suslov kimilər Kreml ilə ABŞ-ın Boston şəhəri arasında körpü qurmuşdular. Türk düşmənlərinin birləşmiş olduğu Ramqavar partiyasının orqanı «Baykar» qəzeti Kreml divarlarını da dəlib içəri keçirdi.

Qəzetin 1960-cı il oktyabr ayının 18-də çıxan sayında «İldönümünə ən böyük hədiyyə» sərlövhəli redaksiya məqaləsi dərc olunmuşdu. Qəzetin nüsxəsi Moskvaya çatdırılandan sonra, həmin məqalə ermənicədən ruscaya tərcümə olunmuş, Anastas İvanoviçə çatdırılmış, o da öz növbəsində «bu tarixi yazı» ilə Suslov və Xruşşovu tanış etmişdi. «Üçlüyün» məsləhəti ilə məqalə Azərbaycan KP MK-ya göndərilmişdi. 1960-cı il dekabrın 9-da Azərbaycan KP MK katibi Vəli Axundova təqdim olunmuş məktubda «İldönümünə ən böyük hədiyyə»nin nədən ibarət olduğu aşkaranə göstərilirdi: «Bu böyük hədiyyə bundan ibarət olacaq ki, erməni-sovet dövlətinin yaradılmasının 40 illiyi ilə əlaqədar Naxçıvan və Qarabağ Ermənistana qatılacaqdır».

M.C.Bağırov iş başında olsaydı bu məktubu alan kimi, hərbi təyyarəyə əyləşərdi, Moskvada yerə enərdi və birbaşa Kremlə gedib üzərində «Azərbaycanın Prezidentinə» yazılmış sarsaqlamanı parça-parça edərək Xruşşovun, Suslovun, Mikoyanın sifətinə çırpardı və deyərdi: «Əclaflar, bunu görməyəcəksiniz!!!».

Əfsusiar ki, M.C.Bağırovdan sonra Azərbaycanın kommunist rəhbərləri daşnaklar qarşısında cəsarəti güzəştlə əvəz etmişlər.

Budur, 1960-cı il dekabrın 9-da Vəli Axundov adı çəkilən məktubu dərkənarla MK katibi Nazim Hacıyevə göndərir. Nazim Hacıyev təbliğat və təşviqat şöbəsinin müdiri Şıxəli Qurbanov ilə birlikdə Bostonda yazılmış, Moskvada ermənicədən ruscaya tərcümə olunmuş məqalədəki bütün iddiaları alt-üst edən inkaredilməz dəlillərlə dolğun cavab məktubu hazırlayır. Vəli Axundov

səmim-qəlbdən hörmət etdiyi və xatirlərini istədiyi katibin və şöbə müdirinin yazdıqları ilə tamamilə razı olduğunu bildirir, məktuba imza atır və Moskvaya yola salır.

Lakin Azərbaycanın cavab məktubu Moskvanı razı salmır. Nazim Hacıyev «bəzi mülahizələrə aydınlıq gətirmək üçün» Kremlə dəvət olunur.

Bəli, Naxçıvanın və Yuxarı Qarabağın Ermənistana «hədiyyə edilməsinin» qarşısını M.C.Bağırovdan sonra onun sədaqətli şagirdi Nazim Hacıyev cəsarətli çıxışı ilə alır. Xruşşovun, Suslovun və Mikoyanın atmacalarını dəf edir, daşnak oyununa son qoyur. Başqa sözlə, mübarizədə M.C.Bağırov əzmini nümayiş etdirir: «Azərbaycanlılar yaşayan Zəngəzuru, Borçalını, Dərbəndi bizə qaytarın, sonrasına sonra baxarıq».

Azərbaycan Respublikası SPİHMA-də Nazim Məmmədiyyə oğlu Hacıyevin şəxsi iş materiallarını oxuyarkən yəqin edirsən ki, o, fitri istedad sahibi olmuşdur. Pedaqoji məktəbi bitirib, ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin filoloji fakültəsinin tələbəsi olmuşdur. 20 yaşlarından rəhbər işlərdə çalışan gənc, hərtərəfli biliyə malik ziyalı kimi hörmət qazanmışdır. Şeirlər yazmış, tar çalmışdır. O, 1951-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun partiya komitəsi katibi vəzifəsində işləmişdir. 17 il bu ali məktəbə rektorluq etmiş Bahadur Eyvazovla əl-ələ vermiş, ali tibb ocağı sözün əsl mənasında təmizlik və düzlük mərkəzinə çevrilmişdir.

1951-ci ildə 27 yaşlı işgüzar təşkilatçı Azərbaycan LKGİ MK-nın təbliğat və təşviqat üzrə katibi seçilmişdir. Bir ildən sonra isə M.C.Bağırovun imzaladığı bir sənədlə o, Azərbaycan komsomolunun lideri olmuşdur:

«Azərbaycan K(b)P MK Bürosu iclasının 1952-ci il 2 sentyabr tarixli 113 nömrəli protokolundan çıxarış: «AZƏRBAYCAN LKGİ MK-NIN BİRİNCİ KATİBİ barədə 1945-ci ilin dekabrından ÜİK(b)P üzvü, partiya bileti 8327751, hazırda Azərbaycan LKGİ MK katibi vəzifəsində işləyən Nazim Məmmədiyyə oğlu Hacıyev yoldaş Azərbaycan LKGİ MK-nın birinci katibi təsdiq edilsin.

ÜİK(b)P Mərkəzi Komitəsindən xahiş olunsun ki, bu qərarı təsdiq etsin.»

Azərbaycan gənclərinin sevimlisi olan Nazim Hacıyev haqqında elə həmin ilin sonlarında mərkəzi təşkilatlara imzasız məktublar yazılmışdır. M.C.Bağırov bu məktubları oxuyub yoxlamaq üçün dərkənar qoymamışdır. İrəli çəkdiyi və ümid bəslədiyi Nazim Hacıyevin yazılı izahatı ilə kifayətlənmişdir. Nazim Hacıyevin 1952-ci il dekabrın 19-da imzaladığı izahatda oxuyuruq:

«Azərbaycan KP MK katibi M.C.Bağırov yoldaşa

Tərcümeyi-halıma əlavə olaraq, Sizə aşağıdakıları bildirirəm: Əvvəla, xalam oğlu Babayev Abil Mustafa oğlu barədə. O, Mirbəşir rayonu meyvə-tərəvəz şitilliyinin direktoru işləyərkən, sürücülük vərəqəsi olmadığına baxmayaraq, avtomaşını idarə etmiş, nəticədə qəza törətmiş və 6 ay müddətinə azadlıqdan məhrum olunmuşdur. Bundan başqa o, vəzifə cinayətlərinə görə də məsuliyyətə cəlb edilmişdir.

İkincisi, analığımın qohumu barədə. Doğma anamın vəfatından sonra atam Həsənova Maral ilə evlənmişdir. Qazıyev Hüseyn onun doğma əmisi deyildir. H.Qazıyev həqiqətən 1930-cu ildə Nuxa banditizminin qatı iştirakçılarından biri olmuşdur və İrana qaçmışdır.

Azərbaycan LKGİ MK katibi N.M.Hacıyev».

M.C.Bağırov İrana qaçan Hüseyn Qazıyevin izinə düşməmişdir, Nazim Hacıyevin qol-qanad açaraq həvəslə işləməsi üçün hər cür şərait yaratmışdır.

2000-ci iidə Bakıda «Səda» nəşriyyatı tərəfindən buraxılmış kitabında Aydın Hacıyev atasının M.C.Bağırovdan sonra fəaliyyətindən bəhs edərkən belə yazır: «1953-cü ildə Bağırov vəzifədən uzaqlaşdırıldıqdan sonra Nazim Hacıyev uzun müddətli məzuniyyətdə olarkən, bir qrup gənclər «respublikanın komsomolçuları adından» təklif edirdilər ki, Azərbaycan komsomolunun Mərkəzi Komitəsinin təcili plenumu çağırılsın və respublika komsomol təşkilatının «bağırovçulardan» təmizlənməsi məsələsinə baxılsın. Sözsüz ki, onlar «gənc bağırovçular» dedikdə ilk növbədə «baş fiqur» kimi Nazim Hacıyevi nəzərdə tuturdular».

Azərbaycan xalqının düşmənləri Nazim Hacıyevi respublikada rəhbər vəzifələrdən uzaqlaşdırmağa nail olmamışlar. Bunun səbəblərindən biri də odur ki, M.C.Bağırovdan sonra Azərbaycana rəhbərlik edən İmam Mustafayev və Vəli Axundov Moskvada xitabət kürsüsündə Xruşşovun qarşısında M.C.Bağırovu pisləsələr də, Bakıda iş başında M.C.Bağırov məktəbinin yetişdirmələrinin, o cümlədən Nazim Hacıyevin qayğısına qalırdılar.

Azərbaycan KP MK-nın 1956-cı il 2 noyabr tarixli büro iclasının 57 nömrəli protokolundan çıxarışda oxuyuruq:

**«N.Hacıyev və Ə.Vəzirov yoldaşlar barəsində**

Nazim Məmmədiyyə oğlu Hacıyev yoldaş Azərbaycan LKGİ MK-nın birinci katibi vəzifəsindən azad edilərək, Azərbaycan KP MK-nın elm və məktəblər şöbəsinin müdiri təsdiq edilsin.

Azərbaycan LKGİ MK plenumuna tövsiyə olunsun ki, Ə.X.Vəzirov yoldaş Azərbaycan LKGİ MK-nın ikinci katibi vəzifəsindən azad edilərək birinci katibi seçilsin.

Azərbaycan KP MK katibi İ.Mustafayev».

Azərbaycan KP MK-nın 1961-ci il 9 sentyabr tarixli plenumunun qərarında deyilir:

**«Azərbaycan KP MK katibləri haqqında**

Ə.N.Əlixanov, S.A.Mirzəyev və N.C.Hacıyev Azərbaycan KP MK katibləri seçilsinlər.

Azərbaycan KP MK katibi V.Axundov».

...N.Hacıyev katib vəzifəsində çox işləyə bilmədi. Ağır xəstəlik güc gəldi. Moskvaya - Kremlə yox, Kreml xəstəxanasına üz tutdu. Cərrahı Abramyan oldu. Daşnaklar sevindilər: «Ey türk balası, həyatın erməni əlindədir.

1962-ci il iyul ayının 30-da 38 yaşında əbədiyyət yuxusuna daldı.

***

...N.Hacıyevin dəfn mərasimində göz yaşlarını ürəyinə axıdanlar arasında M.C.Bağırov kadrlar ordusunun gənc və döyüşkən bir əsgəri də vardı - mərhumun əqidə qardaşı Şıxəli Qurbanov. Bir il idi ki, respublika Elmlər Akademiyası Nizami adına Ədəbiyyat və Dil İnstitutunun ədəbi əlaqələr şöbəsinin müdiri vəzifəsində çalışırdı.

MK-nın şöbə müdirliyindən EA-nın şöbə müdirliyinə keçirilməsi səbəbləri respublika rəhbəri Vəli Axundovun imzaladığı qərarda göstərilməmişdi.

Azərbaycan KP Mərkəzi Komitəsinin 1961-ci il 15 aprel tarixli 51 nömrəli qərarı ilə arxivdə tanış oluruq:

«Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri Ş.Q.Qurbanov başqa işə keçməsi ilə əlaqədar vəzifəsindən azad edilsin və həmin vəzifəyə MAQazıyev təsdiq olunsun.

Azərbaycan KP MK katibi V.Axundov».

Şıxəli Qurbanovun başqa işə keçməsi səbəbləri Azərbaycan ictimaiyyətinə yaxşı məlumdu. Xalqımızın milli dəyərlərinin keşiyində cəsarətlə duran vətənpərvər şəxsiyyət dövlət təhlükəsizliyi orqanlarının hədəfə götürdüyü nişangah idi. Bu nişangahın həndəvərindən xeyli «şparqalka» asılmışdı:

«Nəriman Nərimanovun rnüdafiəçisidir», «Türkmənçay müqaviləsini müsavatçı mövqeyindən şərh edir», «Zamanov məsələsində Semiçastnı yoldaşa kobud cavab qaytarıb», «Puşkindən kitab yazsa da, rusları sevmir»...

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Şıxəli Qurbanov barəsində indiyədək oxuculara məlum olmayan bir qovluq da vardır.

Burada Azərbaycan KP MK Katibliyinin 1959-cu il avqustun 12-də keçirilmiş iclasının materialları cəmləşdirilmişdir.

Azərbaycan KP MK İşlər İdarəsi müdiri Ə.T.Məmmədovun 1959-cu il avqustun 3-də V.Axundov yoldaşın adına yazdığı arayışda oxuyuruq:

«Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri Ş.Q.Qurbanov yoldaş «M-20» markalı avtomaşında Ağdam rayonunda ezamiyyətdə olmuşdur, avtomaşının sürücüsü B.Səttarzadədir.

Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi N.Şahnazarov yoldaş bu il iyul ayının 25-də zəng vurub bildirmişdir ki, Ş.Qurbanov yoldaşın içərisində olduğu avtomaşın qəza törətmişdir.

Azərbaycan SSR Daxili İşlər Nazirliyinin Dövlət Avtomobil Müfəttişliyinin baş inspektoru Qəhrəmanov yoldaş məlumatı yerində yoxlayaraq müəyyən etmişdir ki, qəzanın başlıca səbəbi maşının saatda 70 km.-dən çox sürətlə hərəkət etməsi olmuşdur.

Qəza nəticəsində avtomaşın sıradan çıxmışdır, onu bərpa etmək üçün bir çox hissəsini təzəsi ilə əvəz etmək lazım gələcəkdir.

Qəza nəticəsində Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin katibi B.İbrahimov yoldaş, sürücü Səttarzadə, eləcə də Ş.Qurbanov yoldaş xəsarət almışlar. B.İbrahimov xəstəxanada yatır, sürücü xəstəlik bülletenindədir. Ş.Qurbanov iş başındadır».

İşlər müdirinin arayışına respublika Daxili İşlər Nazirliyi Dövlət Avtomobil Müfəttişliyinin baş inspektorunun məktubu əlavə olunmuşdur.

Məktubda göstərilir ki, Dağlıq Qarabağ Muxtar Vilayəti avtomobil müfəttişliyi idarəsinin tapşırığı ilə vilayət kənd təsərrüfatı idarəsinin mühəndisi Petrosyan Suren Poqosoviç M-20 markalı 45-93 №-li avtomaşının yol qəzası barədə məlumat hazırlamışdır.

1959-cu il iyul ayının 27-də yazılmış məlumatda kənd təsərrüfatı idarəsinin mühəndisi S.Petrosyan iddia edir ki, qəza iyulun 24-də Şuşa-Ağdam magistral yolunun Stepanakert yeyinti sənaye kombinatı yaxınlığında baş vermişdir.

Qəza nəticəsində dəyirmana gedən yol üzərindəki körpünün başlanğıc hissəsi dağılmışdır. 5 ədəd körpü daşı 1,5 metr məsafəyə səpələnmişdir. Daşların ölçüsü belədir:

I daş. 42sm. x 67sm. x 38sm. = 0,1069m$^3$
II daş. 65sm. x 99sm. x 40sm. = 0,2574 m$^3$
III daş. 70sm. x 70sm. x 22sm. = 0,1078 m$^3$
IVdaş. 85 sm. x 48sm. x 16sm. = 0,0653 m$^3$
Vdaş. 54sm. x 90sm. x 17sm. = 0,0826 m$^3$
Beş daşın ümumi həcmi 0,62 kubmetrdir.

Daşların daşnaklar tərəfindən atıldığını yaxşı bilən Şıxəli Qurbanov qəza məsələsinə aid əsl həqiqəti təfərrüatıyla öz dəst-xətti ilə yazmışdır:

**«Azərbaycan KP MK-nın birinci katibi V.Y.Axundov yoldaşa**

## İZAHAT

Mərkəzi Komitə Bürosunun tapşırığına əsasən mən bu il iyulun 14-də Ağdam rayon partiya komitəsinin geniş plenumunda Azərbaycan KP MK-nin IX plenumunun yekunları barədə məruzə etməliydim. Bu tapşırığı yerinə yetirmək üçün iyulun 13-də Ağdam şəhərinə gəldim. Rayondakı işlərin vəziyyəti ilə tanış olmağa başladım.

İkinci gün plenumdan sonra respublika Nazirlər Sovetinin sədri M.İsgəndərov yoldaş Ağdama gəldi. O, telefonla MK katibi D.Yakovlev yoldaşla danışdı, mənə əlavə tapşırıqlar verdi. Bunları yerinə yetirmək məqsədilə daha iki gün Ağdamda qalmalı oldum. Həmin müddət başa çatarkən, Bakıdan F.Mustafayev

yoldaş mənimlə telefonla danışdı və bildirdi ki, katibliyin tapşırığına əsasən rayon partiya komitəsi bürosunun fəaliyyətini hərtərəfli öyrənmək üçün mən rayonda qalmalıyam.

İyulun 25-də plana görə bütün işlərimi başa çatdırdım. Həmin gün Stepanakertdən vilayət komitəsinin katibi (o buna qədər də zəng vurmuşdu) B.İbrahimov yoldaş zəng vurdu və məndən çox xahiş etdi ki, heç olmasa, bir saatlığa ona baş çəkim. Mən yaxından tanıdığım bu ləyaqətli insanın sözünü yerə salmadım.

Sonradan mənə məlum oldu ki, B.İbrahimov bir neçə yoldaşla Stepanakertin 3-4 kilometrliyindəki bir çayın qırağında açdığı süfrə başına toplaşıblar. Məclisdə İbrahimov arvadı ilə, bəstəkar Süleyman Ələsgərov arvadı ilə, biologiya elmləri doktoru Səttar müəllim arvadı ilə, tarix elmləri namizədi S.İbrahimov arvadı ilə iştirak edirdilər. Süfrədə içki yox idi.

Axşam yeməyimiz cəmi bir saat çəkdi. İbrahimovun maşını ilə S.Ələsgərov və arvadı Şuşaya yollandı, onun özü və arvadı isə bizim maşında Stepanakertədək getməli idilər.

Avtomaşınımızın akkumulyatoru saz olmadığından sürücü ehtiyatlı hərəkət etsə də, qəza baş verdi: maşın kiçik bir körpünün ucuna dəyərək suya düşdü. Mən maşının şüşəsi sınmış pəncərəsindən dərhal çölə çıxıb yol yoldaşlarımın dadına çatdım. İki dəqiqə keçməmiş başqa maşın saxladım və biz Stepanakertə yollandıq. Mən Stepanakertdən Şuşaya qalxdım və orada gecələdim. Ertəsi günü eşitdim ki, N.S.Şahnazarov yoldaş maşın qəzası ilə maraqlananda, Şuşadakı işçilərdən birisi ona demişdir ki, mən guya maşında olmamışam, Şuşadaymışam. Bu barədə mən telefonla MK katibi Q.Cəfərli yoldaşa məlumat vermişəm.

3.VIII.59, Ş.Qurbanov».

Stepanakertdə «gecələmək istəməyən» Şıxəli Qurbanov haqqında 1959-cu il avqustun 12-də qəbul edilmiş qərar, sözsüz ki, şahnazarovları sevindirmişdi. Həmin qərarla tanış olun:

**«Ş.Qurbanov yoldaşın intizamsızlıq hərəkəti barədə**

Azərbaycan KP MK katibliyi qeyd edir ki, Azərbaycan KP MK-nın təbliğat və təşviqat şöbəsinin müdiri Ş.Q.Qurbanov yoldaş Ağdam rayonunda ezamiyyətdə olarkən intizamsızlıq hərəkətinə yol vermişdir. 1959-cu il iyulun 25-də Qurbanov yoldaş icazəsiz olaraq Ağdamdan çıxıb, Dağlıq Qarabağ vilayət komitəsinin katibi B.İbrahimov tərəfindən təşkil olunmuş ziyafətdə iştirak etmişdir. Ziyafətdən qayıdan zaman qəza baş vermiş və maşının içərisində olan Qurbanov, İbrahimov, bir də sürücü zədələnmiş, «Pobeda» maşını isə tamamilə sıradan çıxmışdır.

Azərbaycan KP MK Katibliyi qərara alır:

Ağdam rayonunda xidməti ezamiyyətdə olarkən intizamsızlığa yol verdiyinə görə Ş.Q.Qurbanov yoldaşa xəbərdarlıq edilsin, onun yüksək partiya işçisi davranışına uyğun olmayan bu hərəkəti pislənilsin.

Azərbaycan KP MK katibi V.Axundov».

...1964-cü ilin oktyabr ayında Sov. İKP MK-nın plenumu keçirildi. Plenum Nikita Sergeyeviç Xruşşovu hakimiyyətdən uzaqlaşdırdı. Leonid İliç Brejnev Sov. İKP MK-nın birinci katibi, 1966-cı ildən isə Baş katibi oldu. A.N.Kosıgin SSRİ Nazirlər Sovetinin sədri təyin olundu.

Azərbaycanda o illər Dövlət Təhlükəsizliyi Komitəsinin sədri işləyən Sviqun bacanağına - Brejnevə Azərbaycanın rəhbər işçiləri barədə bilavasitə məlumat çatdırırdı. V.Axundov ancaq və ancaq müsbət səciyyələndirilirdi. Azərbaycan rəhbərinin hər dəfə Kremldə Brejnev ilə təkbətək görüşü olduqca səmimiyyət şəraitində keçirdi. 1966-cı ilin yanvar ayının sonunda belə bir görüş zamanı L.Brejnev ərk ilə həmsöhbətinə demişdi:

- Semyon Kuzmiç deyir ki, birinci katibimiz özündə nasazlıq hiss edir. - Elədir, Leonid İliç.

-Elə olmasın gərək. Sən həkimsən, həkim də xəstəlikdən şikayətlənər? Biz öz vəzifəmizi ömrümüzün sonunadək icra etməliyik. Üstəlik, sən məndən kiçiksən. Neçə yaş?

-On yaş aramızda fərq var, Leonid İliç.

V.Axundov öz xəstəliyi barədə daha bir söz demədi. Sviqunun fəaliyyətindən razılığını bildirdi. Brejnev sözünə davam etdi:

- Baldızım məndən xahiş edib ki, ərini Moskvaya gətirim. Mən də söz vermişəm. Ancaq bu şərtlə ki, yerinə etibarlı varis hazırlasın.

Varislik məsələsi V.Axundovun ürəyindən oldu.

- Leonid İliç, mənim də yerimə varis vardır. Bir neçə ildən sonra birinci katib olmağa layiq olan kadrdır.

-Kimdir o?

-Şıxəli Qurbanov. MK-nın şöbə müdirliyindən Xruşşovun göstərişi ilə azad edilmişdir.

Brejnevin dodağı qaçdı:

- Nikita kadr tanıyırdı? 3-4 il işlədi, deyirdi başqa vəzifəyə keçirək. Onun üçün kadr da qarğıdalı idi - ək, becər, sonra da silos quyusuna basdır. Dediyin yoldaşın təqdimatını rəsmi qaydada mənə çatdır.

«Bakı-Moskva» qatarı Kursk vağzalından uzaqlaşanda V.Axundov təknəfərlik kupedə şirin xəyallara dalmışdı. Qarla örtülmüş meşələr axşam toranlığında qış nağılını xatırladırdı. Bu nağıllar arasından nədənsə bu dəfə Mir Cəfər Bağırovun boylandığını görürdü. Bu silinməz obraz onun düşüncələrinə hakim kəsilmişdi. V.Axundov çörəyi itirənlərdən deyildi. Onun respublikada rəhbər vəzifələrə irəli çəkilməsi M.C.Bağırovun adı ilə bağlı idi. Onun xeyir-duası ilə V.Axundov Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, səhiyyə nazirinin müavini, MK-nın şöbə müdiri olmuşdu.

V.Axundov yaxşı bilirdi ki, M.C.Bağırovun tələbkarlığında bir səmimiyyət vardı, kin-küdurət saxlamazdı. İşçiləri bəzən çox sərt danlasa da, hətta ağır sözlər desə də, onları Moskvadan respublikamıza gələn məsul işçilər qarşısında

alçaltmazdı. Məcburiyyət və çıxılmaz vəziyyət qarşısında qalaraq tənbeh etdiyi, aşağı vəzifədə işləməyə göndərdiyi kadrları bir müddət keçdikdən sonra daha yüksək vəzifəyə irəli çəkərdi.

1966-cı il fevralın 5-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi Elmlər Akademiyasının şöbə müdirini doğma qardaşı kimi qəbul etdi. Hal-əhval tutdular. Sonra V.Axundov Moskvaya yola salınmış xasiyyətnamənin surətini Ş.Qurbanova təqdim etdi:

-Xahiş edirəm, tanış olasınız.

Həmin xasiyyətnamə ilə arxivdə biz də tanış oluruq:

«XASİYYƏTNAMƏ

Verilir Sov. İKP üzvü Ş.Q.Qurbanov yoldaşa

Şıxəli Qurban oğlu Qurbanov yoldaş 1925-ci ildə anadan olmuşdur. 1946-cı ildən Sov. İKP üzvüdür, təhsili alidir, 1951-ci ildə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunu bitirmişdir. 1965-ci ildə doktorluq dissertasiyası müdafiə etmiş və filologiya elmləri doktoru alimlik dərəcəsi adını almışdır.

1946-cı ildə Sovet Ordusunda xidmətini başa vurduqdan sonra Ş.Qurbanov İttifaq Sənaye-Ticarət İstehsalat Kombinatı kadrlar şöbəsinin müdiri işləmiş, 1947-ci il iyul-sentyabr aylarında isə Bakı şəhər komsomol komitəsinin təlimatçısı olmuşdur.

1947-ci alədək Qurbanov yoldaş V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutu dil və ədəbiyyat fakültəsinin tələbəsi olmuşdur. İnstitutda təhsil illərində Qurbanov yoldaş ictimai-siyasi işlərdə fəal iştirak etmiş, həmkarlar komitəsi sədri, sonra da institut komsomol komitəsinin katibi seçilmişdir.

Ali təhsili başa vurduqdan sonra Qurbanov yoldaş 1951-1952-ci illərdə Azərbaycan Maarif Nazirliyinin orqanı olan «Azərbaycan məktəbi» jurnalında şöbə müdiri işləmiş, 1952-1953-cü illərdə isə V.İ.Lenin adına APİ-nin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuşdur.

1952-ci ildə Qurbanov yoldaş Bakı Şəhər Rayon Partiyası Komitəsinin ikinci katibi seçilmişdir.

1954-cü ilin sentyabrında Qurbanov yoldaş Azərbaycan KP Bakı Şəhər Komitəsi təbliğat və təşviqat şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir. 1955-ci il dekabr ayında rayon partiya komitəsi katibi seçilmişdir.

Qurbanov yoldaş partiya işində özünü siyasi hazırlıqlı, qüvvəli işçi, bacarıqlı təşkilatçı və təbliğatçı kimi göstərmişdir.

1957-ci ilin dekabrında Qurbanov yoldaş Bakı şəhər Partiya Komitəsinin üzvü, Azərbaycan Kommunist Partiyasının XXII və XXIV qurultaylarında isə Azərbaycan KP MK üzvü seçilmişdir.

1957-ci ilin martında Qurbanov yoldaş Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdiri təsdiq olunmuş və həmin vəzifədə 1961-ci ilin aprelinədək işləmişdir. Bundan sonra Azərbaycan SSR Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat və Dil İnstitutunda çalışmış, elmi və ədəbi fəaliyyətlə məşğul olmuşdur.

Ş.Qurbanov tərəfindən bir sıra ədəbi-tənqidi əsərlər, o cümlədən Puşkin yaradıcılığına və Azərbaycan poeziyasına, XIX əsrdə Azərbaycan-rus ədəbi əlaqələrinə həsr edilmiş 3 monoqrafiya yazılıb, nəşr olunmuşdur. Onun yazdığı 4 komediya hazırda respublika teatrlarının səhnəsində müvəffəqiyyətlə göstərilməkdədir. Qurbanov yoldaş böyük təşkilatçılıq və partiya siyasi iş təcrübəsinə malikdir. Respublikanın partiya fəalları və ziyalıları onu nəzəri cəhətdən hazırlıqlı, tələbkar və prinsipial işçi kimi tanıyırlar.

Azərbaycan KP MK katibi V.Axundov.

5 fevral 1966-cı il».

***

Fəqət Şıxəli Qurbanov Vəli Axundovun varisi olmağa macal tapmadı. Fələk saydığına yekun vurdu: bir ildən sonra, 1967-ci il may ayının 24-də ... diş həkiminin müalicə kreslosundan qalxa bilmədi. Avqustun 16-da 42 yaşı tamam olacaqdı...

Qətiyyətlə demək olar ki, bu nadir şəxsiyyətdən sonra Azərbaycanda ideologiya cəbhəsinin ona bənzər milli ruhlu vəzifə adamı olmamışdır.

Azərbaycan xalqının müstəqillik dəyərləri yolunda şəhid olmuş Şıxəli Qurbanovun 2000-ci il avqustun 16-da anadan olmasının 75 illiyi qeyd olunmadı. XX əsrin görkəmli nümayəndələri Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Mircəfər Bağırov, İmam Mustafayev, Vəli Axundov, Şıxəli Qurbanov.

***

Onların hər biri öz xalqının milli mənafeyini bilavasitə açıq-aşkar müdafiə edərkən, Moskvanın hədə-qorxusuna məruz qalmışdır. İndi həmin respublikalar da Azərbaycan kimi müstəqil dövlətlərdir. Ancaq deyin görək, bu ölkələrin hansı birində keçmiş rəhbərlərinin ünvanına qaralar yaxılır? Ölkə mətbuatında «əzazil» adlandırılır, ölkə ədibinin əsərində mənfi obrazı yaradılır, teatr səhnəsində tamaşaçılara «xalq düşməni» kimi təqdim olunur?

«Ədəbiyyat qəzeti» özünün 2000- ci il oktyabrın 13-ü tarixli sayının birinci səhifəsində müəllifi göstərilməyən bir yazı dərc etmişdir: «Ölüm hökmü səhnədə». Məqalədə deyilir: «Xalq yazıçısı Elçinin «Ölüm hökmü» romanı vaxtilə kitab halında çap olunmuş və geniş oxucu kütləsinin rəğbətini qazanmışdır. Əsərdə qaldırılan problemlərin ibrətamizliyi, Azərbaycanda 1920-1960-cı illər tarixinin bədii obrazlar vasitəsilə təcəssümü, süjet xəttindəki dramaturji gərginlik Azərbaycan Gənc Tamaşaçılar Teatrının da diqqətindən yayınmamış, müəlliflə quruluşçu rejissor Loğman Kərimovun birgə işi nəticəsində eyni adlı səhnə əsəri yaranmışdır.

Srağagün «Ölüm hökmü»nün baxış tamaşası keçirilmişdir... Ləyaqət və satqınlığın, şəxsiyyəttə cılızlığın, haqla yalanın müqayisəsi tamaşanın qayəsini təşkil edir. Bu müqayisəni tarixi şəxsiyyətlərin - pak ideallarıın, ülviliyin təcəssümçüsü Abbas Mirzə Şərifzadə ilə dövrünün zülmlərinin icraçısı M.C.Bağırov kimi tarixi şəxsiyyətlərin timsalında da görürük».

Bəli, xalq yazıçısı Elçinin vaxtilə kitab halında çap olunmuş «Ölüm hökmü» romanının 2000-ci ilin oktyabr ayında tamaşaya qoyulması ilə M.C.Bağırov haqqında indiyədək deyilən hədyanlara bir ifadə də əlavə olunmuşdur- «dövrünün zülmlərinin icraçısı». Həmin dövr adını çəkdiyimiz məqalədə göstərildiyi kimi, «Azərbaycanda 1920-60-cı illər tarixidir». 1960-cı illərdən sonra isə Azərbaycanda «firavanlıq dövrü» başlayır. Bu dövrün yubiley ildönümü bir il qabaq - 1999-cu il iyulun 7-də Azərbaycan Elmlər Akademiyasının «İsmailiyyə» binasında xalq məmurlarının, xalq deputatlarının, xalq yazıçılarının, xalq alimlərinin, xalq rejissorlarının və xalq artistlərinin iştirakı ilə təntənəli surətdə qeyd olunmuşdur. O gecənin rəngli dəvətnaməsi hələ arxivə göndərilməmişdir, iştirakçılarının stolüstü təqvimi arasından boylanır.

...Akademiya binasında «firavanlıq dövrünün icraçısı»nın rəhbərlik fəaliyyətinin 30 illiyini bayram edənlər unutmuşdular ki, Azərbaycan Elmlər Akademiyasının yaradıcısı elə «dövrünün zülmlərinin icraçısı»dır.

Səhnədə «zülmlərin icraçısı» kimi gənc tamaşaçılara təqdim edilən M.C.Bağırov ağ saçlı əyilməz alimlərin xatirələrində «elmlərin icraçısı» kimi qalmışdır.

...1944-cü ilin axırlarında SSRİ Elmlər Akademiyasının prezidenti akademik V.L.Komarov Azərbaycana gəlmiş, Ümumittifaq Akademiyasının Azərbaycan filialının işi ilə tanış olmuşdur. Yola düşməzdən əvvəl M.C.Bağırovla xeyli söhbət etmişdir. Qocaman akademik-prezident son illər Azərbaycan alimlərinin elm və mədəniyyətin bütün sahələrində misilsiz müvəffəqiyyətlərindən şövqlə danışmışdır. Razılıq hissi ilə, fərəhlə demişdir:

-Yoldaş Bağırov, heç bir respublikada Azərbaycandakı qədər Stalin mükafatı laureatı olan ziyalı yoxdur.

M.Bağırov hörmətli qonağın sözlərindən məmnunluğunu gizlətsə də, onun sözlərinə qüvvət vermişdir:

- Vladimir Leontyeviç, zənnimcə, heç bir respublikada nə Üzeyir Hacıbəyov kimi bəstəkar-alim, nə Səməd Vurğun kimi şair-mütəfəkkir, nə Heydər Hüseynov kimi filosof, nə Yusif Məmmədəliyev kimi kimyaçı, nə də Mustafa Topçubaşov kimi tibb təşkilatçısı vardır.

- Elədir, yoldaş Bağırov, adlarını çəkdiyiniz və çəkmədiyiniz elmi potensialınız ilə mən də, inanın, ürəkdən fəxr edirəm.

- Vladimir Leontyeviç, yaxşi, bəs onda necə olur ki, digər müttəfiq respublikalarda, bax elə qonşumuz Ermənistanda iki ildən çoxdur filiallar müstəqil akademiyaya çevrilmişdir, bizim növbəmiz...

Akademik Komarov dözə bilmədi:

- Yoldaş Bağırov, bu məsələ məndən asılı deyildir. SSRİ Xalq Komissarları Sovetinin qərarı olmalıdır. Bəlkə bu ilin dekabrınadək baş tutdu.

M.C.Bağırov narazılığını bildirdi:

-Vladimir Leontyeviç, biz istəyirik ki, bu ilin aprelinə qədər, yəni Azərbaycanda Sovet hakimiyyətinin 25 illiyinədək respublikamızın öz Akademiyası olsun. Buna görə də, Sizdən xahiş edirəm ki, Moskvaya qayıdandan sonra bu məsələni Xalq Komissarları Soveti qarşısında qaldırasınız. Bu məsələnin həllinin tezləşdirilməsini Molotov yoldaşdan özüm xahiş edərəm.

-Şərtləşdik, yoldaş Bağırov, əmin olunuz.

SSRİ Elmlər Akademıyasının 75 yaşlı prezidenti vədinə əməl etdi. Onun SSRİ Xalq Komissarları Soveti sədrinin müavini V.M.Molotovun adına yazdığı məktubunda oxuyuruq:

«Möhtərəm Vyaçeslav Mixayloviç!

Bakıda olduğum zaman SSRİ Elmlər Akademiyasının filialı və onun elmi-tədqiqat institutlarının fəaliyyəti ilə tanış oldum. Təsdiq etməliyəm ki, SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı böyüyüb artmış, möhkəmlənmiş və Azərbaycanda bir çox görkəmli alimləri öz ətrafında toplayan və Azərbaycan SSR-nin ayrı-ayrı sahələrə aid elmi müəssisələrinin fəaliyyətini birləşdirən həqiqi elmi mərkəz olmuşdur. Bu isə belə bir fikir söyləməyə haqq verir ki, Azərbaycanda Sovet hakimiyyəti qurulmasının 25-ci ildönümünü Azərbaycan SSR Elmlər Akademiyasının təşkili ilə qeyd etmək üçün Azərbaycan xalqının kifayət qədər əsası vardır.

Buna görə də SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı və respublikanın bir sıra elmi-tədqiqat institutları əsasında Azərbaycan SSR Elmlər Akademiyasını təşkil etmək məsələsini SSR İttifaqı Xalq Komissarları Sovetinin müzakirəsinə təqdim etməyi mümkün hesab edirəm».

1945-ci il yanvarın 23-də özünün 131 saylı qərarı ilə SSRİ Xalq Komissariarı Soveti Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsini qərara aldı. Qərara V.M.Molotov imza atmışdı.

M.C.Bağırovun ünvanına Bakıdan, Təbrizdən, Moskvadan və başqa yerlərdən gələn məktub-teleqramları bu gün də həyəcansız oxumaq olmur.

Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlərinin 1945-ci il mart ayının 31-də keçirilmiş ümumi iclasında qəbul edilmiş məktubda oxuyuruq: «Əziz yoldaş Bağırov! Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlərinin birinci ümumi yığıncağı Sizə - Azərbaycan alimlərinin ən yaxın dostuna respublikamızın elm və mədəniyyətinin inkişafı uğrunda həmişə çəkdiyiniz böyük atalıq qayğınıza görə öz tükənməz minnətdarlığını bildirir».

Moskvadan qocaman alim, SSRİ Elmlər Akademiyasının prezidenti, akademik V.L.Komarov Azərbaycan Elmlər Akademiyasının fəxri üzvü seçildiyinə görə M.C.Bağırova minnətdarlıq edir, öz teleqramında yazırdı: «Şəxsən sizin

gündəlik qayğınız nəticəsində SSRİ Elmlər Akademiyasının Azərbaycan filialı qısa müddət ərzində respublikanın elmi mərkəzinə çevrilmişdir».

Azərbaycan SSR Elmlər Akademiyasının təsis edilməsi o taylı-bu taylı bütöv Azərbaycanın elm bayramı idi. Təbrizdən gələn məktubda Cənubi Azərbaycan ziyalılarının ürək sözləri belə ifadə olunurdu: «Sovet Azərbaycanının mərkəzi Bakı şəhərində Elmlər Akademiyasının təsis edilməsi Azərbaycan xalqının 25 illik inkişafının ən gözəl və parlaq bir misalıdır. Akademiyanın açılması Azərbaycan xalqı üçün bir səadət və xoşbəxtlikdir. Biz Cənubi Azərbaycan xalqı Bakıda Azərbaycan Elmlər Akademiyasının təsisi münasibətilə öz qardaşlarımızı səmim-qəlbdən təbrik edirik».

Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti Mirəsədulla Mirqasımov, ilk vitse-prezidentləri Heydər Hüseynov və Şamil Əzizbəyov, ilk akademik katibi Mir Əli Qaşqay olmuşdur.

Mirəsədulla Mirələsgər oğlu Mirqasımov 1883-cü il noyabr ayının 17-də Bakıda anadan olmuşdur. 1913-cü ildə Novorossiysk Universitetinin tibb fakültəsini bitirmişdir. 1916-cı ilədək Odessa şəhərində həkim işləmişdir.

İlk prezident azərbaycanlı təbiblər arasında ilk elmlər doktoru olmuşdur. Cərrahlıq sahəsində Azərbaycan dilində yazılmış ilk dərsliyin də müəllifi bu məşhur pedaqoq idi.

***

Mir Cəfər Bağırov yaşca ondan böyük olan Mirəsədulla Mirqasımova xüsusi hörmət və ehtiram bəsləyirdi. Bunun çoxları üçün müəmmalı görünən bir səbəbi də vardı: Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti Azərbaycanın ən məşhur seyidi Mir Mövsüm Ağanın qohumu idi.

Qeyd etmək lazımdır ki, M.C.Bağırov Mir Mövsüm Ağaya və onun nəslindən olan şəxsiyyətlərə həmişə qayğıkeşlik göstərmiş, onların bir çoxunu Allahsız Sovet rejimi qanunlarının ziddinə olaraq məsul vəzifələrə irəli çəkmişdir. Diqqət yetirin: Azərbaycan Demokratik Cümhuriyyətinin Şeyxülislamı Axund Ağa Əlizadə M.C.Bağırovun vaxtında da Azərbaycan SSR-in Şeyxülislamı olmuşdur. Onun nəvəsi Məsud Əlizadə Azərbaycan gənclərinin lideri kimi şöhrətlənmiş, fəqət Şıxəli Qurbanovdan sonra o da aradan götürülmüşdür.

Azərbaycanın ilk hərbi təyyarəçi qadını Züleyxa xanım Seyidməmmədova da bu zəkalılar nəslinin nümayəndəsidir. M.C.Bağırovun şahin oğlu Cahangirlə yaşıd olan cəsur seyid qızı əfsanəvi həyat yolu keçmişdir. Qartal kimi qanadlanıb səmalara baş vurmaq arzusu onu yeniyetməlik çağlarında Bakı aeroklubunun müdavimi etmişdir. 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunu bitirsə də, mühəndis qızın xəyalı göylərdə cövlan etmişdir. M.C.Bağırovun atalıq qayğısı bu xəyalları həqiqətə çevirmişdir. 1941-ci ildə Jukovski adına Hərbi Hava Akademiyasını müvəffəqiyyətlə bitirən 22 yaşlı azərbaycanlı qız düşmənlə əlbəyaxa döyüşə öz döyüş təyyarəsində yollanmış, M.C.Bağırovun şəhid oğlunun

da intiqamını almışdır. Müharibəni qadınlardan ibarət qırıcı aviasiya polkunun komandir müavini vəzifəsində başa vurmuş, Azərbaycana «Vətən müharibəsi» ordeni ilə qayıtmışdır.

Züleyxa xanım müharibədən sonra M.C.Bağırovun xeyir-duası ilə Azərbaycan Komsomolu Mərkəzi Komitəsinin katibi vəzifəsinə irəli çəkilmiş, sonra Azərbaycan KP MK-da işləmiş və respublikanın uzun illər ictimai təminat naziri olmuşdur. Ağbirçək yaşında dünyasını dəyişmişdir.

M.C.Bağırov iş başında olsaydı, Azərbaycanın ilk hərbi təyyarəçi xanım-xatun övladının cənazəsini öz çiynində Bakının baş fəxri qəbristanlığına aparardı. Dəfndən qayıdandan sonra mərhumənin xatirəsini əbədiləşdirmək üçün qərar verərdi. Azərbaycandakı hərbi ali məktəblərdən, mərkəzi küçələrdən, Bakı meydanlarından birisi xalqımızın şahin qızının adını daşıyardı. Rəhmətliyin yaşadığı binanın qarşısında üzərinə barelyefi həkk olunmuş xatirə lövhəsi görünərdi...

***

Son illər mətbuat səhifələrində M.C.Bağırov və Mir Mövsüm Ağa münasibətlərindən maraqlı materiallar dərc olunmuşdur. «Həftə» qəzetinin 1998-ci il 5 dekabr tarixli sayında İradə Əsədovanın «Ətağa möcüzələri» adlı yazısı dərc edilmişdir. Məqalədə oxuyuruq: «NKVD-dən xeyli milis və hərbçilər gəlirlər. Ağanı kresloda küçəyə çıxarırlar ki, maşına mindirsinlər. Bütün İçərişəhər əhalisi ora yığışıb bu vəziyyətə ağlayırdı. Ağa mindirilən maşını nə qədər əlləşirlərsə, işə sala bilmirlər. Rəislər öz işçilərini nə qədər töhmətləndirsələr də, bir şey çıxmır. Axırda Ağa özü çıxış yolunu göstərib deyir ki, məni öz faytonumda aparın. Bundan xəbər tutan M.C.Bağırov Yemelyanovu ora göndərir. Nə qədər əzazil olsa da, Ağanın qabağında əyilməyə məcbur olur. Ağanı tez maşından düşürüb evinə aparırlar.

Yemelyanov öz işçilərini qovub içəri girir və Ağadan üzr istəyir. Bildirir ki, onu M.C.Bağırov göndərib. Azərbaycanda nə qədər Bağırov var, heç kəs ona yaxın düşə bilməz».

Qəribədir ki, buna bənzər bir möcüzə 2000-ci il oktyabrın axırlarında Musa Nağıyev adına xəstəxanada baş vermişdir Əhvalat belə olmuşdur: Xəstəxanənın cərrahiyyə kafedrasının müdirinə göstəriş verilir ki, otağın hündür divarına vurulmuş portret çıxarılsın. Bir həkim nərdivan gətirir, bir həkim də nərdivana qalxıb çərçivəyə salınmış portreti çıxarıbküncə qoyur. Ertəsi günu şəkli çıxaran həkim işə gəlmir. Qara xəbər gəlir - qəfildən vəfat etmişdir. Nərdivan gətirənin isə dəfndən evə qayıdarkən ayağı burxulur... Bunların şahidi olan «göstərişçi» portreti öz yerindən asdırır.

Bəli, Mir Mövsüm Ağa cəddini yaşatmış məşhur Azərbaycan cərrahı Mirəsədulla Mirqasımov müqəddəslik rəmzidir. 62 yaşında Azərbaycan Elmlər

Akademiyasmın ilk prezidenti seçilmiş bu əvəzsiz insanın ömrünü göz önündə canlandıraq: uşaqlıqda Məhəmməd Əmin Rəsulzadə kimi ruhani məktəbində oxumuş, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Əsrimizin əvvəllərində «İsmailiyyə» binasının necə ucaldığının şahidi olmuşdur. Azərbaycanın maarifpərvər xeyriyyəçiləri Hacı Zeynalabdin Tağıyev və Musa Nağıyev ilə görüşüb söhbət etmişdir... 1950-ci il noyabrın 17-də Mir Mövsüm Ağa keçinəndə onun başı üstündə olmuşdur. Ağanın cənazəsi Binədən Şüvəlanadək çiyinlərdə aparılmışdır. Birinci cümə axşamı M.C.Bağırov Mirəsədulla Mirqasımovla birlikdə Mir Mövsüm Ağanın məzarı başına gəlmişdir. SSRİ Ali Sovetinin iki mötəbər deputatının bu ziyarətindən nə MK-dakılar, nə də DTK-dakılar xəbər tutmuşlar.

Təəssüflər olsun ki, kitabxanalarımızda Azərbaycan elminin vicdanı M.Mirqasımov haqqında ədəbiyyat siyahısı çox məhduddur. Son 30 ildə onun həyat və yaradıcılığından yazan müəllif isə qəhrəmanın sədaqətli tələbəsidir. Uzun illər M.Mirqasımovla bir yerdə işləmiş Rauf Şahbazov 1996-cı ildə «Azərbaycan Elmlər Akademiyasının ilk prezidenti» kitabını oxuculara təqdim etmişdir. Bir ildən sonra isə əlavələrlə birlikdə kitab rus dilində «Elm və həyat» nəşriyyatında çap olunmuşdur.

88 səhifəlik əsərdə romanlara sığışacaq dolğun həyat materialı vardır. M.Mirqasımovun tərcümeyi-halına aid kitabda verilmiş konkret faktlara diqqət yetirin: M.Mirqasımov 6 dili mükəmməl bilmişdir - türk, rus, fars, ərəb, alman, fransız dillərini. «Şahnamə»ni fransızca, «Faust»u almanca oxumuşdur. Ona görə də 23 yaşında Balkan ölkələrini və Qərbi Avropanı səyahət edərkən dilmanca ehtiyacı olmamışdır. Novorossiysk Universitetinin tibb fakültəsində oxuyarkən, həm də sanitar işləmiş və mütərcimlik etmişdir. Beşinci kurs tələbəsi Odessada balıq ovlayan gəmidə həkim köməkçisi kimi işə girmişdir. Odessadan Uzaq Şərq, Kamçatka və Yaponiyayadək səfərdə olmuşdur. Qayıdanbaş gəmi qəzaya uğramış və 50 gün sahilə yan ala bilməmişdir. Bu çətin məqamda gənc Mirəsədulla cəddini köməyə çağırmış, gəmi sağ-salamat Oxot dənizi sahilinə çıxmışdır. Gəminin heyət işçiləri arasında malyariya və başqa xəstəliklərə tutulanların xilaskarı gənc türk həkimi Mirəsədulla olmuşdur.

Kitabda M.Mirqasımovun ailəsi və yaxın qohumları barəsində də yadda qalan məlumatlar vardır. Atası Mir Ələsgər Şüvəlanda ixtiyar yaşlarında, 1924-cü ildə vəfat etmişdir. Anası Seyidxanım 93 yaşında dünyasını dəyişmişdir.

M.Mirqasımovun qardaşı Mir Zeynalabdin Müsavat hökuməti tərəfindən xaricə təhsil almağa göndərilən 100 nəfər gənc arasında olmuşdur. Fransanın Sorbon Universitetinin elektrotexnika fakültəsini bitirmişdir. 1928-ci ildə Parisdə vəfat etmişdir.

M.Mirqasımovun ömür-gün yoldaşı Ceyran xanım ilk təhsilini Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbində almışdır. Məktəbin məscidində bütün şagirdlərlə birlikdə namaz qılmış, fənn otaqlarında elmlərə həvəs göstərmiş, müsamirələrdə fəal iştirak etmişdir.

1921-ci il dekabrın 31-də bir-birini ürəkdən sevənlərin toy məclisi də ata-baba adətilə olmuşdur. O zaman bəy 38, gəlin 16 yaşında olmuşlar. Mirqasımovlar ailəsinin cavan gəlini təhsilini Azərbaycan Dövlət Universitetində davam etdirmiş, filologiya üzrə aspiranturanı bitirmişdir. Hərtərəfli biliyə, yüksək mədəniyyətə malik olan bu nəcib qadın 5 oğul anası olmuşdur. Bu oğullarla bütün el-obamız fəxr etməkdədir. Qələm dostum Aydın Qarabağlı «Vahid» qəzetinin 1994-cü il 24 dekabr tarixli sayında dərc olunmuş «Atalar və oğullar» oçerkində onlar haqqında geniş yazmışdır, Ailənin böyük oğlu Mir Mustafa Böyük Vətən müharibəsi illərində döyüşən ordu sıralarında olmuş, sonra Tibb İnstitutunu bitirmiş, təyinatla Ukraynanın Donetsk vilayətinə göndərilmiş, Donbasda 3 il həkim-travmatoloq kimi çalışmışdır. Bakıya qayıtdıqdan sonra dissertasiya müdafiə etmiş, M.Nağıyev adına xəstəxanada travmatologiya şöbəsinin müdiri olmuş, Tibb İnstitutunun dosenti vəzifəsində işləmişdir.

Mirələsgər Mirqasımov Azərbaycanın əməkdar incəsənət xadimidir. O, 1944-cü ildə Ə.Əzimzadə adına dövlət rəssamlıq məktəbini, 1950-ci ildə Repin adına Leninqrad Boyakarlıq, heykəltəraşlıq və memarlıq institutunu bitirmişdir. Tanınmış heykəltəraşın sənət nümunələri ilə Azərbaycanın bir çox şəhərlərində tanış olmaq mümkündür. Naxçıvanda C.Məmmədquluzadənin tuncdan tökülmüş heykəlinə, Sumqayıtda N.Nərimanovun əzəmətli büstünə, Bakıda C.Cabbarlının abidəsinə tamaşa edənlər babasının adını ləyaqətlə yaşadan sənətkara əhsən deyirlər.

Üçüncü oğul - Fərid Bauman adına Moskva Ali Texniki İnstitutu bitirdikdən sonra respublikamızda neft-maşınqayırma sənayesində çalışmışdır.

Dördüncü oğul - Rüfət Lomonosov adına Moskva Dövlət Universitetinin fizika fakültəsini bitirmişdir. Uzun illər SSRİ Elmlər Akademiyasının Dubnada yerləşən nüvə tədqiqatları institutunda çalışmışdır. Fizika-riyaziyyat elmləri doktoru, professor, Azərbaycan Elmlər Akademiyasının müxbir üzvüdür.

Ailənin sonbeşiyi olan O.Mirqasımovu respublikamızın kino həvəskarları yaxşı tanıyırlar. İstedadlı kinorejissor Azərbaycan Kinomatoqrafiyaçılar İttifaqı İdarə Heyətinin katibi, «Azərkinovideo» İstehsalat Birliyinin Baş direktorudur.

Atası rəhmətə gedəndə Oqtayın 15 yaşı vardı...

Məşhur alim-psixiator Ağabəy Sultanov unudulmaz dayısının son dəqiqələrini belə xatırlayır: anam qardaşına «Ağadadaş», biz isə «Ağadayı» deyərdik. Ağadayımız bütün ömrü boyu nə bir sanatoriya, nə də istirahət evi görmüşdü. Onun yeganə dincəldiyi yer Şüvəlan bağı idi. 1958-ci il iyul ayının 20-də adəti üzrə səhər erkən yatağından qalxmış, həyətə düşmüşdür. Sonra qayıdıb həmişəki kimi bir-iki saat yazı masasının arxasına keçmişdir.

Dayıdostum Ceyran xanım süfrə açmış, ikilikdə nahar etmişlər. Sonra yastığa dirsəklənmiş, qırx ilə yaxın can deyib, can eşitdiyi zövcəsi ilə ordan-burdan xeyli söhbət etmişdir. Axırda demişdir: «Ceyran, özündən muğayat ol, sağlamlığına fikir ver, axı Oqtay da institutu bitirməlidir, ailə sahibi olmalıdır»...Söhbət burda

qırılmışdır. Ağadayı gözlərini yumanda bir damla yaş sol yanağına düşmüşdür. Pıçıltısı eşidilmişdir- əşhədü əlla ilahə illəllah...

Mir Mövsüm Ağanın vəfatından səkkiz il sonra əvəzsiz seyid övladının biri də əbədiyyətə qovuşmuşdur. Oxşarlığa bax - Mirəsədulla Mirqasımov noyabrın 17-də dünyaya göz açmış, Mir Mövsüm Ağa noyabrın 17-də dünyasını dəyişmişdir. Hətta yaxın dostları da bilmirdilər ki, Mir Mövsüm Ağanın vəfatından sonra niyə görə Mirəsədulla Mirqasımov doğum günündə pəjmürdə görünürdü. Yaşasaydı, 1958-ci il noyabrın 17-də 75 illiyində də belə hal alacaqdı.

... Mir Cəfər Bağırov iş başında olsaydı, nadir şəxsiyyətlərdən birisinin - Mirəsədulla Mirələsgər oğlu Mirqasımovun 75 illiyi də, 100 illiyi də, 110 illiyi də bu böyük seyid övladının adına layiq keçirilərdi. Azərbaycan Elmlər Akademiyasının birinci prezidentinə birinci olaraq abidə ucaldılardı.

***

Nə yaxşı ki, Mirəsədulla Mirqasımovun böyüklüyünün izlərini xırdaçılıqla yaşayan vəzifəpərəstlər silə bilməmişlər - ürəklərdən və bir də arxiv sənədlərindən.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyətinin 1945-ci il aprelin 2-də keçirilmiş ilk iclasının protokolu ilə tanış olmaq mümkündür.

Ensiklopedik biliyə malik olan, İslam mədəniyyətini, Şərq tarixini, Azərbaycan klassik ədəbiyyatını, adət və ənənələrimizi, xalq musiqisini yaxşı bilən peşəkar tibb alimi Elmlər Akademiyasının 15 nəfər həqiqi üzvünün hər birini yaxından tanıyırdı. Üzeyirbəy Hacıbəyov, Mirzə İbrahimov, Səməd Vurğun, Əliəşrəf Əlizadə onun kimi SSRİ Ali Sovetinin deputatları idilər, Bakıda tez-tez görüşür, Moskvada da bir yerdə olurdular. Həmkarı Mustafabəy Topçubaşovla uzun illərin dostu idi. Bu iki loğmanın həyat yoldaşları - Ceyran xanım və Reyhan xanım da rəfiqə idilər. İkisi də bir ildə anadan olmuşdular. İkisi də bir yerdə Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbində təhsil almışdılar.

Azərbaycan akademiklərinin ağsaqqalı müxbir üzvlərin nəinki özlərini, valideynlərini də tanıyırdı. Bilirdi ki, məşhur memarımız Sadıq Dadaşov Bakının xeyriyyəçi milyonçularından biri olan Hacı Şeyx Əlinin nəvəsidir. Heydər Hüseynovun qaynatası Süleyman Abdullazadə nəcib bir insan idi. Akademiyanın ilk prezidenti sevinirdi ki, Mir Cəfər Bağırov həqiqi alimlərimizi onların ata-babasının keçmişdə milyonçu və ya müsavatçı olmasına baxmadan irəli çəkirdi.

Filologiya elmləri doktoru, əməkdar elm xadimi, yazıçı və tədqiqatçı Murtuz Sadıqlı «Xalq qəzeti»nin 1997-ci il 4 aprel tarixli sayında dərc olunmuş «Heç bir xalq yaddan çıxmamışdı» məqaləsində yazırdı: «Böyük alimimiz Y.Məmmədəliyev 1937-ci ildə yalnız təsadüf nəticəsində sağ qalmışdı. Amma 1942-ci ildə Markaryan onu repressiya olunacaq şəxslərin siyahısına salmışdı». Məhz M.C.Bağırovun himayəsi sayəsində «ermənilərin gözü götürmədikləri» kimyaçı

alim 1943-cü ildə partiya sıralarına qəbul olunmuş, 1945-ci ildə isə Azərbaycan Elmlər Aksdemiyasının Rəyasət Heyətinin üzvü seçilmişdir.

* * *

Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyətinin üzvləri arasındakı vəzifə bölgüsü yuxarıda göstərdiyimiz protokolda aşağıdakı qaydada aparılmışdır:

**EA Prezidenti - M.Mirqasımov**

1.Azərbaycan SSR EA Rəyasət Heyətinə ümumi rəhbərlik;

2.Aşağıdakı institutlar daxil olmaqla biologiya və kənd təsərrüfatı şöbəsinə rəhbərlik:

a)V.LKomarov adına Botanika institutu, Botanika bağı;

v)Zoologiya institutu;

b)Eksperimental Tibb institutu;

q) Aqrotexnika və torpaqşünaslıq institutu.

**Vitse-prezident - H.Hüseynov**

1.Aşağıdakı institutlar daxil olmaqla ictimai elmlər şöbəsinə rəhbərlik:

a)A.Bakıxanov adına tarix institutu;

b)Nizami adına ədəbiyyat institutu;

q)Azərbaycan incəsənəti institutu

d)Fəlsəfə institutu

e)İqtisadiyyat institutu;

j) Azərbaycan tarixi institutu;

z) Nizami muzeyi.

2. Aşağıdakılar daxil olmaqla Rəyasət Heyəti aparatına rəhbərlik:

a)Azərbaycan SSR EA-nın redaksiya-nəşriyyat şurası;

b)Azərbaycan SSR EA nəşriyyatı;

v) «Azərbaycan SSR EA Xəbərləri» redaksiyası (ictimai elmlər şöbəsi üzrə) və «Azərbaycan SSR EA-nın məruzələri».

q) Azərbaycan Ensiklopediyasının nəşri üzrə komissiya;

d)Elmi işlərin planlaşdırılması və əlaqələndirilməsi;

e)Elmi təbliğat şöbəsi;

j)İşlər İdarəsi;

i) Kadrlar şöbəsi;

k) Aspirantura şöbəsi;

l) Plan-maliyyə şöbəsi;

m) «Azərbaycan Vətən müharibəsində» şöbəsi;

n) Mərkəzi mühasibat;

**Vitse-prezident - Ş.Əzizbəyov**

1.Aşağıdakı institutlar daxil olmaqla geologiya-kimya elmləri və neft şöbələrinə rəhbərlik;

a)Akademik İ.M.Qubkin adına geologiya institutu;
b)Kimya institutu;
v) Coğrafiya institutu;
q) Zərdabi adına təbiət-tarix muzeyi.

2.Aşağıdakılar daxil olmaqla fizika-texnika elmləri və neft şöbəsinə rəhbərlik:

a)Fizika institutu;
b)Neft institutu;
v) İ.Q.Yesman adına energetika institutu;
q) İnşaat materialları və qurğular institutu;
d)Riyaziyyat bölməsi;
e)Tezalışan qazıntı materialları bölməsi.

3.Rəyasət Heyəti aparatının işinə rəhbərlik:

a)Elmi arxiv;
b)Maddi-texniki təchizat şöbəsi;
v) Ekspedisiyalar.

**Akademik katib - M.Qaşqay**

1.Elmlər Akademiyası akademik-katibinin vəzifə səlahiyyətinə aid olan ümumi məsələlər.

2Azərbaycan EA Bazalarının işinə rəhbərlik:

a)Kirovabad bazası;
b)Stepanakert bazası;
v) Naxçıvan bazası;
q) Quba bazası; (A,Bakıxanov adına muzey);
d) S.Ə.Şirvani adına Şamaxı muzeyi.

3.EA Rəyasət Heyəti aparatına rəhbərlik:

a)İstehsal qüvvələrinin öyrənilməsi üzrə Şura;
b)EA Bazaları üzrə Şura;
v) Akademiyanın Mərkəzi kitabxanası;
q) Foto-laboratoriya.

Göründüyü kimi, akademik M.Mirqasımovun prezident kimi imzalayıb təsdiq etdiyi iş bölgüsündə akademiyanın ən cüzi fəaliyyət sahəsi belə nəzərdən qaçırılmamışdır.

M.Mirqasımovun bilavasitə rəhbərliyi ilə EA-nın beşillik fəaliyyət planı tərtib edilmiş, Rəyasət Heyətinin 1946-cı il 9 sentyabr tarixli iclasında təsdiq olunmuşdur.

M.Bağırovun şəxsən təkidi ilə EA-nın ilk prezidenti seçilmiş M.Mirqasımovun rəhbərliyi ilə bu elm ocağı qısa müddət ərzində Azərbaycanda elmi-fəlsəfi qərargaha çevrilmişdi. İlk prezidentin təşəbbüsü ilə EA-nın üç müxbir üzvü - Üzeyir Hacıbəyov, Mirzə İbrahimov və Şamil Əzizbəyov SSRİ Stalin Mükafatları Komitəsində Azərbaycandan nümayəndə təklif olunmuşdular.

M.Mirqasımovun sabiq şagirdi Rauf Şahbazov öz kitabında müəlliminin prezidentlik fəaliyyətindən bəhs edərkən yazır: «Akademik M.Mirqasımov dövlət orqanlarında işləyən ayrı-ayrı səriştəsiz şəxslərin EA-nın işlərinə qarışmasına qətiyyətlə yol vermirdi. Məsələn, EA-nın Rəyasət Heyətinin iclaslarının birində Azərbaycan KP MK nümayəndəsi əsassız olaraq Akademiyanın bəzi institut rəhbərlərinin və Rəyasət Heyəti üzvlərinin hərəkətlərini təqlid etdi. (Söhbət ixtisaslarını nəzərə alaraq, 2-3 əməkdaşın laboratoriyada başqa işə keçirilməsindən, şoferin ərizəsinə görə işdən azad edilməsindən və b.k. gedirdi). İclasa sədrlik edən M.Mirqasımov çıxış edən MK nümayəndəsinin sözünü kəsmiş, onun özünü də, hətta atasını da yaxşı tanıdığına baxmayaraq, soruşmuşdur: «Siz kimsiniz? Özünüzü təqdim edin».

O dərhal cavab vermişdir: «Mən Mərkəzi Komitənin üçüncü katibiyəm». M.Mirqasımov əlini telefona uzatmış və M.C.Bağırovla danışmışdır. Adəti üzrə səmimi salamlaşmadan sonra demişdir: «Əgər siz mənə və Akademiyanın Rəyasət Heyətinin üzvlərinə inanırsınızsa, xahiş edirəm bizi «üçüncü dərəcəli şəxslərin» EA-nın işlərinə qarışmasından xilas edəsiniz».

M.C.Bağırov üçüncü katibə telefonla nə demişsə, o dərhal kağız-kuğuzunu yığışdırıb iclası tərk etmişdir.»

... 1946-cı il noyabrın 13-də M.C.Bağırovun ünvanına EA-dan aşağıdakı məktub daxil olmuşdur:

«Azərbaycan K(b)P MK katibi Mir Cəfər Bağırov yoldaşa

Tapşırığınıza əsasən Azərbaycan SSR Elmlər Akademiyasının Rəyasət Heyəti 1945-ci il aprelin 1-dən 1946-cı il oktyabrın 1-nə olan dövrdə Azərbaycan SSR Elmlər Akademiyasının işinə dair hesabatı Sizə göndərir.

Hesabata aşağıdakılar əlavə olunmuşdur:

1 Tədbirlər.

2.Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvlərinin hesabatları.

3.Azərbaycan SSR Elmlər Akademiyası şöbələrinin gələcək fəaliyyət istiqamətləri və iş perspektivləri.

4.Azərbaycan SSR Elmlər Akademiyası Rəyasət Heyəti üzvləri arasında vəzifə bölgüsü barədə məlumat.

5.Elmi əməkdaşların tərkibi (cədvəl).

6.Ayrılmış vəsaitdən istifadə olunmasına dair məlumat (cədvəl).

7.Azərbaycan SSR Elmlər Akademiyasının nəşr olunmuş və nəşrdə olan elmi əsərlərinin siyahısı.

Təqdim olunan hesabat Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvlərinin 1946-cı il 10 noyabr tarixdə keçirilmiş ümumi yığıncağı tərəfindən təsdiq edilmişdir.

Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti M.Mirqasımov

Azərbaycan SSR Elmlər Akademiyasının akademik katibi M.Qaşqay».

Akademiyanın hesabat materialları 93 səhifədən ibarətdir. Hesabata EA-nın prezidenti M.Mirqasımov, vitse-prezidentləri H.Hüseynov və Ş.Əzizbəyov, akademik katibi M.Qaşqay və EA-nın Rəyasət Heyəti üzvü Y.Məmmədəliyev imza atmışlar.

Bu da maraqlıdır ki, onların hər birinin şəxsi hesabatları öz dəst-xətləri ilə yazılmışdır.

Rəyasət Heyəti üzvləri il yarım ərzində gördükləri işlərdən və hazırda hansı elmi əsərlər üzərində çalışdıqlarından respublika rəhbərinə hesabat verirlər.

Hesabatların heç birisində M.C.Bağırovun ünvanına tərif və mədhiyyə yoxdur.

M.Mirqasımovun şəxsi hesabatından aydın olur ki, o, professor Mahmudbəyov, dosent Muradov və Əlikişibəyovla birlikdə hərbi xəstəxana cərrahiyyəsinə aid ilk dəfə Azərbaycan dilində dərslik hazırlamışdır.

H.Hüseynov M.C.Bağırova 1945-46-cı illər ərzində elmi fəaliyyəti barədə qısaca hesabat verir. 1945-ci ildə onun «Ədəbi qeydlər» kitabı çap olunmuşdur.

«Nizaminin ictimai məfkurəsi» əsəri ayrıca broşura şəklində buraxılmışdır. «Azərbaycan xalqının mədəniyyət və elm tarixindən» məqaləsi EA-nın Elmi xəbərlərinin 1945-ci il 4-cü sayında dərc edilmişdir. «Rusca-azərbaycanca izahlı lüğət»in IV cildinin tərtibçilərindən biridir.

EA-nın Rəyasət Heyəti üzvü Y.Məmmədəliyevin şəxsi hesabatında göstərilir ki, hesabat ilində 18 çap vərəqi həcmində «Aviasiya yanacaqlarının istehsalında alkilləşdirmə reaksiyası» adlı elmi monoqrafiyası çap olunmuşdur. Yenilikçi kimyaçı alimin yüksək oktanlı yanacaq alınması, Naftalan neftinin təsir mexanizminin öyrənilməsi sahələrinə aid elmi məqalələri SSRİ Elmlər Akademiyasının Xəbərlərinin 1946-cı ildə çıxan 3-cü, 4-cü və 5-ci saylarında dərc edilmişdir.

M.C.Bağırov Akademiya rəhbərliyinin bütün təşəbbüslərini müdafiə etmiş və bunların həyata keçirilməsində bilavasitə iştirak etmişdir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində 1946-cı il sentyabr ayının 17-də M.C.Bağırova Elmlər Akademiyasından göndərilmiş bir məktub da saxlanılır.

**«Azərbaycan K(b)P MK katibi Mir Cəfər Bağırov yoldaşa**

Sizin icazənizlə və razılığınızla 1947-ci ilin yanvar ayında Bakı şəhərində şərqşünasların respublika müşavirəsi keçiriləcəkdir. Müşavirədə SSR İttifaqı alimlərinin də geniş iştirakı nəzərdə tutulmuşdur.

Şərqşünasların müşavirəsinə hazırlıq üzrə Təşkilat Bürosu müxtəlif mütəxəssislər qrupu tərəfindən təkliflərlə əlaqədar problemləri hərtərəfli müzakirə etmiş, böyük elmi və tarixi əhəmiyyət kəsb edən aşağıdakı mövzuların müşavirənin gündəliyinə salınmasını lazım bilmişdir.

1. Nizami və onun zəmanəsi (ədəbiyyat, incəsənət və fəlsəfə).

2.Azərbaycan xalqının mənşəyi.

3.Azərbaycan xalqının maddi mədəniyyəti.

Nəzərdə tutulmuş mövzular üzrə məruzələrin siyahısını və tezislərinin surətini Sizə göndərməklə, xahiş edirəm ki, həmin müşavirənin təşkili və təqdim etdiyimiz məruzələrlə əlaqədar qeydlərinizi bildirəsiniz, müvafiq göstəriş verəsiniz.

Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti M.Mirqasımov»

***

M.C.Bağırova təqdim olunmuş 12 nəfər məruzəçi arasında filologiya elmləri doktoru Əli Sultanlının da adı və «Dədə Qorqud və antik epos» mövzusunda çıxışının tezisləri vardır. Bu tezislərə M.C.Bağırov tərəfindən heç bir qeyd və irad edilməmişdir.

«Ədəbiyyat qəzeti»nin 1947-ci il 5 fevral tarixli sayında Azərbaycan SSR Elmlər Akademiyası Nizami adına ədəbiyyat institutu tərəfindən 1946-cı ildə görülmüş işlərdən bəhs edən məqalə dərc olunmuşdur. Məqalədə deyilir; «İnstitut 1946-cı ildə həmçinin Azərbaycan xalq ədəbiyyatının ən qədim abidəsi olan «Dədə Qorqud» eposunun akademik Bartold tərəfindən edilmiş rusca tərcüməsini çapa hazırlamışdır. Böyük rus şərqşünası akademik Bartoldun tərcüməsinə Həmid Araslı və M.H.Təhmasib yoldaşların yazdıqları kommentariya əlavə olunmuşdur. «Dədə Qorqud» mətni üzərində işləyərkən akademik Bartolda aydın olmayan və bunun nəticəsində də təhrif olunan Azərbaycan kəlmələri bu kommentariyada düzgün şərh və izah olunur».

Akademik Bartolda «Dədə Qorqud» eposunda Azərbaycan kəlmələrini düzgün şərh və izah etmək üçün «kommentariya» müəlliflərindən birincisi - Həmid Araslı Azərbaycanda birinci olaraq, hələ 1939-cu ildə «Kitabi-Dədə Qorqud»u çap etdirmişdir.

Həmin vaxtlar Azərbaycanın rəhbəri kim idi? Mir Cəfər Bağırov.

Bəs 1950-ci illərdə nə baş vermişdir?

Bu dövrdə Moskvada və Azərbaycanda çıxan qəzet səhifələrinə ötəri nəzər salsanız, hər şey aydın olar. «Kommunist» qəzeti «Pravda»da çap olunmuş «Türkiyənin zəhmətkeş kəndliləri necə yaşayır?» məqaləsinin tərcüməsini 1952-ci il dekabrın son günündə soydaşlarımıza çatdırmışdır. Qəzetdə oxuyuruq:

«Türkiyənin yırtıcı Amerika imperialistlərinin müstəmləkəsinə çevrilməsi, iqtisadiyyatının arası kəsilmədən hərbiləşdirilməsi kəndlilərin vəziyyətini xüsusilə ağırlaşdırmışdır. Milyonlarla türk kəndlisi aclıq və yoxsulluq içərisində yaşayır».

«Ədəbiyyat qəzeti»nin 1950-ci il 26 dekabr tarixli sayında dərc olunmuş «Türkiyə irticasını ifşa edən dəyərli əsər» məqaləsində ədəbi hadisələr Sovet İttifaqı Xarici İşlər Nazirliyinin mövqeyindən işıqlandırılır: «Türkiyədə azadlıq, səadət, haqq, ədalət istəyənlər sürgünlərdə və qaranlıq zindandadırlar... Amerikanların başçılığı ilə Türkiyə torpağında hərbi bazalar, təyyarə meydanları

yaradılır. Sülhsevər Sovet hökuməti 1951-ci ilin noyabrın 3-də bu xüsusda Türkiyə hökumətinə ciddi xəbərdarlıq etmişdir».

Əllinci illərdə «Kitabi-Dədə Qorqud» eposu ilə əlaqədar məsələləri Hüseynqulu Məmmədli və Fəxrəddin Əliyev «Qobustan» jurnalının 1997-ci il 1-2 sayında (səhifə 19-22) obyektivcəsinə işıqlandırmışlar. Müəlliflərin ««Kitabi-Dədə Qorqud» eposu türkmən folklorşünaslığında» adlı elmi-tədqiqat məqaləsində deyilənləri nəzərinizə çatdırıram:

«Türkmən folklorşünaslığının və klassik ədəbiyyatının səriştəli araşdırıcısı sayılan Əhməd Axundov «Qorqud Atanın kitabı» adlı məqaləsini hələ 1942-ci ildə yazmış, «Sovet ədəbiyyatı» jurnalında çap etdirmişdir (1942, sayı 11).

Gənc alimin 1940-cı ildə Leninqraddan dostu Ata Qovşudova göndərdiyi məktubundan aydın olur ki, bu illərdə o, Kitabi-Dədə Qorqud abidəsinin Azərbaycan araşdırıcıları ilə də yaxından əlaqə saxlamışdır. Məktubun axırında yazır: «...Əgər gələ bilməsən, yayda mən gələrəm, onda sən «Koroğlu»dan, mən də «Dədə Qorqud»dan Bakıdakı yoldaşlara bir hesabat yazarıq» («Türkmənistan» qəzeti, 1994, 30 mart № 72).

İki il sonra Məti Kosayev «Qorqud Ata» eposunun 10 boyunu «Sovet ədəbiyyatı»nda (1945), eyni adlı məqaləsini isə «Sovet Türkmənistanı» qəzetində (7.VII.1945) dərc etdirmiş, hətta bəzi boyları orta məktəb dərsliklərinə saldırmağa nail olmuşdur. 1946-cı ildə isə keçmiş SSRİ EA-nın Türkmənistan filialının xəbərlərində (№ -3, 4) alimin «Qorqud Ata» kitabı haqqında yazıları çap edilmişdir. Daha sonra o, B.Karrıyevlə birlikdə «KDQ» abidəsini bütövlükdə TSSR-in 25 illiyinə hədiyyə olaraq hazırlamış, ancaq bu nəşr müəlliflərə sevinc gətirməmişdir. Azərbaycanda olduğu kimi Türkmənistanda da, eləcə də keçmiş sovet imperiyasının tərkibində olan türk mənşəli respublikalarda xalqların tarixi qəhrəmanlıq müharibələrini, oğul və qızların döyüşkənliyini, yenilməz ruhunu tərənnüm edən qədim oğuz eposları «Manas», «Kitabi-Dədə Qorqud», «Yusif-Əhməd», «Gül-bülbül» və onlarca başqa abidələr 1951-ci ildə Moskvanın göstərişi ilə burjua millətçiliyini təbliğ edən zərərli əsərlər sayılmış, nəşri və təbliği dayandırılmışdır. Bu sahədə elmi fəaliyyət göstərən vətənpərvər milli kadrlar, tanınmış elm və mədəniyyət xadimlərinin müəyyən qismi həbs olunmuş, ömürlük sürgünlərə, zülm və işgəncələrə məruz qalmış, bəziləri də məhv edilmişdir.

Bu prosesdə Moskvanın hakim dairələrinin antitürk, antimüsəlman siyasətini yerinə yetirən xüsusi idarələr eyni ssenari ilə bütün türk respublikalarında riyakar, savadsız yerli ziyalılardan da məharətlə istifadə etmişlər. Onları sağlam iradəli, dəyanətli həmkarlarına qarşı qoymuşlar. Fasiləsiz olaraq iclaslar, yığıncaqlar çağırmış, münaqişələri, intriqaları, qarşıdurmaları qızışdıran müzakirələr keçirmişlər. Belə şər qüvvələr həm də abidələrin milli tarixi mahiyyətinə kölgə salan zərərli məqalələr yazmış, hətta həmkarlarına böhtan atmaq, nahaqdan onları ittiham etməkdən belə çəkinməmişlər. Türkmən alimi Məti Kosayevin ilk dəfə nəşrə hazırladığı «Qorqud Ata» kitabı da 1951-ci ildə belə

iftiralara məruz qalmış, siqnal nüsxəsi işıq üzü görən kimi zərərli əsər sayılaraq nəşri dayandırılmışdır. Görkəmli qorqudşünas Məti Kosayev isə qələm dostları B.Karrıyev, O.Abidov və digər türkmən ziyalıları ilə birlikdə burjua millətçiliyində günahlandırılaraq hərbi tribunalın hökmü ilə 25 il müddətinə azadlıqdan məhrum olunmuş, «KDQ» haqqında maraqlı araşdırmalar aparan Ata Rəhmanov isə respublikadan qaçaraq uzun müddət Özbəkistanda yaşamağa məcbur olmuşdur».

Qardaş türkmən xalqının qorqudşünasları M.Kosayev, B.Karrıyev, O.Abidov və A.Rəhmanovun Azərbaycandakı həmkarları olan H.Araslı, Ə.Dəmirçizadə, M.Təhmasib və M.Arifin taleyi necə olmuşdur? Onların hər biri yığıncaqlarda amansızcasına tənqid olunsalar da, Türkmənistanda olduğu kimi xüsusi xidmət orqanlarının təcridxanasına göndərilməmişlər. Filologiya elmləri doktoru, professor Şamil Salmanovun «Ədəbiyyat qəzeti»nin 2000-ci il 25 avqust tarixli sayında dərc edilmiş «Tənqidimizin klassiki» məqaləsində göstərildiyi kimi, «Dədə Qorqud» kitabı tənqidə məruz qalanda, M.Arif bu tənqid kompaniyasına qoşulmadı. Halbuki həmin dövrdə onun özü sərt tənqidə məruz qalmışdı. Amma zaman keçdi, «Dədə Qorqud» bəraət qazanan ildə epos haqqında məqalənin altında H.Araslı, Ə.Dəmirçizadə, M.Təhmasiblə birlikdə M.Arifin də imzası vardı».

Bəli, Azərbaycan qorqudşünaslarını Azərbaycan rəhbəri M.C.Bağırov həbs və sürgünlərdən xilas etmişdir. 50-ci illərdə Azərbaycanın heç bir «vətənpərvər milli ziyalısı» Türkmənistanda olduğu kimi, hərbi tribunalın hökmü ilə azadlıqdan məhrum edilməmişdir, Ata Rəhmanov kimi başqa respublikaya qaçmağa məcbur olmamışdır. Məşhur qorqudşünas-dilçi-alim Ə.Dəmirçizadə Özbəkistana 1957-ci ildə Azərbaycan Elmlər Akademiyasının akademiki sifətində getmişdi. Onun şərqşünasların elmi-konfransında etdiyi «Kitabi-Dədə Qorqud» eposu haqqında məruzəsi dərin maraq oyatmışdı.

50-ci illərdə «Kitabi-Dədə Qorqud» eposu ilə bağlı M.C.Bağırovun obyektiv mövqeyini doğruçu şahidlərdən birisinin dilindən eşitmək də yerinə düşər. «Ədəbiyyat və incəsənət» qəzetinin 1990-cı il 11 may tarixli sayında (№ 17) dərc edilmiş «Kənd müəlliminin xatirələri, yaxud M.C.Bağırovun qəbulunda» adlı yazının bəzi hissələrini nəzərinizə çatdırıram:

«Mən bu xatirələri Qazax rayonunun Yenikənd orta məktəbində oxuyan zamanlar onun dilindən eşitmişdim. Aradan 10 ildən də çox keçmişdi və bir gün Həmid müəllim iş yerimə - «Ədəbiyyat və incəsənət» qəzetinə gəldi. Hal-əhval tutduqdan sonra mənə bir şagird dəftəri verdi və dedi ki, buraya bəzi şeylər yazmışam, bəlkə lazım oldu. Dəftəri vərəqlədim, tanış hadisələr, faktlar yaddaşımda bərpa olundu və hazırda təqaüddə olan bir kənd müəlliminin xatirələrini redaktəsiz-filansız «Ədəbiyyat və incəsənət»in hörmətli oxucularına çatdırmağa böyük bir ehtiyac duydum.

Nizami Cəfərov, filologiya elmləri namizədi».

Nizami Cəfərovun «redaktəsiz-filansız» təqdim etdiyi xatirələrlə 2001-ci ildə bir daha tanış olaq: «Bir gün, 1952-ci ilin yanvarında Mərkəzi Komitəyə - M.C.Bağırova bir məktub yazdım. Məktubun məzmunu təqribən belə idi:

Keçmiş irsə münasibəti M.Qorkidən öyrənmişik. Nə üçün yalnız biz öz keçmiş abidəmizi təhqir edirik? Əgər bütün xalqlar öz irsinə bizim kimi yanaşsalar, onda çox əsərlər ləğv edilməlidir...

Bu əhvalatdan xeyli keçmişdi ki, məni Rayon Xalq Maarifi şöbəsinə çağırdılar. Müdir S.Şükürova həyəcanlı idi. Mənə dedi ki, Bakıda İ.V.Stalinin «Dilçilikdə marksizm məsələlərinə dair» əsəri ilə əlaqədar təkmilləşmə kursu olacaqdır. Bizim rayondan Mirpaşa müəllimlə sən gedəcəksən. Mən istədim boyun qaçırdım, dedi ki, səni nazir M.Ələkbərli özü çağırıb. Mən inanmadım. Amma o, məni inandırdı ki, nazir hələ sənin şəxsi işini də məndən tələb etdi.

Onda mən hiss elədim ki, burda nə isə bir məsələ var. Bildim ki, məktuba görə çağırıblar. Bəs nə üçün təkmilləşmə kursuna?

...Gərək ki, martın 7-si idi. Məni Təkmiiləşdirmə İnstitutunun direktoru çağırıb dedi ki, səni nazir M.Ələkbərli öz kabinetində gözləyir. Tez oraya get... Mən nazirliyə gedəndə mənimlə kursda olan müəllimlərdən iki nəfəri nazirin qəbulundan çıxdılar. Onları görüb tanıdım. «Kitabi-Dədə Qorqud»dan sual verən yoldaşlar idi. M.Ələkbərli öz kabinetində idi. Amma kimi isə telefonda gözləyirdi.

Nə isə... Maşınla Azərbaycan KP MK-nın binasına getdik. Yuxarı mərtəbələrdən birinə çıxdıq. Nazir bir qapıda məni irəli buraxıb dedi: «Girəndə salam ver». Qapı açılanda M.C.Bağırovu gördüm. Salam verəndə o, irəli gəlib mənimlə görüşdü və təklif elədi ki, oturum. Orada bizi gözləyənlərin çoxusunu tanıdım. Buna baxmayaraq, yenə də M.C.Bağırov hamısının adını çəkib vəzifələrini sadaladı. Buradakılar V Səmədov, C.Cəfərov, M.Topçubaşov idilər.

Danışmağa başlamamışdan qabaq çay gətirdilər, amma cəsarət edib çayı içən olmadı. Mən başa düşürdüm ki, bunların hamısı söhbəti başlamaq üçün idi. Nəhayət, mənə dedi ki, sən MK-ya məktub yazmısanmı? Mən: - Bəli, -deyə cavab verdim. Məktubu gətirdi, oxudu və dedi ki, sən öz səhvini başa düşürsənmi? Mən hansı səhvdən söhbət getdiyini anlamırdım.

M.C.Bağırov müharibədən sonrakı quruculuq işlərindən söhbət açdı və bunu İ.V.Stalinlə, rus xalqının xidmətləri ilə bağladı və əlavə etdi: «Düzdür, gürcü xalqının arasında da millətçilər vardır. Amma onların İ.V.Stalin kimi nümayəndəsi vardır. Rus xalqı da həmçinin. Onların səhvlərindən nə danışaq. Qaldı «Kitabi-Dədə Qorqud» məsələsi. Bunda təqsirkar bizim alimlərimizdir, onların əlində abidənin bizim olduğunu təsdiq edən bir tutarlı dəlilləri yoxdur. Mən də həmin əsərə elə bir damğa vurdum ki, heç kim ona yaxın dura bilməsin».

O dedi ki, sənə mətbuatda cavab vermədim. Gördüm ki, bunun sənə ziyanı dəyəcək. Ona görə də sizin nazirlə məsləhətləşdim ki, bir kurs təşkil etsin. İstədim ki, sən bunu heç bilməyəsən...

Söhbəti dəyişib Üzeyir Hacıbəyovun «Koroğlu» operası haqqında danışdı və dedi ki, elmdə də bizə Üzeyirbəy kimi adamlar lazımdır. Stalin bu operaya baxıb bəyənəndən sonra Koroğluya yiyələnmək istəyənlərin hamısı təsdiq etməyə məcbur oldular ki, Koroğlu Azərbaycanın milli qəhrəmanıdır».

...Bəs 10 il keçdikdən sonra, 2000-ci ildə «Dədə Qorqud» dastanı ilə əlaqədar «Ədəbiyyat qəzeti»ndə M.C.Bağırovun adı necə çəkilir? Qəzetin həmin il 16 mart tarixli sayında «Azərbaycan prezidenti H.Əliyevin sədrliyi ilə «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi üzrə dövlət komissiyasının iclasında baş nazirin müavini Elçin Əfəndiyevin məruzəsi» dərc olunmuşdur. Məruzədə deyilir: «Dədə Qorqud» o abidədir, bəlkə də dünyada yeganə abidədir ki, vaxtilə öz xalqının düşməni elan olunmuşdu. Burada əyləşən qorqudşünas alimlər, ziyalılarımız yaxşı bilirlər ki, 50-ci illərin əvvəllərində Azərbaycanın o vaxtkı partiya rəhbəri M.C.Bağırov öz məşhur məruzəsində «Dədə Qorqud»u rəsmi olaraq «Azərbaycan xalqının düşməni» elan elədi. «Dədə Qorqud»da pantürkizmin əsasları, təzahürü, ifadəsi olduğu» rəsmi surətdə bəyan edildi.

Əlbəttə, bu bir tərəfdən gülünc idi, o biri tərəfdən kədərli hadisə idi. Gülünc idi ona görə ki, bir ideologiya kimi pantürkizmin XX əsrin əvvəllərində təşəkkül tapması, formalaşması məlumdur. Min illərlə tarixi olan abidədə pantürkizm axtarmaq bəlkə də fantasmaqorik, sürrealist hadisədir, gülməlidir. Amma gülməli olardı ki, əgər o dərəcədə kədərli olmasaydı. Kədərli idi ona görə ki, əslində bu, Azərbaycan xalqı ilə onun keçmişi arasında sərhədlər yaratmağın, Azərbaycan xalqını öz keçmişindən, soyundan ayırmağın təzahürü idi».

Məruzəçi «Kitabi-Dədə Qorqud» dastanının 1300 illiyi ilə əlaqədar görülmüş tədbirlərdən, tədqiqatlardan, yubiley nəşrlərindən geniş söhbət açaraq, «fantasmaqorik, sürrealist hadisə» ilə ziddiyyət təşkil edən «gözəl bir hadisə»ni də qeyd edir: «Gözəl bir hadisə də ondan ibarətdir ki, tədbirlər planında olmayan kitablar da nəşr edilibdir... Başqa sözlə, hətta deyərdim ki, tədqiqatda bir intibah dövrü yaşandı. Bu, həqiqətdir.

Təsəvvür edin, bu 42 ildə biz vaxtilə yazıb-yaratmış böyük alimlərin əsərlərini yenidən nəşr elədik. Məsələn, Bartoldun rus dilinə etdiyi tərcüməni yenidən çap etdik. Həmin kitabda akademik Jirmunskinin monoqrafiyasını təzədən çap elədik. Professor Əli Sultanlının «Dədə Qorqud» və «Qədim yunan ədəbiyyatı» adlı gözəl bir tədqiqat əsəri var, vaxtilə az tirajla buraxılmışdır. Biz onu yenidən çap etdik. «Dədə Qorqud» dastanının dili ilə əlaqədar professor Dəmirçizadənin monoqrafiyasını təzədən çap etdik».

Qorqudşünaslar yaxşı bilirlər ki, «Bartoldun rus dilinə etdiyi tərcümə» də, «Akademik Jirmunskinin monoqrafiyası» da, professor Əli Sultanlının «Dədə Qorqud» və «Qədim yunan ədəbiyyatı» adlı gözəl bir tədqiqat əsəri» də, «Dədə Qorqud» dastanının dili ilə əlaqədar professor Dəmirçizadənin monoqrafiyası da Mir Cəfər Bağırovun vaxtında ilk dəfə işıq üzü görmüşdür. Hansı məntiqə görə adları çəkilən əsərlərin 50-60 ildən sonra yenidən nəşri «intibah» adlanır, yarandığı

illərin üstündən xətt çəkilir? Əsl «fantasmaqorik, sürrealist hadisə» buna deyərlər - həm gülməlidir, həm də kədərlidir.

O ki qaldı «Azərbaycan xalqı ilə onun keçmişi arasında sərhədlər yaratmağın, Azərbaycan xalqını öz keçmişindən, soyundan ayırmağın təzahürü»nə, bu iddianın M.C.Bağırova aidiyyatı yoxdur.

***

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində professor Həsi Abdullayevin M.C.Bağırova yazdığı məktublar saxlanılır. Bunlardan birincisi 1944-cü il martın 30-da yazılmışdır. Məktubdan aydın olur ki, müəllif həmin vaxtda Azərbaycan K(b)P Bakı Komitəsinin S.M.Kirov adına Təbliğat və Təşviqat Evinin direktoru vəzifəsində çalışırmış. Siyasi Maarif Evinin başçısının Azərbaycan başçısına göndərdiyi məktub belə adlanır: «Qubalı Fətəli xanın rolunun qeyri-düzgün işıqlandırılması ilə əlaqədar qısaca iradlar».

Həsi Abdullayevin M.C.Bağırova yazılı məlumatından öyrənirik ki, 1944-cü ildə Tiflisdə Gürcüstan SSR Elmlər Akademiyasının nəşriyyatı tərəfindən «Gürcüstan tarixi» dərsliyi buraxılmışdır. Kitabın müəilifi akademik Bredzenaşvili və akademik Cavaxaşvilidir. Redaktoru akademik Canaşiyadır. 3 akademikin hazırladığı dərslikdə Azərbaycanın böyük dövlət xadimi və sərkərdəsi Qubalı Fətəli xanın fəaliyyəti təhrif olunmuşdur.

Məktubda oxuyuruq: «Gürcüstan tarixi» dərsliyində belə yazılır: «İranda Kərim xanın ölümündən sonra hərc-mərclik başlandı. Fətəli xan İran taxt-tacını ələ keçirmək üçün ciddi-cəhd göstərirdi. Buna görə də o, ilk növbədə Şərqi Zaqafqaziyanı özünə tabe etdirməli idi». Elə çıxır ki, İran taxt-tacına sahib olmaq üçün Fətəli xan Şərqi Zaqafqaziyanı, o cümlədən Gürcüstanı ələ keçirməli idi. Halbuki Fətəli xan öz qarşısında belə bir məqsəd qoymamışdı, Onun bir məqsədi vardı ki, bu da ayrı-ayrı Azərbaycan xanlıqlarını vahid dövlət halında birləşdirməkdi. Fətəli xan özünün 30 illik mübarizəsi nəticəsində bu vəzifəni müəyyən dərəcədə yerinə yetirdi.

«Gürcüstan tarixi» dərsliyində həqiqəti təhrif edən yerlər vardır: bəzən «Şirvan hökmdarı Fətəli xan», bəzən də «Dərbənd hökmdarı Fətəli xan» işlədilir. Əslində isə Fətəli xan Şirvana və Dərbəndə hakim olsa da, ədəbiyyatda «Quba xanı» kimi yazılır və bu həqiqətə uyğundur.

Dərslikdə qeyd olunur ki, guya Fətəli xan Hacı Çələbini gürcü hökmdarı II İrakliyə qarşı qaldırmağa səy göstərmişdir. Bu, düzgün deyildir. Hacı Çələbi xan, Əbdüllətif Əfəndinin «Şəki xanlarının tarixi» kitabında göstərildiyi kimi, 12 il xanlıq etmiş və 1755-ci ildə vəfat etmişdir. Bundan 3 il keçmiş, 1758-ci ildə, atası Hüseynəli xanın ölümündən sonra Fətəli xan Quba xanlığının sahibi olmuşdur.

Dərslikdə göstərilir ki, Fətəli xan II İrakliyə qarşı şahzadə Aleksandrın başçılıq etdiyi tavadların mürtəce üsyanını müdafiə etmişdir. Hətta Gürcüstan ərazisinə girmək üçün ona qoşun vermişdir.

Tarixdən məlumdur ki, müəyyən dövrlərdə həqiqətən Fətəli xanın şahzadə Aleksandra xeyirxah münasibəti olmuşdur. Bu ondan irəli gəlirdi ki, II İrakli İrəvan, Naxçıvan, Gəncə xanlıqlarını, Şəmsəddil və Qazax mahallarını Gürcüstandan asılı vəziyyətdə saxlamağa çalışırdı, Sözsüz ki, Azərbaycanı birləşdirmək istəyən Fətəli xan bununla barışa bilməzdi.

Dövlət sərhədləri ilə bağlı Fətəli xan və II İrakli dəfələrlə görüşmüş, aralarındakı mübahisəli məsələləri sülh yolu ilə başa çatdırmış, ümumi düşmənə - xarici müdaxiləyə qarşı birlikdə mübarizə aparmışlar».

Professor Həsi Abdullayev M.C.Bağırova göndərdiyi məktubunda Fətəli xan barəsində A.A.Bakıxanovun «Gülüstani-İrəm» əsərindən aşağıdakı parçanı misal gətirir: «Fətəli xan tədbirli, mərhəmətli, əzmində sabitqədəm, məmləkəti idarə etmək işlərində mahir bir adam idi. O, könülləri ələ almaq və düşməni aldatmaqda xüsusi bir məharətə malik idi».

Bir il sonra Gürcüstanın paytaxtında daha bir kitab nəşr olunmuşdur. Q.Kikodzenin «İkinci İrakli» adlı əsərində Qubalı Fətəli xanın fəaliyyətinin təhrif olunması barədə də professor Həsi Abdullayev M.C.Bağırova məktub yazmışdır. Həmin məktubda deyilir:

«Azərbaycan K(b)P MK katibi M.C.Bağırov yoldaşa

«Zarya Vostoka» nəşriyyatı bu yaxınlarda Q.Kikodzenin «İkinci İrakli» broşurasını çap etmişdir. Gürcüstan və Azərbaycan arasındakı tarixi əlaqələrdən bəhs edərkən, müəllif ciddi səhvlərə yol vermişdir. Bunlar barədə respublikamızın mətbuat səhifələrində tənqidi material dərc olunmasını ayrı-ayrı yoldaşlar məsləhət bilmirlər. Çünki müəllif bu yaxınlarda ədəbi-publisistik fəaliyyətinin 40 illiyi ilə əlaqədar Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir.

Yoldaş Bağırov, Kikodzenin «İkinci İrakli» broşurasına yazılmış rəy «Tarixin bayağılaşdırılmasına qarşı» adlanır. 22 səhifədən ibarət olan bu tənqidi yazıda Qubalı Fətəli xanla bağlı məsələlər başlıca yer tutur.»

M.C.Bağırov tarixçi alimin rəyini diqqətlə oxumuş, bəzi abzasların qabağından göy karandaşla xətt çəkmişdir.

M.C.Bağırovun tapşırığı ilə Həsi Behbud oğlu Abdullayevin rəyi əsasında Gürcüstan SSR Elmlər Akademiyasına məktub göndərilmişdir. Məktuba rəsmi cavab alındıqdan sonra Həsi Abdullayev M.C.Bağırovun yanına dəvət olunmuşdur.

-Yoldaş Bağırov, məktublarımla Sizi narahat etdiyimə görə üzr istəyirəm, - deyə H.Abdullayev utana-utana dillənmişdir.

-Üzr istəmək niyə,-M.C.Bağırov səmimiyyətlə söyləmişdir, - biz sənə minnətdarıq ki, Azərbaycan tarixinə aid başqa respublikalarda nəşr olunan ədəbiyyatı oxuyub vaxtında rəyini yazırsan. Ancaq «İkinci İrakli» kitabçasını yazan Kikodze tarixçi deyildir. Buyur, Gürcüstandan aldığımız cavabla tanış ol.

H.Abdullayev məktubda M.C.Bağırovun altından xətt çəkdiyi cümlələrə nəzər yetirdi: «Kikodze tarixçi deyildir. Nə Akademiyada, nə Elmi-tədqiqat institutunda, nə də ali məktəbdə işləyir - adicə ədəbi tənqidçidir. Nəşr olunmuş 80 səhifəlik broşurasını «monoqrafiya» adlandırmaq olmaz».

H.Abdullayev ayağa qalxıb məktubu M.C.Bağırovun stolunun üstünə qoydu. Yerinə əyləşəndən sonra dedi:

-Yoldaş Bağırov, yazıçı, ya tənqidçi olmaq o demək deyil ki, Fətəli xan barədə ağlına gələni uydursun.

M.C.Bağırov acıqlı halda:

-Bəs nə bilmişdin, bizim tarixçilər qollarını çırmalayıb işə girişməyəndə, elə də olacaq da! - dedi. -Elə sən özün nə üçün Fətəli xandan elmi-tarixi bir əsər yazmırsan?

-Yoldaş Bağırov, mən Fətəli xan dövrünə aid məqalələr yazmışam. Ancaq sanballı elmi iş üçün gərək Moskva, Leninqrad və başqa şəhərlərin arxivlərinə...

-Yaxşı, aydındır. Bütün işlərini təxirə sal. Sabahdan elmi ezamiyyətə hazırlaş. Ezamiyyə xərcini Nazirlər Soveti ödəyəcək.

Qubalı Fətəli xanın fəaliyyəti ilə əlaqədar M.C.Bağırovun tarixçi alimlərə olan tövsiyələri bir ildən sonra müsbət nəticələrini göstərdi. 1947-ci il oktyabrın 7-də Azərbaycan Elmlər Akademiyasından göndərilmiş məktubda deyilir:

«Azərbaycan K(b)P MK və BK katibi Mir Cəfər Bağırov yoldaşa

Qubalı Fətəli xanın dövlət fəaliyyəti və Azərbaycan tarixinə aid materiallar Azərbaycan EA-nın əməkdaşları Seyidov, Şükürzadə və Məmmədli tərəfindən toplanılmışdır. Onlar Həsi Abdullayev yoldaşla birlikdə Azərbaycan SSR Nazirlər Sovetinin qərarına müvafiq olaraq ezamiyyətə göndərilmişdilər.

Adları çəkilən yoldaşlar əsasən Mərkəzi Dövlət Hərbi-Tarixi Arxivdə və digər arxivlərdə iki mindən çox tarixi sənəd aşkar etmişlər. Bundan başqa, Məmmədli yoldaş Azərbaycan SSR-in Daimi Nümayəndəliyinin rəsmi xahişi əsasında Xarici Siyasət Arxivinə buraxılmış və oradan Sizi maraqlandıran mövzuya dair 800 vərəqdə tarixi sənəd əldə etmişdir. Tapşırığınızı yerinə yetirərək 659 vərəqdən ibarət 281 sənədi Sizə göndəririk».

M.C.Bağırovun təşəbbüsü ilə ayrı-ayrı arxivlərdən toplanılmış 659 vərəqdən bəzilərindəki mənbələrə diqqət yetirin: Fətəli xanın P.S.Potyomkinə 1786-cı il 22 sentyabr tarixli məktubu;

Potyomkinin Fətəli xana 16 sentyabr 1786-cı il tarixli məktubunun surəti;

Gürcü çarı İraklinin məktubu;

S.Burnaşevin P.S.Potyomkinə raportu;

P.S.Potyomkinin knyaz Q.A.Potyomkinə məxfi məktubu.

Nəhayət, 1951-ci ildə H.Abdullayev gərgin əməyinin bəhrəsi ilə M.C.Bağırovu sevindirmişdir. Alimin geniş həcmli əsərinin əlyazmasının cild səhifəsində belə yazılmışdır: «Azərbaycan SSR Elmlər Akademiyası A.Bakıxanov

adına Tarix institutu, Həsi Abdullayev. Qubalı Fətəli xanın vahid dövlətçilik fəaliyyəti və Rusiya meylliliyi. Azərbaycan Elmlər Akademiyasının nəşriyyatı-1951-ci il».

Müəllif zəngin arxiv materialları və ilkin mənbələr əsasında sübut edir ki, Qubalı Fətəli xanın bütün fəaliyyətinin mahiyyəti vahid Azərbaycan dövləti yaratmaq olmuşdur. O, keçmiş Şirvanşahlar ərazisini birləşdirmək və Cənubi Azərbaycan xanlıqlarını da bu dövlətə ilhaq etmək istəyirdi. O yaxşı başa düşürdü ki, Rusiyanın Azərbaycana himayəsi olmadan bu tarixi vəzifəni həyata keçirmək qeyri-mümkündür.

Həsi Abdullayev əlyazmasının makina nüsxəsini M.C.Bağırova bağışlamışdır. Əlyazmanın 414-cü səhifəsində Fətəli xanın qəbrinin başdaşı təsvir olunmuşdur.

M.C.Bağırov Qubalı Fətəli xanın da, onun bacısı nəvəsi Abbasqulu ağa Bakıxanovun da həyat və fəaliyyətini mükəmməl öyrənmişdir. Akademiyanın Tarix institutunun A.Bakıxanovun adını daşıması rəhbərin ürəyindən idi. XX əsrin 50 yaşlı Azərbaycan başçısı ilə XVII əsrin 50 yaşlı dövlət xadimi arasında mənəvi «Bağırov körpüsü» qurulmuşdu.

***

İkinci dünya müharibəsi illərində M.C.Bağırov Cənubi Azərbaycan ərazisini İran əsarətindən qurtarmaq üçün «düşməni aldatmaqda xüsusi bir məharət» göstərməyə cəhd etmişdi. Lakin dünən çar Rusiyası, bu gün Sovet Rusiyası Qafqazda vahid və güclü Azərbaycanın yaranmasının qarşısını fəndgirliklə aldılar.

Müharibədən sonra İranın rəhbər dairələrində və mətbuatında Fətəli xan kimi nəhəng bir şəxsiyyətə şər yaxılması da bununla izah edilməlidir. Budur, M.C.Bağırov 1946-cı il fevral ayının 26-da Təbriz şəhərindən M.Abbasinin göndərdiyi məktubu oxuyur. Məktubda deyilir: «Öz əcdadlarının ənənəsinə sadiq qalan müasir İran irticaçıları və fars şovinistləri Milli Azadlıq Hərəkatının demokratik ruhlu rəhbərlərini «İranın xəyanətkarları» kimi qələmə vermək istəyirlər. Məsələn, 1944-cü ilin əvvəlində «Vətən yolu»nda Ənvər Məmmədxanlının Fətəli xan haqqındakı məqaləsi burada fars şovinistiərinin qəzəbinə səbəb olmuşdur. «Firdovən» dövlət gimnaziyasının direktoru Mahmud Əbuziya Fətəli xanı «ruslara satılmış» adlandırmışdır. İxtisasca tarix müəllimi olan Mahmud Əbuziya yazır: «Fətəli xan ruslara satılaraq, İranı parçalamaq məqsədi güdmüşdür».

İran irticaçıları və fars şovinistləri anlamırdılar ki, gün gələcək tarix öz hökmünü verəcəkdir. O zaman digər azadlığa nail olan xalqlar kimi Azərbaycan xalqı da Fətəli xana və başqa unudulan xalq qəhrəmanlarına möhtəşəm abidə qoyacaqdır.

İran irticaçılarının və rus şovinistlərinin istəyinin əksinə olaraq, M.C.Bağırovun «Fətəli xan yürüşü» davam etmişdir. Azərbaycan Respublikası

Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində bu barədə bir sıra sənədlər saxlanılır.

Cənubi Azərbaycanda əski əlifba ilə çıxan «Azərbaycan» məcmuəsinin 1946-cı il 5-ci sayında dərc olunacaq materialların həmin il yanvar ayının 2-də Rəsul Rza tərəfindən imzalanan mündəricatında oxuyuruq: «Təbrizin qəhrəmanlıq tarixindən. Ordubadi. Azərbaycanlıların ərəb və fars zülmünə qarşı qəhrəmanlıq mübarizəsindən səhifələr. Cəfər Xəndan. Cənubi Azərbaycan şairlərinin əsərlərində vətənpərvərlik motivləri. A.Məmmədli. «Təbrizdə 40 il bundan əvvəl nəşr olunan «Azərbaycan» məcmuəsi barədə». Həsi Abdullayev. «Fətəli xan dövlət xadimi, vahid vətən fədaisi və sərkərdə kimi».

Rəsul Rza M.Bağırova jurnalın səhifələrində gedəcək rəsmlər haqqında da məlumat verir. Qeyd edir ki, üz səhifədə «Fətəli xan» filmindən epizodları əks etdirən şəkillər yerləşdiriləcəkdir.

M.C.Bağırov Fətəli xana həsr olunan filmi də «Arşın mal alan» kimi yüksək bədii keyfiyyətlərə cavab verən ekran nümunəsi kimi görmək istəyirdi. O vaxt Azərbaycan SSR kinomatoqrafiya naziri vəzifəsində çalışan Rəsul Rzanın Azərbaycan rəhbərinə ünvanladığı məktublar bunu bir daha göstərir.

**«Azərbaycan K(b)P MK katibi**
**M.C.Bağırov yoldaşa**

Sizin tapşırığınıza əsasən «Fətəli xan» tarixi filminin çəkilişi ilə əlaqədar olaraq, aşağıdakıları bildirirəm:

1.Filmin böyük miqyasını və həmçinin quruluşçu rejissoru A.İsgəndərovun məlumatını nəzərə alaraq, Moskvadan təcrübəli kinorejissor dəvət olunmasını məqsədəuyğun hesab edirəm.

2.Filmin operatoru A.İsmayılovla birlikdə işləmək üçün səriştəli və peşəkar kinooperatorun da dəvət edilməsi faydalı olardı.

3.Filmdə baş rolda - Fətəli xan rolunda artist Rza Əfqanlı təsdiq edilmişdir. Ancaq işin gedişindən aydın olub ki, o bu rolun öhdəsindən gələ bilməyəcəkdir. Ona görə də artist Rza Əfqanlını başqası ilə, konkret olaraq, artist Adil İsgəndərovla əvəz etmək lazım gələcəkdir.

4.«Fətəli xan» filminin istehsalı zamanı qüsurlara yol verməmək məqsədilə Moskvadan yüksək dərəcəli kino mütəxəssislərinin dəvət edilməsi səmərəli olardı.

5.Filmin geniş miqyasda istehsalı, kütləvi səhnələrin çəkilişi üçün aşağıdakılar tələb olunur:

a)Kimyəvi maddələr, plyonkalar, toxuma mallar və b.k.

d)Film üçün sifarişlər, kostyumların tikilməsi, rekvezitlərin hazırlanması və s. respublikanın müvafiq müəssisələri arasında bölüşdürülməlidir.

v) Kütləvi səhnələrin çəkilişi üçün bir-iki aylığa 1200-1500 çapardan ibarət süvari qoşun hissəsi lazım olacaqdır, bu barədə Zaqafqaziya Hərbi Dairəsi ilə danışılmalıdır.

**Azərbaycan SSR Kinomatoqrafiya naziri Rəsul Rza 23 yanvar 1947-ci il».**

Rəsul Rzanın Kinomatoqrafiya naziri kimi M.C.Bağırova ünvanladığı son məktubu 1947-ci ilin noyabrın 21-də yazılıb. Məktubdə bildirilir ki, «Fətəli xan» filminin çəkilişi başa çatmaqdadır və film müəyyən edildiyi vaxtda tamaşaçıların ixtiyarına veriləcəkdir.

Bunu da qeyd etmək lazımdır ki, Rəsul Rza Azərbaycan K(b)P MK-nın tövsiyəsi ilə SSRİ Kinomatoqrafiya işləri nazirliyi yanındakı şurada Azərbaycanın nümayəndəsi idi.

Böyük şair və ictimai xadim Azərbaycanın Kinomatoqrafiya naziri vəzifəsində işləyərkən, o vaxtlar üçün, elə indinin özündə də qeyri-adi görünən bir addım atıb. Bu barədə mərhum yazıçı-jurnalist, M.C.Bağırov dövründə Mərkəzi Komitənin təbliğat və təşviqat şöbəsində çalışan İbrahim Novruzov «Rəsul Rzanı xatırlayarkən» adlı xatirəsində («Azərbaycan» jurnalı, 1999-cu il, №-9, səhifə 118-119) belə yazır: «Bir dəfə nazirlikdə Rəsulun yanında idim. Müzakirəyə kino-teatrlarda tamaşaçılara mədəni xidmət göstərilməsi məsələləri çıxarılmışdı. İclasdan sonra getməyə hazırlaşarkən, Rəsul qolumdan dartıb:

-Sən qal, -dedi, -işimiz var.

Sonra iri stolun gözündən bir vərəq çıxarıb, mənə uzatdı:

-Oxu.

Nazir kollegiyaya gələnləri yola salanadək oxudum. Nazirlik üzrə əmrin layihəsi idi. Rəsuldan soruşdum:

-Rəhbərliyin xəbəri varmı?

Rəsul:

İndicə oldu-deyib, xəfifcə gülümsədi və göy gözləri işıldadı.

Mən də eyni təbəssümlə cavab verdim:

-Bu, mənim səlahiyyətimdən kənardır.

...Haqqında söhbət gedən bu layihə Bakıdakı dövlət kino-teatrlarının adının dəyişdirilməsi haqqında əmr idi.

Növbəti bazar günü tamaşaçılar kino-teatrların yeni adları ilə qarşılaşdılar.

Qəzetlərdəki elanlarda da kino-teatrların yeni adları çəkilmişdi:

«Xudojestvennıy» - «Nizami»

«Bakkomuna», «Forum»-«Bakı»

«Proletari»-«Vətən»

«Qızıl Şərq»-«Azərbaycan»

«Spartak»-«Araz»

Bulvardakı yay kinoteatrı - «Bahar».

Nazirin rəhbərliyi fakt qarşısında qoyduğu bu addımı yuxarılarda giley-güzar doğursa da, açıb-ağartmadılar, problem dərinləşmədi».

Problem ona görə dərinləşmədi ki, qondarma adları milliləşdirən cəsarət sahibinin arxasında M.C.Bağırov durmuşdu. Müsavatçı Xudadat bəyin «millətçi» kürəkəninə zaval yox idi.

...M.C.Bağırovdan sonra keçmiş kinomatoqrafiya naziri başqa katiblərin dövründə ilk Azərbaycan Ensiklopediyası redaksiyasının baş redaktoru oldu. Lakin bu dəfə «millətçi»ni burulğana saldılar...

***

2000-ci il may ayının 19-da xalq şairi Rəsul Rzanın anadan olmasının 90 illiyi tamam oldu. Yubiley nəşrləri arasında «Nurlan» nəşriyyatı tərəfindən buraxılan «Yaşıl rəngin işığı» kitabı da vardır. Kitabda ilk Azərbaycan Ensiklopediyasının taleyi ilə bağlı xatirələr, digər materiallar toplanılıb. Filologiya elmləri doktoru, professor Şamil Salmanov «Rəsul Rza həm də görkəmli ensiklopediyaçı idi» məqaləsində yazır: «Xalq şairimiz Rəsul Rzanın Azərbaycan Ensiklopediyasının baş redaktoru təyin edilməsi bizim hamımızı sevindirdi... Mən tez-tez ensiklopediya redaksiyasına gedir, orada Rəsul müəllimlə görüşürdüm. Bundan əlavə, redaksiyada dostlarım işləyirdi. Mən onlarla da görüşürdüm. Və oradakı bütün müşahidələrim əsasında deyə bilərəm ki, Rəsul müəllim redaksiyada əsl iş şəraiti yaratmışdı. Ensiklopediyada əsl elmi iş gedirdi: Sözlük tərtib olunur, müzakirəsi keçirilirdi, ayrı-ayrı məqalələr yazılırdı və s. Və bu prosesdə meydana çıxan problemlərin həlli yolları inadla axtarılırdı. Bütün bunlar bilavasitə Rəsul müəllimin rəhbərliyi altında gedirdi. O istəyirdi ki, ensiklopediyada Azərbaycan mövzusu əsas mövzu olsun. Azərbaycan ensiklopediyada çox geniş əhatə olunsun. İstəyirdi ki, ensiklopediyada Azərbaycanın tarixi, mənşəyi, Azərbaycan mədəniyyəti hərtərəfli işıqlandırılsın: xüsusilə dilimiz, onun tarixi, xüsusiyyətləri ensiklopediyada layiqincə təmsil olunsun, ən incə məqamlarına qədər dəyərləndirilsin. Həm də Rəsul müəllim çalışırdı ki, bu, yeni və müasir, öz siması, öz ləyaqəti olan nəhəng bir elmi nəşr mədəniyyət hadisəsi olsun».

Xalq şairi Vaqif Səmədoğlu «Rəsul Rza marafonu» məqaləsində yazır: «Ensiklopediya. Bu elmi idarə, elmi fabrika Rəsul Rzaya, şairə lazım idimi? Su kimi, hava kimi. Azərbaycan torpağının havasını udmuş, suyunu içmiş bir övlad kimi şeirlə bir çox mətləbləri demək olmur. Xüsusilə də özünü insanlara borclu sananda, onları istədiyin kimi görə bilməyəndə. Ensiklopediya da Rəsul Rzaya Azərbaycanı tanıtdırmaq üçün, Azəri türkünü Azərbaycan səviyyəsinə qaldırmaq üçün lazım idi. Dünyanın nəzərini Azərbaycana yönəltmək istəyirdi Şair...

-Amerikada, Avropada, Türkiyədə yaşamış, yaşayan bizim sənətkarları, alimləri axtarın, tapın, məqalələr hazırlayın. Qorxmayın, mən burdayam».

ASE Baş redaksiyasının elmi nəzarət şöbəsində elmi redaktor işləmiş, Azərbaycanın əməkdar jurnalisti Əlirza Balayev kitabdakı xatirəsinə «Ağrıdağ ağrısı» sərlövhəsi verib. Məqalədə oxuyuruq: «Ensiklopediyada çalışdığım bir illik

müddət ərzində yiyələndiyim redaktə vərdişini heç bir qəzet, jurnal redaksiyasında qazanmaq olmazdı. Bundan əlavə, həmin ensikiopediyanın bütün 10 cildinin sözlüyü hazırlandığına görə hər adın, hər terminin ətrafında necə mübahisələr getdiyinin şahidi olurduq. Həmin mübahisələrin çoxu da siyasi xarakter daşıdığına görə, əslində bizim dünyagörüşümüzün və əqidəmizin formalaşması prosesi gedirdi. Hamısının fövqündə isə Rəsul müəllimin bizə örnək olan şəxsiyyəti dururdu.

Oxucuları yorsam da, maraqlı bir sözün Ensiklopediya tarixçəsini yazmaq istəyirəm. Məlum olduğu kimi, ensiklopediya nəşri təcrübəsinə görə, iki adla tanınan yer adlarının geniş yayılanı ilə (təbii ki, ensiklopediyanın harada, hansı ölkədə nəşr edilməsi nəzərə alınmaqla) məqalə, o biri ad qarşısında isə həmin məqaləyə isnad verilir. «Ararat» məqaləsi ilə bağlı Rəsul müəllimin fikri belə idi ki, (Moskvada nəşr olunmuş ensiklopediyadan fərqli olaraq) əsas məqalə «Ağrıdağ» adı ilə getməli, «Ararat» sözündə isə «Bax: Ağrıdağ» deyə, isnad verilməli idi. Lakin siyasi dairələr (sözlüklər Azərbaycan KP MK-da müzakirə olunurdu) bununla razılaşmayaraq, kompromis variant qəbul etmişdir. Yəni, ensiklopediyada həm «Ağrıdağ», həm də «Ararat» məqalələri veriləcəkdir. Sonradan, həqiqətən belə oldu və bir ensiklopediyada eyni yer haqqında iki adda müxtəlif, bir-birini təkrar etməyən məqalə verilməsi ensiklopediya nəşri tarixində nadir, bəlkə də yeganə hadisədir.

1970-ci ildə R.Rzanın redaktorluğu ilə buraxılmış ASE-nin birinci cildinin ilk tirajının satışdan yığışdırılaraq qadağan edilməsinin də səbəblərindən biri «Ararat» məqaləsi idi. Məqalə cəmi bir cümlədən ibarət idi və sonunda isnad verilmişdi ki, «Bax: həmçinin Ağrıdağ».

ASE-nin sonra, 1976-cı ildə Cəmil Quliyevin baş redaktorluğu ilə buraxılmış birinci cildində «Ararat» məqaləsi genişləndirilmiş və həmin isnad çıxarılmışdı.

«Ömürdə qalan izlər» xatirəsində əməkdar jurnalist Azər Bağırov yazır: «Mən özümü çox xoşbəxt sayıram ki, ömrümün düz 10 ilini Rəsul müəllimlə birgə, onun rəhbərliyi ilə işləmişəm. Bunun 8 ildən çoxunu Rəsul müəllimin bilavasitə bağlı olduğu dil və ədəbiyyat redaksiyasına başçılıq etmişəm... Cildə qarşı irəli sürülən ittihamların bir qismi məhz bizim sahə -dil və ədəbiyyatla bağlı olduğu üçün onların bəziləri üzərində ötəri də olsa, dayanmaq istərdim. Məsələn, cilddə millətçilik və pantürkizm meylləri «kəşf» etmək cəhdləri nə qədər ağlasığmaz, absurd, gülünc görünsə də, Azərbaycan dilinin də türk dilləri ailəsinə mənsub olması şübhə altına alınmışdı. Hətta gün kimi aydın olan bu həqiqəti rus mənbələrinə əsasən «sübut» etmək tələb edilirdi. Yaxud türkologiya ilə az-çox əlaqəsi olan hər kəsin stolüstü kitabı olan Mahmud Kaşqarinin möhtəşəm «Divani-Lüğətit-Türk» əsərinin tərcüməsini 3 cilddə nəşr etdirmiş məşhur Türkiyə alimi Bəsim Atalay haqqında qısa bioqrafik məqalə verilməsi də pantürkizm əlaməti sayılmışdı».

Əməkdar incəsənət xadimi, mərhum qələm dostumuz İmran Xəlilov ilk Azərbaycan Ensiklopediyasi ilə bağlı məqaləsini «Müdriklik məktəbi» adlandırmışdır. Danılmaz həqiqətlərlə zəngin olan bu 24 səhifəlik maraqlı yazının bəzi parçaları ilə birlikdə tanış olaq:

«O vaxtlar hələ ensiklopediyanın əlahiddə binası olmadığından (söhbət 1966-cı il aprelin əvvəllərindən gedir), Rəsul müəllim müvəqqəti olaraq Respublika Elmlər Akademiyası Rəyasət Heyətinin binasında («İsmailiyyə») akademiyanın o vaxtkı prezidenti, görkəmli ədəbiyyatşünas-alim, tənqidçi, akademik Məmməd Arif Dadaşzadənin kabinetində onunla üzbəüz otururdu. Elçinlə söhbətimizin ertəsi günü Rəsul müəllimin qəbulunda oldum. Mən ona universitetin axırıncı kursunda oxuduğumu və ensiklopediyada işləmək arzusunda olduğumu bildirdim. Rəsul müəllim mənə italyan, intibah ədəbiyyatından nələri bildiyimi sual etdikdə Aligyeri Dantenin «İlahi komediya» və Covanni Bokkaççonun «Dekameron» əsərlərinin adlarını çəkən kimi, dərhal sözümü yarımçıq kəsərək məni işə götürdüyünü və aprelin 18-də ərizəmlə gəlməyimi bildirdi... Mən bu böyük, qüdrətli şəxsiyyətin qarşısında heyrətimdən donub qalmışdım. O andan etibarən Rəsul müəllim mənim üçün həyatda müqəddəs bir varlığa çevrildi. Məgər təkcə mənim üçünmü?

«Rəsul müəllimlə 10 il birgə işlədiyim müddətdə mən ensiklopediyada kiçik redaktordan redaksiya müdiri vəzifəsinədək bütün pillələri dəf edəsi oldum. Və həmin illərdə keçdiyim formalaşma dövrü mənim üçün qeyrət məktəbi, həyat universiteti olaraq qalmaqdadır.

Bir qayda olaraq, Rəsul müəllim bütün məqalələri oxuyar, materiallara baxar, qeyd və təkiiflərini konkret olaraq göstərərdi. Bütün bu proseslər zamanı Rəsul müəllimin böyük dünyagörüşü, erudisiyası, redaktə qabiliyyəti, dilinin səlisliyi, təmizliyi, rəvanlığı açıq-aşkar özünü göstərir və bizi tam məsuliyyətli olmağa səfərbər edirdi. Dediklərimi sübuta yetirmək üçün yüzlərcə misal çəkə bilərəm. Təkcə bircəciyini qeyd etməklə kifayətlənmək istəyirəm. Birinci cilddə görkəmli rus sənətşünası, SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü Mixail Vladimiroviç Alpatov barədə məqaləyə Rəsul müəllimin qeydində alimin Azərbaycan memarlıq abidələri, o cümlədən Mömünə xatın türbəsi haqqında dəyərli fikirləri olması göstərilir və bunların hökmən, qısaca da olsa məqalədə verilməsi tələb olunurdu. Redaksiya əməkdaşları bütün mövcud materialları ələk-vələk etməsinə baxmayaraq, bir şey tapa bilmirdi. Rəsul müəllim isə hər dəfə israrla «var, axtarın tapın!» kəlməsini təkrarən yazırdı. Nəhayət, M.F.Axundov adına Respublika kitabxanasında M.V.Alpatovun 3 cildlik «Ümumi incəsənət tarixi» kitabını başdan-ayağa oxuyub həmin fikirləri tapdım. Sevincimin həddi-hüdudu yox idi. İndi, işıq üzü görməyən yaşıl kitabı əldə edənlər «Alpatov M.V.» (səh.237) məqaləsini oxuyan oxucular orada bu sətirlərə rast gələ bilərlər: «XII əsr Azərbaycan ustalarının Naxçıvanda yaratdığı Mömünə xatın türbəsi nadir gözəllik və zəriflik abidəsidir. Mömünə xatın türbəsi Şərqin ən gözəl klassik əsərlərindən Firdovsinin «Şahnamə» və Nizaminin «Leyli və Məcnun» kimi abidəsidir» (səh.248-249).

Alpatovun fikrincə, o dövrün Orta Avropa memarlığında dəxi belə gözəl abidəyə rast gəlmək olmur.

Təbii ki, Rəsul müəllim Alpatovun dediklərini də, yerini də çox gözəl bilirdi. Sadəcə olaraq, Rəsul müəllimin niyyəti bizə oxumağı, axtarmağı, ilk günlərdən başladığımız işin necə məsuliyyətli bir sahə olmasını aşılamaq məqsədi güdürdü. Bütün bunlar mənim üçün bir yeni universitet idi - Rəsul Rza universiteti idi...»

Nəhayət, kollektivin gərgin əməyi, mütərəqqi elmi ictimaiyyətin səyi sayəsində uzun sürən, əzablı, kəşməkeşli proseslərdən, elmi müzakirələr, mübahisələrdən sonra birinci cild hazır oldu. Ələlxüsus, «Azərbaycan», «azərbaycanlılar» məqalələri, vaxtilə Azərbaycandan uzaqlarda yaşayıb-yaratmış və fəaliyyət göstərmiş görkəmli elm və mədəniyyət xadimləri (Əhmədbəy Ağayev, Məmməd Ağaoğlu və s.) haqqında materiallar son dərəcə çətinliklə, demək olar ki, yalnız Rəsul müəllimin qətiyyəti və inadkarlığı nəticəsində, zaman üçün mümkün olmayan təfsirdə, cilddə əksini tapa bilmişdir.

...Bir müddətdən sonra tədricən müxtəlif səviyyədə, istər elmi, istərsə də inzibati istiqamətdə komissiyalar ensiklopediyaya ayaq açmağa başladı. Hərdən elə olurdu ki, ensiklopedik prinsiplər belə yüksək instansiyaların müzakirəsinə çıxarılırdı. Prinsipə görə Azərbaycanın bütün elmlər doktorları haqqında bioqrafik məqalələrin verilməsi nəzərdə tutulurdu. Və bu prinsip birinci cilddə əksini tapmışdı. Lakin Azərbaycan EA Rəyasət Heyətinin bu məsələ ilə əlaqədar iclasında həmin prinsipin düzgün olmaması nəzərə çatdırılır».

**İmran Xəlilovun şahidi olduğu hadisələr bunlarla bitmir.** O, İçərişəhərdə ASE üçün bina tikilməsi məsələsini də işıqlandırır: «Binamız tam yararsız olduğundan Rəsul müəllim ilk günlərdən təzə bina tikdirmək üçün yollar arayıb-axtarırdı. Bir gün xəbər tutduq ki, ensiklopediya üçün təzə bina tikilməsi üçün İçərişəhərdə qoşa qala qapısının girəcəyindən bir qədər aralıda sahə ayrılıb. Bu dövr üçün əlçatmaz bir şey, bir müəmma idi. Çünki hələ o vaxtlar İçərişəhər Azərbaycan Nazirlər Sovetinin qərarı ilə muzey-qoruq elan edildiyindən, burada yeni bina inşa etmək qəti qadağan olunmuşdu. Sonralar ensiklopediyanın buradan yer alması ilə əlaqədar müxtəlif şayiələr baş alıb gedirdi. Rəsul müəllim ensiklopediya rəhbərliyindən getdikdən sonra günlərin birində Malakan bağının yanından keçərkən rastlaşdıq və hal-əhval tutduqdan sonra mən bu sirrin aqibətini ondan soruşdum. Rəsul müəllim respublikanın əməkdar memarı Zeynəb Quliyevanın hazırladığı layihəni təsdiq etmək üçün öz müavini ilə Bakı şəhər Sovetinin rəhbərliyinə təqdim etməsinin qısa tarixçəsini danışdı: «Bu münasibətlə Şəhər Soveti sədrinin (deyəsən Abdullayev familiyalı şəxs idi) yanında Bakının Baş Tikinti idarəsinin rəisi A.X.Baqramyanın qardaşı toplaşmışdı. Sədr əvvəlcə sözü İvanova, sonra isə Baqramova verdi. Özü isə bir kəlmə də danışmadı. Onlar İçərişəhərin xalqımızın böyük tarixi-mədəni abidəsi olması olduğunu bizə izah edərək, burada hər hansı bir yeni tikilinin inşasını cinayət kimi qələmə verdikdə, mən dözməyərək

müavinimə, -Rüstəm, madam ki, bunlar tariximizi və mədəniyyətimizi bizə tanıtdırdılar, burada oturmağımıza hacət yoxdur - deyərək, kabineti tərk etməli olduq. Bir neçə gündən sonra bu məsələ ilə əlaqədar o zaman Azərbaycan KP MK-nın birinci katibi Vəli Axundovun qəbulunda oldum. Vəli Axundov məni dinlədikdən sonra Baksovet rəhbərliyinin gətirdiyi arqumenti haqlı sayaraq, - Rəsul, axı bu qərarı hökumət çıxarıb, doğrudan da İçərişəhər bizim qədim tariximiz və mədəniyyətimizdir. Belə çıxır ki, özümüz çıxardığımız qərarın əleyhinə özümüz də çıxmış oluruq - deyəndə, mən Moskva Kremlinin də rusların muzey-qoruğu olduğuna baxmayaraq, orda Kremlin Qurultaylar Sarayının inşa edildiyini alternativ kimi misal çəkərək, ilk milli ensiklopediyamızın da xalqımız üçün nə kimi bir abidə olacağını bildirdim. Vəli Axundov uzun sürən pauzadan sonra razılığını bildirdi və bu minvalla da binanın inşasına başlanıldı».

1969-cu ildə Vəli Axundov Azərbaycan rəhbərliyindən uzaqlaşdırılmışdı. ASE üçün İçərişəhərdə yeni bina ucaldılsa da ASE-nin birinci cildinin üzərinə qadağa hökmü vuruldu. ASE Baş redaksiyasının məsul katibi Arif Hüseynov «Ədəbiyyat və incəsənət» qəzetinin 1990-cı il 18 may tarixli sayında dərc olunmuş «Bir Rəsulumuz vardı.,.» məqaləsində yazır: «Bir dəfə MK-da müşavirə zamanı Rəsul müəllimin: - Pambıq yaxşı şeydir, əgər qadınlarımızı pis kökə salmasaydı, uşaqlarımızın sağlamlığını pozmasaydı, yeniyetmələrin müntəzəm savad almasına mane olmasaydı - sözləri ona qarşı başlanmış öcəşmə kompaniyasını bir qədər də genişləndirdi. Ali Sovetə seçkilər zamanı onun namizədliyi irəli sürülmədi. Bütün çağırışlarda Ali Sovetin deputatı olmuş Rəsul müəllimə deputatlıq mandatı çox görüldü. Lakin bu da Rəsul müəllimi öz prinsipiallığından döndərə bilmədi.

Rəsul Rza dəbdəbə sevən deyildi, sadəliyi xoşlayırdı. Onun kabinetində kitab şkafından, stol və stullardan savayı demək olar ki, heç nə qoyulmamışdı. Divardan çərçivəyə salınmış bir lövhə asılmışdı və o, demək olar ki, hər gün həmin lövhəyə ötəri də olsa nəzər yetirirdi. Başqa şəhərlərdən gələn qonaqlara həmin lövhəni göstərib fəxrlə deyirdi: SSRİ-də Böyük Sovet Ensiklopediyasının nəşrinə başlanması barədə qərar MİK Rəyasət Heyətinin Nəriman Nərimanovun sədrliyi ilə keçirilən iclasında verilmişdir. Bu həmin qərarın foto surətidir.»

***

1975-ci ildə Böyük Sovet Ensiklopediyasının nəşrə başlanmasının 50-ci ildönümü münasibətilə Moskvaya vurduğu teleqramda da R.Rza öz fərəhini gizlətmədi. O yazmışdı: «Azərbaycan xalqının böyük oğlu Nəriman Nərimanovun imzaladığı qərara əsasən nəşrinə başlanmış Böyük Sovet Ensiklopediyasının 50 illik yubileyi münasibətilə kollektivinizi təbrik edir, yeni-yeni müvəffəqiyyət arzulayıram».

Yubiley şənliyində iştirak üçün Rəsul Rza məni də Moskvaya getməyə dəvət edəndə soruşdum: - Bəs suvenir aparmayacağıq? O: -Suveniri Nərimanov bizdən qabaq verib-dedi.

Rəsul müəllim Moskvaya yola düşəndə ağır xəstəlikdən təzəcə qalxmışdı. Ensiklopediyanın hətta çapdan çıxmış birinci cildinin tirajına «Baş redaksiya heyəti təsdiq edilməmişdir» bəhanəsi və digər uydurmalarla icazə verilməməsi, qərəzli yazılmış şikayət məktubları (guya ki, Rəsul Rza az qala millətçidir, çünki indiyədək yaranmış tarixi stereotipləri dağıdır və i.a.) onun səhhətinə pis təsir etmişdi, Hiss olunurdu ki, onu tutduğu vəzifəsindən kənar etmək istəyirlər, amma buna gücləri çatmır. Əllərindən gələn ancaq onu əsəbiləşdirməkdir. Bu qərəzli niyyət çox metodik şəkildə həyata keçirilirdi. Ona yenə də MK katibi, müvafiq şöbə müdiri zəng vurur, əsassız iradlarını söyləyirdilər.

Hətta iş o yerə çatırdı ki, özünü hər bir situasiyada təmkinli aparmağı bacaran ustad şair səsini qaldırmalı və sərt cavab verməli olurdu.

Qanında şəkərin həddindən artıq qalxması onu yatağa saldı. 4-cü idarənin xəstəxanasında yatmalı oldu. «Rəsul müəllim, nə əcəb Moskvaya getmirsən?»- sualına, -«bəs mənə deməzlər ki, Azərbaycanın adlı-sanlı həkimlərini qoyub buraya nə üçün gəlmisən?»- cavabını verirdi. Amma çox təəssüflər olsun ki, bu adlı-sanlı həkimlər şairin ümidlərini doğrultmaqda acizlik göstərdilər. Onun vəziyyəti hey ağırlaşırdı...»

Nəhayət, Rəsul Rza bədxahlarının qara niyyəti çin oldu. 1975-ci il avqust ayında xalqımızın düşmənlərinin təşkil etdikləri yoxlamanın 182 səhifəlik arayışları arxiv divarları arasında indiyədək qalmışdır.

Sov. İKP MK yanında Partiya Nəzarəti Komitəsinin məsul işçisi A.Sokolovun altı səhifədən ibarət yekun arayışı belə adlanır: «Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında işlərin yarıtmaz vəziyyəti barədə məktubun yoxlama nəticələri haqqında».

Arayışın bəzi parçalarına diqqət yetirin: «On ildən artıqdır ki, Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası yaradılmışdır. Ancaq indiyədək ensiklopediyanın bircə cildi belə buraxılmamışdır, halbuki redəksiyanın saxlanılmasına, nəşriyyat və mətbəə işlərinə 3230 min manat sərf olunmuşdur ki, bu da ensiklopediyanın bütünlükdə 10 cildi üçün nəzərdə tutulmuş məbləğdən 530 min manat çoxdur. Bundan əlavə, redaksiyanın yeni binasının inşasına 678 min manat xərclənmişdir.

Ensiklopediyanın 1970-ci ildə 21 nüsxə ilə buraxılmış birinci cildi qüsurlarına görə yararsız hesab edilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin oktyabr (1971-ci il) plenumunda qeyd olunduğu kimi, ensiklopediya cildlərinin nəşrinin pozulmasında başlıca səbəb bununla izah edilir ki, baş redaktor Rəsul Rza yoldaş redaksiyasının işinə səriştəli mütəxəssislər cəlb edə bilməmiş və materialların hazırlanmasında laqeydliyə yol vermişdir. Azərbaycan Kommunist Partiyası

Mərkəzi Komitəsinin təbliğat, elm və tədris müəssisələri şöbələri tərəfindən ciddi nöqsanlar aşkar edilmiş, lakin redaksiya rəhbərliyi bundan heç bir nəticə çıxarmamışdır. Redaksiyanın rəhbərliyi Rəsul Rza yoldaş başda olmaqla işi yaxşılaşdırmaq üçün təsirli tədbirlər görmək əvəzinə, aşkar olunmuş nöqsanları inkar etməyə və özlərinə bəraət qazandırmağa çalışmışlar.

1973-cü ilin avqust ayında Azərbaycan KP MK-ya göndərilmiş məktubda Mərkəzi Komitənin iki şöbəsi tərəfindən aparılmış yoxlamada göstərilən qüsurları əslində redaksiya rəhbərliyi əsassız hesab etmişdir.

152 işçisi olan redaksiyanın fəaliyyəti başlı-başına buraxılmışdır. Belə ki, indiyədək Baş redaksiyanın ümumi iş planı tərtib olunmamışdır. İllik plan da yoxdur. İşin yekunları nə Baş redaksiyada, nə də partiya yığıncaqlarında müzakirə edilir. Son illər Baş redaksiyada kollegiya fəaliyyət göstərmir. 1965-ci ildə Azərbaycan KP MK bürosu tərəfindən təsdiq edilmiş kollegiya üzvlərinin əksəriyyəti redaksiyanın işində iştirak etmir. Ensiklopediyanın Baş redaktoru Rəsul Rza yoldaş nəzarətsizlik üzündən işə gec gəlir və iş günü qurtarmamışdan çıxıb gedir.

Rəsul Rza yoldaş Göyçayda yaşayış üçün yararlı, sahəsi 262 kv.m., qarajı və su hovuzu olan mülk tikdirmişdir. Göyçay rayon ZDS İcraiyyə Komitəsinin qərarı ilə ona 1200 kv. m. torpaq sahəsi ayrılmasına baxmayaraq, bu sahə həqiqətdə 2557 kv. m.-dir. Binanın yaşayış sahəsi qanunda nəzərdə tutulmuş ölçüdən biryarım dəfə çoxdur. Evin tikintisinin 1972-ci ildə başa çatmasına baxmayaraq, Rəsul Rza yoldaşın inşaatçıya - Azərbaycan Baş Meliorasiya Tikinti idarəsinə bir milyon manatdan çox borcu qalmışdır.

ASE redaksiyasının işində müəyyən edilmiş ciddi qüsurlar göstərir ki, Baş redaktor kimi Rəsul Rza yoldaş Azərbaycan KP MK tərəfindən ona verilmiş tapşırıqlara neçə illər ərzində başdansovdu yanaşmışdır. Halbuki o, 1967-1975-ci illərdə respublika nəşriyyatlarında 18 kitab çap etdirmişdir ki, bunların da ümumi tirajı 230 min nüsxədən çoxdur. Bu kitablarına görə 122 min manat məbləğində qonorar almışdır.

Azərbaycan *KP* MK-nın ideologiya məsələləri ilə məşğul olan katibi D.P.Quliyev yoldaş ASE-nin Baş redaksiyasının fəaliyyəti üzərində təsirli nəzarətin qoyulması üçün lazımi tədbir görməmişdir. 1973-cü ildə Azərbaycan KP MK-nın iki şöbəsi tərəfindən aşkar olunmuş nöqsanlarla ASE-nin redaksiya rəhbərliyinin razılaşmamasına baxmayaraq, D.P.Quliyev yoldaş vəziyyətə münasibətini bildirməmiş, Baş redaksiyanın fəaliyyətində mövcud qüsurlara dair MK-ya daxil olan siqnallara laqeydlik göstərmişdir.

Yoxlamanın nəticələri barədə Azərbaycan KP MK-nın birinci katibi H.Ə.Əliyev yoldaşa məlumat verilmişdir.

Yoxlama nəticələrinə dair arayışı Azərbaycan *KP* MK-nın müzakirəsinə göndərməyi məqsədəuyğun hesab edirəm.

**Sov. İKP MK yanında Partiya Nəzarəti Komitəsinin məsul nəzarətçisi A.Sokolov»**

Bəli, Mir Cəfər Bağırov dövründə 29 yaşında Azərbaycan Yazıçılar İttifaqının sədri, 36 yaşında nazir olmuş fitri istedad sahibi Rəsul Rza 65 yaşında Moskva məmurunun istintaqına məruz qalmışdı.

***

Rəsul Rzanın yadına Mir Cəfər Bağırovun milli kadrlarımızı necə müdafiə etməsi barədə əhvalatlar düşdü. Bunlardan birisi haqqında arxivdə maraqlı bir sənəd vardır. Azərbaycan KP MK katibi Mir Cəfər Bağırovun 1940-cı il iyul ayında ÜİK(b)P MK yanında Partiya Nəzarəti Komitəsinin sədri Andrey Andreyeviç Andreyev yoldaşa yazdığı rəsmi məktubu birlikdə oxuyaq:

«SSRİ Xalq Torpaq Elmi-Tədqiqat Müəssisələri Baş İdarəsinin 3 nəfərdən ibarət yoxlama komissiyası 1940-cı il mart ayının 11-dən 23-dək Azərbaycan quru tropik təcrübi stansiyasının elmi-maliyyə və təsərrüfat fəaliyyətini yoxlayaraq akt tərtib etmişdir. Yoxlamanın nəticələri barədə şifahi məlumat verməklə kifayətlənmiş, aktda yazılanları elan etməmişdir. Stansiyanın direktoru Q.Əfəndiyev yoldaş aktın surəti ilə tanış edilməmişdir. Halbuki aktda göstərilənlər əsasında onun vəzifəsindən kənarlaşdırılmasına zəmin yaradılmışdır. Azərbaycan SSR Xalq Torpaq Komissarlığı elm şöbəsinin müdiri Frankfurt yoldaş Q.Əfəndiyevin vəzifəsindən uzaqlaşdırılması barədə əmrin layihəsini hazırlamış, məsələ kollektivdə müzakirə edilmədən Azərbaycan SSR xalq torpaq nazirinin müavini Yegizarov yoldaş əmri imzalamışdır. Üstəlik Qafur Əfəndiyev yoldaş nazirliyə dəvət olunmamışdır.

İttifaq Xalq Torpaq Nazirliyi Elmi-Tədqiqat Müəssisələri Baş İdarəsi 1940-cı il 22 may tarixdə 76 №-li əmriylə stansiya direktoru Q.Əfəndiyev yoldaşı «stansiyanın fəaliyyətinə rəhbərliyi təmin etmədiyinə görə» vəzifəsindən azad etmiş, bu vəzifəni icra etməyi elmi işlər üzrə müavini Jiqareviç yoldaşa həvalə etmişdir.

Bizim tapşırığımızla Azərbaycan SSR xalq torpaq naziri Əliyev yoldaş işi hərtərəfli araşdırmış, SSRİ xalq torpaq naziri Venediktov yoldaşa yazılı məktub göndərmiş və Q.Əfəndiyev yoldaşın vəzifəsindən azad olunmasına dair əmrin ləğv edilməsini xahiş etmişdir. Müraciət nəticəsiz qalmışdır.

Q.Əfəndiyev yoldaşın işdən azad edilməsi nazirliyin kollegiya iclasında müzakirə edilməmişdir. Bundan əlavə, yoxlama aktı Q.Əfəndiyevin izahatı təqdim olunmadan tərtib edilmişdir. Bu səbəbdəndir ki, işdə yol verilmiş və asanlıqla düzəldiləsi nöqsanlar aktda «Əfəndiyevin cinayətləri» kimi ifadə edilmişdir.

Bitərəflərdən təşkil olunmuş yoxlama komissiyası stansiyanın partiya və komsomol təşkilatlarının fəaliyyətinə siyasi qiymət verir, 1920-ci ildən ÜİK(b)P üzvü olan Q.Əfəndiyev yoldaşı proletar ziyalılarına qarşı yönəldilmiş əksinqilabçılıqda, başqa sözlə, maxayevçilikdə günahlandırır. Halbuki SSRİ Xalq

Torpaq Nazirliyi Elmi-Tədqiqat Müəssisələri Baş İdarəsinin ekspert komissiyası 1940-cı il yanvar ayının 26-da stansiya tərəfindən 1939-cu ildə həyata keçirilən tədbirləri bəyənmiş, 1940-cı ildə isə yüksək nailiyyətlər əldə etdiyinə görə stansiya Ümumittifaq Kənd Təsərrüfatı Sərgisi iştirakçısı olmuş və Q.Əfəndiyev rəsmən sərgi iştirakçılarının siyahısına salınmışdır.

Andrey Andreyeviç! Bu fakta diqqət yetirin: Q.Əfəndiyev yoldaş Quru Tropik stansiyasının direktoru vəzifəsinə Azərbaycan K(b)P MK-nın bürosunun və SSRİ Xalq Torpaq Komissiyasının qərarları ilə təsdiq olunmuş, İttifaq Nazirliyi elmi-tədqiqat müəssisələri baş idarəsinin rəis müavininin əmri ilə vəzifəsindən kənar edilmişdir.

Belə hesab edirik ki, SSRİ Xalq Torpaq Nazirliyi Elmi-Tədqiqat Müəssisələri Baş İdarəsinin hərəkətləri yolverilməzdir və Q.Əfəndiyev yoldaşın vəzifəsindən kənar edilməsinə heç bir əsas yoxdur.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

M.C.Bağırovun işə qarışması nəticəsində özbaşınalıq edən Yegizarov cəzalandırılmış, Əfəndiyev işinə bərpa edilmişdir. Q.Əfəndiyevin rəhbərliyi ilə Mərdəkanda dünyanın min bir bitkisi boy atmış nəbatat bağı salınmışdır. Bu bağ Azərbaycan Elmlər Akademiyasının dendrologiya parkına çevrilmişdir.

***

1975-ci ildə 1940-cı ilin Andrey Andreyeviç Andreyevi kim idi? Arvid Yanoviç Pelşe - Sov. İKP MK yanında Partiya Nəzarəti Komitəsinin sədri. Fəqət İttifaqın ali nəzarətinin başçısı ilə kəllə-kəlləyə gəlməyə hazır olan Mir Cəfər Bağırov yox idi. Qoç döyüşünə Rəsul Rzanın özü atılmalı olmuşdu: «Sov. İKP Siyasi Bürosunun üzvü, Partiya Nəzarəti Komitəsinin sədri

A.Y.Pelşe yoldaşa

Hörmətli A.Y.Pelşe yoldaş!

Sokolov yoldaşın arayışında ASE-nin işindəki bəzi faktlarla yanaşı son dərəcə subyektiv, bu faktları birtərəfli izah edən əsassız müddəalar var. Sokolovun arayışıyla tanış olmaq üçün mənə çox məhdud vaxt verildiyinə görə, mən yalnız yadımda qalan maddələri təkzib edə bilərəm.

Birincisi, 4 cildin maketini 4 aya, cildin özünün isə il yarıma buraxılacağını real saymaq üçün ya gərək obyektivlik hissini daim itirmiş olasan, ya da ensiklopediya nəşri kimi mürəkkəb işin spesifik xüsusiyyətlərindən heç baş çıxarmayasan. Halbuki 1966-cı ildə, ensiklopediyanın nəşri haqqında qərar qəbul edilməsindən beş ay sonra baş redaksiyasının bircə dənə otağı belə yox idi, ştatı isə yalnız tək bir baş redaktordan ibarət idi.

Ensiklopediya kollektivinin guya başlı-başına buraxılması haqqında Sokolovun iddiası da həqiqətə uyğun deyil. Məlumdur ki, ASE kollektivi çox böyük iş görüb. I, II, III və qismən IV və V cildləri, habelə Azərbaycan və rus

dillərində xüsusi cildi hazırlayıb. 60 min kəlmə - termindən ibarət sözlük nəşr olunub. Onu demirəm ki, respublikada ensiklopedik nəşr terminoloji məsələlərin, toponimika məsələlərinin bərbad vəziyyətini də nəzərə almaq lazımdır. Baş redaksiya onlarla əməkdaşını, mütəxəssisləri məlumat toplamaq üçün respublikanın şəhər və kəndlərinə göndərməli oldu və toplanılan məlumatların bir çoxu ilk dəfə bizim tərəfimizdən qeydə alındı. Onlarla tarixi və coğrafi xəritələr ASE tərəfindən hazırlanmış və nəşr olunmuşdur. Əgər bütün bunlar yoldaş Sokolovun iddia etdiyi kimi kollektivin başlı-başına buraxılmasıdırsa, onda bəs gərgin, faydalı və mütəşəkkil iş nə deməkdir?

Təəccüb doguran odur ki, Sokolov yoldaş nəyin bahasına olursa-olsun məni ləkələməyə çalışır. Rəsul Rzanın işə gec gəlməsi və işdən tez getməsi haqqında iddiası da görünür, R.Hüseynovun (Rəsul Rzanın müavini olmuşdur-T.Q.) verdiyi məlumatlara əsaslanır. Məsələnin mahiyyətinə gəldikdə isə birincisi, Sokolov yoldaş bilməlidir ki, baş redaktorun iş günü normalaşmış deyil. İkincisi onu da yaxşı bilməlidir ki, ASE baş redaksiyasında işimdən başqa mən xeyli ictimai vəzifə də daşıyıram: Asiya və Afrika ölkələri ilə Respublika Həmrəylik Komitəsinin sədri, APN-nin Respublika İctimai İdarə Heyətinin sədri, Respublika Sülhü Müdafiə Komitəsinin sədr müavini, Yazıçılar İttifaqı Rəyasət Heyətinin üzvü, Terminalogiya Komitəsinin üzvü, Sabir poeziya günləri komitəsinin sədri, Böyük Sovet Ensiklopediyası Redaksiya Heyətinin üzvü, Azərbaycan KP MK –nın təftiş komissiyasının üzvü və i.a.

Aydındır ki, bütün bu ictimai işlər üçün mən sutkanın 24 saatından vaxt ayırmalıyam. Hətta istirahət və yuxumun hesabına olsa da. Ancaq bütün bunlara baxmayaraq, mən ensiklopediyanın baş redaktoru vəzifəsini işin tam həcmində icra edirəm.

Sokolov yoldaş yazır ki, mən 1970-75-ci illərdə 18 kitabımı nəşr etdirmişəm. Bu irada birinci təbii cavab budur: Nə olsun? Amma işin həqiqi tərəfi odur ki, 5 ildə mənim 18 yox, 9 kitabım çıxıb. Deyəsən, Sokolovun gözündə rəqəmlər nədənsə ikiləşir. Yəni, doğrudanmı Sokolov yoldaş elə hesab edir ki, mənim kolleqalarım -şairlər M.Bajan, P.Brovka, İ.Abaşidze - Ukrayna, Belorusiya və Gürcüstan ensiklopediyalarının baş redaktorları olandan bəri şeir yazmır və kitab nəşr etdirmirlər?

Mənim Göyçaydakı bağım haqqında Sokolov yoldaşın iddiaları da həqiqətdən uzaqdır. Burada Sokolov yoldaş rəqəmi ikiləşdirməkdən də keçib, üçləşdirib: Göyçaydakı 95 kv. metrlik evimi 265 kv.m-ə çatdırıb. Göyçaydakı bu evdən Yazıçılar İttifaqının dörd üzvü, mən, həyat yoldaşım, oğlum və əmim oğlu da istifadə edirlər. Moskvada, Kiyevdə, Tbilisidə, Daşkənddə və başqa böyük şəhərlərdə yaşayan yazıçıların səs-küydən uzaq bir yaradıcılıq guşələri - bağları olduğu kimi, mən də bu evi halal zəhmətimlə qazandığım pullara və dövlət təşkilatı ilə müqavilə əsasında tikdirmişəm (bu barədə bütün sənəd və arayışları əlavə edirəm).

Partiya üzvlük haqqını da mən həmişə vaxtlı-vaxtında vermişəm. 1972-73-cü illərdə ağır xəstə yatdığım üçün oğlum mənim üzvlük haqqımı səhv hesabladığına görə lazım olduğundan da bir qədər artıq məbləğdə verib.

Bütün bu aydın faktları nə səbəbdənsə yanlış izah etdiyi və ədalətsiz qənaətə gəldiyi üçün qoy yoldaş Sokolov öz partiya vicdanı qarşısında cavab versin.

Mən heç vaxt razı olmaram ki, uzun illərin namuslu fəaliyyətindən sonra ömrümün 66-cı ilində mənə əsassız ittihamlar verilsin və mənim bir yazıçı və kommunist kimi bioqrafiyama kölgə düşsün. Məktubun yeganə məqsədi budur.

Hörmətlə Rəsul Rza».

İttifaqın yüksək nəzarət orqanlarına soxulmuş sokolovların bütün uydurmalarını cəsarətlə rədd edən Rəsul Rza 1975-ci ilin oktyabr ayında ASE-nin Baş redaktoru kimi sonuncu dəfə ezamiyyətə yollanmışdır -Cənubi Qafqaz respublikaları ensiklopediyaçılarının zona müşavirəsində iştirak etmək üçün Yerevana getmişdir. ASE baş redaksiyasının sabiq məsul katibi Arif Hüseynov yuxarıda adı çəkilən məqaləsində bu barədə belə yazır: «Bizimlə gedənlərin arasında Azərbaycan EA Tarix İnstitutunun elmi işçiləri də vardı. Onlar nümayəndə heyətinin tərkibinə Rəsul müəllimin təklifi ilə daxil edilmişlər. Çünki Rəsul müəllim orada tarixi məsələlərdən söz açılacağını və müəyyən iddialar irəli sürüləcəyini bilirdi. Belədə tutarlı elmi cavablar verməyi bacaran tarixçi alimlərə ehtiyac vardı. Yaxşı yadımdadır, tarix elmləri namizədi Fəridə Məmmədovanın, tarix elmləri doktoru Oqtay Əfəndiyevin çıxışları hətta Moskva və Gürcüstan nümayəndələrinin də böyük marağına səbəb oldu. Lakin gözlədiyimiz qızğın mübahisələr olmadı. Erməni alimlər özlərini bir o qədər də «üsyankar» aparmadılar. Sonradan məlum oldu ki, akademik V.A.Hambarsumyan onlara deyibmiş ki, ehtiyatlı olmaq gərəkdir, azərbaycanlılar yaxşı qüvvə ilə gəliblər. Rəsul Rza bir sipər kimi qabaqdadır, istədiyimizə asanlıqla nail ola bilməyəcəyik...

Həmişə olduğu kimi, yenə də Rəsul Rza şəxsiyyəti diqqət mərkəzində idi. Hamı ona əlindən gələn hörməti etməyə çalışırdı. Biz də bunları görür və baş redaktorumuz ilə fəxr edirdik. İclasların birində Rəsul müəllim məruzəçi idi. O, dəyirmi salonun mərkəzində qoyulmuş xitabət kürsüsü arxasına keçib nitqə başladı, ensiklopediyaçılar qarşısında duran məsələlərdən danışdı, ensiklopediya xəritələrində ərazilərin düzgün göstərilməməsi cəhdlərini pislədi. -Bütün bunlar saf qonşuluq münasibətlərinə xələl gətirər, - dedi. Birdən akademiya prezidentinin kabinetindən bir nəfər Rəsul müəllimə yaxınlaşıb qulağına nəsə pıçıldadı. Rəsul müəllim nitqini yarımçıq qoyub onunla birlikdə getdi və bir azdan sonra qayıtdı. Çox pərt görünürdü. Çıxışını qurtaran kimi onu yenə də telefona çağırdılar. Öyrəndik ki, onu təkidlə telefona çağıran Azərbaycan KP MK katiblərindən biridir. O, iclası yarımçıq qoyub Rəsul müəllimin Bakıya gəlməsini tələb edirdi. Rəsul müəllim ona əvvəlcə rədd cavabı verdi. Katib ikinci dəfə zəng vurub birinci katibin adından danışdı. Rəsul müəllim tələm-tələsik Bakıya qayıtmaq məcburiyyətində

qaldı. O, salondakılar ilə vidalaşdı, maşına minərək birbaşa aeroporta getdi: - Moskvalılar, gürcülər, hətta ermənilər öz təəccüblərini gizlətmədilər: «Bu nə tələsiklikdir?»- dedilər.

Rəsul müəllim Bakıya qayıdan kimi onu birinci katibin yanına çağırıblarmış. Söhbət bir saatdan artıq çəkib. Şair partiya liderinə onun bilmədiyi bir sıra mətləbləri izah edə bilir...

Azərbaycan Sovet Ensiklopediyasının təməlini qoymuş xalq şairini özünün iştirakı olmadan büro iclasında tərifli sözlərlə baş redaktor vəzifəsindən... azad ediblər».

Arxivdəki materiallar göstərir ki, Rəsul Rza «özünün iştirakı olmadan büro iclasında tərifli sözlərlə» deyil, tənəli ifadələrlə vəzifəsindən çıxarılmışdır. Büro iclasında Danil Quliyev, Rüstəm Hüseynov, İsmayıl İbrahimov, Sergey Kozlov, Vitaliy Krasilnikov, Həsən Seyidov və Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev çıxış etmişlər.

Rəsul Rzanın vəzifədən çıxarılması barəsindəki qərar şaumyanların himayədarı Sokolova da qol-qanad vermişdir. Çünki Azərbaycan KP MK-nın qərarı onun, Rəsul Rzanın təbirincə desək, «son dərəcə subyektiv» arayışı əsasında yazılmışdır. ASE-nin Baş redaktorunun danılmaz dəlillərlə alt-üst etdiyi «Moskva arayışı» Azərbaycan KP MK bürosu qərarının maddələrinə çevrilmişdir. Diqqət yetirin:

«1975-ci ilin avqustunda Sov. İKP MK yanında Partiya Nəzarəti Komitəsinin məsul nəzarətçisi tərəfindən aparılmış yoxlamadan müəyyən olunmuşdur ki, ASE-nin Baş redaksiyasının işi olduqca pis vəziyyətdədir,

R.İ.Rzayev yoldaş redaksiyanın fəaliyyətinə qeyri-qənaətbəxş rəhbərlik edir və yanlış hərəkətlərə yol verir.

Baş redaksiyanın rəhbərləri, ilk növbədə Rzayev yoldaş redaksiyanın fəaliyyətini dərindən və özünütənqidlə araşdırmaq əvəzinə, öz səylərini yol verilmiş nöqsan və qüsurların inkar olunmasına yönəltmişlər. Halbuki ştat cədvəlində 152 nəfər işçi olan kollektivin fəaliyyəti başlı-başına buraxılmışdır. Baş redaksiya heyəti son illər əslində fəaliyyətini dayandırmışdır.

Redaksiya kollektivində, o cümlədən onun rəhbər işçiləri arasında son illər qeyri-sağlam vəziyyət yaranmışdır. Bunun başlıca səbəbi R.İ.Rzayev yoldaşın qeyri-düzgün hərəkətlərə yol verməsi və tənqidə dözülməz münasibəti ilə izah edilməlidir.

R.Rzayev yoldaş şəxsi davranışında da bir sıra yanlış hərəkətlərə yol vermişdir. Üç nəfərdən ibarət ailə üzvü üçün dörd gözdən ibarət geniş mənzili, Baki şəhəri yaxınlığında bağı olmasına baxmayaraq, R.Rzayev yoldaş Göyçayda ikimərtəbəli fərdi ev tikdirmişdir ki, sahəsi qanunla müəyyən olunmuş ən son həddən biryarım dəfə çoxdur.

Ensiklopediya redaksiyasının işində aşkara çıxarılmış ciddi nöqsanlar göstərir ki, R.Rzayev yoldaş baş redaktor kimi ona tapşırılmış mühüm işə səhlənkar

yanaşmışdır. Halbuki həmin vəzifədə işlədiyi illərdə 18 kitabını nəşr etdirmiş və 122 min manat məbləğində qonorar almışdır.

Ensiklopediyanın birinci cildinin keyfiyyətsiz hazırlanmasına və redaksiyanın işindəki ciddi nöqsanlara görə ASE-nin baş redaktor müavini Hüseynov R.K. yoldaş da məsuliyyət daşıyır. Bu vəzifədə 1965-ci ildən işləyən Hüseynov R.K. yoldaş mövcud nöqsanlara barışdırıcı münasibət göstərmiş, Rzayev R. yoldaşla birlikdə ensikiopediyanın işindəki səhvləri inkar etmişdir. R.K.Hüseynov ASE-nin baş redaksiyasının fəaliyyətindəki qüsurları yalnız Rzayev R. yoldaşla arası dəyəndən sonra tənqid etməyə başlamışdır. Azərbaycan KP MK qərara alır:

1.Azərbaycan Sovet Ensiklopediyasının buraxılmasına hazırlıq işində ciddi nöqsanlara yol verdiyinə, bu işə lazımi səviyyədə rəhbərliyi təmin etmədiyinə görə Rzayev R.İ. yoldaş ASE-nin baş redaktoru, Hüseynov R.K. yoldaş ASE-nin baş redaktoru müavini vəzifələrindən azad edilsinlər.

2.Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü Quliyev C.B. yoldaş Azərbaycan Sovet Ensiklopediyasının baş redaktoru təsdiq olunsun.

Uzun müddət Ensiklopediyada çalışmış Nazif Ələkbərli «Ədəbiyyat qəzeti»nin 1994-cü il 22 iyul tarixli sayında dərc olunmuş «Ensiklopediyadan görünən ədəbiyyatımız» məqaləsində bu dəyişikliyi belə qiymətləndirir:

«Bir baş redaktor kimi Rəsul Rzanın xətti milli, tarixi, özümlü dəyərlərə söykənirdi, onun dil, etnogenez məsələlərinə münasibəti hakim dairələrdə etimadsızlıq, müxtəlif məramlara xidmət edən alimlərdə qəzəb hissi doğururdu. 1975-ci ilin payızında Rəsul Rzanın işdən kənar edilməsi Azərbaycan Ensiklopediyasının nəşrində məfkurəni də dəyişdirdi; belə ki, milli-tarixi məfkurə xətti sərt Sovet ideoloji sxemi ilə əvəz olundu. Yeni baş redaktor bir çox ləyaqətlərinə (işdə və əməldə ciddilik, rüşvət və fırıldaqdan uzaqlıq, məqsədyönlük və s...) baxmayaraq, milli şüurun yüksəlişinə biganə idi və ensiklopedik nəşrə də Sov. İKP və AKP pəncərəsindən baxırdı. Nəticədə ensiklopediyanın səhifələri əmək qabaqcılları, tarla qəhrəmanları ilə doldu, lakin Azərbaycan istiqlalının, elminin, milli mədəniyyətinin təşəkkülündə rol oynamış adamların adları «ASE» cildlərinə düşmədi. Tarixi taleyimizlə bağlı problemlərin təqdimində prinsipsizlik göstərildi».

M.C.Bağırov iş başında olsaydı, «milli şüurun yüksəlişinə biganə» olanlar Rəsul Rza kimi ensiklopedik bilik sahibinin yerini tuta bilməzdilər. İlk Azərbaycan Ensiklopediyasının yaradıcısı Azərbaycan Elmlər Akademiyasının müxbir üzvləri arasında olardı, Azərbaycan parlamentinə deputatlığa namizədliyinin qarşısı alınmazdı...

***

Rəsul Rza M.Ə.Rəsulzadə, N.Nərimanov, M.C.Bağırov kimi Azərbaycan davası aparırdı. Onun Moskvaya - Böyük Sovet Ensiklopediyasının baş

redaktorunun müavini L.Şaumyana yazdığı məktublar da bu tarixi mübarizədən nişan verirdi.

1949-53-cü və 1956-70-ci illərdə Azərbaycandan Moskvaya eyni ünvana - Böyük Sovet Ensiklopediyasına göndərilən məktublar arasında mənəvi «Bağırov körpüsü» vardı. Azərbaycan Respublikası Siyasi Partiyalar və ictimai Hərəkatlar Mərkəzi Döviət Arxivində saxlanılan məktublaşmalar bunu əyani surətdə göstərir.

Məlumdur ki, Böyük Sovet Ensiklopediyasının ikinci nəşri 1949-cu ildən başlayaraq buraxılmışdır. M.C.Bağırov BSE-nin 1926-cı-1947-ci illərdə nəşr olunmuş cildlərində Azərbaycana dair materiallarda yol verilmiş təhriflərin təkrar olunmaması üçün bu işi şəxsi nəzarəti altına almışdır. Hələ bir il qabaq - 1948-ci il martın 4-də Astara rayon partiya komitəsinin birinci katibi X.Məmmədov Azərbaycan K(b)P MK katibi M.C.Bağırov yoldaşa rəsmi məktubunda yazırdı: «Bu ilin yanvar ayında raykomun partiya kabinetinə Moskvadan «Qısaca partiya siyasi məlumat kitabı» göndərilmişdir. Orada Azərbaycan SSR barədə belə yazılır: «Azərbaycan Sovet Sosialist Respublikası Zaqafqaziyanın şərq hissəsində, Xəzər dənizi sahilində, SSRİ-nin İranla sərhəddində yerləşir.»

Elə çıxır ki, Azərbaycanın Türkiyə ilə sərhəddi yoxdur.

1949-cu il iyul ayının 21-də SSRİ Nazirlər Soveti yanında Böyük Sovet Ensiklopediyası Baş redaksiyasından M.C.Bağırovun ünvanına aşağıdakı məktub daxil olmuşdur:

**«Azərbaycan K(b)P MK katibi M.C.Bağırov yoldaşa**

Hörmətli Bağırov yoldaş!

Böyük Sovet Ensiklopediyasının (ikinci nəşri) birinci cildində «Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan) məqaləsi veriləcəkdir.

Həmin məqalənin ilk variantını göndərməklə Sizdən xahiş edirik ki, onu şəxsən özünüz oxuyasınız, eləcə də nüfuzlu şəxslər tərəfindən düzəlişlər və əlavələr edilməsi üçün göstəriş verəsiniz.

Birinci cildin istehsalatda olduğunu və yaxın müddətdə çıxması barədə hökumətin qərarını nəzərə alaraq, Sizdən xahiş edirik ki, bu il avqust ayının əvvəllərində qeydlərinizi bizə çatdırasınız.

Səmimi salamla,

Böyük Sovet Ensiklopediyası Baş redaktorunun müavini professor A.Zvorıkin».

M.C.Bağırovun məqaləyə düzəlişləri elə ilk abzasdan başlamışdır. Professor A.Zvorıkinin imzaladığı «Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan)» ensiklopediya yazısının ilk nüsxəsi Moskvadan Astara rayon partiya komitəsinə göndərilmiş 1948-ci ildə «Qısaca partiya siyasi məlumat kitabı»ndan fərqlənmirdi. BSE-nin birinci cildi üçün nəzərdə tutulan məqalə belə başlayırdı: «Azərbaycan SSR - SSRİ tərkibində müttəfiq sovet respublikasıdır. Zaqafqaziyanın şərq hissəsində Xəzər dənizi sahilində yerləşir. Cənubda İranla

sərhəddir. SSRİ daxilində onun qonşuları bunlardır: şimalda - RSFSR (Dağıstan MSSR), şimal-qərbdə - Gürcüstan SSR, cənub-qərbdə - Ermənistan SSR.»

M.C.Bağırov apaydın xəttilə «İranla» sözündən sonra «və Türkiyə ilə» yazmışdır.

Azərbaycan haqqında nəzərdə tutulmuş məqalə respublikanın müxtəlif peşəkar elm adamlarının və mütəxəssislərinin iştiraki ilə müzakirə olunmuş, 1949-cu il avqust ayının 3-də M.C.Bağırovun imzaladığı məktubla birlikdə Moskvaya yola salınmışdır:

**«Böyük Sovet Ensiklopediyası Baş redaktorunun müavini professor A.Zvorıkin yoldaşa**

Böyük Sovet Ensiklopediyasının yeni nəşri üçün nəzərdə tutulmuş «Azərbaycan Sovet Sosialist Respublikası (Azərbaycan)» məqaləsinin layihəsi ilə ətraflı tanış olduq. Məqalə bu şəkildə çap oluna bilməzdi, zira burada bir sıra təhrif və qüsurlara yol verilmişdir. Görünür, məqalə müəllifləri Azərbaycanın keçmişi və bu günü ilə əlaqədar dərin biliyə malik deyillər. Buna görə də biz vadar olduq ki, məqalədə nəinki düzəlişlər edək, həmçinin bir neçə bölməni yenidən yazaq.

«Azərbaycan Sovet Sosialist Respublikası»na aid məqalənin düzəldilmiş və əlavələr edilmiş yeni variantını Sizə göndəririk.

Xahiş edirik gələcəkdə də BSE üçün Azərbaycan barədə məqalələr hazırlanmasında Azərbaycan K(b)P MK-nın rəyini nəzərə alasınız.

**Azərbaycan K(b)P MK katibi M.C.Bağırov.»**

Bir aydan sonra, 1949-cu il sentyabrın 19-da BSE-nin baş redaktor müavini A.A.Zvorıkin M.Bağırova üç səhifədən ibarət məktub yazmışdır. Ancaq məktub poçt ilə deyil, Ensiklopediyanın tarix redaksiyasının əməkdaşı Pyatışeva yoldaşla göndərilmişdir. Sentyabrın 19-da qatarla Moskvadan yola düşən elmi əməkdaş iki gündən sonra Bakıda olmuş, sentyabrın 21-də Azərbaycan K(b)P MK katibi M.C.Bağırov onu qəbul etmişdir. Qonaq BSE rəhbərlərinin şəxsi salamlarını Azərbaycan rəhbərinə çatdırmış, baş redaktor müavini A.Zvorıkinin rəsmi məktubunu ona təqdim etmişdir. Həmin məktubda deyilir:

**«Azərbaycan K(b)P MK katibi M.C.Bağırov yoldaşa**

Çox hörmətli Mir Cəfər Abbas oğlu!

«Azərbaycan SSR» məqaləsinə etdiyiniz əlavə, düzəliş və iradlara görə Sizə minnətdarlığımızı bildiririk. Deməki olar ki, məqalə yenidən yazılmışdır.

Bununla yanaşı, məqalənin son dəfə redaktəsi zamanı bir neçə məsələ ilə bağlı Sizin məsləhətlərinizə ehtiyac hiss edirik. Bunlar aşağıdakılardan ibarətdir:

1.Məqalənin «Dövlət quruluşu» bölməsinə Azərbaycan SSR Konstitusiyasından bəzi maddələr əlavə olunsun.

2.Məqalənin «Əhali» bölməsində göstərilir ki, əsrlər boyunca bir çox qədim xalqlar və tayfalar yerli azərbaycanlılarla qaynayıb-qarışmışlar. SSRİ Elmlər Akademiyasının Etnoqrafiya İnstitutu təklif edir ki, burada ermənilərin, rusların, talışların və kürdlərin sayı da yazılsın.

3.Məqalənin «Tarix» bölməsindəki «azərbaycanlı-erməni qırğını» ifadəsi «tatar-erməni qırğını» sözləri ilə əvəz edilsin. Çünki İ.V.Stalinin əsərlərində bu belə yazılmışdır».

M.C.Bağırov məktubu oxuduqdan sonra qonağa dedi:

-Sizin gəlişinizdən qabaq baş redaktorunuz Sergey İvanoviç mənə zəng vurmuşdu. Razılaşdıq ki, mənim fikirlərimi bloknotunuza qeyd edəsiniz, rəsmi sənəd göndərilməsin.

-Baş üstə, yoldaş Bağırov. Bu barədə mənə bir söz deyilməmişdi.

M.C.Bağırovun söylədiyi ifadələr moskvalı ensiklopediyaçının dəftərçəsində eynən əks olundu:

Birincisi, Konstitusiyamızdan müəyyən maddələrin məqaləyə salınmasına etirazımız yoxdur. Ancaq unutmayın ki, Konstitusiya dəyişə bilər. Ensiklopediya isə bir dəfə yazılır.

İkincisi, Azərbaycan əhalisi haqqında yazdıqlarımıza heç bir dəyişiklik edilməməlidir. Etnoqrafiya İnstitutundakı bəzi yoldaşlar Azərbaycanda yaşayan müxtəlif xalqların nümayəndələrinin Azərbaycanın aborigen əhalisi olan azərbaycanlılarla qaynayıb-qarışmasını istəmirlər. Respublikamızdakı minlərlə müsəlmanların pasportlarında «azərbaycanlı» yazılmışdır. Etnoqrafiya məsələləri ilə məşğul olan və mərkəzdə işləyən ermənipərəstlər bunun Azərbaycanda ermənilərin sayının çox olduğunu gözə soxmaq üçün edirlər. Başqa məqsəd isə bundan ibarətdir ki, niyə Azərbaycan Kommunist Partiyası MK katiblərindən birisi erməni olmasın. Bu, Mikoyan yoldaşın da əsassız təklifidir. Ensiklopediyanı çirkin siyasət vasitəsinə çevirmək olmaz.

Üçüncüsü, qeyd edim ki, Azərbaycanda ta qədimlərdən talışlar, ləzgilər, kürdlər, tatarlar, yəhudilər yaşamışlar. Azərbaycanlılara isə müxtəlif vaxtlarda «azərilər», rus mənbələrində isə «tatarlar» deyilmişdir. 1938-ci ilədək isə pasportlarımızda «türk» yazılmışdır. Bu o deməkdir ki, adının nə vaxt, necə yazılmasından asılı olmayaraq, millətimiz həmin millətdir. İndi tatara tatar, Azərbaycan türklərinə azərbaycanlı deyilir. Əgər daşnaklar 44 il və 21 il əvvəl tatarları qırmaq istəyirdilərsə, onda Bakıda, Qubada, Şamaxıda deyil, Qazanda və Rusiyanın tatarlar yaşayan şəhərlərində, elə Moskvanın özündə bunu etməyə girişərdilər.

-Siz «erməni-tatar qırğını» sözlərinə Stalin yoldaşın hansı əsərində rast gəlmisiniz?

-Yoldaş Bağırov, düzünü deyirəm, yadımda deyil...

Moskvalı xanım pərt oldu. M.C.Bağırov sözünə davam etdi:

-Stalin yoldaş bu sözləri 1923-cü ildə Musabəyov, Mirzoyan, Axundov, Kirov və Oraxelaşviliyə göndərdiyi məktubda yazmışdır. Stalinin külliyyatının başqa bir yerində «erməni-tatar» ifadəsi yoxdur. Deyin görək, 1905-ci və 1918-ci ilin tatarlarına 1949-cu ildə azərbaycanlılar deyilirsə, qırğının adı niyə belə

adlandırılmasın. Zənnimcə, bunu heç Stalin yoldaş da ensiklopediya rəhbərlərinə rəva görməz.

Mənə başqa sözünüz-sualınız varsa, dinləyirəm.

-Yoxdur, yoldaş Bağırov, dediklərinizi rəhbərliyə olduğu kimi çatdıracağam - deyə dəftərçəsini qatladı. Ayağa qalxdı, razılığını bildirdi.

-Yoldaş Bağırov, Sizdən nə gizlədim, mənim Bakıda qohumlarım və rəfiqələrim vardır. Hər dəfə bu əziz şəhərə gələndə onu daha böyük məhəbbətlə sevirəm. Bu dəfə tale mənə Sizinlə görüşüb söhbət etmək imkanı verdi və Sizə olan məhəbbətimi sözlə ifadə etməkdə çətinlik çəkirəm.»»

M.C.Bağırov masanın arxasından irəli çıxdı, qonaqla səmimiyyətlə görüşüb, onu yola saldı. Geriyə qayıtdı, masanın üstündəki «SSRİ Nazirlər Soveti yanında Böyük Sovet Ensiklopediyası» möhürlü məktubun yuxarı sol tərəfinə qısaca dərkənar qoydu: «в дело. Все сделано. 21.09.49.»

***

BSE Baş redaktorunun müavini A.Zvorıkin növbəti məktubu Moskvadan Bakıya 1949-cu il noyabrın 17-də göndərmişdir. O, M.C.Bağırovun bir xahişinə də əməl etmişdi: Ü.Hacıbəyovun sevimli tələbəsi, M.C.Bağırovun da çox yüksək qiymətləndirdiyi 27 yaşlı Azərbaycan bəstəkarı Fikrət Əmirov barədə məqalə Böyük Sovet Ensiklopediyasına daxil edilmişdi. Arxiv sənədi ilə tanış olun:

«Azərbaycan K(b)P MK katibi

M.C.Bağırov yoldaşa

Böyük Sovet Ensiklopediyasının Baş redaksiyası BSE-nin ikinci nəşrinin ikinci cildində çap olunacaq «Əmirov F.M.» məqaləsini Sizə göndərir.

Sizdən xahiş edirik ki, qeyd və düzəlişlərinizi qısa müddətdə bizə göndərəsiniz ki, cildin nəşrinə çatdıra bilək.

Əlavə: «Əmirov F.İ. məqaləsi, I vərəqdə.

Böyük Sovet Ensiklopediyasının Baş redaktorunun müavini A.Zvorıkin».

Cavab gecikdirilməmişdir. Noyabrın 24-də M.C.Bağırovun tapşırığı ilə Moskvaya aşağıdakı məzmunda məktub yola salınmışdır:

«Əmirov Fikrət Məşədi Cəmil oğlu. 1922-ci ildə anadan olmuşdur. Azərbaycan sovet bəstəkarı, Ü.Hacıbəyov adına Azərbaycan Dövlət konservatoriyasını bitirmişdir. Nizaminin xatirəsinə həsr olunmuş simli simfoniyanın, «Ürəkçalanlar» və «Gözün aydın» musiqili komediyalarının, fortepiano və xalq çalğı alətləri orkestri üçün konsert və digər əsərlərin müəllifidir. F.Əmirov simfonik muğam janrının yaradıcısıdır. «Şur» və «Kürd ovşarı» əsərlərinə görə ona 1948-ci ildə Stalin mükafatı laureatı adı verilmişdir».

***

Azərbaycan ədəbiyyatının bəzi nümayəndələrinin əsərlərində «Allahsız» adlandırılan M.C.Bağırov sən demə, hələ 1952-ci ildə Böyük Sovet Ensiklopediyasını hazırlayan həqiqi alimlər üçün islamın bilicisi imiş. Təsadüfi deyildir ki, ensiklopediyada çap olunası «İslam» məqaləsinin ilk variantı Azərbaycan rəhbərinə göndərilmişdir.

1952-ci il iyun ayının 6-da Azərbaycan K(b)P MK-nın elm və ali məktəb şöbəsinin müdiri Həsən Həsənov tərəfindən hazırlanmış və Moskvaya göndərilmiş 7 səhifəlik məktubun bəzi parçaları ilə tanış olun:

**«Böyük Sovet Ensiklopediyasının Baş redaktorunun müavini A.Zvorıkin yoldaşa**

M.C.Bağırov yoldaşın tapşırığı ilə Sizin göndərdiyiniz «İslam» məqaləsi tarixçi alimlər tərəfindən nəzərdən keçirilmişdir. Yekdil fikrimizcə, məqalə indiki halda ensiklopediyaya daxil edilə bilməz. Çünki burada bir çox nəzəri və faktik səhvlərə yol verilmişdir.

Birinci səhifədə islamın yayıldığı ərazilər tam göstərilməmişdir.

Birinci səhifədə və sonrakı səhifələrdə islamın yarandığı dövrdə sosial-iqtisadi şərait dəqiq verilməmişdir. İslamın təşəkkül tapdığı dövrdə ictimai quruluşun quldarlıq və ya feodal olması dürüst ifadə olunmalıdır, bu məsələni mübahisə amilinə çevirmək düzgün deyildir. «İbtidai islamda kommunizmin ünsürləri nəzərə çarpırdı» ifadəsi yanlışdır və məqalədən tamamilə çıxarılmalıdır.

Məhəmməd Peyğəmbərin yarıməfsanəvi şəxsiyyət kimi təqdim edilməsi həqiqətə uyğun deyildir.

Yeddinci, səkkizinci və doqquzuncu səhifələrdə sufilik və başqa müsəlman təriqətləri ortodoksal islama demokratik müxalifət kimi təqdim olunur. Bu, düzgün deyildir. Nəzərə almaq lazımdır ki, sufilik ortodoksal islamın formalarından biridir. Din bayrağı altında çıxış edən hərəkatı dinin özü ilə qarışdırmaq olmaz.

Səkkizinci səhifədə şiəlik «islamın İran forması» hesab edilir. Bu, düzgün deyildir. Çünki şiəlik sünni xəlifələrinə qarşı müxtəlif xalqların mübarizəsi gedişində yaranmışdır. Şiəliyin mahiyyəti məqalədə dürüst əks olunmalıdır».

1952-ci ildə «Bibiheybət» və «Mərdəkan» məqalələri də M.C.Bağırovun tapşırığı ilə yazılaraq, BSE Baş redaksiyasına göndərilmişdir.

BSE-nin birinci cildindəki «Azərbaycan atı» məqaləsinin ilk variantı ilə 1952-ci ildə M.C.Bağırovun iş otağında SSRİ Kənd təsərrüfatı Nazirinin atçılıq üzrə müavini marşal Semyon Mixayloviç Budyonnı da tanış olmuşdu. O, 1951-ci ildə atçılıqda qazandığı nailiyyətlərə görə SSRİ Nazirlər Sovetinin Keçici Qırmızı Bayrağını təqdim etmək üçün Azərbaycana gəlmişdi.

Respublikamızda atçılığın inkişafının geniş vüsət alması da M.C.Bağırovun adı ilə bağlıdır. O da Qubalı Fətəli xan kimi uşaqlıq çağlarından at çapmışdır.

***

XX əsrin birinci yarısında M.Ə.Rəsulzadəni Azərbaycandan didərgin salan, N.Nərimanovu Kreml divarları önündə susduran «Şimal ayısı» yüzilliyin ikinci yarısında M.C.Bağırovu kəhər atdan yerə saldı. Qıratın yəhərini xalq-millətsevərlər deyil, mal-dövlətsevərlər məngirlədilər. Əsrin sonunda təkcə «o atlının» deyil, elə «o üç atlının» ayaq izlərini tarixin solmaz vərəqlərindən silmək istəyənlərin iştahası artdı.

Bu gün «canı poladdan, qolları dəmir» olan köhlənlər dərbədər düşmüşdür. Şuşanın Cıdır düzü erməni yabılarının ixtiyarındadır. «Komandan orduya düşmənin başını qoparıb gəmirmək üçün əmr vermir», «aslan ürəkli, pəhləvan atları əslində mülayim, mehriban olmağa» çağırır. M.C.Bağırovun Şuşada, Laçında, Kəlbəcərdə, İstisuda, Ağdamda, Füzulidə, Cəbrayılda, Zəngilanda, Qubadlıda şum altında qalmış izləri od tutub yanır...

Həqiqi millətsevərliklə mücərrəd vətənpərvərlik arasındakı fərqi aydın təsəvvür etmək üçün 1953-cü ildə M.C.Bağırovun razılığı ilə Mərkəzi Komitənin şöbə müdiri H.M.Həsənovun BSM Baş redaktorunun müavini A.Zvorıkinə göndərdiyi məktubu misal çəkmək istəyirəm: ««Marağa» məqaləsini dəyişikliklər və əlavələrlə birlikdə Sizə qaytarırıq». M.C.Bağırov tərəfindən edilmiş bir əlavə elə məqalənin başlanğıcındadır. «MARAĞA - qədim Azərbaycan şəhəridir. Hazırda Cənubi Azərbaycanın (İran) ən iri şəhərlərindən biridir. Urmiya gölünün 35 kilometrliyindədir. Əhalisi 35 min nəfərə yaxındır, əksəriyyəti azərbaycanlılardır».

ASE-nin 1982-ci ildə buraxılmış altıncı cildində də «Marağa» şəhəri haqqında məqalə verilmişdir. İlk cümləsi belədir: «MARAĞA - İranın şm.q.-də, Cənubi Azərb.-da şəhər. Şərqi Azərb. ostanındadır. D.y.st. Əh. 65 min (1974). Üzümçülük və bağçılıq r-nunun mərkəzidir...»

Bəli, M.C.Bağırovun 1953-cü ildə, vəzifəsindən uzaqlaşdırılmasından azca əvvəl BSE-də «Əhalinin əksəriyyəti azərbaycanlılardan ibarət olan, Urmiya gölünün 35 kilometrliyindəki qədim Azərbaycan şəhəri Marağa» 29 ildən sonra, 1982-ci ildə ASE-də əhalisinin əksəriyyətinin hansı millətdən ibarət olması bilinməyən, «Şərqi Azərb. ostanında üzümçülük və bağçılıq r-nunun mərkəzidir».

Vahid Vətən harayı, bölünməz torpaq yanğısı hara, ostan, bağ-bostan söhbəti hara?

Uzun illər M.C.Bağırovla bir yerdə işləmiş Həsən Seyidov İkinci dünya müharibəsində və müharibədən sonra Azərbaycan rəhbərinin artan nüfuzu barədə öz xatirələrində belə yazır: «M.C.Bağırov Rəyasət Heyətinin üzvlüyünə namizəd kimi Sov.İKP MK Rəyasət Heyəti tərkibinə seçildi. İlk dəfə olaraq, azərbaycanlı partiyanın baş qərargahının - Sov. İKP MK Rəyasət Heyətinin tərkibinə daxil oldu. Bu təkcə Azərbaycanda deyil, İslam məzhəbli bütün müttəfiq respublikalarda çox müsbət qarşılandı. Yalnız və yalnız Ermənistanda bu hadisə münasibəti ilə gizli matəm elan etdilər».

M.C.Bağırovun Azərbaycan rəhbərliyindən uzaqlaşdırılması və sonra da saxta istintaq materialları əsasında DTK orqanları tərəfindən məsuliyyətə cəlb

olunması da İslam məzhəbli bütün soydaşlarımızı necə məyus etdisə, daşnakların toy-bayramına çevrildi.

Azərbaycana və Azərbaycan türklərinə qarşı yönəldilmiş səlib yürüşlərinə Böyük Sovet Ensiklopediyasının Baş redaksiyasının ermənipərəst əməkdaşları da qoşuldular. Dünənə kimi M.C.Bağırovun adı gələndə qanad salanlar reaktiv təyyarəyə döndülər. Moskvaya, BSE baş redaksiyasına M.C.Bağırovun razılığı ilə göndərilmiş məqalələrə ilk etiraz səsini BSE-nin SSRİ tarixi redaksiyasının müdiri A.Saxarov qaldırdı. O, ensiklopediyanın rəhbərliyinə yazdığı məktubda aşağıdakıları bəyan edirdi: «Məlumat üçün sizə bildirirəm ki, redaksiyamızdakı «Naxçıvan MSSR» məqaləsi çox zəif yazıldığından redaktə edilə bilməz. Materialı Azərbaycanda tarix elmləri namizədi A.İ.Əliyev hazırlamışdır. Oçerk bizə lazım olduğu həcmdən üç dəfə çoxdur, qarışıq və məzmunsuzdur, həm də rus dilində savadsız yazılmışdır.

Naxçıvan MSSR tarixinin sovet dövrü olduqca yarıtmaz işıqlandırılmışdır. Ümumi sözlərdən ibarətdir, konkret faktlar yoxdur.

Göstərilənləri nəzərə alaraq redaksiyamız Əliyevin hazırladığı mətni brak etmişdir.

Sizdən xahiş edirik ki, «Naxçıvan MSSR» məqaləsinin yeni mətninin hazırlanması üçün Azərbaycan KP MK-ya müraciət edəsiniz. Və xahiş edəsiniz ki, materialın həcmi 15 min mətbu işarəsindən çox olmasın. Azərbaycanlı yoldaşlar bunu da nəzərə alsınlar ki, BSE-də artıq Azərbaycan haqqında tarixi oçerk çap edilmişdir. Ona görə də «Naxçıvan MSSR» məqaləsində səciyyəvi məsələlər əksini tapmalıdır, ümumi məsələlərdə isə «Azərbaycan SSR» məqaləsinə istinad olunmalıdır».

BSE-nin SSRİ tarixi redaksiyasının «DQVM» haqqındakı mətnə münasibəti isə tamamilə bambaşqadır. Burada «Azərbaycan SSR» məqaləsinə istinaddan söhbət getmir. Giley-güzar ondan edilir ki, «Dağlıq Qarabağ Muxtar Vilayəti» barədə Azərbaycandan göndərilmiş mətndə «Tarixi bölmə» yerli-dibli yoxdur.

Bəli, M.C.Bağırov üçün Naxçıvan qədim diyar, Dağlıq Qarabağ isə 1923-cü ildə Zaqafqaziya ölkə partiya bürosunun qərarı ilə yaradılmış vilayət idi. Azərbaycan rəhbərinin xalqımız qarşısında ən böyük xidmətlərindən biri də bundan ibarətdir ki, ancaq və ancaq onun bilavasitə işə qarışması nəticəsində BSE səhifələrində Azərbaycanın, azərbaycanlıların, Azərbaycan dilinin qədim tarixi həqiqi əksini tapmışdır. Əgər siz BSE-nin ikinci nəşrinin 1949-cu il dekabrın 15-də çapa imzalanmış və 300 min tirajla yayılmış birinci cildindəki Azərbaycana aid materiallarla bir daha tanış olsanız, bunun şahidi olacaqsınız. Həmin cildin 481-ci səhifəsində Azərbaycan tarixinə dair xronoloji cədvəl verilmişdir.

ASE-də əks olunmayan tariximizin bəzi dövrləri ilə tanış olun!

Eramızdan əvvəl 3-2 minillik - Azərbaycan ərazisində bürünc dövrü: 1) Naxçıvan mədəniyyəti; 2) Xocalı-Gədəbəy mədəniyyəti.

Eramızdan əvvəl I minilliyin başlanğıcı - Azərbaycan ərazisində dəmir dövrü.

Eramızdan əvvəl VIII əsrin sonu - Midiya dövlətinin meydana gəlməsi.

Eramızdan əvvəl VII-VI əsrlər - Skiflərin Azərbaycana hücumu.

Eramızdan əvvəl IV əsrin sonu - Atropatena dövlətinin yaranması.

III-V əsrlər - Azərbaycanda feodal münasibətlərinin əmələ gəlməsi.

V əsrin sonu - VI əsrin əvvəli - Məzdəkilər hərəkatı.

636-681-ci illər - Cavanşirin hakimiyyəti.

7-ci əsrin sonu - Azərbaycanın ərəb xilafəti tərəfindən işğal edilməsi.

816-837-ci illər - Babəkin başçılığı ilə ərəb işğalçılarına və feodal zülmünə qarşı xalq-azadlıq hərəkatı.

XI əsr - «Kitabi Dədə Qorqud» dastanlarının yazıya alınması.

XI əsrin sonu - Səlcuqların Azərbaycana hücumu.

XII əsr - Azərbaycan mədəniyyətinin yüksəliş dövrü, ədəbiyyatın tərəqqisi (Nizami və Xaqani yaradıcılığı), memarlığın (memar Əcəmi Əbubəkr) və digər incəsənət növlərinin inkişafı.

1136-1225-ci illər-Azərbaycan Atabəylər dövlətinin mövcud olması.

1221-1231-ci illər - Azərbaycanın monqollar tərəfindən işğalı.

XIII-XIV əsrlər- Monqol işğalçılarının Azərbaycanda ağır zülmkarlığı dövrü.

1382-1417-ci illər - Şirvanşah I İbrahimin hakimiyyəti.

1386-cı il - Azərbaycanın Teymurilər tərəfindən işğalının başlanması.

XV əsr Azərbaycan ərazisində Qaraqoyunlu və Ağqoyunlu dövlətinin qurulması.

XVI əsrin əvvəli - Azərbaycan Səfəvilər dövlətinin yaranması. Şah İsmayılın hakimiyyəti.

1721-ci il - İran zülmünə qarşı üsyanlar.

1722-ci il-Dərbənd şəhərinin rus qoşunları tərəfindən alınması.

1723-cü il - Rus hərbi gəmilərinin Bakı buxtasına daxil olması.

1747-ci il - Bir sıra Azərbaycan xanlıqlarının, o cümlədən Bakı, Gəncə, Qarabağ və başqa xanlıqların yaranması.

1794-1847-ci illər - Abbasqulu Ağa Bakıxanov - görkəmli Azərbaycan alimi, tarixçisi, filosofu və şairi.

1795-ci il - İran şahı Ağa Məhəmməd şah Qacarın Azərbaycanın şimal hissəsinə basqını. Qarabağ xanlığının və Şuşa əhalisinin İran işğalçılarına qarşı mərdanə müqaviməti.

1796-cı il - General Zubovun komandanlığı ilə rus qoşunlarının Zaqafqaziyaya yürüşü.

1797-ci il - Azərbaycanın şimal hissəsinə Ağa Məhəmməd şah Qacarın yeni basqını.

1802-70-ci illər - Mirzə Məhəmməd Əli Kazım bəy -Azərbaycanın mütəfəkkir alimi, məşhur şərqşünas, rus, azərbaycan və digər dillərdə 150-dən çox elmi əsərin müəllifi.

1804-cü il, yanvar - Gəncə şəhərinin rus qoşunları tərəfindən ələ keçirilməsi.

1805-1806 - Azərbaycanın şimal ərazilərinin əsas hissəsinin Rusiyaya qatılması.

1805-1813 - 1-ci rus-İran müharibəsi.

1812-78, Mirzə Fətəli Axundov - Azərbaycanın məşhur maarifpərvər yazıçısı, materialist filosofu.

1813 - Rusiya-İran arasında Gülüstan sülh müqaviləsi. Şimali Azərbaycanın Rusiyaya ilhaq olunması.

1826-1828 - 2-ci rus-İran müharibəsi.

1828, 10 fevral - Rusiya ilə İran arasında Türkmənçay sülh müqaviləsi. Naxçıvan və İrəvan xanlığının Rusiyaya qatılması.

1837 - Hacı Məhəmmədin başçılığı ilə çar hökumətinə qarşı Quba qəzasında kəndli üsyanı.

1837-1907 - Məlikov (Həsən bəy Zərdabi). Azərbaycanın darvinçi alimi, maarifçi-demokrat.

1870-Azərbaycanda kəndli islahatı.

1872 - Bakı mədənlərində iltizam sisteminin ləğv edilməsi.

1872, 22 iyul - İlk Azərbaycan qəzeti «Əkinçi»nin («Пахарь») ilk nömrəsinin nəşri.

1873- İlk Azərbaycan teatrının açılması.

1883 - Zaqafqaziya dəmir yolunun inşasının başa çatması.

1895 - Mirzobekyantsın tütün fabrikində fəhlələrin tətili.

***

1896-cı il sentyabrın 17-də isə... Azərbaycanda mirzobekyantsların ağalığına son qoymaq üçün Quba gözəli Yaxşıxanım ananın sonbeşik övladı dünyaya gəlmişdir. 1949-cu ildə Azərbaycan rəhbəri Azərbaycan tarixinin keçmişinə aid məlumatların BSE səhifələrində düzgün işıqlandırılmasına nail olmuşdur. 1986-cı ildə isə ASE-nin baş redaksiya üzvləri (bax: Azərbaycan Sovet Ensiklopediyası, IX cild, Bakı, 1986-cı il, səh.121) «fəhlə tətillərini Mirzobekyantsın tütün fabrikindən» H.Z.Tağıyevin müəssisələrinə köçürmüşlər: «Ağır iş şəraiti, əmək haqqının azlığı, müdiriyyətin özbaşınalığı və s. Tağıyevin müəssisələrində bir sıra nümayiş və tətillərin baş verməsinə səbəb olmuşdu. Azərbaycan burjuaziyasının digər nümayəndələri kimi Tağıyev inqilabi hərəkata qarşı mübarizə aparan irticaçı qüvvələri müdafiə etmişdir. Bütün vasitələrlə çar hökumətinə xidmət göstərən Tağıyev ən yüksək titul və rütbələr, orden və

medallarla təltif olunmuşdur. 1917-20-ci illərdə Sovet hakimiyyətinə qarşı mübarizə aparmışdır».

BSE-nin 1949-cu ildə nəşr olunmuş 1-ci cildində «Azərbaycan SSR» ilə yanaşı «İran Azərbaycanı» məqaləsinin də verilməsi M.C.Bağırovun təkidiylə baş tutmuşdu. Məqalənin sonluğunda ifadə olunanlar XXI əsrin əvvəlində, 21 Azər hərəkatından 55 il keçəndən sonra Cənubi Azərbaycanda baş verənlərlə həmahəng səslənir: «1945-ci ilin sentyabrında Azərbaycan Demokratik Firqəsi yarandı və demokratik azadlıqların bərpa olunmasında Azərbaycan xalqının mübarizəsinə başçılıq etdi. 1945-ci il noyabrın 20-də Təbrizdə Milli Şuranın iclası keçirildi. Dekabrın 12-də ilk Azərbaycan Milli Məclisi (parlament) fəaliyyətə başladı. S.C.Pişəvəri başda olmaqla hökumət təşkil olundu. Torpaq islahatı keçirildi və bunun nəticəsində böyük torpaq sahələri kəndlilərin əlinə keçdi. Təbrizdə universitet açıldı, məktəblərdə və universitetlərdə dərslər azərbaycan dilində tədris olunmağa başladı. Milli teatr, filarmoniya və muzey yaradıldı, azərbaycan dilində qəzet və jurnallar, dərsliklər nəşr edildi. Bütün bu tədbirləri xalq fəal müdafiə edərək, ölkədə həyatın demokratik əsaslar üzərində qurulmasına qoşuldu. Lakin İran Azərbaycanının muxtariyyətini təntənəli surətdə qəbul etmiş İran hökuməti 1946-cı ilin dekabrında öz öhdəliyini xaincəsinə pozaraq, Təbrizə və başqa şəhərlərə qoşun yeritdi. Azərbaycan xalqının minlərlə oğul və qızları vəhşicəsinə işgəncələrə məruz qaldı, həbsxanalara salındı, ya da ailə üzvlərilə İranın kimsəsiz səhra rayonlarına göndərildi. Amansız repressiya şəraitində azərbaycanlılar İran Azərbaycanında demokratik azadlıq uğrunda mübarizəni davam etdirirlər».

Bəs azərbaycanlılar barədə 1949-cu ildə Böyük Sovet Ensiklopediyasının birinci cildində nə yazılmışdır? Cildin bütöv bir səhifəsini tutan məqalənin əvvəlində M.C.Bağırovun redaktəsi eynilə saxlanılmışdır: «AZƏRBAYCANLILAR - qədim mədəniyyətə malik xalq».

Qədim mədəniyyətə malik olan doğma xalqının bütün varlığını qoruyub saxlamış M.C.Bağırov onun heç vaxt zənginliyini itirməyən ecazkar dili barədə də iftixarla danışmışdır. 1950-ci ildə M.C.Bağırovun ana dilimiz haqqında dediyi sözlər bundan bir il əvvəl Böyük Sovet Ensiklopediyasındakı bir səhifəlik «Azərbaycan dili» məqaləsinin davamı kimi səslənir. Ensiklopediya məqaləsində oxuyuruq: «Azərbaycan dilinin tarixi, Azərbaycan folklorunun və ədəbiyyatının əsas inkişaf mərhələlərində öz əksini tapmışdır. Bir tərəfdən «Kitabi-Dədə Qorqud», «Koroğlu» kimi söz abidələri, digər tərəfdən Nizami və Füzuli yaradıcılığı yalnız ədəbi mahiyyət daşımır, eyni zamanda da dilin ifadə imkanlarının genişliyini göstərir».

M.C.Bağırov 1950-ci il iyul ayında ziyalıların ümumbakı yığıncağındakı məruzəsində demişdir: «Azərbaycan dəfələrlə çoxlu istilaçıların basqınına məruz qalmışdır. Onların hər biri öz dilini Azərbaycan xalqına qılınc gücü ilə qəbul etdirməyə çalışmışdır. Ancaq Azərbaycan xalqı öz milli mədəniyyətini, öz ana dilini

qoruyub saxlaya bilmiş, öz ana dilində ədəbiyyat və incəsənətin yüksək nümunələrini yarada bilmişdir. Bu gün İran irticaçıları Cənubi Azərbaycanda yalnız təbliğat vasitələriylə deyil, zorakılıqla buna çalışırlar ki, azərbaycan dilini məhv etsinlər, azərbaycanca yazmağı və oxumağı qadağan edirlər, azərbaycanca yazılmış kitabları yandırırlar, müəlliflərini təqib edirlər. Azərbaycan dili əsrlər boyu öz həyat gücünü və sabitliyini sübut etmiş və sübut etməkdədir.

Cənubi Azərbaycan xalqı İran irticasının bütün vəhşiliklərinə və zoruna baxmayaraq, ana dilini qoruyub-saxlamış, azərbaycanca qiymətli bədii əsərlər yazmış və yazan Qətran Təbrizi, Saib Təbrizi, Xətai, Heyran xanım, Möcüz Əli, Azəroğlu kimi sənətkarlar yetirmişdir. Bu fakt ana dilimizin yenilməzliyinin parlaq sübutu deyilmi?»

***

M.C.Bağırovun yarım əsr bundan əvvəl dediyi bu sözlər bu gün də öz əhəmiyyətini itirməmişdir. Azərbaycan dili -Bütöv Azərbaycanın, dünya azərbaycanlılarının ana dilidir. Millətin dili - millətin ürəyidir. Ulu Tanrı xalqımıza ən varlı torpaq verdiyi kimi, ən zəngin söz xəzinəsi də bəxş etmişdir. Müstəqil Azərbaycanımızda bu xəzinəni layiqincə qoruyuruqmu? Əsla yox! Bəzilərinə elə gəlir ki, «Azərbaycan Respublikası gənc müstəqil dövlətdir» ifadəsi dilimizə də şamil olunmalıdır. Əvvəllər Bakının mərkəzi küçələrində Azərbaycan sözləri göz oxşayırdı: «Göygöl», «Şirvan», «Şərq», «Novbahar»... İndi isə «Hayat Naxçıvan», «Rus restoranı», «Bistro», «Kafe de Paris»... Televiziya ekranlarında, qəzet səhifələrində «personal», «missiya», «paradoks», «hava rejimi», «kritik» kimi sözlər peyda olmuşdur. «Neft»imiz də dönüb «petrol» şəklinə düşmüşdür: «AZPETROL - YAXŞI YOL!». «Prezidentin birinci müavini» də «Birinci vitse- prezident» olmuşdur. İş o yerə çatıb ki, müstəqil ölkədə yüksək vəzifəli bəzi azərbaycanlılar bir-biriylə əcnəbi dildə danışırlar, uşaqlarını rus məktəblərində oxudurlar, beləliklə də Azərbaycanda Rusiya vətəndaşları hazırlayırlar. Müstəqil Azərbaycan Respublikasının paytaxtında reklamlar sanki Londonda hazırlanıb-göndərilir. Azərbaycan Respublikasının Milli Məclisinin orqanı olan «Azərbaycan» qəzetinin 29 oktyabr 2000-ci il tarixli sayında əməkdar mədəniyyət işçisi, «Qızıl qələm» mükafatı laureatı, peşəkar mütərcim Ənvər Quliyevin «Ana dili vətəndir» silsiləsindən «Qaş düzəldən yerdə...» adlı çox dəyərli bir yazısı dərc olunmuşdur. Müəllif ürək yanğısı ilə paytaxtımızın küçə və meydanlarında nümayiş etdirilən bir «xəritə»dən söhbət açır. Böyük Britaniyanın rəsmi dövlət dili olan ingiliscə və sonra da azərbaycanca yazılmış reklam-xəritədə ana dilimizin nə kökə salındığına aid acınacaqlı mənzərə nümayiş etdirilir.

Məqalədə oxuyuruq: «Reklam edilən xəritədə bir sıra küçələrin adları səhvən belə yazılmışdır: Məhəmməd Hadi küçəsi əvəzinə Məhəmməd Xadi küçəsi, Mehdi Hüseyn küçəsi əvəzinə Mexti Hüseyn küçəsi, Səmədbəy Mehmandarov

küçəsi əvəzinə Səmədbəy Mexmandarov küçəsi, General Şıxlinski küçəsi əvəzinə Qeneral Şixlinski küçəsi, Naxçıvanski küçəsi əvəzinə Naxçivanski küçəsi...

Xəritənin tərtibçiləri Bakı Metropoliteninin adlarını belə həkk etmişlər: Nariman Narimanov stansiyası, Meşədi Əzizbəyov stansiyası, Xatai stansiyası.

Xarici ölkələrin Bakıdakı səfirliklərinin adlarının azərbaycanca yazılışına təkcə bir misal. Böyük Britaniya səfirliyi əvəzinə oxuyuruq: Velikobritaniya səfirliyi.

Xəritə «coğrafi kəşflər»dən də xali deyil. Belə məlum olur ki, bundan sonra Gəncə prospektinə Qənçə prospekti, Xocalı prospektinə Xodjalı prospekti, Özbəkistan küçəsinə Uzbekistan küçəsi, Zığ gölünə Zıx gölü, Qanlıgölə Qanlı qöl deməliyik.

«Ginnesin rekordlar kitabı»na düşməyə layiq olan daha bir uydurma barədə. Reklam şirkəti bizi ciddi-cəhdlə inandırmaq istəyir ki, Bülbülə qəsəbəsindəki göl Bülbülə gölü yox, Bülbül gölüdür. Bu yerdə deyiblər ki, afərin ustadına!

«ROSTER» reklam şirkətinin məhsulu savadsızlığın, səriştəsizliyin, məsuliyyətsizliyin, asan yollarla qazanc əldə etmək hərisliyinin nəticəsidir. Pul qazanmaq qadağan deyil, ancaq Azərbaycan dilini, Azərbaycan elmini tar-mar etmək hesabına yox!

Adı çəkilən reklam şirkətinin hazırladığı və şəhərdə nümayiş etdirdiyi «xəritə» ana dilimizi, xalqımızın əbədiyyətə qovuşmuş övladlarının ruhunu, şərəf və ləyaqətini təhqir etmək deməkdir».

Gözləmək olardı ki, «Azərbaycan» qəzetini oxuyan rəhbərlər bu həyəcanlı səsə biganə qalmayacaq, reklam olunan xəritə dərhal yığışdırılacaqdır. Lakin məqalə dərc olunandan sonra bunun əksi baş vermişdir: ingilis dilli «kəşfiyyatçılar» üçün nəzərdə tutulmuş reklamın miqyası daha da genişləndirilmişdir. Novruz bayramı ərəfəsində Hüseyn Cavid prospektində, Mikayıl Müşfiq adına kitabxana ilə üzbəüz yol ayrıcında, Respublika Sarayı qarşısındakı meydanda, Abşeron mehmanxanası ilə Hökumət Evi binası həndəvərində, Neftçilər prospektinin bir neçə yerində «sarı xəritələr» asılmışdır.

Dil təmizliyi - xalqımızın milli mənəviyyat paklığının təzahürüdür. M.C.Bağırov iş başında olsaydı, tanınmış jurnalistin haqq səsinə hay verərdi. «Sarı xəritələri» Bakının küçə və meydanlarının çiyinlərindən qaldırıb təşkilatçılarının təpəsinə çırpardı. Yaxşı da edərdi!

* * *

Arxiv sənədləri də, doğruçu şahidlərin dedikləri də göstərir ki, Azərbaycanın milli dəyərlərinə qarşı çıxanlarla mübarizədə M.C.Bağırov həmişə kəskin və sərt mövqe tutmuşdur. Azərbaycanın qədim tarixini təhrif edənlərlə həlim rəftar sonralar bərqərar olmuşdur. Bu cəhətdən 1949-cu il və 1970-ci illərdə

buraxılmış Böyük Sovet Ensiklopediyasının birinci cildində Azərbaycan haqqında verilmiş məqalələri müqayisəli şəkildə gözdən keçirmək kifayətdir.

1949-cu ildə nəşr olunmuş BSE-nin Baş redaksiyasının tərkibi 20 nəfərdən ibarətdir. Onların arasında bir nəfər də olsun erməni yoxdur. 1970-ci ildə Baş redaksiya heyəti 29 nəfərə çatdırılmışdır ki, bunların ikisi ermənidir. Baş redaktorun birinci müavini Azərbaycan xalqının qatı düşməni Stepan Şaumyanın oğlu Levon Şaumyandır.

1949-cu ildə M.C.Bağırovun təkidi ilə BSE-nin birinci cildində dərc edilmiş məqalələrə 1970-ci ildə qayçı tutulmuşdur, onların həcmi yarıbayarı azaldılmış, qədim Azərbaycan xəritələrinin bir neçəsi ixtisara düşmüşdür.

1949-cu ildəki cilddə Azərbaycana aid ilk məqalə «İran Azərbaycanı»dır (səh.433-434). 1970-ci ildə Azərbaycanın bütövlüyünün düşmənləri «Azərbaycan SSR»lə işi bitmiş hesab etmişlər. Azərbaycanın əhalisi haqqındakı abzasa «ermənilər Dağlıq Qarabağ MV-də, Naxçıvan MSSR-in dağlıq hissəsində, respublikanın bir sıra şəhərlərində yaşayırlar» cümləsi artırılmışdır.

1949-cu ildəki cilddə bir səhifəlik «Azərbaycan dili» məqaləsi 1970-ci ildə səhifənin bir neçə cümlədən ibarət kiçik yazısına çevrilmişdir. Məqalədə oxuyuruq: “AZƏRBAYCAN DİLİ. Azərbaycan SSR-də, Gürcüstan SSR-də, Dağıstan MSSR-də, Özbəkistan SSR-də, Türkmənistan SSR-də, Qazaxıstan SSR-də və Ukrayna SSR-də, habelə İranda və İraqda yaşayan azərbaycanlıların dili”. Məqalədən elə çıxır ki, Ermənistan SSR-də azərbaycanlılar yaşamır və ya yaşasalar da, Azərbaycan dili onların ana dili deyildir. 1970-ci ildə M.C.Bağırovun partiya vəzifəsini daşıyanlar BSE-nin Baş redaksiyasına bu barədə irad tutmamışlar.

1949-cu ildə bir səhifəlik «AZƏRBAYCANLILAR» məqaləsi də Levon Şaumyanın qəzəbinə gəlmişdir. Məqalə 4 dəfə ixtisara məruz qalmaqla bu şəklə düşmüşdür: «AZƏRBAYCANLILAR - millət, Sovet İttifaqında azərbaycanlılar Azərbaycan SSR-in əsas əhalisini (67,5%) təşkil edir» (səh.277).

1970-ci illərdə «azərbaycanlıları qədim mədəniyyətə malik olan xalq» kimi qəbul etməyən daşnak xislətli ensiklopediyaçılara qarşı mübarizənin başında yenilməz və əyilməz bir insan - ASE-nin ilk yaradıcısı Rəsul Rza dururdu. ASE-nin Baş redaktorunun 1972-ci ildə yazdığı bir məktub bu mənada əvəzsizdir. Ermənistan Sovet Ensiklopediyası Baş redaksiyasına göndərilmiş həmin məktub belə adlanır: «Ermənistan Sovet Ensiklopediyasının birinci cildi üçün nəzərdə tutulmuş «Azərbaycan SSR» məqaləsi barədə bəzi qeydlər və təkliflər».

Əslində «bəzi qeydlər və təkliflər» Azərbaycan tarixini təhrif edənlərə qarşı tarixi ittihamnamədir. Rəsul Rza məktubunun əvvəlində göstərir ki, Ermənistan Sovet Ensiklopediyası üçün nəzərdə tutulmuş məqalədə Azərbaycanın tarixinin bütün mərhələləri elmə zidd və həqiqətə uyğun olmayan mülahizələrlə doludur. Gürcüstanda ensiklopediyanın birinci cildi üçün hazırlanmış materialdan fərqli olaraq, burada Azərbaycan tarixi BSE-də verilmiş məqalə baxımından deyil, Ermənistanda çap olunmuş qeyri-elmi və zərərli cəfəngiyyat əsasında yazılmışdır.

Bununla necə barışmaq olar ki, İran Azərbaycanı tamamilə Azərbaycan tarixindən kənarda qalmışdır.

Məqalənin «Tarixi oçerk» bölməsi Azərbaycanın arxeoloji tədqiqindən başlanır. 5-6 sətirdən ibarət olan bu hissədə Azərbaycanın ərazisində ibtidai icma quruluşu barədə ən zəruri və əhəmiyyətli faktlar verilməmişdir. Təəccüblüdür ki, SSRİ-də paleolit dövrünə aid ən nadir mağaralardan biri sayılan Azıx mağarasının adı çəkilmir, qədim dövrdə yaşamış neandertal adamın 1968-ci ildə Azərbaycanda tapılmış çənə sümükləri barədə bir kəlmə də deyilmir. Halbuki bu tapıntı nəinki SSRİ ərazisində, ümumiyyətlə, dünyada- tayı-bərabəri olmayan nadir hadisədir.

Məqalədə belə bir yanlış fikir ifadə olunur ki, eramızdan əvvəl VIII-VII əsrlərdə Kür və Araz çayları arasındakı ərazidə məskunlaşmış qəbilələr Urartu dövlətinin nüfuz dairəsində idi.

Azərbaycan ərazisində aparılmış qazıntılar zamanı Urartu dövləti və ya Urartu mədəniyyəti ilə bağlı heç bir tapıntı aşkar edilməmişdir. Kür və Araz çayları arasındakı ərazidə məskunlaşmış qəbilələrin Urartu dövlətinə dəxli yoxdur. Xəritədən də aydın görünür ki, bu ərazi Urartudan uzaqlardadır.

Elmi əsası olmayan daha bir müddəa haqqında. İddia edilir ki eramızdan əvvəl, təqribən I əsrdə alban qəbilələri birləşmiş çarlıq yaratmış və bu çarlıq Böyük Ermənistanın mədəni təsiri altında olmuşdur.

Əvvəla, 20-dən çox alban qəbiləsi «Böyük Ermənistanın» mədəni təsiri altında ola bilməzdi. Ona görə ki, bu qəbilələr böyük sivilizasiyanın birbaşa varisləri idilər.

İkincisi, real tarixi əsas olmadan «Böyük Ermənistan» sözlərini işlətmək etikadan kənardır, hoqqabazlıqdır. «Böyük Ermənistan» uydurmasından üzdəniraq «dənizdən dənizə qədər» doktrinasının qoxusu gəlir. Leqatlar, pretorlar, prokonsullar Roma senatı tərəfindən qalibiyyət dəbdəbəsinə və ya alqışlara nail olmaq üçün öz xidmətlərini şişirdərək istila etdikləri vilayətlərə «Armeniya maksima» kimi təmtəraqlı adlar verməkdən həzz alırdılar...

Rəsul Rza daşnak xislətli ensiklopediyaçıların aşağıdakı uydurmasını da özünəməxsus tərzdə qəzəblə məsxərəyə qoyur: «Ərəb istilaları dövründə (VII əsrin ortaları) Syunik, Artsak, Uti və Albaniya birləşdilər».

Ağ eləməyin! Əndazə hissini bu dərəcədə itirmək olmaz. Axı bu, təqribən belə səslənir: Areni, Artaşat və ...Fransa».

Bəli, 1972-ci ildə Yerevana göndərilmiş məktubla 1949-cu ildə Moskvaya ünvanlanmış məktublar arasında «Bağırov körpüsü» vardı. M.C.Bağırov dövrünün kinomatoqrafiya naziri 70-ci illərdə nomenklatura siyahısına sığışmayan cəsarət naziri idi!

Rəsul Rzanın baş redaktor olduğu ilk Azərbaycan ensiklopediyası baş redaksiya heyətinin ən cavan üzvü Yaqub Mahmudov «Azərbaycan» qəzetinin 1991-ci il 5 dekabr tarixli sayında dərc olunmuş məqaləsində yazır. «...Bu gün xalqımızı düşündürən bir çox problemlər o zaman Azərbaycan Ensiklopediyasının

baş redaksiyası və onun ətrafında toplanmış mütərəqqi ziyalılar tərəfindən qaldırılmış, akademiyada və bütövlükdə respublikada gedən ictimai-siyasi mübarizələrin, elmi müzakirələrin əsas mövzularına çevrilmişdi. Xalqın sözünü hər yerdə, bütün şəraitlərdə ucadan söyləməyə cəsarəti, təpəri və erudisiyası çatan böyük mütəfəkkirimiz, Azərbaycan Ensiklopediyasının baş redaktoru Rəsul Rza bu mübarizənin önündə gedirdi... Uf demədən «pantürkist», «qardaş erməni və Azərbaycan xalqları arasına nifaq salmağa çalışan» adlandırdıqları Rəsul Rza və onun silahdaşlarının təqib olunmasına başlandı. Yerli qüvvələr kifayət etmədi. Moskvadan 1918-ci ildə Azərbaycanı «ağ günə çıxarmış» daşnak Şaumyanın «layiqli varisi» L.S.Şaumyan (o, BSE-nin baş redaktorunun birinci müavini idi) da kömək üçün Bakıya çağırıldı. Nəticədə ilk Azərbaycan Ensiklopediyasının bünövrəsini qoymuş və birinci cildini nəşr etmiş, «Azərbaycan SSR» atlasını, tarix xəritələrini oxuculara yetirə bilmiş geniş potensiallı, xəmiri Rəsul Rzanın qeyrət ruhu ilə yoğrulmuş böyük bir yaradıcı kollektiv dağıdıldı. Ensiklopediyamıza divan tutuldu».

Rəsul Rzanın «təqib olunmasına başlanan silahdaşları» arasında xalqımızın nadir tarixçi alimi və həqiqi milli qəhrəmanı Ziya Bünyadov da vardı.

* * *

1970-ci ildə Rəsul Rzanın baş redaktorluğu ilə nəşr olunmuş ASE-nin baş redaksiya heyəti bu tərkibdə idi: Abdullayev Mikayıl, Abdullayev Həsən, Araslı Həmid, Axundov Sabir (məsul katib), Bünyadov Ziya, Vəzirov Xasay, Qaşqay Mirəli, Quliyev Səftər, Dadaşzadə Məmməd Arif, Dəmirçizadə Əbdüləzəl, Əlizadə Qambay, Əlizadə Ələşrəf, Əfəndizadə Azad, Əfəndiyev Adil, Əfəndiyev Məmmədəmin, Köçərli Firidun, Gül Qasım, Mahmudov Yaqub, Mehdizadə Mehdi, Mehdiyev Şəfayət, Musabəyova Umnisə, Musayev Musa, Mustafayev İmran, Müseyibov Müseyib, Nağıyev Murtuza, Orucov Əliheydər, Tutayuq Validə, Hacıyev Əhməd Cövdət, Hüseynov Rüstəm (baş redaktor müavini), Cavadov Maqsud, Şirəliyev Məmmədağa.

1976-cı ildə C.B.Quliyevin baş redaktorluğu ilə nəşr olunmuş ASE-nin baş redaksiya heyəti aşağıdakı tərkibdədir: M.H.Abdullayev, H.B.Abdullayev, M.A.Allahverdiyev, H.M.Araslı, Q.Ə.Qarayev, İ.H.Qasımov, M.S.Qaşqay, V.P.Qəhrəmanov, Ə.M.Quliyev, M.P.Quluzadə, A.M.Dadaşzadə, Ə.Ə.Əlizadə, V.S.Əliyev, H.Ə.Əliyev, A.Ə.Əfəndizadə, F.H.Əhmədov, M.Ə.Musayev, İ.D.Mustafayev, İ.M.Orucova, H.F.Sultanov, M.A.Topçubaşov, V.X.Tutayuk, Ə.İ.Hüseynov, Ç.M.Cuvarlı, M.Ş.Şirəliyev.

İki tərkibə diqqət yetirin. Köhnə heyətdəkilərin əksəriyyəti saxlanılmışdır. «Tutayuq» əvəzinə «Tutayuk» yazılsa da. Yalnız Z.M.Bünyadovun adı yoxdur. Səbəbləri nədir?

Bir səbəbi göz qabağındadır: ASE-nin ilk cildindəki məqalələri. Baş redaksiya heyətinin üzvünün burada Azərbaycan tarixinin qədim dövrlərinə və tarixi şəxsiyyətlərə aid 9 məqaləsi dərc olunmuşdu. Bəzilərini nəzərdən keçirək. Ziya Bünyadovun «Abeskun» məqaləsindən bəlli olur ki, orta əsrlərdə Xəzər dənizinin cənub-şərqindəki adada belə bir liman şəhəri varmış. Ona «Abiskun, Absukun, Abasqun» da deyilərmiş. Şəhərin xarici ölkələrlə, o cümlədən Avropa ölkələri ilə ticarət əlaqələri olmuşdur. O dövrdə Abeskun şəhərinə görə Xəzər dənizinə Abeskun dənizi deyilərmiş. Ziya Bünyadov tarixi mənbələrə əsaslanaraq qeyd edir ki, Məsudi, Nasir Xosrovi, Yaqut Həməvi, Rudəki və başqalarının əsərlərində bu şəhərdən bəhs edilir.

1976-cı ildə Ziya Bünyadovu baş redaksiya heyətinə salmayanlar onun «Abeskun» məqaləsindəki «Məqsudi, Nasir Xosrovi, Yaqut Həməvi, Rudəki və başqalarının əsərlərində» sözlərini də ixtisar etmişlər.

Z.Bünyadovun «Aquen məclisi», «Aran kilsəsi» və «Aranşahlar» məqalələri tamamilə çıxarılmışdır. Niyə? Niyəsi məqalələrlə tanış olduqdan sonra üzə çıxır.

Z.Bünyadovun məqaləsindən aydın olur ki, Azərbaycanda Bərdə yaxınlığında erkən orta əsrlər dövründə Aquen adlı şəhər olmuşdur. Aran kilsəsinin (alban kilsəsinin) müstəqilliyini möhkəmlətmək, kilsənin xeyrinə əhalidən toplanan vergilərin miqdarını tənzim etmək və rəsmiləşdirmək üçün III Vaçaqanın hakimiyyəti dövründə (təqribən 485-510) Aquen şəhərində keçirilmiş məclis «Aquen məclisi» adlanır.

Z.Bünyadovun «Aranşahlar» məqaləsindən məlum olur ki, «Aranşahlar - Aran hökmdarları sülaləsidir. 10 əsrədək hakimiyyət başında olmuşlar. Adını Aran etnik terminindən götürmüşdür. Aranşahlar Aranın birləşməsində böyük rol oynamışlar».

Z.Bünyadovun «Aran kilsəsi» məqaləsində oxuyuruq: «Feodal hakimiyyətinin möhkəmləndirilməsinə xidmət edən Aran kilsəsinin mərkəzi Qəbələ idi... Aran kilsəsinin təsiri Aranın qərbində (Arsax, Uti, Sünük və s.) daha güclü idi. Köçərilərin basqınları ilə əlaqədar olaraq, katolikos Abasın dövründə (551-95) kilsə mərkəzi Dərbənd yaxınlığındakı Çoladan Bərdəyə köçürüldü (552).

Erməni katolikosu İlya Aran kilsəsinin müstəqilliyinə son qoymaq üçün VIII əsrin əvvəlində xəlifə Əbdülməlikə xəbər verdi ki, aranlılar (albanlar) Xilafətə qarşı Bizansla əlaqə yaratmışlar. Aran kilsəsinə Səfəvilər, rus çarları da kömək etmişlər. 1836-cı ildə, Qriqorian kilsəsinin təkidi ilə Peterburq Müqəddəs Sinodu Aran kilsəsini ləğv etmişdir».

Mərhum akademikin 1976-cı ildə ASE-nin birinci cildinə salınmayan bu 3 məqaləsindən çıxan başlıca məntiqi nəticə bu idi: Qafqaz Albaniyasının tarixi ərazisi Azərbaycanın coğrafi ərazisidir! «Aran kilsəsi» məqaləsində deyilirdi: «Erməni Qriqorian kilsəsinin xadimləri Aran (alban) dilində yazılmış kitabları

məhv edirdilər. Bəzi əsərlər isə qədim erməni dilinə (qrabar) tərcümə olunurdu. (Movses Kalankaytuklunun «Ağvan tarixi» vəs.)».

Azərbaycan tarixini Z.Bünyadovun elmi-tarixi əsərləri baxımından deyil, Movses Kalankaytuklunun qrabar dilindəki tərcümələrindən qiymətləndirənlər üçün Qafqaz Albaniyasının ən qədim ərazisi Azərbaycan yox, DQMV-dir. İnanmırsınız, ASE-nin 1979-cu ildə nəşr olunmuş üçüncü cildini açın və 308-309-cu səhifələrdə yazılanları oxuyun. 1923-cü il iyulun 7-də Azərbaycan xalqının milli mənafeyi ziddinə təşkil olunmuş vilayətin tarixi haqqında deyilənlərə diqqət yetirin: «Əlverişli coğrafi şərait hələ Daş dövründən insanların Dağlıq Qarabağda məskən salmasına səbəb olmuşdur. SSRİ ərazisində ən qədim ibtidai insan məskənlərindən biri DQMV-də aşkar edilmişdir (bax. Azıx mağarası). Vilayətin ərazisi arxeoloji abidələrlə zəngindir. Eneolit, Tunc və erkən Dəmir dövrünə aid çoxlu arxeoloji abidələr (Xocalı qəbristanı, Arçadzor kurqanları və s.) aşkar edilmişdir. Antik və orta əsr abidələri, əsasən, Martuni və Mardakert rayonları ərazisindədir...»

Z.Bünyadov 1965-ci ildə çap olunmuş «Azərbaycan VIII-IX əsrlərdə» kitabında, sonralar nəşr etdirdiyi məqalə və əsərlərində erməni alimlərinin bütün yalanlarını alt-üst edərək sübut etdi ki, Azərbaycan ərazisinə erməni əhalisi İran-Rusiya arasındakı müharibədən sonra (XIX əsrdə) köçürülmüşdür.

1991-ci ildə «Yazıçı» nəşriyyatı tərəfindən buraxılmış «Tarixin ağ ləkələri» kitabında Arif Mansurov Z.Bünyadova qarşı daşnak hücumlarından bəhs edərək belə yazır: «Sumqayıt hadisələri barəsində həqiqəti bütün çılpaqlığı ilə açıb tökən akademik Z.Bünyadovun səhih faktlara əsaslanan obyektiv yazısı ətrafında erməni alimlərinin ağız-ağıza verib fəryad qopartdığını xatırlamaq kifayətdir. Ermənistan SSR Elmlər Akademiyasının akademikləri E.Ağayan, B.Arakelyan, Q.Brutyan, G.Qəribcanyan, E.Cerbaşyan, Q.Caukyan, S.Yemelyan, R.Zoryan, müxbir üzvləri Q.Avetisyan, S.Arevşatyan, V.Barxudaryan, V.Bavtyan, V.Nalbadyan, Q.Qamzaryan, V.Xocabekyan, elmlər doktorları P.Muradyan, T.Tiratsyan, K.Xudaverdiyan, S.Tovmasyan «Ziya Bünyadov nə vaxtadək tarixi saxtalaşdıracaqdır?» sərlövhəli yazıda növbəti qurbanı «ifşa» etməkdən daha çox, hədsiz bir qəzəblə gürcü ictimaiyyətini Azərbaycandan üz döndərməyə çağırmışlar. Tanış dəst-xətdir, tanış üslubdur!»

XX əsrin ən böyük elm və cəsarət sahibini «tanış dəst-xətt, tanış üslub» əlimizdən aldı. Millət vəkili yaşadığı mənzilin qapısı ağzında qətlə yetirildi.

Mir Cəfər Bağırov vaxtında Sovet İttifaqı qəhrəmanı adını almış, 1939-cu ildə Bakıda hərbi məktəbə daxil olmuş, 1950-ci ildə Moskva Şərqşünaslıq İnstitutunu bitirmiş «Qızıl ulduz»lu şərqşünas alim kimsəsiz və cangüdənsiz göründü...Ermənistanın daşnak alimlərinin illərdən bəri arzu etdikləri əməl həyata keçirildi...

Mir Cəfər Bağırov iş başında olsaydı, düşmənlərimizin hədəfə aldıqları Z.Bünyadov tək-tənha taleyin ümidinə buraxılmazdı, özündən xəbərsiz arxasınca «keşikdə duranı» olardı.

* * *

... «XX əsrdə ziyalımızın işığı heç vaxt sönmədi». Bu sərlövhə XXI əsrin ilk həftəsində, «Hürriyyət» qəzetinin 4-5 yanvar tarixli sayında diqqəti cəlb edir. Məqalə müəllifi belə təqdim olunur: Şərqşünas, filologiya elmləri doktoru, professor, yazıçı-jurnalist, orta əsrlər Azərbaycan, İran, Türkiyə ədəbiyyatına aid yüzdən artıq silsilə elmi məqalələrin və 3 monoqrafiyanın müəllifi, 1975-ci ildən 25 il hər həftə radioda «Axşam görüşü» proqramının aparıcısı Rəfael Hüseynov.

Adlı-sanlı müəllif həm də Vətəndaş Həmrəyliyi Partiyasının siyahısı əsasında deputat seçilmişdir. Millət vəkili Strasburqa yola düşməzdən qabaq Azərbaycanda XX əsrə tərəzi tutmuşdur. Tərəzinin qara rəngli gözündə yenə də Mir Cəfər Bağırovdur. Müəllif yazır: «Sovet dövründə Azərbaycana uzun illər rəhbərlik edən M.C.Bağırovun, şübhə yox, müsbət sayılan, təqdir edilə biləcək işləri və xasiyyətləri də olub. Amma onun Azərbaycan ziyalısına qarşı törədilmiş repressiyalarda xidmətləri müstəsnadır. Tərəziyə qoyularsa, əlbəttə ki, onun günahları savablarından qat-qat çoxdur və bu obraza əfv heç zaman düşməyəcək».

Vətəndaş Həmrəyliyi Partiyasının millət vəkili bəri başdan bəyan edir ki, Mir Cəfər Bağırov məsələsində XXI əsrdə də Rudenko məhkəməsinin hökmü ilə həmrəydir. XXI yüzilliyin də tərəzisi başında Rəfael Hüseynov olsa, «bu obraza əfv heç zaman düşməyəcək»...

Əsrə deyil, Rəfael Hüseynovun «1975-ci ildən hər həftə radioda «Axşam görüşləri» proqramları müddətinə tərəzi tuturam. Bu tərəzinin bir gözündə Rəsul Rzanın baş redaktorluğu ilə nəşr olunmuş ilk Azərbaycan ensiklopediyasının yalnız bircə cildi, digər gözündə Cəmil Quliyevin baş redaktorluğu ilə 1976-87-ci illərdə buraxılmış ASE-nin tam on cildi. Rəsul Rza ensiklopediyasının ağır çəki daşlarının üzərində «Azərbaycan», «Azərbaycan dili», «Azərbaycanlılar» yazılmışdır.

«Azərbaycan» daşının dünya tutumunda əzəmətli yeri belə ifadə edilmişdir: «Azərbaycan - Asiya qitəsində qədimdən azərbaycanlıların yaşadığı ölkə, Qafqazın cənub-şərq, İranın şimal-qərb hissəsini tutur. Şimalda Baş Qafqaz silsiləsi, cənubda Orta İran dağları, qərbdə Şimali Kürdüstan silsiləsi, şərqdə Xəzər dənizi ilə əhatə olunur. Sahəsi təqribən 200 min. kv. kilometrdir, əhalisi 11 milyon (İran Azərbaycanı 6 milyon, 1959, Azərbaycan SSR 5 milyon, 1968). XVIII əsrin ortalarından başlayaraq Azərbaycan inzibati cəhətdən Bakı, Qarabağ, Quba, Dərbənd, Ərdəbil, Maku, Marağa, Naxçıvan, Talış, Təbriz, Urmiyə, Xoy, Şamaxı, Şəki xanlıqlarına; Qazax, Qəbələ, Ərəş, İlisu sultanlıqlarına və Car-Balakən dairəsinə bölünürdü. Böyük şəhərləri: Bakı, Bərdə, Quba, Dərbənd, Ərdəbil, Zəncan, Gəncə, Mərənd, Naxçıvan, Təbriz, Urmiyə, Xoy, Şamaxı, Şəki, Şuşa. Rusiya və İran arasında 1813-cü ildə imzalanmış Gülüstan və 1828-ci ildə imzalanmış Türkmənçay müqavilələrinə əsasən Azərbaycan iki hissəyə (Şimali Azərbaycan və Cənubi Azərbaycan) bölündü. Şimali Azərbaycan Rusiyanın tərkibinə qatıldı, Cənubi Azərbaycan isə İrana ilhaq olundu».

Rəsul Rza ensiklopediyasında Azərbaycanın tarixi 22 səhifədən ibarətdir.

Rəsul Rza ensiklopediyasındakı «Azərbaycan dili» məqaləsində oxuyuruq: «Azərbaycan dili SSRİ-də və xaricdə yaşayan 12 milyona yaxın azərbaycanlıların ana dilidir. Ehtimala görə Azərbaycan dilinin ümumxalq dili kimi formalaşması təqribən VII-IX əsrlərdə sona çatmışdır. Azərbaycan dili uzun zaman «türkü», «türk dili», «Azərbaycan türkcəsi», bəzən isə «Qafqaz tatarlarının dili» (xüsusən, rus dilində yazılmış əsərlərdə) adlandırılmışdır.

Azərbaycan dili qrammatik quruluşuna görə iltisaqi dillərdəndir və türk dillərinin ümumi qrammatik əsaslarına uyğundur.

Son hesablamalara görə, müasir Azərbaycan ədəbi dilinin tərkibində 100 minə qədər söz var».

1949-cu ildə Mir Cəfər Bağırovun təkidi və bilavasitə iştirakı ilə Böyük Sovet Ensiklopediyasının birinci cildində dərc olunmuş «Azərbaycanlılar» məqaləsi Rəsul Rza ensiklopediyasında genişləndirilərək 3 səhifəyə çatdırılmışdır. Məqalədə deyilir: «AZƏRBAYCANLILAR -Azərbaycanın əsas əhalisi; millət. Təqribən 12 milyon, o cümlədən SSRİ-də 3,6 milyon (1965). Azərbaycan SSR-də təqribən 3,3 milyon nəfərdir (1969). 1959-cu il məlumatına görə, azərbaycanlılar Gürcüstan SSR-də (107,7 min), RSFSR-də (70,9 min, o cümlədən Dağıstan MSSR-də 38,4 min), Özbəkistan SSR-də (40 min), Qazaxıstan SSR-də (38,4 min), Türkmənistan SSR-də (12,9 min), Qırğızıstan SSR-də (10,4 min), Ukrayna SSR-də (6,7 min), Belorusiya SSR-də (1,4 min) və s. yerlərdə yaşayırlar. Qalanı xaricdə, ən çoxu İranda (əsasən İran Azərbaycanında) yaşayır.

İndiyədək aparılan tədqiqatlar sübut edir ki, «Azərbaycan» adı «azər» (yəni «od») sözündən əmələ gəlmişdir. İran dillərində bu sözün ən qədim şəkli ehtimal ki, «atar» şəklini almışdır. «Atar» sözünə Azərbaycan ərazisi ilə əlaqədar ilk dəfə «Atropat» və «Atropatena» sözlərində rast gəlirik. Atropatena, sonra isə Atarpatakan dil qanunlarına uyğun olaraq dəyişilmiş və «Azərbaycan» şəklinə düşmüşdür ki, bu da «Odlar yurdu», «Odlar diyarı» deməkdir».

Azərbaycan Sovet Ensiklopediyasının on cildliyində «Azərbaycan», «Azərbaycan dili», «azərbaycanlılar» sözlərini «Ermənistan», «erməni dili», «erməni yazısı» və «ermənilər» kəlmələri əvəz etmişdir. Həm də elə bil bu məqalələri Levon Stepanoviç Şaumyan redaktə etmişdir.

ASE-nin 1980-ci ildə nəşr edilmiş IV cildindəki «Ermənistan SSR» məqaləsindəki (səh.82-86) bu sətirlərə diqqət yetirin: «VII əsrin sonunda ərəb qoşunları Zaqafqaziyanı işğal edib, Ermənistan, Kartli və Qafqaz Albaniyasını bir əmirlikdə («Ərməniyyə») birləşdirdilər. Ərəb işğalı Ermənistanda feodal münasibətlərinin inkişafını ləngitdi. Ərəb hökmranlığına qarşı xalqın mübarizəsi (703, 748-750, 774-775-ci illər üsyanları) kəndlilərlə feodallar arasında kəskin sinfi mübarizə şəraitində gedirdi. Babək hərəkatı Ermənistanı da bürümüşdü. 805-ci ildə Xilafətə qarşı yeni xalq üsyanı başlandı. Lakin yalnız IX əsrin sonunda Ermənistan

Xilafətin hakimiyyətindən azad oldu. Ölkənin idarəsi Baqratilər sülaləsinin əlinə keçdi.

...XI əsrin ortalarında səlcuq hücumları başlandı. XI əsrin 70-80-ci illəri arasında onlar demək olar, bütün Ermənistanı işğal edib dağıtdılar. Ermənistanın iqtisadi inkişafı ləngidi.

...XIV əsrin sonunda Ermənistan əvvəl Toxtamışın, sonra isə Teymurun yürüşləri zamanı dağıdıldı.

... XVI əsrdən Ermənistan Səfəvilər dövlətinin tərkibinə daxil idi. XVI-XVIII əsrlərdə Səfəvilərlə Türkiyə arasındakı müharibələr Ermənistanın iqtisadi və mədəni həyatına böyük zərər vurdu. I Şah Abbas (1587-1629) çoxlu erməni ailəsini zorla İrana köçürdü. Müharibələr zamanı talan edilmiş erməni ailələrinin bir hissəsi Gürcüstan və Azərbaycana köçmüş, Tiflis və Şamaxıda xeyli erməni sənətkarı və taciri məskən salmışdı. 1639-cu ildə Türkiyə ilə İran arasındakı sülh müqaviləsinə görə Ermənistanın qərbi Türkiyəyə, şərqi isə İrana verildi. Ağır siyasi-ictimai və milli-dini zülm erməni xalqını azadlıq uğrunda mübarizəyə qaldırdı.

...XVIII əsrin 20-ci illərində Ermənistanda İran zülmü əleyhinə başlanmış üsyan sonradan Zaqafqaziyaya hücum etmiş Türkiyə işğalçılarına qarşı çevrildi. Mübarizənin mərkəzi Sünik, əsas qüvvəsi silahlanmış xalq idi. Xalq qoşununda ermənilərlə yanaşı azərbaycanlılar da vuruşurdu... Hindistandakı erməni koloniyalarının bəzi nümayəndələri də milli-azadlıq hərəkatı ideyasını müdafiə edirdilər.

1813-cü ildə Şimali Azərbaycan xanlıqları (Naxçıvan xanlığından başqa), Türkmənçay sülh müqaviləsinə (1828) əsasən Naxçıvan və Erivan xanlıqları Rusiyaya birləşdirildi. Ermənistanın Rusiyaya birləşdirilməsinin mütərəqqi əhəmiyyəti oldu.

... 1862-ci ildə Kilikiyada Osmanlı zülmünə qarşı kəndli üsyanı baş verdi. Rusiya-Türkiyə müharibəsi (1877-78) dövründə milli-azadlıq hərəkatı canlandı. Zaqafqaziya erməniləri rus ordusuna kömək edir, süvari polkları və drujinaları yaradır, arabalar və ərzaq verirdilər.

...1895-96-cı illərdə sultan hökuməti ermənilərin kütləvi qırğınını təşkil etdi. Bu, dünyanın qabaqcıl adamlarının hiddət və etirazına səbəb oldu.

Kapitalizmin inkişafı ilə Ermənistanda və Zaqafqaziyanın başqa rayonlarında ermənilərin iqtisadi və mədəni mərkəzləri yaranmağa başladı... Birinci dünya müharibəsi (1914-18) zamanı Osmanlı hökuməti yerli hakimiyyət orqanlarına ermənilərin kütləvi surətdə qırılması (genosid) haqqında göstəriş vermişdi. 1915-16-cı illərdə 1,5 milyondan artıq erməni məhv edildi; 600 mindən çox erməni Mesopotamiya səhralarına qovuldu; bunların çoxu həbs düşərgələrində öldü. 300 min erməni Rusiyada sığınacaq tapdı. Qaçqın ermənilərin bir hissəsi isə Yaxın Şərq, Avropa və Amerika ölkələrində məskən saldı».

**Mir Cəfər Bağırov iş başında olsaydı, qədim Azərbaycan tarixini Ermənistan ərazisinə köçürənlərin, ASE-də erməni genosidini təsdiqləyənlərin cəzasın: verərdi. Yaxşı da edərdi!**

* * *

1989-1990-cı illərdə Məhəmməd Əmin Rəsulzadənin ilk tədqiqatçılarından olan mərhum alimimiz Möhsüm Əliyevin məqalələri işıq üzü gördü. 1990-cı ildə «Elm» nəşriyyatı M.Ə.Rəsulzadənin «Azərbaycan cümhuriyyəti» kitabını ilk dəfə Bakıda nəşr etdi. Bir il sonra «Gənclik» nəşriyyatı böyük öndərin «Əsrimizin Siyavuşu», «Çağdaş Azərbaycan ədəbiyyatı», «Çağdaş Azərbaycan tarixi» əsərlərini oxuculara çatdırdı. 1991-ci ildə Azərbaycan Dövlət Nəşriyyatı M.Ə.Rəsulzadənin Nizaminin anadan olmasının 800-cü ildönümü münasibətilə 1941-ci ildə yazmış olduğu «Azərbaycan şairi Nizami» kitabını on min tirajla buraxdı. Azərbaycan oxucuları Azərbaycanın, azərbaycanlıların və Azərbaycan dilinin həqiqi tarixi ilə bir daha tanış oldular.

M.Ə.Rəsulzadənin 1923-cü ildə Türkiyədə Atatürk mükafatına layiq görülmüş «Azərbaycan cümhuriyyəti» kitabında oxuyuruq: «Azəri türklərinin hal-hazırda yaşadıqları yerlər min illər qədim türk xəlqi ilə məskun idi. Gərək Bakı, Gəncə, Şamaxı, İrəvan ilə Təbriz, Marağa, Ərdəbil və s. kimi vilayətlər və gərək Muğan, Aran, Qarabağ və Qaradağ kimi məmləkətlər daima türk elinin oturağı və türk xanlarının ovlağı olmuşdur».

M.Ə.Rəsulzadə «azərbaycanlılar» məfhumunun da ensiklopedik açmasını vermişdir: «Azərbaycanlılar milliyyət etibarilə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər».

«Azərbaycan şairi Nizami» əsərinin üçüncü fəsli «Şərq islam mədəniyyətində Azərbaycanın rolu» adlanır. Müəllif yazır: «Türk olmaları etibarilə azərbaycanlıların islam mədəniyyətinə xidmət etmiş türklər arasında yerləri olduğu kimi, bir Şərq islam məmləkəti olmaq üzrə də, Azərbaycanın bu işdə mühüm rolu vardır».

Mir Cəfər Bağırovun imzası ilə 1949-cu ildə BSE-yə təqdim olunmuş «Azərbaycan tarixinə dair xronologiya», Rəsul Rzanın rəhbərliyi ilə 1970-ci ildə nəşr olunmuş ASE-dəki xronologiya və M.Ə.Rəsulzadə əsərlərindəki mənbələr arasında pozulmaz rabitə vardır. Təkcə «Azərbaycan şairi Nizami» əsərində adları çəkilən bəzi şəxsiyyətlərə diqqət yetirin:

Xətib Təbrizi - Hicrətdən sonra 421-ci ildə (miladi X əsr) anadan olmuşdur. Adi Yəhya oğlu Əlidir (Əli ibn Yəhya). Məşhur filosof Əbül-Üla Məərrinin şagirdidir.

Mərzban oğlu Əbül-Həsən Bəhmənyar - X əsrdə yaşamışdır. Hicri 458-ci ildə, ustadı Əbu Əli Sinadan 30 il sonra vəfat etmişdir. Əsərləri Avropa dillərinə çevrilmişdir. Fəridəddin Şirvani - Hicri VI əsrin münəccimlərindəndir. Astronornik təqvimləri ilə məşhurdur.

Əbdürrəşid Bakuyi - məşhur coğrafiyaçı alim. Əsərləri Avropada yayılmışdır.

Əbdülqadir Marağayi - Hicri VII yüzillikdə yaşamış musiqişünas.

Şükrüllah Şirvani - Hicri IX əsrin tanınmış təbiblərindəndir. Təfsir və hədis elmlərinə aid əsərləri də vardır.

Nizaməddin Şam-Qazani - Təbrizin Şam-Qazan məhəlləsindəndir. Türküstan fatehi Əmir Teymurun tarixini yazmışdır.

Mömünə xatın - Azərbaycan Atabəyləri sülaləsinin banisi Eldənizin (Eldəgəz) arvadı və Məhəmməd Cahan Pəhləvanın anası. Mömünə xatın türbəsi 1172-1185-ci illərdə tikilmişdir.

Şah Fəzlullah Nəimi - Sufilərin tanınmış şəxsiyyətlərindən, hürufi təriqətinin məşhur banisi. Təbrizdə doğulmuş bu şeyx məşhur əsəri «Cavidannamə»ni 796-cı ildə Şirvan həbsxanasında ikən yazmışdır. Üləmanın fitvası əsasında Miranşahın əmri ilə Naxçıvanda öldürülmüşdür.

Əhməd İbn Məhəmməd Təbrizi - XIV əsrdə yaşamış Azərbaycan şairi. Əbu Səid Bahadur xanın adına yazdığı «Şahənşahnamə» mənzuməsi Yafəsdən başlayaraq ta Əbu Səid xana qədər baş vermiş dünya hadisələrini əhatə edir. Əsərin tam nüsxəsi Britaniya muzeyindədir.

Saib Təbrizi - XVII əsr Azərbaycan şairi. Osmanlı sarayının istəyilə, Səfəvilər Saibin əsərlərini İsfahandan İstambula hədiyyə göndərdilər.

...Bu siyahıya xalqımız 20-ci yüzillikdə dünya ensiklopediyasına düşəcək bir işıqlı simanı da əlavə etmişdir: Məhəmməd Əmin Rəsulzadə - Azərbaycan milli qurtuluş hərəkatının böyük ideoloqu, mütəfəkkir və publisist, yazıçı və mühərrir, mütərcim və ədəbiyyatşünas, bütün Şərqdə və islam aləmində ilk demokratik, çoxpartiyalı parlamentli cümhuriyyətin banisi, dünya azərbaycanlılarının siyasi öndəri.

1994-cü il yanvarın 31-də M.Ə.Rəsulzadənin anadan olmasının 110 illiyi Azərbaycan prezidentinin fərmanı ilə qeyd edildi, yubiley komissiyası Azərbaycan Demokratik Respublikasının yaradıcısının irsinin öyrənilməsi ilə bağlı tədbirlər planı təsdiq etdi. Həqiqətdə nə baş verdi? Əvəzsiz bir şəxsiyyətin ünvanına qaralar yaxıldı...

2000-ci ilin oktyabr ayında Azərbaycanda yeni ictimai-siyasi jurnalın ilk sayı çıxdı. İctimai-siyasi jurnal baş redaktorun «Həqiqətin rəngi» sərlövhəli yazısı ilə başlanır. Burada oxuyuruq: ««Prezident komandası» ifadəsi də düzgün təhlil olunmur. Prezidentin bir komandası var - o da xalqdır. Prezidentin bir amalı var - o da xalqdır. Prezidentin bir varisi var - o da xalqdır. (səh.4)»

Bəs prezidentin varisi olan xalqın düşmənləri kimlərdir? Onlardan ikisinin adı jurnalın 24-cü səhifəsində çəkilir:

Azərbaycan Demokratik Respublikasının banisi M.Ə.Rəsulzadə və Mir Cəfər Bağırov. Jurnalda oxuyuruq: «Lenin xalqların öz müqəddəratını həll etmək hüququnu elan edəndə niyə biz müstəqil olmaq əvəzinə Zaqafqaziya Federasiyasında

birləşdik? Məlumdur ki, Zaqafqaziya Federasiyasına əsasən gürcülər rəhbərlik etsələr də, onun qorunub saxlanması üçün hamıdan çox azərbaycanlılar canfəşanlıq edirdilər. Gürcülər, sonra isə ermənilər federasiyadan çıxaraq öz müstəqilliklərini elan edəndə biz faktiki olaraq azadlığımızı rəsmiləşdirməli olduq. İki il sonra isə Gürcüstan və Ermənistan öz azadlığı uğrunda ölüm-dirim savaşına qalxarkən, Azərbaycan, parlamentin xüsusi aktı ilə bolşeviklərə təslim oldu.

Burada bir qanunauyğunluq da var: özümüzdən çox türklərin və ingilislərin ağalıq etdiyi dövlətin sonu məhz belə də olmalı idi.

Təəccüblü görünən bir də odur ki, nəyə görə ADR-in tarixi yalnız bir görkəmli siyasi xadimin, faktiki olaraq o zaman dövlətdə heç bir vəzifə tutmayan, yalnız parlamentin ən böyük fraksiyasına rəhbərlik etmiş M.Ə.Rəsulzadənin yazdıqlarına istinad edilərək öyrənilir? Heç cür başa düşmək olmur ki, axı niyə məhz M.Ə.Rəsulzadə ADR-in lideri və qurucusu hesab edilir?

Fətəli xan Xoyski, ADR-in idarə olunmasında yalnız parlament çıxışları ilə kifayətlənməyib real iş görərək məsuliyyət altına girən başqa xadimlər bolşeviklərin repressiyalarına məruz qaldıqları halda M.Ə.Rəsulzadə bir müddət Moskvada çalışmış, sonra isə asanlıqla mühacirət etmişdir. Mühacirətdə onu repressiyadan qorumuş Stalinin əleyhinə elə böyük fəaliyyətə başlamışdır ki, hətta Adolf Hitlerlə də əlbir olmuşdur. Görəsən, amansız və «yaxşılığa yamanlıq» prinsipini özünə rəhbər tutmuş Stalin hansı ağılla M.Ə.Rəsulzadəni ölkədən buraxmışdı? Belə çıxır ki, ya onun ADR-də rolu həqiqətən də az olmuşdur, ya da bizə məlum olmayan başqa səbəblər var. Məsələn, məlumdur ki, L.Beriya və M.Bağırov kimi ADR-ə xidmət etmiş şəxslər sonralar Stalinin ölümünə qədər onun ətrafında olmuşlar».

Stalinin «hansı ağılla ölkədən buraxdığı» M.Ə.Rəsulzadə «Hitlerlə əlbir olduqdan» sonra 1941-ci il avqustun 10-da Buxarestdə yazırdı: «Gəncənin yaxınlığında yıxılıb-tökülmüş bir məzar vardı. Bu məzar uşaq arzulayan qısır qadınların uşaq dilədikləri bir «Şeyx»ə məxsusdur. Bu «kəramətli türbə»nin bütün Şərqin olduğu qədər Azərbaycanın da başını ucaldan böyük bir şairin əbədi yatağı olduğunu bilənlərin sayı azdı...

Milli oyanış dövrünə daxil olan yeni Azərbaycan da Nizamini layiqincə mənimsəmək üçün yetişməmiş və farsca yazmış olduğunu nəzərə alaraq, onun haqqında düşünməyi milli vəzifələrdən xaric, sonrakı işlərdən saymışdır.

Bununla bərabər, obyektiv olaraq, onu da qeyd etmək lazımdır ki, Nizami düşünən azərbaycanlılar tərəfindən büsbütün unudulmamışdır: məsələn, 1910-cu ildə Gəncə Dram cəmiyyəti dahi həmyerlisini yada salıb onun xaraba türbəsini təmir etmək üçün kitabça çap edərək könüllü surətdə vəsait toplamaq təşəbbüsündə olmuşdur...

Milli istiqlal dövründə də Nizami haqqında düşünüldüyünü, müasir formada bir heykəl layihəsinin mövcud olması haqda Azərbaycan hökumətinin

sabiq xarici işlər nazirinin müavini Adil-xan Ziyadxanın 1932-ci il Tehranda çap olunmuş bir xatirəsindən xəbər tuturuq...

Azərbaycanın bu böyük oğluna can və ürəkdən bağlanmaq, ona aid maddi və mənəvi xatirələri vətən və milləti birləşdirən bir müqəddəsat kimi mənimsəmək, əsərlərini diqqət və ehtiram ilə öyrənmək, yaratdığı ədəbi tablo və timsalları müasir sənətin texnikası vasitəsi ilə yenidən canlandırmaq, möcüzəli sənətindəki bütün incəliklərin zövqünə varmaq, yüksək ruhundakı böyüklük və dərinliyin həqiqi ölçülərini bilməyə çalışmaq, varlığın sirlərini araşdıran hikmət və fəlsəfəsini qavramaq, bir sözlə: «Öz zamanında anlaşılmamağından şikayət etdiyi «türkcə»sini anlamaq - budur vətənpərvər Azərbaycan ziyalılarının və xalqını sevən bütün türklərin vəzifəsi».

Bu tarixi vəzifənin Azərbaycanda tamamilə həyata keçirilməsinə «ADR-ə xidmət etmiş» Mir Cəfər Bağırov başçılıq etmişdir. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivindəki 1939-1947-ci illəri əhatə edən qovluqlarda bu barədə kifayət qədər material və sənəd saxlanılır.

M.Ə.Rəsulzadənin «Azərbaycan şairi Nizami» kitabında adı çəkilən nizamişünas alim Yevgeni Bertels yazırdı: «Nizami yüz min misradan artıq şeir yazmışdır. Ömrünün hər gününə 10 misra düşür.» Hələ 1940-cı ildə SSRİ Elmlər Akademiyasının Azərbaycan Filialının Nizami adına Dil və Ədəbiyyat institutu Filialının Rəyasət Heyətinin qərarı ilə məşhur şərqşünasın «Böyük Azərbaycan şairi Nizami» (epoxası, həyatı, yaradıcılığı) kitabı nəşr edilmişdi. Əsəri rus dilindən Z.Abdullayev tərcümə etmişdi, redaktoru Məmməd Arif Dadaşzadə idi.

Bir ildən sonra Azərbaycan rəhbərliyinin xahişi ilə Nizaminin seçilmiş əsərlərinin bircildliyini Dövlət Bədii Ədəbiyyat Nəşriyyatı öz planına daxil etmişdir. Professor Y.Bertels əsərə geniş giriş yazmışdır. Kitab nəşr olunmamışdan qabaq alimin ön sözü Azərbaycan K(b)P MK katibi M.C.Bağırov yoldaşa göndərilmişdir. 1941-ci il mayın 19-da Moskvaya aşağıdakı məzmunda məktub yola salınmışdır:

**Dövlət Bədii Ədəbiyyat Nəşriyyatının direktoru Çagin yoldaşa**

Mir Cəfər Bağırov yoldaşın tapşırığı ilə professor Bertelsin bircildliyinə yazdığı ön sözlə tanış olduq. Bunu qeyd etməyi zəruri hesab edirik ki, professor Bertelsin «Böyük Azərbaycan şairi Nizami» əsəri Nizami yaradıcılığının öyrənilməsi və geniş təbliğ olunması sahəsində müəllifin böyük əməyinin nəticəsidir və yüksək maraq doğurur.

Dövlət Bədii Ədəbiyyat Nəşriyyatında hazırlanan Nizami əsərlərinin bircildliyinə professor Bertelsin yazdığı giriş məqaləsi isə mühüm siyasi və mədəni əhəmiyyət kəsb edir. Buna görə də biz müəllifin və nəşriyyatın diqqətini aşağıda göstərilənlərə cəlb etmək istəyirik:

1.Giriş məqaləsində XII əsrdə tərəqqi etmiş zəngin Azərbaycan mədəniyyəti barədə qısaca, eyni zamanda aydın təsəvvür yaradılması vacibdir. Çünki Nizaminin böyük və zəngin dühası bu zəmində mövcud olmuşdur.

Azərbaycan incəsənətinin, musiqisinin, rəssamlığının yüksək səviyyəsindən söhbət açılmalıdır. Zira Nizami əsərlərində bunlar öz əksini tapmışdır. Xüsusilə boyük şairi əhatə edən ədəbi mühitə, dahi alim və söz ustalarına diqqət yetirilməlidir. Çünki Azərbaycan mədəniyyəti və ədəbiyyatının «qızıl əsri» onların sayəsində baş vermişdir. Bu, bütün məqalənin başlıca xətti olmalıdır və yalnız bu tərzdə Nizaminin bütün orta əsrlər Azərbaycan mədəniyyətində əhəmiyyətli rolu qavranıla bilər.

2.Nizaminin adı Azərbaycan intibahı ilə sıx bağlıdır. Bu intibah o zamankı Azərbaycanda dövlətlərin sayının ümumi artımı ilə, xüsusilə səlcuq hökmranlığının dağılmasından sonra bu dövlətlərin siyasi, iqtisadi və mədəni gücünün yüksəlməsi ilə izah olunmalıdır.

XI və XII əsrlərdə baş verən siyasi hadisələr müəllif tərəfindən yalnız bu planda işıqlandırılmalıdır.

3.O dövrün ədəbi mühiti bütün rəngarəngliyilə göstərilməlidir. Unudulmamalıdır ki, hətta Şirvanşahlar sarayında yaranan ədəbiyyat belə şahları tərifləyən qəsidələrlə məhdudlaşmır. Adı çəkilən «qəsidəçi Xaqani» zəmanəsinin ən mütərəqqi şəxsiyyətlərindən biri olmuşdur, fəlsəfi məna daşıyan rübailərində zorakılığa və feodal özbaşınalığına etiraz səsini qaldırmışdır.

Bunu da qeyd etməyi lazım bilirik ki, Azərbaycan ədəbiyyatının bir çox istedadlı nümayəndələri tarixi şəraitlə əlaqədar sarayla bağlı olsalar da, yüksək bədii sənət nümunələri yaratmışlar.

4.Nizami əsərlərini təhlil edərkən, şairin yaradıcılığının ideya-bədii keyfiyyətləri qabarıq göstərilməli və bu mənada onun dünya ədəbiyyatına gətirmiş olduğu yeniliklərdən bəhs edilməlidir.

5.Müəllif belə bir yanlış fikir söyləyir ki, Nizami indiyədək dünya mədəniyyəti tarixinə daxil olmamışdır. Məqaləsində isə Nizaminin dünya ədəbiyyatına təsirindən danışır, başqa sözlə, dediklərinin əksinə çıxır. Nizaminin və bütünlükdə XII əsr Azərbaycan mədəniyyətinin (ümumiyyətlə Şərq mədəniyyətinin yox) dünya ədəbiyyatına təsiri geniş verilməlidir.

6.Nizaminin mütərəqqi dünyabaxışı özünü fəlsəfi və sosial ideyaları zəngin olan «Sirlər xəzinəsi» və digər möhtəşəm əsərlərində bariz bir şəkildə göstərir. Müəllifin «şair bir ayağı qəbirdə ikən hakimlərin qəzəbindən qorxmamışdır» ifadəsi ömrü boyu qaniçən zalımlara və sosial ədalətsizliyə qarşı olan böyük mübarizin obrazına ziddir.

7.Müəllifin «Nizami poemalarının çətin anlaşıqlı» ifadəsi də düzgün deyildir. Əgər belə olsaydı, Azərbaycan xalqı Nizami yaradıcılığını bu qədər dərindən dərk edə bilməzdi, Azərbaycanın şifahi və yazılı ədəbiyyatına müstəsna təsir göstərmiş müdrik poeziya xalqın hafizəsində qorunub- saxlanılmazdı.

8.Məqalədə bir sıra təhriflərə də yol verilmişdir. Məsələn, oğuzlar Azərbaycana XI əsrin ikinci yox, birinci yarısında gəlmişlər. «İran səlcuqları» istilahı (səh.2) yanlışdır. «Akta» əvəzinə «ikta», «Belyakon» əvəzinə «Beylakan»,

«Qyance» əvəzinə «Qyanca» yazılmalıdır. «Təxəllüs» sözü təkcə Nizami dövründə deyil, elə indinin özündə də Azərbaycanda işlədilir.

9.Məqalədəki (səh.11) «Leyli və Məcnun» mövzusu «Nizamini cəlb etməmişdir» fikrilə razılaşmaq olmaz. Əslində Nizami bu poemanı coşğun ilhamla və qısa bir müddətdə yazmışdır. Buna görə də «Leyli və Məcnun» kimi ecazkar sənət nümunəsini «Şirvanşahın sifarişinin yerinə yetirilməsi» kimi qiymətləndirmək yolverilməzdir.

Müəllifin «Sirlər xəzinəsi»ndə «bədii obrazlar cüzi yer tutur» ifadəsi əsərin dəyərinə xələl gətirir. «İlk poemanın quru nəsihətləri» (səh.14) ifadəsi də bu qəbildəndir.

Məqalədə «İsgəndərnamə»nin didaktik əsər adlandırılması düzgün deyildir.

Makedoniyalı İsgəndər məqalədə göstərildiyi kimi III əsrdə deyil, IV əsrdə yaşamışdır.

«Yaxın Şərqin bütün ədəbiyyatının «mücərrəd» olması» (səh.13) tamamilə yanlışdır və məqalədən çıxarılmalıdır.

10.Məqalənin son bölməsi ciddi surətdə yenidən işlənməli və ixtisar aparılmalıdır. Məsələn, məqalədə deyilir ki, «bu bir cildlikdən sonra Nizami rus oxucusunun qəlbinə yol tapacaqdır». Təvazödən uzaq olan bu cümlə indiyədək Nizami irsinin öyrənilməsi sahəsində Sovet İttifaqında aparılan nəhəng işi nəzərə almamaq deməkdir.

11.«Yaxşı olardı ki, məqalə daha canlı və ifadəli şəkildə yazılsın.»

* * *

Qədim Gəncə şəhəri Mir Cəfər Bağırova Quba və Bakı kimi, Təbriz və Marağa kimi doğma idi. 1939-cu ildə şəhərin baş planının tərtib edilməsi və bu plan əsasında Nizami diyarının yenidən qurulması Azərbaycan rəhbərinin ürəyindən xəbər verirdi.

«Şeyx Nizami» - Mir Cəfər Bağırovun Qubada ruhani məktəbində təhsil aldığı uşaqlıq illərindən hafizəsində həkk olunmuş müqəddəs ad idi.

Firudin bəy Köçərlinin ərəb əlifbası ilə 1925-1926-cı illərdə Bakıda buraxılmış ikicildliyi isə onun şəxsi kitabxanasında saxlanılırdı.

Məşhur alim və pedaqoqun Azərbaycan ədəbiyyatı tarixinə aid materiallarını Mir Cəfər Bağırov bir daha nəzərdən keçirir, Nizamiyə aid səhifələri təkrar-təkrar oxuyurdu; «Qəbri şəhərin təxminən 4 verstliyində - şimal-şərqi səmtindədir.

Məqbərəsi ziyarətgahdır. Mövləvilər artıq şövq ilə onun qəbrini ziyarət edirlər. Nizaminin məqbərəsi vaqe olan səhra «Şeyx düzü» adı ilə Gəncə xalqının arasında məşhurdur».

Bakıda Nizamiyə həsr olunmuş əsərlərin ilk oxucusu və Moskvada Nizamidən bəhs edən ilk kitabların mətbəəyə göndərilməmişdən qabaq «baş

redaktoru» olan Mir Cəfər Bağırov özü-özünə sual verirdi: «Nizamini Azərbaycan xalqının böyük şairi kimi dünyaya tanıtdıqdan sonra nədən başlamalıyıq». Sualına özü də cavab verirdi: «İlk növbədə «Şeyx Nizami»nin türbəsindəkinin Nizami Gəncəvi olduğunu sübut etməliyik, tarixçi alimlərin, məşhur arxeoloqların iştirakı ilə.

Yaxın zamanda Gəncədə və Bakının mərkəzində əzəmətli abidəsini ucaltmalıyıq...

İkinci dünya müharibəsi quruculuq işlərini yarımçıq qoydu. Amansız savaşın mənəviyyat cəbhəsində böyük Nizaminin əsərləri də döyüşə atıldı...

Mir Cəfər Bağırov müharibə illərində Azərbaycan xalqının yenilməz sərkərdəsi oldu. Onun komandanlığı ilə sənət ordusunun cəngavərləri Nizamini başları üzərində bayrağa çevirdilər. Bu ehtişamın himnini yenə də böyük Üzeyirbəy yazdı. Bəstəkarın 1941-ci ildə Nizami Gəncəvinin anadan olmasının 800 illiyinə həsr etdiyi «Sənsiz» və 1943-cü ildə bəstələdiyi «Sevgili canan» romansları Bülbülün ifasında ürəkləri fəth etdi. 1941-ci ildə Mehdi Hüseynin «Nizami» pyesi səhnəyə qoyuldu.

Nizaminin «İsgəndərnamə» poeması Abdulla Şaiq tərəfindən tərcümə olundu. 1942-ci ildə Səməd Vurğunun tərcüməsində «Leyli və Məcnun», sonrakı illərdə Süleyman Rüstəmin tərcüməsində «Sirlər xəzinəsi», Məmməd Rahimin tərcüməsində «Yeddi gözəl» və Rəsul Rzanın tərcüməsində «Xosrov və Şirin» Azərbaycan oxucularına çatdırıldı. M.S.Ordubadinin «Qılınc və qələm» romanı Nizami dövrünün bədii salnaməsinə çevrildi.

Mikayıl Rəfilinin 1939-cu ildə Azərbaycan və rus dillərində nəşr olunmuş «Nizami, həyatı və yaradıcılığı», 1940-cı ildə Həmid Araslının «Şairin həyatı» kitabları və başqa əsərlər sonralar da təkrar nəşr edilmişdir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və Hərəkatlar Mərkəzi Dövlət Arxivində müharibədən sonra - 1946-47-ci illərdə respublika səviyyəsində keçirilmiş bütün siyasi-kütləvi tədbirlər barədə məlumatlar, hesabatlar saxlanılır. Maraqlıdır ki, gündəlikləri Mir Cəfər Bağırov tərəfindən təsdiq olunmuş bu yığıncaq və müşavirələrin bir maddəsini Nizami Gəncəvinin anadan olmasının 800 illiyi məsələsi tutur. 1947-ci ilin avqustunda Bakıda rayon qəzetləri redaktorlarının ümumrespublika müşavirəsi keçirilmişdi. Həmin müşavirədə professor Mikayıl Rəfili Nizaminin 800 illik yubileyi ilə əlaqədar geniş məruzə etmiş, suallara cavab vermişdi. Arxivin həmin dövrə aid başqa fondunda 1946-cı ilin aprelində Mir Cəfər Bağırovun adına Nizami məkanından göndərilmiş dəvətnamənin əsli ilə tanış oluruq:

Hörmətli yoldaş Bağırov M.C.

Kirovabad şəhər Soveti İcraiyyə Komitəsi və Azərbaycan K(b)P Şəhər Komitəsi sizi 1946-cı il aprelin 25-də gündüz saat 5-də Kirovabad şəhərində Azərbaycanın böyük şairi Nizami Gəncəvinin heykəlinin təntənəli açılışına dəvət edir.

Şəhər Soveti İcraiyyə Komitəsi
Azərbaycan K(b)P Şəhər Komitəsi»

1949-cu ildə nəşr olunmuş Böyük Sovet Ensiklopediyasının birinci cildində Nizaminin Bakıdakı əzəmətli heykəlinin də surəti verilmişdir. 1947-ci ilin iyun ayında çıxmış qəzet və jurnal səhifələrində Nizaminin anadan olmasının 800 illiyinin bayram edilməsi və respublikanın paytaxtında abidəsinin qoyulması münasibəti ilə çoxlu materiallara rast gəlmək olar. «Ədəbiyyat qəzeti»nin 1947-ci il 12 iyun tarixli sayının birinci səhifəsində «Nizami Gəncəviyə abidə qoyulması» sərlövhəli geniş həcmli yazıda deyilir: «İyunun 6-da Nizami ev-muzeyi qarşısındakı meydana Bakı zəhmətkeşləri dəstə-dəstə axışıb gəlməkdə idilər. Bunlar Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəviyə abidə qoyulması münasibəti ilə keçiriləcək mitinqə toplaşıblar. Adlı-sanlı neftçilər və ağsaçlı alimlər, söz ustaları, şair və yazıçılar, incəsənət işçiləri, ali məktəblərin tələbəsi olan gənc oğlan və qızlar, Sovet Ordusunun zabitləri, partiya və sovet işçiləri bu əlamətdar hadisədə iştirak etmək üçün buraya gəlmişdilər. Moskva, Leninqrad, Ermənistan, Özbəkistan, Türkmənistan, Litva və Latviya, həmçinin Dağıstandan gələn qonaqlar da mitinqdə iştirak edənlər içərisində idilər.

Mitinqi yubiley komitəsinin sədri, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini Mirzə İbrahimov yoldaş açaraq dedi:

- Bu gün biz Azərbaycanın böyük şairi Nizami Gəncəvi abidəsinin bünövrəsini qoyuruq... Azərbaycan xalqının milli iftixarı olan və bütün dünya xalqlarının ölməz şair və mütəfəkkirləri içərisində şərəfli yer tutan Nizamini bütün Sovet adamları sevir...

Bir neçə aydan sonra burada qranit təməl üzərində şairin əzəmət və ölməzliyi simvolu olan tunc heykəli qoyulacaqdır. Bu abidə eyni zamanda vətənimizdəki xalqların şəkilcə milli və məzmunca sosialist mədəniyyətini misilsiz yüksəkliklərə qaldıran sosializm dövrünün əzəmətini ifadə edəcəkdir».

Mitinqdə ziyalılar adından Səməd Vurğun çıxış etmiş, Nizamiyə həsr etdiyi şeirini oxumuşdur.

Mitinq başa çatandan sonra abidənin qoyulması barədə fərmanın imzalanması mərasimi olmuşdur. Qəzetdə oxuyuruq: «Fərmanı Azərbaycan K(b)P MK və BK katibi M.C.Bağırov yoldaş, Azərbaycan SSR Nazirlər Sovetinin sədri T.Quliyev yoldaş, Azərbaycan K(b)P MK katibləri H.Seyidov və H.Həsənov yoldaşlar, Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavinləri M.İbrahimov və İ.İslamzadə yoldaşlar, Azərbaycan SSR Elmlər Akademiyasının prezidenti M.Ə.Mirqasımov, Azərbaycan SSR daxili işlər naziri T.Yaqubov, şair Səməd Vurğun, bəstəkar Üzeyir Hacıbəyov, Sosialist Əməyi Qəhrəmanı, buruq ustası Rüstəm Rüstəmov, Stalin mükafatı laureatı, Respublikanın xalq artisti M.Ə.Əliyev, SSRİ Ali Sovetinin deputatı Çimnaz Aslanova, memar M.Hüseynov, professor A.İ.Xurdino, şair E.Dambursk, Ə.Kəkilov, Z.Əfəndiyev, A.Baldırov və başqaları imzalamışlar.

Sonra fərman böyük şüşə içərisinə qoyulub ağzı bərk bağlandı və bu şüşə abidənin bünövrəsi olan 5 metr dərinlikdə məxsusi qazılmış balaca taxçaya qoyulub hörüldü. M.İbrahimov, T.Qasımov, M.Hüseynov və V.İvanov yoldaşlar həmin taxçanı lay daşla örtdülər. Bu lay daşın üstündə aşağıdakı sözlər yazılmışdı:

«Azərbaycanın böyük şairi Nizami Gəncəvinin 800 illiyi münasibətilə qoyulmuşdur. 6.VI.1947-ci il. Bakı».

ASE-nin 1983-cü ildə nəşr olunmuş yeddinci cildində Nizami Gəncəviyə həsr olunmuş məqalədə (səh. 244-250) bu lay daşı yada düşmür. Çünki daşın altındakı taxçadakı şüşədə Mir Cəfər Bağırovun adı vardır. Ensikiopediyamızda Nizaminin yubiley yaşı 840 illiyindən başlanır. Başqa sözlə, nəhəng bir ağacın torpaq altındakı rişələri unudulur, şahanə vücudu görməməzliyə qoyulur, budaqları şişirdilir.

Bu «şişirdilən budaqlardan» birisi barədə (səh.244) oxuyuruq: «Ana dilindən başqa ərəb və fars dillərini də bilən şairin yunan və erməni dilləri ilə tanış olduğu...əsərlərindən aydın olur».

Əhsən 1983-cü il ensiklopediyaçısının novatorluğuna! Elmi yeniliyə bax - XII əsrdə erməni dili yunan dili kimi məşhuri-cahan imiş!.. On ikinci əsrdə ermənilərin yaşamadıqları Gəncədə və ömrü boyu Gəncədən kənara çıxmayan Nizamidə erməni dilinə həvəs necə yarana bilərdi?

Mir Cəfər Bağırov vaxtında Bakıda və Moskvada nəşr olunmuş kitabların heç birində - nə Nizami əsərlərinin elmi-tənqidi mətnində, nə Heydər Hüseynovun, Həmid Araslının, Mikayıl Rəfilinin və başqa görkəmli alimlərin kitablarında Nizaminin «erməni dili ilə tanışlığı» barədə yazılmamışdır.

Nizami əsərlərini orijinaldan oxumuş Məhəmməd Əmin Rəsulzadə «Azərbaycan şairi Nizami» kitabında (səh.37) böyük şairin və mütəfəkkirin bilik dünyası haqqında dürüst məlumat verir: «Şairin musiqi aləmində geniş biliyə malik olduğunu Barbədin Xosrov-Pərvizə çaldığı otuz mahnının ustalıqla hərəsini bir beytlə təsvir etdiyindən, ədəbiyyat sahəsində olan dərin məlumatını «Kəlilə və Dimnə»nin ustalıqla hərəsini bir beytlə təsvir etdiyindən, islam elmlərinin dərinliklərinə vardığını Quran, Hədis, peyğəmbərin tərcümeyi-halı və onun haqqındakı rəvayətlərindən bol-bol iqtibaslarından, astronomiya aləmində böyük mütəxəssis olduğunu isə Məcnunun ulduzlara öz vəziyyətini şərh etməyindən öyrənirik. Həkimliyin, təbabətin mahiyyətini şair izah edir.

Əsərlərinə yazdığı müqəddimələrdən çıxan nəticəyə görə, Nizami qədim dillərdən pəhləvi, nəsturi yəhudi dillərini də bilirmiş. O öz poemaları üçün topladığı materialları adi və geniş yayılmış sadə qaynaqlardan deyil, qeyd edilmiş qədim dillərdəki məxəzlərdən dəqiq araşdırmalar vasitəsilə əldə etdiyini bizə anlatmışdır.

Mir Cəfər Bağırovun vaxtında Nizaminin «Xosrov və Şirin» poemasında Şirinin guya erməni qızı olması kimi uydurmaya da rast gəlmək qeyri-mümkündür. Belələri, görünür, həmin poemada «Ərmən» sözünün işlədilməsinə əsaslanırlar.

Nizaminin «Ərmən»i coğrafi Ermənistan ərazisi deyildir və «Ərmən» deyilən yerdə indiki ermənilərin əcdadları yaşamamışlar.

Məhəmməd Əmin Rəsulzadə «Xosrov və Şirin» poemasından bəhs edərkən aşağıdakıları («Azərbaycan şairi Nizami», səh. 108) yazır: «Şapur şahzadənin yuxusuna girən gözəlin şahzadə Şirindən başqası olmayacağını söyləyir. Bu, Dərbənd dənizi ətrafındakı Gülüstanın bəri tərəfində hökmranlıq edən Şəmiraminin qardaşı qızı və vəliəhdidir».

M.Ə.Rəsulzadə göstərir ki, orta əsr mənbələrində «Gülüstan» Şirvan ilə Aran tərəflərə deyilirdi. Abbasqulu Ağa Bakıxanovun tarixi əsərinə verdiyi «Gülüstani-İrəm» adı da yəqin ki, bu ənənəvi təsirdən irəli gəlmişdir. Nizaminin «Məhinbanu» kimi tərcümə etdiyi bu Şəmirami Avropa ədəbiyyatında «Semiramis» kimi məşhurdur».

Bir sözlə, hər qədim xristian dili erməni dili deyildir. Hər xristian gözəli də erməni qızı! «Kür, Araz, Ararat»...böyük Azərbaycanın yalnız bir hissəsidir-Nizami diyarı!

* * *

Nizami Gəncəvinin yazıb-yaratdığı on ikinci əsr Azərbaycan mədəniyyətinin qızıl dövrü adlandırılır. Ölməz söz ustadının anadan olmasının 800 illiyinin keçirildiyi günlər Bakı həyatının qızıl payızı idi. Müharibədən sonra ilk dəfə idi ki, qədim şəhər misilsiz bayram əhvali-ruhiyyəsini yaşayırdı.

Yubiley tədbirlərinin əksəriyyəti Azərbaycan Elmlər Akademiyasında keçirilirdi. Tanınmış şərqşünas alimləri, şair və yazıçıları, ictimai xadimləri hər dəfə akademiyanın prezidenti Mirəsədulla Mirqasımov, Rəyasət Heyətinin üzvləri Heydər Hüseynov, Yusif Məmmədəliyev, Sadıq Dadaşov, Mirəli Qaşqay səmimiyyətlə qarşılayırdılar...

Yaxın-uzaq şəhərlərdən gələn müsafirləri ən çox heyrətləndirən Azərbaycan Elmlər Akademiyasının binası idi. Binanın tarixini Akademiyanın ilk prezidenti M.Mirqasımovdan yaxşı bilən çətin ki, tapılardı.

Qonaqlar ağ saçlı ev sahibinin söhbətinə maraqla qulaq asırdılar:

-Otuz doqquz, il əvvəl, 1908-ci ildə Bakının iki məhəlləsində tarixi hadisə baş vermişdir:

Tağıyev teatrında Üzeyirbəy Hacıbəyovun «Leyli və Məcnun» operasının ilk tamaşası olmuş və bir də içərisində çalışdığımız bu binanın təməl daşı qoyulmuşdur. Operaya aktyor dostum Mirzağa Əliyevlə birlikdə tamaşa etmişəm. Bu binanın, yəni «İsmailiyyə»nin bünövrəsinin qoyulması mərasimində bəstəkar dostum Üzeyirbəylə iştirak etmişəm.

Xoşbəxtliyə bax ki, qırx ilə yaxın vaxt keçəndən sonra, böyük Nizaminin abidəsinin altındakı taxçada qoyulmuş şüşədə hər üçümüzün imzası vardır. Mən də bütün Azərbaycan ziyalıları kimi həmişə hədsiz qürur keçirirəm ki, belə əzəmətli

binada işləyirik. Bunu da həmkarlarıma demək istəyirəm ki, «İsmailiyyə» alimlərimizin ixtiyarına Mir Cəfər Bağırov yoldaşın göstərişilə verilmişdir.

Yoldaş Bağırov ərəb əlifbasını bilir? - deyə türkmənistanlı şərqşünas soruşdu.

M.Mirqasımov dərhal cavab verdi:

-Buna şübhəniz olmasın.

-Şübhəmiz başqa məsələyədir: fasadda ən yuxarıda «Allahu əkbər» yazılmışdır.

Akademiyanın prezidenti bu dəfə cavabı sualla vermişdir:

-Bəs 1908-ci ildə necə yazılmalıydı?

Qonaqlar baxışları ilə M.Mirqasımovun fikrini təsdiqlədilər. O, sözünə davam etdi:

-«İsmailiyyə» - binanı tikdirmiş xeyriyyəçinin oğlu İsmayılın adından yaranmışdır. Fasaddakı nəqşləri məşhur xəttatımız Mirzə Əsədulla hazırlamışdır. Son vaxtlarda texnikumda xəttatlıqdan dərs deyirdi. Üç il olar ki, vəfat etmişdir. Altmış il ömür sürmüş sənətkarın kitabələri Bakının neçə-neçə binasının yaraşığıdır. Akademiyamızın ön hissəsindəki yuxarı haşiyələrdə iri qızılı hərflərlə həkk olunmuş nəqşlər də böyük xəttatın yadigarıdır.

* * *

Nizaminin 800 illik yubileyinin bayram tədbirlərindən əvvəl Azərbaycan Elmlər Akademiyası binasının əsaslı təmir planında prezident Mir Əsədulla Mirqasımov bir düzəliş etmişdi: xəttat Mirzə Əsədullanın nəqşlərinə toxunulmasın! Mir Cəfər Bağırov bu məsələdə prezidentlə həmrəyliyini bildirmişdi: «Yaxşı eləmisən, fasadda Elmlər Akademiyasının vəzifələri həkk olunmuşdur. Qızıl kimi kəlamlardır. Onları qoparmaq olmaz».

Əfsuslar ki, qızıl suyuna çəkilmiş qızıl kimi sözlərin yerində sonralar beşguşəli qırmızı ulduzlar «parladı».

İndi də parlamaqdadır.

* * *

Mir Cəfər Bağırova «ateist» damğası vuranlar unudurlar ki, Azərbaycanda neçə-neçə tanınmış din xadimini sovet rejiminin sərt qanunlarının hökm sürdüyü bir şəraitdə xilas edən də odur. Bunu, da unudurlar ki, Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin yaradılması haqqındakı qərarı M.C.Bağırov imzalamışdır. 1944-cü ildə Novruz bayramı ərəfəsində bütün azərbaycanlıların ürəyindən xəbər verən həmin sənəd Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılır. Tanış olun:

«PROTOKOL №-352

Azərbaycan K(b)P MK Bürosunun 1944-cü il 17-20 mart tarixli qərarı

1.Bakı şəhərində Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin yaradılması barədə

1.ÜİK(b)P Mərkəzi Komitəsinin 6.III.44-cü il tarixli qərarına müvafiq olaraq Bakı şəhərində şiələri və sünniləri birləşdirən Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsi yaradılsın.

2.Zaqafqaziya Müsəlmanları Ruhani İdarəsinin təşkili və fəaliyyəti ilə əlaqədar bütün məsələlərə baxılıb həll olunması T.Quliyev, T.Yaqubov, S.Yemelyanov və Q.Məmmədov yoldaşlara tapsırılsın.

Azərbaycan K(b)P MK katibi M.C.Bağırov.»

## İdarənin sədri kim olacaq?

Mir Cəfər Bağırovun yanında bir neçə din xadiminin adı çəkilmişdir. Azərbaycan rəhbəri Mir Mövsüm Ağadan sonra ən çox hörmət etdiyi bir şəxsiyyətin namizədliyini bəyənmişdir. Yanındakılardan birisinin: «Axı o, Müsavat dövründə Şeyxülislamdı» sözlərinə qəti cavab vermişdir:

-Əlizadə bütün millətə xidmət etmişdir, başlıcası budur!

Bir neçə gün keçmiş, Təzə Pir məscidində Azərbaycan, Gürcüstan və Ermənistan müsəlman ruhanilərinin birinci qurultayında nümayəndələr, qonaqlar ilk Şeyxülislamı səmimiyyətlə təbrik etdilər. Ataları Axund Ağanın Zaqafqaziyanın Şeyxülislamı seçilməsi xəbəri əsgər məktubunun qanadlarında cəbhədəki iki övladına -Ağamehdiyə və Məmmədağaya da çatdı... Şeyx ata isə Təzə Pirdən Dağüstü bağa qalxdı. Köhnə qəbristanlıq yerində dayandı. Azərbaycan Xalq Cümhuriyyəti zamanı,1918-ci il sentyabrın 15-də Bakının alınması uğrunda şəhid olmuş türk əsgərinin dəfn mərasimini xatırladı. Xalqın xeyir və şərində Məhəmməd Əmin Rəsulzadə ilə keçirdiyi günlər xəyalından keçdi.

Bəli, Azərbaycan Xalq Cümhuriyyətinin Şeyxülislamının ömür yolu hamıdan çox Mir Cəfər Bağırova bəlli idi. O, yaxşı bilirdi ki, Axund Əlizadənin atası Axund Hacı Məhəmməd Cavad Azərbaycanda tanınmış ruhani olmuşdur. Anası Bibixanım da dindar və nəcabətli nəsildəndi. A.Əlizadə İçərişəhərdəki mədrəsədə orta təhsil almış, sonra İraqın Nəcəf şəhərində dini universiteti bitirmişdir. Orada «Axund» rütbəsi almışdır. Bakıya qayıtdıqdan sonra əvvəlcə məhəllə məscidinin axundu olmuşdur. 1918-ci ildə A.Əlizadə əvvəlcə şəhər qazısı vəzifəsinə, sonra da Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri vəzifəsinə təyin edilərək, Şeyxülislam seçilmişdir.

Respublikamızın seyid rəhbəri ilə Şeyxülislamı arasında mənəvi bir yaxınlıq olmuşdur. Hər ikisi dövlət səviyyəsində allahsızlıq siyasəti aparılan bir rejimdə Azərbaycanda islami dəyərlərin saxlanılması sahəsində misilsiz iş görmüşlər. Onların səyi nəticəsində 1953-cü ilədək, yəni Mir Cəfər Bağırovun vaxtında islam aləminə əvəzsiz din xadimləri və üləmalar vermiş Bakıda və onun kəndlərində nə

«Allahu əkbər» deyənlər, nə də pozulmuş haqqını tələb edənlər gülləbaran edilməmişdir...

Şeyxülislam Axund Ağa Əlizadə Yaxın Şərq ölkələrində, qonşu İranda yaxşı tanınırdı. Azərbaycan din xadiminin 1945-ci ilin may ayında Cənubi Azərbaycan şəhərlərinə və Tehrana uğurlu səfəri bunu parlaq şəkildə sübut etdi. Mir Cəfər Bağırovun xeyir-duası ilə həyata keçmiş bu rəsmi səfər barədə Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində maraqlı materiallarla tanış olmaq mümkündür. Bu sənədlər barədə millət vəkili, professor Cəmil Həsənli 1998-ci ildə «Diplomat» nəşriyyatında nəşr etdirdiyi «Güney Azərbaycan; Tehran-Bakı-Moskva arasında (1939-1945)» kitabında geniş məlumat vermişdir.

O əlamətdar günlərin canlı şahidi, qocaman xalq yazıçımız QılmanÍlkin «Böyük ruhani ata» məqaləsində belə yazır: «Təbriz şəhərində bütün əhali onun pişvazına çıxmışdı. Hər yerdə ayağının altında qoyun kəsilmişdi. Tehranda olarkən tez-tez jurnalistlərlə görüşmüş və onların çoxlu suallarına cavab vermişdi. İran ruhaniləri içərisində elələri tapılmışdı ki, Sovet İttifaqından gələn bu ruhaninin həqiqətən ruhani olmasından şübhələnərək, Axundu öz sualları ilə ruhaniyyət elmi sahəsində sorğu-suala tutmuşdu. A.Əlizadə öz dərin və dəqiq cavabları ilə onları yerlərinə elə oturtdurmuşdu ki, sual verən adamlar özləri yaxınlaşıb onun əlindən öpmüş və ehtiramlarını bildirmişlər. Axund öz dərin biliyi ilə bütün İrana səs salmışdı. İranın məşhur «İrane-Ma» qəzetinin müxbiri A.Əlizadənin şəxsiyyətinə yüksək qiymət verərək yazırdı: «Sakit və nurani simalı Qafqaz Şeyxülislamı ilə üz-üzə gəldikdə mən elə hiss etdim ki, uzun illər axtardıqdan sonra istədiyim adamı tapmışam. Mən anladım ki, ağ və gözəl əmmamənin altında sağlam və ağıllı bir baş işləyir və təmiz qara əba altında böyük bir ürək döyünür.»

Məncə, bu sözlərə başqa bir şey əlavə etməyə ehtiyac yoxdur. Bu, böyük ruhani atanın şəxsiyyətinə verilmiş dəqiq qiymət idi.

Böyük ruhani atanın digər ölkələrə də xoşməramlı səfərləri yaddaqalan olmuşdur. Azərbaycan şeyxi Avropa şəhərlərində və Moskvada keçirilən konqres və konfransların Rəyasət Heyətinə seçilmişdir, çıxış və məruzələri hamını heyrətə salmışdır. 1952-ci ilin may ayında Vyanada keçirilmiş sülhü müdafiə konqresinin xitabət kürsüsündən dediyi sözlər bu gün də öz əhəmiyyətini itirməmişdir: «Mən, Şeyxülislam Əlizadə bütün Qafqaz, bütün dünya müsəlmanlarına üzümü tutub deyirəm: Müharibə qızışdıranların cəhdlərinin qarşısını alın, onlara öz məqsədlərini həyata keçirməyə imkan verməyin!»

1954-cü il dekabrın 15-də Azərbaycan müsəlmanlarının ağsaqqalı səksən üç yaşında dünyasını dəyişdi. Dekabrın on doqquzunda bütün xalq onu son mənzilə yola saldı. Axund Ağa Əlizadə Bakının köhnə qəbristanlığında torpağa tapşırıldı. Məzarı başına gələnlərin ardı-arası kəsilmədi. Təkcə bir nəfər gələ bilmədi - Mir Cəfər Bağırov. Azərbaycan xalqının ermənipərəst düşmənləri onu «Kuybışevneft»dən Moskvaya dəvət edib... qondarma istintaqa cəlb etmişdilər.

Xəyalında «Əlizadə» dediyi Şeyxülislamın müqəddəs siması canlanırdı. Qulaqlarında Axund Ağa Əlizadənin məşhur sözləri səslənirdi: «Azadlığı yalnız müstəqil yaşamaq yolu ilə qorumaq və müdafiə etmək olar».

...1954-cü ildə mən Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsində təhsil alırdım. Şeyxülislam barədə Bülbülədə atamdan eşitmişdim. 1960-cı ildə Universitetin komsomol komitəsinin katibi vəzifəsində işləyərkən, Azərbaycan Komsomolunun Mərkəzi Komitəsinin birinci katibi Məsud Əlizadə ilə yaxından tanış oldum. Onda bilmirdim ki, bu qeyrətli insan Şeyxülislam Axund Ağanın nəvəsidir.

Altmışıncı ilin fevralında Məsud Ağamehdi oğlu Əlizadə Azərbaycan komsomolunun iyirmi ikinci qurultayında rəhbər vəzifəyə seçilərkən qısa tərcümeyi-halı ilə hamı tanış oldu: 1932-ci ildə Bakıda həkim ailəsində anadan olmuşdur. Orta məktəbi gümüş medalla, Tibb İnstitutunu fərqlənmə diplomu ilə bitirmişdir. İnstitut komsomol komitəsinin katibi vəzifəsində işləmişdir. Tibb elmləri namizədidir. Azərbaycan SSR Nazirlər Soveti mədəniyyət şöbəsinin müdiridir.

Şıxəli Qurbanov kimi Məsud Əlizadə də rəhbər işə Azərbaycan KP MK katibi Vəli Axundovun məsləhəti ilə irəli çəkilmişdi.

1967-ci ilin may ayının 27-də Azərbaycanın gələcəkdə rəhbəri ola biləcək Şıxəli Qurbanov stomatoloq kreslosundan ayağa qalxmadı.

1966-cı ilin martında Azərbaycanın gələcəkdə rəhbəri ola biləcək Məsud Əlizadəni Azərbaycan Komsomolundan uzaqlaşdırıb, Tibb İnstitutuna prorektor göndərdilər. 1968-ci il iyul ayının 27-də otuz altı yaşlı prorektoru öz kabinetində qətlə yetirdilər. Qatil tapılmadı...

ASE-nin 1987-ci ildə nəşr olunmuş onuncu cildində «Ş» hərfi ilə başlanan sözləri nəzərdən keçirin: «Şeyxülislam ərəb sözüdür, «islamın ağsaqqalı» deməkdir. Bu istilahdan sonra ensiklopediyada yalnız bir nəfər Şeyxülislam barədə şəkli ilə məqalə verilmişdir. O, Axund Ağa Əlizadə rəhmətə gedəndə beş yaşında idi...

1971-ci ildə böyük Azərbaycan Şeyxülislamının anadan olmasının 100 illiyi, 1981-ci ildə 110, 1991-ci ildə 120 illiyi yada düşmədi. 2001 -ci ildə 130 yaşlı ruhani ata xatırlanmadı. Nə üçün? Hansı səbəbə?

1994-cü ildə vəfatından 40 il keçdi. Adi daşdan hörülmüş və başqa qəbirlərdən fərqlənməyən məzar evinə baş çəkmək nə millət vəkillərinin, nə də «millət» deyənlərin ağlına gəlmədi. Nə üçün? Hansı səbəbə? Çünki Şeyxülislam Axund Ağa Əlizadə 70-ci illərin din xadimi deyildir, üstəlik Bakının Pirşağı kəndindəndir. Ən başlıcası M.Ə.Rəsulzadə və M.C.Bağırov vaxtının Şeyxülislamıdır.

Allahsızlar nə bilsinlər ki, Axund Ağa Əlizadə hər zamanın Şeyxülislamıdır!

* * *

1956-cı ildə Mir Cəfər Bağırovun məhkəməsinin dövlət ittihamçısı, N.S.Xruşşovun yaxın dostu RARudenko tapşırığı yerinə yetirdiyinə görə Mərkəzi Komitənin üzvü seçilmiş, Sosialist Əməyi Qəhrəmanı adını almışdı. O, 1981-ci ildə yetmiş dörd yaşında vəfat etmişdir. Roman Andreyeviçin Mir Cəfər Bağırova qarşı əsassız ittihamlarını Azərbaycan «romançıları», alim və naşirləri davam etdirmişlər. Baş prokuror baş katibin, yerli «rudenkolar» isə öz başçılarının köməkçiləri olmuşlar.

1991-ci ilin yanvarın 9-da erməni quldurları Laçın-Şuşa yolunun beş kilometrliyində jurnalist Salatın Əsgərovanı qətlə yetirdilər. Həmin ilin may ayında «Moskva-Bakı» qatarı ermənilər tərəfindən partladıldı, on bir nəfər soydaşımız həlak oldu. 1991-ci il noyabrın 20-də xalqımızın düşmənləri daha dəhşətli «əməliyyat» həyata keçirdilər: Azərbaycanın Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında vertolyot məhv edildi, seçmə oğullarımız əlimizdən getdi... Və 1991-ci ildə «Azərnəşr» «Ağ ləkələr silinir» adlı kitabı əlli min tirajla nəşr etdi. 1990-cı ilin qanlı 20 yanvarından sonra Dövlət nəşriyyatı cinayətkarın adını bir daha bəyan etdi - Mir Cəfər Bağırov! Kitabdakı «Proses» məqaləsinin müəllifi Əsəd Əsədov yazır: «M.C.Bağırov yaltaqlıq, riyakarlıq, saxtakarlıq, satqınlıq kimi mənfi keyfiyyətlərə malik idi.» Əli Şamilovun «Torpaq komissarının taleyi» məqaləsində deyilir: «Respublikanın partiya, sovet işçiləri M.C.Bağırovun və onun quldur dəstəsinin saxta yolla düzəltdikləri ittihamlar əsasında məhv edilmişlər».

Azərbaycan «rudenko»çularının Mir Cəfər Bağırova qarşı «səlib yürüşü, ermənilərin isə Mir Cəfər Bağırovun mənsub olduğu xalqa qarşı daşnak siyasəti 1992-ci ildə də davam etmişdir. Ermənilər yalanı həqiqət kimi qələmə vermiş, bizimkilər «yalan+yalan=M.C.Bağırov» riyazi düsturunu icad etmişlər.

1992-ci il yanvarın 8-də Krasnovodsk - Bakı gəmi-bərəsi ermənilər tərəfindən partladılmışdı. İyirmi beş nəfər həmyerlimiz həlak olmuşdu. Bundan iyirmi gün sonra, yanvarın 28-də Ağdamdan Şuşaya uçan vertolyot atəşə tutulmuşdu. Qırx dörd nəfər azərbaycanlı, o cümlədən qadın və uşaq yanıb kül olmuşdu. Həmin il «Azərnəşr» bu fəlakətlə səsləşən bir kitabı oxuculara təqdim etmişdi. «Getsin, gəlməsin». Ancaq...kitabın müəllifi Nizami Məhərrəmov xalqımızın düşmənlərindən deyil, «xalq düşməni» Mir Cəfər Bağırovdan bəhs edir. Özü də necə! Müəllif yazır: «Sən Bağırov və sənin kimilər deyirdiniz ki, ölkənin düşmənləri olmamısınız. Ancaq siz ölkəyə zülm edirdiniz, adi adamların düşməni, gözəlliyin, torpağımızın, övladlarımızın, istedadın və ağlın düşməni idiniz, bunlarsız isə ölkə yoxdur».

Göründüyü kimi, Nizami Məhərrəmovun 1992-ci ildə söylədikləri Roman Rudenkonun 1956-cı il ittihamnaməsini də kölgədə qoyur.

Mir Cəfər Bağırovun göz bəbəyi kimi daşnaklardan qoruyub saxladığı Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan, Cəbrayıl kimi rayonlarımız işğal altında ikən, Azərbaycan «rudenkoçuları» yeni yüzilliyin ilk ilindən başlayaraq yenə də Mir Cəfər Bağırovu ittiham edirlər. 2001-ci ildə

«Azərbaycan» nəşriyyatı Sabir Əsədov və İsrail Məmmədovun "Терроризм: причина и следствие" kitabını nəfis şəkildə nəşr etmişdir. Kitabın «Erməni terroristləri Azərbaycan DTK-da» fəslində «Mir Cəfər Bağırovun məhkəməsi»ndəki yalan və böhtanlar geniş yer tapmışdır. «Azərbaycan ərazisində terror aktları (1970-1990)» fəsli isə yazıldığı tarixdən deyil, 1989-cu ilin noyabrın 30-dan başlayır. Sual olunur, 19 il ərzində Azərbaycanda ermənilər heç bir terror hadisəsi törətməmişlər? Təkcə Dövlət Opera və Balet Teatrının yandırılmasını unutmaq olarmı? Əsrin 19 ilinin üstündən xətt çəkilməsinin səbəbi nədir?

Mir Cəfər Bağırovu qondarma məhkəməsinin ittihamları ilə bu gün də qədirbilən Azərbaycan xalqının gözündən salmaq iddiasında olan «rudenkoçu»ların cavabını qocaman dövlət xadimi Tofiq Bagırov «Kölə köləliyinə tabe olursa, köləliyə layiqdir» («Yeni Müsavat» qəzeti, 17-18 dekabr 2000-ci il) məqaləsində danılmaz faktlarla vermişdir: «O, yüksək vəzifələrə azərbaycanlıları irəli çəkdi. Rus və ermənilərdən məmurlar ordusunu təmizləməyə başladı. 1953-cü ildə M.C.Bağırovu işdən çıxaranda vəziyyət belə idi. Mən onun məhkəməsində də iştirak etmişəm. Özünü çox mərd aparırdı. Onda mənim 27 yaşım vardı. Onun hərəkətlərinə, mərd cavablarına valeh olmuşdum... Yaşa dolduqca onun şəxsiyyətinə hörmətim daha çox artıb».

Tofiq Bağırov Azərbaycanın əvəzsiz rəhbərinin yüksək insani keyfiyyətlərindən də söhbət açır, sözü ilə əməli bir olan şəxsiyyət barədə belə yazır: «O, Stalinin etimadından istifadə edib xalqımızı sürgündən xilas etdi. Bu, M.C.Bağırovun ən böyük xidmətidir. M.C.Bağırovda bir ədalət hissi vardı. O vaxt yerlibazlıq anlayışı yox idi. Rüşvətxorluq olmamışdı. O, arvadı ilə çox sadə həyat yaşayırdı. MK-dan evinə gəlib nahar edirdi. Cəmi bir nəfər cangüdəni vardı».

O «bir nəfər cangüdən» hazırda yetmiş səkkiz yaşındadır. Ənvər Ağasiyevin söylədiklərinə qulaq asın:

- Atam Ağahüseyn Ağasiyev Sovet hakimiyyətinin ilk illərində Azərbaycanın Türkiyədəki səfirliyində hərbi attaşe olmuşdur. O, ermənilər tərəfindən qətlə yetirilən gün mən doğulmuşam. Adımı Ənvərpaşa qoymuşlar...

Müharibə başlayanda 132 saylı məktəbdə pioner dəstə rəhbəri işləyirdim. Sonra idman müəllimiydim. M.C.Bağırov atamı vaxtilə yaxından tanıdığına görə məni yanında işə götürmüşdü. M.C.Bağırov piyada gəzməyi xoşlardı, mən də 100 metr kənar olardım. Çox qayğıkeş insan idi. Ailəsini heç kəs mühafizə etmirdi. Çünki özü belə istəyirdi. Təəssüflə qeyd olunmalıdır ki, yalançı şahidlər Mir Cəfər Bağırovun valideynləri, yaxın qohumları, ailəsi barədə də çoxlu uydurmaları mətbuat səhifələrinə çıxarmış və bu quramalar bədii əsərlərin qondarma süjet xəttinə çevrilmişdir. Azərbaycanın xalq yazıçısı Elçinin «Ölüm hökmü» romanı dəfələrlə respublikamızda və xarici ölkələrdə nəşr olunub yayılmışdır. «Yazıçı» nəşriyyatı bu əsəri 1989-cu ildə səksən min nüsxə ilə nəşr etmişdir. Kitabın cild səhifəsində oxuyuruq: «Azərbaycan nəsrinin görkəmli nümayəndəsi, əməkdar incəsənət xadimi Elçinin «Ölüm hökmü» romanı təxminən altmış illik bir dövrün

salnaməsidir, Romanda həm iyirminci-otuzuncu illərdə, həm də müasir dövrdə faktoloji sənədlilik, dəqiqlik bədii təxəyyül və obrazlılıqla özünün üzvi vəhdətini tapmışdır».

«Ölüm hökmü»ndə «dövrün salnaməsinin» baş mənfi qəhrəmanı Mir Cəfər Bağırovdur. Əsəri oxuyub yəqin edirsən ki, müəllif bu obraza «faktoloji sənədlilik, dəqiqlik» meyarı ilə yanaşmamışdır, qondarma məhkəmə materialları ilə «üzvi vəhdət» tapmışdır. Məsələn, kitabın 201-ci səhifəsində oxuyuruq: «Vaxtıyla Qəzənfər Musabəyovgillə Mir Cəfər Bağırovgil Qubada qonşuluqda yaşamışdır və Qəzənfərin anası öz çağası ilə - Qəzənfərlə bərabər Mir Cəfəri də öz döşləriylə əmizdirmişdi. Mir Cəfər Bağırov yalnız Qəzənfər Musabəyovu tutdurmamışdı. Qəzənfərin bacısı, Azərbaycan SSR Xalq Ədliyyə Komissarı Ayna Sultanovanı da, Aynanın əri, respublikada müxtəlif komissarlıqlara rəhbərlik etmiş Həmid Sultanovu da - onların hamısı inqilabdan əvvəl partiyanın üzvləri idi -tutdurub güllələtmişdi və nəhayət, öz süd anasını -Qəzənfərgilin anasını da həbs elətdirib Bayıl həbsxanasına saldırmışdı. Döyülüb ağzı-gözü qana bulaşmış o qoca arvadın Bayıl həbsxanasında qışqıra-qışqıra: «Ay Allah, Mir Cəfərə bu döşümdən verdiyim südü haram elə. Onu dünya işığına həsrət qoy», - deyə qarğış yağdırmağını da Komissara çatdırmışlar».

Müəllif hansı mənbəyə əsaslanaraq, «vaxtıyla Qəzənfər Musabəyovgillə Mir Cəfər Bağırovgil Qubada qonşuluqda yaşamışlar» hökmü verir? Qəzənfər Musabəyov 1888-ci il iyulun 26-da Dəvəçi rayonunun Pirəbədil kəndində, Mir Cəfər Bağırov 1896-cı il sentyabrın 17-də Qubada dünyaya gəlmişdir. Elə çıxır ki, M.C.Bağırov anadan olanda səkkiz yaşlı «çağa» - Q.Musabəyov anasının döşünü əmməkdə imiş? Bir yaşlı M.C.Bağırov doğmaca anası Yaxşıxanımın südünü «bəyənməyib» beşiyindən sıçrayaraq səkkiz yaşlı Q.Musabəyovun anasının döşünü əmmişdir... Bəs Mir Cəfər Bağırovun qardaşları Mir Musa, Mir Heydər, Mir İbrahim, bacıları Seyid Məsumə və Seyid Fatimə hansı rayondakı hansı ananın döşünü əmmişlər?!

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Mir Cəfər Bağırovun tərcümeyi-halı və uçot vərəqəsi saxlanılır. Bu sənədlərdən aydın olur ki, M.C.Bağırovun ata nəsli Dərbənddən, ana nəsli Qubadandır. Atası Mir Abbas 1913-cü ildə vəfat edəndə M.C.Bağırov on yeddi yaşındaydı. Quranı, ərəb və fars dillərini öyrənmişdi. Nəcəfkənd məktəbində müəllimlik edirdi.

M.C.Bağırovun birinci arvadı Mariya Aleksandrovna Bağırova 1894-cü il iyul ayının 7-də anadan olmuş, 1926-cı il martın 1-də ağır xəstəlikdən vəfat etmişdir. Qəbri Bakının yuxarı hissəsində, Badamdara gedən yolun sağındakı beynəlmiləl qəbristanlıqdadır.

Beş ildən sonra Cahangirə ocağın təzə gəlini analıq etmişdir. Yevgeniya Mixaylovna 1932-ci il avqustun 9-da ona bir qardaş da bəxş etmişdir. Adı valideynlərinin adlarının baş hərflərindən yaranmışdır: CEN.

Mir Cəfər Bağırovun hər iki oğlu xalqımızın başını uca etmişdir. Onların həyatı gənclərimizə örnəkdir.

Cahangir Mir Cəfər oğlu Bağırov ölümündən sonra Lenin ordeni ilə təltif olunmuşdu. Quba ictimaiyyəti onun adına bağ salmışdı - Cahangir bağı! Orada büst-heykəli də ucalırdı. Ancaq Mir Cəfər Bağırovun adına qara yaxanlar şəhid oğlunun da adını qaraladılar. Abidənin altında «naməlum əsgər» yazdılar.

Məlumu naməlum edənlərə ar olsun!

Mir Cəfər Bağırovun ikinci oğlu Cenin 2002-ci il avqustun 9-da anadan olmasının 70-ci ildönümü tamam oldu.

Cen də qardaşı Cahahgir kimi Bakıdakı 6 saylı məktəbi əla qiymətlərlə bitirmişdir. Tbilisi şəhərindəki hərbi məktəbə daxil olmuşdur. 1952-ci ildə Moskvadakı Jukovski adına aviasiya Akademiyasına qəbul edilmişdir.

1954-cü ildə xalqımızın Moskva düşmənləri M.C.Bağırovu istintaqa cəlb etmək ərəfəsində oğlunu da akademiyadan kənarlaşdırmışlar. O, təhsilini Moskva Kənd Təsərrüfatı İnstitutunda davam etdirmişdir. Fitri istedada malik olan Cen Bağırov 1960-cı ildə elmlər namizədi, 1971-ci ildə isə texnika elmləri doktoru adını almışdır. Bir neçə kitabı nəşr edilmişdir. Fəqət əcəl vaxtsız gəlmişdir: Moskva Kənd Təsərrüfatı Akademiyasının professoru 1994-cü il mayın 24-də ziyafət zamanı qida zəhərlənməsindən vəfat etmişdir. Üzərində işlədiyi «Atam Mir Cəfər, oğlum Mir Cəfər» kitabı yarımçıq qalmışdır.

Hazırda M.C.Bağırovun 24 yaşlı nəvəsi Mir Cəfər qürbətdə, qardaşı nəvəsi Yaxşıxanım Bakıda yaşayır.

* * *

2001-ci il iyul ayının 5-də «525-ci qəzet»də «Qarabağlı Salehbəy» sərlövhəli geniş material dərc olunmuşdur. Oxucuya məlum olur ki, Salehbəy Novruz oğlu 1921-ci ildə Şuşa şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Universitetinin kimya fakültəsini bitirmişdir. Kimya elmləri doktoru, professordur. Səksən yaşını adlamışdır.

Salehbəyin təhsildə ilk uğurlu addımları Mir Cəfər Bağırov dövrünə təsadüf edir. 1936-cı ildə Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, oranı bitirdikdən sonra, 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin kimya fakültəsinin tələbəsi olmuş, 1942-ci ildə müharibəyə getmişdir. Müharibədən sonra, 1946-cı ildə universitetə bərpa olunmuş, 1948-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vurmuş, aspiranturaya daxil olmuşdur...

Salehbəy o zamanlar tərcümeyi-halında göstərmədiklərini oxuculara çatdırır: «...Atam «Dikaya diviziya»da zabit olmuşdu. Bu diviziya Birinci dünya müharibəsi illərində (1914-1918-ci illər) çar tərəfindən yaradılmışdı və əsasən azərbaycanlı bəylərdən təşkil olunmuşdu. Bundan sonra atam Azərbaycan milli ordusunun zabiti olmuşdu. Siz indi təsəvvür edə bilməzsiniz ki, «Dikaya diviziya» və Müsavat ordusu zabitinin oğlu olmaq nə deməkdir. Sovet hökuməti qurulandan

sonra «Dikaya diviziya»da xidmət etmiş adamların əksəriyyətini tutub güllələdilər... Ələ keçənləri isə Sibirə...»

Salehbəy Sibirə Mir Cəfər Bağırovun vaxtında deyil, 1972-ci ildə getmək barədə rus dilində rəsmi ərizə yazmışdır. Təfsilatını özü «525-ci qəzet»də belə nəql edir: «Mən doktorluq işimi 1972-ci ildə müdafiə etdim. Lakin o vaxt işlədiyim Akademiyanın prezidenti Həsən Abdullayev mənə qarşı, yumşaq desək, ədalətsiz mövqe tutmuşdu. Bir səbəb tapıb məni Akademiyadan uzaqlaşdırmaq istəyirdi. Səbəb nə idi? Hamı hazırladığı kitabın, elmi məqalənin müəllifi kimi gərək birinci onun adını yazaydı. Sonra onun katibəsinin adını yazaydı. Axı onu namizəd etmək lazım idi. Mən də əsərlərimdə onun adını yazmalı idim. Ən yaxşı halda mənim adım müəlliflər sırasında ikinci ola bilərdi. Mən də bunu etmirdim. Mənim məqalələrim Nyu-Yorkda, Londonda, Kembricdə, Berlində çıxırdı. Bunları görəndə Həsən cin atına minirdi.

1971-ci ildə o, «yaxşı» bir bəhanə tapdı. Bizim laboratoriyanı bütünlüklə ləğv etdi. Hamını işdən çıxardı. Sonra laboratoriyanın adını dəyişərək işçilərin hamısını həmin laboratoriyaya öz işlərinə geri götürdü. Mən qaldım kənarda. Müharibə iştirakçısı, partiyanın üzvü, iri elmi işlərin müəllifi olduğum halda, məni işə bərpa etmədi. O vaxt onun adına yazdığım ərizə indi də əzbər yadımdadır. Rusca yazmışdım: «Q.B.Abdullayev (akademik, tovariş-zad yox)-tormoz nauki v respublike, duşitel uçyonıx. Poetomu ya uyezjayu iz Azerbaydjana v Sibir. Proşu uvolit».

Nədənsə səksəni yola salmış ağsaqqal yetmişinci illərdə başına gətirilən haqsızlıqlardan danışanda... Mir Cəfər Bağırovu xatırlayır və onun ünvanına böhtanlar yağdırır. Qəzetdə oxuyuruq: «İndi deyirlər Mir Cəfər Bağırov pis adam olmayıb, pis işləri ilə bərabər yaxşı işləri də olub. O adamın yaxşı işləri ancaq özü üçün olub - o yeri tutmaq üçün, bu boyda respublikaya ağalıq etmək üçün. Bunun üçün təbii ki, iş də görməli idi. Nefti çıxarmalıydı, pambığı əkməliydi - bunlar Rusiyaya lazım idi. Bəzi adamlara orden-medal verməli idi. Özünü göstərmək üçün. Bağırov bizim düşmənimiz olub. O, 1918-ci ildə Quba, Xaçmaz rayonlarında baş kəsməkdə ad çıxarmış Amazasp adlı quldurun dəstəsində bələdçi olub.

Qubada Amazaspa kimin harda gizləndiyi, əşyalarını, qızıllarını harda gizlətdiyi barədə məlumatları o verib.

Bakıda Şaumyan hökuməti yıxılandan sonra ermənilər Bağırovu aradan çıxarıblar. O vaxtlar Mir Cəfər Bağırov xırda adam olub. Onun Amazaspın dəstəsində olduğu, daşnak partiyasının üzvü olduğu barədə faktlar M.C.Bağırovun məhkəməsində açıqlanıb. Mənə əlavə danışanlar da olub. 1937-ci ildə Azərbaycanın bütün düşüncəli, vicdanlı, varlı adamları, xüsusən də bəyləri tutulub. Ermənilərin bizə qarşı soyqırımı burdan başlayıb. Ermənilər Mir Cəfər Bağırovun əli ilə Azərbaycanda ən ağır soyqırımı icra ediblər. Mir Cəfər Bağırov öz məhkəməsində həyasızcasına demişdi ki, «məndən başqa Azərbaycanda bir kişi yoxdur». O elə bilirdi ki, Azərbaycanda bütün kişiləri qırıb, qurtarıb. Ona görə belə deyirdi».

Salehbəy Mir Cəfər Bağırov haqqında uydurmalarını rusdilli oxuculara da «hədiyyə» etmişdir. 2000-ci ildə «Elm» nəşriyyatı onun «Dünyanın taleyi» kitabını nəşr etmişdir. Respublikanın «Təhsil» cəmiyyəti tərəfindən çapa təqdim olunmuş 896 səhifəlik kitabın cild səhifəsində oxuyuruq: «Dünya oxucusuna bu qeyri-adi kitabı təqdim edərək ümidvarıq ki, əsər insani həyat barədə ilk ümumaləm dərsliyi, nəsillərin traktatı, Vahid Vətənimiz Yerin hər bir vətəndaşının öz kitabı olacaqdır».

«Təhsil» cəmiyyətinin təqdim etdiyi «insani həyat barədə ilk ümumaləm dərsliyi»ndə, «nəsillərin traktatı»nda təkcə bir qeyri-bəşəri varlıq mövcuddur - M.C.Bağırov. Əsərin müəllifini və naşirini cin atına mindirən budur ki, son illər Azərbaycan şəxsiyyəti barədə mətbuatda, o cümlədən rus qəzet və jurnallarında müsbət səciyyəli məqalələr dərc olunur. Moskvada çıxan «Неделя» qəzetinin 1998-ci il 26 iyun və 3 iyul tarixli saylarında Mir Cəfər Bağırovun insani keyfiyyətlərindən bəhs edən bu cümlə xüsusi qəzəb hissi ilə qarşılanır: «МирДжафар Багиров не посещал ни хадж, но он был человеком божьим».

Moskva qəzeti həqiqəti yazır. Bu həqiqəti zaman təsdiqləyir. Bəli, Mir Cəfər Bağırov Kərbəlaya, Həcc ziyarətinə getməsə də, Allah adamı olmuşdur.

Salehbəyin 2001-ci ildə söylədikləri ilə 1956-cı ildə Mir Cəfər Bağırovun məhkəməsində səslənən şər və yalan ifadələr arasında heç bir fərq yoxdur. Məhkəmə materiallarına görə, Mir Cəfər Bağırov qeyri-insani keyfiyyətlərə malik bir vəzifə sahibi olmuşdur. Guya o, ekzema xəstəliyinə düçar olubmuş. Müalicə olunmaq üçün süd vannasından istifadə edirmiş, sonra bu südü vannadan qablara boşaldaraq uşaq bağçalarına aparırlarmış... hətta anasının adı «Yaxşıxanım» əvəzinə «Mariya» yazılmışdır.

Bu qondarma məhkəmə Azərbaycan xalqının düşmənləri tərəfindən hazırlanmışdı. Ona görə hazırlanmışdı ki, əsl düşmənlərimizə mələk donu geydirək və Salehbəyin sözlərini təkrar edək: «Bağırov bizim düşmənimiz olub».

Təəssüflər olsun ki, SSRİ dağılandan sonra Mir Cəfər Bağırovun 1956-cı ildə keçirilmiş məhkəməsinin çoxcildli materialları respublikamıza gətirilmişdir. 1993-cü ildə isə Azərbaycan Milli Təhlükəsizlik Nazirliyində saxlanılan materiallar əsasında- «Yazıçı» nəşriyyatı 60 min nüsxə ilə «Mir Cəfər Bağırovun məhkəməsi» kitabını nəşr etmişdir.

Nəşriyyatın direktoru Əkrəm Əylisli qondarma məhkəmə materiallarından «ruhlanaraq», Mir Cəfər Bağırovun «qaniçən» olduğunu təsdiqləmişdi. Ön sözdə oxuyuruq: «Mir Cəfər Bağırov kim idi? Dünyanı, tarixi, həyatı dəyişməyə və bundan ötrü baş kəsməyə, qan tökməyə onu kim vəkil etmişdi: Özümü, zamanımı, Allahımı, Şeytanımı?..»

Naşirin ön sözü ayaq tutub yerimədi. Müstəqil Azərbaycanın müstəqil düşüncəli insanları cəsarətə gəldilər. Mir Cəfər Bağırovun milyonlarla soydaşlarımızın ürəyində yaşayan həqiqi obrazının cizgilərini yaratdılar. Mir Cəfər Bağırov haqqında son sözü Mir Cəfərdən sonra «qırılıb getməyən kişilər» dedilər. 1996-cı ildə Azərbaycan oxucuları ilk dəfə olaraq Mir Cəfər Bağırovun Böyük Sovet

Ensiklopediyasındakı şəklinin surətini ana dilimizdə çıxan kitabda gördülər: Manaf Süleymanov. «Son bahara çatdıq...» Peşəkar jurnalist və həqiqət aşiqi, qələm dostum mərhum Tofiq Rüstəmovun redaktorluğu ilə işıq üzü görmüş bu sənədli əsərdə Mir Cəfər Bağırovla əlaqədar səhifələr başlıca yer tutur. Bəzi parçaları diqqətinizə çatdırıram:

«M.C.Bağırov fenomeni hər şeydən əvvəl ona görə səbrlə öyrənilməlidir ki, Azərbaycan fenomenidir, milli həyatımızın məhsuludur. Bu şəxsiyyət 20 il xalqa rəhbərlik edib və onu ancaq «xalq düşməni» kimi tanımaq, əslində, tanımamağa bərabərdir».

Bağırov azacıq imkan yaratsaydı, poeziyamızın da, nəsrimizin də yəqin ki, əsas «ilham mənbəyi» olacaqdı. Uzağa getmək lazım deyil...

Mir Cəfər Bağırov işlədiyi müddətdə bir qubalını da məhz qubalı olduğu üçün vəzifə başına çəkmədi...

Onun üçün Azərbaycan vahid idi. Hamıya eyni gözlə baxırdı. Doğmaları, qohumları ona müraciət etməyə cürət etmirdilər. O ki qaldı cəlladlığa, bu, sistemin hökmü, dövrün tələbi idi. İndi hamısı imam rütbəsinə qaldırılan, günahsız sayılan 37-ci il qurbanlarından hansı biri Bağırovun yerində olsaydı, başqaları ilə elə o təhər rəftar edərdi.

1920-ci ilin iyununda daşnakların fitvası ilə Gəncə «üsyanı» deyib azərbaycanlıları qılıncdan keçirənlərə nə ad verək? Üsyanı «yatırıb» paytaxta qayıdarkən mitinq düzəltdirib Bakı Sovetinin balkonundan öyünə-öyünə: «Camaat, bilin və agah olun, Gəncədə başıpapaqlı qoymadım»- deyən Daxili İşlər Komissarı, 1929-1930-cu illərdə Gəncədə şəhər komitəsinin katibi və Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri ilə birlikdə Topal Həsənli kəndinin əhalisini kolxoza girməkdən boyun qaçırdıqlarına görə top atəşinə tutduranlar, digər rayonlardan minlərlə günahsız adamı sürgün etdirib ata-baba yurdundan didərgin salanlar 1937-ci ildə Allahın qəzəbinə gəlmədilərmi? İndi onları təmizə çıxaranların, şöhrət pyedestalına qaldırıb mədh edənlərin çox şeydən xəbərləri yoxdur, onda heç doğulmamışdılar».

Bəli, çoxları unudurlar ki, Mir Cəfər Bağırova qədər Azərbaycana kimlər rəhbərlik etmişlər:

1.V.İ.Naneyşvili - 1920-ci il iyul ayının 23-dən sentyabrın 8-dək.
2.Y.D.Stasova - 1920-ci il sentyabrın 9-dan sentyabrın 15-dək.
3.V.Y.Dumbadze - 1920-ci il sentyabrın 15-dən oktyabrın 24-dək.
4.G.N.Kaminski - 1920-ci il oktyabrın 24-dən 1926-cı il iyulun 24-dək.
5.S.M.Kirov - 1921-ci il iyulun 24-dən 1926-cı il yanvarın 20-dək.
6.L.İ.Mirzoyan - 1926-cı il yanvarın 21-dən 1929-cu il iyulun 11-dək.
7.N.F.Gikalo - 1929-cu il iyulun 11-dən 1930-cu il avqustun 4-dək.
8.V.İ.Polonski - 1930-cu il avqustun 18-dən 1933-cü il fevralın 6-dək.
9.R.Q.Ruben - 1933-cü il fevralın 6-dan 1933-cü il dekabrın 10-dək.

Əliheydər Qarayev və Ruhulla Axundov Kirov və Mirzoyanın rəhbərliyi vaxtında MK katibləri vəzifəsində işləmişlər.

1956-cı ildə heç kəsin ağlına gəlməzdi ki, millətimizin düşmənlərinin adlarını bu siyahıda axtarmaq lazım imiş. O zaman heç kəsin ağlına bu da gəlməzdi ki, «Bağırov bizim düşmənimiz olub» deyənlər iki yaşında ikən, 1923-cü ildə Nəriman Nərimanov yazmışdı: «Hər yerdə casusu olan və ancaq xəbərçiliklə yaşayan Mirzoyan, çox məhdud adam olub...bu adamın vicdanı təmiz deyil».

Nəriman Nərimanov erməni Rubendən sonra azərbaycanlı Bağırovun Azərbaycana rəhbər qoyulmasına qəti etiraz edən Serqo Orconikidzenin də əsl simasını hələ iyirminci illərdə açıb göstərmişdi: «Mərkəz ancaq Serqo Orconikidzeyə etibar edir. Serqo isə o xəbis qəlbli adamlara daha çox etibar edirdi. Onlar da öz vəziyyətlərini qorumaq və möhkəmləndirmək üçün onun qarşısında nökərçilik edir və Azərbaycanda milli təmayül haqqında çığırırdılar. Bu yol isə Serqonun xoşuna gəlirdi».

Azərbaycanı rus və erməni hakimlərinin ixtiyarına verənlər barədə Nəriman Nərimanovun yazdıqları bu gün də aktual səslənir: «Azərbaycan Respublikası müstəqilmi yaşamalı, yaxud tərkib kimi Sovet Rusiyasına daxil olmalıdır? MK üzvləri - Qarayev, M.D.Hüseynov belə bir fikir irəli sürürdülər ki, bizə heç bir müstəqillik lazım deyil, biz Azərbaycanı Sovet Rusiyasına birləşdirməliyik».

Mir Cəfər Bağırov vaxtında Azərbaycana ayaq basmağa cəsarət etməyən Anastas İvanoviç Mikoyan Nəriman Nərimanov üçün də «arzuolunmaz şəxs» olmuşdur. Bütöv Azərbaycan və Qafqaz türklərinin qatı düşməni haqqında Nəriman Nərimanovun yazdıqlarını unutmaq olarmı? O yazırdı: «Deyirlər ki, Azərbaycanda çevrilişə qədər yoldaş Mikoyan daim təkrar edirdi ki, mən tezliklə Bakıya gəlməliyəm... Bəli, o, hakimiyyətə can atan, başqa cür edə də bilməzdi...Çevriliş baş verəndən sonra, bu asan hiss olunmağa başladı, həm də Mikoyan dedi: «Biz Nərimanovu İnqilab Komitəsinin sədri seçərik və onu elə mühasirəyə alarıq ki, o, çox da öz nüfuzundan istifadə edə bilməsin».

Nəriman Nərimanovdan sonra Mikoyan çoxlarını, hətta Stalini, Xruşşovu, Brejnevi də «mühasirəyə» ala bilmişdi. Təkcə Mir Cəfər Bağırova gücü çatmamışdı. Sovet hakimiyyəti dövründə cilddən-cildə girən daşnak mikoyanlarla mübarizədə Nəriman Nərimanov və Mir Cəfər Bağırov yeni milli cəbhənin başçılarıdır. Azərbaycanın müstəqilliyinin bərpası illərində birisinin abidəsi önünə əklil qoymuruq, digərini də dar ağacından asmaqda davam edirik.

* * *

Azərbaycanın milli dövlətçilik ənənələri qədim ipək yoluna bənzəyir. Şah İsmayıl Xətai də, Cavad xan da, Məhəmməd Əmin Rəsulzadə də, Nəriman Nərimanov da, Mir Cəfər Bağırov da bu yolun sarbanlarıdır. Bu gün böyük

Azərbaycanın kiçik bir hissəsində müstəqil dövlətin bərqərar olunmasında Azərbaycanın bütün tarixi şəxsiyyətlərinin mənəvi haqqı vardır. Onları biri-birinə qarşı qoyanlara, televiziya ekranlarında və mətbuat səhifələrində gözdən salanlara nə ad vermək olar? Beləları hər şeydən danışa bilər, milli qeyrətdən başqa.

Nəriman Nərimanov 1923-cü ildə yazırdı: «Əgər indi Neftkomun və Baksovetin qulluqçularının tərkibinə nəzər salınarsa, onda qərəzsiz müşahidəçi dəhşətə gələr. Yerli müsəlman mühəndislər və ümumiyyətlə ziyalılar alver edir, bu müəssisələr isə rus, erməni və yəhudilərlə doldurulmuş.

Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və i.a. eşitməyə məcbur olursan.

Mən neft məhsullarından Azərbaycanın xeyrinə faizli ayırmalara dair düz bir il yoldaş Serebrovski ilə mübarizə aparmışam, işi Siyasi Büroya çatdırmışam. Siyasi Büro bu ayırmanı yerinə yetirməyi qərarla yox, Serebrovskiyə bir vəzifə olaraq tapşırmışdı. Nə üçün yol. Serebrovski indiyə qədər bunu lazımınca yerinə yetirmir? Ona görə ki, Kirov, Mirzoyan yoldaşlar və onların kompaniyası işə saymaz münasibət bəsləyirlər... Azərbaycanda kəndlilərin cəhalət bataqlığında boğulması onların əsla vecinə deyil. Bəs MİK sədri Ağamalıoğlu, Xalq Komissarları Sovetinin sədri Musabəyov kimi məsul müsəlman işçilər nə iş görürlər? Bəli, bu bədbəxtlər vəzifələrə irəli ona görə çəkilmişlər ki, sussunlar...»

Yalnız və yalnız Azərbaycana «susmayan» rəhbər - Mir Cəfər Bağırov başçılıq etdiyi illərdən başlayaraq Nəriman Nərimanovun dediklərinə işdə əməl olunmuşdur: Neft fondu təşkil edilmişdir. Milli kadrlar ordusu vüsət tapmışdır...

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində 1937-ci ildə Mir Cəfər Bağırovun İ.V.Stalinə göndərdiyi teleqram saxlanılır. Mir Cəfər Bağırov uzun illərdən bəri yaxından tanıdığı və 1933-cü ildən bir yerdə çalışdığı Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Hüseyn Rəhmanovun xəstəliyi ilə əlaqədar aşağıdakı xahişlə müraciət etmişdir.

**Moskva, ÜİK(b)P Mərkəzi Komitəsi, Stalinə.**

Sentyabrın 7-dən başlayaraq Xalq Komissarları Sovetinin sədri Hüseyn Rəhmanovun xəstəliyi şiddətlənmişdir, ağ ciyərindən qanaxma başlamışdır. Onda şəkər xəstəliyi də aşkar olunmuşdur. H.Rəhmanovun konsillium və müalicə üçün Moskvaya göndərilməsinə icazə verməyi xahiş edirəm.

**Azərbaycan K(b)P MK katibi M.C.Bağırov.**

**13 sentyabr 1937-ci il»**

Elə həmin günlər Mir Cəfər Bağırovun başı üstündən Moskvaya tamamilə başqa məzmunda məxfi məlumatlar göndərilirdi: 1935-ci ildə Lenin ordeni ilə təltif edilmiş Rəhmanov 1933-cü ildə əks-inqilabçı millətçi qrupun üzvü olmuşdur.

Beləliklə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi yaxın silahdaşı, Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədrini nə xəstəlikdən, nə də repressiyadan xilas edə bilməmişdi. Edə də bilməzdi. Çünki onun rəsmi xahişlə müraciət etdiyi Stalin 1937-ci ildə ən yaxın qohumlarının belə xahişlərinə məhəl qoymamışdı. Qaynı, köhnə bolşevik Svanidze həbs olunub güllələnmişdi, arvadı Mariya Svanidze əsir düşərgəsinə göndərilmişdi. Stalinin baldızı Yekaterina da 1937-ci ilin məhbusları arasında idi. Çünki ölkə şairlərinin ilhamla vəsf etdikləri rəhbər bəşəriyyət tarixində insanlığa qarşı misli-bərabəri olmayan bir sənədə dərkənar qoymuşdu.

1937-ci ilin dəhşətli repressiyası SSR İttifaqı Xalq Daxili İşlər Komissarının operativ əmri əsasında keçirilirdi.

Əmrdə deyilirdi: «.1937-ci ilin avqust ayının 5-dən bütün respublikalarda, diyar və vilayətdə keçmiş qolçomaqların, fəal antisovet ünsürlərin və cinayətkarların repressiya olunması üzrə əməliyyata başlanılsın:

1.Cəzasını çəkib qurtarsa da, antisovet fəaliyyətini davam etdirən keçmiş qolçomaqlar.

2.Düşərgə və əmək qəsəbələrindən qaçmış, antisovet fəaliyyət göstərən keçmiş qolçomaqlar.

3.Üsyançı, faşist, terrorçu və bandit dəstələrində olmuş, cəza çəkmiş, repressiyadan qaçıb gizlənmiş, yaxud cəza yerlərindən qaçaraq cinayətkar fəaliyyətə yenidən başlamış ictimai təhlükəli ünsürlər.

4.Repressiyadan gizlənən, cəzaçəkmə yerlərindən qaçan və fəal pozuculuq fəaliyyəti ilə məşğul olan antisovet partiyaların üzvləri (eserlər, gürcü menşevikləri, müsavatçılar, ittihadçılar və daşnaklar), keçmiş ağlar, jandarmlar, məmurlar, banditlər, bandalara kömək və bələdçilik edənlər, mühacirlər.

5.Hazırda ləğv edilmiş kazak-ağqvardiyaçı üsyançı təşkilatların, faşist, terrorçu və casus-təxribatçı əksinqilabi qrupların istintaqlar və agentura ilə yoxlanılmış materiallar əsasında ifşa edilmiş daha fəal və düşmən mövqeli iştirakçıları.

Hal-hazırda istintaqı gedən, iş üzrə istintaqı başa çatmış, ancaq işləri hələ məhkəmə orqanlarında baxılmamış eyni kateqoriyadan olan şəxslər də repressiya olunurlar.

6.Həbsxanalarda, düşərgələrdə, əmək qəsəbələrində və koloniyalarda saxlanılan və orada da fəal antisovet pozuculuq işləri aparan keçmiş qolçomaqlar, banditlər, ağlar, təriqətçi fəallar və din xadimləri.

7.Yuxarıda sadalanan bütün şəxslər - kəndlərdə, kolxozlarda, sovxozlarda və kənd təsərrüfatı müəssisələrində, nəqliyyatda, sovet idarələrində, tikintidə işləyən antisovet ünsürlər repressiya olunmalıdır.

## II. Repressiya olunanlar barəsində cəza tədbirləri və repressiya olunmalı şəxslərin sayı haqqında

1. Repressiya olunan bütün qolçomaqlar, cinayətkarlar və digər antisovet ünsürlər iki kateqoriyaya bölünürlər:

a)Yuxarıda adı çəkilənlər arasında qatı düşmən mövqelilər birinci kateqoriyaya mənsubdurlar və dərhal həbsə alınaraq «üçlük» tərəfindən işlərinə baxılan kimi güllələnməlidirlər.

b)Daha az fəal olan düşmən ünsürlər ikinci kateqoriyaya aiddirlər. Onlar həbs olunmalı və 8-10 il müddətinə həbs düşərgələrinə göndərilməlidir. Onların arasında daha təhlükəli olanlar «üçlüyün» müəyyən etdiyi qaydada cəzalarını həbsxanada çəkməlidirlər.

2.Respublikaların Xalq Daxili İşlər komissarlarının, XDİK-nın Diyar və Vilayət idarə rəislərinin təqdim etdikləri məlumatlara uyğun repressiya olunacaq şəxslərin sayı müəyyənləşdirilir.

3.Respublikaların XDİ komissarları, XDİK-nin Diyar və Vilayət idarələrinin rəisləri bizim tərəfimizdən təsdiq edilmiş rəqəmləri özbaşına olaraq artırmaq səlahiyyətinə malik deyillər. Təsdiq olunmuş rəqəmlərin artırılmasını şərait tələb edərsə, belə hallarda respublikaların xalq daxili işlər komissarları, diyar və vilayətlərin idarə rəisləri müvafiq şəkildə əsaslandırılmış məktubla şəxsən mənə müraciət etməlidirlər.

4.Birinci və ikinci kateqoriyalar üzrə məhkum olunmuş şəxslərin ailə üzvləri aşağıdakılar istisna edilməklə repressiya olunmurlar:

a)Fəal antisovet hərəkətlərə qadir olan ailə üzvləri. Beləl追ri «üçlüyün» xüsusi icazəsi ilə düşərgələrə, yaxud əmək qəsəbələrinə köçürülməlidirlər.

b)Birinci kateqoriya üzrə repressiya olunan şəxslərin sərhəd zolağında yaşayan ailələri sərhəd zonasından içəri rayonlara köçürülməlidirlər.

v) Birinci kateqoriya ilə repressiya olunanların ailələri yaşadıqları Moskva, Leninqrad, Kiyev, Tbilisi, Bakı, Rostov və Yalta rayonlarından öz seçimlərinə uyğun olaraq, sərhəd zolağı istisna edilməklə, başqa yerlərə köçürülməlidirlər.

5. Birinci kateqoriya üzrə repressiya olunan bütün şəxslərin ailə üzvləri qeydiyyata alınmalı və daimi nəzarət altında olmalıdır.

## III. Əməliyyatın keçirilmə qaydaları

1. Əməliyyat 1937-ci il avqustun 5-də başlanılsın və 4 ay müddətində başa çatdırılsın. Türkmənistanda, Tacikistanda, Özbəkistanda və Qırğızıstanda əməliyyat avqustun 10-da, Şərqi Sibir vilayətində, Krasnoyarsk və Uzaq Şərq rayonlarında avqustun 15-də başlanılsın.

2.Repressiya olunan hər bir şəxs haqqında müfəssəl məlumat və ifşaedici materiallar toplanmalıdır. Bunun əsasında həbs olunanların siyahısı tutulmalı, əməliyyat qrupunun rəisi tərəfindən imzalanmalı və iki nüsxədə baxılıb təsdiq edilmək üçün xalq daxili işlər komissarına, XDİK idarə rəisinə, yaxud vilayət şöbəsinin rəisinə göndərilməlidir.

Xalq daxili işlər komissarı, XDİK idarə rəisi, yaxud vilayət şöbəsinin rəisi siyahıya baxır və göstərilmiş şəxslərin həbsinə sanksiya verir.

3.Təsdiq edilmiş siyahı əsasında əməliyyat qrupunun rəisi siyahıda göstərilənlərin həbsini həyata keçirir. Hər bir şəxsin həbsi üçün order verilir. Həbs zamanı əsaslı axtarış aparılır və aşağıdakılar hökmən müsadirə edilir: silah, hərbi sursat, hərbi ləvazimat, partlayıcı maddələr, zərərli maddələr, əksinqilabi ədəbiyyat, sikkə, külçə, qiymətli materiallar, xarici valyuta, çoxaldıcı cihazlar, məktublar. Müsadirə olunan əşyaların adları axtarış protokoluna yazılır.

4.Həbs olunan şəxs ciddi şəkildə mühafizə edilir. Həbsdən qaçış və ya hər hansı asayiş pozuntusu hallarının qarşısını almaq üçün bütün tədbirlər görülməlidir.

## IV. İstintaqın aparılması qaydaları

1.Hər bir məhbus və ya məhbuslar qrupu üçün istintaq işi açılır. İstintaq tezləşdirilmiş və sadələşdirilmiş qaydada aparılır. İstintaq prosesində məhbusun bütün cinayət əlaqələri üzə çıxarılmalıdır.

2.İstintaq başa çatan kimi iş baxılmaq üçün «üçlüyə» göndərilir.

## V. İcra edilməsi qaydaları

1.Hökm «üçlük» sədrlərinin göstərişi ilə icra edilir. Hökmün icra edilməsinə əsas «üçlüyün» iclasının protokolundan çıxarışdır ki, buna əsasən hər bir məhkum haqqında çıxarılmış hökmün şərhi verilir və «üçlüyün» imzaladığı xüsusi sərəncam hökmü icra edəcək şəxslərə təqdim olunur.

2.Birinci kateqoriya üzrə hökm Xalq Daxili İşlər Komissarının, XDİK İdarə rəisinin və vilayət şöbəsi rəisinin göstərişi ilə müəyyən edilmiş yerdə və qaydada icra olunur. Bu zaman hökmün icra vaxtı və icra edildiyi yer tam şəkildə məxfi saxlanılır. Hökmün icrasına aid sənəd ayrıca zərfdə məhkumun istintaq işinə əlavə edilir.

## VI. Əməliyyata rəhbərliyin və hesabatın təşkili

1.Əməliyyatın keçirilməsinə ümumi rəhbərlik mənim müavinimə - Dövlət Təhlükəsizliyi Baş İdarəsinin rəisi Mixail Fronskiyə həvalə olunur.

2.Əməliyyatın gedişi və nəticələri barədə beşgünlük məlumatlar hər ayın 1, 5, 10, 15, 20 və 25 tarixlərində teleqrafla və müfəssəl şəkildə poçtla çatdırılsın.

3.Əməliyyatın gedişi prosesində əks-inqilabi dəstələr, asayişin pozulması, xaricə qaçma halları, soyğunçu və bandit dəstələrin yaranması və bütün digər fövqəladə hallar barədə dərhal teleqrafla xəbər verilsin.

**Sənədi SSR Daxili İşlər Komissarı, dövlət təhlükəsizliyi baş komissarı N.Yejov imzalamışdır.**

* * *

Kütləvi repressiyaları bilavasitə həyata keçirən dövlət təhlükəsizliyi orqanlarının rəhbərləri üçün Azərbaycan SSR «xalq düşmənlərinin» ən böyük sığınacaq yeri idi: müsavatçılar, ittihadçılar, «Hümmət»çilər, nərimanovçular, din xadimləri, panislamistlər, pantürkistlər... bir sözlə, hər bir azərbaycanlı ailəsi. Buna görə də Azərbaycan üzrə «üçlüyün» başında SSRİ prokuroru A.Y.Vışinskinin müavini Matuleviç dururdu. Məqsəd damarlarından millət qanı axan bütün soydaşlarımızı məhv etmək idi. O cümlədən Mir Cəfər Bağırovu da. 1937-ci ildə SSRİ prokuroru müavininin edə bilmədiyini 1956-cı ildə SSRİ prokurorunun özü Bakıda həyata keçirdi - 1937-ci ilin məhkəmələrinin davamı olaraq Mir Cəfər Bağırova qondarma ittihamlar əsasında «güllələnmə» hökmü oxundu. Həmin məhkəmədən yarım əsrə bərabər bir vaxt keçdiyi, tarixi həqiqətlərin aşkara çıxarıldığı bir zamanda «Bağırovçuluğun tüğyan etdiyi 37-ci il», «Mir Cəfər Bağırov Müsavat Partiyasının və Daşnak Partiyasının üzvü olub» deyənlərə nə ad vermək olar? M.C.Bağırov həqiqətən bu partiyanın üzvü olsaydı Anastas Mikoyan Mir Cəfər Bağırovu Moskvadan Azərbaycana göndərilmiş «üçlüyün» əli ilə məhv edərək, bütün dünya ermənilərinə gözaydınlığı verməzdi. Çünki 1937-ci ildə dövlət təhlükəsizliyi məsələlərinə rəhbərlik SSRİ Xalq Komissarları Soveti sədrinin müavini A.Mikoyana həvalə olunmuşdu. 1937-ci ildə maddələrindən milyonlarla günahsız insanın qanı axan əmrin əslində müəllifi Mikoyan idi. Təsadüfi deyildir ki, əmrin 4-cü maddəsində antisovet partiyaların üzvləri arasında «daşnaklar» ən sonuncu yerdədir: Eserlər, gürcü menşevikləri, müsavatçılar, ittihadçılar və daşnaklar. Əmrdə Tbilisi və Bakıdan sonra... Rostov gəlir. Yerevanın adı yoxdur. Başqa sözlə desək, erməniləri Ermənistan paytaxtından dəbərtmək olmaz. 1937-ci ildə Sovet çekistlərinin şanlı bayramı - 20 illik yubileyi münasibətilə ümumittifaq təntənəli yığıncağında məruzəçi dünya daşnaklarının bolşevik lideri Mikoyan idi. O zaman toplantının Rəyasət Heyətində əyləşmiş Stalin təsəvvür etməzdi ki, «Yaşasın Stalin yoldaş!» hayqıran məruzəçi on beş ildən sonra onun da axırına çıxacaqdır.

Bəli, «37-nin doğum günü» 1937-dən başlanmır. Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, professor Azad Nəbiyev «Azərbaycan» qəzetinin 2000-ci il 25 aprel tarixli sayında dərc olunmuş «Yeddinci rəng» məqaləsində bu barədə belə yazır: «Məlum olduğu kimi, əsrin əvvəllərində bolşevik irticası təkcə

Azərbaycan Demokratik Respublikasını yox, Bakı və Gəncədə demokratik ruhlu ziyalıları, onların başında dayanan Rəfibəyləri məhv etməklə kifayətlənmədi. Üçlük məhkəməsi Rəfi bəyin qətlindən xeyli sonra (söhbət Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin üzvü və səhiyyə naziri, Gəncə qəzasının valisi Xudadat bəy Rəfibəyovdan gedir. Azad Nəbiyev səhvən onun adını «Rəfi» yazmışdır - T.Q.) onun ömür-gün yoldaşının və qızı Nigarın Azərbaycandan sürgün edilməsi qərarını verdi. Bu qərarın üzərinə «İcrası hələlik dayandırılsın» dərkənarı qoyan Mir Cəfər Bağırovun özünün taleyi də hələ 30-40-cı illərdə tükdən asılı idi, çünki 30-cu illərin repressiya maşınının sükançısı Azərbaycanda deyildi. Bu maşını hərəkətə gətirənlərin sağ əli olan, Azərbaycanı caynağında didib-parçalamağa hazır erməni qisasçıları bir anın içərisində hər şeyi məhv edib Azərbaycanda istədikləri qanlı cinayətləri törətməyə, hətta Mir Cəfər Bağırovu bir göz qırpımında məhv etməyə hazır idilər.

...Azərbaycan tarixinin çox təzadlı, ziddiyyətli, işgəncəli bir dövrü kimi tarixə daxil olan «37»-nin özünəməxsus psixologiyası, hələ açılmayan məqamları, öyrənilməmiş səhifələri vardır. Ziyalı elitasının əsl düşməni Mir Cəfər idimi? Əgər Mir Cəfər idisə, onun neçə-neçə ziyalını sürgünlərdən, repressiyalardan qurtarmasını necə başa düşmək olardı? Mir Cəfər özü qisasçıların qurbanlarından deyildimi? Onun doğmaları əsrin əvvəllərində ermənilər tərəfindən Qubada qanına qəltan edilməmişdimi?

1943-44-cü illərdə iki dəfə Azərbaycanın bütünlüklə köçürülməsi barədə Siyasi Büronun müdhiş qərarını və bu qərarın layihəsini şəxsi nüfuzu ilə ləğv etdirən Mir Cəfərin xidmətini tarixin unutmağa haqqı varmı?...

Qisasçılar bunun əvəzini Mir Cəfərdən bir neçə dəfə, özü də çox amansızcasına aldılar... 1946-cı ildə sovet qoşunları İrandan geri çağırıldı. Milli hökumət devrildi, Azərbaycanı birləşdirmək, elə bu məqsədlə də burada azadlıq hərəkatına «fəal yardım göstərdiyinə görə» M.C.Bağırov Siyasi büroda ciddi məzəmmətləndi və cəza aldı. Bu barədə xalqa məlumat verilmədi.

Qisasçılar həmin dövrdə M.C.Bağırova qarşı fitnə-fəsadları ara vermədən davam etdirir, Azərbaycan xalqından daha amansız qisas üçün ilk növbədə onu aradan götürmək istəyirdilər. 1948-ci ildə Qərbi Azərbaycandan azərbaycanlıların deportasiyası haqqında qərar qəbul edildi...

Həmin dövrdəki deportasiyanı əsassız olaraq M.C.Bağırovun adı ilə bağlayıb, Azərbaycanda qarışıqlıq yaradıb M.CBağırovun hakimiyyətdən getməsini istəyənlərin adı hələ indiyədək, təəssüf ki, açıqlanmır.

50-ci illərin əvvəllərində azərbaycanlıların yenidən sürgün edilməsinin qarşısını alan M.C.Bağırovun özü, nəhayət, siyasi rəhbərliyin dəyişməsi ilə qisasçıların fitnələrinin qurbanı kimi müttəhim kürsüsündə əyləşdirildi.»

Bağırovşünas tədqiqatçı alim Fazil Məmmədov «Ulus» qəzetinin 2001-ci il 30 sentyabr tarixli sayında yazır: «1937-ci il və ondan sonrakı hadisələr, o zaman deyildiyi kimi, «qardaş sovet respublikalarında» eyni ssenari üzrə baş verirdi. 1937-

ci il hadisələri Azərbaycanda necə baş verirdisə, SSRİ-nin digər respublikalarında da eyni formada cərəyan edirdi. Bunun üçün SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin rəhbərliyi tərəfindən bəyənilmiş və təsdiq olunmuş xüsusi qaydalar müəyyənləşdirilmişdi. Bu qaydalar hər bir respublikaya göndərilmişdi və onların əsasında insanların dindirilməsi, onlar üzərində məhkəmənin qurulması və başqa bu kimi hallar həyata keçirilirdi.

...1939-cu ilin 1 yanvarına kimi ölkə üzrə 1 mln. 317 min 195 nəfər vətən xaini adı ilə məhbəsdə olub. Bunlardan 830 min 491 nəfəri rus, 181 min 905 nəfəri ukraynalı, 44 min 785 nəfəri belorus, 24 min 499 nəfəri özbək, 19 min 758 nəfəri yəhudi, 18 min 572 nəfəri alman, 17 min 123 qazax, 16 min 860 polyak, 11 min 723 gürcü, 11 min 064 erməni, 9 min 352 türkmən, 4 min 874 başqırd, 4 min 347 tacik olub. Yerdə qalan 96 min 948 nəfər isə 100-dən çox xalqın nümayəndələrindən ibarətdir ki, biz azərbaycanlılar da onların içərisindəyik.»

Dəqiq araşdırmalar aparan hörmətli alimlərimizin yazdıqlarına göz yuman yalançı şahidlər isə 20-ci əsrdə baş vermiş bütün ədalətsizlikləri M.C.Bağırovun ünvanına yönəltməkdə davam edirlər. «Günay» qəzetinin 2002-ci il 16 mart tarixli sayında «Tarixi əyri güzgüdə görmək istəmiriksə...» sərlövhəli yazıda oxuyuruq: «Xalqın düşməni Rusiyada - Yejov, Azərbaycanda isə Bağırov idi. M.C.Bağırov öz ağalarına - rus-erməni blokuna artıq yaxşıca xidmət göstərməyə başlamışdı».

«Günay» qəzetinin şər və yalanları ancaq və ancaq «tarixin əyri güzgüsünə» düşə bilər. Əsl tarix isə bütün bunların cəfəngiyyat olduğunu göstərir. M.C.Bağırov «öz ağaları» haqqında hələ 1923-cü ildə mərdi-mərdanə yazmışdı. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan tərcümeyi-halında M.C.Bağırov «rus-erməni bloku»nun vəhşilikləri barədə qəzəb və nifrətini belə ifadə edir: «Daşnakların vəhşicəsinə hərəkətlərinin qarşısının alınmasında mən günahsız əhaliyə heç bir köməklik göstərə bilmədim, öz qohumlarımı belə xilas etmək mümkün olmadı. 70 yaşlı əmim Mir Talıb, onun oğlu Mir Paşa, kürəkəni Hacı Heybət və başqaları qətlə yetirildilər».

1918-ci ildə öz doğmalarını xilas edə bilməyən Mir Cəfər Bağırov 1937-ci ildə də doğma xalqının ayrı-ayrı övladlarını qanlı rejimin caynaqlarından ala bilməmişdir. Moskva «üçlüyünün» ilk hədəfi M.C.Bağırovun hörmətlə yanaşdığı görkəmli partiya və dövlət xadimləri idi.

1937-ci ilədək Dadaş Bünyadzadənin keçdiyi yola diqqət yetirək. O, 1920-ci ildə Azərbaycan Kommunist (Bolşeviklər) Partiyasının birinci qurultayında Mərkəzi Komitənin üzvü seçilmişdi. Sonralar Azərbaycan SSR xalq maarif, fəhlə-kəndli müfəttişliyi, ərzaq, torpaq komissarı, Dövlət Plan Komissiyasının sədri, Azərbaycan SSR Xalq Komissarları soveti sədrinin müavini, sədri və digər rəhbər vəzifələrdə çalışmışdır... 1937-ci ildə isə Moskva «üçlüyü» bütün bunların üstündən xətt çəkmiş, onu vaxtı ilə «Hümmət» təşkilatının üzvü olduğu üçün məhşər ayağına çəkmişdir. M.C.Bağırov neyləyə bilərdi?

1937-ciilədək Sultan Məcid Əfəndiyev Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri idi. M.C.Bağırovun Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri vəzifəsinə təyin olunması haqqında qərarı o imzalamışdır. Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan həmin qərarla tanış olun.

**«Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyətinin Qərarı**
**20 oktyabr 1932-ci il**
**M.C.Bağırov yoldaşın Azərbaycan SSR Xalq Komissarları Sovetinin Sədri Təyin Olunması barədə**

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin Rəyasət Heyəti qərara alır:

M.C.Bağırov yoldaş Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri təsdiq edilsin.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin sədri -S.M.Əfəndiyev.

Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin katibi -F.Abbasov.»

1937-ci ildə Moskva «üçlüyünün» qara dəftərində müsəlman «Hümmət» təşkilatının banilərindən biri kimi göstərilən insanı M.C.Bağırov necə xilas edə bilərdi?

1937-ci ildə Zaqafqaziya Sovet Federativ Sosialist Respublikaları Xalq Komissarları Sovetinin sədri vəzifəsində işləyən Qəzənfər Musabəyov Moskva «üçlüyü»nə «Hümmət» təşkilatının Həştərxan qrupunun rəhbəri kimi «lazım idi». Tanınmış partiya xadiminin dəfələrlə Leninlə görüşməsi də nəzərə alınmırdı.

M.C.Bağırov 1921-ci ildə Quba qəzasının fövqəladə komissarı işləmiş Qəzənfər Musabəyovu yaxından tanısa da, əlacsız idi.

Nə edə bilərdi?

* * *

Yalançı şahidlərin yazdığına görə, M.C.Bağırov Ruhulla Axundovun «cəlladı» olmuşdur. Onu aradan götürmək üçün üç dəfə təyyarə ilə Moskvaya getmiş, Stalindən xahiş etmişdi ki, Ruhulla Axundovun həbsinə icazə versin. Stalin iki dəfə etirazını bildirmiş, üçüncü dəfə isə M.C.Bağırovun xahişini yerinə yetirmişdi.

Tarixi həqiqət bütün bu uydurmanı alt-üst edir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində R.Axundovun 1936-cı il may ayının 16-da yazıb-imzaladığı «Kadro uçotu şəxsi vərəqəsi» saxlanılır. Vərəqədən aydın olur ki, o, 1917-ci ildə sol sosialist-inqilabçı (eserlər) partiyasının üzvü olmuşdur.

M.C.Bağırov ilə keçmiş «eser» arasında həmişə səmimi münasibət hissləri hökm sürmüşdür. Bunu arxivdə saxlanılan iki məktub əyani sübut edir.

Bu məktubları M.C.Bağırov 1929-cu il may ayının 6-da və avqustun 19-da Tiflisdən Moskvaya R.Axundova göndərmişdir.

O zaman Qırmızı Professorlar İnstitutunun tarix fakültəsinin şərqşünaslıq şöbəsində oxuyan azərbaycanlı ziyalı həm də Leninin əsərlərinin dilimizə tərcüməsi ilə məşğul idi.

1933-cü il dekabrın 10-da M.C.Bağırov Azərbaycan K(b)P Mərkəzi Komitəsinin katibi seçilərkən R.Axundov Bakıda Şaumyan adına Partiya İnstitutunda çalışırdı. Azərbaycanda M.C.Bağırov rəhbərliyə gələndən sonra R.Axundov üçün geniş imkanlar açılır.

1935-ci ildə o, VII Ümumittifaq Sovetlər qurultayına nümayəndə seçilir. 1936-cı ilin yanvarında Kremldə Azərbaycan SSR-in 15 illiyi münasibəti ilə qəbulda M.C.Bağırovun başçılıq etdiyi nümayəndə heyətində R.Axundov da olmuşdur. Lenin ordeni ilə təltif edilənlər arasında onun da adı vardı.

1934-cü ildə M.C.Bağırovun imzaladığı qərarlar arasında Ruhulla Əli oğlu Axundova aid olanlar da az deyildir. Məhz Azərbaycan rəhbərinin təşəbbüsü ilə o, həmin il may ayının 14-də SSRİ Elmlər Akademiyası Azərbaycan filialının sədr müavini seçilmişdir.

1936-cı il fevralın 10-da isə R.Axundov M.C.Bağırovun imzaladığı başqa bir qərara müvafiq olaraq, Azərbaycan SSR Xalq Komissarları Soveti yanında incəsənət işləri idarəsinin rəisi vəzifəsinə təyin edilmişdir.

Bunu da qeyd etmək lazımdır ki, Azərbaycan incəsənəti və ədəbiyyatının tərəqqisi, ayrı-ayrı ədib, şair, rəssam, alim və başqa elm və sənət adamlarının ali təhsil alması sahəsində R.Axundovun qaldırdığı bütün məsələlər Azərbaycan rəhbəri tərəfindən müsbət həll olunmuşdur. Belə məsələlərdən biri barəsində Azad Şərifin 1999-cu ildə «Elm və həyat» nəşriyyatı tərəfindən buraxılmış «Həyatımda tanıdığım adamlar» kitabında maraqlı bir məlumat verilmişdir. Bakı milyonçularından biri olmuş Balabəy Aşurbəyovun qızı, İstanbulda fransız kollecini bitirmiş gənc alim Sara Aşurbəyli vaxtilə atasının maddi yardımı ilə təhsil almış Ruhulla Axundova onu Leninqrada göndərmək barədə xahişlə müraciət etmişdir R.Axundov milyonçu qızının xahişini M.C. Bağırova çatdırmışdır. Azərbaycan rəhbərinin xeyir-duası ilə Sara Aşurbəyli iki il müddətinə Leninqrad Şərqşünaslıq İnstitutunun təkmilləşdirmə kurslarına və Ermitaja göndərilmişdir.

Sara Aşurbəyli doğma Bakıya qayıdanda... bir daha Ruhulla Axundova minnətdarlıq edə bilməmişdir.

Onu Bakıda həbs etmiş, təhlükəli «trotskiçi» cinayətkar kimi Moskvaya - SSRİ Xalq Daxili İşlər Komissarlığının dustaqxanasına salmışdılar.

M.C.Bağırov 1937-ci ildə keçmiş «eseri» qanlı «37»-nin caynağından almaqda aciz idi. Nə edə bilərdi?

M.C.Bağırov vəzifədə olduğu 1953-cü ilə qədər Ruhulla Axundovun yaxın qohumlarına qayğı göstərmişdir. Azərbaycan mətbuatı səhifəsində son illər doğruçu şahidlər bu barədə geniş bəhs edirlər.

Məsələn, R.Axundovun bacısı qızı, Azərbaycanın xalq artisti Nəcibə Məlikova haqqında yazılanlardan aydın olur ki, anası Əli Bayramov adına fabrikdə partiya təşkilatı katibi işləyirmiş.

R.Axundov həbs olunandan sonra Nəcibə Məlikovanın teatr texnikumundan qovulması, anasının da işdən çıxarılması qərara alınmışdır.

M.C.Bağırovun köməyi ilə Nəcibə texnikuma, anası da işinə bərpa olunur.

M.C.Bağırov 1952-ci ildə teatr işçiləri ilə görüşündə Nəcibə Məlikovanı tərifləyir və hamının qarşısında teatrın direktoruna deyir: «Belə gözəl qızlara imkan yaradın, yaxşı rollar verin».

* * *

Təəssüflər olsun ki, iyirminci yüzilliyin sonlarında və yeni əsrin ilk illərində yaxşı rolları təkcə aktyorlar deyil, teatr binalarından kənarda fəaliyyət göstərənlər də oynayırlar. Belələri arasında qələm sahibləri də vardır.

1999-cu ildə «Qanun» nəşriyyatı Əlisa Nicatın «100 böyük azərbaycanlı» kitabını nəşr etmişdir. Cild səhifəsində oxuyuruq: «Görkəmli yazıçı, tarixçi və filosof Əlisa Nicatın yeni kitabı eyni məzmunlu YUNESKO siyahısından, yəhudi və türk kitablarından sonra güman ki, dünyada dördüncüdür. Müəllif Azərbaycanın bütün dövrlərdə yaşamış ən böyük və dəyərli şəxsiyyətlərini -xalqımızın 1000 illik tarixinin demək olar ki, qaymağını seçib sıralamışdır. Bu klassifikasiya və düzüm nə dərəcədə subyektiv olsa da, bir o qədər obyektivdir. Oxucular çoxlu krestomatik şəxsiyyətlərimiz haqqında gözlənilməz və sərt qiymətdən təəccüblənə bilərlər. Lakin yazıçı tamamilə bitərəf hakim - Femida kimi hərəkət edib heç bir şəxsiyyətin nə xidmətlərini azaltmağa, nə də şişirtməyə çalışmışdır».

Əfsuslar olsun ki, kitabın müəllifi Mir Cəfər Bağırova münasibətdə Femida rolundan üz döndərmiş, 1956-cı ilin SSRİ baş prokuroru Rudenkonu təmsil etmişdir. «Üzeyir bəy Hacıbəyov» məqaləsində oxuyuruq: «Üzeyir bəyi erməni həkimi Osipyan öldürdü. Bu cinayətə görə o dövrün dövlət başçıları, ilk növbədə M.C.Bağırov bir daha mühakimə olunub ölümə məhkum edilməlidir».

Əlisa Nicatın dedikləri olsa-olsa şər və böhtandır. M.C.Bağırov Üzeyir Hacıbəyovun cəlladı deyil, xilaskarı olmuşdur.

Unudulmaz yazıçımız Manaf Süleymanov 1996-cı ildə nəşr etdirdiyi «Son bahara çatdıq...» kitabında bu iki böyük şəxsiyyət arasındakı münasibətlərdən bəhs edərək yazır: «M.C.Bağırov Üzeyirbəyin sənətinə və şəxsiyyətinə böyük ehtiramla yanaşırdı. 60 illiyi münasibətilə təltif edildi. Təntənəli yubiley keçirildi. «Arşın mal alan» operettası əsasında film çəkildi.

Bir-birinə sadiq olan iki şəxsiyyət üçün 1937-ci il çətin sınaq oldu. Xalqımızın düşmənləri elə təsəvvür edirdilər ki, Azərbaycan Xalq Cümhuriyyətinin himnini yazan, doğma qardaşı Fransada yaşayan bəstəkarı qoruyub-saxlamaq M.C.Bağırova müyəssər olmayacaqdır.

1937-ci ildə böyük Üzeyiri daşnakların hiyləsindən qoruyub-saxlamış M.C.Bağırov onun həyatını erməniyə tapşıra bilərdimi?

* * *

«Günay» qəzetinin 2002-ci il 4 sentyabr tarixli sayında «Ü.Hacıbəyli -117. Əyib-əylənən hakimlər, əyilməz nadir şəxsiyyətlər» (Üzeyirbəyi düşünərkən)» sərlövhəli məqalə dərc edilmişdir. Müəllifi professor Şirməmməd Hüseynovdur.

Hər yaşında «Ü.Hacıbəyov» olan ölməz bəstəkarı 117 yaşında «Ü.Hacıbəyli» yazan qəzet nədənsə 106 yaşlı Mir Cəfər Bağırovu tənqid hədəfinə çevirmişdir. Sən demə, M.C.Bağırov «əyib-əylənən hakim» imiş...

Məqalədə 117 yaşlı Ü.Hacıbəyovdan daha çox 50 və 60 yaşlı Ü.Hacıbəyovdan bəhs olunur. Çünki həmin ildönümlər M.C.Bağırov vaxtına təsadüf edir. Müəllif yazır: «Bu günlərdə 1935-ci ilin sentyabr günlərinin qəzetlərini yenidən nəzərdən keçirdim. Üzeyir bəyin anadan olmasının 50 illiyinə dair yazıya rast gəlmədim. Tam laqeydlik».

Hörmətli professorun yazdıqlarını oxuduqdan sonra kitabxanaya üz tutdum. Təkcə 1935-ci il sentyabr günlərinin qəzetlərində deyil, bütünlüklə otuzuncu illərin mətbuat səhifələrində görkəmli şəxsiyyətlərin yubileyinə həsr edilmiş materiallar axtardım. Nə 1931-ci ildə Abdulla Şaiqin anadan olmasının 50 illiyinə, nə 1932-ci ildə Məmməd Səid Ordubadinin 60 illiyinə, nə 1933-cü ildə Əlabbas Müznibin 50 illiyinə, nə 1934-cü ildə Əlibəy Hüseynzadənin 70 illiyinə, nə 1935-ci ildə Süleyman Sani Axundovun 60 illiyinə, nə 1936-cı ildə Sultanməcid Qənizadənin 70 illiyinə dair bir yazı tapmadım. Arxiv materiallarını araşdırdım. Nəticədə aydın oldu ki, 30-cu illərdə SSRİ-nin digər respublikalarında olduğu kimi, Azərbaycan SSR-də də yaşayıb-yaratmaqda olan ən məşhur sənətkarların da rəsmi yubileyləri keçirilməmişdir. Mir Cəfər Bağırov günahkardır? Həmin illərdə yubiley sahibləri öz mənzillərində məclis qurmuşlar. Azərbaycanın əməkdar jurnalisti, məşhur salnaməçi Qulam Məmmədlinin tərtib etmiş olduğu və 1984-cü ildə «Yazıçı» nəşriyyatı tərəfindən buraxılmış «Üzeyir Hacıbəyov (1885-1948). Həyat və yaradıcılığının salnaməsi» kitabında (səh.375) oxuyuruq: «1935-ci il, Bakı, Aşağı Priyut küçəsində, Üzeyir bəyin yaşadığı evdə kompozitorun anadan olmasının 50 illiyi münasibətilə qonaqlıq olmuşdur».

Mərhum salnaməçi baş verənləri qələmə almışdır, şahidi olduğu hadisələrə don geydirməmişdir.

Qulam Məmmədli M.C.Bağırovdan bir yaş kiçikdir, 1897-ci ildə Təbrizdə anadan olmuşdur. 1923-cü ilədək Aşqabadda yaşamışdır. M.C.Bağırovun Azərbaycan Dövlət Siyasi İdarəsinin sədri vəzifəsinə təyin olunduğu vaxtda Bakıya gəlmişdir. Aşqabadda mətbəədə mürəttib işləmiş Q.Məmmədli Bakıya gəldikdən sonra mürəttiblikdən «Kommunist» qəzetinin şöbə müdiri vəzifəsinə yüksəlmişdir. İşgüzar və təmiz vicdanlı ziyalı daha sonralar M.C.Bağırovun tövsiyəsi ilə

Azərbaycan KP MK yanında «Kommunist» nəşriyyatının direktoru vəzifəsinə irəli çəkilmişdir.

İkinci dünya müharibəsi illərində də Qulam Məmmədli Azərbaycan rəhbərinin qayğısından kənarda qalmamışdır. O, Təbrizdə çıxan «Vətən yolunda» qəzeti redaksiyasının müdiri vəzifəsində çalışmışdır.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində həmin qəzetin ilk nömrəsinin nəşr olunması ilə əlaqədar Təbrizdən Mir Cəfər Bağırovun ünvanına göndərilmiş məktub saxlanılır. Bu sənəddən aydın olur ki, «Vətən yolunda» qəzeti 1944-cü il aprel ayının 10-da dörd min tirajla çıxmış və üç saat ərzində Cənubi Azərbaycanda yayılmışdır. Qəzeti hazırlayanlar arasında Qulam Məmmədli ilə yanaşı Həsən Şahgəldiyevin, Cəfər Xəndanın, İsrafil Nəzərovun, Ənvər Məmmədxanlının, Qılman Musayevin, Məmməd Rahimin də adı vardır. Nə rəhmətə gedənlər sağlığında, nə də hazırda salamat olan Qılman İlkin (Allah onun ömrünü uzun eləsin) 1994-cü ilədək, yəni Qulam Məmmədlinin son nəfəsinədək onun dilindən Mir Cəfər Bağırovun əleyhinə bir kəlmə də eşitməmişlər. M.C.Bağırovun məhkəməsindən sonra bir çox qələm sahibləri Azərbaycan rəhbərinin ünvanına «Mirqəzəb», «Mircəllad», «Əzazil» və b.k. yaramaz ifadələr tuşlayanda da Qulam Məmmədli öz vicdanının səsinə qulaq asmışdır. Millətimizin qüruru olan bir insanın Hüseyn Cavidə və Üzeyir Hacıbəyova həsr edilmiş kitablarında da M.C.Bağırovun adına rast gəlməzsiniz. Məhz buna görə də «Günay» qəzetində aşağıdakı cümlələri oxuyarkən təəccüblənirsən: «Qulam müəllim mənə təklikdə izah etmişdi ki, bolşeviklər, M.C.Bağırov Üzeyirbəyin Müsavat dövrü fəaliyyətini həmişə onun üzünə vurur, əyilməyən şəxsiyyətini əymək, ondan bolşevik yaltağı və məddahı, Müsavatın və onun liderlərinin ünvanına, hədyanlar söyləyən yeni «ziyalı» yetişdirmək istəyirdilər».

Nəyə inanaq? Yazılanlara, yoxsa «təklikdə» deyilənlərə?

«Günay» qəzetində daha sonra oxuyuruq: «Üzeyir bəyin anadan olduğu 18 sentyabrdan sonra 20 sentyabr gəlirdi. Həmin gün hər il çox böyük canfəşanlıqla Bakı komissarlarının həlak olduqları gün kimi qeyd olunur, müsavatçılar ittiham edilir, onların ünvanına böhtan və hədyanlar söylənilir, qəzet səhifələri belə yazılarla doldurulurdu».

Mir Cəfər Bağırov üçün sentyabrın 20-si günü heç bir zaman əlamətdar olmamışdır. «Böhtan və hədyanlar söyləyərək qəzet səhifələrini belə yazılarla dolduranlar» arxiv materialları ilə tanış olsalar tamamilə bu həqiqətə inanarlar. Mir Cəfər Bağırovla uzun müddət bir yerdə işləmiş Həsən Həsənov 1954-cü ildə Azərbaycan KP MK-nın elm və mədəniyyət şöbəsinin müdiri vəzifəsində olarkən həmin ilin fevralında respublika kommunistlərinin iyirminci qurultayındakı çıxışında demişdir: «Bağırov Azərbaycan tarixi dərsliyindən Mikoyanın, Orconikidzenin, 26 Bakı komissarlarının adlarının çıxarılması barədə göstəriş verməklə kifayətlənmirdi. Gözlərimiz qabağında öz əlilə bu adların üstündən xətt çəkirdi».

1954-cü ildə Azərbaycan KP MK katibi vəzifəsini tutmuş Vitali Səmədov qurultayda M.C.Bağırov barəsində bunları demişdir: «Bağırov bizə göstəriş verirdi ki, Azərbaycanın tarixindən danışarkən, Mikoyanın adını çəkməyək. Partiya İnstitutunu köhnə adı ilə - Şaumyan adı ilə dilə gətirməyək. O, hətta partiya və hökumət rəhbərlərinə hörmətsizlik hərəkətlərinə yol verirdi. Başqaları yanında kişilənərək onlara Nikita, Georgi; Panteley, Mişa və s. bu kimi müraciət edirdi».

1954-cü ildə Partiya İnstitutunun direktoru vəzifəsində işləyən Vladimir Zevin Mir Cəfər Bağırovun 26-lara olan yad münasibətindən qurultayda hiddətlə danışmışdı: «Bağırov 1918-ci ildə Bakı Soveti Xalq Kommunasının və 26 Bakı komissarlarının fəaliyyətinə çox pis münasibət bəsləyirdi. Bağırov bütün vəchlə çalışırdı ki, 26-ların adı Azərbaycan zəhmətkeşlərinin hafizəsindən silinsin. Yadımdadır, 26-lar haqqında yeni film çəkilməsi zərurətindən söhbət düşəndə kobudcasına dedi: nə vaxtadək bu saqqızı çeynəyəcəyik?

Bəli, sentyabr ayının 17-də dünyaya gəlmiş Mir Cəfər Bağırovun da, sentyabr ayının 18-də doğulmuş Üzeyirbəy Hacıbəyovun da bir düşməni olmuşdur - daşnaklar! Bu da maraqlıdır ki, Ü.Hacıbəyov hələ 1919-cu il sentyabrın 3-də «Azərbaycan» qəzetində dərc etdirdiyi məqaləsində Mir Cəfər Bağırovun gələcək düşmənlərinin adlarını çəkmişdir: «Sosializm oyunu qurmaq üçün münasib zəmin hazırlanır. Öylə olarsa... Mirzoyan və Mikoyanların sayeyi-mərhəmətindən Qarayevlər füqareyi-kasibəni «ağ günlərə» çıxararlar».

«Günay» qəzeti isə 2002-ci ildə Mir Cəfər Bağırovu Üzeyirbəy Hacıbəyovun qənimi edir. Məqalədə oxuyuruq: «M.C.Bağırov və onun ətrafında cəmlənmiş bədnam çekanın erməni-daşnak və rus şovinist intiqamçıları, milli gədalar fürsət və mərkəzdən komanda gözləyirdilər. Hədəflərdən biri də Üzeyirbəy idi». Mir Cəfər Bağırov «mərkəzdən komanda»nın əksinə olaraq Azərbaycanda yüksək vəzifə pillələrini zəbt etmiş erməni-daşnak xislətli məmurları azərbaycanlılarla əvəz edirdi.

Arxivdə Azərbaycan SSR-in himninin Üzeyirbəy Hacıbəyov tərəfindən yazılmasına dair də maraqlı materiallar vardır. Himn 1944-cü ildə qapalı müsabiqədə hökumət komissiyası tərəfindən bəyənilmiş və respublika rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdi. 1945-ci il sentyabrın 23-də «Kommunist» qəzetində dərc edilmişdi. Sovet Azərbaycanının himninin musiqisinin Azərbaycan Xalq Cümhuriyyəti himninin yaradıcısı Üzeyirbəy Hacıbəyov tərəfindən bəstələnməsi M.C.Bağırovun ürəyindən idi. Azərbaycan rəhbəri üçün 1918-1920-ci illərdə 26 Bakı Komissarı deyil, Azərbaycan Demokratik Respublikası tarixin səhifələrinə çevrilmişdi. Mir Cəfər Bağırov üçün «hədəflərdən biri də Üzeyir bəy» deyil, hədəflərin hamısı şaumyanlar idi. Məhz buna görədir ki, M.C.Bağırovun rəhbərliyi vaxtında Azərbaycanda 26-lara heykəllər ucaldılmamışdır.

1918-ci ilin mart ayında daşnaklarla əl-ələ verərək minlərlə azərbaycanlını qətlə yetirmiş Rusiyanın Qafqaz işləri üzrə fövqəladə komissarı Stepan Şaumyan və

Bakı Sovetinin sədri Prokofi Caparidze Bakı meydanlarında postament üzərinə sonralar qaldırılmışlar.

1968-ci ildə Azərbaycanda şaumyanların törətdiyi mart qırğınının 50 illiyi ərəfəsində şəhərin mərkəzində 26 Bakı komissarı xatirə ansamblı təntənəli şəraitdə açılmışdır.

1978-ci ildə Stepan Şaumyanın anadan olmasının 100 illiyi dövlət səviyyəsində qeyd olunmuşdur. Abidəsi qoyulmuş, mənzil-muzeyi təşkil edilmişdir.

Azərbaycan Sovet Ensiklopediyasına atası ilə yanaşı oğlu Suren Şaumyan haqqında da məqalə daxil edilmişdir.

1980-ci ildə Azərbaycan qəzetlərinin səhifələri M.C.Bağırov haqqında şər və böhtan dolu materiallarla doldurulduğu vaxtda, xalqımızın əsl düşmənlərindən biri Prokofi Caparidzenin 100 yaşı bayram edilmişdir.

O zaman yüksəldilən abidəsi indi də qalmaqdadır. Kutaisi quberniyasının Raça qəzasının Şardometi kəndində doğulana Bakıda mənzil-muzey yaradılmışdır.

Bakı kommunasının daha bir «alovlu qəlbi» - İvan Fioletovun 100 illiyi 1983-cü ildə bayrama çevrilmişdir. Tambov vilayətinin Jerdevka rayonunun Tuqolukovo kəndində doğulana Bakıda mənzil-muzey açılmışdır. ASE-də özü ilə birlikdə arvadı Olqa İvanovna haqqında da məqalə verilmişdir.

Şaumyanların düşməni Mir Cəfər Bağırovu «xalq düşməni» elan etmiş Sovet rejiminin süqutundan sonra Bakıda daşnak heykəlinin yerində Şah İsmayıl Xətainin abidəsi ucaldıldı.

Mir Cəfər Bağırovun ruhu o zaman şad olacaqdır ki, Şah İsmayıl Xətaidən sonra Bakıda Hüseynqulu xanın, Gəncədə Cavad xanın, Qubada Fətəli xanın əzəmətli heykəlləri göz oxşasın...

«Günay» qəzeti isə Həsən xanı yada salır. Sən demə, Ü.Hacıbəyovun «Koroğlu» operasındakı Həsən xan obrazının prototipi M.C.Bağırovmuş.

İyirmi birinci əsrin ilk illərində Həsən xanın sözlərinin Mir Cəfər Bağırova aidiyyatı olmadığını tarix özü sübut edir. Həsən xanlar səhnədən tamaşa zallarına düşmüşlər. Koroğlunun köhlən atlarının cıdır meydanlarında bütün yürüş yollarını tutmuşlar. Yalnız «20 Yanvar»dan «Qələbə»yədək məsafə qalmışdır.

İyirminci əsrin Azərbaycan rəhbərləri arasında heç kəs M.C.Bağırov qədər Azərbaycanı qarış-qarış gəzib-dolaşmamışdı. Onun olduğu kəndlərin, rayonların, şəhərlərin, ucqar mahalların, zavodların, neft mədənlərinin... siyahısı tutulsa, qalın bir kitab bağlanar. «Əyib-əylənən» sözlərinin M.C.Bağırova nə dəxli var? O heç zaman şöhrət düşkünü, təmtəraq əsiri olmamışdır. Uzun illər M.C.Bağırovla bir yerdə işləmiş, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ikinci katibi vəzifəsini tutmuş Həsən Seyidov «diktatura rejimində demokratiyanı və humanizmi» yaşadan M.C.Bağırovun sadə insani keyfiyyətlərindən söz açaraq yazır: «Багиров не любил, чтобы ехали в аэропорт или на вокзал, чтобы провожать или встречать его».

«Günay» qəzetində dərc olunmuş məqalədə Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi ilə əlaqədar yazılanlar da M.C.Bağırov şəxsiyyətini alçaltmaq məqsədini daşıyır: «Bəs 1945-ci ildə Üzeyirbəyin 60 illik yubileyi necə keçirildi? Mərhum Qulam Məmmədlinin salnaməsində bu barədə verilən məlumatlardan görünür ki, bu barədə ilk yazı Təbrizdə nəşr olunan «Şəfəq» qəzetində elə (avqust 1945) Q.Məmmədlinin özünün yazdığı Ü.Hacıbəyovun anadan olmasının 60 illiyinə həsr olunmuş «Böyük bəstəkar» məqaləsi hesab edilir... Sentyabrın 18-də M.F.Axundov adına Dövlət Opera və Balet Teatrında təntənəli yığıncaq keçirildi. Diqqəti cəlb edən budur ki, yığıncaqda M.C.Bağırov başda olmaqla partiya və dövlət rəhbərləri iştirak etmirdi».

Bu yazıların uydurma olduğunu yəqin etmək üçün Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivindəki müvafiq sənədlərlə tanış olmaq kifayətdir.

Arxiv materiallarından aydın olur ki, Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi barədə «ilk yazı» 1945-ci ildə deyil, bundan bir il qabaq mövcuddur və bu «ilk yazı»nı Mir Cəfər Bağırov imzalamışdır;

Azərbaycan K(b)P MK-nın 1944-cü il dekabr tarixli qərarı ilə oxucuları tanış edirəm:

«SSRİ Xalq artisti, bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 60 illiyi haqqında»

1.SSRİ Xalq artisti, bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 60 illiyi ilə əlaqədar 1945-ci il sentyabr ayında yubileyi keçirilsin.

2.Azərbaycan SSR Xalq Komissarları Soveti yanında incəsənət İşləri İdarəsinin rəisi Rəhimov yoldaşa, Azərbaycan Yazıçılar İttifaqının sədri S.Rəhimov yoldaşa və Elmlər Akademiyası Azərbaycan filialı Rəyasət Heyətinin sədri H.Hüseynov yoldaşa tapşırılsın ki, bəstəkar Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi ilə əlaqədar bir ay müddətində tədbirlər hazırlayıb Azərbaycan K(b)P MK-ya təqdim etsinlər.

**Azərbaycan K(b)P MK katibi**
**M.C.Bağırov»**

Mir Cəfər Bağırov Ü.Hacıbəyovun anadan olmasının 60 illiyi ilə əlaqədar tədbirlərlə tanış olduqdan sonra, 1945-ci il avqust ayının 16-da tarixi bir qərarı imzalamışdır:

«Üzeyir Hacıbəyovun anadan olmasının 60 və musiqi fəaliyyətinin 40 illiyinə hazırlıq görülməsi və onun keçirilməsi ilə əlaqədar tədbirlər barədə

(Xalq Komissarları Sovetinin və Azərbaycan K(b)P MK-nın qərarı).

1. Azərbaycan operasının banisi, SSRİ xalq artisti, bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 60 və musiqi fəaliyyətinin 40 illiyinə hazırlıq görülməsi və yubileyin keçirilməsi üçün aşağıdakı tərkibdə komissiya təşkil edilsin:

M.İbrahimov (sədri), H.Həsənov, N.Allahverdiyev, H.Hüseynov, S.Rəhimov, Səməd Vurğun Vəkilov, Musa Əliyev, H.Rəhimov, Əli Vəliyev, Şövkət Məmmədova, Bülbül Məmmədov, Zeydman, Rəsul Rza.

2. Azərbaycan SSR Elmlər Akademiyasının (Mirqasımov, Hüseynov yoldaşlar) tapşırılsın ki, Üzeyir Hacıbəyovun həyatı, yaradıcılığı və ictimai fəaliyyətindən bəhs edən kitabça hazırlayıb nəşr etsin.

3.Azərbaycan SSR Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinə (H.Rəhimov yoldaşı) bir vəzifə olaraq tapşırılsın:

a)«Koroğlu» operasının və Stalinin 60 illiyinə həsr olunmuş kantatanın Azərbaycan və rus dillərində mətnlərlə klavritini nəşr etsin;

b)«Arşın mal alan» musiqili komediyasının klavirini nəşr etsin;

v) Teatr muzeyində Ü.Hacıbəyovun yaradıcılığına həsr olunmuş sərgi təşkil etsin;

q) Ü.Hacıbəyovun həyatına, ictimai fəaliyyətinə və yaradıcılığına həsr olunmuş məruzə və mühazirələr, həmçinin xüsusi radio-verilişləri təşkil etsin;

d) Üzeyir Hacıbəyovun 60 illik yubileyinin keçirilməsində yerli təşkilatlara köməklik göstərmək məqsədilə Naxçıvana, Kirovabad, Ağdam, Stepanakert, Şuşa, Nuxa və Ağcabədiyə yaradıcı işçilərdən və bəstəkarlardan ibarət briqadalar ezam edilsin.

4.Azərbaycan Bəstəkarlar İttifaqına tapşırılsın ki, Ü.Hacıbəyovun yaradıcılığına və ictimai fəaliyyətinə aid məqalələr hazırlasın və dərc olunmaq üçün mərkəzi qəzetlərə - «Pravda», «İzvestiya», «Komsomolskaya Pravda», «Sovetskoe iskusstvo» və digər qəzetlərə göndərsin.

5.Azərbaycan Döylət Radio Komitəsinə (Abbasov yoldaş) təklif edilsin ki, Ü.Hacıbəyovun musiqi əsərlərindən ibarət xüsusi proqramlar hazırlansın və Ümumittifaq Radio Komitəsinə göndərilsin.

6.Kinematoqrafiya İşləri İdarəsinə (Rəsul Rza yoldaş) tapşırılsın ki, Ü.Hacıbəyovun yubileyinə həsr olunmuş material hazırlansın və xüsusi kino-xronika nümayiş etdirsin.

7.Azərbaycan Dövlət Konservatoriyasının müdavimləri üçün hər biri 400 manat olmaqla Üzeyir Hacıbəyov adına iki təqaüd təsis edilsin.

8.Azərbaycan SSR Elmlər Akademiyasının İncəsənət İnstitutuna Üzeyir Hacıbəyovun adı verilsin.

9.Respublika qəzetləri redaktorlarına tapşırılsın ki, Ü.Hacıbəyovun həyat və musiqi yaradıcılığı barədə materiallar dərc etsinlər, yubiley günü - sentyabrın 18-də isə qəzetin bütöv bir səhifəsini ona həsr etsinlər.

10.1945-ci il sentyabrın 18-də Üzeyir Hacıbəyovun anadan olmasının 60 illiyi günü bəstəkarın, yazıçıların, artistlərin və Bakı şəhəri ziyalılarının digər nümayəndələrinin iştirakı ilə təntənəli yubiley gecəsi keçirilsin.

11.ÜİK(b)P Mərkəzi Komitəsindən xahiş edilsin ki, SSRİ xalq artisti Üzeyir Hacıbəyov yoldaşın yubileyinin keçirilməsinə icazə versin.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri T.Quliyev
Azərbaycan K(b)P MK katibi M.C.Bağırov».

Bu qərarın bütün maddələrinə əməl olunmasına şəxsən M.C.Bağırov nəzarət etmişdir.

Yubiley günü ərəfəsində, 1945-ci il sentyabrın 16-da Azərbaycan mətbuatında aşağıdakı fərman dərc olunmuşdur:

**Azərbaycan SSR Elmlər Akademiyasının İncəsənət İnstitutuna Üzeyir Hacıbəyovun adının verilməsi haqqında**

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanı

Bəstəkar Üzeyir Hacıbəyovun anadan olması gününün 60 illiyi və musiqi fəaliyyətinin 40 illiyi ilə əlaqədar olaraq Azərbaycan SSR Elmlər Akademiyasının incəsənət institutuna Üzeyir Hacıbəyovun adı verilsin.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri M.B.Qasımov.
Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi K.Fərəcova.

Üzeyir Hacıbəyovun yüksək dövlət ordeni ilə təltif olunması barədə M.C.Bağırovun Moskvaya yazdığı məktub da müsbət həll edilmişdir. 1945-ci il sentyabrın 17-də yubiley axşamı Kremldə imzalanmış fərman ertəsi günü yubiley komissiyasının üzvü, M.C.Bağırovun sədaqətli dostu Əli Vəliyevin baş redaktor olduğu «Kommunist» qəzeti vasitəsilə bütün Azərbaycana yayılmışdır:

**Musiqi incəsənəti sahəsində görkəmli xidmətlərinə görə və anadan olmasının 60 illiyi ilə əlaqədar olaraq SSRİ xalq artisti, bəstəkar Üzeyir Hacıbəyov Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilsin.**

SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri M.Kalinin.
SSRİ Ali Sovetinin Rəyasət Heyətinin katibi A.Qorkin.
Moskva, Kreml, 17 sentyabr 1945-ci il.»

1945-ci ii sentyabrın 18-də Azərbaycan K(b)P Mərkəzi Komitəsinin növbəti büro iclası olmuşdur. Arxivdə saxlanılan bütün iclas protokollarında olduğu kimi, burada da M.C.Bağırovun adı büro üzvləri ilə birlikdə yazılmışdır:

Bağırov, Quliyev, Əzizbəyov, Yaqubov, Rəhimov, Əmiraslanov... MK katibləri Əlizadə, Seyidov, Qafarzadə.

Büro iclasından sonra M.C.Bağırov öz həmkarları ilə yenə də birlikdə Üzeyir Hacıbəyovun yubiley yığıncağında iştirak etmişdir. Azərbaycan K(b)P Mərkəzi Komitəsi bürosunun qərarına müvafiq olaraq, təntənəli yubiley mərasimini Azərbaycan SSR Xalq Komissarları Soveti sədrinin müavini N.Allahverdiyev açmış, Səməd Vurğun məruzə etmiş, çıxışlar olmuşdur. Partiya və hökumət nümayəndələri ilə birlikdə M.C.Bağırovun da M.F.Axundov adına Opera və Balet Teatrında Üzeyir Hacıbəyovun 60 illik yubileyində iştirak etməsi 1945-ci

ilin kino lentlərində əks olunmuşdur. «Kommunist» qəzetinin 1945-ci il sentyabrın 19-da çıxmış sayında «Üzeyir Hacıbəyovun yubileyi» yazısında deyilir: «Üzeyir Hacıbəyov həyəcanlı cavab nitqi söyləyərək yaradıcılıq fəaliyyətinə yüksək qiymət verən partiya və hökumətə qızğın təşəkkür etdi».

Bəstəkar onun yubiley yığıncağında iştirak edən M.C.Bağırova minnətdarlığını onun adını çəkməklə ifadə edə bilməzdi. Çünki yaxşı bilirdi ki, Azərbaycan rəhbəri adının ayrıca çəkilməsini xoşlamırdı. Üzeyir Hacıbəyovun Mir Cəfər Bağırov haqqındakı ürək sözləri 1945-ci il may ayının 19-da «Azərbaycan xalq musiqisinin əsasları» kitabının respublika rəhbərinə şəxsən hədiyyə etdiyi nüsxəsində qalmışdır: «Azərbaycan musiqi sənətini yüksək qiymətləndirən və onun tərəqqisi naminə bizə ilham verən əziz Mir Cəfər Bağırov yoldaşa uzun illər elmi-tədqiqat işimin bəhrəsi olan bu kiçik hədiyyəni təqdim edirəm».

Mir Cəfər Bağırovun xalqımızın musiqi sənətini, xüsusilə Ü.Hacıbəyov yaradıcılığını necə yüksək qiymətləndirməsini Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan bir qovluqdakı materiallar bir daha sübut edir. Burada V.Muradelinin «Böyük dostluq» operası ilə əlaqədar Mərkəzi Komitənin qərarından irəli gələn vəzifələrin həyata keçirilməsinə dair sənədlər toplanmışdır.

Diqqətimizi 1948-ci il mart ayının 8-də M.C.Bağırovun yanında Azərbaycan musiqiçilərinin iştirakı ilə keçirilmiş müşavirənin stenoqrafiyası cəlb etdi. Çıxışların gedişində M.C.Bağırovun replikalarına diqqət yetirin:

GİNZBURQ - Konservatoriyada elmi-tədqiqat işləri zəif aparılır. Konservatoriyaya kənardan güclü və peşəkar mütəxəssislər dəvət edilməlidir. Yoxsa Azərbaycan musiqisi tarixini yazmaq olmaz.

M.C.BAĞIROV - Azərbaycan musiqisinin tarixini azərbaycanlılar özləri yazmalıdırlar.

GİNZBURQ-Axı metodist-tarixçilər, nəzəriyyəçilər, elmi işçilər də lazımdır...

M.C.BAĞIROV - Bu məqsədlə konservatoriyada çalışan gənc kadrları yarım illiyə Moskva və Leninqrada göndərmək olmazmı?!

Müşavirədə xalqların mahnı yaradıcılığından söhbət düşərkən, gürcülərin məşhur «Suliko»su vurğulanır...

M.C.BAĞIROV - Əgər bilmək istəyirsinizsə, bizim «Layla»mız «Suliko»dan geri qalmır. Bəstəkarlarımız çox nahaq yerə onu kvartetdə səsləndirirlər. Beşik başında çalğı olar?

Azərbaycan bəstəkarlarından Ağabacı Rzayeva və Səid Rüstəmov da müşavirədə çıxış edirlər. Səid Rüstəmov Konservatoriyanın bütün şöbələrində Azərbaycan dilinin tədrisinə başlamağı təklif edir...

M.C.BAĞIROV - Tamamilə düzdür. Bütün Konservatoriyada fənlərdən biri kimi deyil, başlıca fənlərdən biri kimi Azərbaycan dili tədris edilməlidir.

KORNİTSKAYA - Sözsüz ki, bizim fəaliyyətimiz Azərbaycan musiqisinin taleyi ilə bağlıdır. Ancaq uşaqlıqdan alışdığımız öz ana dilimizə də diqqət verilməlidir.

M.C.BAĞIROV - Dil haqqında Mərkəzi Komitənin ayrıca qərarı var. Orada deyilir ki, bu və ya digər respublikada yaşayan vətəndaş həmin respublikanın dilini bilməyə borcludur, Yəqin ki, məşhur aqronom, hazırda toxuculuq sənayesi nazirinin müavini Yevgeniya Kremlyovanı tanıyırsınız. Bilirsiniz ki, o da bizimlə birlikdə Stalin yoldaşın qəbulunda iştirak etmişdir. O zaman bu rus qadını Azərbaycanda pambığın Misir sortunun becərilməsinin pioneri idi. Stalin yoldaş ona «Azərbaycan dilini öyrənmisən» sualını verdikdə, o duruxdu. Stalin yoldaş dedi: «Yox, belə olmaz, Azərbaycan dilini öyrənmək lazımdır». Və indi Kremlyova yoldaş azərbaycanca çox gözəl danışır.

1948-49-cu tədris ilində Konservatoriyanın birinci kursuna ərizə verən 47 nəfərdən 25-i qeyri-azərbaycanlı idi. Üstəlik, Konservatoriya müəllimlərinin əksəriyyəti ana dilini bilmirdi. M.C.Bağırovun müşavirədə dediklərinin başlıca məğzi bundan ibarət idi: Konservatoriyada çalışanlar Azərbaycan dilini mükəmməl bilməlidirlər. Azərbaycan dilini öyrənmədən milli musiqimizin incəliklərini qavramaq mümkün deyildir.

Təəssüflər olsun ki, M.C.Bağırovdan sonra Azərbaycan Dövlət Konservatoriyasında nəinki Azərbaycan dilinin tədrisi məhdudlaşdırılır, bu sənət ocağının banisi Ü.Hacıbəyovun ənənələri də unudulmağa başlayır. 1950-ci illərdə Azərbaycan SSR Nazirlər Sovetində və Azərbaycan KP MK aparatında məsul vəzifələrdə işləmiş Saleh Tahirov özünün «Taleyin hökmü, yoxsa insan əməli» kitabında yazır: «Yuxarılarda belə bir fikir yaranmışdı ki, guya Azərbaycanda millətçilik intişar tapır. Başqa millətlərdən olanlar sıxışdırılır. Əsassız olaraq ayrı-ayrı şəxslər millətin görkəmli adamları səviyyəsinə qaldırılır... Məsələn, SSRİ mədəniyyət nazirinin müavini Konservatoriyada olarkən dəhlizdə şəkillərə baxa-baxa dedi: «Asəf Zeynallını nə üçün şişirdirsiniz, o nə yazıb ki? Sonra o nə üçün tədris proqramında və musiqi kollektivlərinin repertuarında Tofiq Quliyevə yer verilmədiyini soruşdu. Elə bu söhbəti edə-edə bir sinif otağının qapısını açıb içəri girdik. Burada bir müəllim tələbəsi ilə məşğul olurdu. Konservatoriyanın direktor müavini Nigar xanım Usubova dedi ki, elə çalınan Quliyevin əsəridir. «Nəhayət, qonaq dedi ki, nə üçün musiqi məktəbində xalq musiqisi şöbəsi açılıb, bu nəyə lazımdır?»

Bəli, Üzeyirbəy Hacıbəyovun yaxın dostu M.C.Bağırov Azərbaycan rəhbərliyindən uzaqlaşdırılandan sonra xalqımızın düşmənləri milli varlığımıza qarşı səlib yürüşünə başladılar.

«Günay» qəzeti isə düşmənlərimizi deyil, M.C.Bağırovu nişan verir. «Əyib-əylənən hakimlər, əyilməz nadir şəxsiyyətlər» məqaləsinin sonunda deyilir: «...Üzeyir bəyin cənazəsi Akademiyanın böyük zalında qoyulmuşdu. Bu dəfə

M.C.Bağırov başda olmaqla Respublika rəhbərliyi dəfn mərasiminə gəlmiş, hətta tabutu ilk dəfə onlar çiyinlərinə götürmüşdülər».

Məntiqə bax: «Əyilməz nadir şəxsiyyətin» 50 illik yubileyini təşkil etməyən, 60 yaşı münasibətilə Opera və Balet Teatrında keçirilən tədbirdə olmayan «Əyib-əylənən hakim» onun cənazəsi başında peyda olmuşdur. Deməк, Ü.Hacıbəyovu o dünyaya, göndərmək M.C.Bağırovun çoxdankı arzusu imiş!

Tarixi həqiqət tamamilə bunun əksini sübuta yetirir: sağlığında da, yoxluğunda da Ü.Hacıbəyovu M.C.Bağırov qədər yaşadan ikinci bir kəs olmamışdır. Dahi bəstəkarın vəfatının bir illiyi ərəfəsində M.C.Bağırovun tapşırığı ilə Azərbaycan hökuməti ölməz bəstəkarın xatirəsini əbədiləşdirmək sahəsində tədbirlər planlaşdırmışdır. Bu tədbirlər qərar şəklində Ü.Hacıbəyovun anadan olduğu gün - sentyabr ayının 18-də respublika qəzetlərinin birinci səhifəsində dərc olunmuşdur:

**«Ü.Hacıbəyovun xatirəsini əbədiləşdirmək haqqında»**

Azərbaycan opera sənətinin banisi, SSRİ xalq artisti, SSRi Ali Sovetinin deputatı, Stalin mükafatı laureatı, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Əbdülhüseyn oğlu Hacıbəyovun xatirəsini əbədiləşdirmək məqsədi ilə Azərbaycan SSR Nazirlər Soveti qərara almışdır:

1.Bakı şəhərində Ü.Hacıbəyovun heykəli qoyulsun.

2.Azərbaycan SSR Elmlər Akademiyasına tapşırılsın:

a)1949-cu ildə Ü.Hacıbəyovun həyat və yaradıcılığı haqqında monoqrafiya nəşr etsin;

b)1949-50-ci illərdə Ü.Hacıbəyovun əsərləri külliyyatını nəşr etsin;

v) Ü.Hacıbəyovun arxivini və əlyazmalarını toplasın, onların lazımi qaydada saxlanılmasını və öyrənilməsini təmin etsin.

3. Aşağıda göstərilən məktəblərə və küçəyə Ü.Hacıbəyovun adı verilsin.

a)Azərbaycan Dövlət Konservatoriyasına;

b)Bakı şəhərində Azadlıq küçəsinə;

v) Naxçıvan müəllimlər institutuna;

q) Şuşa şəhərindəki orta məktəbə.

4.Bakı şəhərində Ketsxoveli küçəsində *75* nömrəli evdə və Şuşa şəhərində Hacıbəyovun ev-muzeyini yaratmaq, Azərbaycan SSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsinə tapşırılsın.

5.Hüsü Hacıyev küçəsindəki «Monolit» binasında xatirə lövhəsi qoymaq Bakı şəhər İcraiyyə Komitəsinə tapşırılsın.

* * *

1951-ci ilin aprel ayında Azərbaycan K(b)P MK-nın şöbə müdirləri A.Əliyev və Y.Kirsanov, həmçinin M.Hüseynov, S.Rüstəmov, Q.Qarayev və N.Tağızadənin imzaladığı arayış M.C.Bağırova təqdim edilmişdir:

**«Azərbaycan K(b)P MK katibi M.C.Bağırov yoldaşa»**

**Mərhum bəstəkar Ü.Hacıbəyovun şəxsi arxivindəki əlyazmaların və digər materialların qeydə alınması sahəsində görülən işlər barədə.**

Azərbaycan K(b)P MK bürosunun qərarına müvafiq olaraq A.Əliyev, Y.Kirsanov, M.Hüseynov, S.Rüstəmov, Q.Qarayev və N.Tağızadədən ibarət komissiya Azərbaycan SSR DİN-in arxiv idarəsi və Elmlər Akademiyası Əlyazmalar Fondu işçilərini işə cəlb etməklə mərhum bəstəkarımız Ü.Hacıbəyovun mənzilində saxlanılan əlyazmalar və digər materiallar tərəfimizdən qeydə alınmışdır. Ü.Hacıbəyovun şəxsi arxivi aşağıdakılardan ibarətdir:

a)Musiqi əlyazmaları - 100 adda;

b)Xidməti və şəxsi səciyyə daşıyan müxtəlif sənəd və məktublar - 895 adda.

Bəstəkarın musiqi arxivində tamamlanmış və dərc olunmuş əsərlərindən əlyazmaları, çapdan çıxmış əsərlərinin (məsələn, «Koroğlu» operasının, Azərbaycan SSR himni və s.) qaralama variantı, eləcə də tamamlanmamış musiqi əsərlərinin eskizləri vardır.

Bəstəkarın arxivində onun opera yaradıcılığına aid və indiyədək məlum olmayan aşağıdakı ayrı-ayrı əsərindən parçalar aşkara çıxarılmışdır:

1.«Stalinçilər» operasının 3,5 səhifədə klaviri.

2.«Firuzə» operasının bir hissəsinin klaviri. Bu musiqi parçası müəyyən dəyişikliklərlə Nizaminin 800 illiyinə həsr olunmuş kantataya daxil edilmişdir.

3. 20 səhifədə tamamlanmış rəqs musiqisi. Bunu «Firuzə» operasının tərkib hissəsi hesab etmək olar.

4.Firuzənin ariyası (müəllif tərəfindən dərc olunmuşdur) və operanın 79 səhifədə partiturası. Operanın bu hissəsi də başa çatdırılmamışdır.

5.Yuxarıda göstərilən materiallardan başqa bir neçə ayrı-ayrı qaralama da aşkar edilmişdir ki, bunların «Firuzə» operasına aid olduğunu güman etmək olar.

Ü.Hacıbəyovun yaradıcılığının öyrənilməsində, sənətkarlıq xüsusiyyətlərinin elmi araşdırılmasında musiqi arxivinin dəyəri misilsizdir. Həm də bu materiallar böyük bəstəkarın əmanəti kimi muzey əhəmiyyəti kəsb edir.

Üzeyir Hacıbəyovun şəxsi arxivində not materialları ilə birlikdə aşağıdakı sənədlər də aşkar edilmişdir:

1. Bəstəkarın bilavasitə musiqi yaradıcılığı ilə əlaqədar ədəbi materiallar: opera və musiqili komediya, libretto və montajları, kantata, ariya, mahnı üçün şeir mətnləri.

2.Bəstəkarın ictimai fəaliyyətinə dair materiallar: seçicilərlə, müxtəlif müəssisə və ictimai təşkilatlarla yazışmalar, məlumat üçün qeydlər, məruzə tezisləri və s. Stalin mükafatları üzrə komitədə bəstəkarın fəaliyyətinə dair materiallar; musiqiçilərin baxış və müsabiqələrinin, özfəaliyyət olimpiadalarının təşkilinə dair materiallar.

Bəstəkarın arxivində həmçinin mandatlar, vəsiqələr, dəvətnamələr, təbrik məktubları və teleqramlar, şəxsi məktublar vardır. Bunu da qeyd etmək lazımdır ki, musiqi arxivi mərhum bəstəkarın zəngin və səmərəli yaradıcılığının yalnız cüzi bir hissəsidir.

Aşağıdakı tədbirlərin görülməsini məqsədəuyğun hesab edirik:

1.Ü.Hacıbəyovun şəxsi arxivinin saxlanılması, öyrənilməsi və elmi araşdırılması məqsədi ilə qeydə alınmış bütün materiallar Azərbaycan SSR Elmlər Akademiyasının nəzdindəki Respublika Əlyazmalar Fonduna verilsin.

2.Bəstəkarın şəxsi arxivində not materialları əlyazmalarının sayca çox az olduğunu nəzərə alaraq, Azərbaycan SSR Elmlər Akademiyasına və İncəsənət İşləri İdarəsinə tapşırılsın ki, Ü.Hacıbəyovun müəssisələrdə və ayrı-ayrı vətəndaşlarda saxlanılan əlyazmalarının toplanmasını təşkil etsinlər.

3.Bəstəkarın həyat və yaradıcılığını səciyyələndirən materialların toplanılması, saxlanılması və öyrənilməsi üçün daha əlverişli imkan yaratmaq məqsədilə incəsənət işləri idarəsi Ü.Hacıbəyovun ev-muzeyinin açılmasını sürətləndirsin.

4.Ü.Hacıbəyovun ev-muzeyi açılanadək buradakı zəngin və çox qiymətli şəxsi kitablarının Azərbaycan SSR EA nəzdində Respublika Əlyazmalar Fonduna verilməsini məqsədəuyğun sayırıq.»

Mir Cəfər Bağırov arayışda göstərilənlərin həyata keçirilməsi üçün konkret tapşırıqlar vermişdir. Böyük bəstəkarın ruhunu şad etmişdir.

...1949-cu ildə M.C.Bağırovun təklifi ilə Azərbaycan Dövlət Konservatoriyasına onun yaradıcısının adı verildi. Sənət ocağı Ü.Hacıbəyovun adı ilə yüzlərlə istedad sahibini qoynuna aldı. Bəstəkar olmaq istəyənlər müsabiqə sınağı ilə qarşılaşdılar.

2000-ci il iyun ayının 14-də Respublika prezidentinin «Azərbaycan Respublikasında təhsil sistemini təkmilləşdirmək haqqında» fərmanına müvafiq olaraq konservatoriyadan Ü.Hacıbəyovun adı götürüldü. 2002-ci ildə Musiqi Akademiyasının bəstəkarlıq şöbəsinə ərizə verən olmadı.

Azərbaycan paytaxtında konservatoriyadan onun yaradıcısı Üzeyir Hacıbəyovun adını götürmək - ABŞ-ın paytaxtından ölkənin ilk prezidenti Corc Vaşinqtonun adını silmək deməkdir.

«Günay» qəzetinin «əyib-əylənən hakim» adlandırdığı əyilməz M.C.Bağırovun 1949-cu ildə imza atdığı qərər yenidən qüvvəyə minməlidir!

* * *

Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor Əli Saləddin «Gənclik» nəşriyyatı tərəfindən 1992-ci ildə buraxılmış «Əhməd Cavad» kitabında yazır: «Respublikanın rəhbəri M.C.Bağırov onun birinci düşməni idi».

Qondarma məhkəmənin yalançı şahidlərinin ifadələri əsasında yaranmış bu «elmi kəşf» günəşli havada toz dənəsidir. Tarixi həqiqət apaydın sübut edir ki, M.C.Bağırov M.Ə.Rəsulzadənin «istiqlal şairi» adlandırdığı Əhməd Cavadı 1917-1918-ci illərdə Qubada müəllimlik etdiyi vaxtlardan yaxından tanımış və ona hörmətlə yanaşmışdır. Kim bilir, əgər 1920-ci ildə M.C.Bağırov siyasət meydanında olmasaydı, Əli Nəzminin «Müsavatın rəsmi saray şairi» və Bəkir Çobanzadənin «burjua şairi» adlandırdıqları iyirmi səkkiz yaşlı istedad sahibi otuzu adlaya biləcəkdimi?

Filologiya elmləri doktoru, Azərbaycan Dövlət Təhlükəsizliyi Nazirliyinin əməkdaşı Cəlal Qasımovun 1997-ci ildə nəşr olunmuş «Əsrin qiyamət çağı» kitabında «Əhməd Cavad, yaxud sosializm qəlibinə sığmayan şairin taleyi» sərlövhəli maraqlı bir məqalə vardır.

Müəllif DTN-nin arxiv sənədlərinə əsaslanaraq belə yazır: «1923-cü il dekabr ayının 1-də Azərbaycan Fövqəladə Komissiyasının əməliyyat müvəkkili İvan Makarov Müsavat Partiyasının işləri ilə tanış olduqdan sonra belə qərara gəlmişdir ki, Əhməd Cavad Axundzadə 1918-ci ildən Müsavat Partiyasının üzvüdür. O, Batum şəhərindən Abdulla Ağalidən aldığı məktubdan aydın olduğu kimi, Müsavat Partiyasının Gəncə şəhərində də yaradılmasını təşkil edirmiş. Bundan başqa o, Quba şəhərində müəllim işləyərkən müsavatçı qrup təşkil etmiş və Bakıdakı müsavatçılarla əlaqə saxlamışdır. Eyni zamanda Axundzadə Mirzəbala Məmmədzadənin Bakı şəhərindən getməsi üçün ona pul vermişdir. Deyilənləri nəzərə alaraq təklif edirəm ki, Ə.Cavad həbs edilsin və Azərbaycan Fövqəladə Komissiyasının islah evində ciddi nəzarət altında saxlanılsın».

1920-1923-cü illərdə Əhməd Cavadın Quba rayon xalq maarif şöbəsinin müdiri, Nəriman Nərimanov adına texnikumun müəllimi işləməsinə «göz yuman» M.C.Bağırov 1924-cü il fevralın 5-də Azərbaycan dövlət təhlükəsizliyi orqanlarının tarixində misli-bərabəri olmayan bir cəsarət nümunəsi göstərir: Əhməd Cavadın həbsdən azad edilməsi barədə Azərbaycan SSR Fövqəladə Komissiyası Rəyasət Heyətinin qərarını imzalayır.

Əhməd Cavadı «onun birinci düşməni» yenidən ədəbiyyat cəbhəsinə atır. M.C.Bağırov «sosializm qəlibinə sığmayan şairin» Azərbaycan Şura Yazıçılar Cəmiyyətinin məsul katibi vəzifəsində işləməsinə «göz yumur». Həmin vəzifədə olarkən Ə.Cavad məşhur «Göygöl» şeirini yazır. Bu sənət nümunəsini sonralar M.Ə.Rəsulzadə «Çağdaş Azərbaycan ədəbiyyatı» əsərinə daxil edib dünya azərbaycanlılarına çatdırır. Böyük öndər həmin şeirdən bəhs edərkən fikrini belə ifadə edir: «Bir sözün varmıdır əsən yellərə; sifariş etməyə uzaq ellərə» beytində əks-inqilabçı bir rəmz görürlər. Cavad onların mühakiməsincə «inqilab tərəfindən uzaq ellərə atılmış müsavatçı millətçilərə» işarə etmək istəyirmiş.

Əhməd Cavadı «çekist ruhlu sovet tənqidçilərinin» əlindən məharətlə xilas edən M.C.Bağırovun 1932-33-cü illərdə Azərbaycan hökumətinə başçılıq etdiyi vaxtlarda istiqlal şairinin əsərləri geniş yayılır, dillər əzbəri olur. Qoşmaları,

bayatıları müğənni və aşıqların ifasında səslənir. Qubanın keçmiş türk dili və rus dili müəllimi Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun türk və rus dilləri kafedrasının dosenti və müdiri seçilir. 1933-cü ildə Azərbaycan Xalq Komissarları Sovetinin sədri M.C.Bağırov Gəncədə olarkən Əhməd Cavada professor adı verilməsinə «göz yumur».

1933-cü il dekabrın 10-da M.C.Bağırov Azərbaycan KP MK katibi seçilir. Əhməd Cavadın yaradıcılıq imkanlarının və ictimai fəaliyyətinin genişlənməsinə şərait yaranır. O, Gəncədən Bakıya qayıdır. Azərbaycan K(b)P Mərkəzi Komitəsi bürosunun M.C.Bağırov tərəfindən imzalanmış qərarları əsasında «qələm dostlarının» pantürkist və burjua şairi adlandırdıqları Əhməd Cavad 1934-cü ildə Azərbaycan Dövlət Nəşriyyatında redaktor, 1935-36-cı illərdə «Azərbaycanfilm» studiyasında sənədli filmlər şöbəsinin müdiri vəzifələrində işləyir.

Dünya klassiklərinin əsərlərinin Azərbaycan türkcəsinə tərcümə edilməsi kimi nəhəng bir fəaliyyət meydanına atılır. 1935-ci ildə peşəkar mütərcim V.Şekspirin «Otello» faciəsini Dövlət Nəşriyyatında nəşr etdirir. Kitabın redaktoru Rəsul Rzadır.

1936-cı ildə Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» poemasını dilimizə çevirir, dövlət müsabiqəsində əsər birinci mükafata layiq görülür.

Azərbaycan SSR xalq artisti, Azərbaycan Dövlət Dram Teatrının rejissoru Aleksandr Tuqanov 1937-ci il fevral ayının 2-də Moskvaya - SSRİ Xalq Komissarları Soveti yanında İncəsənət İşləri İdarəsinin rəis müavini İ.O.Kruqlova yazdığı məktubunda Əhməd Cavadın yüksək tərcüməçilik fəaliyyətinə heyran olduğunu bildirir. Məlum olduğu kimi, Əhməd Cavad Avropanın «Leyli və Məcnun»u sayılan «Romeo və Cülyetta» faciəsini də ana dilimizə tərcümə etmişdir. V.Şekspirin bu sənət möcüzəsi 1937-ci ildə A.Tuqanovun quruluşunda səhnəyə qoyulmuşdur. Misilsiz uğurla keçən ilk tamaşada M.C.Bağırov da iştirak etmişdir.

1937-ci ilin baş faciəsi - sərt və amansız cəza tədbirləri tüğyan etməsəydi, yəqin ki, Əhməd Cavad Şekspir əsərlərinin mütərcimi kimi də dünya şöhrəti qazanacaqdı. Otuzuncu illərin professoru, şübhəsiz ki, M.C.Bağırovun xeyir-duası ilə qırxıncı illərdə Azərbaycan Elmlər Akademiyasının akademikləri arasında olacaqdı...

Bəs M.C.Bağırovdan sonra Əhməd Cavadın ədəbi irsinə münasibət necə olmuşdur?

1958-ci ildə «Azərnəşr» Əhməd Cavadın «Şeirlər» kitabını on min tirajla nəşr etmişdir. Nəşriyyat Azərbaycanın on min oxucusuna rəsmi bəraət almış böyük şairi belə təqdim edir: Əhməd Cavad göyləri aysız, ulduzsuz sayır, özünü dönə-dönə quşa oxşadır. Lakin bu quş böyük ədib M.Qorkinin gələcək inqilablardan xəbər verən fırtına quşu deyildir. Bu quş uçmaq qabiliyyətindən məhrumdur... O, eyni zamanda din və xurafat əsarətində qalaraq xalqı geri çəkən, Allaha və dinə inanmağa çağıran zərərli əqidələri də tərənnüm etmişdir. O, turançılıq, pantürkizm

kimi mühafizəkar fikirlərə uyaraq yaxasını xeyli müddət bu əhval-ruhiyyədən qurtara bilməmişdir. Onun dünyagörüşünə pessimist bir əhval-ruhiyyə, mürtəcelik və millətçilik hakimdir».

Əhməd Cavadın «birinci», ikinci, üçüncü və i.a. düşmənlərini bu «kəlam» sahibləri arasında axtarmaq lazımdır!

...2002-ci il mayın 5-də iyirminci yüzilliyin ən böyük söz ustadlarından biri olan Əhməd Cavadın anadan olmasının 110 illiyi tamam oldu. Təqvimdən vərəq səssiz-səmirsiz düşdü, hadisəyə çevrilmədi. Əhməd Cavadın əlamətdar yubileyi ərəfəsində ona haqsız hücumlar təşkil olundu. Özü də görün nədən başladılar: himnimizin mətninin müəllifi Əhməd Cavad deyildir! «Xalq qəzeti»nin bir neçə sayında bu barədə materiallar dərc edildi. Qəzetin 2000-ci il 3 fevral tarixli sayında «Himnimizin müəllifi kimdir? Bu sualın cavabını xüsusi komissiya dəqiqləşdirəcək» başlığı ilə dərc olunmuş yazıda oxuyuruq: «Həmin məsələ Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunun elmi şurasında müzakirəyə çıxarılmışdır».

Bundan bir ay sonra, həmin il martın 3-də qəzetdə «Komissiya son sözünü deməyə tələsmir» yazısında deyilir ki, «problemin daha dərindən araşdırılması və dəqiqləşdirilməsi üçün xüsüsi komissiyanın növbəti iclası keçirilmişdir. Azərbaycan EA ədəbiyyat, dil və incəsənət bölməsinin akademik katibi Bəkir Nəbiyev qeyd etmişdir ki, komissiya dövlət orqanları qarşısında məsələ qaldırmaq üçün dəqiq, inkaredilməz arqumentlərə əsaslanmalıdır.»

Millət vəkili, sinədəftər şairimiz də qəzetçi və alimlərə qoşulmuşdur: himnimizin sözlərini əzbərləyə bilmirəm!

Lakin dövlət orqanları qarşısında himnimizin müəllifinin Əhməd Cavad olmaması barədə məsələ qaldırmaq üçün nə «Xalq qəzeti», nə də Milli Elmlər Akademiyasının komissiyası «inkaredilməz arqumentlər» tapa bilməmişlər.

Əhməd Cavadın qəzəblənmiş «düşmənləri» hayıfı akademik Bəkir Nəbiyevdən almışlar: onun alim dostu Şamil Salmanovla yazdığı «XI sinif ədəbiyyat dərsliyi»ndə Əhməd Cavad yaradıcılığına həsr edilmiş bölmə tədris proqramından çıxarılmışdır, 1997-ci ildə «Maarif» nəşriyyatı tərəfindən nəşr olunmuş dərsliyin səkkiz səhifəsi Əhməd Cavada həsr edilmişdi. Həmin hissədə oxuyuruq: «Şair ilk demokratik quruluşumuz olan Azərbaycan Cümhuriyyətinin nəğməkarı, dövlət himnimizin müəllifidir».

Əhməd Cavadın «düşmənləri» bir araya gələrək mütəfəkkir şairin peşəkar hüquqşünas oğlu Yılmaz Axundzadənin ölkə parlamentinə deputat seçilməsinin də qarşısını aldılar... Seçilsəydi, Milli Məclisin kürsüsündə atasının canlı təcəssümünə çevriləcəkdi - mən çeynənən bir ölkənin haqq bağıran səsiyəm!

Azərbaycanda da, Gürcüstanda da qələm əhli və oxucular yaxşı bilirdilər ki, Şota Rustavelinin «Pələng dərisi geymiş pəhləvan» əsərini ilk dəfə Əhməd Cavad gürcücədən azərbaycancaya məharətlə tərcümə etmişdir. Gözləmək olardı ki, Əhməd Cavadın anadan olmasının 110 və Şota Rustavelinin «Pələng dərisi geymiş

pəhləvan» poemasının 800 illik yubileyi münasibətilə bu sənət əsəri Əhməd Cavadın tərcüməsində Gürcüstanda və Azərbaycanda yenidən nəşr olunacaqdır.

Azərbaycanda Əhməd Cavadın «düşmənləri» yenə də öz işlərini görmüşlər. Gürcüstanda isə Ş.Rustavelinin poeması Azərbaycan dilində çapa hazırlanmışdır. Gürcücədən azərbaycancaya tərcümə edəni isə... İmir Məmmədlidir.

2001-ci ildə Tbilisidə çıxan «Molla Nəsrəddin» jurnalının iyun-sentyabr tarixli sayında dərc olunmuş bir məqalədən (səh.30-31) öyrənirik ki, mütərcim Gürcüstan prezidentinin regional siyasət və idarəetmə xidməti rəisinin müavinidir. Məqalədə deyilir: «İ.Məmmədli «Arqumentı i faktı» qəzetinə verdiyi müsahibədə Ş.Rustaveli poemasının orijinaldan tərcüməsinin yalnız ona məxsus olduğunu söyləməklə görkəmli şairimiz Əhməd Cavadın əməyini heçə endirməkdə nəinki rus oxucularını çaşdırmaq, eyni zamanda özünə ucuz şöhrət qazandırmağa cəhd göstərmişdir».

Məqalənin müəllifi, yazıçı-publisist və tədqiqatçı Əzim İsmayılbəyli İ.Məmmədlinin tərcüməsində məşhur əsərin necə bəsit hala düşməsini sübut edən misallar gətirir.

Nə qədər təəccüblü olsa da, S.Orbeliani adına Tbilisi Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, filologiya elmləri doktoru, professor Valeh Hacıyev əsərə müsbət rəy yazmışdır.

Nəhayət, Gürcüstan Respublikası Prezident aparatının məsul işçisi İmir Məmmədlinin kitabının redaktoru Azərbaycan Respublikası Prezident Aparatının məsul işçisi Hidayət Orucovdur! Qonşu respublikaların iki rəhbər məmuru əl-ələ verərək həm Şota Rustavelinin, həm də Əhməd Cavadın ruhunu incitmişlər.

Qələm dostum, tanınmış təmsilçi və satira ustası, lirik şeirlər müəllifi Mərkəz Qacarın 2000-ci ildə sayca on beşinci kitabı çapdan çıxmışdır. Kitaba şairin 1937-ci il faciəli hadisələrinə həsr olunmuş «Qeybdən gələn səs» mənzum dramı da daxil edilmişdir. Pyesdə Stalin, Mikoyan, Mir Cəfər, Sumbatov, Avanesyan, Qriqoryan, Markaryan kimi vəzifəli şəxslərlə yanaşı Mikayıl Müşfiq, Hüseyn Cavid, Əhməd Cavad kimi cəza tədbirlərinə məruz qalmış sənətkarların da obrazı vardır. Hadisələrin təsvirindən elə çıxır ki, adları çəkilən və çəkilməyən nadir istedad sahiblərimizin ən qəddar düşməni Mir Cəfər Bağırov imiş. Sanki müəllif Səməd Vurğunun «Vaqif» əsərindəki Qacar obrazını yeni yüzillikdə Mir Cəfər timsalında oxuculara təqdim etmişdir.

1956-cı ilin qondarma məhkəməsindəki yalançı şahidlərin ifadələrini nəzmə çəkməklə Mir Cəfər Bağırovun surətini yaratmaq olarmı? Bu, olsa-olsa tarixi saxtakarlıqdır. Tarixi həqiqət isə başqa şey deyir. Deyir ki, M.C.Bağırov Azərbaycan ziyalılarının, o cümlədən Hüseyn Cavidin düşməni deyil, dostu olmuşdur. M.C.Bağırov dövründə yaşayıb-yaratmış və H.Cavidlə yaxın olmuş sənət adamlarının yazdıqlarını və arxiv materiallarını nəzərdən keçirək.

1975-ci ildə «Gənclik» nəşriyyatı Mehdi Seyidzadənin «Unudulmaz xatirələr» kitabını oxuculara çatdırmışdır. Kitabdakı ilk məqalə Hüseyn Cavid haqqındadır. M.Seyidzadə göstərir ki, Hüseyn Cavidlə 1927-ci ildə tanış olmuşdur. 1935-ci ildə böyük şairi toy məclisinə dəvət etmişdir. 1936-cı ildə H.Cavidlə birgə Şüvəlana bağa köçmüşdür. Məqalədə oxuyuruq: «Bağda qaldığımız müddətdə bir-birimizə hörmət və məhəbbətimiz daha da artdı. Cavidin həyat yoldaşı Müşgünaz xanım mənim həyat yoldaşım Kübra, bacım Səkinə xanım ilə mehriban bacı kimi idilər... Mən Cavidlə birgə kitab oxuyur, nərd atır, Ələsgər Abdullayevin vallarına qulaq asırdıq. Bu məşhur xanəndənin muğamat oxuması Cavidin xoşuna gəlirdi. Söhbət zamanı Cavidə məni maraqlandıran suallar verirdim. Bir gün ondan xəbər aldım ki, əsərlərinin içərisində ən çox sevdiyi hansıdır? O dedi: «Şeyx Sənan!» Arxiv materialları göstərir ki, «Şeyx Sənan» M.C.Bağırovun da ən çox sevdiyi əsərlərdən olmuşdur. H.Cavid 1936-cı ildə Şüvəlan «təcridxanasında» Mehdi Seyidzadə ilə nərd oynayarkən, M.C.Bağırov 1937-ci ildə Moskvada keçiriləcək Azərbaycan incəsənəti ongünlüyünün repertuarına «Şeyx Sənan» dramını da əlavə etmişdi. Təqdimat arayışında deyilir: ««Şeyx Sənan» H.Cavidin ən yaxşı əsərlərindəndir. Burada bir tərəfdən dinə qarşı mübarizə ideyası təbliğ edilir, digər tərəfdən Qafqazın, xüsusilə Tbilisinin əsrarəngiz gözəlliyi vəsf olunur. Bu şəhərlə bağlı rəvayət H.Cavidin pyesində bədii əksini tapmışdır».

M.C.Bağırovun vaxtında Hüseyn Cavidin qaldığı «şəhər təcridxanası» haqqında isə Camo Cəbrayılbəylinin 1966-cı ildə Azərbaycan Dövlət Nəşriyyatı tərəfindən buraxılmış «Xatirələrim» kitabında geniş bəhs olunur. Bu binada Sovet hakimiyyəti illərində Mərkəzi Darülmüəllim, başqa sözlə, pedaqoji texnikum yerləşmişdir. Burada H.Cavid türk dili və ədəbiyyatı, C.Cəbrayılbəyli biologiya müəllimi olmuşlar. Müəllif yazır: «Məktəbdə təlim-tərbiyə işinə daha yaxından diqqət vermək məqsədi ilə burada dərs deyən müəllimlərdən bir neçəsinə həmin binada ev verilmişdi. Mən binanın ikinci mərtəbəsində, Cavid isə üçüncü mərtəbəsində yaşayırdıq. Biz tez-tez bir-birimizin evinə gedər, söhbətləşərdik. Mən həmişə onlara gedəndə Cavidi bəzən binanın damının üstündə görərdim. Sonra öyrəndim ki, Cavid oradan şəhəri seyr etməyi sevərmiş».

Bu da unudulmazdır ki, içərisində yaşadığı və hərdən damından şəhəri seyr etdiyi binanın yaradıcısına H.Cavid hələ gənc yaşlarında şeir həsr etmişdir. Bu barədə ilk dəfə məşhur salnaməçi Qulam Məmmədli 1990-cı il iyul ayının 8-də «Ədəbiyyat və incəsənət» qəzetindəki məqaləsində söhbət açmışdır. Məlum olduğu kimi, Cavid ibtidai təhsilini Naxçıvanda, Məhəmməd Tağı Sidqinin məktəbində almışdır. 1898-ci ildə məktəbi bitirən Cavid şiddətli göz ağrısına tutulmuş və müalicə üçün Cənubi Azərbaycana getmişdir. «Məktəbi -tərbiyə»nin -məzunu möhtərəm müəllimi M.T.Sidqiyə göndərdiyi bir məktubunda yazırdı: «Məktubunu aldım. Qəmli; xəstə gözlərimə işıq gəldi». Qulam Məmmədli on altı yaşlı Cavidin gözlərinə işıq gətirən həmin məktubun məzmunu barədə belə yazır: «Hacı

Zeynalabdin Tağıyev keçən əsrin (on doqquzuncu əsrin - T.Q.) axırlarında Naxçıvanda yaşayan Mirzə Məhəmməd Tağı Sidqi Səfərova iki min manat, yəni iki yüz dörd qızıl on manatlıq göndərmiş və ondan rica etmişdir ki, həmin pulları öz məktəbinin ehtiyacına, habelə məktəbdə təhsil alan yoxsul uşaqlarının üst-başları üçün pal-paltar alınmasına sərf etsin.

M.T.Sidqi H.Z.Tağıyevin xahişinə əməl edərək pul vəsaitini xərcləmişdir.

Millət atasının alicənablığından və əliaçıqlığından vəcdə gəldiyini o zaman Cənubi Azərbaycanın Urmu şəhərində yaşayan keçmiş tələbəsi Hüseyn Cavidə məktubla bildirmiş və ondan xahiş etmişdir ki, bu münasibətlə bir şeir yazsın. Hacı Zeynalabdin Tağıyevə həsr olunmuş şeirini Hüseyn Cavid farsca yazmış və İrandan Naxçıvana, müəilimi M.T.Sidqiyə göndərmişdir».

Əfsuslar olsun ki, hazırda Əlyazmalar İnstitutu və H.Cavid ev-muzeyi yerləşən yüz iki yaşlı binada nə haqqında danışdığımız şeir, nə də H.Z.Tağıyevdən nişanə yoxdur. Bu möhtəşəm tikilinin muzeylərə sığmaz zənginliyinin həqiqi tarixinin üstündən xətt çəkmək olarmı? Millət atasının tikdirdiyi bina Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin iqamətgahı olmuşdur. Onun pillələrində Hacı Zeynalabdin Tağıyevin də, Məhəmməd Əmin Rəsulzadənin də, Mir Cəfər Bağırovun da izləri qalmışdır. Birincisi müalicədə olan şairə yardım əlini uzatmış, ikincisi haqqında dəyərli məqalələr yazmış, üçüncüsü «Cavid teatrı»nın təşəkkülünə şərait yaratmışdır. M.Ə.Rəsulzadə Hüseyn Cavidi «Azərbaycan şeirinin gözəlliyinin sirlərini bilən bir sənətkar» adlandırmış, M.C.Bağırov isə bu sənətkarı onun bədxahlarının hücumlarından xilas etmişdir.

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində Hüseyn Cavid yaradıcılığına mənfi münasibəti əks etdirən bir sıra rəsmi sənədlər vardır. Dramaturqun 1929-cu ildə yazdığı «Knyaz» əsəri haqqında «Qlavlit»in Azərbaycan Xalq Komissarları Sovetinə göndərilmiş məktubunda deyilir: «H.Cavidin sinfi sifəti bizə yaxşı məlumdur: o, burjua ədəbiyyatının nümayəndəsidir və Oktyabr inqilabının on üçüncü ildönümündə belə o dəyişilməz qalmışdır. Proletar inqilabı haqqında bu vaxt ərzində H.Cavid tərəfindən heç bir əsər yazılmamışdır. «Knyaz» pyesi də onun başqa əsərləri kimi qüsurludur və sovet səhnəsində oynanıla bilməz».

1933-cü ildə M.C.Bağırov Azərbaycan rəhbərliyinə gələndən sonra H.Cavidin «sovet səhnəsində oynanıla bilməz» əsərləri Azərbaycan səhnəsini bəzəmişdir. 1933-cü ildə böyük dramaturq Firdovsinin «Şahnamə»sindəki Səyavuş dastanı motivləri əsasında beş pərdəli «Səyavuş» faciəsini bitirmişdir. Əsər həmin il Azərbaycan Dövlət Dram teatrında tamaşaya qoyulmuşdur. Mir Cəfər Bağırovun məsləhəti ilə «Səyavuş» 1934-cü ildə «Azərnəşr» tərəfindən dörd min nüsxə ilə ayrıca kitab halında çap edilmişdir. Əbülqasım Firdovsinin anadan olmasının min illiyinin SSRİ-də geniş qeyd olunmasından istifadə edərək, M.C.Bağırov

«Şahnamə» süjetləri əsasında Azərbaycan dramaturqunun yazdığı əsərin rus dilinə tərcümə olunması və Moskvada nəşr edilməsi barədə göstəriş vermişdir.

Lakin H.Cavidin Azərbaycan SSR Yazıçılar İttifaqındakı «dostları» bəhanə tapıb «Səyavuş»un rusca çıxmasının qarşısını almışlar. Bakıya Moskvadan belə bir cavab gəlmişdir: ««Səyavuş» planda olmadığı üçün çap edilməyəcəkdir. Redaksiya müdiri Musaelyan».

Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin ilk azərbaycanlı katibi bütün yazıçılar kimi H.Cavidə də mənzil şəraitinin və güzəranının yaxşılaşdırılmasında xüsusi qayğı göstərmişdir. M.C.Bağırov sevimli şairin arzusunu, nəzərə alaraq, ona ailəsi ilə birlikdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin binasında, başqa sözlə, indiki ev-muzeyində yaşamasına icazə vermişdi. Hüseyn Cavid Azərbaycan MİK binasından 1934-cü ildə Vladiqafqaza istirahətə yollanmış, 1936-cı ildə Moskvaya səfərə çıxmış, Sovet Yazıçıları Evində Azərbaycan ədəbiyyatı gecəsində çıxış etmişdir...

1935-ci ildə Sovet Azərbaycanının on beş illiyi münasibətilə ən yaxşı səhnə əsərlərinin müsabiqəsində H.Cavidin «Xəyyam» pyesi mükafata layiq görülmüşdür. Ömər Xəyyamın həyatından bəhs edən dram Azərbaycan SSR-in on beş illiyinə həsr olunmuş müsabiqənin qalibi elan edilmişdir. Bu ancaq və ancaq M.C.Bağırov dövründə ola bilərdi. Təsadüfi deyildir ki, «Xəyyam»dan sonra M.C.Bağırovun tövsiyəsi ilə Azərbaycan Dövlət Dram Teatrı tərəfindən H.Cavidin «Şeyx Sənan» və «Səyavuş» pyeslərinin tamaşaları Şuşada, Lənkəranda, Ağdamda da göstərilmişdi. 1936-cı il aprel ayının 14-də Azərbaycan Dövlət Dram Teatrının səhnəsində «Səyavuş»un 100-cü tamaşasında M.C.Bağırov da olmuşdu. Həmin il Azərbaycan rəhbəri «Azərnəşr»in 1937-ci il üçün planını nəzərdən keçirmişdi. Burada H.Cavidin «Xəyyam» pyesinin də adı vardı...

Fəqət böyük sənətkarın sənət işığına qara pərdə tutanlar da öz işlərində idilər. 1932 -ci ildə təşkil edilmiş Azərbaycan Sovet Yazıçıları İttifaqının rəhbərləri ilk növbədə SSRİ Yazıçılar İttifaqının rəhbərlərinin göstərişlərinə əməl edirdilər. Onlar üçün H.Cavid pantürkist burjua şairi idi. 1936-cı il mart ayında Azərbaycan Yazıçılar İttifaqının üçüncü plenumunda çıxış edənlərin tənqid hədəfi H.Cavid idi: «Hüseyn Cavid öz yaradıcılığında burjuaziya romantikası ilə osmanlı xalqına arxalanır, öz dilini və tematikasını da oradan alır».

Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Dövlət Arxivində M.C.Bağırov - Hüseyn Cavid münasibətlərinin səmimiyyətini göstərən sənədləri həyəcansız oxumaq mümkün deyil. Bunların arasında dahi söz ustasının 1936-cı il oktyabr ayının 3-də öz dəst-xətti ilə yazılmış məktubundakı aşağıdakı sətirləri nəzərinizə çatdırıram:

**«Möhtərəm Mir Cəfər Bağırov yoldaş!**

Son zamanlarda mənə və yazılarıma qarşı istər mənəvi, istər maddi cəhətdən, qaba və soyuq bir keçimsizlik var. Bu da yalnız tək-tək şəxslərin kaprizindən irəli gəlməkdədir.»

M.C.Bağırov Azərbaycan Xalq Komissarları Sovetinin sədri Hüseyn Rəhmanova və İncəsənət İşləri İdarəsinin rəisi Ruhulla Axundova bu tapşırığı vermişdi: «H.Cavid yoldaşı MK-ya dəvət edin, onun şikayətinə qulaq asın və nəticəsi barədə Azərbaycan K(b)P MK-ya məlumat verin».

Mir Cəfər Bağırov Hüseyn Cavidi Azərbaycanda «tək-tək şəxslərin kaprizindən» qoruya bilsə də, Moskvanın cəza tədbirindən qurtara bilməmişdir. Lakin rəsmi qadağaya baxmayaraq, H.Cavid sənətinin unudulmasına yol verməmişdi. Saleh Tahirovun «Taleyin hökmü, yoxsa insan əməli» kitabında oxuyuruq: «O zaman, yəni 40-cı illərdə humanitar fakültələrdə, xüsusən universitetin filologiya fakültəsində təhsil alan tələbələrin əsas təlim mənbələrindən biri Əhməd Cavadın, Çəmənzəminlinin, Nəriman Nərimanovun və başqalarının qadağan olunmuş əsərləri idi... Hüseyn Cavidin qardaşı oğlu Həmid Rasizadə ilə bir yerdə oxuyurduq. 1945-ci ildə onunla Hüseyn Cavidin ailəsi yaşayan evə getmişdik. Şairin həyat yoldaşı Müşgünaz xanımı, qızı Turan xanımı da elə o vaxt görmüşəm».

Turan Cavid «Atam haqqında xatirələrim»də yazır: «Lap kiçik yaşlarımdan müntəzəm olaraq baxdığım tamaşalar və evdə onların ətrafında gedən danışıqlar, atamın bizə qonaq gələn sənət dostları ilə görüşləri zamanı etdiyi söhbətlər məndə teatr sənətinə maraq və məhəbbəti daha da dərinləşdirmiş, nəhayət, teatrşünas ixtisasını seçməyimə səbəb olmuşdur». Azərbaycan Teatr İnstitutu 1945-ci ildə Azərbaycan K(b)P MK bürosunun qərarı əsasında yaradılmışdı. Arxiv materiallarından aydın olur ki, onun ilk məzunları arasında yazıçı Hüseyn Abbaszadə, şair Adil Babayev və Turan Cavid də olmuşdu. M.C.Bağırov «xalq düşməni» Hüseyn Cavidin qızının teatrşünas olmaq arzusunun həyata keçməsini təmin etmiş, hətta 1950-ci ildə onun həmin ali məktəbdə saxlanılaraq, teatrşünaslıq fənnindən dərs deməsinə icazə vermişdir. Təəssüflər olsun ki, M.C.Bağırovdan sonrakı rəhbərlər Turan Cavidi Azərbaycan teatrı tarixi ixtisası üzrə peşəkar kadr kimi irəli çəkməmiş, onun elmi dərəcə almasına şərait yaratmamışlar.

* * *

M.C.Bağırov dövründə Hüseyn Cavid ilə bağlı olan son arxiv sənədi 1952-ci ilə aiddir. Azərbaycan rəhbərinə verilmiş məlumatdan aydın olur ki, C.Məmmədquluzadənin «Azərnəşr» tərəfindən çapdan çıxmış «Seçilmiş əsərləri»nın birinci cildinin siqnal nüsxəsinə «Qlavlit» tərəfindən qadağa qoyulmuşdu. Qadağanın bir səbəbi barədə məktubda belə deyilir: «Xatiratım»ın bir neçə yerində C.Məmmədquluzadə qəzet-jurnal fəaliyyəti sahəsində qatı türkist-millətçi olan Əhmədbəy Ağayevin və Əlibəy Hüseynzadənin adlarını çəkir, H.M.Abdullanı xatırlayarkən yazır ki, o, bizim məşhur yazıçılarımızdan birisinin atasıdır. Həmin yazıçı ifşa olunmuş xalq düşməni Hüseyn Caviddir».

M.C.Bağırov «H.M.Abdulla»nın kim olduğunu «Qlavlit»də çalışanlardan da yaxşı bilirdi. Bilirdi ki, Hüseyn Cavidin atası Molla Abdulla məlahətli səsə malik bir rövzəxan olmuşdu. Musiqini, muğamatı və söz sənətini dərindən mənimsəyən Molla Abdulla Bakıda, Şirvanda, Gəncəbasarda, İrəvanda, Cənubi Azərbaycanda məclislərin yaraşığı idi.

Bütün Azərbaycanın oğlu və rəhbəri M.C.Bağırov qələm götürüb qadağanı ləğv etmişdi. O, vəzifəsindən çıxarılmasından bir il qabaq, 1952-ci ildə nankorlara bir daha sübut etmişdir ki, nə Əhmədbəy Ağayev, nə Əlibəy Hüseynzadə, nə Hüseyn Cavidin özü və atası heç vaxt unudulmamalıdır.

* * *

Arxivdə saxlanılan məktubda Hacı Zeynalabdin Tağıyevin də adı çəkilir. C.Məmmədquluzadənin ona «əsrin pəhləvanı» deməsi «Qlavlit» başçılarının qəzəbinə səbəb olmuşdu. M.C.Bağırov isə «əsrin pəhləvanı» ilə 1923-cü ildə Mərdəkan bağında görüşmüşdü. 1924-cü il sentyabrın 4-də onun dəfn mərasiminin iştirakçıları arasında olmuşdu. Otuzuncu illərdə Moskvanın hədələrinə baxmayaraq, «kapitalist Tağıyevin» qəbrinin dağıdılmasına imkan verməmişdi.

Arxiv sənədləri bunu da göstərir ki, M.C.Bağırov «xalq düşməni» Hüseyn Cavidin qızı Turan xanımın qayğısına qaldığı kimi, «kapitalist Tağıyevin» başıbəlalı yadigarı Sara xanıma da himayədarlıq etmişdi. 1942-ci ildə Leninqraddan Bakıya gələn «kapitalist» qızı M.C.Bağırovun göstərişi ilə Azərbaycan Maarif Nazirliyində kadrlar şöbəsində təlimatçı vəzifəsində çalışmışdı. Sonra isə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun kitabxanasında əmək fəaliyyətini davam etdirmişdi. Fəqət M.C.Bağırovun məhkəməsindən sonra «kapitalıst» qızını ali məktəb kitabxanasından çölə atmışlar. Azərbaycanın seyid rəhbəri M.C.Bağırovdan sonrakı Moskvapərəst və ermənipərəst başçılarımız Sara xanımın qəsdinə durmuşlar. Arxiv materiallarına diqqət yetirin:

M.F.Axundov adına Azərbaycan Pedaqoji Rus Dili və Ədəbiyyatı İnstitutunun sabiq prorektoru Qulam Kərim oğlu Məmmədov tərəfindən imzalanmış arayışda deyilir: «Sara Zeynalovna Sarayeva 1955-ci ildən 1957-ci ilədək institutun kitabxanasında qiraət zalının müdiri vəzifəsində işləmişdir. Onun işdən kənarlaşdırılmasının səbəbi siyasi cəhətdən yolverilməz bir mövzuda məqalə yazaraq, milyonçu H.Z.Tağıyevin mütərəqqi və maarifpərvər fəaliyyətindən bəhs. etməsidir.

Sarayeva S.Z. işdən çıxarılarkən komissiya təşkil olunmuşdur.

Komissiyanın tərkibində dosent C.V.Qəhrəmanov, Ə.S.Məmmədov, A.A.Musayev, S.C.Bağırov və başqaları olmuşlar».

Qulam Məmmədov sonralar prorektorluqdan pedaqogika kafedrasının müdiri vəzifəsinə keçirilmişdir. «Vəzifəsinə vicdanla yanaşan» Sara xanım isə kimsəsiz və himayəsiz qalmışdır.

Sara xanım istər ölkə daxilindəki hakimiyyət nümayəndələrinə, istərsə də Moskvadakı hakimiyyət nümayəndələrinə dəfələrlə məktublarla müraciət etsədə bir nəticəsi olmamışdı.

Sara xanımın bütün şikayət məktublarının cavabı 1986-cı ildə Azərbaycan Sovet Ensiklopediyasının doqquzuncu cildindəki «Tağıyev H.Z.» məqaləsində əksini tapmışdır: «Tağıyev milli burjuaziyanın mənafeyini güdməklə yanaşı, həmçinin «millətin başçısı, atası» kimi şöhrətlənmək niyyətində olmuşdur... Azərbaycan burjuaziyasının digər nümayəndələri kimi Tağıyev inqilabi hərəkata qarşı mübarizə aparan irticaçı qüvvələri müdafiə etmişdir. 1917-1920-ci illərdə Sovet hakimiyyətinə qarşı mübarizə aparmışdır».

Bəli, o zamankı və gələcəkdə hakimiyyətə gəlmiş kommunistlərdən fərqli olaraq, yalnız və yalnız Mir Cəfər Bağırov «1917-1920-ci illərdə Sovet hakimiyyətinə qarşı mübarizə aparmış» H.Z.Tağıyevin qızını Maarif Nazirliyində məsul işə göndərmişdir.

* * *

Xalqımızın düşmənləri bütün varlığı ilə Azərbaycanı təmsil edən Mir Cəfər Bağırovun da qənimi olmuşlar. O, millətimizin düşmənləri ilə mübarizədə heç nədən, heç kimdən və heç vaxt çəkinməmişdir. Dağlıq Qarabağı «erməni ölkəsi» adlandıranların ayağını Azərbaycandan kəsmişdir.

Mir Cəfər Bağırovu bəyənməyənlər bu gün bir tərəfdən Qarabağ uğrunda müharibə təbliğatı aparır, bir tərəfdən də «Arsax»dan Bakıya nümayəndə dəvət edirlər.

Bu yaxınlarda soydaşlarımızın, ilk növbədə Qarabağ əlillərinin ürəyinə ox kimi tuşlanan bir xəbər də yayılmışdır: Bakı-Tiflis-Ceyhan kəmərinin Azərbaycan ərazisi boyu çəkilişinə Gevorq Toroyan başçılıq edəcəkdir. O, eyni zamanda «Hayastan» ictimai fondunun vitse-prezidentidir. Fondun prezidenti isə R.Köçəryandır. İki daşnakın Hayastan naminə əlbir olmasında təəccüblü bir şey yoxdur. Təəccüblüsü budur ki, Ermənistanın vitse-prezidentin halal sərvətimizdən faydalanmasına azərbaycanlı birinci vitse-prezident adi bir hadisə kimi baxır: «Ermənilər çox şirkətlərdə işləyə bilərlər, burada qəribəlik nə var ki?»

Ermənistanda çıxan «Azd» qəzetinin müxbiri Tatul Akopyan vitse-prezidentlərin dediklərini başqa səmtə yönəldir: «Neft kəməri Bakıdan baş alır. Bakını da ermənilər inşa ediblər». Bu sözlərlə, T.Akopyan Sovet hakimiyyəti illərində Azərbaycanda bir müddət at oynatmış və Bakının ermənilər yaşayan hissəsində yeni yaşayış binaları saldırmış Levon Mirzoyana işarə edir.

Daşnak L.Mirzoyanın G.Toroyanın vəkili T.Akopyana əziz-xələf olması təbiidir. Qeyri-təbii olanı budur ki, Levon Mirzoyan Azərbaycanın millət vəkilinə daha yaxındır: «Mirzoyanı Bağırovla tutuşdurun. Görün xalqımıza hansı daha qəddar olub, hansı daha çox və daha qart erməniymiş». Müqəddəs Azərbaycan torpaqlarında mirzoyanların toy-büsat qurduqları bir vaxtda Mir Cəfər Bağırova

«qart erməni» deyən deputatımız görəsən Avropa Şurası Parlamentlərarası Məclisində hansı millətin adından vəkillik edir?!

Söhbət Rəfael Hüseynovun 2001-ci ildə Türkiyənin «Fersa» mətbəəsində yığılaraq Bakıda «Azərbaycan» nəşriyyatı tərəfindən buraxılmış 720 səhifəlik «Millətin zərrəsi» kitabından gedir. 720 səhifəlik kitabın tərtibçisi də, çapa hazırlayanı da, korrektoru da, nəşriyyat və baş redaktoru da, rəyçisi və ön söz yazanı da müəllifin özüdür. Tam sərbəstlik şəraitindən sui-istifadə edərək R.Hüseynov Mir Cəfər Bağırovun şəxsiyyəti ilə bağlı yalan və uydurma dolu yazılarını da kitaba daxil etmişdir. Bəzilərini nəzərdən keçirək.

Rəfael Hüseynovun «Millətin zərrəsi» kitabının qəhrəmanlarından biri olan Xədicə xanım Qayıbova Azərbaycan oxucularına bu əsər çıxmamışdan çox-çox əvvəllər tanış idi. Azərbaycan Sovet Ensiklopediyasının 1979-cu ildə nəşr edilmiş üçüncü cildində onun haqqında ayrıca məqalə verilmişdir. Məqalədə deyildiyi kimi, Qayıbova Xədicə Osman qızı 1893-cü il may ayının 24-də Tiflisdə anadan olmuşdur. İlk azərbaycanlı pianoçu qadınlardan biridir. Tiflisdə «Müqəddəs Nina» qız məktəbində oxumuş, fortepiano üzrə xüsusi kurs almışdır.

Xədicə Qayıbova musiqi təhsili sisteminin yaradılmasında yaxından iştirak etmişdir. 1920-ci ildə onun rəhbərliyi ilə Bakıda «Qısa müddətli Şərq musiqisi kursları» fəaliyyət göstərmişdir. Azərbaycan muğamlarının fortepianoda ilk ifaçılarındandır. Onun repertuarında həmçinin Qərb və rus bəstəkarlarının əsərləri vardı.

SSRİ Xalq Daxili İşlər Komissarının operativ əmri əsasında 1937-ci il avqustun 5-dən başlayaraq keçirilən cəza tədbirləri Xədicə xanımın da həyatına son qoymuşdur.

Xüsusi «üçlük» 1938-ci il oktyabr ayının 19-da Qayıbova Xədicə xanım Osman qızının Türkiyə konsulxanası ilə əlaqəsinə və casusluq fəaliyyətinə görə güllələnməsi haqda qərar çıxarmışdı. 1956-cı il fevralın 29-da Qayıbova Xədicə xanımın qızı Alanqu anasının işinin xətmi və onun təmiz bəraəti barədə arayış almışdır.

1993-cü ildə «Azərnəşr» Ziya Bünyadovun «Qırmızı terror» kitabını kütləvi tirajla nəşr etmişdir. Kitabın Xədicə xanım Qayıbovaya həsr olunmuş səhifələrində onun kəşməkeşli həyatı istintaq materialları, arxiv sənədləri əsasında təsvir edilmişdir.

2001 -ci ildə isə millət vəkili Rəfael Hüseynov 1937-ci ilin amansız «Xüsusi üçlüyünün» mövcud materiallarına xüsusi əlavələr etmişdir» - «Xədicə xanım və Mir Cəfər dastanı» yaratmışdır:

«İblis sevə bilərmi?

Şeytanın balası olurmu?

İblisin, şeytanın övladı məhəbbətdənmi doğur, ya bu da alış-veriş, dünyadakı rəzalət qüvvəsinin sayını tükətmək üçün bir zəruri əməliyyat kimi baş verir?

İlk gənclik illərində Xədicə xanımı izləyən şöhrət, diqqət, sevginin yanındaca sonralar bu qadının məhvinə bais olacaq bir demonik məhəbbət də peyda olmuşdu.

Mir Cəfər Bağırov bənd olmuşdu ona.

Və 20-ci illərin əvvəllərindən başlayan bu eşq «təqibi» hələ 38-də bitməmişdi.

Xədicə xanım Mir Cəfərin sevda təkliflərinə rədd cavabı verərək ərə getmişdi.

Ərini «xalq düşməni» elan edərək tutmuşdular.

Xədicə xanım ikinci dəfə ailə həyatı qurmuşdu. Təqib bitməmişdi»...

Rəfael Hüseynov kitabında «demonik məhəbbətin» canlı səhnələrini də təsvir edir. Sən demə, Bakıya «gözü açılıb-yumulan ilk gəlinciyi» Mir Cəfər Bağırov gətirtdirib Xədicə xanıma təqdim etmişdir. Bu «demonik məhəbbət» nişanəsini sonralar Alanqu xanım əzizləyirmiş...

Uydurulmuş «Xədicə xanım və Mir Cəfər» dastanının «Yeni il gecəsi» fəsli məşhur «Min bir gecə» nağıllarını da kölgədə qoyur. 1932-ci ildə altı yaşı tamam olmuş Alanqu xanım 2001 -ci ilin kitabında otuzuncu illərin nağılçısı kimi çıxış edir. Kitabın 151-ci səhifəsində oxuyuruq: «...1932-ci il bitir, 1933-cü il gəlirmiş. Yeni il gecəsini qeyd edirlərmiş. Dadaş Bünyadzadə, Həmid Sultanov, Ayna Sultanova, Əliheydər Qarayev... daha neçələri ordaymış. Çalıb-çağırır, deyib-gülürlərmiş. Və birdən qapı əvəzinə asılmış palazı aralayaraq Mir Cəfər girir içəri. Təəccüblənirlər. Bağırov məclisə dəvət edilməyibmiş. Amma təbii ki, məclisdəkilərin hamısı onu yaxşı tanıyırdı, yaxşı-pis münasibətləri vardı. Bağırov o vaxt Tiflisdə işləyirmiş. Beriyanın müaviniymiş.

«Təbrik eləməyə gəldim, - deyir. -Xədicə xanım, bu bayram gecəsində sənin nə arzun varsa, söylə, yerinə yetirim».

Ömrü boyu Mir Cəfəri rədd etmiş, amma qeyri-adi bir qadın şıltaqlığıyla sanki nazikdən-nazik ümid yeri də saxlamış Xədicə xanım: «Bənövşəylə moruq istəyirəm»-deyir.

Bağırov bir anlıq susur, məclisdəkiləri bir də zəndlə seyr edir, qəfilcə sifətini zəhmli bir ifadə bürüyür. Hikkəylə: «Mənim haqqımda eşidərsiniz. Hamınıza qan qusduracağam», - deyib çıxır.

Məclisdəkilərin ovqatı ani dəyişsə də, bu qanqaraçılığı ürəklərinə salmırlar. Onların hər biri ictimai həyatda, dövlət işində məqam, nüfuz sahibi şəxslərdilər. Cavan olsalar da, xeyli irəli getmişdilər və Mir Cəfərin qeyzli barmaq tərpətməsi onlara gülməli görünürdü.

Bağırova illərlə sədaqətlə qulluq edən bir mavr varmış. Bir neçə saat sonra o gəlir. Balaca bir zənbil, qəşəng bir mücrü gətirir.

«Xədicə xanım, bunlar sizə çatacaq, Ağa göndərdi».

Mat qalırlar.

Səbətdəki moruq, mücrüdəki balaca bir bənövşə dəstəsi idi.

İlin-günün bu çağında, dekabrın bitəcəyində hardan tapdırmışdı Bağırov bunları?!

Bu yadda qalır, amma Bağırovun hədəsi o gecənin qəhqəhələri, sevincləri axarında qeyri-ciddi söz kimi unudulur.

Amma o söz xeyli sonralar yadlarına düşəcək.

Həqiqətən Bağırov vəd etdiyi kimi onların hər birinə qan qusduracaq». Sevdiyi «Xədicə xanım Qayıbovaya da...»

1932-ci ildə «gözü açılıb-yumulan gəlinciklə» oynayan altı yaşlı qız uşağı nə biləydi ki, Mir Cəfər Bağırov heç zaman Beriyanın müavini olmamışdır və həmin vaxt Tiflisdə deyil, Bakıda işləyirdi.

Azərbaycan SSR Xalq Komissarları Sovetinin sədri Yeni il gecəsini öz ailəsi ilə birlikdə keçirmişdi. Süfrə başında bacısı Seyidfatma da vardı. Təyyarəçi olacaq böyük oğlu on üç yaşında, alim yaranacaq sonbeşiyi dörd aylıq idi...

Rəfael Hüseynov yüksək əxlaq sahibi Mir Cəfər Bağırovun özündən üç yaş böyük olan Xədicə xanımla eşq macəralarından dəm vurur, həm də qırx iki yaşlı M.C.Bağırovu qocalmış Məşədi İbad timsalında göstərir! «1938-ci ildə Xədicə xanımın gəncliyi artıq arxada idi. 45 yaşı vardı.

Bağırovun Xədicəni izləməklə yenə cavanlıq illərindəki kimi məhəbbət ehtiyacını ovutmaq arzusunda olduğunu düşünmək bəlkə də düz olmazdı.

Artıq o özü də gənc deyildi. Bağırovunku daha çox «manyakal bir təqib» idi.»

Bu «manyakal bir təqib» 1938-ci il oktyabrın 19-da faciə ilə nəticələnir. Uydurulmuş «Xədicə xanım və Mir Cəfər» dastanı belə bitir: «...Xədicəni «qəhrəman aşiq» özü güllələyib... Tüpürüb Xədicə xanım onun sifətinə. Və məkrli kavaler atəş açıb...».

* * *

Millət vəkili bütün milli əxlaq çərçivəsindən kənara çıxaraq nəinki Mir Cəfər Bağırovun, Mir Cəfər Bağırov zəmanəsinin görkəmli sənət adamlarının da şəxsi həyatına müdaxilə edir... Sən demə, rəhmətlik Lütvəli Abdullayevin rəhmətlik ömür-gün yoldaşı Sevda xanım 1957-ci ilin iyulunda nikah kəsdirib bir yastığa baş qoymamışdan qabaq... ərdə imiş. Rəfael Hüseynov həmin adamın şəklini və haqqında məlumat verir: 1999-cu ilin mart ayının 6-da Moskvada ömrünün 76-cı ilində vəfat etmiş tarix elmləri doktoru, professor Hacımurad İbrahimbəyli. Rusiya Təbiət Elmləri Akademiyasının akademik katibi olmuş mərhum hərb tarixi üzrə onlarla kitabın, yüzlərlə dəyərli elmi məqalənin müəllifi imiş.

Rusiya Təbiət Elmləri Akademiyasının rəhmətlik akademik katibinin cavanlıq illərindəki eşq macəralarını və Sevda xanımla ailə həyatını millət vəkili hansı səbəbə görə qələmə alaraq, iyirmi birinci əsrin seçicilərinə çatdırır? Çünki 1947-ci

ildə Hacımurad İbrahimbəylinin cəzasını «millət qatili» Mir Cəfər Bağırov vermişdi!..

Müəllifin yazdıqlarından oxuculara məlum olur ki, Sevda xanımın Hacımuradla ilk tanışlığı qatarda baş vermişdi. «Məhəbbət əfsanəsi»ndə oxuyuruq: «Kislovodskdan yay istirahətindən qayıdanda bibisi Büllur Sevdanı bir hərbi geyimli cavanla tanış edir: «Hacımurad İbrahimbəyli». Sən demə, o cavan Axalsıxdan bir illik sürgününü başa vuraraq geri qayıdırmış.

Büllur xanım yol boyu Sevdaya Hacımuradın məşhur bir şairin xanımıyla eşq macərasının üstü açılandan sonra şairin qəzəbinə düçar olaraq sürgün edildiyini, bu cavanın anasının Əli bəy Hüseynzadənin bacısı qızı olduğunu danışır.

Görünür, Hacımuradın ilk görüşdən gözü Sevdanı tutur, bir neçə aydan sonra ata-anası hansısa bayramda Xədicə xanımgilə qonaq gəlir, sonra oğlanın Sevdayla bir neçə görüşləri olur, Hacımurad Sevdaya həmin şair arvadı ilə onun haqqında söylənilənlərin böhtan olduğunu israrla and-aman edir...

Lakin Sevdanın Hacımuradla izdivacı qısa sürür - vur-tut 4 ay çəkir. Axşamlardan birində Hacımurad: «Sevda, axı sən mənim keçmişim haqda bir şey bilmirsən. Nə sən soruşmusan, nə mən demişəm. Al, bu açar, o da yazı masamın siyirtməsi. Maraqlandığın suallara orada cavab tapa bilərsən» deyir.

Hacımurad işə gedəndən sonra Sevda siyirtməni açır, çoxlu qız-qadın şəkilləri və məktublar yerə töküləndə, «şair arvadının arxası yazılı fotosu, atəşin məktubları» bunların arasından çıxır. Müəllif Sevdanın düşüncələrini belə ifadə edir: «Hər şeyə bəlkə də «keçmiş olsun» deyərdim. Amma şair xalqın namusu sayılır. Hacımuradın onun ailəsinə münasibətini bağışlamaq mənim üçün mümkünsüz qədər ağırdı. Axı mənə and içmişdi ki, bu olmayıb.

Axşam Hacımurada dedim ki, bunlar səninçün əzizdirsə, saxla, nahaq yerə mənə göstərirsən. Bunların səninçün əhəmiyyəti yoxdursa, gərək mənə qədər ləğv edəydin.

Sidqim tamam sıyrıldı ondan. 1-2 həftəlik tərəddüdlərdən, ağır düşüncələrdən sonra hiss etdim ki, bu adamla bir tavan altında yaşamağım çətin olacaq».

Mir Cəfər Bağırovun «millət qatili» olduğunu sübut etmək üçün dəridən-qabıqdan çıxan müəllif Hacımurad İbrahimbəylinin masasının siyirtməsindən «şair arvadının arxası yazılı fotosunu» çıxarmaqla nə demək istəyir? Nə yaxşı ki, Azərbaycan Respublikası Siyasi Partiyalar və İctimai Hərəkatlar Mərkəzi Dövlət Arxivində saxlanılan bir sənəd 1947-ci ildən indiyədək necə var, eləcə də qalmışdır. Bu sənəd Rəfael Hüseynovun Səməd Vurğunun ailəsi haqqında yaydığı bütün uydurma və böhtanları alt-üst edir. Aydın olur ki, Mir Cəfər Bağırov Hacımurad İbrahimbəylini haqlı olaraq Azərbaycandan sürgün etmişdir: sevimli şairin ailə namusuna toxunanın ən yüngül cəzası budur!

**1947-ci il dekabrın 24-də Mir Cəfər Bağırovun adına Gürcüstanın Axalsıx şəhərindən qvardiya leytenantı Hacımurad Hacağa oğlu İbrahimbəylinin göndərdiyi məktubda deyilir:**

**«Əziz Bağırov yoldaş!**

Mən 1924-cü ildə Bakı şəhərində anadan olmuşam, azərbaycanlıyam.

Müharibə illərində Vətənimizin xoşbəxtliyi naminə ləyaqətlə xidmət etmişəm. Atam 1945-ci il iyulun 13-də vəfat etmişdir (Rəfael Hüseynov 1945-ci ildə dünyasını dəyişmiş atanı 1948-ci ildə məzardan çıxarıb elçiliyə göndərir-T.Q.). Anam ikinci qrup əlildir, nişanlım var.

1947-ci il oktyabr ayının ortalarında Bakıda Opera teatrında fasilə zamanı təsadüfən şair Səməd Vurğunun arvadı vətəndaş Xavər Mirzəbəyova ilə tanış olmuşam. O, mənim harada və hansı vəzifədə işləməyimlə maraqlanmış, ev və xidməti telefon nömrələrimi götürmüşdür. Bir ay müddətində bir-birimizə zəng vurmuşuq, görüşlərimiz mədəni qaydada və əxlaq normaları pozulmadan keçmişdir. Əziz Bağırov yoldaş!

Mən doyüşdə iki dəfə - Şimali Qafqazda və 3-cü Ukrayna cəbhəsində ayaqlarımdan yaralanmışam. Üçüncü Dərəcə Şərəf ordeni ilə, həmçinin «Qafqazın Müdafiəsi üçün», «Budapeştin azad edilməsində iştirakına görə» və «Almaniya üzərində qələbəyə görə» medalları ilə təltif olunmuşam. Macarıstanın Balaton gölü rayonunda almanların tank qrupunun darmadağın edilməsində qəhrəmanlığa görə Ali Baş Komandan Stalin yoldaş tərəfindən Təşəkkür almışam.

Bütün bunları və səhvimi başa düşdüyümü nəzərə alaraq, Sizdən öz atam kimi xahiş edirəm ki, mənim Bakıda yaşayıb-işləməyimə icazə verəsiniz.

**Hörmətlə: Qvardiya leytenantı İbrahimbəyli.**

Mir Cəfər Bağırov xalqımızın nadir istedad sahiblərinin ailə həyatını dedi-qodulara hədəf edənlərin cəzasını vaxtında vermiş, yersiz söz-söhbətlərin yayılmasının kökünü kəsmişdir. Mir Cəfər Bağırovu «millət qatili» adlandıran millət vəkili isə əlli beş ildən sonra ağbirçəklərimizi hörmətdən salaraq, küpəgirən qarıların uydurmalarını kitab səhifəsinə çıxarır.

Mir Cəfər Bağırovun «cəlladlıq» fəaliyyətini «məharətlə və hərtərəfli» araşdırdıqdan sonra R.Hüseynov bir təklif də irəli sürür: M.C.Bağırov psixoloji ekspertizadan da keçirilməlidir. Müəllif yazır: «Hakimiyyətin ən uca kürsüsünə gəlib yetmiş, xüsusi qəddarlığı ilə seçilmiş bu qəbil insanların yalnız tarixi baxımdan deyil, psixoloji nöqteyi-nəzərdən də araşdırılması vacibdir. Ömür yolları diqqətlə izlənərkən belələrinin natamamlıq kompleksindən hansısa psixi çatışmazlıqdan, uşaqlıq, gənclik illərindən başlayaraq onları qarabaqara güdən hansısa güclü ruhi sarsıntıdan əziyyət çəkdikləri üzə çıxır. Ruhi təminolunmazlıq onları zalımlaşdırır, zəhərlərini başqalarının üstünə tökməyə sövq edir».

Maraqlıdır ki, R.Hüseynovun bu təklifi həyata keçirilmişdir. Ancaq nəticələri M.C.Bağırovun xeyrinə olmuşdur.

Söhbət həkim-psixoloq Adıgözəl Məmmədovun Bakıda 2000-ci ildə buraxılmış «Siyasi şəxsiyyətlərin psixoloji portretləri» kitabından gedir. Kitabın müəllifi millət vəkili seçilməsə də, dünyanın bir çox ölkəsində tanınır. Almaniyada, Yaponiyada, Səudiyyə Ərəbistanında və Rusiyada silsilə elmi məqalələrlə çıxış etmişdir. A.Məmmədov kitabının giriş hissəsində yazır: «Artıq beş ildi ki, bu fikir beynimdə dolaşırdı - böyük siyasi liderlərin psixologiyası adi insanların düşüncə tərzindən fərqlənirmi? Bu bir Allah vergisidirmi, yaxud qismətdirmi, alın yazısıdırmı? Bütün bunları araşdırmaq mürəkkəb olduğundan uzun bir vaxt apardı. Bu problemi həll etmək spektral yanaşmağı tələb edirdi. Belə ki, bu problemə fəlsəfi, psixoloji, teoloji, fizioloji, antropoloji və tarixi şəraitin yaratdığı mühitin geosiyasi məntiqi ilə yanaşılmalıdır».

Adıgözəl Məmmədov Mir Cəfər Bağırovu sanqviniklər tipinə aid edir. Belə nadir şəxsiyyətlər diribaşlığı ilə fərqlənirlər. Beləlri müvazinətli mütəhərrik sinir sisteminə malikdir. Başqa sözlə desək, Mir Cəfər Bağırovu «güclü ruhi sarsıntıdan əziyyət çəkən» və «zəhərlərini başqalarının üstünə tökən» insan tipinə aid etməklə millət vəkili Rəfael Hüseynov yanlışlığa yol verir. Onun Mir Cəfər Bağırova yapmaq istədiyi tipik xüsusiyyətlər Adıgözəl Məmmədovun kitabında xoleriklər qrupuna şamil edilir, yəni hövsələsiz tiplərdir.

M.C.Bağırov kimdir? Bu suala həkim-psixoloq belə cavab verir: «Artıq 1923-cü ildən Azərbaycan siyasi idarəsinin rəisi seçilən Mir Cəfər Abbas oğlu Bağırov millətin tarixi həyatında öz yerini təyin etməyə başladı. Tarixi şərait Azərbaycanı Sovetlər İttifaqı tərkibində olmağa məcbur etdi. Bu, tarixin geosiyasi maraqlarından irəli gəlirdi. İndiyə qədər mətbuatda bu dövr birtərəfli xarakter daşıyır. Bu cür yanaşmaya heç cür haqq qazandırmaq olmaz».

Tədqiqatçı alim-psixoloq göstərir ki, Mir Cəfər Bağırovun bir şəxsiyyət kimi səciyyəvi xüsusiyyətləri ilə siyasi və dövlət fəaliyyəti arasında bütövlük mövcuddur. Onun təbiətcə diribaşlığı və zirəkliyi, cəldliyi, tez münasibətə girməyi, işgüzarlığı, hadisələrə operativ yanaşmağı və sadəliyi, hər gün işə piyada getməyi və şəhərdə sərbəst gəzməyi bütün cəmiyyətə sirayət edirdi.»

Mir Cəfər Bağırov öz xalqının mərd oğlu və rəhbəri idi. Bəzən Kremldə oturanların icazəsi olmadan da mərdi-mərdanə çıxış edirdi. Mir Cəfər Bağırov Cənubi Azərbaycan hərəkatı süquta uğrayandan sonra da, İranda yaşayan azərbaycanlıların hüquqlarının müdafiəçisi olduğunu açıq-aşkar xitabət kürsüsündən bildirirdi. Mir Cəfər Bağırovun 1950-ci ildə söylədiyi aşağıdakı sözləri sonralar heç bir Azərbaycan rəhbəri cəsarətə gəlib təkrar səsləndirməmişdir. Elə indinin özündə də: «Azərbaycan xarici işğalçıların dəfələrlə işğalına məruz qalmışdır. Azərbaycanı işğal edənlər qılınc gücünə öz dillərini bu xalqa aşılamaq istəmişlər. Buna baxmayaraq Azərbaycan xalqı öz milli mədəniyyətini, ana dilini qoruyub-saxlamış və öz ana dilində incəsənət və ədəbiyyat inciləri yaratmışdır.

Ancaq bu gün İranda olan mürtəce qüvvələr Cənubi Azərbaycanda güclü təqiblərlə Azərbaycan dilini məhv etmək istəyirlər. Azərbaycan dilində oxumaq və təhsil almaq qadağan edilmişdir».

M.C.Bağırov üçün Cənubi Azərbaycan da Şimali Azərbaycan qədər doğma olmuşdur. Məhz buna görədir ki, həmin mövzuda bədii əsər yazanları, o cümlədən «Gələcək gün» romanının müəllifi Mirzə İbrahimovu və «İki sahil» şeirlər kitabına görə Süleyman Rüstəmi Stalin mükafatına təqdim etmişdi.

Bu gün M.C.Bağırova «millət qatili» deyənlər Bakıda Mahmudəli Çöhrəqanlının pişvazına çıxmır, dünya azərbaycanlılarının məclisinə cənublu qardaşlarımızı dəvət etmir, Təbrizdən yan ötüb, Tehranda «mürtəce qüvvələr»in görüşünə gedirlər.

* * *

Akademik Fuad Qasımzadənin «Şəxsiyyət haqqında düşüncələr» məqaləsi «Respublika» qəzetinin 22-23 avqust 2001-ci il tarixli saylarında dərc olunmuşdur. Bir il keçsə də, bəzi məqamları öz aktuallığını itirməmişdir. Hörmətli akademik yazır: «Hər bir ölkənin başçısı, dövlət rəhbərləri özlərindən əvvəlkilərin fəaliyyətini nəzərə almalı, onlara hörmətlə, ehtiramla, diqqətlə yanaşmalı, varislik prinsiplərinə ciddi əməl etməli, tarixi düzgün qiymətləndirməyi bacarmalıdır... Sivil ölkələrin, Qərb dünyasının bir çox rəhbərləri, görkəmli siyasi xadimləri buna ciddi əməl edir, sələfləri barədə hörmətlə danışır, varislik prinsipini unutmurlar.

Totalitar sovet rejimi isə buna əməl eləmədi... Xruşşov özü nadan, naşı olduğu halda, Stalini hər vəchlə pislədi, onun heç nəyə qabil olmadığını, tamamilə bacarıqsız bir adam olduğunu söylədi... Siyasət sahəsinin, dövlətçilik sahəsinin də öz ulduzları var Onlarla, yüzlərlə zaman-zaman bir-birlərini əvəz edən siyasətçilərin, dövlət başçılarının, rəhbər vəzifə tutan məmurların çox az bir hissəsi bu sahədə ulduz ola bilir».

Dünən Stalinə lənət yağdıran xruşşovları bu gün, təəssüf ki, Azərbaycanda M.C.Bağırovu Azərbaycan tarixindən tamamilə silmək istəyənlər əvəz edirlər. Onların arasında Azərbaycan Yazıçılar Birliyinin üzvləri olanlar da vardır. Məsələn, Azərbaycan TV-də «Repressiya qurbanları» silsilə verilişlərinin aparıcısı Rəhman Babaxanlı «Ədəbiyyat qəzeti»nin 2002-ci il 11 oktyabr tarixli sayında dərc olunmuş «Güllə anı» məqaləsində iyirminci yüzillik haqqında bu hökmü çıxarır: «XX əsr Azərbaycan yaddaşında öz adındakı 20 ədədinin 5 mislilə əbədiləşdi:

1.20-ci ildə rus bolşevik ordusunun müstəqil Azərbaycan dövlətini devirməsi;

2.M.C.Bağırovun 20 illik (1933-1953) qırmızı terror rejimi;

3.20 Yanvar faciəsi;

4.Torpaqlarımızın 20faizindən artığının işğalı».

Yəqin ki, gələcəkdə elə bir telejurnalist də yaranacaq və R.Babaxanlının əksinə olaraq «20 illiyin» həqiqi mənzərəsini ekrana gətirəcəkdir. O zaman

tamaşaçılar görəcəklər ki, M.C.Bağırovun Azərbaycana rəhbərliyi dövrünün hər ili, hər ayı, hər günü «qırmızı terror rejimi»nə qarşı çevrilmiş canlı tariximizdir.

M.C.Bağırov «20 illiyi»nin qısaca salnaməsi ilə tanış olun:

**1933-cü il** - Neft Bakısı Azərbaycanın ilk azərbaycanlı rəhbərinin hakimiyyətə gəlməsini alqışlamışdı - Lökbatanda neft quyusu fontan vurmuşdu.

**1934-cü il** - Yanvar ayının 1-də «Ədəbiyyat qəzeti»nin ilk sayı çapdan çıxmışdır. Qəzetin ilk nüsxəsinin ilk oxucusu M.C.Bağırov olmuşdur. 68 il keçdikdən sonra «Ədəbiyyat qəzeti» 3322-ci sayında ilk dəfə olaraq, «M.C.Bağırovun 20 illik (1933-1953) qırmızı terror rejimi» ifadəsi işlədilmişdir.

**1935-ci il** - Azərbaycan SSR Lenin ordeni ilə təltif edilmişdir. Ordenli respublikanın bir çox sənət adamları da bu yüksək mükafata layiq görülmüşlər. M.C.Bağırovun təqdimatı ilə mükafatlandırılanların heç birisi Azərbaycan rəhbərinə mədhiyyə yazmamışdır.

**1936-cı il** - ZSFSR ləğv edilmişdir, Azərbaycan SSR bilavasitə SSRİ tərkibinə daxil olmuşdur. M.C.Bağırov fürsətdən istifadə edərək, Azərbaycanın müstəqil milli dövlətçilik ənənələrini inkişaf etdirmişdir. Keçmiş müsavatçıları müxtəlif vəzifələrə irəli çəkmişdir.

**1937-ci il** - SSRİ Xalq Daxili İşlər Komissarının 5 avqust tarixli əmri əsasında başlanan kütləvi cəza tədbirləri nəticəsində Moskva üçlüyünün hökmü ilə yüzlərlə ziyalılarımız məhv edildi. Mikoyanın gizli tapşırığı ilə Azərbaycana yoxlamaya gəlmiş SSRİ XDİK-nin müavini Litvinin arayışında Azərbaycanda millətçilərin və nərimanovçuların M.C.Bağırov tərəfindən bilavasitə müdafiə edilməsi faktları əksini tapdı. M.C.Bağırovun Stalinə göndərdiyi məxfi teleqramdan sonra Litvin geri çağırıldı və bir ildən sonra Yejovla birlikdə güllələndi.

M.C.Bağırovun «37»-dən xilas etdiyi Ü.Hacıbəyovun «Koroğlu» operasının ilk tamaşası oldu. Operanın uvertürası milli himnimiz kimi səsləndi. Üzeyir sənətinin pərəstişkarı olan M.C.Bağırovun təklifi ilə teatr mövsümü hər il «Koroğlu» ilə açıldı. Bu, son illərədək davam etdi. Sonra isə «Arşın mal alan» «Koroğlu»nu səhnədən yerə düşürdü...

**1938-ci il** - Moskvada Azərbaycan incəsənəti ongünlüyü misilsiz uğurla başa çatdı. Ongünlük tədbirlərində M.C.Bağırov iştirak etmişdir. Xatirələrdən, kino lentlərindən onun adını çıxarmaq mümkün deyildir.

Həmin ilin aprelində Azərbaycan Dövlət Musiqili Komediya Teatrı yaradılmışdır.

**1939-cu il** - Azərbaycan K(b)P-nin on beşinci qurultayında M.C.Bağırov məruzə etmişdir. O, üçüncü beşillik planda Azərbaycanda inşa ediləcək obyektlərin əhəmiyyətindən geniş danışmışdır.

M.C.Bağırovun böyük oğlu Cahangir Hərbi-Dəniz Təyyarə məktəbinə daxil olmuşdur.

**1940-cı il** - İlk Azərbaycan baleti olan «Qız qalası»nın ilk tamaşası keçirilmişdir.

Ələt-Culfa dəmir yolunun çəkilişi başa çatdırılmışdır.

Samur-Dəvəçi kanalının birinci növbəsi istifadəyə verilmişdir.

Moskvada Azərbaycan ədəbiyyatı ongünlüyü keçirilmişdir.

**1941-1945-ci illər** - Mir Cəfər Bağırov ikinci dünya müharibəsi illərində böyük oğlu Cahangiri əbədilik itirsə də, Azərbaycanı onun bütün düşmənlərindən, ilk növbədə daşnakların caynağından xilas etmişdir.

Almaniyada Azərbaycan türklərindən ibarət legionların olması Stalinə yaxşı bəlli idi. Azərbaycanlıların da türk olduğunu hamı bilirdi. Elə M.C.Bağırovun pasportunda 1937-ci ilədək «milləti türkdür» yazılmışdır.

Yaranmış vəziyyətdən istifadə edərək Anastas Mikoyan dünya ermənilərinin istəyini həyata keçirmək üçün Stalin qarşısında məsələ qaldırdı: azərbaycanlılar Azərbaycandan dərhal köçürülməlidir ki, almanlar Türkiyədən SSRİ-yə qarşı müharibəyə başlasalar, cənub sərhədləri möhkəmləndirilmiş olsun. Stalinin «saqqızını oğurlayan» Mikoyan azərbaycanlıların köçürülməsi məsələsinin Siyasi Büroya çıxarılmasına nail olur. Lavrenti Beriya M.C.Bağırovla dostluğa sadiq qalaraq, zəng vurub, məsələdən onu hali edir.

M.C.Bağırov Moskvada Stalinlə təkbətək görüşür və... Mikoyanın arzusu gözündə qalır.

Müharibə illərində dönməz əsgər, şəhid atası, millətini «qırmızı terrorun» pəncəsindən alan sərkərdə, fövqəladə hallarda Azərbaycan üçün həmişə xilaskar olan insan -Mir Cəfər Bağırov!

**1945-ci il** - Azərbaycan Teatr İnstitutunun yaradılması.

Azərbaycan Elmlər Akademiyasının təsis edilməsi.

Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyinin açılması.

**1946-cı il** - Daşkəsən şəhərinin əsasının qoyulması.

**1947-ci il** - Mingəçevir SES tikintisinin sürətləndirilməsi üçün M.C.Bağırov tərəfindən Moskva qarşısında təkliflərin irəli sürülməsi.

**1948-ci il** - Mingəçevir şəhərinin əsasının qoyulması.

Neft daşları yatağının istifadəyə verilməsi.

Azərbaycan Dövlət Dəniz, Neft Qurğularının Layihələşdirilməsi İnstitutunun yaradılması.

**1949-cu il** - Bakı metropoliteninin tikintisinə başlanılması.

Sumqayıt şəhərinin əsasının qoyulması.

**1950-ci il** - Azərbaycan Politexnik İnstitutunun təşkili.

Moskvada Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyü.

**1951-ci il** - Naxçıvanda sənaye əhəmiyyətli yeni duz mədəninin istifadəyə verilməsi.

Qaradağ sement zavodunun işə salınması.

**1952-ci il** - Mingəçevir su anbarı tikintisinin başa çatdırılması.

SSRİ-nin heç bir şəhərində müharibədən sonra Bakıdakı qədər tikinti işləri aparılmamışdır. M.C.Bağırovun Moskva qarşısında, şəxsən Stalin qarşısında

qaldırdığı məsələlərdən biri də bundan ibarət olmuşdur ki, alman əsirlərinin bir hissəsi Azərbaycanda yeriəşdirilsin və inşaat işlərinə cəlb olunsun. Bunun nəticəsidir ki, ittifaq büdcəsindən respublikamıza ayrılan maliyyə vəsaiti sayəsində paytaxtımızda milli memarlıq ənənələri saxlanılmaqla möhtəşəm binalar ucaldıldı. Şəhərimizin əzəmət və gözəlliyini saxlayan bu tikililərin bəzilərini xatırlatmaq yerinə düşər: Hökumət Evi, Respublika Stadionu, Şəhriyar adına klub,- Elmlər Akademiyasının yeni binası, M.F.Axundov adına Respublika Dövlət Kitabxanası, Daxili İşlər Nazirliyinin binası, indiki İstiqlal (keçmiş Lenin) muzeyinin binası, Azərbaycan Dövlət Dram Teatrının binası, Politexnik İnstitutunun tədris korpusu, Alimlər evi, «Buzovnaneft» işçilərinin yaşayış binası və s...

Azərbaycanın gələcəyi naminə M.C.Bağırovun iyirmi il ərzində yüz illərin çərçivəsinə sığmaz əməllərinin üstündən xətt çəkmək olarmı?

Mir Cəfər Bağırov dövründə Azərbaycan KP MK-nın ikinci katibi vəzifəsində işləmiş Həsən Seyidov «Press-fakt» qəzetinin 1997-ci il 14-20 mart tarixli sayında belə yazırdı: «Bu gün şərəfli adını böhtan və ləkələrdən təmizləməyə böyük ehtiyac olan M.C.Bağırov xalqını, Vətənini sevən, onun rifahına çalışan zəhmətkeş insan idi. Zaman gələcək, bu həqiqətlər öz yerini alacaq.»

Həmin zaman gəlmişdir və inkaredilməz həqiqətlər Mir Cəfər Bağırov haqqında illər uzunu uydurulmuş bütün yalanları alt-üst etməkdədir.

## KİTABIN İÇİNDƏKİLƏR

Ön söz əvəzi *(Qılman İlkin)*
Düşmənlərindən güclü şəxsiyyət
Bağırov körpüsü
Mir Cəfər Bağırov fenomeninin saxtalaşdırılması davam edir
Azərbaycanda ermənilər
Mir Cəfər Bağırov dövründə və sonralar
Marietta Şaginyanın əlyazmasına
Mir Cəfər Bağırovun münasibəti və
Nağıl həqiqət deyil
Hökm çıxarırsan, dəlilin hanı?
Bakı metrosu Mir Cəfər Bağırovun adı ilə bağlıdır
«Arsax sıyığı» statusa malikdir
Ərəb əlifbası ilə yazılmış məktubda M. C. Bağırovun dərkənarı
Mir Cəfər Bağırovun varidatı
Mir Cəfər Bağırov arxiv sənədlərində
Kələfin ucu necə açılır
Mir Cəfər Bağırov: Yalan və həqiqətlər.

# Teyyub Qurban
# Düşmənlərindən güclü şəxsiyyət

*BAKI- ŞİRVANNƏŞR - 2006*

Kompüter icraçıst **Əfsanə Teymurlu**
İstehsalat müdiri **Nərmin İsabəyli**
Sex müdiri **Günel Cəfərli**
Çapçı **Rüxsarə Hüseynli**
Baş mühasib **Həliınə Qasımlı**
Cildçi **A. Səlbi**
Ofset üzrə çapçı **Fariq Tofiqoğlu**

Çapa imzalanıb **05.04.2006**
Formatı **60x841/16**
Fiziki çap vərəqi **36,5**
Sayı **200**